#1 NEW YORK TIMES BESTSELLER

ELİZABET GİLBERT

«Nikah»ın müəllifi

"New York Times" tövsiyə etdiyi kitab

Ye dua et Sev

"Mənəvi fikirlərlə zəngin olan, dahiyanə, bir qədər şəxsi və mühtəşəm bir kitabdır"

—ANNE LAMOTT

Bir İnsanın axtarışında İtaliya, Hindistan və İndoneziyada səyahətdə olan qadının həyatından bir il

Gilbert Elizabet

YE, DUA ET, SEV

downloaded from KitabYurdu.org

12 mil məsafədən dəstək olan Synzan Boven üçün
“Düzünü de, düzünü de, düzünü de!”
Şeri Luis Moller

GİRİŞ

və ya

Bu kitab necə işləyir

və ya

109-cu muncuq

Hindistanda səyahət edərkən hər yerdə - xüsusilə də müqəddəs yerlər və Aşramlardaı boyunlarına boyunbağılar taxan insanlar diqqəti cəlb edir. Həmçinin çılpaq, arıq, insanı vahiməyə salan (bəzən isə hətta dolubədənli, mehriban görkəmli və nur üzlü) yoqlann da bu cür boyunbağılarla çəkilmiş şəkillərini hər yerdə görmək olar. Muncuqdan düzəldilən bu boyunbağılar “capa mala” adlanır. Hindistanda onlardan həyatını inanclarına həsr etmiş hinduist və buddistlər dini metidasiyalar zamanı əsrlərdir ki, fikri cəmləşdirmək məqsədilə istifadə edirlər. Boyunbağı bir əldə tutulur və müəyyən istiqamət üzrə dairə şəklində bir-bir muncuqlar geriyə ötürülür. Hər dövrə ərzində bir mantra başa çatmalıdır. Orta əsrlərdə xaç yürüşləri zamanı Şərqə hücum edən səlibçilər hinduist və buddistlərin capa mala ilə necə ibadət etdiklərini görüb heyran qalırlar. Bu

downloaded from KitabYurdu.org

onlann çox xoşuna gəlir və capa malanı “təsbeh” adıyla Avropaya gətirirlər.

Ənənəvi capa mala 108 muncuqdan ibarətdir. Şərq filosofları bu rəqəmi uğurlu hesab edirlər, çünki 108 ədədi üçrəqəmlidir, rəqəmləri cəmi isə 9-a bərabərdir. Bu isə 3-ün 3 misli deməkdir. 3 rəqəmi isə müqəddəs üçlüyə əsasən “ali balans”ı təmsil edir. Bu kitab da mənim həmin balansı tapmaq cəhdimin nəticəsi olduğuna görə onu capa mala kimi 108 hekayəyə və ya muncuğa bölmüşəm. Bu 108 hekayə 1 il ərzində özümü tapmaq məqsədilə üz tutduğum 3 ölkə - İtaliya, Hindistan və İndoneziyadan bəhs edən 3 bölmədən ibarətdir. Hər bölmədə 36 hekayə var. Bu rəqəmin isə mənim üçün xüsusi, şəxsi əhəmiyyəti var, çünki bütün bunlan 36 yaşımda qələmə almışam.

Bu nömrələmə məsələsində Luis Fəraxanaş oxşamadan öncə qeyd etməliyəm ki, hekayələrimi capa mala şəklində sistemləşdirmək ideyası çox xoşuma gəlir, çünki bu nizamlı və səliqəli alınır. Səmimi, mənəvi tədqiqat ciddi metodiki intizamın və səyin nəticəsidir. Həqiqət axtanşı heç də hamıya açıq bir sahə deyil. Bu ancaq müəyyən kamillik sə viyyəsinə çatanlar üçündür. Axtarışda olan şəxs və bir yazıçı kimi həmin Muncuqların nə qədər faydalı olduğunun şahidi oldum və fikrimi cəmləmək üçün onlardan istifadə edirəm.

downloaded from KitabYurdu.org

Hələ bu da hamısı deyil. Hər bir capa malanın əlavə xüsusi bir muncuğu - 109-cu muncuğu olur. Həmin muncuq dairənin birləşdiyi yerdən kənarda qalır və boyunbağı kulonunu xatırladır. Əvvəllər həmin muncuğu köynəyə qoyulan əlavə düymə və ya çoxuşaqlı kral ailəsinin ən gənc oğlan övladı ilə müqayisə edir və ona "ehtiyat hissəcik" kimi yanaşırdım. Ancaq sonradan burada başqa, daha böyük bir məqsəd olduğunu başa düşdüm. İbadət zamanı barmaqların həmin muncuğa çatanda dərin meditasiyaya fasilə verib müəllimlərinə təşəkkür etməlisən. Mən də hər dəfə 109-cu muncuğa çatanda fasilə verirəm və bir il ərzində bir çox maraqlı, çətin sınaqlarda yanımda olan müəllimlərimə təşəkkür edirəm.

Xüsusilə də Hindistanda, öz aşrammda təlim görməyim üçün mənə icazə verən mərhəmətli, rəhmli qurumaq təşəkkür edirəm. Bu qadın insanlığın mücəssəməsidir. Həmçinin vurğulamalıyam ki, Hindistan təcrübələrim barədə kiminsə rəsmi məruzəçisi və ya ilahiyyatçı kimi yox, sırf şəxsi nöqteyi-
nəzərimdən yazıram. Sevimli qurumun adını kitabda çəkməməyimin səbəbi də elə budur, çünki onun adından danışa bilmərəm. Onun təlimləri özlərini ən yaxşı formada ifadə etməyə qadirdir. Kitabda onun aşrammm

downloaded from KitabYurdu.org

nə adını, nə də harada yerləşdiyini dəqiq göstərməyəcəyəm. Bu misilsiz yerin reklama ehtiyacı yoxdur, çünki maraqlanıb axışan turistlərin öhdəsindən gələ bilməz.

Sonuncu minnətdarlığım: Kitabdakı adların bir çoxu, Hindistanda, aşramda tanış olduğum hindlilərin də, qərblilərin də adları dəyişdirilib. Bunun səbəbi bütün bu mənəvi axtarışlara, ziyarətlərə kitab qəhrəmanı olmaq məqsədilə çıxmayan bu insanlara olan hörmətimdir (Təbii ki, mən istisna olmaqla). Ancaq bu anonimlər arasında bircə ad istisnadır. Texasdan olan Riçardın adı doğrudan da Riçarddır və o, həqiqətən də texaslıdır. Hindistanda olduğum müddətdə o mənim üçün o qədər önəmli idi ki, adını çəkməyə bilməzdim.

Sonda mən Riçarddan kitabda onun əvvəllər sərxoş və narkoman olduğunu qeyd etməyimə icazə verib-vermədiyini soruşanda o razılaşdı və dedi: “Əslində, elə mən də hamının bu
haqda bilməsini istəyir, bu mövzuda duyğularımı ifadə etmək üçün bir yol axtarırdım”.

Ancaq əvvəlcə İtaliya...

İTALİYA

və ya

“Nə yeyirsənsə, osan” və ya

downloaded from KitabYurdu.org

Həzz axtarışı barədə otuz altı hekayə
Kaş ki, Covanni məni öpsəydi...

Lakin bunun qorxunc bir ideya olduğunu sübut edən bir çox səbəblər var. Məndən ıo yaş kiçik olan Covanni otuz yaşma qədər olan əksər italyanlar kimi hələ də anası ilə birlikdə yaşayır. Təkcə bu fakt özü onu mənim gözümdə romantik münasibətlər üçün şübhəli namizədə çevirir. Təbii ki, bir də mənim, yenicə uğursuz bir nikahdan, ardınca ehtirasla başlayıb nifrətlə bitən bir sevgi intriqasından çıxan, qırxa yaxın yaşı olan bir amerikalı peşəkar qadın olduğumu nəzərə alanda bu, qeyri- mümkün görünür. Ard-arda gələn bu itkilər mənə kədər və qüssədən başqa heç nə qazandırmadı və özümü yüzyaşlı qarı kimi hiss eləməyə başladım. Prinsipcə, çəkdiyim əzablan saf və ləkəsiz Covanniyə də yaşatmaq istəməzdim. Bir qadının günlərin bir günü qəhvəyi gözlü bir adamı itirməyin gətirdiyi əzabları unutmaq üçün başqa birisini yataq otağına dəvət etməyin ən yaxşı üsul olduğundan şübhələnəcəyi yaşdaydım. Məhz bu səbəbdən, aylarla tənha qaldım və bütöv bir il boyu heç bir münasibət və nikah barədə düşünmədim.

Bu yerdə hər bir diqqətli oxucu soruşa bilər: “Elə isə nəyə görə İtaliyaya getdin?” Bu suala ancaq masanın qarşısında dayanan yaraşıqlı Covanniyə nəzər salandan

downloaded from KitabYurdu.org

sonra cavab verə bilərəm: “Əla sualdır!”

Covanni mənim “dil yoldaşım”dır. Qəribə səslənsə də, doğrudur. Romada bir neçə həftə ərzində axşamlar görüşüb bir- birimizə dillərimizi öyrədirdik. Əvvəlcə, italyan dili öyrənirdik, o, səbirlə mənə sözləri başa salırdı. Sonra ingilis dilinə keçirdik və mən səbirlə onu öyrədirdim. Covannini Romaya gələndən cəmi bir neçə həftə sonra kəşf etdim. Bunun üçün suyu buynuza üfürən yaninsan, yanbalıq bədənli ilahənin heykəlinin qarşısında yerləşən Piazza Barberinidəki internet kafeyə minnətdaram. O, (söhbət heykəldən yox, Covannidən gedir) elan vermişdi ki, ingilis dilini təkmilləşdirmək məqsədilə, ana dili ingilis dili olan şəxs axtarır. Elanın düz yanında əl ilə yazılmış, mətni tamamilə onunla eyni olan daha bir elan asılmışdı. Fərq, sadəcə, əlaqə məlumatlarında idi. Elanlardan birində Covanni, digərində isə Dario adlı şəxsin elektron poçt ünvanı göstərilmişdi. Amma ev nömrələri də eyni idi. Öz intuisiyamdan yola çıxaraq hər ikisinin elektron ünvanına məktub göndərdim və italyanca soruşdum: “Siz təsadüfən qardaş deyilsiniz ki?” Covanninin yazdığı cavab məni daha da təəccübləndirdi: “Daha da yaxşısı, əkizik!”

Bəli, bu daha yaxşı idi. Ucaboy, iyirmi beş yaşlı, iri, qəhvəyi gözlü əkiz qardaşlar mənim ağlımı başımdan

downloaded from KitabYurdu.org

aldılar. Gənclərlə şəxsən tanış olandan sonra bu il subay qalmaq qəranmı yenidən gözdən keçirməyə başladım. Bəlkə də bir cüt yaraşıqlı, 25 yaşlı italyan oğlanla eşq yaşamaq variantı istisna olmaqla, tamamilə tək qala bilərdim. Bu mənə vegetarian, təkcə donuz əti yediyi halda özünü vegetarian adlandıran bir dostumu xatırlatdı. Beynimdə "Penthouse" üçün məktubun mətnini hazırlayırdım: "Romadakı kafenin divarlarını, yalnız titrəyən şamlar işıqlandırırdı. Ona görə də kimin əllərinin sığalladığını başa düşmək mümkün deyildi..."

Amma yox! Yox, yox!

Fantaziyamı yarımçıq qoydum. Axı mən sevgi macərası ardınca qaçaraq çətin həyatımı daha da mürəkkəbləşdirmək
niyyətində deyildim. Tənhalıqdan yaranan şəfa və sülh axtarışında olan birinin dərmanı yeni bir dərd deyil...

Noyabrın ortalarına qədər utancaq, çalışqan Covanni ilə dostlaşdıq. Darioya gəldikdə isə, qardaşına nisbətən səs-küylü olan bu oğlanı İsveçli rəfiqəm Sofi ilə tanış etdim və onlar axşamları Romada bir yerdə keçirərək xarici dillərini başqa üsullarla "təkmilləşdirməklə" məşğul olurdular. Biz isə Covanni ilə, sadəcə, söhbət edirdik. Hərdən də birlikdə yemək yeyirdik. Bir yerdə keçirdiyimiz o unudulmaz həftələr ərzində bir- birimizlə

downloaded from KitabYurdu.org

dadlı italyan pizzalarım və qrammatik səhvləri bölüşürdük. Bu gecə də istisna deyildi. Maraqlı fikirlər və təzə mozarella ilə bəzənmiş daha bir gecə...

İndi bu dumanlı gecədə Covanni Romanın arxa küçələri ilə, qayalar və sərv ağaclanndan ibarət olan meşələrlə əhatə olunmuş çayın ətəyində yerləşən qədim tikililəri geridə qoyaraq məni qaldığım mənzilə ötürürdü. Qapıya çatdıq. Bir-birimizə baxdıq. O, qısa tərəddüddən sonra məni nəvazişlə qucaqladı.

Bu, böyük bir irəliləyiş idi! İlk həftələrdə sağollaşanda ancaq əlimi sıxırdı. Deməli, 3 il də İtaliyada qalsam, bu cavan oğlanın

məni öpmək ehtimalı var. Amma o elə indicə, burada, qapının ağzında da şirin, məsum öpüşlə məni məftun edə bilər. Hələ də ümidim var. Ay işığının altında bədənlərimizin bir-birinə toxunduğu bu an ən yaxşı fürsət idi. Bu, əlbəttə, qorxunc səhv olacaqdı, ancaq belə fürsəti də əldən buraxmaq olmazdı axı. Yenə də bütün varlığımla bunun baş verməsini dəlicə arzulayırdım. O, sadəcə, azca əyilməlidir... və... və...

Yox...

O məni isti qucağından ayırır.

“Gecən xeyrə qalsın, əziz Liz”, - deyir.

“Buona notte, caro mio”, (İtalyanca: Xeyrə qarşı,

downloaded from KitabYurdu.org

dostum) - cavab verirəm.

Dördüncü mərtəbədəki mənzilimə tək-tənha qalxıram. Özümü birtəhər balaca studiyama salıram. Qapını bağlayıram. Məni Romada daha bir tənha gecə gözləyir... İtalyan dili, danışıq kitabçaları və lüğətlərindən başqa heç nə ilə yatağımı bölüşmədiyim daha bir sonsuz gecə...

Mən təkəm. Yalnızam. Tamamilə tənhayam!

Bu həqiqəti dərk edən an çantam əlimdən yerə düşür. Dizlərimin üstünə çökürəm və alnımı yerə qoyuram. Elə ordaca, bütün kainata çılğın bir istəklə minnətdarlığımı bildirirəm. Əvvəlcə, ingiliscə, sonra italyanca və nəhayət, sanskritcə...

2.

Döşəmədə olduğum o müddət ərzində, bütün bu hekayənin başladığı nöqtəyə - 3 il əvvələ qayıtdığımı hiss edirdim. O vaxt da indiki kimi döşəmədə, dizlərimin üstündə dua etmişdim.

Lakin bunun xaricində 3 il öncəki anla indiki arasında elə bir oxşarlıq yox idi. O vaxt Romadakı studiyamda deyil, Nyu Yorkda, həyat yoldaşımla yenicə aldığımız, şəhərdən bir qədər kənarda yerləşən böyük mənzilin yuxan mərtəbəsindəki vanna otağında diz çökmüşdüm. Soyuq bir qış günü, səhər saat üç radələri idi. Yoldaşım çoxdan yuxuya getmişdi. Mən isə həmişə olduğu kimi

downloaded from KitabYurdu.org

yenə də ondan gizli vanna otağında hönkürtü ilə ağlayırdım. Elə ürəkdən ağlayırdım ki, göz yaşlarımdan gölməçə yaranmışdı və sanki bu gölməçə həmçinin ayıblarım, qorxularım, sıxıntı və dərdlərimlə bərabər bütövlükdə məni əhatə edirdi.

Artıq evli qalmaq istəmirəm.

Bunu nə qədər inkar etməyə çalışsam da, həqiqət təkidlə onu dərk etməyimi istəyirdi.

Artıq onunla evli qalmaq istəmirəm. Bu böyük mənzildə də yaşamaq istəmirəm. Heç uşaq barədə də düşünmürəm.

Lakin övlad sahibi olmaq istəməyim tələb olunurdu. Otuz bir yaşım var idi. Yoldaşımla münasibətimiz başlayan səkkiz il idi ki, bunun da altı ilini evli başa vurmuşduq. Uşaq üçün isə hər ikimiz otuz yaşdan sonranın ən uyğun vaxt olduğu barədə həmfikir idik. İllərlə hər ikimiz səyahətdən, gəzməkdən yorulub şən gülüşləri ətrafa yayılan uşaqlar və əldəqayırma yorğanlar, arxa tərəfində balaca həyəti olan, bacası daim tüstüləyən böyük evimizdə xoşbəxt yaşayacağımız günü gözlədik (Reallıqda isə bu təsvir özümlə heç vaxt müqayisə edə bilməyəcəyim qədər güclü olan və məni böyüdüb tərbiyə edən qadına - anama daha çox uyğun gəlirdi). Əslində bunlardan heç birini istəmədiyimi özümə belə etiraf

downloaded from KitabYurdu.org

etməkdən qorxurdum. Əvəzində isə gənclik illərimi birbir geridə qoyandan sonra ölüm hökmü kimi qəddarlıqla məni haqlayan otuz yaşıma çatanda başa düşdüm ki, uşaq dünyaya gətirmək istəmirəm. Yenə də tezliklə övlad istəyəcəyimə özümü inandırmağa çalışırdım, amma bu baş vermədi. Və əmin olun ki, bir şeyi həqiqətən istəməyin necə bir hiss olduğunu yaxşı bilirəm. Əsl arzunun hansı duyğulan yaşatdığına bələdəm. Təəssüf ki, belə bir istəyim yox idi.

Bundan başqa, bir dəfə bacımın ilk körpəsini əmizdirərkən mənə dediklərini də unuda bilmirdim: "Uşaq dünyaya gətirmək üzünə döymə etdirmək kimi bir şeydir. Ona görə də bunu istədiyinə əmin olmaq üçün yüz ölçüb bir biçməlisən".

Bəs mən necə geri qayıda bilərdim? Axı bizdə hər şey plan üzrə gedirdi. Təyin edilən il gəlib çatmışdı. Artıq bir neçə ay idi ki, uşaq olması üçün inadla cəhd edirdik. Ancaq heç nə baş vermədi (Bu gülünc hamiləlik cəhdləri dövründə psixosomatik səhər əzginliyi xəstəliyini sınaqdan keçirməyim və səhərlər əsəbi halda yeməkdən imtina etməyim xaricində). Hər aym müvafiq günləri heç bir nəticə çıxmadığına əmin olandan sonra vanna otağında gizlicə pıçıldayırdım: Sənə şükürlər olsun Tanrım, şükürlər olsun ki, özüm üçün yaşamağa mənə bir

downloaded from KitabYurdu.org

ay da vaxt verdin...

Özümü bunun normal olduğuna inandırmağa çalışırdım. Yəqin ki, hamilə qalmağa çalışan bütün qadınlar belə hiss edirlər deyə özümə təsəlli verirdim. İnanmaq istəyirdim ki, qorxudan uydurduğum bu yalan da bir “ehtimaFdır. Bütün dəlillərə rəğmən hiss etdiklərimin adi hal olduğuna özümü inandırmağa çalışırdım. Məsələn: Bir həftə əvvəl yenicə hamilə olduğunu öyrənən bir qadınla tanış olmuşdum. İki il sonsuzluğa görə müalicə ediləndən sonra, nəhayət, analığa namizəd olan qadın sanki ekstaz halında idi. O həmişə ana olmaq arzusunda olduğunu deyirdi. İllərdir ki, yoldaşından gizli uşaq paltarlan alıb çarpayının altında gizlətdiyini etiraf etdi. Onun sifəti onsuzda fərəhdən işıqlanmışdı və mən birdən bu hisslərin mənə tanış olduğunu başa düşdüm. Bu, keçən yaz işlədiyim jurnalın məni Yeni Zelandiyaya, nəhəng kalmarlar haqqında tədqiqat aparıb məqalə yazmaq üçün göndərəcəyini eşidəndə simamda yaranan və işıq sürətilə bütün varlığımı bürüyən sevinc hissi idi. Yeni Zelandiyaya göndəriləcəyimi eşidəndə keçirdiyim hissləri yenidən yaşayana qədər, uşaq dünyaya gətirməməyə qərar verdim.

Artıq evli qalmaq istəmirəm.

Gündüzlər inkar etdiyim bu fikir gecələr məni içəridən

downloaded from KitabYurdu.org

didib parçalayırdı. Bu əsl fəlakət idi! Bu fikirlərdən tamamilə yaxa qurtarmaq əvəzinə, onların ailə həyatımın dərinliyinə qədər nüfuz etməsinə icazə verməklə necə də ağılsızlıq edirdim! Evi aldığımız cəmi bir il idi. Doğrudanmı bu gözəl evdə yaşamaq istəmirdim? Onu sevmirdim? Bəs onda nəyə görə gecələr Medeya4 kimi ulaya-ulaya onun dəhlizlərini fırlanırdım? Əldə etdiklərimizlə qürur duyurdum? Hudson Vellidə nüfuzlu malikanə, Manhettanda mənzil, səkkiz müxtəlif telefon xətti, dostlar, gəzintilər, qonaqlıqlar, həftə sonları getdiyimiz qutu şəklindəki sevimli supermarket, kreditlə yeni əşyalar almaq... Bu həyatın ərsəyə gəlməsi üçün apardığımız mübarizədə aktiv iştirakçı idim, elə isə nəyə görə elə düşünürdüm ki, bütün bunlann mənə heç bir dəxli yoxdur? Niyə bütün öhdəliklərim - ailə başçısı, evdar qadın, sosial koordinator, it gəzdirən, həyat yoldaşı, tezliklə ana, hərdənbir boş vaxtlarımda isə yazıçılıq statuslarım məni bu qədər sıxırdı?

Artıq evli qalmağa dözə bilmirəm.

Həyat yoldaşım o biri otaqdakı çarpayıda yatırdı. Onu eyni anda həm sevir, həm də varlığına dözə bilmirdim. Dərdimi danışmaq üçün onu oyatmaq fikrində deyildim. Bu mənə nə qazandıra bilərdi ki? Aylardır ki, pərişan halda olduğumu görür, dəli kimi davranmağıma göz

downloaded from KitabYurdu.org

yumurdu (“Dəli” sözündə həmfikir idik). Mən onu kifayət qədər bezdirmişdim. Hər ikimiz mənim nə isə problemim olduğunu anlayırdıq və onun səbri də yavaş-yavaş tükənirdi. Tez-tez dalaşmaqdan, qışqırmaqdan yorulmuşduq. Uzun illərin ciddi mübahisələrindən, problemlərindən sonra münasibəti bitirmək ərəfəsində olan cütlüklər qədər yorğun idik. Gözlərimiz qaçqınların gözünə oxşayırdı.

Ondan ayrılmaq istəməyimin səbəbləri burada paylaşa bilməyəcəyim qədər şəxsi və kədərlidir. Problemin bir qismi mənimlə əlaqəli olsa da, böyük bir hissəsi onunla bağlı idi. Bu təbiidir. Nikahda həmişə iki tərəf olur - iki səs, iki müxtəlif fikir, öz şəxsi məhdudiyyətləri və arzuları, qərarları olan iki fərqli tərəf iştirak edir. Amma kitabda ərimin səhvlərini müzakirə etmək fikrində deyiləm. Heç kimi hekayəni obyektiv,
qərəzsiz təqdim etdiyimə inandıra bilmərəm. Ona görə də uğursuz nikahımızın xronikası sirr olacaq qalacaq. Həmçinin burada hələ də onun həyat yoldaşı olmaq istədiyimi, onun mükəmməl olduğunu, ona nəyə görə vurulduğumu, evləndiyimi, onsuz yaşaya bilmədiyimi də deməyəcəyəm. Bütün bunlardan danışmayacağam. Həmin gecə onun hələ də mənim üçün eyni anda həm mayak, həm də albatros rolu oynadığını deməklə

downloaded from KitabYurdu.org

kifayətlənəcəyəm. Onu tərk etmək mənasız olsa da, yanında qalmaq daha dözülməz idi. Heç kimin, ya da heç nəyin mənim günahım ucbatından zərər çəkməsini istəmirdim. İstədiyim, sadəcə, qapını çöldən yavaşca bağlamaq, heç bir səs- küy salmadan asta-asta uzaqlaşmaq və Qrenlandiyaya çatana qədər dayanmadan qaçmaq idi.

Bilirəm ki, hekayəmin bu hissəsi o qədər də ürəkaçan deyil. Amma bu haqda danışmalıyam, çünki vanna otağının döşəməsində diz çökdüyüm həmin o anda həyatımın sonrakı gedişatmı dəyişdirən nə isə baş verdi. Planetlərdən birinin diyirlənərək səbəbsiz yerə kosmosdan kənara çıxması, bununla da nüvəsinin, qütblərinin, formasının kəskin dəyişməsi,
nəticədə isə kürə şəklindən uzunsov formaya çevrilməsi kimi inanılmaz, qeyri-mümkün astronomik hadisəyə bənzər bir dəyişiklik. Ya da nə isə buna oxşar bir şey...

Hər şey mən Yaradana dua etməyə başlayandan sonra oldu.

İnsanlann Tanrıya necə dua etdiklərini bilirsinizmi?

3

Yeri gəlmişkən, bu məndə ilk dəfə baş verirdi. Kitabımda dərin məna yükü olan “tanrı” sözünə növbəti səhifələrdə də tez-tez rast gələcəksiniz. Burada tanrı sözü ilə konkret

downloaded from KitabYurdu.org

nə demək istədiyimi izah etmək üçün fasilə verirəm. Beləliklə, insanlar bunu necə qəbul edəcəklərinə qərar verə bilərlər.

Tanrının mövcud olub-olmadığı barədə diskussiyanı sonraya saxlayaraq (Əslində, bu məsələni ümumiyyətlə müzakirə etməmək daha yaxşı olar), əvvəlcə Yehova, Allah,
Şiva, Brahma, Vişnu, Zevs kimi ifadələr var ikən məhz nəyə görə "tanrı" sözündən istifadə etdiyimi izah etmək istəyirəm. Alternativ olaraq tanrı əvəzinə qədim sanskrit kitablarında yazıldığı kimi, sadəcə, "O" demək də olardı. Amma bu cür xitab mənə "şəxssiz", yəni bir varlığa deyil, əşyaya ünvanlanan müraciət təsiri bağışlayırdı və bir əşyaya dua edə bilməzdim. Onu duymaq, hiss etmək üçün xüsusi bir ada ehtiyacım var idi. Buna görə də kainata, boşluğa, qüvvəyə, ali "mənə", bütə,
yaradıcıya, işığa, gücə, hətta zənnimcə, tanrının adının ən poetik təzahürü olan, qnostik incillərdəs verilən "çevrilmənin kölgəsinə" dua edə bilməzdim.

Bu terminlərə qarşı heç bir şəxsi qərəzliyim yoxdur. Sadəcə, bütün bu ifadələr mənə eyni söz kimi görünür, çünki onların hər biri təsvir edilməsi mümkün olmayanın adekvat və ya qeyri-adekvat formada təsvirləridir. Ancaq hər birimizin təsvir edilməsi mümkün olmayana

downloaded from KitabYurdu.org

müraciətdə istifadə edə biləcəyimiz bir ada ehtiyacımız var və “tanrı” adı mənə ən isti, doğma gələn sözdür. Həmçinin tanrıdan danışarkən həmişə “0”6 dediyimi etiraf etməliyəm, amma bu məni narahat etmir, çünki fikrimcə, “O” sözü dəqiq anatomik təsvir və ya inqilab səbəbi deyil, sadəcə, bir şəxs əvəzliyidir. Təbii ki, bəzi şəxslərin də tanrım qadın kimi təsəvvür etmələrini qınamıram. Bir daha deyirəm - bunlann hər ikisi mənim gözümdə eynidir, adekvat və ya qeyri-adekvat olaraq bərabər ifadələrdir. Düşünürəm ki, tanrıya ünvanlanan hər bir əvəzlik zərif, incə və nəzakətli səslənir.

İnancıma görə yox, xristian ailəsində doğulduğuma görə xristianam. Anqlosakson protestant ailəsində doğulmuşam. Və sülhün, əmin-amanlığın böyük təbliğatçısı olan İsanı sevəndə, müəyyən situasiyalarda onun necə davrana biləcəyi barədə özümə sual verəndə, xristianlığın təməl qaydalarından biri olan “Allaha gedən yeganə yol İsanın yoludur” fikrini həzm edə bilmirdim. Doğrusu, özümü xristian hesab etmirdim. İnanıram ki, xristianların bir çoxu fikirlərimi anlayışla qarşılayacaqlar. Öz əqidəsinə sadiq olan xristianlara isə demək istəyirəm ki, əgər xətrinizə dəydimsə, üzr istəyirəm və işinizə müdaxilə etmək fikrim yoxdur.

Məni hər zaman bütün dinlərin transendental mistik

downloaded from KitabYurdu.org

nəzəriyyələri cəlb edib. Tanrının doqmatik mətnlərdə və ya mavi səmanın dərinliklərində gizləndiyini düşünənlərə həmişə həyəcanla, nəfəsimi tutaraq, Onun bizə təsəvvür edə bilməyəcəyimiz qədər yaxın - öz içimizdə, ürəyimizdə olduğunu deyərək cavab vermişəm. Qəlbinin dərinliklərinə səyahət edib yenidən dünyaya qayıdanda digər insanlara tanrının ali sevginin təzahürü olduğunu çatdıran şəxslərə qarşı
minnətdarlıq hiss etmişəm. Yer üzündəki bütün dinlərdə bunu təsdiqləyən müqəddəslər olub. Təəssüf ki, onların çoxu qaçırılıb, öldürülüb və işgəncələrə məruz qalıblar. Onların hər biri haqqında yüksək fikirdəyəm.

Sonda, tannya inanmaq üçün çox sadə bir səbəbim var. Bir nümunədə izah etməyə çalışacağam - bir vaxtlar böyük bir itim var idi. O, təxminən on müxtəlif cinsin qanşığı idi və onlann hər birinin ən yaxşı xüsusiyyətlərini özündə birləşdirmişdi. Qəhvəyi rəngdə idi. İnsanlar məndən bu nə itdir belə, - deyə soruşanda həmişə eyni cavabı verirdim: “Qəhvəyi itdir”. Eynilə, - “Necə bir Allaha inanırsan?” - sualına, sadəcə, belə cavab verirəm: “Yaxşı Allaha”.

4

Vanna otağının döşəməsində tanrıya ilk dəfə bilavasitə dua etdiyim o gecədən sonra, əlbəttə ki, Yaradanla bağlı

downloaded from KitabYurdu.org

fikirlərimi götür-qoy etmək üçün kifayət qədər vaxtım oldu. Lakin qaranlıq noyabr böhranının qızğın çağında, ilahiyyatla bağlı düşüncələr məni o qədər də maraqlandırmırdı. Sadəcə, xilas olmaq haqqında düşünürdüm. Ölümcül ümidsizliyin astanasında olduğumu və belə vəziyyətdə insanın kömək istəmək üçün tanrıya daha da yaxınlaşdığını başa düşürdüm. Deyəsən, bunu hansısa bir kitabda oxumuşdum.

Hıçqıra-hıçqıra etdiyim həmin dua təqribən buna bənzəyirdi: “Salam, Tann. Necəsən? Mənim adım Lizdir. Tanış olduğumuza şadam”.

Bəli, mən kainatın yaradıcısı ilə hansısa bir qonaqlıqda yenicə tanış olmuş kimi danışırdım. Lakin həyatda kim necə bacarırsa, elə də danışır. Mən də tanışlığa məhz bu sözlərlə başlamağa alışmışdım. Həqiqətdə isə, “mən həmişə sənin
əsərlərinin böyük heyranı olmuşam” deməkdən özümü güclə saxladım.

“Gecənin bu vaxtı səni narahat etdiyimə görə üzr istəyirəm”, - deyə davam etdim. “Amma çox əzab çəkirəm. Və bağışla ki, bu günə qədər heç vaxt Sənlə birbaşa danışmamışam, amma mənə bəxş etdiklərin üçün daim Sənə minnətdar olmuşam”.

Bu fikir daha ucadan hönkürməyimə səbəb oldu. Tanrı

downloaded from KitabYurdu.org

məni dinləyirdi. Davam edə bilmək üçün bütün gücümü topladım: “Özün də görürsən ki, mən dua eləməyi bacarmıram. Xahiş etsəm mənə kömək edə bilərsənmi? Köməyə ehtiyacım var. Nə edəcəyimi bilmirəm. Cavab tapmalıyam. Lütfən, mənə bir yol göstər. Mənə nə etməli olduğumu de. Yalvarıram”.

Səs tonum getdikcə aşağı enib yox olana qədər eyni cümləni təkrarladım: “Yalvarıram mənə bir yol göstər”. Neçə dəfə təkrarladığımı xatırlamıram. Təkcə o yadımdadır ki, yaşamaq üçün son bir şans istəyən şəxs kimi yalvanrdım. Və göz yaşları sonsuza kimi davam etdi. Qəfildən kəskin şəkildə dayanana qədər...

Birdən ayıldım ki, artıq ağlamıram. Hönkürtüm dayanıb. Daha doğrusu, bu qəmli melodiyanın son notlanndayam. İçimdəki bütün əzab silinib getdi. Alnımı döşəmədən qaldırdım və oturaraq təəccüblə göz yaşlarımın hara yoxa çıxdığını düşünməyə başladım. Ətrafda heç kim yox idi. Tək idim. Lakin tamamilə tək deyildim. Qəribə bir sükutla əhatə olunmuşdum. Bu, elə qeyri-adi bir səssizlik idi ki, onu qorxudub qaçırtmamaq üçün nəfəs almaq belə istəmirdim. Daxilimdə rahatlıq var idi. Əvvəllər özümü nə vaxt bu qədər dinc, sakit hiss etdiyim yadımda deyildi.

Sonra bir səs eşitdim. Həyəcanlanmayın, bu, nə

downloaded from KitabYurdu.org

Hollivud aktyoru Çarlton Hestonun səsləndirdiyi Əhdi-Ətiqdən bir parça, nə də evimin arxa həyətini beysbol meydançası üçün ayırmalı olduğumu deyən bir səs idi. Bu mənim səsim idi. Özümlə danışırdım. Amma səsim həmişəkindən fərqli - daha müdrik, rəhmli və şəfqətli çıxırdı. Yəqin ki, ancaq nə vaxtsa həqiqi sevginin və özünə əminliyin dadma baxsaydım səsim belə olardı. Allaha inamımı əbədiləşdirəcək cavabı verən səsimdəki o istiliyi və mələhəti necə təsvir edə bilərəm?

Səs belə dedi: “Get, yat, Liz”.

Dərindən nəfəs aldım.

Bunun yeganə çıxış yolu olduğunu dərhal başa düşdüm. Başqa heç bir cavabla razılaşmazdım. İçimdə sürətlə böyüyən səs bunlardan heç birini deyə bilməzdi: “Ərindən ayrılmalısan! Və ya ayrılmamalısan!” Çünki bu əsl müdriklik deyildi. Əsl müdriklik istənilən vaxt yeganə mümkün variantı təklif edir və bu gecə yerimə qayıdıb yatmaq mənim üçün ən uyğun cavab idi. Get yerinə, yat, deyirdi daxilimdəki hər şeyi bilən bu səs. İndi - noyabr ayı, cümə axşamı səhər saat üç əsas cavabı bilmək üçün doğru vaxt deyildi. Get yerinə, yat, çünki səni sevirəm. Get yerinə, yat, çünki istirahət etməlisən və əsas cavabı bilənə qədər öz qayğına qalmalısan. Get yat ki, tufan gələndə onunla mübarizə aparacaq qədər güclü olasan.

downloaded from KitabYurdu.org

Fırtına gəlir, əzizim. Tezliklə, amma bu gecə yox. Ona görə də get, yat, Liz.

Yeri gəlmişkən, bu kiçik epizod xristianlıq təcrübəsinə xas olan əlamətləri - qaranlığa düçar olmuş ruhu, fəryadı, cavab səsini, hisslərin yenidən doğulmasım daşıyır. Ancaq bunun mənim üçün yenidən doğulma və ya qurtuluş olduğunu da deyə
bilmərəm. Daha dəqiqi, həmin gecə olanları dini söhbətlərin başlanğıcı kimi də qiymətləndirmək olar. Olduqca açıq olan bu dialoqun ilk sözləri məni Tanrıya daha da yaxınlaşdırdı.

5

Lili Tomlinin də dediyi kimi, əgər mənim onsuz da çətin olan vəziyyətimin daha da ağırlaşacağını əvvəlcədən görmək bacarığım olsaydı, yəqin ki, o gecə rahat yata bilməzdim. Amma çətinliklərlə dolu keçən yeddi aydan sonra ərimi tərk edə bildim. Bu qərara gələndə ən böyük çətinliklərin arxada qaldığını düşünürdüm. Bu isə mənim boşanma barəsində nə qədər az məlumatlı olduğumun göstəricisiymiş.

“The New Yorker” jurnalmdakı maraqlı bir yazını xatırlayıram. İki qadın söhbət edir. Onlardan biri digərinə deyir: “Əgər bir kişini yaxşı tanımaq istəyirsənsə, ondan ayrılmalısan”. Təbii ki, mən tamamilə əks fikirdə idim.

downloaded from KitabYurdu.org

Fikrimcə, əgər bir kişini tanımaqdan imtina etmək istəyirsənsə, ondan ayrılmalısan. Çünki bu, təkcə mən və həyat yoldaşım arasında baş verən bir işdir. Yer üzündə bir-birini ən yaxşı tanıyan cütlükdən, bu günə qədər mövcud olan bir-birinə qarşı ən laqeyd iki özgəyə sürətlə necə çevrildiyimiz həqiqəti ilə bir-
birimizi xeyli təəccübləndirdiyimizə inanıram. Bu özgəliyin təməlində dayanan acınacaqlı həqiqət hər ikimizin də digərinin heç vaxt ondan gözləmədiyini etməsi idi. Nə vaxtsa onu doğrudan da tərk edəcəyimə inanmırdı. Mən də onun gedişimi bu qədər çətinləşdirəcəyini gözləmirdim.

Mən qəti inanırdım ki, öz qərarımı ərimə bildirəndən uzağı yanm saat sonra bütün maliyyə məsələlərini həll edə biləcəyik. Bundan ötrü cəmi-cümlətanı bir hesablayıcı və bir az bundan əvvələ qədər sevdiyin adama səmimi və sağlam bir münasibət bəsləmək kifayətdir. İlk təklifim evi satmaq və dəyərini yan bölmək oldu. Ağlıma gələn yeganə variant bu idi. O isə bu təklifin ədalətli olmadığını düşünürdü. Ona görə də başqa cür bölüşdürmək fikrini irəli sürərək təklifimdə dəyişiklik etdim: Qoy hər şeyi o götürsün, mənə isə yalnız vicdan əzabı çəkmək qalsın. Lakin bu belə onu qane etmirdi. Çıxılmaz vəziyyətdə idim. Əlimdə olan hər şeyi təklif

downloaded from KitabYurdu.org

edəndən sonra, daha nə haqda danışa bilərdik? Qarşı tərəfin təklifini gözləməkdən başqa çarəm qalmamışdı. Ondan ayrıldığıma görə o qədər vicdan əzabı çəkirdim ki, son on il ərzində yığdığım puldan bir sent
belə götürməyi düşünmürdüm. Bundan əlavə, yenicə kəşf etdiyim mənəviyyatım onunla aramızda heç bir müharibə olmadığını deyirdi. Ona görə də vəziyyətim belə idi - nə özümü ondan qoruyacaqdım, nə də onunla döyüşəcəkdim. Uzun müddət mənə dəyər verən hər kəsin məsləhətinə rəğmən vəkil tutmaqdan belə boyun qaçırdım, çünki bunun özünün belə bir mübarizə üsulu olduğunu düşünürdüm. Bu mövzuda əsl Qandi olmaq istəyirdim. Bu məsələdə Nelson Mandela kimi olmağı arzulayırdım. Baxmayaraq ki, onda həm Qandinin, həm də Mandelanın vəkil olduğunu bilmirdim.

Aylar ötüb keçdi. Azad olmağı və şərtlərin nə olacağını narahat halda gözləyərkən, həyatım qeyri-müəyyənliklərin içərisində ilişib qalmışdı. Ayn evlərdə yaşayırdıq (O, Manhettandakı mənzilimizə köçmüşdü), amma heç bir məsələ öz həllini tapmamışdı. Borclar yığıldı, karyera olduğu yerdə dayandı, evdə səliqə-sahman itdi və ərim səssizliyini aradabir mənə nə qədər günahkar, vicdansız olduğumu xatırladan sözlər demək üçün pozmağa başladı.

downloaded from KitabYurdu.org

Sonra isə Devid gəldi.

Bu çirkin boşanma illərinin gətirdiyi bütün qarışıqlıq və zədələr Devidlə - boşanma ərəfəsində olarkən aşiq olduğum şəxslə aramızda baş verən faciənin təsiri ilə ikiqat artdı. Mən ona "aşiq olduğumu" dedim? Əslində, yüksək platformadan tullanan cizgi film qəhrəmanı balaca bir fincanın içinə düşüb yoxa çıxan kimi, mən də ərimdən ayrılıb sürətlə Devidin qucağına tullandım. Həyat yoldaşımdan qaçaraq, Sayqondan uçan axınncı vertolyotdan yapışan Amerika əsgəri kimi, ondan bərk-bərk yapışmışdım. Xilas və xoşbəxtlik üçün yeganə ümidim o idi. Əlbəttə ki, onu sevirdim. Devidi necə sevdiyimi təsvir edə bilmək üçün "çarəsiz halda" ifadəsindən başqa bir söz tapa bilsəydim burada onu yazardım və çarəsiz halda vurulmaq həmişə ən pis variantdır.

Ərimdən ayrılan kimi Devidlə birlikdə yaşamağa başladım. O, möhtəşəm bir insandır (idi). Nyu Yorkda doğulmuş bir aktyor və yazıçı olan Devid qəhvəyi rəngli italyan gözləri ilə (deyəsən, bu barədə əvvəl danışmışam) ilk görüşdən məni başdan çıxarda bildi. İti zəkalı, sərbəst, vegetarian, hərdən ağzını boş buraxan, dərin mənəviyyatlı və cazibədar. Üsyankar

şair - Yoq... Tanrının cazibədar aktyoru... Həyatdan

downloaded from KitabYurdu.org

böyük... Böyükdən böyük... Bəlkə də sadəcə, mənim gözümdə elə idi. Yaxın rəfiqəm Suzana ilk dəfə Devid haqqında danışanda üzümdəki hərarətə nəzər yetirdi və: “Aman Allah, vəziyyətin heç yaxşı deyil!” - dedi.

Devidlə yollarımız kəsişdi, çünki o mənim yazdığım qısa hekayələrin ssenarisi əsasında qurulan tamaşadakı rollardan birini oynayırdı. Mənim yaratdığım bir obrazı canlandırırdı. Çarəsiz sevgilərdə həmişə belə olur, elə deyilmi? Əlacsız halda seviriksə, qarşımızdakınm arzuladığımız şəxs olmasını gözləyərək obrazlar yaradırıq və sonra onlar bizim yaratdığımız rola girməkdən imtina edəndə pərişan oluruq.

Lakin hələ ki, o mənim romantik qəhrəmanım və mən də onun gerçəkləşən xülyası olduğumuz ilk aylarda çox gözəl vaxt keçirirdik. Bu, heç vaxt təsəvvür edə bilməyəcəyim bir həyəcan və uyğunluq idi. Öz dilimizi ixtira etmişdik. Hərdən birgünlük, hərdən isə uzunmüddətli səyahətlərə çıxırdıq. Nələrinsə ən təpəsinə dırmaşır, nələrinsə dibinə qədər üzür, dünya ətrafında birlikdə edəcəyimiz səyahətlərin planlarını qururduq. Nəqliyyat
departamentində gözləyərkən bir çox cütlüyün bal ayında əyləndiyindən daha çox zövq alırdıq. Bir-birimizə eyni ləqəblər vermişdik və indi bizi bir-birimizdən ayırmaq

downloaded from KitabYurdu.org

mümkün deyildi. Bir yerdə hədəflər təyin edir, vədlər verir, and içir və axşam yeməyi hazırlayırdıq. O mənə kitab oxuyur, hətta paltarlarımı da yuyurdu (Bunu ilk dəfə görəndə sanki bir dəvənin telefonla danışdığını görmüş kimi təəccüblə Suzana zəng edib dedim: “Bir kişi mənim paltarlarımı yudu! Hətta alt paltarlarımı belə əlində yudu!” Suzan isə təkrarladı: “Aman Allah, vəziyyətin heç yaxşı deyil!”).

Birlikdə keçirdiyimiz ilk yay - dalğalarda su sıçratmaq, alaqaranlıqda, çəmənliyin üzərində əl-ələ qaçmaq kimi filmlərdə gördüyümüz bütün romantik səhnələrin ard-arda montajına bənzəyirdi. O vaxtlar hələ də boşanmanın problemsiz ötüşə biləcəyinə inanırdım və ikimizin də sakitləşməsi, özünə gəlməsi üçün ərimlə o yay bu mövzuda danışmamaq barədə razılaşdıq. Hər halda belə bir xoşbəxtliyi tapandan sonra itirdiklərin haqqında düşünməmək çox
asandır. Nəhayət, həmin yay (Başqa sözlə: möhlət dövrü) başa çatdı.

9 sentyabr, 2011-ci il tarixində son dəfə həyat yoldaşımla üz-üzə görüşdük. Sonrakı görüşlərin vəkillərin vasitəçiliyi ilə olacağını hələ anlamırdım. Bir restoranda oturub şam yeməyi yedik. Ayrılığımız haqqında danışmağa cəhd etdim, amma bu mübahisə ilə

downloaded from KitabYurdu.org

nəticələndi. Yalançı və satqın olduğumu, mənə nifrət etdiyini və bir də heç vaxt mənimlə danışmayacağım bildirdi. İki yuxusuz gecədən sonra iki təyyarənin yaşadığım şəhərin iki nəhəng binasına sürətlə çırpılması xəbəri ilə oyandım. Bir zamanlar məğlubedilməz kimi görünən hər şey yavaş-yavaş dumana qarışmış bir uçqun halına gəlirdi. Vəziyyətinin yaxşı olduğuna əmin olmaq üçün həyat yoldaşıma zəng etdim və hər ikimiz fəlakətin təsiri ilə gözyaşına boğulduq, ancaq onun yanma getmədim. O həftə ərzində Nyu Yorkdakı hər kəs baş verən böyük faciənin ardınca kin və nifrətlə əl-ələ verərkən, yenə də onun yanma qayıtmadım. Çünki hər ikimiz də bilirdik ki, hər şey çox, çox keçmişdə qalıb...

Növbəti dörd ay ərzində ümumiyyətlə yata bilmədiyimi desəm mübaliğə etmiş olmaram.

Əvvəllər mənə elə gəlirdi ki, parçalara bölünmüşəm. İndi isə həyatım, həqiqətən də bütün dünya ilə harmoniya yaradaraq fiaskoya çevrilmişdi. ıı sentyabr faciəsindən və həyat yoldaşımdan ayrılandan sonra, Devidlə keçirdiyimiz aylar ərzində ona necə təsir etdiyimi düşünməyə çəkinirəm. Tanıdığı ən xoşbəxt və özünə inamlı qadının təklikdə dibi görünməyən bir kədər çuxuru olduğunu kəşf etdikcə nə qədər təəccübləndiyini təsəvvür edin! Yenə də göz yaşlarımı saxlaya bilmirdim. O,

downloaded from KitabYurdu.org

tədricən geri çəkilməyə, mən isə ehtiraslı, romantik qəhrəmanımın digər üzünü görməyə başlayırdım. Devid gəmi qəzasından sonra insan ayağı dəyməyən adaya düşən birisi kimi tək idi. Ona bütöv bir bizon sürüsünün ehtiyac duyduğu qədər şəxsi boşluq lazım idi.

Devidin gözlənilməz və emosional şəkildə geri addım atması, yer üzündəki ən xoşbəxt canlı (ov iti ilə çöl qazının qarışığına oxşar bir şey) olsaydım belə, mənim üçün ən yaxşı şəraitdə də fəlakət ola bilərdi. Halbuki mən ən pis şəraitdə idim.

Yeni doğulmuş bir qucaq dolu üçəm körpədən daha ümidsiz və başqasına möhtac idim. Geri addım atmağı ona daha çox ehtiyac duymağıma gətirib çıxarırdı və mənim bu vəziyyətim, sadəcə, onun qaçış prosesini sürətləndirirdi. Ta ki o, - "Hara gedirsən? Bizə nə oldu?" - deyə çırpınan yalvanşlardan ibarət suallarımın nəticəsində məndən uzaqlaşana qədər...

(Yadda saxlayın: Kişilər onlara belə suallar verilməsini çox sevirlər).

Həqiqət o idi ki, mən Devidə narkotikə aludə olan kimi bağlanmışdım (Onun buna maksimum imkan yaradan, qeyri- adi dərəcədə cazibədar kişi olduğunu deməklə özümə haqq qazandıra bilərəm). Onun mənə olan diqqəti isə getdikcə azalırdı və asanlıqla təxmin edilə

downloaded from KitabYurdu.org

bildiyim nəticəyə görə əzab çəkirdim. Qarşı tərəfə dəlicə bağlanmaq bütün çılğın sevgi hekayələrinin ortaq taleyidir. Bu proses pərəstiş obyektin sənə, istədiyini boynuna almağa cürət edə bilmədiyin bir şeydən daha təsirli, halusinogenik bir doza, - duyğusal bir toxum, şiddətli bir sevgi və ürək bulandıran bir həyəcan verəndə başlayır. Tezliklə bir narkotik aludəçisi kimi həmin diqqət və qayğını dəli
kimi arzulayırsan. Narkotikin təsiri keçdikdə özünü xəstə, ağlını itirmiş və tükənmiş kimi hiss edirsən (Əvvəllər səndə buna qarşı meyil yaradan satıcı indi yaxşı mal verməkdən boyun qaçırır. Sən isə əminsən ki, o, əvvəllər pulsuz verdiyi həmin lənətə gəlmiş mah indi hardasa gizlədir). Növbəti mərhələdə həmin həzzi yenidən hiss etmək üçün ruhunu satmağa və ya qonşuları qarət etməyə hazır vəziyyətdə, arıqlamış halda bir küncdə titrəyirsən. Eyni zamanda, pərəstiş obyektin artıq sənə ikrah hissi ilə baxmağa başlayır. O sənə elə baxır ki, guya səni ilk dəfə görür. O bu baxışlarla bir vaxtlar ehtirasla sevdiyi şəxsə heç cür baxa bilməz. Məsələnin gülünc tərəfi odur ki, onu günahlandıra bilmirsən. Özünə bir bax! Sən özünə belə tanış gəlməyən əlacsız bir dərdsən!

Bax, belə. Artıq çılğın sevginin sonuncu dayanacağındasan - tam və amansız bir halda özünü

downloaded from KitabYurdu.org

gözdən salmaq mərhələsindəsən...

Bu gün bütün bunlan soyuqqanlılıqla yaza bilməyim, zamanın hər dərdə dərman olduğuna sübutdur. Çünki hadisələrin düz mərkəzində olanda indiki qədər rahat və təmkinli deyildim. Uğursuz ailə həyatımdan, yaşadığım şəhərə edilən terrorist hücumundan sonra və boşanmanın ən çirkin vəziyyət aldığı bir dövrdə Devidi itirmək (Dostum Brayn boşanmağı "iki il boyu hər gün dəhşətli bir avtomobil qəzası keçirməy"ə bənzədirdi)... Doğrusu, bu qədər dərd həddindən artıq çox idi.

Devidlə gündüzlərimiz şən və əyləncəli keçsə də, gecələr məndən uzaq dururdu. Sanki yoluxucu bir xəstəlik daşıyıcısı idim. Və partlayışlarla dolu keçən qışdan sağ çıxan yeganə şəxsə çevrilirdim. Gecələr artıq mənə işgəncələrlə dolu olan qaranlıq zirzəmi təsiri bağışlayırdı. Yuxuya gedəndən sonra Devidin o gözəl, əlçatmaz bədəninin yanında uzanıb tənhalıq qorxusu ilə intihar haqqında fikirləşirdim. Bədənimin hər hissəsi mənə əzab verirdi. Özümü lazım olduğundan daha artıq təzyiq altında sıxılan və hər an partlamağa hazır olan, bütün ətrafı məhv edəcək primitiv yaylı mexanizm kimi hiss eləyirdim. Bədənimin müxtəlif hissələrinin bədbəxtliyin vulkanik nüvəsindən qaça bilmək üçün vücudumdan ayrılıb uçduğunu, sonra öz yerlərinə

downloaded from KitabYurdu.org

qayıtdığını xəyal edirdim. Səhərlər çox vaxt
Devid çarpayısının düz yanındakı hamam dəsmalları yığınının üstündə yuxulayıb qalmış olduğumu görüb məni oyadırdı - eynilə bir it kimi...
“Nə baş verib?” - o, məndən bezən növbəti kişi soruşurdu. Bu müddət ərzində mən on beş kilo arıqlamışdım...
6
Lakin o illər boyunca heç də hər şey pis deyildi. Çünki Tanrı bir qutu dadlı peçenye təqdim etməmiş, o biri qapını heç vaxt üzünüzə bağlamaz (Və ya köhnə bir atalar sözündə necə deyilirsə). Bütün o kədərin kölgəsində ikən başıma çox maraqlı əhvalatlar gəldi. İlk olaraq, italyan dili öyrənməyə başladım. Həmçinin hindli bir quru tapdım. Nəhayət, yaşlı bir ara həkimi mənə onunla birlikdə İndoneziyada yaşamağı təklif etdi.

Bütün bunları yeri gəldikcə danışacağam.

İlk olaraq 2002-ci ilin əvvəllərində, Devidin evindən köçüb həyatımda ilk dəfə tək-tənha bir mənzildə kirayə qalmağa qərar verəndə vəziyyətin yaxşılaşmağa doğru getdiyindən danışmaqla başlayacağam. Maddi olaraq buna gücüm çatmırdı, çünki hələ də heç kimin yaşamadığı və ərimin satmağıma mane olduğu o evin xərclərini və vəkillərə müvafiq məbləği ödəyirdim.

downloaded from KitabYurdu.org

Özümə məxsus bir yataq otağına sahib olmaq mənim üçün həyati əhəmiyyət daşıyırdı. O mənzili demək olar ki, bir sanatoriya,
məni sağalda biləcək bir xəstəxana kimi görürdüm. Divarları ağlıma gələn ən isti rənglərlə boyadım və xəstəxanada qalan "mən"ə baş çəkirmiş kimi hər həftə özümə güllər alırdım. Bacım yeni ev hədiyyəsi kimi mənə isti qızdırıcı aldı (Beləliklə, soyuq çarpayımda tək olmayacaqdım) və hər gecə onu ürəyimə sıxaraq idmançı sınan qolunu ehtiyatla qoruduğu kimi qoruyurdum.

Devidlə tamamilə ayrılmışdıq. Bəlkə də ayrılmamışdıq. O aylar ərzində neçə dəfə ayrılıb barışdığımızı yada salmaqda çətinlik çəkirəm. Amma belə bir vəziyyət meydana gəlmişdi:
Hər dəfə Devidlə ayrılıb gücümü və özümə inamımı bərpa edən kimi onun mənə olan ehtirası yenidən alovlanırdı (həmişə olduğu kimi gücümün və özümə inamımın təsiri ilə). Ağıl, məntiq, qarşılıqlı hörmət əsasında hər dəfə uyğun gəlməyən cəhətlərimizi nəzərə almayan məntiqli bir planla "növbəti dəfə yoxlamaq" mövzusunda mübahisə edirdik. Özümüzü bu problemi həll etməyə həsr etmişdik. Məgər bir-birini dəli kimi sevən iki insan uzun müddət və birlikdə xoşbəxt yaşaya bilməzmi? Yeni ümidlərlə təzədən birləşərək bir neçə

downloaded from KitabYurdu.org

xoşbəxt
gün yaşayırdıq. Hətta bəzən həftələr. Amma nəticədə, Devid yenə də məndən uzaqlaşır və mən ona bağlanırdım (Və ya ona bağlandığıma görə o məndən soyuyurdu. Hansının digərinə təsir etdiyini başa düşə bilmirdik) və sonda yenə də pərişan olurdum. O isə çıxıb gedirdi.

Devid mənim həm yeməyim, həm də zəhərim idi.

Amma ayrı olduğumuz vaxtlarda nə qədər çətin olsa da, tək yaşamaq barədə təcrübə qazanmağa çalışırdım. Bu təcrübə nəticəsində də daxili aləmimdə dəyişikliklər baş verməyə başladı. Həyatım hələ ki istirahət günlərinin tıxacında, Nyu Cersi magistralında baş verən dəhşətli qəza kimi görünsə də, özünü idarə etməyi bacaran bir fərd olmağın astanasında axsamağa başladığımı düşünürdüm. Boşandığıma və ya Devidlə aramızda keçən faciəyə rəğmən intihara cəhd etməməklə yanaşı, həyatımın hər anından ləzzət alırdım.

Həmin müddətdə özümə mənim üçün tamamilə yeni olan bu sualı verirdim: “Nə etmək istəyirsən, Liz?”

Çox vaxt (nikahdan zamin kimi çıxdığıma görə hələ də ciddi bir problemin içində ikən) bu suala cavab verməyə cəhd
belə etməsəm də, xüsusi bir həyəcan keçirirdim. Nəhayət diqqətlə cavab verməyə başlayıram. Özümə, sadəcə,

downloaded from KitabYurdu.org

körpə uşaq addımları ilə irəliləməyə icazə verirəm. Belə ki:

Yoqa ilə məşğul olmaq istəyirəm.

Qonaqlıqlardan tez çıxıb evə getmək və kitab oxumaq istəyirəm.

Özümə yeni bir qələmdan almaq istəyirəm.

Bunlardan əlavə bir cavab da var idi ki, hər dəfə mütləq deyilirdi: İtalyan dilini öyrənmək istəyirəm.

İllərlə qızılgüllərdən daha gözəl hesab etdiyim italyan dilini bilməyi arzulasam da, heç vaxt öyrənməyə cəhd etməmişəm. Nəyə görə illər əvvəl öyrəndiyim fransız və ya rus dilini təkmilləşdirmək istəmirdim? Ya da niyə milyonlarla amerikalı dostumla daha rahat ünsiyyət qurmağıma kömək edə biləcək ispan dilini öyrənməyə maraq göstərmirdim? İtalyan dili nəyimə lazım idi? Ora köçüb getmək fikrində deyildim. Ondansa, akkordeon çalmağı öyrənmək daha faydalı olardı.

Axı nəyə görə hər şey mütləq faydalı olmalı idi? İllərdir ki, işləyən, istehsal edən, son təslim vaxtını heç vaxt qaçırmayan,
sevdiklərinin qeydinə qalan, onların diş əti, kredit hesabları, səsvermə hüququ və sairə ilə maraqlanan intizamlı bir əsgər rolunu icra edirdim. Doğrudanmı bizim həyatımız ancaq öhdəliklərdən ibarətdir? Bu

downloaded from KitabYurdu.org

qaranlıq itkilər dövründə, məni xoşbəxt edəcək yeganə məşğuliyyətin italyan dili öyrənmək olduğunu çıxmaq şərtilə, başqa bir öhdəliyə ehtiyac duyurdum? Eyni zamanda bir xarici dil öyrənmək arzusu o qədər də böyük bir hədəf deyildi. Bu, otuz iki yaşında "Nyu York baletində baş balerina olmaq istəməy'ə bənzəmirdi. Xarici dil öyrənmək mümkün olan bir istəkdir. Ona görə də bir kursa gedib qeydiyyatdan keçdim ("Boşanmış qadınlar üçün axşam məktəbi" də demək olar). Dostlanm bunu gülməli hesab edirdilər. Dostum Nik deyirdi: "Niyə italyan dili öyrənirsən ki? Cəmi iki ölkədə danışılan bir dili bilmək - təbii ki, İtaliya yenidən Efiopiyanı işğal edərsə - səncə fəxr ediləcək bir şeydir?"

Amma mən italyan dilini sevirdim. Hər söz quşlann cəh- cəhi, sehrli bir tapmaca idi mənim üçün. Kursdan sonra yağışın altında, palçıq içərisində evə gedir, isti duş qəbul edir, zehnimi
boşanmağın gətirdiyi gərginlikdən və bütün dərdlərdən, ağrılardan təmizləyərək köpüyün içində uzanır, italyan dili lüğətimi ucadan oxuyurdum. Sözlər məni ürəkdən güldürürdü. Telefonuma "il mio telefonino" (mənim balaca telefonum) deyə müraciət etməyə başlamışdım. Həmişə, - "Ciao!" - deyən o zəhlətökən adamlardan birinə çevrilmişdim. Amma mən onlardan daha

downloaded from KitabYurdu.org

zəhlətökən idim, çünki bundan əlavə, hər dəfə sözün mənşəyi barədə məlumat verirdim (Bilmək istəyirsinizsə, bu söz orta əsrlərdə venesiyalılar tərəfindən səmimi bir salamlaşma üçün istifadə edilən, - “Sono ol suo schiavo!” - cümləsinin ixtisandır. Mənası, - “Mən sənin kölənəm”, deməkdir). Təkcə bu sözləri işlətmək belə özümü daha cazibədar və xoşbəxt hiss etməyimə gətirib çıxarırdı. Boşanma məsələmlə məşğul olan vəkilim narahatlığa ehtiyac olmadığını, bir vaxtlar əslən koreyalı olan bir müştərisinin çətin boşanmadan sonra özünü yenidən cazibədar və xoşbəxt hiss edə bilmək üçün rəsmi olaraq adını italyan dilində olan başqa bir adla əvəz etdiyini dedi.

Bəlkə də bütün bunlardan sonra mən də İtaliyaya köçəcəkdim...

7

O vaxtlar baş verən digər əhəmiyyətli dəyişiklik, yeni kəşf edilmiş mənəvi təcrübəm idi. Həyatıma daxil olub mənə kömək edən və ürəkləndirən hindli quru ilə tanışlığımıza görə Devidə həmişə minnətdar olacağam. Onu ilk dəfə Devidin mənzilində görmüşdüm. Hər ikisinə də eyni vaxtda vurulduğumu deyə bilərəm. Devidin evində kamodun üzərinə qoyulmuş parlaq gözəlliyə sahib olan hindli bir qadının rəsmini gördüm. “Bu kimdir?” -

downloaded from KitabYurdu.org

deyə soruşdum. O cavab verdi: “Bu mənim mənəvi ustadımdır”.

Ürəyim sanki yerindən qopub düşdü, qısa və cəld bir səyahət etdi və üzü üstə yerə yıxıldı. Sonra ayağa qalxdı, dərindən bir nəfəs aldı və bildirdi: “Mənəvi ustad istəyirəm!” Bunu deyən, həqiqətən də ağzım vasitəsilə danışan qəlbim idi. Daxilimdə bir bölünmə olduğunu hiss etdim və ağlım bir anlığa bədənimdən uzaqlaşdı. Təəccüblə ürəyimlə üzləşmək üçün ətrafda bir az fırlandı və soruşdu: “Doğrudan?”

“Bəli, - deyə cavab verdi ürəyim. - Doğrudan!”

Sonra ağlım bir qədər istehza ilə ürəyimdən soruşdu: “Nə vaxtdan bəri?”

Mən onsuz da cavabı bilirdim: Vanna otağının döşəməsində keçirdiyim o gecədən bəri...

Tanrım, mən bir mənəvi ustad istəyirdim. Dərhal fantaziyamı işə salıb bunu necə etməli olduğumu düşündüm. O gözəl hindli qadının həftədə bir neçə saat evimə gəldiyini, bir yerdə oturub çay içdiyimizi, ilahi söhbətlər etdiyimizi, onun mənə ev tapşırığı verdiyini və meditasiya vaxtı hiss etdiyim qəribə duyğulann əhəmiyyətini izah etdiyini xəyal etməyə başladım.

Devid mənə o qadının beynəlxalq bir nüfuza sahib olduğundan, bir çoxu onunla üz-üzə tanış ola bilməyən on

downloaded from KitabYurdu.org

minlərlə tələbəsi olduğundan bəhs etməyə başlayan kimi də bütün bu xəyallar yarımçıq qaldı. Buna baxmayaraq quru tərəfdarlarının hər həftənin çərşənbə axşamı Nyu Yorkda yığışaraq meditasiya etdiklərini və dini nəğmələr oxuduqlarını bildirdi. Devid, - "Əgər Tanrının adını sanskrit dilində
təkrarlayan bir neçə yüz insanla dolu bir otaqda qalmaq fikri səni qorxutmursa, bizə qoşula bilərsən", - dedi.

Növbəti çərşənbə axşamı onlara qoşuldum. Tanrıya nəğmələr oxuyan bu sıravi görünüşlü insanlardan nəinki çəkinirdim, hətta ruhumun zikrin içində şəffaf bir hala gəldiyini hiss edirdim. O axşam evə gedəndə, havanın sanki paltar asılan ipdə dalğalanan, təmiz bir parça kimi içimdən keçə biləcəyini hiss edirdim. Sanki Nyu York kağızdan bir şəhər, mən də damdan-dama tullana biləcək qədər yüngül idim. Hər həftə onlarla görüşməyə başladım. Qurunun bütün tələbələrinə verdiyi sanskrit dilindəki dua ilə (Möhtəşəm "Om Namah Shivaya". Mənası: "İçimdəki müqəddəsliyi mükafatlandırıram") hər səhər meditasiya etməyə başladım. Sonra isə ilk dəfə qurunun nitqlərini dinlədim və bütüm bədənimdəki, hətta üzümün dərisindəki tüklər biz-biz oldu. Onun Hindistanda bir aşramı olduğunu öyrənəndə isə, tezliklə ora getməli olduğumu başa düşdüm.

downloaded from KitabYurdu.org

8

Həmin vaxt jurnalın təyinatı üzrə İndoneziyaya səyahətə çıxmalı oldum. Tənha, kədərli və boşanma düşərgəsinə həbs edilmiş bir şəxs kimi özümə yazığım gəldiyi bir vaxtda, yoqa seminarlan ilə bağlı məqalə yazmaq üçün bir qadın jurnalının redaktoru mənə Baliyə getməyi təklif etdi. Mən isə ona bir yığın, - "Lobya yaşıldır?" və "Ceyms Braun oxuya bilir?" - kimi cümlələrdən ibarət suallar verdim. Baliyə gedəndə (olduqca gözəl bir yerdir) yoqa öyrədən təlimçi, - "Kim Balinin 9-cu nəsil ara həkimini ziyarət etmək istəyir?" - deyə soruşdu (cavabı heç də asan olmayan növbəti sual) və beləliklə, bir gecə yığışıb onun evinə yollandıq.

Ara həkiminin balaca, gülən gözləri, qırmızıya çalan qəhvəyi saçları və ağzında cəmi bir neçə dişi var idi. Görünüşü hər baxımdan "Star wars"dakı Yodam xatırladırdı. Adı Ketut Liyer idi. İngilis dilində birtəhər və gülməli danışırdı, lakin hər hansı bir sözdə ilişib qalanda tərcüməçi kömək edirdi.

Yoqa təlimçimiz ona hər birimizin, sadəcə, bir problem haqqında danışa biləcəyimizi və onun bu məsələdə bizə kömək etmək üçün əlindən gələni edəcəyini bildirdi. Mənim beynim isə olduqca qanşıq idi. "Ərimin məndən boşanmasına kömək edə bilərsən?

downloaded from KitabYurdu.org

Devidin məni yenidən cazibədar hesab etməyinə köməyin dəyə bilər?” - kimi suallar ilk ağlıma gələn fikirlər idi. Haqlı olaraq bu düşüncələrimə görə özümdən utanırdım. Kim İndoneziyanın ən qədim şəfa verən şəxsi ilə görüşmək üçün bu qədər məsafəni qət edəndən sonra ondan bir kişi ilə bağlı bəsit problemi həll etməsini istəyərdi?

Beləliklə, qoca məndən istədiyimin tam olaraq nə olduğunu soruşanda başqa və daha doğru sözlər tapdım: “Tanrıya ürəkdən inanmaq istəyirəm! - dedim. Hərdən dünyanın ilahiliyini dərk etdiyimi düşünürəm, sonra isə cılız arzularım və qorxularım diqqətimi dağıdır və bu duyğu yoxa çıxır. Həmişə Tanrı ilə bir yerdə olmaq istəyirəm. Lakin rahibə olmaq və ya tərki-dünya həyat tərzi keçirmək istəmirəm. Mənə elə gəlir ki, eyni zamanda həm bu dünyada yaşayıb ondan həzz
almağı, həm də özümü tannya həsr etməyi öyrənmək istəyirəm”.

Ketut sualıma bir rəsm çəkərək cavab verə biləcəyini dedi. Mənə nə vaxtsa meditasiya vaxtı çəkdiyi bir eskizi göstərdi. Bu, ayaq üstə dayanıb əllərini dua edən vəziyyətdə birləşdirən ikicinsli bir insan fiquru idi. Şəkildəki fiqur dördayaqlı və başsız idi. Başın yerində müxtəlif çöl bitkiləri və güllərin yarpaqları yerləşirdi.

downloaded from KitabYurdu.org

Ürəyinin üstündə balaca, gülən sima əks olunmuşdu.

“İstədiyin tarazlığı tapa bilmək üçün, - tərcüməçi vasitəsilə Ketut dedi, - bu varlığa çevrilməlisən. Sanki iki deyil, dördayaqlı bir məxluq kimi addımlarını inamlı atmalısan. Bununla da, dünyada mövcud ola bilərsən. Amma dünyaya başınla baxmaqdan imtina etməlisən. Əvəzində, ürəyinlə baxmağı öyrənməlisən. Beləliklə, Tanrını tanıya bilərsən”.

Sonra əl falıma baxmaq istədi. Sol əlimi uzatdım və o, üçhissəli bir tapmacanın parçalarını birləşdirirmiş kimi ovcumun içində öz barmaqlan ilə hərəkət etməyə başladı.

“Sən bir dünya səyahətçisisən”, - dedi.

Həmin vaxt İndoneziyada olduğumu xatırlayaraq onun dediyinin doğru olduğunu düşünsəm də, susdum.

“Bu günə qədər tanıdıqlanmm hamısından daha bəxtəvərsən. Uzunömürlü olacaqsan, çoxlu dostlann olacaq və çoxlu təcrübə qazanacaqsan. Bütün dünyanı görəcəksən. Həyatında cəmi bircə problem var. Hər şeyə görə narahat olursan. Çox emosional və gərginsən. Əgər həyatın boyu bir də heç vaxt narahat olmağa səbəbin olmayacağmı desəm, mənə inanarsan?”

Başımı yırğalayaraq inanmayacağımı bildirdim.

“İşə gəldikdə isə, yaradıcı işlə məşğulsan, bəlkə də rəssamsan. Bundan kifayət qədər yaxşı gəlir əldə edirsən.

downloaded from KitabYurdu.org

Gördüyün işin qarşılığında həmişə yaxşı qazanacaqsan. Maddi baxımdan əliaçıqsan, bəlkə də bu, ifrat həddədir. Daha bir problemin olacaq. Həyatında bir dəfə əlindəki bütün pulları itirəcəksən. Deyəsən, bu lap yaxın vaxtlarda baş verəcək".

"Məncə, bu, qarşıdan gələn altı ya da on ay arasında baş verəcək", - boşanma məsələsini xatırlayaraq dedim.

Ketut başı ilə təsdiqlədi. "Narahat olma", - dedi. "Bütün pulunu itirəndən sonra, geri qazanacaqsan. Sonra özünü yaxşı hiss edəcəksən. Həyatın boyu iki dəfə ailə həyatı quracaqsan. Biri uzun, digəri isə qısa çəkəcək. Və iki uşağın olacaq".

Onun yenidən, - "biri uzun, digəri qısa", - deyə təkrarlamağını gözləyirdim, amma o, qəfildən səssizləşdi və ovcuma baxaraq qaşlarını çatdı. Sonra ovcumu oxuyan birindən ya da diş həkimindən ən axırıncı eşitmək istəyəcəyim sözü dedi: "Qəribədir". Ovcumda yazılanları daha aydın görmək üçün lampanın altına keçməyimi təklif etdi.

"Səhv edirəm", - deyə bildirdi. "Gələcəkdə, sadəcə, bir uşağın olacaq. Qız uşağı. Bəlkə... Əgər qərar versən... Amma orda başqa bir şey var". Qaşlarını çatdı, başını qaldırdı və qəfildən özünəinamla, - "Bir gün Baliyə yenidən gələcəksən. Gəlməlisən. Burada üç ya da dörd ay

downloaded from KitabYurdu.org

qalacaqsan. Mənim dostum olacaqsan. Bəlkə də burada mənim ailəmlə yaşayarsan. Sənlə ingilis dilimi təkmilləşdirə bilərəm. İndiyə qədər bir yerdə ingilis dilini yaxşılaşdıra biləcəyim heç kim olmayıb.

Məncə, sözlərlə aran pis deyil. Və deyəsən, məşğul olduğun həmin yaradıcı iş də elə sözlərlə əlaqəli peşədir, elə deyilmi?"

"Bəli!" - dedim. "Mən yazıçıyam. Kitab yazıram".

"Sən Nyu Yorklu bir yazıçısan", - sözlərimi təsdiqləyərək dedi. "Baliyə geri qayıdıb burada yaşayacaq və mənə ingilis dili öyrədəcəksən. Mən də əvəzində sənə bildiyim hər şeyi öyrədəcəyəm".

Sonra ayağa qalxdı və əllərini bir-birinə sürtdü. Bu hərəkəti ilə sanki belə deyirdi: "Qərar qəbul edildi".

"Cənab, əgər ciddisinizsə, mən razıyam" - dedim.

O, dişsiz bir təbəssümlə dedi: "Görüşənədək, hələlik".

9

Əgər 9-cu nəsil İndoneziyalı bir ara həkimi mənə taleyimin Baliyə getmək və dörd ay onun yanında keçirmək olduğunu deyirsə, bunu edə bilmək üçün hər cür səy göstərməyin lazım olduğunu düşünürəm. Və beləcə, bu il səyahət etmək fikrim öz təsdiqini tapdı. İndoneziyaya bir yolla geri qayıtmalı və bu dəfə xərcimi özüm ödəməli idim. Bu açıq-aydındır. Xaotik və qarışıq

downloaded from KitabYurdu.org

həyatıma nəzər salanda, bunu necə edə biləcəyimi bilmirdim (Mənə baha başa gələn boşanma və Devidlə bağlı problemlərim xaricində, jurnalda işləməyim də 3-4 aylıq xaricə getməyimə maneçilik törədirdi). Amma geri qayıtmalı idim, elə deyilmi? Bu alın yazımdır. Həmçinin Hindistana getmək, qurunun aşramım ziyarət etmək də istəyirdim. Bu da maliyyə və vaxt tələb edirdi. Vəziyyəti daha da çətinləşdirmək üçün, bir də italyan dilini öyrənmək üçün İtaliyaya getməyə can atırdım. Qısa bir müddət üçün də olsa həzzin və gözəlliyin hakim olduğu bir mədəniyyətdə yaşamaq fikri məni özünə cəlb edirdi.

Bütün bu istəklər bir-birinə zidd idi. Xüsusilə də İtaliya və Hindistan. Hansına üstünlük verməliydim? Venesiyada dana əti yeməyi, yoxsa meditasiya və dua ilə dolu uzun bir günə başlamaq üzrə narahat bir aşramda gün doğmamış oyanmağı daha çox istəyirdim? Bir dəfə dahi sufi şair və filosof olan Rumi tələbələrinə həyatda ən çox istədikləri üç arzunu yazmağı tapşırır. “Əgər siyahıdakı hər hansı bir maddə digərinə ziddirsə”, - deyə Rumi xəbərdarlıq edir, - “bədbəxtliyə məhkumsunuz”. O, tələbələrinə həyatda bəlli bir məqsədə sahib olmağın ən yaxşı seçim olduğunu öyrədirdi. Bəs ziddiyyətlər arasında harmonik bir vəhdətlə yaşamağın faydalan haqqında nə demək olar? Həmin əksliklərin hamısını əhatə edə biləcək

downloaded from KitabYurdu.org

qədər geniş bir həyatınız varsa çarə nədir? Balidə həmin qocaya dediklərim mənim həqiqətim idi - hər ikisini də istəyirdim. Dünyəvi həzləri və ilahi üstünlükləri - insan həyatının ikiqat qələbəsini... Yunanların "kalos kai agathos" adlandırdığı "yaxşınm və gözəlin balansı"nı arzulayırdım. Geridə qalan o çətin illər ərzində ikisi üçün də darıxırdım, çünki həzz və sədaqətin hər ikisinin inkişaf etmək üçün gərginlikdən uzaq
olan bir mühitə ehtiyacı var və mən illərdir ki, fasiləsiz davam edən bir narahatlıq burulğanının içində yaşayırdım. Həzz və sədaqəti necə balanslaşdırmağa gəldikdə isə, əlbəttə ki, bunun da sirrini öyrənmək mümkün idi. Balidə qonaq olduğum qısa müddət ərzində mənə elə gəlirdi ki, bunu Bali əhalisindən öyrənə bilərəm. Hətta bəlkə də həmin o qocanın özündən!

Dördayaqlı, başı yarpaqlardan ibarət olan, dünyaya ürəyi ilə baxan bir insandan...

Beləliklə, İtaliya, Hindistan yoxsa İndoneziya deyə seçim etməkdən imtina etdim. Hər üçünə səyahət etmək istədiyimi boynuma aldım. Hər ölkədə dörd ay, cəmi bir il. Əlbəttə ki, bu özümə qələmdan almaq arzusuna nisbətən daha iddialı bir xəyal idi. Lakin mən məhz bunu istəyirdim. Hələ bir səyahətlərim haqda kitab yazmaq istədiyimi də bilirdim. Ölkələri yenidən kəşf etmək

downloaded from KitabYurdu.org

fikrində deyildim. Bu artıq edilmişdi. Mən ənənəvi olaraq hansısa bir mövzuda ən yaxşı olan bir məkanda, hər bir ölkəni arxa planda qoyaraq, özümü kəşf etmək arzusunda idim. İtaliyada həzz sənətini, Hindistanda özünü Yaradana həsr etmək sənətini,
İndoneziyada ziddiyyətləri necə tarazlamağı öyrənmək... Bu xəyalı özümə etiraf edəndən sonra bütün bu ölkələrin ingilis dilindəki adlarının "i" hərfi ilə başladığına nəzər yetirdim.7 Bu, şəxsin özünü kəşf etmək məqsədilə çıxacağı səyahət üçün olduqca uğurlu bir işarə idi.

Məni lağa qoymağa bəhanə axtaran çoxbilmiş dostlarım üçün bu fikrin necə böyük bir fürsət olduğunu təsəvvür edin. Mən həmin üç "İ"yə getmək istəyirdim, elə deyilmi? Onda nəyə görə bu bir ili İran, İrlandiya və ya İslandiyada keçirmirdim? Ya da "İ" hərfinin hökmranlıq etdiyi digər yerlərə getmirdim? Rəfiqəm Suzan xeyriyyə məqsədi ilə "Sərhədsiz boşanmış qadınlar" adlı bir dərnək yaratmağı təklif etdi. Amma bütün bu istehzalı zarafatların müzakirəyə ehtiyacı var idi. Mən isə hələlik heç yerə gedə bilmirdim. Boşanma hələ ki, başa çatmamışdı. Boşanma ilə bağlı ən dəhşətli kabuslarıma görə ərimi psixoloji təzyiq iddiası ilə qanuni olaraq günahlandırılmaq üçün ərizə yazır (Bu, Nyu Yorkun qanunları tərəfindən tələb olunurdu) və digər bu kimi

downloaded from KitabYurdu.org

dəhşətli şeylər edir, ona hüquqi cəhətdən təzyiq göstərməyə çalışırdım. Heç də
mülayim olmayan bir mətn hazırlayırdım: “Ey, qulaq as! Münasibətimiz doğrudan da çox problemli idi və böyük səhvlərim oldu. Buna görə çox üzr istəyirəm və sadəcə, səndən ayrılmaq arzusundayam”.

(Bu yerdə əziz oxucularıma məsləhət vermək üçün mötərizə açıram: Heç vaxt Nyu Yorkda boşanmaq məcburiyyətində qalmayın!)

2003-cü ilin yazında vəziyyət pik həddə gəlib çıxdı. Ayrılandan düz il yarım sonra həyat yoldaşım nəhayət ki, boşanma şərtlərini müzakirə etməyə razılaşdı. Bəli, pulu, evi və Manhettandakı mənzili, yəni əvvəlcədən təklif etdiyim hər şeyi istəyirdi. Eyni zamanda heç ağlıma belə gətirmədiyim istəkləri də var idi (Evli olduğumuz müddət ərzində yazdığım kitabların, gələcəkdə çəkilə biləcək filmlərin gəlirlərindən bir hissə, alacağım pensiyadan müəyyən məbləğ və s.) və artıq bu nöqtədə etiraz etmək məcburiyyətində qaldım. Vəkillərimiz arasında aylarla görüşlər davam etdi, ortaq məxrəcə gəlmək üçün müxtəlif fikirlər deyildi və nəhayət ərim yavaş-yavaş razılığa gəlməyə başladı. Bu mənə baha başa gəlirdi, amma
məhkəmələrdə daha çox pul və vaxt itirmək niyyətində deyildim. Üstəlik bütün bunlar məni əməlli-başlı boğaza

downloaded from KitabYurdu.org

yığmışdı. Əgər o, sənədi imzalasa ən yaxşı çıxış yolu, istədiyi məbləği ödəmək və çıxıb getmək idi. Münasibətimiz artıq tamamilə məhv olmuşdu, aramızda heç bir pərdə qalmamışdı və sadəcə, vəziyyətdən çıxmaq üçün bir qapı axtarırdım.

Əsas sual bu idi - imzalayacaq, yoxsa yox? Onun hər dəfə xırda detallara etiraz etməsi ucbatından bir neçə həftəni də geridə qoyduq. Əgər razılığa gəlməsək, məhkəməyə çıxarılacaqdıq. Məhkəmə əldə qalan pulun da hüquqi xərclərə getməyinə səbəb olacaqdı. Ən dəhşətlisi isə, məhkəmə bütün bu nizamsızlığın və qarışıqlığın içində keçirməli olacağım növbəti bir il demək idi. Buna görə də ərim verəcəyi qərarla (o, hələ də mənim həyat yoldaşım idi) həyatımdakı növbəti ilin taleyini müəyyənləşdirəcəkdi. Məni İtaliya, Hindistan və İndoneziyaya tək səyahət, etmək gözləyirdi, yoxsa məhkəmə salonunda çarpaz sorğu-sual ?

Gündə on dörd dəfə vəkilimə zəng edib, - "Təzə xəbər var?", - deyə soruşurdum. O isə öz növbəsində məni əlindən

gələni etdiyinə və razılıq əldə olunan kimi dərhal xəbər verəcəyinə əmin edirdi. Bu müddət ərzində keçirdiyim stress məktəb direktorunun otağına çağırılmağı və ya biopsiya nəticələrini gözləyərkən keçirilən gərginliyə

downloaded from KitabYurdu.org

bərabər idi. Zen təlimindəki kimi sakit və təmkinli olmağı çox istəyirdim, amma alınmırdı. Bəzi gecələr hirsimi beysbol çubuğu ilə kreslomdan çıxardırdım. Çox vaxt bu, bədbin bir halda sızıldayaraq imtina etməyimlə nəticələnirdi.

Həmin vaxt Devidlə yenidən ayrılmışdıq. Amma bəlkə də yox. Hər şeyin tamamilə bitməyinə icazə verə bilmirdik. Tez-tez ona olan sevgim uğranda hər şeyi fəda etmək arzuma məğlub olurdum. Digər vaxtlarda isə əksinə, dinclik və xoşbəxtlik tapmaq ümidi ilə onunla arama mümkün qədər böyük qitələr, keçilməz okeanlar qoymaq instinktinə təslim olurdum.

Üzümdə, qaşlarımın arasında ağlamaqdan və narahatlıqdan qırışlar əmələ gəlmişdi.

Bütün bunlarla yanaşı, bir neçə il əvvəl yazdığım kitab nəşr edilirdi və onun reklamı üçün səfərə çıxmalı idim. RəfiqəmAyvanı da özümlə apardım ki, tək qalmayım. Livanın

Beyrut şəhərində doğulan Ayva təqribən mənimlə yaşıd idi.

Mən Konnektikut ştatında idmanla məşğul olanda və tamaşalarda iştirak etmək üçün seçim turlarına qatılanda o, həftənin yeddi gecəsinin beşini sığınacaqlarda gizlənir, yaşamaq uğrunda mübarizə aparırdı. Erkən yaşlarda

downloaded from KitabYurdu.org

məruz qaldığı bu qədər şiddətin hazırkı möhkəm, təmkinli insana necə gətirib çıxardığını bilmirəm, amma Ayva tanıdığım ən soyuqqanlı şəxslərdən idi. Həmçinin o, "Kainata birbaşa bağlı telefon" deyə adlandırdığım bir xüsusiyyətə sahib idi. Təkcə Ayvaya məxsus olan, tannya aparan, günün 24 saatı açıq olan bir növ telefon xətti.

Beləliklə, Kanzas boyu irəliləyirdik və başa çatmaq bilməyən boşanma prosesinin yaratdığı gərginlikdən bezmişdim. Görəsən, imzalayacaq, yoxsa yox? Ayvaya dedim: "Məhkəmələrdə keçəcək növbəti bir ilə dözə bilmərəm. Kaş ki, ilahi bir müdaxilə baş verəydi. Kaş ki, tanrıya bütün bu qarışıqlığın bitməyini necə arzuladığımı bildirən bir ərizə yaza biləydim".

"Elə isə nəyə görə yazmırsan?"

Ayvaya dua etməklə bağlı şəxsi mövqeyimdən danışdım. Müəyyən bir arzuya görə tanrıya ərizə yazmaqla özümü rahat hiss edə bilməzdim. Əksinə, bu mənə inamımın zəifliyini hiss etdirərdi. "Mənim üçün çətinlik törədən filan məsələni həll edəcəksən?" kimi bir sual vermək istəmirəm. Nə bilmək olar? Bəlkə tanrı hansısa bir səbəbə görə mənim həmin çətinliklə qarşılaşmağımı istəyir. Ona görə də yekunda nə baş verəcəyindən asılı olmayaraq tanrıdan həmin çətinliklərlə üzləşdikdə soyuqqanlılıqla mübarizə apara bilmək üçün

downloaded from KitabYurdu.org

mənə güc verməsini istəyəndə özümü daha rahat hiss edirəm.

Ayva sakitcə məni dinlədi və soruşdu: “Bu axmaq fikrə hardan gəlmisən?”

“Nə demək istəyirsən?”

“Tanrıya bir dua ilə ərizə yazmağa icazən olmadığı fikrinə hardan gəlmisən? Sən kainatın bir parçasısan, Liz. Sən onun bir ünsürüsən. Onun işlərinə qoşulmağa və hisslərini bildirməyə haqqın çatır. Ona görə də fikirlərini gizlətmə. Öz vəziyyətini göstər. İnan ki, ən azından onlar müzakirəyə çıxarılacaqlar”.

“Doğrudan?” Onun dedikləri mənim üçün yeni fikirlər idi.

“Doğrudan! Qulaq as, əgər indi Tanrıya bir ərizə yazsaydın orada hansı fikirlər olardı?”

Bir az fikirləşəndən sonra qeyd dəftərimi çıxartdım və bu ərizəni yazdım:

“Əziz Tanrı!

Xahiş edirəm öz müdaxilənlə boşanma məsələmin başa çatmağına kömək et. Ərimlə xoşbəxt bir ailə olmağı bacara bilmədik, indi də boşanmağı bacarmırıq. Bu proses təkcə bizi yox, həmçinin yaxınlarımızı, bizim taleyimizə biganə olmayanları da narahat edir.

Bilirəm ki, müharibələr, faciələr və uğursuz bir

downloaded from KitabYurdu.org

cütlüyün problemləri ilə məşğul olmaqdan daha vacib digər işlərin var. Amma fikrimcə, yer üzündə yaşayan hər bir fərdin sağlamlığı planetin sağlamlığına təsir edir. İki ruh belə bir münaqişənin içində ilişib qalanda bütün dünya çirklənir. Eynilə, əgər ruhlardan biri və ya hər ikisi bu münaqişədən xilas olarsa, nəticədə həmin bədəndəki bir neçə sağlam hüceyrə o vücudun ümumi sağlamlığını təmin etməklə yanaşı, bütün dünyanın sağlamlığına təsir edir.

Səndən ən böyük xahişim bu münaqişəyə son verməyindir. Beləliklə, iki müxtəlif insan azad və psixoloji cəhətdən sağlam olmağa şans qazanacaq, çətinliklərdən əziyyət çəkən dünyamızdakı düşmənçilik və xoşagəlməz hallar qismən də olsa azalacaq.

Diqqətinə görə təşəkkür edirəm.

Hörmətlə,

Elizabet M. Gilbert".

Yazdıqlanmı Ayvaya oxudum və o da başı ilə təsdiqlədiyini bildirdi.

"Bunu imzalayardım", - dedi.

Ərizə ilə qələmi ona tərəf uzatdım, amma o, maşın sürdüyünə görə götürə bilmədi: "Yox, fərz elə ki, imzalamışam. Qəlbimdə imzalamışam".

"Təşəkkürlər, Ayva. Dəstəyinə görə minnətdaram".

downloaded from KitabYurdu.org

“Bəs bunu başqa kim imzalayardı?” - deyə soruşdu.

“Ailəm: atam, anam, bacım”.

“Yaxşı, onlar da imzaladılar. Fərz elə ki, onların da adları yazılıb. Artıq adları siyahıdadır. Başqa kim imzalaya bilər?
Adlarını bir-bir de”.

Beləliklə, ərizəmi imzalamalı olduğunu düşündüyüm şəxslərin adlarını saymağa başladım. Ən yaxın dostlarımın, bəzi ailə üzvlərimin və bir neçə iş yoldaşımın adını çəkdim. Hər addan sonra Ayva əminliklə: “Bəli, artıq o da imzalayıb”, - deyirdi. Bəzən özü də adlar çəkirdi: “Mənim valideynlərim də imzaladılar. Onlar uşaqlarını müharibə şəraitində böyüdüblər, ona görə də münaqişəyə nifrət edirlər. Bu problemin həll olunduğunu görmək onları da sevindirər”.

Gözlərimi yumdum və ağlıma gələn adları bir-bir sadalamağa başladım: “Deyəsən, artıq Bil və Hilari Klinton da imzaladılar”.

“Şübhə etmirəm”, - dedi. “Qulaq as, Liz, bu ərizəni hər hansı bir şəxs imzalaya bilər. Başa düşürsən? Ölü və ya diri - fərqi yoxdur. Kimi istəyirsənsə çağır və imzalatdır!”

“Assizli müqəddəs Fransisk də indi imzaladı!”

“Əlbəttə!” - O, əlini maşının sükanına vurdu.

downloaded from KitabYurdu.org

Artıq dayanmadan müxtəlif adlar çəkirdim:

“Avraam Linkoln da imzaladı! Qandi, Mandela və bütün sülh tərəfdarları da! Eleanor Ruzvelt, Tereza ana, Bono, Cimi Karter, Məhəmməd Əli, Ceki Robinzon, Dalay Lama və 1984-cü ildə ölən nənəm, bir də ki, hələ sağ-salamat olan nənəm. İtalyan dili müəllimim, psixoloqum və menecerim. Martin Lüter Kinq, Ketrin Hepbom, Martin Skorseze, təbii ki qurum, Coan Vudvard, Janna Dark, ibtidai sinif müəllimim və Cim Henson”.

Adlar xüsusi bir səy göstərmədən, sanki öz-özünə sadalanırdı. Təxminən bir saat ərzində Kanzas boyunca irəliləyəndə saydığım adlar ərizəmdə məni dəstəkləyən şəxslərdən ibarət olan görünməz səhifələri əhatə etdi. Ayva təsdiqləməyə davam edirdi: “Bəli, o da imzaladı. Bu, bayaqdan imzalayıb”. Mən isə qüdrətli ruhlann əhatəsində özümü müdafiədə hiss edirdim.

Adlarla bərabər narahatlığım da sona çatırdı. Yuxum gəlirdi. Ayva, - “Sən bir az mürgülə. Maşını mən idarə edərəm”, - dedi. Gözlərimi bağladım. Ağlıma sonuncu bir ad da gəldi. “Maykl Foks da imzaladı”, - deyə pıçıldadım və yuxuya getdim. Nə qədər yatdığımı bilmirəm. Bəlkə də cəmi on dəqiqə çəkdi,
amma dərin yuxuya getdim. Oyananda Ayva hələ də

downloaded from KitabYurdu.org

sükan arxasında idi. Hansısa mahnını zümzümə edirdi. Əsnədim.

Bu zaman mobil telefonum zəng çaldı.

Kirayə götürülmüş maşının külqabısında həyəcanla titrəyən balaca, çılğın “telefonino”ya nəzər yetirdim. Hələ ki, oyanıb özümə gələ bilməmişdim deyə birdən-birə telefonun necə işlədildiyini yadıma sala bilmədim.

“Liz, bəlkə cavab verəsən?” - Ayva soruşdu.

Telefonu götürdüm və pıçıltı ilə “alo” dedim.

“Sənə şad xəbərim var!” - deyə vəkilim getdikcə uzaqlaşdığımız Nyu Yorkdan bildirdi. “O, elə indicə sənədləri imzaladı!”

10

Bir neçə həftədən sonra artıq İtaliyada idim.

İşdən çıxdım, boşanma müqaviləmə əsasən tələb olunan məbləği ödədim, evi boşaltdım, mənzilimi təhvil verdim, əşyalanmı aparıb bacımın evindəki zirzəmiyə yığdım və iki çamadan hazırladım. Beləcə, mənim bir il çəkəcək səyahətim başladı. Ən önəmlisi isə bu xərcləri qarşılaya biləcəkdim: Əsl möcüzə baş vermişdi, nəşriyyat səyahətlərim barədə yazmağı nəzərdə tutduğum kitabımı əvvəlcədən alırdı. İndoneziyalı qocanın dediyi kimi, bütün pulumu birdən-birə itirdim və tezliklə həmin maliyyə bərpa olundu - və ya ən azı mənə bir il bəs

downloaded from KitabYurdu.org

edəcək qədəri.

Beləliklə, Roma sakininə çevrildim. Tapdığım mənzil İspan pilləkənlərindən bir neçə blok uzaqda, möhtəşəm Borges bağçalarının kölgəsi altında, qədim romalılann cəng arabalarının yarışdığı Piazza del Popolodan cəmi bir neçə küçə aralıda yerləşən tarixi binadakı sakit bir studiya idi. Təbii ki, bu
yer Nyu Yorkda qaldığım üzü Linkoln tunelinin girişinə tərəf baxan o keçmiş mənzilim qədər əzəmətli deyil, amma yenə də məni qane edirdi.

11

Romada yediyim ilk yemək elə də xüsusi deyildi: Qaynadılmış ispanaq və sarımsaq qamiri ilə təqdim edilən pasta (spaghetti carbonara). (Dahi romantik şair Şelli bir vaxtlar İngiltərədəki dostlarından birinə italyan mətbəxi ilə bağlı maraqlı bir məktub yazıb: “Yüksək təbəqədən olan qadınların nə yediyini heç vaxt ağlına gətirə bilməzsən - sarımsaq!”) Bir də ənginarın dadma baxdım. Romalılar ənginarları ilə qürur duyurlar. Sonra ofisiant qadın içində yumşaq pendirlə, qızardılmış balqabaq çiçəkləri (o qədər zərif hazırlanmışdı ki, böyük ehtimalla çiçəklər hələ də budaqlarından qoparıldıqlarını başa düşməmişdilər) olan sürprizi gətirdi. Spagettidən sonra dana ətinin dadma baxdım. Və əlbəttə ki, təkcə mənim

downloaded from KitabYurdu.org

üçün olan bir şüşə qırmızı şərab! Zeytun yağı və duzla bir az isti çörək yedim. Desert olaraq isə tiramisunun dadma baxdım.

Saat 23:00 ərəfəsində evə qayıdarkən küçədəki binaların birinin pəncərəsindən gələn səs-küyü eşitdim. Görünür, orda

məktəb yaşına çatmayan uşaqlann yığıncağı idi. Bəlkə uşaqlardan hansısa ad günü keçirirdi? Qəhqəhələr, qışqırıqlar, ora-bura qaçanların ayaq səsləri... Pilləkənlərlə yuxan qalxdım, təzə çarpayımda uzanıb işığı söndürdüm. Adətən işıqları söndürəndən sonra ya ağlayıram, ya da narahat halda yerimdə eşələnirəm. Lakin bu dəfə nədənsə özümü pis hiss etmirdim. Yaxşı idim. Məmnunluğun ilk simptomlarım duyurdum.

Taqətsiz bədənim yorğun beynimə sual verdi: "İstədiyin elə bunlardan ibarət idi?"

Cavab yox idi. Çoxdan yuxuya getmişdim.

12

Qərb aləminin böyük şəhərlərində bəzi şeylər həmişə eynidir. Afrikalı kişilər hər zaman eyni dizaynerin çanta və eynəklərinin saxtalarını satırlar və Qvatemaladan olan musiqiçilər bambukdan düzəldilən nəfəsli çalğı aləti ilə həmişə "I'd rather be a sparrow than a snail" (İlbiz olmaqdansa sərçə olardım) mahnısını ifa edirlər. Ancaq

downloaded from KitabYurdu.org

bəzi şeylər təkcə Romaya məxsusdur. Məsələn, hər dəfə danışanda mənə rahatlıqla “gözəlcə” deyə xitab edən satıcı kimi. Paninonuzu isidim, yoxsa soyuq halda yeyəcəksiniz, bella (gözəlcə)? Və ya sanki bir yanşda iştirak edirmiş kimi hər yerdə qucaqlaşan, bir-birinin saçlarını, üzünü sığallayan sevgililər...

Fəvvarələri də mütləq qeyd etməliyəm. Böyük Plini bir vaxtlar belə deyib ki, - “Əgər kimsə Romanın hamamlar, çənlər, evlər, həyətlər və villalar üçün olan su qaynaqlarının nə qədər bol olduğunu başa düşsə və o suyun keçdiyi yüksəklikləri,
dağları, geniş vadiləri hesablasa, yer üzündə bundan daha möhtəşəm heç bir şeyin olmadığını anlayar”.

Plini dövründən yüz il keçib, bu gün mən artıq Romadakı sevimli fəvvarəmə rəqiblər tapmışam. Onlardan biri Villa Borgezedə yerləşirdi. Fəvvarənin mərkəzində bürüncdən düzəldilən şən bir ailə vardı. Ata faun,8 ana isə adi insandır. Üzüm yeyən bir körpələri var. Ana və ata qəribə bir vəziyyətdə dayanıblar. Bir-birlərinə baxırlar, bir-birinin biləklərini tuturlar və hər ikisi arxaya əyilib. Dava yoxsa rəqs etdiklərini başa düşmək çətin məsələdir, amma heykəlin böyük bir enerjisi var. Hər iki halda da körpə onların arasında, biləklərinin üstündə oturub və valideynlərinin mübahisə, ya da rəqs etməyinə

downloaded from KitabYurdu.org

əhəmiyyət vermədən öz üzümünü yeyir. Üzüm yeyəndə dırnaqları aşağı sallanır (atasına oxşayıb).

2003-cü il, sentyabr ayının əvvəlləridir. Hava ilıq və boğucudur. Romadakı 4-cü günüm olmağına baxmayaraq indiyə qədər kölgəm nə bir kilsə və ya muzeyin girişində əks olunub, nə də bələdçi kitabına göz gəzdirmişəm. Dayanmadan, məqsədsiz halda gəzirdim və bunun müqabilində mehriban bir
avtobus sürücüsünün Romadakı ən yaxşı "gelato" (dondurma) satılan yer olduğunu iddia etdiyi balaca məkanı nəhayət tapa bildim. "II Gelato di San Crispino" adlanırdı. Mənasını dəqiq bilmirəm, amma təxminən "Müqəddəs Krispinonun dondurması" kimi tərcümə eləmək olar. Bal və fmdıqlı dondurma yedim. Eyni gün yenidən qreypfurt və yemişli qarışığın dadma baxmaq üçün qayıtdım. Axşam yeməkdən sonra isə darçın və zəncəfilli dondurma üçün sonuncu dəfə ora üz tutdum.

Nə qədər vaxt apardığına baxmayaraq hər gün bir qəzet məqaləsi oxumağa çalışıram. Təxminən hər üç sözdən biri üçün lüğətimə baxıram. Bugünkü xəbərlər çox maraqlı idi. "Obesita!
I Bambini Italiani Sono i Piu Grassi d'Europa!" (Aman Allah! Piylənmə!) sərlövhəsindən daha təsirlisini təsəvvür etmək olduqca çətindir. Səhv etmirəmsə, bu başlıq italyan

downloaded from KitabYurdu.org

körpələrinin Avropada ən kök uşaqlar olduğunu elan edirdi. Oxumağa davam etdikcə, italyan körpələrinin almanlarla müqayisədə çox, fransızlarla müqayisədə isə daha çox artıq çəkidən əziyyət çəkdiklərini öyrəndim (Nə yaxşı ki, amerikalı
uşaqlarla müqayisədə necə olduqları bildirilməmişdi!). Yazıda qeyd olunurdu ki, son vaxtlarda italyan uşaqlarda köklük təhlükəli həddə çatıb (makaron sənayesi isə özünü müdafiə edirdi). İtalyan uşaqlarının artıq çəkidən əziyyət çəkdiyinə dair bütün bu dəhşətli məlumatlar "una task force internazionale" - tərcüməyə ehtiyac yoxdur - tərəfindən bir gün əvvəl verilmişdi. Bu məqalənin şifrlərini tapmaq mənə təxminən bir saata başa gəldi. Bu vaxt ərzində italyan uşaqlarından birinin küçədə çaldığı akkordeonun sədaları altında pizza yeyirdim. Uşaq gözümə elə də kök görünmürdü. Bəlkə də səbəb onun qaraçı olması idi. Məqalənin sonuncu sətirlərini düzgün başa düşdüyümə əmin deyiləm, amma məncə İtaliyada köklük problemi ilə başa çıxmağın yeganə yolunun artıq çəkilərə görə vergi almaq olduğu qənaətinə gəlmişdilər. Bu, doğru ola bilər? Belə çıxırdı ki, bir neçə ay da bu qayda ilə yeməyə davam etsəm, mənim də izimə düşəcəkdilər?

Hər gün qəzet oxumağın faydalı cəhətlərindən biri də

downloaded from KitabYurdu.org

Roma papasının necə olduğu barədə məlumat əldə etməkdir. Roma qəzetlərində eynilə hava haqqında proqnoz və ya
televiziya proqramlarının vaxtı kimi papanın sağlamlığı barədə də məlumat verilir. Bu gün papa yorğundur. Dünən papa bugünkünə nisbətən daha az yorğun idi. Ümid edirik ki, sabah papa bugünkü kimi yorğun olmayacaq.

Mən italyan dilini öyrənənlər üçün möcüzələr ölkəsinə düşdüyümü hiss edirdim. Həmişə italyan dilində danışmağı arzulayan biri üçün Romadan daha yaxşı hansı şəhər ola bilər? Elə bil kimsə istədiyim bütün xüsusiyyətləri özündə birləşdirən, hər kəsin (uşaqların, taksi sürücülərinin, hətta aktyorların) eyni sehrli dildə danışdığı bir ölkə yaratmışdı. Sanki bütün insanlar mənə italyan dili öyrətmək üçün bir-birilə sözləşmişdilər. Mən burada olduğum müddətdə, hətta qəzetləri də italyan dilində nəşr edirdilər və heç kim də bundan narazı deyildi. Kitab dükanlarında yalnız italyan dilində kitablar satılır! Dünən səhər bu dükanlardan birinə rast gəldim və içəri girəndə məftun oldum! Hamısı italyan dilində idi - Doktor Seus belə! Kitablara toxuna-toxuna gəzərkən məni müşahidə edən hər hansı bir şəxsin italyan dilli olduğumu düşünməyini istəyirdim. Ah... İtalyan dilinin

downloaded from KitabYurdu.org

ürəyini mənə boşaltmağını necə də dərindən arzulayırdım! Bu duyğu mənə dörd yaşım olanda oxumağı, yazmağı bacarmadığım və öyrənməyə can atdığım vaxtları yadıma saldı. Anamla birlikdə bir həkimin gözləmə otağında oturduğumuzu, otaqdakı digər böyüklərin oxuya bildiyimə inanmaqlarına ümid edərək əlimdə evdarlıq haqqında iri bir jurnal tutub yavaş-yavaş vərəqlədiyimi xatırlayıram. O vaxtdan bəri heç vaxt öyrənməyə bu qədər ac olmamışam. Həmin kitab mağazasında bir neçə amerikalı şairin, səhifənin bir üzündə şeirlərin ingilis dilində, digərində isə italyan dilində mətnləri olan bir neçə əsərini tapa bildim. Robert Lovel və Luiza Qlükün kitablarını aldım.

Hər yerdə spontan danışıq kursları var idi. Bu gün parkda oturacaqlardan birində əyləşəndə qara geyimli, balaca, yaşlı bir qadın yanımda oturdu və nəyəsə görə məni məzəmmətləməyə başladı. Mən dinməzcə və özümü itirmiş halda başımı silkələdim, sonra isə italyan dilində nəzakətlə dedim: “Bağışlayın, mən, italyanca bilmirəm”. Qarının elə görkəmi var idi ki, sanki məni taxta qaşıqla döymək istəyirdi. Təkid etməyə başladı: “Başa düşürsən!” (Qəribə olsa da haqlı idi. Bu cümləni başa düşmüşdüm). İndi də hardan gəldiyimi öyrənmək istəyirdi. Ona Nyu Yorkdan gəldiyimi dedim və onun

downloaded from KitabYurdu.org

hardan olmağı ilə maraqlandım. Axmaq sual idi - əlbəttə ki, Romadan idi. Bunu eşidəndə balaca uşaq kimi sevincimdən əl çalmağa başladım. Ah, Roma! Gözəl Roma! Romanı sevirəm! Şirin Roma! Qan şübhə ilə mənim primitiv təriflərimə qulaq asdı. Sonra ailəli olub-olmadığında maraqlandı. Boşandığımı bildirdim. Bu sözləri ilk dəfə idi ki, kiməsə deyirdim, özü də italyan dilində. Əlbəttə ki, o, sorğusuna davam edirdi: "Perche?" Hansı dildə deyilməyindən asılı olmayaraq "Niyə?" həmişə çətin sual olaraq qalır. Əvvəlcə kəkələsəm də, nəhayət, cavab verə bildim: "L'abbiamo rotto" (Münasibətimizi məhv etdik).

O, başını yelləyəndən sonra ayağa qalxıb dayanacağa tərəf irəlilədi, avtobusa mindi və bircə dəfə belə mənə baxmaq üçün geri çevrilmədi. Görəsən, mənə hirslənmişdi? Qəribə də olsa, həmin oturacaqda iyirmi dəqiqəyə yaxın oturub onun söhbətimizə davam etmək üçün geri qayıtmasını gözlədim,
amma qayıtmadı. Adı Çeleste idi. "Ç" hərfi "cello" sözündə olduğu kimi sərt tələffüz olunurdu.

Sonra bir kitabxanaya rast gəldim. Kitabxanaları necə də çox sevirəm! Roma kitabxanası olduqca qədim və gözəl idi. Həyətində, hətta qəşəng bir bağı da var idi, küçədən baxanda onun ola biləcəyini ağlına da gətirə

downloaded from KitabYurdu.org

bilməzsən. İdeal dördbucaq formasındakı bağ mükəmməl idi. Portağal ağacları ilə əhatə olunmuşdu və ortasında fəvvarə yerləşirdi. İndiyə qədər gördüklərimin heç birinə bənzəməsə də, bu fəvvarəni Romada ən çox bəyəndiyim fəvvarəyə rəqib hesab edə bilərəm. Əvvəlcədən deyim ki, bu fəvvarə dəbdəbəli mərmərdən hazırlanmamışdı. Bu, balaca, yosunlu, üzvi bir fəvvarə idi. Üzərindən damcılar axan təbii tüklü ayı döşəyi kimi idi (Əslində, İndoneziyadakı həmin qocanın mənim üçün çəkdiyi başını yarpaqlar bürüyən, dua edən fiquru xatırladırdı). Çiçəkli kolların arasından çıxan su səssizliyə qərq olmur, şirin bir səslə yarpaqlara geri qayıdırdı.

Portağal ağaclanndan birinin altında özümə yer tapıb əyləşdim və ötən gün aldığım şeir kitablarından birini açdım:

Luiza Qlük. İlk şeiri əvvəlcə, italyan dilində, sonra isə ingilis dilində oxudum və bir müddət bu sətir üzərində dayandım:

Dal centro dells mia vita venne una grande fontana...

“Həyatımın mərkəzində möhtəşəm bir fəvvarə yarandı...”

Mən titrəyərək və bütün pisliklərin necə geri çəkildiklərini hiss edərək kitabı qucağıma qoydum.

13

Doğrusu, dünyanın ən yaxşı turisti deyiləm.

downloaded from KitabYurdu.org

Bunu bilirəm, çünki çox səyahət etmişəm və bu məsələdə doğrudan da istedadı olan insanları tanıyıram. Kəlküttədəki bir oyuqdan ayaqqabı qutusu ilə su içib xəstələnməyəcək qədər sağlam olan səyahətçilər görmüşəm. Başqalarının ancaq yoluxucu xəstəliyə tutulduğu bir yerdə, yeni dillər qazanan insanlara rast gəlmişəm. Davranışları ilə insanı hədələməyə və gözünü qorxutmağa çalışan bir cangüdənin qarşısında necə dayanmaq lazım olduğunu bilən və ya viza şöbəsində köməklik göstərməyən bürokratları idarə etməyi bacaran insanlar görmüşəm. Düzgün boy və dəri rəngində olduqlarına görə hara getsələr də yerli əhali onları özünkülər kimi qəbul edir: Türkiyədə türklərlə çox asanlıqla dil tapırlar, Meksikada birdən-birə meksikalı ola bilirlər, İspaniyada onlan basklarla asanlıqla qarışıq salarsan, Şimali Afrikada isə bəzən ərəb kimi qəbul edilə bilirlər.

Mənim belə keyfiyyətlərim yoxdur. Boyum uzundur, sarışınam və ağappaq dərim var. Buqələmundan daha çox flaminqoya oxşayıram. Düsseldorfdan başqa hər yerdə nəzərə çarpıram. Çində olanda küçədə qadınlar mənə yaxınlaşır və sanki zooparkdan qaçmış bir heyvan kimi məni təəccüblə uşaqlarına göstərirdilər. Əvvəllər heç vaxt çəhrayı üzlü, sarı başlı bir adam görməyən uşaqlar çox

downloaded from KitabYurdu.org

vaxt ağlayardılar. Çində hər şeydən çox bundan zəhləm gedirdi.

Bir yeri gəzmədən əvvəl nələrlə qarşılaşacağımı öyrənmək niyyəti ilə tədqiqat aparmağı bacarmıram. Səyahət zamanı baş verən tipik hadisələrdən biri çaşqın halda vağzalda çox vaxt itirmək və ya o yeri tanımadığıma görə otellərə lazım olandan daha artıq ödəniş etməkdir. İstiqaməti təyin etmə və coğrafiya barədə biliklərimin azlığı, həmişə altı qitəni o an olduğum yer barəsində minimum məlumat vasitəsilə kəşf etməyimə səbəb olur. Çəpgöz kompasımla yanaşı, səyahət vaxtı köməyimə çata biləcək soyuqqanlılıqdan da məhrumam. Təhlükəli yerlərə səyahət edəndə xeyli kömək edən təsirli bir vecsizliyin boş ifadəsini üzümə necə yerləşdirməli olduğumu heç vaxt öyrənə bilməmişəm. Söhbət Cakartada bir qiyamın mərkəzində belə sizi vəziyyəti idarə edən tərəf kimi göstərən o rahat mimikadan gedir. Xeyr, mən nə etdiyimi bilməyəndə, elə nə etdiyini başa düşməyən adam kimi də görünürəm. Həyəcanlananda və ya əsəbiləşəndə, həyəcanlı ya da əsəbi görünürəm. Yolumu azanda isə - bu tez-tez baş verir - istiqamətini itirmiş kimi görünürəm. Simam fikirlərimi ötürən bir cihaz kimidir. Devidin bir vaxtlar dediyi kimi: “Bilirsənmi, poker oyununda oyunçular

downloaded from KitabYurdu.org

üzlərindəki ifadəni büruzə verməməyə çalışırlar, səndə isə tam tərsinədir. Sən sanki mini qolfdakı oyunçusan".

Həzm prosesinin səyahətimə faciəli surətdə təsir etməsi isə, başqa bir mövzudur. Bu xoşagəlməz mövzunu, ifadə üçün üzr istəyirəm, soxulcanlarla dolu bankanı heç açmaq istəmirəm. Yalnız onu deyə bilərəm ki, mədə kataklizmlərindən biri də məndən yan keçmədi. Livanda olanda bir gecə o qədər pis xəstələndim ki, ebol virusunun yaxın Şərq variantına yoluxduğumu fikirləşməyə başladım. Macarıstanda "Sovet bloku" sözünün mənasını mənim üçün birdəfəlik dəyişdirən tamamilə fərqli bir bağırsaq probleminə məruz qaldım. Venesuelada vəhşi cəngəlliklərdən birində infeksiya daşıyıcısı olan zəhərli hörümçəklərlə mübarizə apardım və sizə sual verirəm - yalvarıram, deyin! Hansınız Stokholmda günəşdən yanmısmız?

Bütün bunlara baxmayaraq səyahət etmək həyatda ən sevimli məşğuliyyətlərdən biridir. On altı yaşımda dayəlikdən qazandığım pullarla Rusiyaya səyahət edəndən bəri gəzintinin hər cür fədakarlığa və xərcə dəydiyini düşünürəm. Səyahətə olan sevgimə digər dostlanma qarşı olmadığım qədər sadiq və sabitəm. Bu hisslər təzəcə ana olan, xoşbəxt bir qadının dözmək mümkün olmayan, ağrılı, narahat, yenicə doğulmuş

downloaded from KitabYurdu.org

körpəsinə qarşı hiss etdiyi duyğulara bənzəyir. Başıma nə gələcəyi vecimə də deyil, çünki ona heyranam! Mənə çox oxşayır. Üstümə qusmağına belə heç nə demərəm.

Bir flaminqo olmağıma rəğmən dünyada o qədər də çarəsiz deyiləm. Özümə məxsus mübarizə üsullarım var. Səbirliyəm. Çamadanın necə daha yüngül olacağını bilirəm. Yeməkdən qorxmuram. Amma ən böyük istedadım səyahət vaxtı hər hansı bir şəxslə dostluq qura bilmək bacarığımdır. Ölülərlə belə dost
ola bilərəm. Bir dəfə Serbiyada bir hərbi cinayətkarla tanış oldum və məni ailəsi ilə birlikdə gedəcəyi dağ gəzintisinə dəvət etdi. Serbiyalı bir cinayətkarla dostluq etdiyim üçün qürur duyduğumu demək istəmirəm (Bir yazımı tamamlamaq və mənə dəyməməsi üçün onunla dostlaşmalıydım). Sadəcə, bu mövzuda nə dərəcədə bacarıqlı olduğumu bildirmək istəyirəm. Zənnimcə, ətrafda danışmağa heç kim olmasa, divarla da dost ola bilərəm. Tanımağa yeni insanlar olduqca, dünyanın ən ucqar yerlərinə belə səyahət etməkdən qorxmuram. İtaliyaya getmək üçün ölkəni tərk etməzdən əvvəl insanlar məndən soruşurdular: “Romada dostun var?” Mən isə başımı silkələyərək olmadığını bildirsəm də, tezliklə bu sualı təsdiqləyəcəyimə ümid edərdim.

Gəzinti vaxtı dostluq, adətən təsadüfən yaranır.

downloaded from KitabYurdu.org

Məsələn: Qatarda, liftdə və ya restoranda qarşılaşaraq meydana gəlir. Amma heç vaxt şansa arxayın olmaq olmaz. Daha sistemli bir yanaşma tərzi kimi, rəsmi olaraq səni bir tanışının tanışına tanıdan "tanışlıq məktubu" var (Müasir dövrdə e-poçt sistemi daha aktualdır). Əgər kiməsə zəng edib özünü şam yeməyinə
dəvət etdirə biləcək qədər arsızsansa, bəxtin gətirəcək. Buna görə də İtaliyaya getməzdən əvvəl, Amerikada tanıdığım hamıdan Romada tanışları olub-olmadığını soruşdum və əlaqə nömrələrindən ibarət uzun bir siyahının xoşbəxt sahibəsi oldum.

Potensial italyan dostlarımın namizədləri arasında "Luka Spagetti" adlı bir nəfər var idi. Ən çox onunla tanış olmağa can atırdım. Luka Spagetti məktəb illərindən bəri tanıdığım Patrik Makdevit adlı bir dostumun yaxmı idi. And içirəm ki, bu onun əsl adıdır! Uydurmamışam. Çox qeyri-adidir! Bir fikirləşin: Patrik Makdevit adı ilə necə yaşamaq olar?

Qısaca desək, Luka Spagetti ilə nə qədər tez mümkünsə, tanış olmağı qərara aldım.

14

İlk olaraq, məktəbdə qeydiyyatdan keçmək lazım idi. Bu gündən etibarən həftədə 5 gün, gündə 4 saat italyan dili öyrənəcəyim Leonardo da Vinçi dillər akademiyasındakı

downloaded from KitabYurdu.org

kursuma başlayıram. Həyəcanlıyam. Çox həyasız tələbəyəm. Orta məktəbə başladığım ilk gündən etibarən hər dəfə gecə dəri ayaqqabılarımı və yemək çantamı səhər üçün hazırladığım kimi, indi də geyinəcəyim paltarlan axşamdan hazırlayıb qoydum. Müəllimimin məni xoşlayacağına ümid edirdim.

Dil səviyyəmizə uyğun olan siniflər üzrə bölünmək üçün Leonardo da Vinçidə ilk gün test imtahanı verməli idik. Bunu eşidəndə birinci səviyyəlilər üçün olan sinfə düşməməyə ümid etməyə başladım. Uzun bir semestr ərzində Nyu Yorkda boşanmış qadınlar üçün gecə məktəbində italyan dili kursuna getdiyimi, yayı yaddaş kartlarını əzbərləməklə başa vurduğumu və cəmi bir həftədir ki, Romada olmağıma baxmayaraq artıq qoca nənələrlə italyan dilində rahatlıqla boşanma mövzusunda danışdığımı nəzərə alsaq, bu, bir o qədər də xoş olmazdı. Əsimdə, akademiyadakı dil kurslarının neçə səviyyədən ibarət olduğunu bilmirəm. Amma səviyyə sözünü eşidən kimi qəti qərara gəldim: Heç olmasa ikinci səviyyədən başlamalıyam!

Bu gün güclü yağış yağırdı. Lap ucundan tutub göyə çıxmalı idi. Məktəbə vaxtından tez getdim (həmişə olduğu kimi) və test imtahanını verdim. Çox çətin idi! On suala belə doğru cavab verə bilmədim! İtalyan dilində

downloaded from KitabYurdu.org

onlarla söz öyrənmişəm, amma bildiyim heç nəyi soruşmadılar! Sonra daha betəri var - şifahi imtahan! Anq bir italyan müəllimi mənimlə söhbət etdi. Mənə elə gəlirdi ki, çox sürətli danışır və gərginliyin təsiri ilə bacardığımdan daha zəif cavab verirdim. Bildiyim şeylərdə də səhv edirdim (məsələn: "Sono andata a scuola" əvəzinə "Vado a scuola" dedim. Amma bunu bilirdim!).

Lakin hər şey yaxşı qurtardı. İtalyan müəllim imtahan nəticəmə baxdı və sinfimi təyin etdi: İkinci səviyyə!

Dərslər günortadan sonra başlayır. Ona görə də nahara gedirəm (qızardılmış endiviy yeyirəm), sonra yenidən məktəbə qayıdıram və özündənrazı halda bütün birinci səviyyə
tələbələrinin qarşısından keçib gedirəm (Onlar yəqin ki, "molto stupido", yəni çox axmaqdırlar) və öz səviyyəmdəki tələbələrlə ilk dərsimə girirəm. Amma tezliklə məlum olur ki, onlarla bir səviyyədə deyiləm və ikinci səviyyə həddindən artıq çətindir. Mənə elə gəlir ki, üzə bilirəm, amma çox çətinliklə. Sanki hər dəfə nəfəs aldıqca su uduram. Bizə dərs deyən anq müəllim (Görəsən, burada müəllimlər niyə bu qədər arıqdırlar? Arıq italyanlara etibar etmirəm!) dərs kitabındakı bölmələri, - "Bunu artıq bilirsiniz, onu çoxdan

downloaded from KitabYurdu.org

öyrənmisiniz”, - deyə sürətlə keçib gedir və görünüş etibarilə, italyan dilində olduqca rahat danışa bilən sinif yoldaşlarımla sürətlə müzakirələr aparır. Qorxudan ürəyim bulanır, çətinliklə nəfəs alıram və adımı çəkməsin deyə dua edirəm. Fasilə verilən kimi titrəyən ayaqlarla sinifdən qaçıram, ingilis dilində məni birinci səviyyəyə keçirməklərini xahiş edəcəyim o yolu sürətlə, az qala ağlaya-ağlaya gedirəm. Dəyişdirirlər. Və artıq buradayam.

Buradakı müəllim kökdür və bayaqkına nisbətən asta danışır. Bu daha yaxşıdır.

15

Çox maraqlı qrup yoldaşlarım var. Əslində, onlardan heç birinə italyan dili lazım deyil. Hər yaşdan, dünyanın hər yerindən gələn qrupumuzdakı bu on iki nəfər Romaya ortaq bir məqsədlə - italyan dilini öyrənmək üçün gəlib. Heç kim burada nə işi olduğunu ciddi bir səbəblə əsaslandıra bilmir. Heç birimizin müdiri, - “İşlərimizi xaricdə də davam etdirə bilməyimiz üçün italyan dili öyrənməyin həyati əhəmiyyət daşıyır!” - deməyib. Gərgin alman mühəndis də daxil olmaqla, hamı bir nəfər kimi mənim şəxsi motivasiya üsulum olduğunu düşündüyüm fikirləri bölüşür: Hamımız italyan dili öyrənmək istəyirik, çünki bizə bəxş etdiyi duyğunu sevirik. Kədərli bir üzü

downloaded from KitabYurdu.org

olan rus qadın özünü italyan dili kursu ilə mükafatlandırdığını deyir: “Məncə, gözəl bir hədiyyəyə layiqəm”. Alman mühəndis isə seçimini belə izah edir: “İtalyan dilini öyrənmək istəyirəm, çünki “dolce vita”nı (şirin həyatı) sevirəm” (Alman aksenti ilə danışdığına görə mənə elə gəldi ki, “deutsche vita”nı (alman həyatını) sevdiyini deyir).

Qarşıdan gələn bir neçə ay ərzində italyan dilinin dünyadala ən başdan çıxardan dil olmağına və belə düşünən tək şəxs olmadığıma əmin olmaq üçün yaxşı səbəblərim olacaq. Bunu başa düşmək üçün əvvəlcə, Avropanın bir vaxtlar əsrlər boyu yavaş-yavaş fransız, portuqal, ispan, italyan dilləri kimi bir neçə müstəqil dilə çevrilən saysız-hesabsız latın mənşəli dialektlərdən ibarət bir yer olduğunu bilmək lazımdır. Fransa, Portuqaliya və İspaniyada baş verənlər üzvi təkamüldür. Buna görə də bugünkü fransız dili orta əsrlərdəki Paris dilinin bir variantıdır. Portuqal dilinin əsasında Lissabon, ispan dilinin əsasında isə Madrid dili dayanır. Bütün bunlar paytaxtların qələbəsidir, çünki ölkədəki ən güclü şəhər nəticədə bütöv bir ölkənin taleyini müəyyən edir.

İtaliyada vəziyyət fərqlidir. Əsas fərqlərdən biri İtaliyanın uzun bir dövr ərzində bir dövlət belə ola bilməməsidir. Yerli şahzadələr və ya digər Avropa

downloaded from KitabYurdu.org

qüvvələri tərəfindən təzyiqlərə məruz qaldığı, vuruşan şəhər-dövlətlərin yarımadası halına
gəldiyi tarixə qədər (1861) birləşdirilə bilməyib. İtaliyanın bir hissəsi Fransaya, bir hissəsi İspaniyaya, bir hissəsi kilsəyə, bir hissəsi isə yerli, qalanı və sarayı işğal edənə məxsus olurdu. İtalyanlar bütün bu dominantlıq qarşısında tabe olmağa məcbur qalırdılar. Çoxluq dost saydıqları avropalılar tərəfindən müstəmləkəyə çevrilməyi qəbul etmək istəməsə də, etinasız kütlə həmişə belə deyirdi: "Franza o Spagna, purche se magna". Mənası belədir: "Fransa və ya İspaniya, fərqi yoxdur. Əsas odur ki, yemək olsun".

Bu daxili bölünmə İtaliyanın və italyan dilinin heç vaxt uyğun şəkildə birləşdirilə bilmədiyini göstərir. Buna görə də italyanlar əsrlərlə qarşılıqlı olaraq anlaşılmayan yerli dialektlərlə yazıb danışırdılar. Florensiyalı bir alim siciliyalı bir şair və ya venesiyalı bir tacirlə çətinliklə ünsiyyət qura bilirdi (Əlbəttə ki, milli dil belə hesab edilməyən latın dilini çıxmaq şərtilə). On altıncı əsrdə bir neçə italyan ziyalısı bir yerə yığışıb bu vəziyyətin olduqca absurd olduğu qənaətinə gəldi. Yarımadada hamının danışa biləcəyi, heç olmasa yaza biləcəyi vahid bir dilə ehtiyac var idi. Beləliklə, ziyalıların yığıncağı
Avropada misli görünməyən bir nəticəyə gətirib çıxardı:

downloaded from KitabYurdu.org

Bütün yerli dialektlərdən ən gözəlini seçib “italyan dili” adlandırdılar.

İtaliyada o vaxta qədər mövcud olmuş ən gözəl dialekti tapmaq üçün iki yüz il keçmişə, on dördüncü əsr Florensiyasına qayıtmaq lazım gəldi. Konqresin təyin etdiyi dil məşhur florensiyalı şair Dante Aligyerinin şəxsi dili idi. Dante 1321-ci ildə cəhənnəm, əraf, cənnət adlı üç bölmədən ibarət olan “İlahi komediya”sım nəşr etdirəndə, latınca yazmadığına görə ədəbiyyat aləmini şoka salmışdı. O, latın dilinin korlandığını, elitar dil olduğunu və ciddi nəsrdə ondan istifadə edilməyinin aristokratik təhsilin üstünlükləri sayəsində ədəbiyyatı pulla satın alma biləcək bir pozğuna çevirdiyini iddia edirdi. Bunun əvəzinə o, yaşadığı şəhərin sakinləri tərəfindən (Müasirləri Bokkaççо və Petrarka da daxil olmaqla) istifadə edilən əsl Florensiya dilini müəyyənləşdirir və öz fikirlərini bu dildə qələmə almağa başlayır.

Dante özünün “dolce stil nuovo” (şirin, yeni tərz) adlandırdığı şah əsəri ərsəyə gətirir və yazarkən Şekspirin Elizabet dövrünün ingilis dilinə təsir etdiyi qədər dərindən bu
dili “səliqəyə salır”. Sonralar bir qrup millətçi ziyalının Dantenin dilinin İtaliyanın rəsmi dili olmağında qərar verməsi, on doqquzuncu əsrin əvvəllərində Oksford

downloaded from KitabYurdu.org

professorlarının o vaxtdan etibarən hər kəsin Şekspirin dilində danışmalı olduğuna qərar verməsi kimi olardı. Və həqiqətən də belə oldu.

Beləliklə, bugünkü italyan dili nə romalıların, nə venesiyalıların (Hərbi-strateji əhəmiyyətli şəhərlər olmaqlarına baxmayaraq), nə də tam olaraq florensiyalılann danışdığı dildir. Bu, "Dante dili"dir. Digər heç bir Avropa dili belə bir bədii şəcərəyə sahib deyil. Və bəlkə də heç bir dil insan duyğularını ifadə etməkdə Qərb mədəniyyətinin ən böyük şairlərindən biri olan Dante tərəfindən tərtib edilmiş on dördüncü əsr Florensiya italyan dilindən daha təqdirəlayiq deyil. Dante "İlahi komediya"nı "terza rima" ilə, yəni gözəl Florensiya danışıq dilinə bu gün italyan sürücüləri, qəssablar və dövlət məmurları tərəfindən istifadə edilən poetik ahəngdəki ritm olan, mütəxəssislərin "kaskad ritm" adlandırdığı ritmi də əlavə etməklə, eyni qafiyənin hər beş sətirdə üç dəfə təkrarlandığı bir qafiyə zənciri ilə, üçlük qafiyə şəklində yazıb.

Əsərdə Dantenin şəxsən tanrı ilə üzləşdiyi son sətir müasir italyan dilinə qismən bələd olan hər hansı bir şəxs tərəfindən asanlıqla anlaşıla bilər. Dante yazır ki, "Tanrı parlaq bir işığın gözləri kor edən görünüşündən ibarət deyil". Onun fikrincə, Tanrı hər şeydən çox budur:

downloaded from KitabYurdu.org

“L’amor che move il sole e l’altre stelle”.

“Günəşi və digər ulduzları hərəkətə gətirən sevgi...”

Elə isə italyan dilini öyrənməyi bu qədər çox istədiyimə görə təəccüblənməyimə ehtiyac yoxdur.

16

İtaliyada keçirdiyim on gündən sonra depressiya və tənhalıq adlı köhnə dostlanm məni izləməyə başladılar. Kursda maraqlı keçən bir günün ardınca bir axşam Villa Borgezedə gəzir və Müqəddəs Pyotr kilsəsinin üzərindən batan günəşin qızılı şüalanna tamaşa edirdim. Məndən başqa hamı ya sevgilisini qucaqlayır, ya da şən halda gülən körpəsi ilə oynayırdı. Tək olsam da bu mənzərəyə şahid olmaqdan olduqca məmnun idim. Çəpərə söykənib günün batmağını seyr etməyə və düşünməyə başladım. Dərin fikirlərə qərq olduğum bir anda məni tutdular.

Xəfiyyə Pinkerton kimi səssiz və qətiyyətli bir halda yaxınlaşıb məni mühasirəyə alırlar. Solumda depressiya, sağımda isə tənhalıq... Mənə vəsiqələrini göstərməklərinə ehtiyac yoxdur. Onları yaxşı tanıyıram. İllərdir ki, onlarla siçan-pişik oynayırıq. Yenə də boynuma alıram ki, bu zərif

italyan bağında və toranlıqda onlarla qarşılaşmağı gözləmirdim. Onlar bu yerə mənsub deyillər.

Köhnə tanışlarıma sual verirəm: “Məni burada necə

downloaded from KitabYurdu.org

tapdınız? Romada olduğumu sizə kim deyib?”

Nisbətən daha ağıllı olan Depressiya, - “Necə yəni? Bizi gördüyünə görə sevinmədin?” - deyə soruşur.

“Gedin buradan!” - deyirəm.

Həssas xəfiyyə olan Tənhalıq isə deyir: “Bağışlayın, xanım, amma səyahətiniz ərzində sizi müşayiət etməliyəm. Bu mənim vəzifəmdir”.

“Bunu etməsəniz daha yaxşı olar”, - deyirəm. O, pərt halda çiyinlərini çəkir, amma yenə də mənə yaxınlaşmağa davam edir.

Sonra üst-başımı axtarırlar. Cibimdə daşıdığım ən kiçik əşyalanmı belə boşaldırlar. Depressiya həmişəki kimi şəxsiyyətimi müsadirə edir. Sonra Tənhalıq məni sorğu-suala tutur. Məni dəhşət bürüyür, çünki bu sorğu-sual, adətən saatlarla davam edir. O, nəzakətli, eyni zamanda mərhəmətsizdir və həmişə məni çaşdırır. Xoşbəxt olmaq üçün hər hansı bir səbəbimin olub-olmadığını soruşdu. Nəyə görə bu
gecə yenə də tək olduğumu bilmək istədi. Niyə heç bir münasibəti axıra qədər davam etdirə bilmədiyimi, ailə həyatımı nəyə görə məhv etdiyimi, Devidlə işləri korlamağımın, bu günə qədər tanıdığım kişilərlə düzgün münasibət qurmağı bacarmamağımın səbəbini soruşdu (Bu suallann üstündən yüz dəfələrlə keçmiş olsaq da).

downloaded from KitabYurdu.org

Otuz yaşımı qeyd etdiyim gecə harada olduğumu və o gündən etibarən nəyə görə hər şeyin pisə doğru getdiyini soruşdu. Niyə mənim yaşımdakı bir qadının etməli olduğu kimi böyük bir evdə, gözəl uşaqlanmı böyütməklə məşğul olmadığında maraqlandı. Öz həyatımı bu qədər məhv edəndən sonra Romada istirahət etməyə haqqım olduğu fikrinə hardan gəldiyimi bilmək istədi. Məktəbli uşaq kimi İtaliyaya qaçıb sığınmağın məni xoşbəxt edə biləcəyi qənaətinə necə gəldiyimi soruşdu. Əgər belə yaşamağa davam etsəm həyatımın son günlərini harada keçirəcəyimi öyrənmək istədi.

Onlardan xilas olmaq ümidi ilə evə tərəf gedirdim, amma bu iki gicbəsər məni izləməyə davam edirdi. Depressiya əli ilə çiynimi bərk-bərk sıxırdı. Tənhalıq isə məni fasiləsiz sual

atəşinə tuturdu. Şam yeməyinə belə həvəsim yoxdur. Mənə baxmaqlarını istəmirəm. Əslində, mənimlə birlikdə yuxarı, qaldığım mənzilə çıxmaqlarına icazə vermək fikrim yoxdur, amma Depressiyanı yaxşı tanıyıram. Onun iri bir çomağı var. Ona görə də içəri girmək istəsə mane ola bilməyəcəyəm.

“Mənimlə bura qədər gəlməyiniz heç düzgün deyil”, - Depressiyaya deyirəm. “Mən onsuzda cəzalandırılmışam. Cəza müddətim də Nyu Yorkda başa çatıb”.

downloaded from KitabYurdu.org

O isə qaranlıq təbəssümü ilə cavab verir, sevimli kreslomda oturur, ayaqlarını qaldırıb masanın üstünə qoyur və bir siqar yandıraraq ətrafı boğucu dumana bürüyür. Tənhalıq baxır və dərindən köks ötürür. Sonra paltarlarını və ayaqqabılarını çıxarmamış yerimə girib üstünü örtür. Bilirəm, bu gecə yenə məni özü ilə yatmağa məcbur edəcək.

17

Bir neçə gün əvvəl dərman qəbul etməyi dayandırmışdım. İtaliyada depressiya əleyhinə dərman qəbul etmək mənə mənasız gəlirdi. Belə bir yerdə necə depressiyaya düşmək olar?

Onsuzda o müalicəni heç sevmirdim. Şəxsi etirazlarımdan ibarət olan uzun bir siyahını bəhanə edərək o dərmanlan qəbul etməmək üçün bir müddət mübarizə apardım (Məsələn: Amerikalılar onsuz da dərmandan çox istifadə edirlər. Depressiya əleyhinə olan dərmanlardan uzun müddət istifadə olunmasının insan beyninə necə təsir göstərdiyini bilmirik. Son vaxtlarda, hətta Amerikada uşaqlara depressiya əleyhinə dərmanlann verilməsi cinayət sayılır. Biz bu dərmanlar vasitəsilə sadəcə əqli sağlamlıq problemlərinin səbəblərini deyil, əlamətlərini aradan qaldırırıq). Buna baxmayaraq, son bir neçə ildə çox ciddi bir gərginlik içərisində olduğuma və

downloaded from KitabYurdu.org

bu gərginliyin asanlıqla silinib getmədiyinə şübhə etmirdim. Ailə həyatımın başa çatmaq üzrə olduğu və Devidlə faciəmizin
davam etdiyi vaxtlarda şiddətli depressiyanın bütün əlamətlərinə məruz qaldım: Yuxusuzluq, iştahasızlıq, idarə edilə bilməyən göz yaşları, xroniki bel və mədə ağrıları, biganəlik və ümidsizlik, fikrini cəmləyə bilməmək, hətta respublikaçıların yenicə qalib gəldiyi prezident seçkilərinin nəticələrinə görə məyus olmamaq. Siyahı beləcə uzanıb gedir...

Bəzən meşədə itəndə vəziyyəti başa düşmək xeyli vaxt aparır. Yoldan cəmi bir neçə metr uzaqda olduğuna, istədiyin vaxt geri qayıda biləcəyinə uzun müddət özünü inandıra bilərsən. Qaranlıq düşəndə isə hələ də harada olduğunu bilmirsən. Günəşin hansı tərəfdən çıxdığını başa düşə bilməyəcək qədər uzaqlaşdığını əvvəl-axır qəbul etməlisən.

Depressiyamı həyatımın mübarizəsi kimi görürdüm. Doğrudan da belə idi. Öz daxili böhranımın quluna çevrilirdim. Səbəbləri başa düşməyə cəhd edirdim. Bütün bu ümidsizliyin təməlində nə dayanırdı? Bu, psixoloji idi yoxsa yox? (Bəlkə ata- anamın günahı idi?) Bəlkə sadəcə, həyatımın pis bir dövrü idi? (Boşanma ilə birlikdə depressiya da sona çatacaqdımı?) Ya da bəlkə genetik

downloaded from KitabYurdu.org

idi? (Kədər öz həyat yoldaşı olan Sərxoşluqla
birlikdə ailəmdə nəsildən-nəslə keçib). Mənsub olduğum mədəniyyətlə əlaqəsi ola bilərdimi? (Bəlkə bütün bunlar karyera ardınca qaçan amerikalı bir qızın stress və etinasızlıq içində boğulan həyatında balans tapmaq cəhdlərinin nəticəsi idi?) Ya da astroloji idi? (Xoşbəxt deyiləm, çünki əsas xüsusiyyətləri qeyri-sabit olan əkizlər bürcü tərəfindən tənzimlənən həssas bir əqrəb bürcü nümayəndəsiyəm). Bəlkə hər şey mənim yaradıcı təbiətimdən irəli gəlirdi? (Yaradıcı insanlar ifrat həssas və xüsusi olduqlarına görə daim depressiyada olurlar, elə deyilmi?) Bəlkə təkamüllə bağlı idi? (Bəlkə digər insanlann bu qəddar dünyada yaşamaq uğrunda apardığı mübarizə cəhdlərinin min illik qorxusunun qalıqlarını daxilimdə daşıyıram?) Bəlkə bunun səbəbi karma idi? (Bütün bu ağrılar əvvəlki həyatımda etdiyim pis əməllərin nəticəsi ola bilərdi?) Ya da görəsən hormonal idi? Bəlkə də düzgün qidalanmırdım. Ya da doğru olmayan həyat fəlsəfəm var idi. Və ya sadəcə, havanın pis olması ilə əlaqəliydi. Ətraf mühitin çirklənməsi ilə də bağlı ola bilərdi. Bəlkə mən də Yaradana doğru istiqamətlənən universal arzu dalğasına qoşulmuşdum? Kimyəvi tarazlığım
pozulmuş ola bilərdimi? Ya da bəlkə sadəcə, yeni bir

downloaded from KitabYurdu.org

münasibətə ehtiyacım var idi?

Hər bir insan ayrılıqda nə qədər təsirə məruz qalır! Nə qədər çox amildən asılı yaşayırıq. Zehnimiz, bədənimiz, tariximiz, ailələrimiz, şəhərlərimiz, ruhlarımız və hətta yeməyimiz bizə necə ciddi təsir edir! Böyük ehtimalla, depressiyamda bütün bu amillərin bir rolu olduğuna və ad verə bilmədiyim bəzi digər məsələlərin də bura aid olduğuna inanıram. Buna görə də bütün cəbhə boyu mübarizəyə başlamağa qərar verdim. Özünü inkişafla bağlı utandıncı adı olan bir çox kitab aldım (Ətrafdakılar nə oxuduğumu bilməsinlər deyə həmişə kitabı "Hustler" jurnalının axırıncı sayının arasına yerləşdirirəm). Mehriban və bacarıqlı bir psixoloqdan kömək aldım. Rahibəliyə namizəd kimi dua etdim. Bir nəfər, - "heyvanın ölüm anında hiss etdiyi qorxunu yediyimi", - deyəndən sonra ət yeməkdən imtina etdim (Qısa bir müddət üçün). Başdanxarab bir masajçı mənə narıncı rəngdə alt paltan geyinməyi, beləliklə cinsi çakralanmı yenidən balanslaşdıra biləcəyimi dedi və buna doğrudan da əməl etdim.

Gözlə görünən heç bir effekti olmayan müqəddəs Conun bitki çayından nəhəng bir rus QULAQ-mdakı məhbusları şənləndirəcək qədər içdim. İdmanla məşğul oldum. İncəsənətlə maraqlandım və kədərli filmlərdən,

downloaded from KitabYurdu.org

kitablardan, mahnılardan özümü qorumağa çalışdım (Əgər kimsə Leonard və Koheni eyni cümlədə desəydi, dərhal otağı tərk edərdim).

Tez-tez ağlamaq alışqanlığımdan yaxa qurtarmaq üçün çox çalışdım. Bir gecə yenə eyni küncdə, kresloda, eyni kədərli fikirləri beynimdə təkrarlayarkən özümə, - "Bu gördüyün səhnədə dəyişdirə biləcəyin nə isə var, Liz", - deyə sual verdiyimi xatırlayıram. O anda ağlıma gələn yeganə fikir hələ də göz yaşları içində ayağa qalxıb, qonaq otağımın ortasında tək ayaq üstündə tarazlığımı qorumağa çalışmaq idi. Göz yaşlanma hakim olmaqdan və daxilimdəki qəmli dialoqu dayandırmaqdan aciz olmağıma baxmayaraq, tamamilə özümü idarə qabiliyyətimi itirmədiyimi sübut etmək üçün buna cəhd etdim. Yox, hələ ki, özümü idarə edə bilirəm. Ən azı ona görə ki, tək ayaq üstündə dayananda belə isterik halda, dayanmadan ağlayıram. Bu başlanğıc idi.

Günəş şüalarının altında gəzə bilmək üçün yolu keçdim. Dostlarımdan yalnız islah olunmaz optimistlərlə, məni ruhlandıram doğmalarımla əlaqə saxlayaraq yaxınlarımın və ailəmin əhatəsində təskinlik tapdım. Hər məsələyə müdaxilə edən qadın jurnalları, aşağı səviyyədə olan özünə hörmətim ucbatından depressiyadan çıxa bilməyəcəyimdən başqa bir şey demirdi. Saçlanmı

downloaded from KitabYurdu.org

kəsdirib gözəl bir formaya saldım. Bir az kosmetika və gözəl paltar aldım (Bir dostum yeni imicim barədə kompliment deyəndə gülə-gülə belə cavab verdim: “Özünə hörmət əməliyyatı. Lənətə gəlmiş birinci gün”).

Xroniki depressiya ilə təxminən iki il mübarizə aparandan sonra, son əlac kimi dərmanlara üz tutdum. Əgər məsləhət lazımdırsa deməliyəm ki, bu, əl atacağmız sonuncu üsul olsun! Mən isə “vitamin P” yoluna istiqamətlənmək qərarını, yataq otağımın döşəməsində saatlarla oturub biləklərimi bir mətbəx bıçağı ilə kəsməkdən imtina etmək üçün xeyli səy göstərdiyim o gecədən sonra qəbul etdim. O gecə bıçaqla girdiyim döyüşdən çətinliklə də olsa sağ çıxmışdım. O vaxtlar başqa maraqlı ideyalanm da var idi: Bir binadan aşağı tullanmağın və ya
beynimi bir tapança ilə dağıtmağın əzabımı necə məhv edəcəyi barədəki fikirlər... Amma bu qərara gəlməyimin səbəbi əlimdə bıçaqla keçirdiyim o gecə idi.

Ertəsi səhər günəş doğan kimi rəfiqəm Suzana zəng edib mənə kömək etməsi üçün yalvardım. Bu günə qədər ailəmizdə məndən başqa heç bir qadının yolun - həyatının ortasında dayanıb, - “Bir addım belə irəli gedə bilməyəcəyəm. Mənə kömək lazımdır”, - dediyinə inanmıram. Mənim əcdadlarım heç bir halda təslim

downloaded from KitabYurdu.org

olmazdılar. Heç kim onlara kömək etməz, edə bilməzdi. Bunu etsələr özləri və ailələri aclığa məhkum olardı. Mən ara vermədən bu haqda düşünürdüm.

Təcili zəngimdən təxminən bir saat sonra mənzilimə daxil olanda və məni kresloda pərişan bir vəziyyətdə görəndə Suzanın üzündə yaranan ifadəni heç vaxt unutmayacağam. Onun mənim üçün hiss etdiyi nəzərə çarpacaq qədər böyük olan narahatlığın üzündə yansıyan rəsmi, hələ də mənim üçün bütün o dəhşətli illərin ən qorxunc xatirələrindən biridir. Mən kiçilib balaca bir top halına gəldiyim vaxt, Suzan kiməsə zəng etdi və həmin gün depressiya əleyhinə həblərin nə dərəcədə zəruri olduğunu mənimlə müzakirə edəcək bir psixiatr tapdı. Suzanın həkimlə etdiyi birtərəfli söhbətə qulaq asdım və ona, - "Rəfiqəmin özünə zərər yetirməyindən qorxuram", - dediyini eşitdim. Mən də bundan qorxurdum.

Günorta psixiatrın yanma getdim. Nəyə görə kömək istəmək üçün bu qədər gecikdiyimlə maraqlandı. Uzun müddətdir ki, özüm özümə kömək etməyə çalışmırdım? Ona depressiya əleyhinə dərman qəbul etməkdən ehtiyat etdiyimi və istəmədiyimi bildirdim. Nəşr etdirdiyim üç kitabı stolunun üstünə qoydum və dedim: "Mən yazıçıyam. Xahiş edirəm ki, beynimə zərər verə biləcək heç nə tövsiyə etməyin". O isə dedi ki, - "Əgər

downloaded from KitabYurdu.org

böyrəyinizdə bir xəstəlik olsaydı, dərman qəbul etmək barəsində tərəddüd etməzdiniz. Bu mövzuda niyə etiraz edirsiniz ki?" Bu sual isə sadəcə, onun mənim ailəm barəsində nə qədər az məlumatı olduğunu göstərirdi. Hər hansı bir xəstəliyi şəxsi, etik və əxlaqi bir müvəffəqiyyətsizliyə işarə kimi qəbul edən bir ailə olduğumuzu nəzərə alsaq, Gilbert ailəsinin hər hansı bir üzvü böyrək xəstəliyi ilə bağlı da dərmandan imtina edə bilər.

O mənə ürək bulandırmayan və libidonu qaranlıq, uzaq bir xatirəyə çevirmək qorxusu olmayan bir neçə dərman yazdı: Xanax, Zoloft, Uellbutrin, Busperin. Bir həftədən də qısa vaxt ərzində zehnimdə işıqlanma başladı. Ən əsası, nəhayət ki, yata bilirdim. Bu isə əsl mükafat idi, çünki yatmayanda adam özünü heç cür dibi görünməyən o quyudan çıxarda bilmir. Dərmanlar mənə möhkəmləndirici təsirə malik olan gecə saatlarımı geri qaytardı, eyni zamanda əllərimin titrəməsini aradan qaldırdı və məni ürəktutmasından, ürəyimin içindəki həyəcan düyməsindən xilas etdi.

Dərhal təsirini göstərsə də bu dərmanlardan istifadə etdiyimə görə həmişə narahatlıq keçirirdim. Dərman qəbul etməyin yaxşı bir fikir olduğunu və heç bir əks təsir göstərmədiyini kimin deməyinin əhəmiyyəti yox idi. Bu

downloaded from KitabYurdu.org

mövzuda həmişə təzadlı fikirlərə malik idim. Bu dərmanlann o biri dünya ilə aramdakı körpünün bir hissəsi olduğu danılmaz fakt idi, amma yenə də onlardan mümkün qədər tez bir zamanda qurtulmaq istəyirdim. Dərman qəbul etməyə 2003-cü ilin yanvar ayında başladım. May ayına qədər isə tədricən
dozasını bir xeyli azaltdım. Bu aylar ən çətin dövr idi: Boşanmaq üzrə olduğum aylar, Devidlə münasibətimizin pərişan vəziyyətdə olduğu vaxt. Bir az da dözsəydim, bütün o ayları dərmansız da ötüşə bilməzdimmi? Öz gücümlə həyatda qala bilərdim? Bilmirəm. İnsan həyatı belədir. Hər hansı bir hadisənin axarı dəyişdiyi təqdirdə, nəticənin necə olacağını bilmək heç cür mümkün deyil.

Dərmanların əzabımı yüngülləşdirdiyinə əminəm. Buna görə onlara minnətdaram. Amma yenə də emosional vəziyyətimə təsir edən bu dərmanlar barədə qərarsızam. Güclərinə hörmət edirəm, amma bu qədər geniş yayılmaqları məni narahat edir. Fikrimcə, onlar bu ölkədə çox geniş istifadə edilməməli, ancaq reseptlə satılmalı və psixoloq məsləhəti olmadan heç vaxt qəbul olunmamalıdır. Səbəblərini müəyyənləşdirmədən hər hansı bir xəstəliyin əlamətlərini dərmanla müalicə etmək üsulu, heç kimin tamamilə sağala bilməyəcəyini düşünən klassik dovşan beyinli Qərb təfəkkürünün məhsuludur.

downloaded from KitabYurdu.org

Bütün bu dərmanlar həyatımı tək öz gücləri ilə deyil, eyni dövr ərzində özümü xilas etmək üçün üz
tutduğum iyirmiyə yaxın müxtəlif üsulun da köməyilə xilas edə bildilər. Bir həkim melanxolik olduğuma görə müəyyən fasilələr verməklə, ömür boyu bu dərmanlarla yaşamağa məcbur ola biləcəyimi desə də, ümid edirəm ki, onları bir də qəbul etməyəcəyəm. Onun səhv etdiyini isbata yetirmək və ya heç olmasa melanxolik təbiətimlə mübarizə apara bilmək üçün əlimdəki bütün imkanlardan faydalanaraq bacardığım hər şeyi etmək niyyətindəyəm. Bilmirəm ki, bu məni özünü qurbana çevirən yoxsa qoruyan bir inadkara çevirir, amma belə edirəm.
Çünki mən beləyəm.
18
Romaya gəldim və dərhal da problemlərim başladı. Depressiya və Tənhalıq yenə həyatıma girdilər və üç gün əvvəl sonuncu Uelbutrinimi qəbul etdim. Aşağı siyirtməmdəki dərmanlar hələ qalıb, amma onları mədəmə boşaltmaq istəmirəm. Sonsuza qədər xilas olmaq istəyirəm! Həmçinin Depressiya və Tənhalığın da ətrafımda olmağına dözə bilmirəm. Ona görə də həmişəki kimi gərgin və əlacsız vəziyyətdə fırlanıram. Nə vaxtsa narahatlığa düçar olanda köməyimə çatacağına ümid edərək, çarpayımın yanında fövqəladə hallar üçün

downloaded from KitabYurdu.org

nəzərdə tutulan bir dəftər qoyuram. Bu gecə də ona sığınacağam. Onu əlimə alıb açıram. Qarşıma çıxan birinci boş səhifədə yazıram:
“Köməyinə ehtiyacım var”.
Gözləyirəm. Bir az sonra öz əl yazımla cavab gəlir:
“Mən buradayam. Sənin üçün nə edə bilərəm?”
Və beləcə, qəribə və gizli dialoqumuz başlayır. Bu xüsusi dəftər mənim özümlə danışdığım yerdir. Vanna otağında göz
yaşlan içərisində saatlarla Tannya yalvardığım və müdrik bir tonda özümə, - “Yerinə qayıt, yat, Liz!” dediyim səslə danışıram. Ötən illər ərzində ən dəhşətli vaxtlarımda bu səsi yenidən kəşf etdim və mənim üçün ona çatmağın ən yaxşı üsulunun yazılı dialoq olduğunu başa düşdüm. Kədərim nə qədər böyük olsa da, o səsi demək olar ki, həmişə eşidə bildiyimi görmək məni daim təəccübləndirir. Əzabın ən ağır mərhələlərində belə, o, sakit, mərhəmətli, mülayim və sonsuz bir müdrikliyə sahib olan səs (bəlkə mənim səsimdir, bəlkə də yox) gecə-gündüz hər hansı bir vaxt mənimlə kağız üzərində dərdləşməyə hazırdır.

Kağız üzərində özümlə yazışmağımın şizofrenik olduğumu göstərib-göstərmədiyi barədə narahatlıqdan özümü azad etdim. Bəlkə eşitdiyim səs tann, bəlkə mənim

downloaded from KitabYurdu.org

vasitəmlə danışan qurum, ya da vəzifəsi mənim problemimi həll etmək olan bir mələk, mənim "yüksək varlığım" və ya bəlkə də məni öz işgəncəmdən qorumaq məqsədilə meydana çıxan şüuraltı bir oyun idi? Müqəddəs Tereza daxildən gələn bu cür ilahi səsləri "ifadə" adlandırırdı. Fövqəltəbii halda gəlib zehninə daxil olan,
sənin dilində danışan və cənnətə ümid yaradaraq təsəlli verən sözlər... Froydun bu cür daxili səslər haqqında nə deyə biləcəyini təxmin edirəm: "Bu cür səslərə etibar etmək olmaz. Təcrübə göstərir ki, yer üzü uşaq bağçası deyil". Razıyam, dünya uşaq bağçası deyil. Həyatın kifayət qədər qəliz olduğu faktı, nəyə görə insanın hərdən rahatlıq tapmaq üçün daha böyük səlahiyyətlər qazanıb onun mühakimə obyekti olmaqdan çıxmağını zəruri edir?

Mənəvi təcrübələrimin ilk vaxtlarında müdrikliyin daxilimdən gələn səsinə bu qədər inanmırdım. Bir dəfə əsəb və kədərin təsiri ilə yenə dəftərimi götürdüm və böyük hərflərlə bir səhifəni əhatə edəcək formada daxili səsimə - mənəvi rahatlığıma belə bir mesaj yazdım:

"SƏNƏ İNANMIRAM!!!!!"

Bir dəqiqədən sonra təngnəfəs halda daxilimdə nəyinsə alovlandığını hiss etdim və sonra sakit və rahat halda belə bir cavab yazdım:

downloaded from KitabYurdu.org

“Elə isə kiminlə danışırsan?”

O vaxtdan sonra onun varlığına heç vaxt şübhə etmədim. Ona görə də bu gecə yenə o səsi çağırıram. İtaliyaya gələndən bəri bunu birinci dəfədir ki, edirəm. Bu gecə gündəliyimə zəif və qorxaq olduğumu yazdım. Depressiya və Tənhalığın qayıtdıqlarını və bir də heç vaxt getməmələrindən qorxduğumu etiraf etdim. Daha o dərmanları qəbul etmək istəmədiyimi, amma buna məcbur olmaqdan qorxduğumu bildirdim. Həyatımı bir də heç vaxt qaydaya sala bilməməkdən qorxurdum.

Daxilimdən yüksələn tanış səs kədərli olduğum vaxtlarda başqasının dilindən eşitmək istədiyim sözləri deyir. Özümə cavab yazıram:

“Buradayam. Səni sevirəm. Bütün gecə oturub ağlamaq istəsən də, yanında olacağam. Hələ də dərmanlara ehtiyacın varsa, onları qəbul et. Bunu etsən də səni sevəcəyəm. Əgər onlara ehtiyacın yoxdursa, yenə də səni sevəcəyəm. Heç vaxt sənə olan münasibətim dəyişməyəcək. Ölənə qədər və hətta ölümündən sonra da səni qorumağa davam edəcəyəm. Mən
Depressiyadan daha güclü, Tənhalıqdan daha cəsarətliyəm. Heç nə məni əldən sala bilməz”.

Bu gecə daxilimdəki dostumun bu qəribə jesti, ətrafımda təsəlli verəcək heç kimin olmadığı bir vaxtda

downloaded from KitabYurdu.org

öz əlimin özümə uzadılması, Nyu Yorkda olanda başıma gələn bir əhvalatı yadıma saldı. Bir dəfə günorta vaxtı tələsik halda ofis binasına girdim və liftə doğru qaçarkən gözətçinin köşkündəki güzgüdə gözüm öz sifətimin əksinə sataşdı. O anda beynim qəribə bir reaksiya verdi - mənə yanm saniyəlik bir mesaj göndərdi: "Ey! Onu tanıyırsan! O sənin dostundur". Və mən adını yadımdan çıxartdığım, amma üzü həddən artıq tanış gələn qızla salamlaşmaq üçün gülümsəyərək güzgüdəki əksimə tərəf getdim. Təbii ki, tezliklə öz səhvimi başa düşdüm və ancaq bir itin edə biləcəyi bir səhvə yol verdiyimi görüb pərt halda gülümsədim. Amma nədənsə bu hadisə Romada əzab çəkəndə yadıma düşür və birdən səhifənin aşağısına rahatlıq gətirən bu fikirləri yazıram:

"Unutma ki, bir vaxtlar ən yaxın dostun özün idin ".

Bu fikirləri yazdığım səhifəni açıq saxladım və dəftəri sinəmə sıxıb yuxuya getdim. Səhər oyandım. Depressiyanın azalmaqda olan dumanının iyini hiss edirdim, amma özü gözə dəymirdi. Gecənin bir vaxtı durub, gedib. Və əlbəttə ki, dostu Tənhalığı da özü ilə aparıb.

19

Qəribədir, Romaya gələndən bəri heç yoqa ilə məşğul olmağa fürsət tapa bilməmişəm. İllər boyu ciddi və

downloaded from KitabYurdu.org

müntəzəm olaraq yoqa ilə məşğul olmuşam. Hətta yoqa həsirimi də özümlə bərabər gətirmişəm. Lakin burada heç cür alınmır. Yoqa ilə nə vaxt məşğul ola bilərəm? Şokoladlı peçenye və iki kapuçinodan ibarət olan italyan səhər yeməyini sürətlə mədəyə ötürəndən əvvəl, yoxsa sonra? Bura gəldiyim ilk günlərdə hər səhər yoqa həsirimi çıxarıb yerə sərir, amma ona baxıb gülməkdən başqa heç nə edə bilmirdim. Bir dəfə yoqa həsirinin dilindən özümə ucadan belə dedim: "Yaxşı, xanım Penne ai Quattro Formaggi" (Görək bu gün nəyiniz var). Pərt halda yoqa həsirimi çamadanımın ən alt hissəsinə yerləşdirdim (Hindistana gedənə qədər açılmamaq üzrə). Sonra gəzintiyə çıxdım və püstəli dondurma yedim. İtalyanlar bu dondurma üçün ən ideal vaxtın səhər saat 9:30 olduğunu deyirlər. Tamamilə razıyam.

Gördüyüm qədərilə deyə bilərəm ki, Roma mədəniyyəti ilə yoqa mədəniyyəti bir-birinə heç cür uyğun gəlmir. İkisinin də qədim "toqa"9 sözünü xatırlatmağı xaricində Roma ilə yoqanın heç bir ortaq cəhəti olmadığını düşünürəm.

20

Mənim təcili olaraq kiminləsə tanış olmağa ehtiyacım var idi. Bir neçə ay bu məsələ ilə məşğul oldum. Artıq oktyabr ayıdır və maraqlı bir dost əhatəsi qazanmışam.

downloaded from KitabYurdu.org

Romada özümdən başqa iki Elizabet də tanıyıram. Hər ikisi amerikalıdır və və hər ikisi də yazıçıdır. Biri roman, digəri isə yeməklər barədə yazır. Romada mənzili, Umbriyada evi, italyan həyat yoldaşı və İtaliyada yemək yeyərək "Qurman" üçün yazmağına imkan yaradan bir işi olan ikinci Elizabet yəqin ki, əvvəlki həyatında bir çox yetimi xilas edib. Təbii ki, o, dondurulmuş düyü pudinqi təklif edən restoran da daxil olmaqla (Əgər cənnətdə bu pudinqdən verilmirsə, ora getmək istəmirəm) Romada yemək yeyə biləcəyimiz ən yaxşı yerləri bilirdi.

Ötən gün məni nahara dəvət etdi. Yediyimiz təkcə fındıq kreminə bükülmüş karpaççо, quzu əti və göbələkdən ibarət deyildi, həmçinin hamının vəhşi sünbülçiçəyinin soğanağı kimi
tanıdığı duza qoyulmuş "lampascione"dən də dadmağa müvəffəq olduq.

Əlbəttə ki, mənim dil yoldaşlarım olan fantastik əkizlər - Covanni və Dario ilə də artıq tanış olmuşam. Covannini şirinliyinə görə İtaliyanın milli sərvəti hesab etmək olar. Hələ tanış olduğumuz ilk axşam o, italyan dilində özümü yaxşı ifadə edə bilmədiyimi görəndə əlini çiynimə qoyub, - "Liz, yeni bir şey öyrənəndə özünə qarşı təmkinli olmağı bacarmalısan" deyərək özünü mənə sonsuza qədər sevdirə bildi. Bəzən sərt qaşları, elmi

downloaded from KitabYurdu.org

dərəcəsi və maraqlı siyasi fikirlərinə aldanaraq onun məndən yaşca böyük olduğunu düşünürəm. Covannini güldürməyə çalışmaq xoşuma gəlir, amma o, heç də həmişə zarafatlarımı başa düşmür. Başqa dildə zarafatı anlamaq elə də asan deyil. Xüsusilə də Covanni kimi ciddi xarakterli bir adam üçün. Ötən gecə maraqlı bir fikir dedi: "Sən zarafat eləyəndə mənasını dərk etməyə çatdırmıram. Həmişə bir addım geridə oluram. Sanki sən şimşək, mən isə göy gurultusuyam".

Mən isə "Doğrudur, əzizim! Sən maqnit, mən isə poladam. Sən kobud dəri, mənsə zərif krujevayam..." deməyi ağlımdan
keçirdim.

Lakin o, onsuz da məni öpmədi... Vaxtının çoxunu Sofi ilə keçirən digər qardaşı - Darionu çox az görürəm. Sofi dil kursundakı ən yaxın rəfiqəmdir. Darionun yerində kim olsaydı, onunla vaxt keçirməkdən zövq alardı. Sofi İsveçdəndir və otuza yaxın yaşı var. O qədər şirindir ki, onu qarmağa keçirib fərqli millətlərdən və yaş qruplarından olan kişilərin diqqətini cəlb etmək üçün yem kimi istifadə edə bilərsiniz. Sofi Romada italyan dili öyrənməyə qərar verdiyinə görə ailəsini və iş yoldaşlarını şoka salaraq İsveçdə işlədiyi bankdan dördaylıq icazə alıb. Hər gün kursdan sonra onunla Tibrin sahilində

downloaded from KitabYurdu.org

oturub dondurma yeyərək italyan dilimizi təkmilləşdirməyə çalışırıq. Əslində, buna dilimizi təkmilləşdirmək demək olmaz. Bu daha çox italyan dilinin ləzzətini bölüşdüyümüz, bir- birimizə yeni, maraqlı deyimlər öyrətdiyimiz bir ayinə bənzəyir. Məsələn, ötən gün "un'amica stretta" ifadəsinin "yaxın dost" demək olduğunu öyrəndik. Amma "stretta" sözünün hərfi mənası "dar" deməkdir. Dar ətək kimi. Beləliklə, italyan dilində yaxın dost əyninizə paltar kimi tam oturan, sizə onun qədər
yaxın olan şəxsə deyilir. Sofi də get-gedə mənim üçün belə bir dosta çevrilirdi.

Əvvəllər başqalarının bizi bacı zənn etməyi xoşuma gəlirdi. Lakin bir dəfə Romada taksiyə mindik və sürücü onun qızım olub-olmadığını soruşdu. Sofi məndən cəmi yeddi yaş kiçik idi! Dərhal sürücünün nəyə görə belə dediyini özümə izah etmək üçün bəhanələr axtarmağa başladım (məsələn: Əslən Romadan olan bu sürücü italyan dilini o qədər də yaxşı bilmir və əslində, bacı olub-olmadığımızı soruşmaq istəyib). Amma, yox. O, qızım olub-olmadığını soruşdu və onun məhz qızım olduğunu düşünmüşdü! Nə deyə bilərdim? Son illərdə bir çox ağır sınaqlardan keçmişəm. Yəqin ki, boşanmağım xarici görünüşümdə də izlər qoyub. Amma Texasda

downloaded from KitabYurdu.org

meydana gəlib sonradan məşhurlaşan köhnə bir mahnıda da deyildiyi kimi - “Məhv edildim, mühakimə olundum, damğalandım, amma hələ də burada, qarşında dayanmışam”.

Həmçinin Maria və Culio adlı cütlüklə də tanış oldum. Məni onlarla bir neçə il öncə Romada yaşamış amerikalı rəssam Enn tanış etdi. Maria amerikalı, Culio isə İtaliyanın
cənubundan idi. Culio kino sənayesində, Maria isə beynəlxalq kənd təsərrüfatı təşkilatında işləyir. Culio ingilis dilini zəif bilsə də, Marianın italyan dili kifayət qədər yaxşıdır (Həmçinin fransız və çin dillərini də pis bilmir və buna görə zərrə qədər də lovğalanmır). Culio ingilis dili öyrənmək üçün məndən kömək istədi. Yəqin ki, ingilis dilini nəyə görə Amerikada doğulmuş həyat yoldaşı ilə öyrənmək istəmədiyi sizə maraqlı gəldi. Elə isə deyim: çünki onlar evlidirlər və nə vaxt bir-birlərinə nə isə öyrətməyə cəhd etsələr, bu sonda dava ilə yekunlaşır. Ona görə də Culio ilə həftədə iki dəfə italyan və ingilis dillərimizi təkmilləşdirmək üçün bir yerdə nahar edirik. Keçmişlərində bir-birlərini qıcıqlandıran heç nə olmayan iki ayrı şəxs üçün bu, elə də çətin deyil.

Culio və Marianın gözəl bir evləri var. Məncə həmin evin diqqəti ən çox cəlb edən yeri bir dəfə dava vaxtı

downloaded from KitabYurdu.org

Marianın, - “O məndən daha bərk qışqırır”, - deyərək Culioya ürəyini boşaltmaq üçün lənətlərlə bürüdüyü divardır (qara rəngli, qalın bir qələmlə yazılıb).

Məncə Maria həddindən artıq cazibədardır və ehtiras partlayışı olan bu divar yazıları da sadəcə, buna sübutdur. Maraqlısı odur ki, Culio söyüşlərə qərq olmuş divan Marianın hisslərini daxilində həbs etməyinə bir işarə hesab edir, çünki bütün sözlər Marianın ikinci ana dili olan italyan dilində yazılıb. Bu dildə sözləri tapmaq üçün o, əvvəlcə dayanıb fikirləşməlidir. Culionun fikrincə, Maria hirsinə məğlub olsaydı (bunu heç vaxt etməz, çünki o, inanclı bir anqlo-protestantdır) divarı öz ana dili olan ingilis dilində sözlərlə doldurardı. Culionun fikrincə, bütün amerikalılar belədir: hisslərini boğurlar. Bu da onların həqiqətən partlayanda çox təhlükəli və potensial ölüm daşıyıcısı olmaqlarına gətirib çıxarır.

“Vəhşi insanlar!” - deyə Culio diaqnoz qoyur.

Bütün bu söhbətləri həmin divara baxa-baxa şam yeməyi vaxtı etməyimiz xoşuma gəlirdi.

“Bir az da şərab istəyirsən, əzizim?” - Maria soruşdu.

Amma İtaliyadakı yeni dostlarımın içində mənə ən yaxmı əlbəttə ki, Luka Spagettidir. Yeri gəlmişkən, hətta İtaliyada da bu familiyaya sahib olmaq gülməli sayılırmış. Lukaya

downloaded from KitabYurdu.org

minnətdaram, çünki Amerika hindusu Dennis Ha-ha adlı bir qapı qonşusu olduğuna görə daim dünyanın ən maraqlı soyadına sahib şəxsini tanımağı ilə öyünən dostum Braynla mənə hesablaşmaq üçün fürsət verdi. Nəhayət ki, bir yarış təklif edə bilərəm.

Luka ingilis dilini mükəmməl bilir və yeməklə arası yaxşıdır (İtalyan dilində "una buona forchetta" yeməklə arası yaxşı olanlara deyilir. Hərfi tərcüməsi isə "yaxşı çəngəl" deməkdir). Mənim kimi həmişə ac olan biri üçün Luka ən arzuolunan dostdur. Tez-tez günorta vaxtı zəng edir və "Ey, yaxınlıqdayam. Görüşüb bir fincan qəhvə içək? Ya da bir boşqab öküz quyruğundan hazırlanan supa nə deyirsən?" - kimi təkliflər edir. Romanın arxa küçələrindəki balaca çirkli yerlərdə çox vaxt keçiririk. Flüoressen lampaları ilə işıqlandırılan və ad lövhəsi olmayan restoranlara getməyi xoşlayırıq. Qırmızı damalı müşəmbədən olan süfrələr, evdə hazırlanan limon likörü. Lukanm "balaca Yuli Sezar" adlandırdığı əllərinin arxası tüklü, saçlan arxaya daranmış, qürurlu, tələsən işçilər tərəfindən gətirilən makaron. Bir dəfə

Lukaya belə dedim: "Mənə elə gəlir ki, bu adamlar özlərini ilk növbədə romalı, sonra italyan və nəhayət avropalı hesab edirlər". O, səhvimi düzəltdi: "Xeyr, onlar ilk növbədə romalı, ikinci növbədə romalı və nəhayət

downloaded from KitabYurdu.org

romalıdırlar. Və hər biri də ayrılıqda Roma imperatorudur”.

Luka auditordur. İtaliyada auditor bir növ “sənətkar” hesab oluna bilər. Çünki İtaliyadakı kitablarda vergi ilə bağlı yüzlərlə qanun var və onların hər biri digərinə ziddir. Ona görə də buradakı vergiləri qaydaya salmaq caz musiqindəki kimi improvizasiya tələb edir. Bu qədər şən, qayğısız bir adamın auditor olmağı mənə gülməli gəlir. Digər tərəfdən, Lukanın fikrincə isə mənim yoqa ilə məşğul olmağım gülməlidir. Getdikcə doğmalaşan İtaliyada bütöv bir il qalmaq əvəzinə nəyə görə Hindistana, bir aşrama getmək istədiyimi başa düşə bilmir. Hər dəfə çörəklə boşqabımda qalan sonuncu yemək qırıntılarım təmizləyib yediyimi və sonra da barmaqlanmı yaladığımı görəndə soruşur: “Hindistana gedəndə nə yeyəcəksən?” Bəzən o mənə zarafatla “Qandi” deyə xitab edir,
xüsusilə də ikinci şərab şüşəsini açmağa hazırlaşdığımı görəndə.

Luka kifayət qədər səyahət etsə də, anasının yanında olduğu Romadan başqa bir yerdə heç vaxt yaşamayacağım iddia edir. Nə demək olar? Axı o bir italyan kişisidir. Amma onu Romada saxlayan səbəb təkcə “mamma”sı (anası) deyil. Onun yaşı otuzdan bir

downloaded from KitabYurdu.org

qədər çoxdur və yeniyetməlik illərindən bəri eyni qızla (Lukanm nəvaziş və sevgi ilə “acqua e sapone”, yəni şirin məsumluğuna görə “su və sabun” deyə təsvir etdiyi Culiana ilə) münasibətləri davam edir. Bütün dostları yaxınlıqda yaşayan uşaqlıq dostlarıdır. Hər bazar stadionda və ya barda yığışıb bir yerdə futbola baxırlar (əgər Romanın komandası oynayırsa). Sonra isə hörmətli ana və nənələri tərəfindən hazırlanan təntənəli bazar günü nahannı nuş etmək məqsədilə böyüdükləri evlərə yollanırlar.

Luka Spagettinin yerində olsaydım, mən də Romadan köçməzdim.

Luka bir neçə dəfə Amerikada olub və oralan bəyənib. Nyu Yorku valehedici hesab edir, amma özlərini zövq alırmış kimi
göstərsələr də, oradakı insanların həddindən artıq çox işlədiyini düşünür. Halbuki romalılar da çox işləyirlər, amma bu vəziyyətlə barışmırlar. Luka amerikan mətbəxini sevmir və onu cəmi iki sözlə ifadə edir: “Qatar yeməyi”.

Həyatımda ilk dəfə yeni doğulmuş quzu bağırsaqlarını Luka ilə birlikdə sınaqdan keçirdim. Bu, Roma mətbəxinin ən xüsusi yeməklərindən sayılır. Yemək üzrə mütəxəssis olan Roma, əsəbləri zəif olanların yeri deyil,

downloaded from KitabYurdu.org

şimaldakı varlı insanların, adətən tulladıqları bağırsaq və dil kimi kobud hissələri mətbəxdə ustalıqla istifadə etməsi ilə məşhur olan bir şəhərdir. Nə olduğunu başa düşənə qədər quzu bağırsağı mənə dadlı gəlirdi. Bu ağır və yağlı yemək kəklikotu sousu qarniri ilə verilirdi. Bağırsaqlar isə elə bağırsağa xas olan bir dada sahib idi. Qismən qaraciyərə oxşayırdı, ancaq daha yumşaq idi. Bu yeməyi necə təsvir edəcəyimi bilmirəm. Əslində bağırsaqdan daha çox soxulcana bənzəyirdi. Sonra boşqabı kənara itələyib salat istədim.

Yeməyi çox bəyənən Luka, - "Xoşuna gəlmədi?" - deyə soruşdu.

"Qandinin həyatı boyu quzu bağırsağı yemədiyinə dair mərcə girə bilərəm", - dedim.

"Bəlkə də yeyib".

"Yox, yeməyib, Luka. O vegeterian idi".

"Amma vegetarianlar bunu yeyə bilərlər", - Luka israrla dedi. "Çünki bağırsaqlar ət belə deyil, Liz. Onlar, sadəcə, ifrazatdır".

21

Hərdən düşünürəm ki, mənim burada nə işim vardı? İtaliyaya həzz almaq üçün gəldiyimə baxmayaraq, ilk bir neçə həftə bunu necə edəcəyimi bilmirdim. Sözün düzü, ləzzət anlayışı mənim mədəni dəyərlərimə uyğun gəlmir.

downloaded from KitabYurdu.org

Mən ifrat dərəcədə vicdanlı insanlar siyahısına daxiləm. Anamın İsveçdən mühacirət edən fermer ailəsinin şəklinə baxanda adama elə gəlir ki, bu insanlar həzz verəcək bir şey görəndə kobud çəkmələri ilə onu tapdalamağa hazırdırlar (Əmim onları çox vaxt "öküz" adlandırır). Ata tərəfim isə deyib-gülməyi xoşlayan ingilis puritanlarıdır. Əgər ata tərəfimin ailə ağacı ilə on yeddinci əsrə gedib çıxsaq, yəqin ki, əsl adları Çalışqanlıq və Təvazökarlıq olan puritan qohumlarını tapa bilərik.

Valideynlərimin balaca bir ferması var. Bacımla mən o fermada işləyə-işləyə böyümüşük. Bizə etibarlı, məsuliyyətli, sinifdə ən yaxşı oxuyan şagird, şəhərdə ən yaxşı dayə, ən çalışqan fermer, eyni zamanda tibb bacısı olan anamızın
miniatür modelləri, İsveç ordusunun bir cüt əsgəri, az vaxta çox iş bacarmaq üçün doğulan şəxslər olduğumuzu öyrətdilər. Ailəmizdə əyləncə və gülüş kifayət qədər idi, amma divarlar görülməli olan işlərin yazıldığı siyahılarla dolu idi və bütün həyatım boyu bir dəfə də avaralıq etməmişəm. Ailəmizdə kiminsə etdiyini də görməmişəm.

Ümumilikdə, amerikalılar həzzi özlərinə yaxın buraxmaq barəsində bacarıqsızdırlar. Biz həzz yox, əyləncə axtaran xalqıq. Amerikalılar əylənmək üçün pornoqrafiyadan parklardakı attraksionlara, müharibələrə

downloaded from KitabYurdu.org

qədər milyardlarla dollar xərcləyir, ancaq bunu əyləncə hesab etmək olmaz. Amerikalılar dünyada hamıdan daha çox gərginlik keçirir və işləyirlər. Ancaq Luka Spagettinin dediyi kimi, özümüzü bunu sevirmiş kimi göstəririk. Statistikaya görə, amerikalıların çoxu xoşbəxtlik və rahatlığı evlərindən çox ofislərində əldə edirlər. Əlbəttə, hamımız çox işləyirik, sonra yorulub əldən düşmüş halda həftə sonumuzu televizorun qarşısında yüngül koma halında, əynimizdə pijamalarla pop-korn yeyərək keçiririk (Doğrudur, bu işləmək deyil, amma tam olaraq istirahət də demək olmaz).

Amerikalılar heç nə ilə məşğul olmamağın nə demək olduğunu bilmirlər. Bu, istirahət üçün harasa gedib yenə də gərginlikdən xilas ola bilməyən rəhbərin timsalında amerikan stereotipidir.

Bir dəfə Luka Spagettidən italyanların da istirahətə çıxanda bu problemlə üzləşib-üzləşmədiklərini soruşdum. Cavabında o qədər güldü ki, az qala çaşıb motorollerini fəvvarənin içinə sürəcəkdi.

“Əlbəttə ki, yox!” - dedi. Biz “bel far niente”də ustayıq!

Maraqlı ifadədir. “Bel far niente”nin mənası “heç nə etməməyin gözəlliyi” deməkdir. İndi qulaq asm. İtalyanlar ənənəvi olaraq, həmişə çalışqan olublar.

downloaded from KitabYurdu.org

Xüsusilə də “braccianti” adlanan fəhlələr (Belə adlanmaqlarının səbəbi odur ki, onların həyatda qollarının - braccie gücündən başqa heç nəyi yoxdur). Lakin bütün bu işgüzar rejimin fonunda “bel far niente” həmişə aktual olan bir italyan şüan olaraq qalmaqdadır. Gördüyünüz bütün işlərin məqsədi, hətta ən çox təbrik eşidəcəyiniz sonuncu uğurunuz belə heç bir şey etməməyin gözəlliyi uğrundadır. Heç bir şey etməmək məşğuliyyətini nə qədər zərifliklə və diqqətlə həyata keçirsən, o
qədər çox uğur qazanacaqsan. Bunu yoxlamaq üçün yüksək maliyyə də tələb olunmur. Başqa bir maraqlı italyan deyimi də var: “L’arte d’arrangiarsi”. Mənası “heç nədən nə isə yaratmaq sənəti” deməkdir. Bir neçə ərzaqdan ziyafət hazırlama və ya bir neçə dostunla adi yığıncağı möhtəşəm bayrama çevirmək sənəti... Bunu da ancaq varlılar deyil, xoşbəxt olmaq mövzusunda istedadı olan hər hansı bir şəxs bacara bilər.

Həzz axtarışımda ən böyük maneə anamın südü ilə mənə keçmiş puritanlara xas olan günahkarlıq hissi idi. Bu həzzə doğrudanmı layiq idim? Bu da yalnız amerikalılara xas olan xüsusiyyətdir. Söhbət xoşbəxtliyə layiq olub-olmadığımızla bağlı hiss etdiyimiz inamsızlıqdan gedir. Amerikada fəaliyyət göstərən reklam şirkətləri qərarsız qalan müştərini “Bəli, artıq xüsusi bir

downloaded from KitabYurdu.org

diqqətə layiqsiniz”, - fikrinə razı salmağa çalışır. “Bu sənindir! Bu gün bir az istirahətə haqq qazanmısan! Çünki sən buna layiqsən! Uzun məsafə qət etmisən, dost!” Özünə inamsız olan müştəri belə düşünür: “Bəli, təşəkkür edirəm! Gedib bir yeşik pivə alacağam, lənətə gəlsin! Bəlkə də iki yeşik alaram”. Alır, içir də. Sonra isə vicdan əzabı baş qaldırır. Bu cür reklam
kampaniyalan İtaliyada keçməz, çünki burda insanlar onsuzda həyatdan həzz almaq haqqına malik olduqlarını bilirlər. “Bu gün bir az istirahətə haqq qazanmısan” ifadəsinə İtaliyada çox güman ki, belə cavab verilərdi: “Düzdür! Ona görə də saat on ikidə fasilə verib sənin evinə getmək və sənin arvadınla yatmaq istəyirəm”.

Buna görə də ölkələrinə dördaylıq əsl həzzi dadmaq üçün gəldiyimi deyəndə italyan dostlarım məni başa düşməkdə çətinlik çəkmədilər. “Complimenti! Vai avanti!” “Təbriklər!” - deyirdilər. “Davam et! Həzz al! Qonağımız ol!” Heç kim bircə dəfə də “Necə də məsuliyyətsizsən” və ya “Ancaq kef çəkməyi düşünürsən” deməyib. İtalyanlar mənim həyatdan zövq almaq istəyimi tamamilə bəyənsələr də, mən hələ də zövq almağı bacarmırdım. İtaliyadakı ilk həftələrdə nə ilə başımı qatacağımı bilmirdim. Həzz almağı ev tapşırığı və ya böyük bir elmi layihə kimi mənimsəmək istəyirdim.

downloaded from KitabYurdu.org

“Həzzi artırmağın ən yaxşı üsulu nədir?” - kimi suallar ətrafında düşünməyə başladım. İtaliyadakı bütün vaxtımı həzzin tarixi ilə bağlı tədqiqat aparmaq üçün kitabxanada keçirib-keçirməməklə bağlı
fikirləşdim. Və ya bir çox həzzin dadına baxmış italyanlardan bu hissin necə olduğunu soruşaraq hesabat hazırlayıb kitabda yerləşdirməyin lazım olub-olmadığını xeyli düşündüm (Sətirləri arasında iki interval qoyulan və kənarında bir santimetr yer qoyulan yazı. Bəlkə də həmin yazı bu bazar ertəsi səhər tezdən təhvil verilməlidir?).

Beynimdəki yeganə sualın, - “Həzzi necə müəyyən edə bilərəm?” - olduğunu və hazırda insanların bu sualı rahatlıqla tədqiq etməyimə icazə verdiyi bir ölkədə qaldığımı başa düşəndə hər şey dəyişdi. Birdən-birə yaxşıya doğru getməyə başladı. Bundan sonra hər gün özümə, - “Bu gün nə ilə məşğul olmaq istəyirsən, Liz? Bu dəqiqə sənə nə həzz verər”, - sualını verməli idim. Kiməsə hesabat vermədən və məni narahat edəcək başqa öhdəliklər olmadan nəhayət ki, bu suala tamamilə aydın və düzgün cavab verə bilərdim.

Özümə İtaliyadakı hər dəqiqədən həzz almaq haqqı verəndən sonra, İtaliyada nə etmək istəməyəcəyim mənə maraqlı gəlməyə başladı. İtaliyada həzz almaq üçün o qədər işlər var idi, mənim, sadəcə, onların hamısını

downloaded from KitabYurdu.org

yoxlamağa vaxtım
yox idi. Burada özün üçün müəyyən eləməlisən ki, məhz hansı həzz sənə həddən artıq ləzzət verir - əks halda ağlını itirə bilərsən. Vəziyyət belə olanda dəb, opera, dəbdəbəli avtomobillər, kinoteatr və Alp dağlannda xizək sürməklə maraqlanmadım. İncəsənətə belə bir o qədər diqqət yetirmədim. Bunu etiraf etməyə nə qədər utansam da boynuma almalıyam ki, İtaliyada keçirdiyim dörd ay ərzində bircə muzeyə belə getməmişəm (Əslində, vəziyyət bundan da betərdi. Cəmi bir muzeyə getmişəm: Romada yerləşən Milli makaron muzeyinə). Doğrusu, dadlı italyan yeməkləri yemək və italyan dilini səlis formada danışma xaricində bir şey istəmirdim. Vəssalam. Ona görə də özümə iki sahə seçdim: Danışmaq və yemək (fikrimi dondurma ilə cəmləmək də daxil olmaqla).

Yemək və danışmağın mənə verdiyi həzz olduqca dəyərli, amma həmçinin bəsit idi. Oktyabr ayının ortalarında keçirdiyim bir neçə saatı xatırlayıram - kənardan müşahidə edən üçün tamamilə adi görünə bilər, amma bu bir neçə saatı həmişə həyatımın ən xoşbəxt anlan hesab edəcəyəm. Evimdən bir neçə küçə uzaqda indiyə kimi nədənsə görmədiyim bir
bazara rast gəldim. Orada yosun kimi yaşıl rəngdə olan ispanaq yarpaqları, inəyin daxili orqanlan qədər qırmızı

downloaded from KitabYurdu.org

görünən pomidorlar və bir rəqqasənin paltarı qədər dar qabığa bürünmüş şərab rəngli üzümlər satan bir qadınla oğlunun tərəvəz köşkünə yaxınlaşdım.

Bir buket incə, parlaq qulancar seçdim. İtalyan dilində qadından asanlıqla həmin qulancarın yarısını ala bilib-bilməyəcəyimi soruşmağa nail oldum. Ona ancaq özüm üçün yemək hazırlayacağımı izah etdim. Bu qədərinə ehtiyacım yox idi. Qulancarı cəld əlimdən aldı və iki yerə böldü. Ondan hər gün burada, eyni yerdə olub-olmadığını soruşdum, o təsdiqlədi. Hər səhər saat yeddidən burada olurdu. Sonra olduqca şirin olan oğlu hiyləgər bir baxışla dedi: "Hər səhər saat yeddidə, əgər yuxudan oyana bilsə..." Hamımız güldük. Bütün bu söhbət italyan dilində baş tutdu. Cəmi bir neçə ay əvvələ qədər bir neçə söz belə deyə bilmədiyim dildə...

Mənzilimə doğru getdim və nahar üçün bir cüt təzə yumurta qaynatdım. Yumurtaları soydum və onları qulancarlann saplaqları yanında boşqaba qoydum (O qədər

təzə və nazik görünürdülər ki, onları bişirməyə ehtiyac yox idi). Boşqaba bir az zeytun və dünən küçənin aşağı tərəfində yerləşən "formaggeria"dan aldığım dörd dilim keçi pendiri və iki dilim yağlı, çəhrayı rəngli qızıl balıq qoydum. Şirniyyat əvəzinə bazarda qadının mənə pulsuz

downloaded from KitabYurdu.org

verdiyi, Roma günəşinin təsiri ilə hələ də isti olan şaftalı var idi. Uzun müddət bu yeməyə əlimi belə vurmadım, çünki bu yemək "heç nədən nə isə düzəltmək" sənətinin bariz nümunəsi idi. Yeməyimin gözəlliyini tamamilə dərk edəndən sonra günəş şüalarının düşdüyü taxta döşəməmdə oturub italyan dilindəki gündəlik qəzetimdən məqaləmi oxuyaraq yeməyimin hər bir dilimini əllərimlə yedim. Xoşbəxtlik hər bir molekuluma daxil oldu.

Lakin tezliklə, səyahətimin ilk aylarından başlayaraq özümü nə vaxt xoşbəxt hiss etsəm baş qaldıran o duyğunun - günahkarlıq hissinin həyəcan zəngi səsləndi. O, keçmiş həyat yoldaşımın nifrət dolu səsiylə danışırdı: "Deməli, hər şeyi buna görə atıb getdin? Birlikdə keçirdiyimiz həyatı bunun uğrunda məhv etdin? Bir neçə qulancar və italyan qəzeti xatirinə?"

Ona ucadan cavab verdim: "Hər şeydən əvvəl, - dedim, - bağışla, amma bunun artıq sənə heç bir dəxli yoxdur. İkincisi isə, sualına cavabım budur: Bəli!"

22

İtaliyadakı həzz axtarışımla bağlı bir sual hələ də cavabsız qalıb: Bəs intim münasibət?

Bu suala qısaca belə cavab verəcəyəm: Burada olduğum vaxt ərzində bu haqda fikirləşməmişəm.

Lakin daha ətraflı və dürüst formada cavab verməli

downloaded from KitabYurdu.org

olsaydım: Təbii ki, bəzən bunu həddindən artıq çox istəyirəm, amma bu oyunu bir müddət oynamamaq qərarına gəlmişəm. Heç kimə bağlanmaq istəmirəm. Öpüşmək üçün isə çox darıxıram, çünki bunu çox sevirəm (Ötən gün bununla bağlı Sofiyə o qədər şikayət etdim ki, nəhayət acıqlı formada mənə belə dedi: "Allah xatirinə, Liz, əgər vəziyyətin daha da pisləşsə, səni mən öpərəm"). Hələ ki, bu mövzuda heç nə etmək fikrində deyiləm. Son vaxtlar tənhalığa qərq olanda belə düşünürəm: "Elə isə tək qal, Liz. Tək qalmağı öyrən. Bunun nə olduğunu dərk et. Həyatında bir dəfə də olsa, onunla otur. Bu təcrübəyə xoş münasibət göstər. Və bir də heç vaxt başqa bir şəxsin
bədənini, hisslərini öz həyatındakı boşluğu doldurmaq üçün istismar etmə".

Bu, bir növ ilk yardım qaydasıdır. İntim və romantik həzz axtarışına erkən yaşlarımdan başlamışam. İlk dəfə sevgilim olanda heç yetkinlik dövründə belə deyildim və on beş yaşımdan bəri yanımda həmişə oğlanlar və ya kişilər olub (Bəzən də hər ikisi birdən). O vaxtdan demək olar ki, on doqquz il keçib. Təxminən iyirmi il ətrafımda həmişə kişilər olub. Arada birhəftəlik fasilə belə olmadan... Lakin bu təcrübənin məni daha da yetkinləşdirdiyinə inanıram.

downloaded from KitabYurdu.org

Bundan başqa, kişilərə sərhəd qoymaqda çətinlik çəkirəm. Bəlkə də belə demək o qədər də ədalətli deyil. Sərhədlərlə bağlı problemin olmağı üçün əvvəlcə sərhədlər olmalıdır, elə deyilmi? Mən isə vurulanda, öz sevgimin içində itib batıram. Əgər sənə vurulsam, hər şeyə sahib ola bilərsən. Vaxtıma, itaətkarlığıma, bədənimə, puluma, ailəmə, itimə, itimə ayırdığım pula və vaxta. Bir sözlə, hər şey sənin olacaq. Əgər səni sevsəm, bütün əzablarını sənin əvəzinə mən çəkərəm, bütün borclarını öz öhdəmə götürərəm (sözün hər mənasında), səni özünə
inamsızlığından xilas edərəm, heç vaxt inkişaf etdirə bilmədiyin müsbət keyfiyyətləri sənə aşılayaram, bütün ailənə Milad bayramında hədiyyələr alaram. Sənə günəşi də, yağışı da verərəm və əgər həmin an bu mümkün olmasa başqa vaxt üçün görüş təyin edərəm. Bütün bunları və daha çoxunu sənə bəxş edərəm, ta ki eneıjimi geri qazanmaq üçün yeganə çarə, başqa bir şəxsə vurulmaq olacaq qədər yorulanadək...

Bu faktlarla qürur duymuram, amma həqiqət budur.

Həyat yoldaşımdan ayrılandan sonra bir qonaqlıqda elə də yaxşı tanımadığım bir nəfər mənə belə dedi: “Bilirsən, indi bu yeni sevgilinlə bir yerdə olanda həmişəkindən tamamilə fərqli görünürsən. Əvvəllər ərinə

downloaded from KitabYurdu.org

oxşayırdın, indi isə Devidə bənzəyirsən. Hətta onun kimi geyinir və danışırsan. Bəzi insanların öz itlərinə oxşadıqlarını eşitmisən? Məncə, sən də həmişə öz həyatındakı kişilərə bənzəyirsən".

Tanrım, bəlkə də yeni bir münasibət qurmağa cəhd etmədiyim vaxtlarda, necə göründüyümü və danışdığımı kəşf etmək üçün özümə fürsət vermək məqsədilə bu dövrədən xilas olmaq mənə kömək edə bilərdi. Bir də ki, gəlin, dürüst olaq.

Münasibət qurmaqdan bir müddətlik imtina etməyim cəmiyyət üçün xeyirxah bir ictimai fəaliyyət olardı. Romantik münasibətlərimi nəzərdən keçirəndə, vəziyyət heç də ürəkaçan görünmür. Ard-arda gələn fəlakətlər... Görəsən, bundan başqa neçə müxtəlif kişiyə vurulub məğlub olacağam? Bir də belə fikirləşin: Əgər dalbadal on avtomobil qəzası törətsən, sürücülük vəsiqəni əlinizdən almazlar? Sən özün də bunu etməklərini istəməzsən?

Yeni münasibət qurmağa tərəddüd etməyimin başqa bir səbəbi də var. Hələ də Devidi sevirəm və bunun növbəti namizəd üçün haqsızlıq olduğunu düşünürəm. Devidlə sözün əsl mənasında ayrılıb-ayrılmadığımızı da bilmirəm. Uzun müddət bir yerdə yatmasaq da, mən İtaliyaya gələnə qədər hələ də bir-birimizin yan-yörəsində

downloaded from KitabYurdu.org

hərlənməyə davam edirdik. Hər ikimiz bəlkə nə vaxtsa hər şeyin qaydasına düşəcəyinə ümid edirdik.

Bilmirəm.

Təkcə onu bilirəm ki, tələsik verilən qərarlardan və xaotik ehtiraslarla dolu bir həyatın gətirib çıxardığı nəticələrdən

yorulmuşam. İtaliyaya gəlmək üçün ölkəmi tərk edəndə bədənim və ruhum tükənmişdi. Özümü kasıb bir kəndlinin çox işlədib dincə qoyduğu torpaq sahəsi kimi hiss edirdim. Buna görə də hər şeyi geridə qoyub gəldim.

İnanın ki, könüllü olaraq tək qalmağı seçib, sonra da həzz ardınca İtaliyaya gəlməyin nə qədər gülünc göründüyünü bilirəm. Amma mənim üçün ən uyğun qərar, bir müddət fasilə verməkdir. Yuxan mərtəbədə qalan qonşumun (möhtəşəm hündürdaban çəkmə kolleksiyası olan qəşəng bir italyan qızıdır) mənzilinə gələn axırıncı bəxtəvər qonaqla, bu günə qədər eşitdiyim ən uzun, şiddətli, bel ağrıdan, çarpayının cınltısınm qulaq batırdığı intim münasibətinin səs-küyünü eşitdiyim gün buna bir daha əmin oldum. Bu şappıltılı rəqs fasiləsiz davam edən səs effektləri və vəhşi heyvan çığırıqları ilə bir saata qədər davam etdi. Cəmi bir mərtəbə onlardan aşağıda, tənha və yorğun halda uzanarkən yalnız bir şey haqda düşünürdüm: “Bu necə də ağır və gərgin işdir...”

downloaded from KitabYurdu.org

Təbii ki, bəzən ehtiras hissinə məğlub olurdum. Düzünü desəm, gün ərzində çarpayımda görməyimə şad olacağım bir
düjün italyan kişisinə rast gəlirdim. Ya da onların çarpayısında olmağı təsəvvür edirdim. Və ya hər hansı bir çarpayıda. Fikrimcə, Romadakı kişilər gülünc, təhlükəli və axmaq dərəcədə yaraşıqlıdırlar. Dürüst olmaq lazım gələrsə, Romadakı qadınlardan da gözəldirlər. İtalyan kişiləri fransız qadınları qədər gözəldirlər və adama elə gəlir ki, bu mükəmməl insanlar yaradılanda heç bir detal unudulmayıb. Pudel itləri kimidirlər. Bəzən o qədər yaxşı görünürlər ki, onları alqışlamaq keçir ürəyimdən. Buradakı kişilər onların gözəlliklərini vəsf edə bilməyim üçün məni eşq rapsodiyalan yazmağa təhrik edirlər. Onların hər biri "ifrat dərəcədə cazibədar", "qəddar həddə yaraşıqlı" və ya "təəccüblü dərəcədə gözəldir"lər.

Lakin bir qədər qüruruma toxunsa da, etiraf etməliyəm ki, bu romalı kişilərin küçədə çevrilib mənə ikinci dəfə baxdığını görməmişəm. Hətta çox vaxt ilk baxış belə qarşılıqsız qalır. Əvvəlcə, bu hal məni qorxudurdu. Bundan əvvəl on doqquz yaşında İtaliyada olmuşdum və yadımda qalan tək xatirə odur ki, küçədə kişilər aramsız olaraq məni narahat edirdilər. Həmçinin də pizzerialarda, kinoteatrlarda, Vatikanda. Dəhşətli

downloaded from KitabYurdu.org

və bezdirici idi. Bu vəziyyət İtaliyaya səyahət etmək mövzusunda iştahanızı qaçırda biləcək qədər ciddi bir problem idi. İndi isə, otuz dörd yaşımda gözəgörünməzəm. Əlbəttə ki, hərdən hansısa bir kişi mənimlə dost kimi danışır: "Bu gün gözəl görünürsünüz, signorina". Amma bu, nadir hallarda olur və heç vaxt təkidə çevrilmir. Əlbəttə ki, ictimai nəqliyyatda iyrənc bir özgə tərəfindən zorakılığa məruz qalmamaq yaxşıdır, ancaq hər qadının bir "qadınlıq qüruru" var və o bilmək istəyir: "Burada nə dəyişib? Mən, yoxsa onlar?"

Beləliklə, bu sualı ətrafimdakılara ünvanlayıram və hər kəs son on-on beş il ərzində bu məsələdə İtaliyada sözün əsl mənasında çevriliş olduğunu təsdiqləyir. Bəlkə də bu, feminizmin qələbəsi və ya mədəniyyətin inkişafi, ya da Avropa Birliyinə daxil olmağın qaçılmaz nəticəsidir. Və ya bəlkə də gənc kişilərin bir hissəsi atalan və babalarının rüsvayçılığına görə utanırlar. Yenə də səbəbindən asılı olmayaraq, artıq italyan cəmiyyəti qadınları narahat etməyin normal qəbul olunmadığına qərar verib. İndi sevimli rəfiqəm Sofini belə
küçədə gedəndə heç kim narahat etmir. Halbuki o vaxtlar körpə siması olan bu tip qızları hamıdan çox bezdirirdilər.

Nəticədə isə italyan kişiləri "Mədəni inkişaf" mükafatına layiqdirlər. Və bu məni çox sevindirir.

downloaded from KitabYurdu.org

Bir müddət problemin məndə olduğunu düşünsəm də, elə olmadığını öyrənəndə rahatlıq tapdım. Artıq on doqquz yaşında gözəl bir qız olmadığıma görə heç kimin diqqətini çəkmədiyimi fikirləşirdim. Bəlkə də keçən yay dostum Skotun dediyi sözlərdə haqlı çıxmağından qorxurdum: "Qorxma, Liz. İtalyan kişiləri artıq səni narahat etməzlər. Ora Fransa kimi deyil. Qocaları bəyənmirlər!"

23

Axşam Luka Spagetti və dostları ilə bir yerdə futbola getdik. "Latsio"nun oyununa baxmaq istəyirdik. Romada iki böyük futbol komandası var: "Latsio" və "Roma". Komandalar və azarkeşlər arasında olduqca güclü rəqabət var və bəzən bu, xoşbəxt ailələrin, mehriban qonşulann həyatını Vətəndaş müharibəsinə çevirir. Yaxşı olar ki, "Latsio" yoxsa "Roma" tərəfdarı olduğuna erkən yaşlardan qərar verəsən, çünki bu seçim həyatının bundan sonrakı mərhələsində bazar günlərini kimlərlə keçirəcəyini müəyyən edir.

Lukanın bir-birini qardaş kimi sevən, on nəfərdən ibarət çox səmimi dostu var. Təbii ki, onların yarısının "Latsio", qalanının isə "Roma" azarkeşi olduğunu nəzərə almasaq. Burada artıq heç nə edə bilməzsən: Onların ailələrində futbol ənənələrinin təməli hələ onlar

downloaded from KitabYurdu.org

doğulandan çox əvvəl qoyulub. Əllərindən heç nə gəlmirdi. Hər biri sədaqətin çoxdan məskən saldığı ailələrdə doğulmuşdu. Babası (Ümid edirəm ki, o, Spagetti baba adlanır) Lukaya mavi rəngdəki "Latsio" komandasının ilk formasını o, hələ gəzməyi yenicə öyrənən bir körpə ikən vermişdi. Beləliklə, Luka ölənə qədər "Latsio" azarkeşi olacaq.

"Həyat yoldaşlarımızı dəyişə bilərik", - Luka deyirdi. "Sənətimizi, milliyətimizi, hətta dinimizi də, amma azarkeşi olduğumuz komandanı heç vaxt başqası ilə əvəz etmərik".

Yeri gəlmişkən, italyan dilində azarkeş sözünün qarşılığı "tifoso" adlanır. "Tifus" sözündən yaranıb. Mənası "hərarəti yüksək olan şəxs" deməkdir.

Mənim üçün Luka Spagetti ilə getdiyim ilk futbol oyunu çılğın bir italyan dili ziyafəti idi. Stadionda kursda öyrədilməyən yeni və maraqlı sözləri eşitdim. Arxamda oturan qoca dayanmadan meydandakı oyunçulara qışqırırdı. Futbolla bağlı o qədər də məlumatlı deyiləm. Oyunun gedişatı ilə maraqlanmırdım. Amma oyun ərzində Lukanı ağlıma gələn bütün sarsaq suallarla bezdirirdim. İsrarla bu sualın cavabını tələb edirdim: "Luka, arxamda oturan kişi nə deyir? Cafone nə deməkdir?" Luka isə gözlərini stadiondan ayırmadan, -

downloaded from KitabYurdu.org

“Axmaq. Mənası axmaq deməkdir”, - dedi.

Bunu bir yerə qeyd etməli idim. Sonra gözlərimi yumdum və qoca kişinin kəsilmək bilməyən nitqinə qulaq asdım:

“Dai, dai, dai, Albertini, dai... va bene, va bene, ragazzo mio, perfetto, bravo, bravo ... Dai! Dai! Via! Via! Nella porta! Eccola, eccola, eccola, mio bravo ragazzo, caro mio, eccola, eccola, ecco AAAHHHHHHHHH!!! VAFFANCULO!!! FIGLIO DIMIGNOTTAÜ STRONZO! CAFONE! TRA-DITORE! Madonna... Ah, Dio mio, perche, perche, perche, questo e stupido, e una vergogna, la vergogna... Che casino, che bordello ... NON HAI UN CUORE, ALBERTİNİ! FAI FINTA! Guarda, non e successo niente... Dai, dai, ah... Molto migliore, Albertini, molto migliore, si si si, eccola, bello, bravo, anima mia, ah, ottimo, eccola adesso ... nella porta, nella porta, nell VAFFANCULO!!!”

Bu sözləri belə tərcümə edə bilərəm:

“İrəli, irəli, irəli, Albertini, irəli... Yaxşı, yaxşı oğlum, əla, mükəmməl, möhtəşəm... İrəli! İrəli! Davam et! Davam et!

Qapıya tərəf! Ordadır, ordadır, ordadır, ağıllı oğlum, əzizim, ordadır, ordadır, orda - AAAHHHHHHHHH!!! GET TULLAN!!! AXMAĞIN BALASI!!! AXMAQ!!

downloaded from KitabYurdu.org

SATQIN! Allahım, niyə, niyə, niyə, bu axmaqlıqdır, biabırçılıqdır, onun rüsvayçılığı... Nə biabırçılıqdır... (Təəssüf ki, “che casino” və “che bordello” sözlərini dəqiq tərcümə etmək mümkün deyil. Hərfi mənası “necə bir qumarxanadır” və ya “necə bir əxlaqsızlıq yuvasıdır” kimi tərcümə edilir. Amma məna baxımından “necə də biabırçılıqdır” fikrinə uyğun gəlir).
SƏNİN ÜRƏYİN YOXDUR, ALBERTİNİ! SAXTAKARSAN! Buna bir bax, heç nə olmadı... İrəli, irəli, aha, yaxşı... Daha yaxşı, Albertini, daha yaxşı, bəli, bəli, bəli, ordadır, gözəl, möhtəşəm, ah, əla, ordadır nəhayət ki... Qola doğru, qola doğru, qola GET TULLAN!!!”

O kişinin qabağındakı oturacaqda keçirdiyim dəqiqələri həyatımın xoşbəxt və bəxtəvər anlarından sayıram. Ağzından çıxan hər söz xoşuma gəlirdi. Başımı onun qoca dizlərinin üstünə qoymaq və həmin lənətləri sonsuza qədər qulağıma pıçıldamasım xahiş etmək istəyirdim. Təkcə o deyildi! Bütün
stadion belə monoloqlarla dolu idi. Belə yüksək bir hərarətlə! Meydanda kimsə haqsızlığa məruz qalanda bütün stadion ayağa qalxır və 20.000 nəfər eyni anda tıxacda mübahisə edirmiş kimi əsəbi halda lənətlər yağdıraraq əllərini silkələyirdi. “Latsio” komandasının

downloaded from KitabYurdu.org

oyunçuları da çılğınlıqlarına görə azarkeşlərindən geri qalmırdılar. “Yuli Sezar”m ölüm səhnəsində olduğu kimi yerdə ağrılar içində qıvrılır, iki saniyədən sonra isə ayağa sıçrayaraq, yeni bir qol arzusu ilə rəqib komandanın qapısına doğru hücuma keçirdilər.

Oyun “Latsio”nun məğlubiyyəti ilə başa çatdı.

Oyundan sonra kefi pozulan Luka Spagetti dostlarından, - “Bəlkə harasa gedək?” - deyə soruşdu.

Mən onun sualını, - “Bəlkə bir bara gedək?” - kimi başa düşdüm. Adətən Amerikada azarkeşlər komandaları məğlub olanda belə edirlər. Onlar bara gedib yaxşıca içirlər. Bunu edən təkcə amerikanlar deyil: ingilislər, avstraliyalılar, almanlar, bir sözlə, hər kəs, elə deyilmi? Amma Luka və dostları əhval- ruhiyyələrini qaldırmaq üçün bara getmədilər. Şirniyyat evinə getdilər. Romanın təsvir edə bilmədiyim bir hissəsində,

zirzəmidə yerləşən gizli, balaca, zərərsiz bir şirniyyat evi. Həmin bazar axşamı ora müştərilərlə dolu idi. “Latsio” azarkeşləri stadiondan çıxıb evlərinə gedəndə, motosikletlərinə söykənib oyun haqqında müzakirə etmək, kremli peçenye yemək və bacardıqları qədər maço görünmək üçün bura gəlirlər.

İtaliyanı sevirəm.

24

downloaded from KitabYurdu.org

Hər gün italyan dilində orta hesabla iyirmi yeni söz öyrənirəm. Yerli sakinlər kimi şəhərdə gəzəndə kartlarımı oynada-oynada öyrənməklə məşğul oluram. Görəsən, beynimə bu qədər sözü necə yerləşdirə bilirəm? Ümid edirəm ki, beynim keçmiş mənfi fikirləri və kədərli xatirələri silərək onların yerini bu parlaq sözlərlə doldurmağa qərar verib.

İtalyan dili ilə həddindən artıq ciddi məşğul oluram və qapılarını tamamilə üzümə açacağı günü səbirsizliklə gözləyirəm. Bir gün ağzımı açacağam və sürətlə sehrli italyan sözlərini deməyə başlayacağam. Tezliklə küçənin o biri tərəfində, -"Marko!" - deyə dostunu çağıran şəxsin səsinə ani instinktlə, - "Polo", - deyə cavab vermək istəyən tipik amerikalının əvəzinə, əsl italyan olacağam. Bu dilin asanlıqla həyatıma nüfuz etməsini istəyirəm, amma onun bir sıra çətinlikləri var. Məsələn, nəyə görə italyan dilindəki "ağac" və "otel" ("albero" və "albergo") sözləri bir-birinə bu qədər
yaxındır? Bunun ucbatından səhvən insanlara, "Biz fermamızda ağac əkirdik", demək əvəzinə, "Biz fermamızda otel əkirdik", - deyirdim. Bundan əlavə, iki, hətta üç mənası olan sözlər kifayət qədərdir. Məsələn: "tasso". Bu söz "faiz", "porsuq" və "qaraçöhrə ağacı" mənalarında işlədilir. Mənə elə gəlir ki, bu, sözün

downloaded from KitabYurdu.org

konteksti ilə bağlıdır. Məni ən çox məyus edən isə qəbul etmək istəməsəm də, bəzi sözlərin çirkin olmağıdır. Bunu özümə qarşı bir növ təhqir kimi qəbul edirəm. Bağışlayın, amma mən o qədər yolu “schermo” (şirma) sözünün tələffüzünü öyrənmək üçün gəlməmişəm.

Amma yenə də buna dəyər. Bu, daha çox saf həzzdir. Covanni ilə bir-birimizə italyan və ingilis dillərində ifadələr öyrədəndə çox maraqlı vaxt keçiririk. Ötən axşam kədərli bir şəxsə təsəlli vermək üçün istifadə edilən ifadələr haqqında danışırdıq. Ona ingilis dilində bəzən, - “Mən də sən keçən yolları keçmişəm” - ifadəsini işlətdiyimizi dedim. Əvvəlcə, o, nə dediyimi başa düşmədi: “Mən hansı yollardan keçmişəm ki?” Mən isə ona dərin kədərin müəyyən bir yer kimi zamanın xəritəsində xüsusi koordinatlara sahib olduğunu izah etdim.

Həmin dərd meşəsində dayananda nə vaxtsa daha yaxşı bir yerə aparacaq yola gəlib çıxa biləcəyin heç ağlına belə gəlmir. Amma əgər bəzi insanlar sənə bir vaxtlar özlərinin də oradan keçdiklərini və hələ də həyata problemsiz davam etdiklərini deyirsə, bu, insanı ümidləndirir.

“Deməli, kədər bir yerdir?” - deyə Covanni soruşdu.

“İnsanlar bəzən o yerdə illərlə yaşaya bilərlər”, - deyə

downloaded from KitabYurdu.org

cavab verdim.

Cavab olaraq Covanni italyanların başqalarının dərdinə şərik olarkən “L’ho provato sula mi apelle”, ifadəsini işlətdiyini bildirdi. Tərcüməsi belədir: “Mən bunu öz dərimdə hiss etmişəm”. Və bu mənanı ifadə edir: “Mən də bu yolda yanmışam və yaralanmışam. Ona görə də sənin başına gələnləri anlayıram”.

Bu günə qədər italyan dilində ən çox xoşuma gələn söz isə olduqca sadədir:

“Attraversiamo”.

Bu söz - “Gəl, qarşı tərəfə keçək” mənasını verir. İnsanlar yolun qarşı tərəfinə keçəndə bir-birlərinə bu sözü deyirlər.

Ancaq piyada qaydalan ilə bağlı bir sözdür, heç bir xüsusi mənası yoxdur. Amma yenə də bu söz mənə təsir edir. İlk dəfə Covanni bunu mənə deyəndə, Kolizeyin ətrafında gəzirdik. Birdən-birə bu gözəl sözü tələffüz etdi və mən valeh olmuş bir halda soruşdum: “O nə deməkdir? İndicə sən nə dedin?”

“Attraversiamo”.

O bu sözü nəyə görə bu qədər xoşladığımı başa düşə bilmədi. “Gəl qarşı tərəfə keçək”. Bu ifadə qulağıma italyan dilindəki səslərin möhtəşəm kombinasiyası kimi gəlir. Girişdəki kədərli “a”, səsin zəif titrəməsi, insana

downloaded from KitabYurdu.org

dinclik gətirən “s” və nəhayət, axırda yubanan “i-a-o”. Bu sözü sevirəm! Ondan həmişə istifadə edirəm. Bunun üçün bəhanələr uydururam. Cəzasını isə Sofi çəkməli olur. “Gəl, qarşı tərəfə keçək! Gəl, qarşı tərəfə keçək!” Romanın yorucu nəqliyyat sistemində onu bütün gün ora-bura sürüyürəm. Deyəsən, bu söz ikimizin də axırma çıxacaq!

Covanninin ingilis dilində ən çox sevdiyi söz isə “sarsaq”dır.

Luka Spagettinin sevimlisi isə “təslim olmaq” sözüdür.

25

Avropada indi gərgin mübarizə gedir. Bir neçə şəhər 21-ci əsrin Avropa paytaxtı olmaq uğranda mübarizə aparır. Görəsən, London olacaq? Yoxsa Paris, Berlin, Sürix? Bəlkə Avropa Birliyinin mərkəzi olan Brüssel şəhəri? Onların hər biri mədəniyyət, memarlıq, siyasi, iqtisadi sferalarda digərini üstələməyə çalışır. Roma isə bu mövqe yarışma qatılmağa cəhd belə etməyib. Ümumiyyətlə, Roma heç vaxt yarışlarda iştirak etmir. O, bütün bu mübarizəni, narahatlığı soyuqqanlı halda uzaqdan izləyir və sanki səssizliyi ilə - “Ey, nə istəyirsinizsə edin! Mən isə hələ də Romayam”, - deyirdi. Bu şəhərin dəbdəbəli özünə inamı məni ilhamlandırır. Tarixin ovcundakı

downloaded from KitabYurdu.org

yerinin dəyişilməz olduğunu dərk edən, sağlam, təəccübləndirən, əyləndirən və abidələrlə zəngin olan Roma... Qocalanda mən də Romaya bənzəmək istəyirəm.

Bu gün şəhərdə altısaatlıq bir gəzinti ilə özümü mükafatlandırıram. Tez-tez espresso və pirojnalarla mədəni
doldurmaq üçün fasilə verirsənsə, bu o qədər də böyük bir vaxt deyil. Gəzintiyə mənzilimin qapısından başlayır, doğma məhəlləmdən, onun dükanlarının və çox millətli adamlarının arasından tələsərək keçib gedirəm. (Hərçənd sözün ənənəvi mənasında, buranı məhəllə adlandıra bilmərəm. Əgər biz hamımız bir məhəllənin uşaqları olsaydıq, onda mənim qonşularım arasında Valentino, Gucci, Armani kimi sıravi şəxslər olmalı idi). Bura həmişə yüksək səviyyəli bir məkan olub. Rubens, Tennison, Stendal, Balzak, List, Vaqner, Tekkerey, Bayron, Kits kimi şəxslər vaxtilə burada yaşayıblar. Aristokratların "ingilis gettosu" adlandırdığı və Avropa səyahətləri ərzində istirahət etdiyi ərazidə qalıram. Londonun səyahət klublarından biri buranı "The Society of Dilettanti" adlandırır. Təsəvvür edin ki, bu insanlar özlərini diletant adlandırırdılar! Ağlasığmaz biabırçılıqdır...

İsveç kraliçası Kristinanın xatirəsinə Bernini

downloaded from KitabYurdu.org

tərəfindən hazırlanan iri tağlı Piazza del Popoloda gəzirəm (Kraliça Kristina tarixin “neytron bombalarından biri hesab olunur. Rəfiqəm Sofi onu belə təsvir edir: “O at sürməyi, ovçuluq
etməyi bacarırdı, savadlı idi. Sonradan katolik oldu və bu, böyük mübahisələrə gətirib çıxardı. Bəziləri onun kişi olduğunu deyirdilər, amma elə olmasa da, ən azından qadınlara maraq göstərirdi. Şalvar geyinir, arxeoloji qazıntı işlərinə qatılırdı. İncəsənət nümunələrindən ibarət kolleksiyası var idi və özündən sonra varis qoymaqdan imtina etmişdi”). Tağın yanında ödənişsiz girib Karavacconun rəsmlərinə baxa biləcəyiniz bir kilsə var. Onlardan birində müqəddəs Pyotrun əzab çəkməsi, digərində isə müqəddəs Pavelin müraciəti əks olunub (Müqəddəs Pavel təsvirdə o qədər xoşbəxtdir ki, ilahi ekstazın təsiri ilə atdan yıxılıb. At belə buna inana bilmir). Karavacconun bu əsərləri məni həmişə kövrəldir və təsirləndirir. Ancaq kilsənin digər tərəfinə gedərək Romanın ən xoşbəxt, şən, gülərüz körpə İsa treskalarına baxıb kefimi açıram.

Yenidən cənuba tərəf getməyə başlayıram. İcarədarları sırasına Napoleonun qalmaqallara səbəb olan bacısı Polin də daxil olan, onun saysız-hesabsız sevgililərini gizlədən Palazzo Borgezenin qarşısından keçirəm. Polin həmçinin

downloaded from KitabYurdu.org

qulluqçulardan oturmaq üçün stul kimi istifadə etməyi xoşlayırmış (Adətən insanlar Romaya yoldaşlıq edən bələdçi kitablarında bu cümləni səhv oxuduqlarını düşünürlər, amma bu, dəqiq məlumatdır. Deyilənə görə Polin həmçinin vanna otağına "nəhəng bir zənci" tərəfindən apanlmaqdan zövq alırmış). Sonra gəzintiyə böyük, bataqlıqlarla zəngin olan, kəndi xatırladan Tibr sahilləri boyu Romada ən sevimli yer olan Tibr adasına üz tutaraq davam edirəm. Bu ada haqqında danışanda ilk olaraq ağla müalicə gəlir. Eskulap məbədi eramızdan əvvəl 291-ci ildə, şiddətli taun xəstəliyi yayılandan sonra tikilib. Orta əsrlərdə "Fatabene-fratelli" (tərcüməsi belədir: "Yaxşılıq edən qardaşlar") adı ilə tanınan bir qrup keşiş orada bir xəstəxana tikir və həmin xəstəxana bu günə qədər adada qalmaqdadır.

Çayı keçib Trasteverə - əsrlərdir ki, Tibrin o biri sahilindəki abidələri ərsəyə gətirən işçilərin, əsl Romalılarm məskunlaşdığı yerə tərəf gedirəm. Burada mən sakit bir "trattoria"daıo nahar edirəm. Tələsmədən yemək yeyir və şərab içirəm. Əgər bunu etmək istəyirsənsə, heç bir trasteverli
aramla, tələsmədən nahar etməyinizə mane ola bilməz. Əvvəlcə, "Bruschette" və "Spaghetti cacio e pepe"nin dadma baxıram (pendir və istiotla verilən, Romaya xas

downloaded from KitabYurdu.org

sadə pasta). Sonra isə qızardılmış toyuq sifariş verirəm, toyuğu küçə iti ilə bölürəm. Bu it məni yalnız küçə itlərinə məxsus olan baxışlarla seyr edirdi.

Yeməkdən sonra nasistlər tərəfindən boşaldılana qədər əsrlərlə mövcudluğunu qoruyub saxlayan qədim, kədərli yəhudi gettosunun yanından ötüb körpü ilə geri qayıdıram. Şimala üz tutaraq yer üzünün dörd böyük çayını (Fəxrlə deyə bilərəm ki, tamamilə doğru olmasa da, sevimli Tibr də bu siyahıya daxildir) şərəfləndirən, nəhəng fəvvarəsi ilə tanınan Piazza Navonadan keçirəm. Panteona da nəzər salmağı unutmuram. Ümumiyyətlə, Romada olduğum vaxt ərzində hər fürsətdə Panteona baş çəkməyə çalışıram. Qədim bir atalar sözündə deyildiyi kimi: "Romaya gəlib Panteonu görməmiş qayıdan şəxs bura axmaq kimi gəlir və gedir".

Evə qayıdanda xeyli dövrə vururam və nədənsə Romada məni ən çox təəccübləndirən ünvanda - Avqustun
məqbərəsində dayanıram. Bu böyük, dairəvi, kərpic qalıqlarından ibarət tikili Oktavian Avqust tərəfindən onun və ailəsinin adını əbədi yaşatmaq məqsədilə məqbərə kimi tikilib. Yəqin ki, o vaxt imperator üçün Romanın nə vaxtsa "Avqusta pərəstiş imperiyası" funksiyasını daşımayacağı fikrini qəbul etmək çətin

downloaded from KitabYurdu.org

məsələ idi. O öz hakimiyyətinin iflasa uğrayacağını əvvəlcədən necə təyin edə bilərdi ki? Və ya barbarlar tərəfindən su kəmərlərinin, yolların məhv ediləcəyini, şəhər sakinlərinin çıxardılacağım və öz qüdrətinin zirvəsində olan Romanın yenidən gücünü bərpa etməsinin iyirmi əsrə yaxın vaxt aparacağını kim deyə bilərdi ki?

Orta əsrlərdə Avqustun məqbərəsi barbarların hücumuna və dağıntılara məruz qalır. Kimsə imperatorun külünü oğurlayır. Kim olduğu deyilmir. Bütün bunlara rəğmən on ikinci əsrdə bu abidə Kolonna ailəsini hücumçulardan qorumaq məqsədilə qalaya çevrilir. Sonra müxtəlif dövrlərdə Avqustun məqbərəsi - üzüm bağı, İntibah bağçası, arena (on səkkizinci əsrdə), fişəng anbarı və konsert zalı funksiyasını yerinə yetirir. 1930CU illərdə Mussolini bu mülkü müsadirə edir və özü üçün
sonuncu istirahət yeri - son mənzil halına gətirir (Yəqin ki, Mussoliniyə də nə vaxtsa Romanın "Mussoliniyə pərəstiş imperiyası" olmayacağma inanmaq sərf etmirdi). Təbii ki, Mussolininin faşist xəyallan çox çəkmir və gözlədiyi imperator dəfni ona nəsib olmur.

Hazırda torpağın dərinliklərində qalan Avqustun məqbərəsi Romanın ən sakit və tənha yerlərindən biridir. Əsrlər boyu şəhər onun ətrafında inkişaf etməyə, böyüməyə başlayıb (ildə təxminən bir qanş artmaqla).

downloaded from KitabYurdu.org

Abidənin yuxan tərəfində nəqliyyatın narahat axmı davam edir, aşağı isə heç kimi buraxmırlar və böyük ehtimalla insanlar ora ictimai ayaqyolu kimi istifadə etmək xaricində heç bir məqsədlə üz tutmurlar. Lakin Romanın təməlini ləyaqətlə daşıyan tikili hələ ki sağ-salamat halda növbəti aqibətini gözləyir.

Abidənin bu qədər mürəkkəb taleyi olmasına baxmayaraq, hər dövrdə zamanın qəddarlığına uyğunlaşa bilməyi məni heyrətə gətirdi. Məncə, Avqustun məqbərəsi qeyri-adi həyat tərzi keçirmiş bir qadın kimidir. Məsələn, əvvəlcə, evdar xanım olub, sonra gözlənilmədən dul qalaraq rəqqasəlik etməyə
başlayıb, ardınca kosmosa gedən ilk qadın diş həkimi kimi tarixə düşüb, nəhayət, siyasətlə məşğul olmağa qərar verib, amma bütün bu çevrilişlərə rəğmən özünəməxsusluğunu qoruyub saxlayıb.

Məqbərəyə baxanda həyatımın bir o qədər də xaotik olmadığını düşünürəm. Həyatımıza gözlənilməz dəyişikliklər gətirən dünyadan başqa heç nə xaotik deyil. Avqustun məqbərəsi mənə xəbərdarlıq etdi ki, kim olduğum, nəyi təmsil etdiyim, kimə məxsus olduğum və ya bir vaxtlar qarşıma qoyduğum məqsədlərlə bağlı köhnəlmiş ideyalara boyun əyməməliyəm. Dünən kiminsə gözündə füsunkar bir abidə idim. Bu, doğrudur,

downloaded from KitabYurdu.org

amma sabah da fişəng anbarına çevrilə bilərəm. “Əbədi şəhərdən belə insan həmişə çevrilişin azğın və sonsuz dalğalannm hücumuna hazır olmalıdır”, - deyir lal abidə.

26

Hələ Nyu Yorkda ikən, İtaliyaya getməyə hazırlaşanda özümdən əvvəl bura bir qutu kitab göndərdim. Qutu dörd və ya altı günə Romadakı mənzilimə çatdırılmalı idi, amma deyəsən, buradakı poçt şöbəsi həmin yazını 46 gün kimi oxumuşdu. Çünki iki ay keçsə də, qutudan səs-soraq yoxdur. İtalyan dostlanm, - “o qutunu yaddan çıxart”, - deyirlər. Onların sözlərinə görə, qutu gəlib çata da bilər, çatmaya da. Bu, heç kimdən asılı deyil.

“Kimsə oğurlamış ola bilər?” - deyə Luka Spagettidən soruşdum. “Bəlkə poçt şöbəsi qutunu itirib?”

Gözlərini yumur. “Axmaq suallar vermə”, - deyir. “Bununla, sadəcə, öz kefini pozursan”.

İtkin düşən qutumun sirri bir axşam amerikalı rəfiqəm Maria və onun əri Culio ilə aramızda qızğın müzakirəyə səbəb oldu. Maria düşünür ki, inkişaf etmiş bir cəmiyyətdə poçt sifarişlərinin vaxtında çatdırılacağına arxayın olmaq lazımdır. Culio isə onunla həmfikir deyil. Poçt şöbələrinin şəxslərin deyil,

taleyin iradəsindən asılı olduğunu və bir sifarişin vaxtında çatdırılmasına zəmanət verməyin mümkün olmadığını

downloaded from KitabYurdu.org

bildirir. Əsəbiləşən Maria deyir ki, bu, protestant və katoliklər arasındakı fərqə növbəti dəlildir. Onun fikrincə, başqa bir sübut da italyanların öz həyat yoldaşları da daxil olmaqla, birhəftəlik üçün də olsa, heç vaxt gələcəklə bağlı planlar qurmamaqlarıdır. Əgər Amerikanın Orta Qərbindən olan bir protestantı növbəti həftə şam yeməyinə dəvət etsən, öz taleyinə hökm vermək iqtidarında olduğuna inanan həmin şəxs, - "Cümə axşamı mənə uyğundur", - deyə cavab verər. Lakin eyni sualı Kalabriyadakı bir katolikə ünvanlasan, əvvəlcə, çiyinlərini çəkər, sonra isə gözlərini Tanrıya zilləyib deyər: "Hər şeyin Tanrının əlində olduğunu və taleyimizə hökm verə bilməyəcəyimizi nəzərə alsaq, növbəti cümə axşamının şam yeməyi üçün uyğun olub-olmadığını necə müəyyənləşdirə bilərik?"

Lakin buna baxmayaraq qutumdan bir xəbər öyrənmək üçün bir neçə dəfə poçt idarəsinə getdim, amma heç bir faydası olmadı. Romadakı poçt işçisi hər dəfə də mənim gəlişim
nəticəsində sevgilisi ilə telefonda danışığının yarımçıq qalmasından hədsiz narazı qalırdı. Və sözün düzü, getdikcə yaxşılaşan italyan dilim belə çətin anlarda məni pis vəziyyətdə qoyur. Hər dəfə məntiqli cümlələr qurub kitablarında bağlı vəziyyəti izah etmək istəyəndə, həmin

downloaded from KitabYurdu.org

qadın mənə elə baxır ki, sanki tüpürcəyimdən qovuqcuqlar şişirtmək istəyirəm.

“Bəlkə gələn həftə burada olar?” - italyan dilində soruşuram.

Çiyinlərini çəkir: “Magari”.

İtalyan dilindən tərcüməsi mümkün olmayan növbəti söz... “Ümidvaram” və “Yuxuda görərsən, axmaq” ifadələrinin arasında bir məna daşıyır.

Bəlkə də elə bu ən yaxşısıdır. O qutuya hansı kitabları qoyduğum artıq yadımdan çıxıb. Əminəm ki, italyan dilini öyrənəndən sonra oxumaq məqsədilə seçdiyim kitablar idi. O qutunu hər cür tədqiqat materialı ilə doldurmuşdum. Amma burada olduğuma görə onların heç bir əhəmiyyəti qalmayıb. Deyəsən, Hibbonun “Roma imperiyasının tənəzzül və süqut tarixi” adlı mətninin tam variantını belə qoymuşdum. Bəlkə də
o qutusuz daha xoşbəxtəm. Həyatın onsuz da qısa olduğunu nəzərə alsaq, geridə qalan günlərimi Edvard Hibbonu oxuyaraq keçirməyi doğrudanmı istəyirəm?

27

Keçən həftə arxa çantası ilə həyatında ilk dəfə Avropanı gəzən, avstraliyalı gənc bir qızla tanış oldum. Ona vağzalın yerini izah etdim. Sloveniyaya gedirdi. Bunu eşidəndə, - “Mən də Sloveniyaya getmək istəyirəm! Nəyə

downloaded from KitabYurdu.org

görə heç yerə səyahət etmirəm?” - deyə fikirləşərək ona paxıllıq etməyə başladım.

Kənardan baxanda səyahət edirmiş kimi görünürəm. Və qəbul edirəm ki, səyahətdə ola-ola gəzməyə paxıllıq etmək acgözlükdür. Bu, sevdiyin bir aktyorla sevişəndə, pərəstişkarı olduğun digər aktyoru təsəvvür etməyə bənzəyir. Ancaq o qızın məndən ünvan soruşmağı mənim Romada turist deyil, sakin olduğumu göstərir (Bəlkə də o məni yerli sakinlərdən biri hesab etmişdi). Müvəqqəti də olsa, italyan idim. Əslində, onunla qarşılaşanda elektrik enerjisinin borcunu ödəməyə gedirdim. Məlumdur ki, turistlər elektrik enerjisinin borcunu ödəməli deyillər. “Bir yerə səyahət etmək enerjisi” ilə “bir yerdə yaşamaq enerjisi” bir-birindən əsaslı surətdə fərqlənir. Avstraliyalı qızla
rastlaşmağımız məndə yenidən yollara düşmək üçün böyük bir həvəs yaratdı.

Buna görə də Sofiyə zəng etdim və - “Gəl bu gün Neapolda pizza yeyək!” - dedim.

Bir neçə saatdan sonra artıq qatarda idik və sanki bir göz qırpımında gəlib çatdıq. Neapola dərhal vuruluram. Vəhşi, səs- küylü, kobud, çirkli, çılğın Neapol... Bu yer ekzotik yaxın Şərq bazannı, Yeni Orlean vudusunun cadusunu və dovşanların yığışdığı yerdəki qanşqa

downloaded from KitabYurdu.org

yuvasını xatırladır. Uçub dağılmış, təhlükəli və şən bir dəlixana! Dostum Veid 1970-ci illərdə Neapolda soyğunçulann qurbanı olmuşdu, özü də muzeydə! Şəhərin başlıca bəzəyi - hər pəncərədən asılan və hər küçədə yellənən paltarlar idi. Təzəcə yuyulmuş alt paltarları Tibetin dua bayraqları kimi küləyin təsirilə yellənirlər. Burada elə bir küçə yoxdur ki, orada şort və bir-birinə uyğun gəlməyən corablar geyinmiş bir uşaq səkidə dayanıb, qarşıdakı binanın damındakı digər uşağa qışqırmasın. Həmçinin hər binada pəncərəsindən şübhə ilə ətrafa boylanan yaşlı bir qadın var.

Buradakı insanlar Neapol sakini olduqlarına görə dəlicəsinə fərəh duyurlar. Nəyə görə duymamalıdırlar ki? Bura bütün dünyaya pizza və dondurmanı bəxş edən şəhərdir. Neapol qadınları gur səsli, əliaçıq, çoxdanışan, hər şeyi bilmək istəyən, əsəbi və hökmranlığa can atan, üzə duran və İsanın xətrinə sizə kömək etməyə hazır olan xanımlardır. Nəyə görə burada hər şeyi onlar etməlidirlər? Neapol aksenti qulağa dəyən dost şilləsi təsiri bağışlayır. Bura hamının eyni anda qışqırdığı ayaqüstü yeməklər şəhəridir. Buradakı əhali hələ də öz dialektini və jarqon sözləri qoruyub saxlayır. Amma Neapoldakı insanlan İtaliyada ən asan ünsiyyət qura biləcəyim şəxslər hesab edirəm. Çünki onlar başa

downloaded from KitabYurdu.org

düşməyinizi “tələb edirlər”. Ucadan və qətiyyətlə danışırlar. Əgər nə dediklərini başa düşməsən jest-mimikalanndan anlaya bilərsən. Motorollerdə özündən bir neçə yaş böyük olan əmisi oğlunun arxasında əyləşib gedəndə, mənə tərəf çevrilib şirin bir təbəssümlə ortancıl barmağını göstərən balaca, məktəbli qız kimi. O sanki bu hərəkəti ilə demək istəyirdi ki, - “İnciməyin, xanım. Cəmi yeddi yaşım olsa da sizin əsl səfeh olduğunuzu
deyə bilərəm. Amma eybi yoxdur, özünüzə görə pis deyilsiniz. Hətta axmaq üzünüzün xoşuma gəldiyini də deyə bilərəm. İkimiz də bilirik ki, mənim yerimdə olmaq istəyərdiniz, lakin təəssüf ki, bu mümkün deyil. Nə isə. Buyurun, orta barmağım! Neapoldakı hər dəqiqənizin qədrini bilin! Ciao!”

İtaliyadakı hər yerində olduğu kimi burada da futbol oynayan oğlanlan, yeniyetmə və kişiləri görmək olar, ancaq Neapolda bu təkcə futbol oynamaqla məhdudlaşmır. Məsələn: bu gün köhnə toyuq səbətləri toplayıb onlardan stol-stul düzəldən yeddi-səkkiz yaşlı bir qrup uşağın bazarda hərarətlə poker oynadığını gördüm. Oyuna o qədər aludə olmuşdular ki, kiminsə gülləyə tuş gələcəyindən qorxdum.

Dil yoldaşlarım olan əkizlər Covanni və Dario əslən Neapoldandırlar. Buna inanmaq çətindir. Utancaq,

downloaded from KitabYurdu.org

çalışqan və şirin Covannini bu avaralann (Bu sözü demək mənim üçün elə də asan deyil) arasında təsəvvür edə bilmirəm. Lakin o Neapoldandır, buna əminəm. Çünki bura gələcəyimi biləndə mənə Neapolda ən yaxşı pizzalann hazırlandığı yerin ünvanını verdi və mütləq getməyi tövsiyə etdi. Bu təklif məni sevindirdi.

Axı İtaliyada ən yaxşı pizzalar Neapoldadır və dünyanın ən yaxşı pizzası da italyan pizzasıdır. Bunu demək qəribə gəlsə də, belə çıxır ki, orada mənə dünyanın ən dadlı pizzası təklif ediləcək? Covanni həmin restoranın adını o qədər ciddi və diqqətlə tələffüz etdi ki, oranın bir anlıq gizli bir cəmiyyət olduğunu ağlımdan keçirdim. Ünvan yazılmış kağızı ovcuma qoydu və ciddi bir tərzdə dedi: "Xahiş edirəm bu restorana get. İkiqat mozarellalı marqarita pizza sifariş ver. Əgər Neapolda bu pizzanın dadma baxmasan, xahiş edirəm ki, mənə yalandan de ki, yemisən".

Beləliklə, Sofi ilə "Pizzeria da Michele"yə gəlirik və yediyimiz pizzalar ağlımızı başımızdan alır! Pizzam o qədər xoşuma gəlir ki, onun da məni sevdiyinə inanmaq istəyirəm. Bu pizzaya vuruluram. O, mənim sevgilimdir. Sofi isə göz yaşlarını saxlaya bilmir. Deyəsən, metafizik böhran keçirir: "Stokholmda nəyə görə pizza hazırlamağa çalışırlar? Nəyə görə biz Stokholmda yemək yeyirik?"

downloaded from KitabYurdu.org

“Pizzeria de Michele” iki zal və dayanmadan işləyən bircə sobadan ibarət balaca bir yerdir. Yağışın altında vağzaldan ora
çatmaq üçün cəmi on beş dəqiqə lazımdır. Narahat olmayın, itirdiyiniz vaxta dəyəcək! Ora günün erkən saatlarında getməyiniz məsləhətdir, çünki bəzən xəmir qurtarır. Bu da xoşunuza gəlməyəcək. Saat i3:oo-dan etibarən həmin restoranın yerləşdiyi küçə xilasetmə qayığında yer tapmağa çalışırmış kimi içəri girə bilmək üçün bir-birini itələyən neapollularla dolu olur. Burada menyu yoxdur. Sadəcə, iki növ pizza var: sadə və ikiqat pendirli. Cənubi Kaliforniya zeytunları və qurudulmuş pomidorla doldurulan pizzalardan yoxdur. Xəmirin dadını pizzanm yarısını yeyib qurtarandan sonra başa düşdüm. Bu, əvvəllər yediyim pizza xəmirlərindən çox, Hindistandakı “nan” adlanan çörəyin tamını xatırladır. Yumşaq, asanlıqla çeynənən, elastik, həmçinin hədsiz dərəcədə nazik. Həmişə pizza xəmirində iki seçim olduğunu düşünmüşəm: nazik və xırtıldayan, ya da qalın və yumşaq. Yer üzündə nazik, yumşaq və xırtıldayan bir xəmir ola biləcəyi hardan ağlıma gələ bilərdi ki? Müqəddəslər müqəddəsi! Nazik, yumşaq, güclü, yapışqan, dadlı, asanlıqla çeynənən, duzlu bir pizza cənnəti! Üstündə təzə bişən mozarellanı əridəndə köpük

downloaded from KitabYurdu.org

və qaymaq təsiri bağışlayan tomat sousu, ortada isə bir ziyafətdə diqqət mərkəzində olan məşhur aktrisa hamını məftun edən kimi, bütün pizzanm diqqətini özünə cəlb edən reyhan budağı var. Əlbəttə ki, reallıqda onu yemək mümkün deyil. Əlinizdəki dilimdən bir parça dişləmək istəyəndə yumşaq xəmir əzilir, isti pendir uçquna uğramış torpağın üst qatı kimi sürüşür, sizin və ətrafimzdakılann üst-başını bulayır. Sadəcə, onunla bacarmağa çalışın.

Bu möcüzəni yaradan şəxslər odunla yanan sobanın içindəki pizzaları çıxaran vaxt, nəhəng gəmidə yerləşən qazana kömür atan ocaqçılara oxşayırlar. Paltarlarının tərli qollarını çirmələyir, qızarmış üzləri, ağızlarındakı siqaret və istidən qıyılmış gözləri ilə işlərini görürlər. Sofi ilə hərəmizə bir pizza da sifariş edirik - bütöv bir pizza. Sofi özünü toplamağa çalışır, amma pizza o qədər dadlıdır ki, özü ilə bacara bilmir.

Bədənimlə bağlı bir söz deyim. Əlbəttə ki, hər gün kökəlirəm. İtaliyada həddindən artıq çox pendir, makaron, çörək, şərab, şokolad və pizza yeyərək bədənimə qarşı haqsızlıq etdiyimi boynuma alıram (Yeri gəlmişkən, Neapolda, başqa bir
yerdə şokoladlı pizza hazırlandığını eşitmişdim. Bu nə ağılsızlıqdır? Sonra gedib dadma baxdım və bəyəndim. Amma vicdanla düşünün, heç pizza şokoladlı olar?).

downloaded from KitabYurdu.org

İdmanla məşğul olmuram, kifayət qədər lifli qida və vitamin qəbul etmirəm. Gerçək həyatımda səhər yeməyində içində buğda dənələri olan, üzvi keçi südündən hazırlanan yoqurt yeməyə öyrəşmişdim. Həmin günlər çoxdan geridə qalıb. Amerikada rəfiqəm Suzan soruşanlara "karbonatsız" səyahətə çıxdığımı deyir. Bədənim isə bütün bunlara rəğmən kifayət qədər dözümlüdür. O, bütün şıltaqlıqlarıma və səhvlərimə göz yummaqla sanki - "Yaxşı, balaca, həyatını yaşa. Bunun müvəqqəti olduğunu bilirəm. Həzz axtarışın yekunlaşanda xəbər ver ki, məndə vəziyyətimi necə bərpa edəcəyimi götür-qoy edim", - demək istəyir.

Hər halda Neapoldakı ən yaxşı pizzeriada güzgüyə baxanda xoşbəxt bir üz görürəm. Gözlərim parıldayır, dərim şəffaflaşıb, üzüm gülür. Özümü çoxdandır ki, belə görmürdüm.

"Çox sağ ol" - deyə pıçıldayıram. Sonra Sofi ilə yağışın altında qaçaraq şirniyyat yeməyə gedirik.

28

Romaya qayıdanda Devidlə bağlı nə isə etmək, bəlkə də artıq hekayəmizi yekunlaşdırmaq vaxtı olduğunu düşünməyimin səbəbi də bu xoşbəxtlikdir (Bunun üstündən bir neçə ay keçib). Biz onsuz da ayrılmışdıq. Bu, aydın məsələdir. Lakin hələ də daxilimdə bir də

downloaded from KitabYurdu.org

yoxlamaq ehtimalımız olduğu ilə bağlı ümid pəncərəsi açıq qalmışdı (bəlkə bir ildən sonra geri qayıdanda). Bir-birimizi sevirdik. Bu, heç vaxt sual altında olmayıb. Sadəcə, bir-birimizi ümidsiz halda, ruhlarımızı cəzalandırırmış kimi bədbəxt etməkdən əl çəkmirdik.

Keçən yaz Devid problemlərimizə yarızarafat, yangerçək belə bir həll yolu tapdı: "Uğursuz bir münasibətimiz olduğunu boynumuza alıb buna dözsək necə olar? Bir-birimizi əsəbiləşdirdiyimizi, həmişə dava etdiyimizi və demək olar ki, heç sevişmədiyimizi, amma bir-birimiz olmadan da yaşaya bilmədiyimizi qəbul edib, bununla yaşamağa çalışaq? Onda
həyatımızı əzab çəkərək, amma həmçinin bir yerdə olduğumuza görə xoşbəxt keçirə bilərik".

Qoy son on ayımı onun təklifi barədə düşünərək keçirməyim onu nə qədər ümidsiz halda sevdiyimin sübutu olsun!

Beynimizin bir küncündə ilişib qalan alternativlərdən biri də birimizin dəyişmək ehtimalı idi. O, insanlara qarşı daha açıq və mehriban ola bilərdi. Heç kimin onun ruhunu yeməyindən qorxub qaçmasa kifayət idi. Ya da mən onun ruhunu yeməyə çalışmaqdan imtina edə bilərdim.

Dəfələrlə Devidlə olan münasibətimizdə anamın öz

downloaded from KitabYurdu.org

ailə həyatında davrandığı kimi azad, güclü, özünəinamlı bir qadın olmağa çalışdım. Öz ayaqları üstündə dura bilən. İşgüzar fermer atamdan müəyyən miqdarı ötməyən romantika və ya komplimentlərlə kifayətlənib həyatına davam edən. Atamın hərdən ətrafına çəkdiyi o izahedilməz sükut sədlərinə rəğmən şən halda həyətdə güllər əkən. Ən çox sevdiyim insanlardan biri olsa da, atamın qəribə xasiyyəti olduğunu etiraf etməliyəm. Bir dəfə keçmiş sevgililərimdən biri onun haqqında belə demişdi:

“Atan sanki torpaq üzərində bir ayağı üstə dayanır, amma onun ayağı çox uzundur...”

Böyüdükcə həyat yoldaşı sevgi və diqqət göstərəndə də, öz dünyasına çəkiləndə də problemlərin öhdəsindən tək gələn anamı görürdüm. Ailə daxilindəki sirləri heç kimin bilməməli olduğunu (xüsusilə də uşaqlann) nəzərə alsaq, mən sadəcə bunu görməklə kifayətlənirdim. Heç kimdən heç nə istəməyən bir ananı seyr edərək böyümüşəm. O, hər şeydən əvvəl mənim anam idi - gənc olanda yerli kitabxanalardan birindən götürdüyü, “Necə üzmək lazımdır?” adlı kitabla soyuq Minnesota gölündə öz-özünə üzməyi öyrənən bir qadm. Mənim gözümdə bu qadının öhdəsindən gələ bilməyəcəyi iş yoxdur.

Romaya gəlməmişdən bir qədər əvvəl anamla hər şeyə

downloaded from KitabYurdu.org

aydınlıq gətirmək üçün söhbət etdik. Axırıncı dəfə mənimlə nahar etmək üçün Nyu Yorka gəldi və ailəmizin ünsiyyət qaydalarını pozaraq Devidlə aramızda nə baş verdiyini soruşdu. Mən də öz növbəmdə "Gilbert ailəsinin ünsiyyət məcəlləsi"nə məhəl qoymadan onunla dərdləşdim. Ona hər şeyi danışdım. Devidi nə qədər sevdiyimi, amma davamlı olaraq otaqda,
çarpayıda, planetdə yoxa çıxan bir şəxslə yaşadığıma görə necə tənha və kədərli olduğumu danışdım.

"Deyəsən, o, bir az atana oxşayır", - dedi. Cəsur və mərd bir etiraf idi.

"Problem odur ki, mən öz anama oxşamıram... Mən sənin kimi güclü deyiləm, ana", - dedim. "Sevdiyim insandan müəyyən bir yaxınlıq, doğmalıq görməyə ehtiyacım var. Kaş ki, sənin kimi ola biləydim. Onda Devidlə aramızda olan bu cür münasibətdən də zövq alardım. Nə vaxtsa arzuladığım qayğını ondan görə bilməmək məni məhv edir".

Diqqətlə qulaq asan anam məni şoka saldı. Dedi: "Münasibətdə arzuladığın şeylər bunlardır, Liz? Mən də həmişə bunları arzulamışam".

O an mənim güclü anam sanki masanın qarşısında dayandı, yumruğunu açdı və atamla xoşbəxt bir ailə həyatına nail olmaq üçün on illərlə həzm etmək

downloaded from KitabYurdu.org

məcburiyyətində qaldığı güllələri mənə göstərdi (Kənardan baxanda adama elə gəlir ki, xoşbəxt bir ailə həyatı var). Onun bu xüsusiyyətini heç vaxt görməmişdim. Heç bircə dəfə də. Nə istədiyini, nə üçün darıxdığını, nələr uğrunda mübarizə aparmaqdan imtina etdiyini heç vaxt fikirləşməmişdim. Bütün bunlan görəndən sonra dünyagörüşümdə radikal bir dəyişiklik baş verdiyini hiss edirdim.

"O belə mənim arzuladığımı istəyirsə, onda?.."

Anam bu gözlənilməz səmimiyyəti davam etdirərək dedi: "Həyatdan mümkün qədər az şey tələb etmək üzrə tərbiyə olunduğumu nəzərə almalısan, əzizim. Yaddan çıxartma ki, mən sənin mənsub olduğundan daha fərqli bir məkan və zamanın yetirməsiyəm".

Gözlərimi yumdum və anamın on yaşında Minnesotadakı ailə fermasında, əynində böyük bacısının paltarlan ilə işləyib, eyni zamanda qardaşlarını böyütdüyünü və oradan xilas olmaq üçün pul yığdığını təsəvvür etdim.

"Və atanı nə qədər çox sevdiyimi başa düşməlisən", - deyə fikrini yekunlaşdırdı.

Anam da hamı kimi həyatında bir çox seçimlər edib və peşman deyil. Bunu başa düşə bilirəm. Məsuliyyətdən boyun qaçırmayıb. Seçimlərinin faydaları da az olmayıb -

downloaded from KitabYurdu.org

hələ də ən
yaxın dostu saydığı kişi ilə uzun, möhkəm bir nikahı, ona heyran olan nəvələrini də ağuşuna alıb böyütməsi və öz gücünə arxayın olması. Bəzi şeylər qurban verilib. Əlbəttə ki, atam da fədakarlıqlar edib. Onsuz da həyatda kim güzəştə getmədən yaşayır ki?

İndi mən bu suala cavab verməliyəm: Seçimim nə olacaq? Həyatdan nə gözləyirəm? Nəyi qurban verə bilərəm, nəyi yox? Mənim üçün həyatı Devidsiz təsəvvür etmək çətindir. Təkcə sevimli səyahət yoldaşımla bir də heç vaxt gəzintiyə çıxmayacağımı, maşınımı onun evinin yanında saxlayıb, pəncərələri açaraq radioda Brüs Sprinqstə qulaq asmayacağımı, çox illər bundan sonra belə lətifə və yemək tədarükü görərək okean istiqamətində getməyəcəyimi fikirləşəndə belə az qala dəli olurdum. Amma bu xoşbəxtlik qaranlıq, adamın ətini didən tənhalıq, sümüklərini gəmirən inamsızlıq, hiyləgər mübahisələr və Devid verməyi rədd edib istəməyə başlayanda yaranan pərişanlıqla birlikdə qapımı döyürsə, açmaq lazımdırım? Buna artıq dözə bilmərəm. Neapoldakı şən ovqatım təkcə Devidsiz də xoşbəxt ola biləcəyimi deyil, bunun zəruri olduğunu sübut etdi.
Onu nə qədər sevdiyimin elə də əhəmiyyəti yoxdur (Həqiqətən də ifrat dərəcədə çox sevirəm). Artıq onunla

downloaded from KitabYurdu.org

vidalaşmalıyam.
Bir daha da bu mövzuya qayıtmamalıyam.

Beləliklə, ona elektron məktub yazıram.

Noyabr ayıdır. İyuldan bəri heç danışmamışıq. Ona hədsiz bağlı olduğumu və əgər yenidən ünsiyyət qursam fikrimi yenidən səyahətimə cəmləyə bilməyəcəyimi deyib mənimlə əlaqə qurmamağmı xahiş etdim. Amma əslində isə özüm ilk addımı atıram və ona məktub yazıram.

Ondan işlərinin necə olduğunu soruşuram və məlumat verirəm ki, məndə hər şey qaydasındadır. Bir az zarafat edirəm. Zarafatla aramız həmişə yaxşı olub. Sonra münasibətlərimizi həmişəlik yekunlaşdırmalı olduğumuzu qeyd edirəm. Artıq münasibətimizin alınmadığını, heç vaxt da düzəlməyəcəyini qəbul etməyin vaxtı olduğunu açıqlayıram. Məktub o qədər də dramatik deyil. Həyatımızda dramatizm onsuz da kifayət qədərdir. Qısa və bəsit yazdım. Amma əlavə etməli olduğum bir şey də var. Dərindən nəfəs alıb yazıram: "Əgər yenidən sevmək istəsən, əmin ol ki, dualanm sənindədir". Əllərim titrəyir.

Mümkün qədər şən bir ifadə tapmağa çalışıram və nəhayət "Sevgiylə, Liz" deyə yekunlaşdırıram.

Ürəyimin düz ortasına ox sancılmış kimi hiss edirəm.

Həmin gecə demək olar yatmıram, elə hey Devidin

downloaded from KitabYurdu.org

mənim məktubumu necə oxuduğunu düşünürəm. Növbəti gün cavab ümidilə bir neçə dəfə internet kafeyə baş çəkirəm. Devidin mənə: “GERİ QAYIT! GETMƏ! DƏYİŞƏCƏYƏM!” kimi cavab verəcəyini təlqin edən daxili səsimi eşitməməzliyə vururam. Devidin mənzilinin açarlan qarşılığında məmnuniyyətlə bütün dünyanı gəzmək arzusundan imtina etməyə hazır olan qıza fikir verməməyə çalışıram. Axşam saat təxminən onda gözlədiyim cavab gəlir. Əlbəttə ki, mükəmməl yazılmış bir məktubdur. Devid həmişə qüsursuz yazmağı bacanb. Həmişəlik vidalaşmaq vaxtının gəldiyini təsdiqləyir. Eynilə mənim kimi düşündüyünü bildirir. Bundan daha mərhəmətli bir cavab ola bilməzdi.

Ondan görməyə adət etmədiyim həssaslıqla öz itkisinə görə hiss etdiyi kədəri və peşmançılığını bildirir. Mənə heyran olduğunu və bunu ifadə etməyə söz tapa bilmədiyini yazır. “Amma biz bir- birimizə uyğun deyilik”, - deyə yekunlaşdırır. Nə vaxtsa

həyatımın sevgisini tapacağıma ümid etdiyini vurğulamağı da unutmur. O buna əmindir. “Gözəllik gözəlliyi cəlb edir”, - deyir.

Doğrudan da gözəl sözlərdir. Əgər həyatınızın məhəbbəti, - “GERİ QAYIT! GETMƏ! DƏYİŞƏCƏYƏM!” - demirsə, bunlardan daha gözəl

downloaded from KitabYurdu.org

sözlər tapa bilməz.

Uzun müddət kədərli halda kompüterin monitoruna baxıb fikrə getdim. Bilirəm ki, ən yaxşısı budur. Qəm-qüssəni deyil, xoşbəxtliyi seçdiyimə əminəm. Həyatıma hələ qarşılaşmadığım sürprizləri dəvət etmək üçün ucsuz-bucaqsız bir yola çıxıram. Bunları başa düşürəm. Amma hələ də...

Devid artıq mənim üçün yoxdur.

Uzun müddət kədərli üzümü əllərimlə tuturam. Sonra başımı qaldırıb görürəm ki, internet kafedə işləyən alban qadın döşəməni təmizləməyə fasilə verib və divara söykənib mənə baxır. Bir müddət yorğun baxışlarımız bir-birimizin üzündə gəzdi. Sonra ümidsiz halda başımı yelləyib, - "Çox pis vəziyyətdir", - deyirəm. O da öz növbəsində dərdimə şərik
olaraq başını yelləyir. Heç nəyi başa düşməsə də, ona elə gəlir ki, hər şeyi anlayır.

Mobil telefonum zəng çalır.

Zəng edən Covannidir. Səsi narahat gəlir. Cümə axşamı günləri dilimizi təkmilləşdirmək üçün görüşdüyümüz Piazza Fyume-də məni bir saatdan artıqdır ki, gözlədiyini deyir. Narahat olub, çünki adətən görüşə o gecikir və ya vaxtı yaddan çıxarır. Bu gecə isə ilk dəfə düz təyin edilən vaxtda gəlib çıxdığını deyir. Görüş təyin

downloaded from KitabYurdu.org

etmişdik, elə deyilmi? Mən bu görüşü tamamilə yaddan çıxarmışdım. Ona harada olduğumu deyirəm. Maşınla gəlib məni götürəcəyini bildirir. Mən isə indi heç kimi görmək istəmirəm, amma məhdud söz ehtiyatımı nəzərə alsaq, bu vəziyyəti "telefonino" vasitəsilə izah etmək elə də asan deyil. Bayıra çıxıb soyuqda onu gözləyirəm. Bir neçə dəqiqədən sonra balaca, qırmızı maşını ilə yaxınlaşır və minirəm. O, italyan slenqi ilə məndən nə baş verdiyini soruşur. Cavab vermək istəyəndə göz yaşlarımı saxlaya bilmirəm. Çığırmağa başlayıram. Rəfiqəm Sailinin "qoşa zərbə" adlandırdığı, hər hönkürtüdə iki dəfə nəfəs almaq məcburiyyətində qalanda çıxardığımız o dəhşətli, qorxunc fəryad səsini nəzərdə tuturam. Belə bir sarsıntı gözləmirdim. Özüm də heyrətləndim.

Yazıq Covanni! O, ingilis dilində fasilələr verə-verə səhv bir hərəkət edib-etmədiyini soruşur. Doğrudanmı ona hirslənmişəm? Mənim hisslərimlə oynayıb? Cavab verə bilmirəm. Sadəcə, başımı yelləyərək inildəməyə davam edirəm. Əsl pezzi - yəni pərişan halda olan yaşlı bir qadının hıçqırıqlarına dözməyə məcbur olduğuna görə maşınında sanki tələyə düşmüş yazıq Covanniyə görə o qədər pis olurdum ki... Özümdən utanırdım.

Nəhayət, narahatlığımın onunla heç bir əlaqəsi olmadığını deyə bilirəm. Belə axmaq vəziyyətdə olduğum

downloaded from KitabYurdu.org

üçün üzr istəyirəm. Covanni yaşından böyük bir əda ilə vəziyyəti ələ alır. “Ağladığın üçün üzr istəmə. Duyğularımız olmasaydı, robotdan fərqlənməzdik”, - deyir. Maşının arxa tərəfindəki bir qutudan mənə dəsmal uzadır. “Gəl gedək”, - deyə təklif edir.

O, haqlıdır. İnternet kafenin qabağı isterik vəziyyətə düşmək üçün həddindən artıq ictimai və işıqlı yerdir. Bir müddət maşını idarə edir, sonra Romanın ən kübar açıq sahələrindən biri olan Piazza della Republikanm mərkəzində dayanır. İri, qürurlu qu quşlarından ibarət sürü ilə rəqs edən, cazibədar pərilərlə bəzənmiş o gözqamaşdıran fəvvarənin qarşısında maşını saxlayır. Fəvvarə müasir dövrdə, Roma standartlarına uyğun şəkildə inşa edilib. Bələdçi kitabımda yazılanlara əsasən deyə bilərəm ki, pəri obrazı üçün poza verən qadınlar o vaxtlar məşhur olan iki rəqqasə bacıdır. Fəvvarə başa çatandan sonra onlar şöhrət qazanıblar, amma müsbət mənada yox. Kilsə həddindən artıq açıq-saçıq olduğuna görə fəvvarənin açılışına mane olmaq üçün dörd ay əlindən gələni edib. Bacılar isə kifayət qədər uzunömürlü olublar. Hətta 1920-ci illərdə belə fəvvarələrini görmək üçün hər gün meydana gəldikləri deyilir. Və ildə bir dəfə onları mərmərə həbs edən fransız heykəltaraş Romaya gəlib bacılan nahara dəvət edirmiş. Sonra onlar bir yerdə

downloaded from KitabYurdu.org

rəqqasələrin gözəl, çılğın və cazibədar olduqları dövrü yad edirmişlər.

Beləliklə, Covanni burada saxlayır və özümü ələ almağımı gözləyir. Mən isə əllərimlə gözlərimi ovuşdurараq göz yaşlanmı

içəri həbs etməyə çalışıram. Covanni ilə əvvəllər şəxsi mövzular haqqında danışmamışdıq. Bütün bu aylar ərzində, bir yerdə etdiyimiz nahar vaxtlarında fəlsəfə, incəsənət, mədəniyyət, siyasət və yeməklər barədə danışırdıq. Bir-birimizin şəxsi həyatı barədə heç bir məlumatımız yox idi. O mənim boşandığımı və ya Amerikada sevgilimi qoyub gəldiyimi belə bilmirdi. Mən də onun yazıçı olmaq arzusunu və Neapolda doğulmağı faktını çıxmaq şərti ilə onun barəsində məlumatsızam. Amma mənim indi ağlamağım hər ikimizi ünsiyyətin növbəti mərhələsinə addım atmağa sövq edir. Kaş ki, belə olmayaydı. Belə bir şəraitdə baş verməyəydi.

“Bağışla, amma başa düşə bilmirəm. Bu gün nə isə itirmisən?” - deyə soruşur.

Ancaq mən hələ də nə deyəcəyimi bilmirəm. Covanni gülümsəyir və ruhlandırıcı bir əhval-ruhiyyə ilə “Parla coma magni”, - deyir. Bunun Roma dialektində ən çox bəyəndiyim ifadələrdən biri olduğunu yaxşı bilir. Mənası belədir: “Yeyirmiş kimi danış” və ya mənim tərcümə

downloaded from KitabYurdu.org

etdiyim kimi “Necə yeyirsənsə, elə də danış”. Bu ifadə bir fikri izah etmək üçün
uzun-uzadı düzgün sözləri axtarmaqdansa, onu Romanın yeməyi kimi sadə və birbaşa çatdırmağınızı məsləhət görür. Böyütmə, sadəcə, əlində olanı ortaya qoy.

Dərindən nəfəs alıram və vəziyyəti italyan dilində tam və qısa şəkildə ifadə edirəm:

“Bu, bir sevgi hekayəsidir, Covanni. Bu gün bir nəfərə “əlvida” demək məcburiyyətində qaldım”.

Sonra əllərim yenidən gözlərimi gizlədir, bir-birinə sıxılan barmaqlarımın arasından göz yaşlanm süzülür. Təmiz ürəkli Covanni məni sakitləşdirmək üçün qolunu boynuma dolamağa cəhd etmir və ya bu kədər partlayışına görə azca da olsa narahat olmağa çalışmır. Sadəcə, mən sakitləşənə qədər səssiz halda yanımda oturur. Sözlərini diqqətlə seçir (İngilis dili müəllimi kimi o gecə onunla fəxr edirdim!) və qüsursuz bir empatiya quraraq danışır. Asta, aydın şəkildə deyir: “Başa düşürəm, Liz. Mən də sənin keçdiyin yollardan keçmişəm”.

29

Bir neçə gündən sonra bacımın Romaya gəlişi Devidlə bağlı kədəri bir kənara qoyub əvvəlki həyat tərzimə qayıtmağıma kömək etdi. Bacım hər işi sürətlə yerinə

downloaded from KitabYurdu.org

yetirir. Sanki ətrafında fırlanan miniatür enerji siklonları var. Məndən üç yaş böyük, yeddi santimetr də uzundur. O, idmançı, alim, ana və yazıçıdır. Romada marafona hazırlaşırdı. Sübh tezdən oyanıb on altı mil qaçırdı, mən isə bu müddət ərzində qəzetdən bir məqaləmi oxuyub iki fincan kapuçino içməyə güclə çatdırırdım. Qaçanda marala oxşayır. Birinci uşağına hamilə olanda bir dəfə gecə, qaranlıqda bütöv bir göl boyu üzmüşdü. Hamilə olmasam da ona qoşulmadım. Çox qorxurdum. Amma bacım olduqca cəsurdur. İkinci uşağına hamilə qalanda bir mamaça Ketrindən uşaqla bağlı genetik qüsur və ya doğum vaxtı yarana biləcək hər hansı bir problemə görə narahat olub-olmadığını soruşmuşdu. Bacım isə "Yeganə qorxum böyüyəndə respublikaçı olmasıdır", - deyə cavab vermişdi.

Bacımın adı Ketrindir. Bircə bacım var. Qardaşımız yoxdur. Konnektikutda böyüdüyümüz vaxtlarda bizdən başqa valideynləri ilə ferma evində qalan yox idi. Yaxınlıqda başqa uşaq yaşamırdı. Güclü və dominant təbiəti ilə həyatımın komandiri idi. Ondan qorxur, çəkinirdim, çünki onun fikri hamıdan önəmli idi. Mənə hirslənməsin deyə poker oynayanda özümü uduzmuş kimi göstərirdim. Əvvəllər indiki kimi yaxın deyildik. Həmişə mənə hirslənirdi və səhv etmirəmsə, iyirmi səkkiz yaşıma

downloaded from KitabYurdu.org

çatıb bezənə qədər ondan qorxurdum. O il ona sərt cavab verdim və qarşılığında belə dedi: “Niyə bu qədər gecikdin?”

Ailə həyatım iflasa uğramaq ərəfəsində ikən münasibətimizdə təzəcə yeni qaydalar tətbiq etməyə başlayırdıq. Məğlubiyyətimdən zəfər əldə etmək Ketrin üçün asan ola bilərdi. Mən həmişə xoşbəxt və sevilən şəxs idim. Ailənin və taleyin sevimlisi... Dünya həmişə mənim üçün həyatın ziddinə gedən və çox vaxt incidilən bacıma nisbətən daha rahat və şən bir məkan olub. Ketrin boşanmağıma və depressiyaya düçar olmağıma belə bir reaksiya verə bilərdi:
“Balaca bəxtəvərə bir baxın!” Amma o məni bir dost kimi dəstəklədi. Nə vaxt narahat olsam gecəyarısı zəngimə cavab verib məni dinlədi. Nəyə görə bu qədər kədərli olduğuma cavab axtaranda yanımda oldu. Psixoloji dəstək alanda da mənimlə maraqlandı. Hər dəfə seansdan sonra psixoloqumun otağında gördüklərimi onunla müzakirə edirdik. Həmin vaxt məşğul olduğu işi bir kənara qoyub, - “Bu, çox şeyi izah edir”, - deyirdi. Bu, hər ikimiz üçün bir çox məsələni aydınlaşdırır.

İndi demək olar ki, hər gün telefonla danışırıq. Daha doğrusu, mən Romaya gələnə qədər danışırdıq. Nə vaxt birimiz təyyarəyə minməli olsaq, o biri zəng edir və -

downloaded from KitabYurdu.org

“Bunun qorxulu olmadığını bilirəm, amma səni sevdiyimi demək istədim. Elə- belə... Hər ehtimala qarşı”, - deyir. Və digəri hər dəfə qarşılıq verir: “Bilirəm... Hər ehtimala qarşı...”

Romaya həmişəki kimi hazır gəlir. Özü ilə çoxdan oxuduğu beş ədəd şəhərlə bağlı kitab gətirir. Beynində əvvəlcədən şəhərin kiçik bir xəritəsi canlanıb. Filadelfiyanı tərk etməzdən əvvəl öz hədəfinə istiqamətlənmişdi. Bu, aramızdakı fərqlərdən, sadəcə, biridir. Mən Romada olduğum ilk həftələrdə vaxtımın doxsan

faizini yolumu azıb harada olduğumu axtarmaqla, amma buna rəğmən yüz faizini ətrafımdakı hər şeyi izaholunmaz dərəcədə gözəl sirlər kimi qiymətləndirərək xoşbəxt halda gəzməklə keçirdim. Dünya mənə həmişə belə görünür. Bacımın fikrincə isə, əgər hər hansı bir kitabxananın yolunu tanıyırsansa, heç nə izaholunmaz deyil. Bu qadın mətbəxdə, yemək reseptləri kitablarının yanında “Kolumbiya Universitetinin ensiklopediyasını saxlayan və onu zövqlə oxuyan bir şəxsdir.

Hərdən dostlanmia oynamağı xoşladığım bir oyun var. “İndi görərsən!” adlanır. Nə vaxt kimsə hansısa bir məlumatı əldə etmək istəsə, (Məsələn: Müqəddəs Lüdoviq kim olub?) mən “indi görərsən” deyirəm və

downloaded from KitabYurdu.org

telefonu götürüb bacıma zəng vururam. Bəzən onu maşında, uşaqlarını “Volvo” ilə məktəbə aparan yerdə tuturam və dərhal fikirləşir: “Müqəddəs Lüdoviq... Hə, o, özünəməxsus bir köynək geyinən fransız kralı olub. Maraqlısı isə odur ki...”

Beləliklə, bacım məni görmək üçün yeni şəhərim olan Romaya gəlir və buranı mənə tanıdır. O vaxta qədər görə bilmədiyim faktlar, tarixlər və zəngin memarlığı onunla kəşf

edirəm. Məni hər hansı bir məkan və ya insanla bağlı maraqlandıran yeganə məlumat onun hekayəsidir. Sadəcə, bunu bilməklə kifayətlənir, estetik təfərrüatları öyrənmək istəmirəm (Sofi mən köçəndən bir ay sonra mənzilimə gəlib, - “Çəhrayı vanna otağın gözəldir”, - demişdi. Vanna otağının çəhrayı olduğuna ilk dəfə onda diqqət yetirdim. Döşəmədən tavana qədər parlaq çəhrayı idi. Doğrudan da əvvəllər fikir verməmişdim). Amma bacımın peşəkar gözləri bir tikilinin qotik, yoxsa roman stilində inşa edildiyini və ya özündə Bizans xüsusiyyətləri daşıdığını, kilsə döşəmələrinin qəlibini, ya da mehrabın arxasında qalan natamam freskalann tutqun eskizlərini dərhal seçə bilir. Ketrin Romada uzun ayaqları ilə iri addımlar ataraq gəzir (Ona, - “bir ayağı üç ayaq uzunluğunda olan Ketrin”, - deyərdik). Mən isə yenicə

downloaded from KitabYurdu.org

gəzməyi öyrənəndə etdiyim kimi onun hər addımının əvəzinə iki iri addım atıram.

“Görürsən, Liz?” - deyir. “On doqquzuncu əsrə aid olan fasadı necə kərpiclə üzlədiklərini görürsən? Mərcə girirəm ki, küncə dönəndə... Aha! Bax, böyük ehtimalla onları heç kim yerindən tərpədə bilmədiyinə görə dirək əvəzinə orijinal Roma
monolitlərindən istifadə ediblər. Bəli, bu bazilikanın qarışıq stili xoşuma gəldi”.

Ketrinin əlində “Michelin Geen” bələdçisi var idi. Mən də içində yemək olan çantanı daşıyırdım (iki böyük çörək, ədviyyəli kolbasa, iri, yaşıl zeytuna bürünərək marinada qoyulmuş sardinalar, sanki meşə dadı verən göbələk, hisə verilmiş mozarella, istiotlu və qızardılmış aruqula, balaca pomidorlar, pecorino pendiri, su, bir az da soyuq, ağ şərab). Mən ürəyimdə nə vaxt yemək yeyəcəyimiz haqqında düşünəndə o soruşur: “Nəyə görə Trent kilsəsi haqqında insanlar o qədər də maraqlanmırlar?”

O məni Romada onlarla kilsəyə aparır. Çoxunu yadda saxlaya bilmirəm. O müqəddəs, bu müqəddəs və ədalətli əzabın ayaqyalın tövbəkarlanndan olan müqəddəs filankəs... Adlan, dayaqlan, karnizlərin detallanm yadda saxlaya bilməməyim kobalt rəngli gözləri ilə hər elementi

downloaded from KitabYurdu.org

diqqətlə nəzərdən keçirən bacımla həmin yerləri gəzməkdən zövq almadığımı göstərmir. Freskaları amerikan ictimai işlər idarəsinin freskalanna oxşayan o kilsənin adı yadımda deyil, amma Ketrinin onları göstərib, - "Yuxarıdakı Franklin Ruzvelt stilindəki papalar çox xoşuna gələcək", - dediyini xatırlayıram. Həmçinin tezdən durub Müqəddəs Susannaya getməyimiz, qreqorian himnləri oxuyan rahibələrə qulaq asanda nəğmələrin əks-sədası altında əl-ələ tutuşub ağlamağımız da yaddaşıma həkk olunub. Bacım dindar deyil. Əslində, ailəmizdə dindar şəxs yoxdur (Özümü ailənin "ağ qarğası" adlandırıram). Mənim mənəvi axtarışlarım bacımı ancaq intellektual maraq baxımından cəlb edir. "Belə bir inancı gözəl hesab edirəm, - deyə kilsədə qulağıma pıçıldayır, - amma mən bunu bacarmıram. Bacara bilmərəm".

Dünyagörüşümüzün fərqli olduğunu sübuta yetirən növbəti nümunə: Bacımın qonşuluğunda yaşayan bir ailə bu yaxınlarda gənc ana və oğluna xərçəng diaqnozu qoyulması ilə ikiqat dərdə düçar olub. Ketrin mənə bunu danışanda, sadəcə, şok halında dedim: "Aman Allah! O ailənin mərhəmətə ehtiyacı var". Mənə sərt cavab verdi: "O ailənin bir qazan yeməyə ehtiyacı var!" Sonra qonşulan bir il ərzində sıra ilə o ailəyə axşamlar yemək

downloaded from KitabYurdu.org

aparmağa cəlb etdi. Bacımın öz hərəkətinin nə qədər mərhəmətli olduğunu dərk edib-etmədiyini bilmirəm.

Müqəddəs Susannadan çıxanda mənə deyir: “Orta əsrlərdə papaların nəyə görə şəhər planlaşdırması ilə məşğul olduğunu bilirsən? Çünki Vatikandan müqəddəs İohan bazilikasına qədər getmək üçün (bəzən dizlərin üstündə) ildə iki milyona yaxın katolik zəvvar gəlir və bu insanlann rahatlığını təmin etmək lazımdır”.

Bacımın bircə əqidəsi var - elm. Onun müqəddəs kitabı Oksford ingilis dili lüğətidir. Başını kitabların arasına salıb barmaqlarını sürətlə səhifələrin arasında gəzdirdiyi vaxt ərzində o öz tanrısı ilə danışır. Eyni gün Roma forumunun ortasında dizlərinin üstünə çöküb torpağın səthindəki zibilləri təmizləyərək (yazı taxtasını silirmiş kimi), sonra balaca bir daşla mənim üçün klassik roman stilində bazilikanm layihəsini çəkərək öz ibadəti ilə məşğul olur. Həmin tikilinin on səkkizinci əsrin əvvəllərində hansı formada olduğunu başa düşməyim üçün (hətta mən belə başa düşə bilirəm) çəkdiyi layihənin qabağındakı xarabalığı işarə edir. Barmağı ilə havada çoxdan yox olan pəncərəni və kilsənin orta sahəsini çəkir. Əlindəki
bənövşəyi tabaşirlə Haroldıg kimi boşluğu xəyal gücü ilə doldurараq abidəni ərsəyə gətirir.

downloaded from KitabYurdu.org

İtalyan dilində “passato remoto” adlı az istifadə olunan bir zaman növü var. Uzaq keçmiş demək olar. Bu zamandan çox keçmişdə qalan və artıq təsir qüvvəsini itirmiş mövzular haqqında danışanda istifadə edirlər. Məsələn: Antik dövr barədə söhbət edəndə. Ancaq bacım italyan dilində danışsaydı, bu zaman növündən istifadə etməzdi. Onun dünyasında Roma forumu uzaq keçmişə aid deyil. Ona mənim qədər yaxındır və indiki dövrə məxsusdur.

Ertəsi gün gedir.

“Qulaq as, - deyirəm, - sağ-salamat çatan kimi xəbər verməyi yaddan çıxartma, oldu? Qorxutmaq istəmərəm, amma...”

“Bilirəm, əzizim, - deyir, - mən də səni sevirəm”.

30

Hərdən bacımın həm ana, həm də həyat yoldaşı, mənim isə heç biri olmadığımı yada salanda təəccüblənirəm. Nədənsə mənə həmişə elə gəlib ki, əksinə olacaq. Ketrin tək, azad yaşayıb gecələr çarpayısında kitab oxuyanda, mən palçıqlı çəkmələr və ora-bura qaçışan uşaqlarla dolu bir evdə qocalacağam. Bəzən insanlar böyüdükcə özləri barədə qurduqlan fərziyyələri puça çıxardırlar. Bəlkə də bu daha yaxşıdır. Bütün təxminlərə rəğmən hər ikimiz özümüzə uyğun həyat qurduq. Sakit təbiəti onu tənhalığa

downloaded from KitabYurdu.org

düçar olmamaq üçün ailəyə sığınmağa sövq edir. Mənim ünsiyyətcil təbiətim isə boşanmış olsam belə təklikdən heç vaxt qorxmayacağımı göstərir. O, ailəsinin yanma qayıdır. Məni isə qarşıda yemək, oxumaq, dua etmək və yazmaqdan ibarət doqquzaylıq bir səyahət gözləyir. Xoşbəxtəm...

Yenə də günlərin bir günü uşaq dünyaya gətirmək istəyib- istəməyəcəyimi bilmirəm. Otuz yaşımda bunu istəmədiyimi başa düşəndə o qədər təəccübləndim ki, bu sürprizin xatirələri

qırx yaşımla bağlı heç bir fərziyyə irəli sürməmək barədə mənə xəbərdarlıq edir. Sadəcə, bu an nə hiss etdiyimi deyə bilərəm: özümlə baş-başa olmaqdan məmnunam. Həmçinin nə vaxtsa peşman olmaq qorxusu ilə uşaq dünyaya gətirməyəcəyimi də bilirəm. Zənnimcə, bu səbəb dünyadakı körpə sayını artırmağa bəs edəcək qədər böyük deyil. Buna rəğmən insanlar bəzən buna görə də övlad sahibi olurlar. Ümumiyyətlə, bu istəyin səbəbləri çoxdur. Bəzən uşaq böyüdərək bir insanın həyatının hər anma şahid olmaq, bəzən özündən sora varis qoymaq və ya partnyorunu özünə daha çox bağlamaq üçün, bəzən isə əvvəlcədən planlaşdırmayıb valideyn olurlar. Bütün səbəblər eyni ya da təmənnasız deyil. Həmçinin övlad istəməməyin səbəbləri də həmişə eyni və eqoistcə olmur.

downloaded from KitabYurdu.org

Ailəm dağılma ərəfəsində olanda dəfələrlə həyat yoldaşımın mənə ünvanladığı ittihamı başa düşməyə çalışdığıma görə məhz bu sözü işlətdim: eqoistlik. Nə vaxt bu ittihamı mənə tuşlasa, onunla razılaşıb günahımı boynuma aldım və dediyi hər şeyi qəbul etdim. Aman Allah! O körpələri hələ dünyaya gətirməmişdim, amma indidən onlara laqeyd yanaşır, özümü
üstün tuturdum. Çox pis ana idim. Bu körpələr - bu xəyali körpələr teztez aramızda mübahisələrə səbəb olurdular. Uşaqlann qayğısına kim qalacaq? Onlara evdə kim qulluq edəcək? Xərclərini kim ödəyəcək? Bir dəfə münasibətimiz dözülməz həddə gəlib çatanda Suzana, - "Uşaqlarımın belə bir ailədə böyüməklərini istəmirəm", - demişdim. Suzan isə - "Bəlkə hələ doğulmayan bu uşaqlar üstündə mübahisə etməyi kəsəsiniz? Nəzərə alm ki, onlar mövcud deyillər, Liz. Nəyə görə əzab çəkməkdən yorulduğunu qəbul etmək istəmirsən? Heç biriniz bacarmırsınız. Bunu doğuş palatasına bir addım məsafə qalanda yox, indi başa düşməyiniz daha yaxşı olar", - demişdi.

Həmin ərəfədə Nyu Yorkda bir qonaqlığa getdiyim yadımdadır. Hər ikisi istedadlı sənətkar olan bir cütlük yenicə ata-ana olmuşdu və ana yeni rəsmlərini qalereyada sərgiləyirdi. O qadını, o ananı, rəfiqəmi, rəssamı həm

downloaded from KitabYurdu.org

qonaqlığa ev sahibi kimi (öz studiyasında keçirilən), həm yeni doğulan körpəsinin qayğısına qalanda, həm də sənəti barədə peşəkar müzakirələr edəndə seyr etdiyimi yaxşı xatırlayıram. Onun qədər yuxusuzluqdan əziyyət çəkən bir insanı ilk dəfə görürdüm.

Gecəyarısı, qonaqlıqdan sonra mətbəxdə qollan dirsəyinə qədər çirkli qablarla dolu olan əlüzyuyanın içində yır-yığış etdiyi mənzərə yaddaşıma əbədi həkk olunub. Əri (Bunu dediyimə görə üzr istəyirəm və bu xüsusiyyətin bütün kişilərə şamil olunmadığını bilirəm) o biri otaqda ayaqlarını masaya uzadıb televizora baxırdı. Nəhayət, rəfiqəm ondan kömək istədi və yoldaşı cavab verdi: "Qoy qalsın, canım. Tezdən yığışdırarıq". Körpə ağlamağa başladı. Rəfiqəm ziyafət geyimi ilə onu əmizdirdi.

Həmin axşam o qonaqlığa gələnlərin əksəriyyəti tamamilə başqa bir təəssüratla çıxıb getdilər. Digər qonaqların çoxu bu gözəl qadına, sağlam körpəsinə, uğurlu karyerasına, yaraşıqlı həyat yoldaşına, gözəl evinə və geyiminə görə qibtə edə bilərdilər. Əgər belə bir fürsət düşsəydi, həyatını onun həyatı ilə dəyişdirməyə hazır olan insanlar belə var idi. Bu qadın yəqin ki, keçmişə dönüb baxanda (əlbəttə ki, əgər bir daha bunu düşünsə) həmin axşamı ümumi olaraq qane edən karyera, ailə həyatı və analığın yorucu, bir o qədər də bütün bu çətinliklərə

downloaded from KitabYurdu.org

dəyən bir günü kimi qiymətləndirəcək. Özüm üçün isə təkcə onu
deyə bilərəm ki, bütün axşamı gərgin keçirdim və belə düşündüm: “Əgər sənin gələcəyinin də belə olacağını başa düşmürsənsə, deməli, ağlını itirmisən, Liz. Belə olmağına imkan vermə”.

Ailə qurmaq üçün kifayət qədərmi məsuliyyətli idim? Aman Allah, məsuliyyət! Onu təsvir edən üç sözü tapana qədər bu söz, beynimə ilişib qaldı: Cavab vermək imkanı. Varlığımın hər zərrəsi nikahdan canımı qurtarmalı olduğumu deyirdi. Qarşılıq vermək məcburiyyətində olduğum yeganə hiss də elə bu idi. Daxilimdəki erkən xəbərdarlıq sistemi əgər bu fırtınada mübarizəmi bir az da davam etdirsəm xərçəngə tutulacağımı deyirdi. Və özümlə bağlı bəzi faktları qəbul etməkdən utandığım, onlardan qaçmaq istədiyim üçün dünyaya uşaq gətirməyin daha dəhşətli bir məsuliyyət olacağını dərk edirdim.

Nəhayət, həmin axşam o qonaqlıqda rəfiqəm Şerilin bəzəkli studiyanın vanna otağında gizlənib qorxu ilə, titrəyə-titrəyə üzümə su vurduğumu görəndə dediyi sözlər mənə yol göstərdi. Şeril o vaxtlar ailə həyatımda nə baş verdiyindən xəbərsiz idi. Bunu heç kim bilmirdi. Ona həmin axşam heç nə danışmadım.

downloaded from KitabYurdu.org

Deyə bildiyim təkcə “nə edəcəyimi bilmirəm” sözləri oldu. Çiyinlərimdən tutub gülümsəyərək gözlərimin içinə baxdığını xatırlayıram: “Düzünü de, yalnız düzünü de, düzünü de”.

Mən də məhz belə etmək istəyirdim.

Ailə həyatına son vermək olduqca çətindir və bunun səbəbi təkcə hüquqi və maddi maneələr, ya da həyat tərzinə təsir edən böyük dəyişikliklər deyil (Bir dəfə dostum Deboranın da dediyi kimi: “Hələ heç kim mebelindən ayrıldığına görə ölməyib”). Sizi öldürən emosional böhrandır. Ənənəvi həyat tərzindən imtina və bir çox insanı o yolda saxlayan rahatlığı itirməkdir. Amerikan cəmiyyətində (o cümlədən, istənilən cəmiyyətdə) hər bir kəsin nəslini davam etdirməsi və sosial həyatda mövqe qazanması üçün əsas vasitə onun özünə həyat yoldaşı tapması və ailə qurmasıdır. Hər dəfə Minnesotada anamın qohumlarının ailə yığıncağında bu həqiqəti kəşf edirəm və illər keçdikcə insanlann öz mövqelərinə necə bağlandıqlarını görürəm. Əvvəlcə, uşaq, sonra yeniyetmə, gənc, ailəli şəxs, valideyn, təqaüdçü, sonda isə nənə və ya baba olursan. Hər mərhələdə kim olduğunu, vəzifəni və görüşlərdə harada oturacağını bilirsən. Digər uşaqlarla, yeniyetmələrlə, valideynlərlə ya da təqaüdçülərlə bir cərgədə əyləşirsən.

downloaded from KitabYurdu.org

Beləliklə, doxsan yaşındakı şəxslərlə kölgəyə çəkilib məmnunluqla öz nəslinə kənardan tamaşa edənə qədər gözləyirsən. Sən kimsən? Problem yoxdur. Sən bütün bunları yaradan şəxssən. Bu məlumatın verdiyi məmnunluq bilavasitədir, bundan başqa hər yerdə qəbul olunur. Uşaqlarını həyatının ən böyük nailiyyəti hesab edən neçə insan tanıyıram? Metafizik böhrana və ya şübhəyə düçar olanda həmişə belə təsəlli tapırlar: "Həyatda heç nə eləməsəm də, heç olmasa uşaqlarımı yaxşı böyütmüşəm".

Bəs əgər hansısa seçim və ya arzuolunmaz vəziyyət nəticəsində ailənin bu rahat əhatəsinə və davamlılığına qoşula bilməsən, onda necə? Və ya bundan kənarda qalsan? Ailə yığıncaqlarında harada oturardın? Vaxtını boş yerə itirmək qorxusu olmadan zamanın axınını necə təyin edə bilərdin? Onda uğur qazanmaq üçün başqa bir məqsəd, ölçü meyarı tapmalı olacaqsan. Uşaqlan sevirəm, bəs mənim öz uşaqlarım olmasa necə? Bu məni necə bir insana çevirir?

Vircinia Vulf yazırdı: "Qadının həyatı geniş qitədir. Onun ortasına qılınc kölgəsi düşür". Bu qılıncın bir tərəfində "hamının haqlı olduğu" razılıq, ənənə və qaydalar yerləşir.

Digər tərəfində isə əgər bu razılığa əməl etməyəcək qədər

downloaded from KitabYurdu.org

ağlını itirmisənsə, “hər şey nizamsızdır. Heç nə qaydasında deyil”. O, qılıncın kölgəsinin kəsişməyinin qadına daha maraqlı bir mövcudluq bəxş edə biləcəyini, amma bunun olduqca riskli olduğunu arqument kimi gətirirdi.

Yazmağı bacardığıma görə bəxtim gətirib. Bu, insanların başa düşə biləcəyi bir şeydir. Ah, nikahını karyerasına qurban verdi. Burda hardasa həqiqət var, amma tamamilə doğru deyil. Bir çox yazıçının ailəsi var. Məsələn: Toni Morrisonun oğlunu böyütməyi onun bizim Nobel mükafatı adlandırdığımız o balaca əşyanı qazanmağına mane olmayıb. Amma Toni Morrison öz yolu ilə getdi, mən də özümünkünü tapmalıyam. Bhaqavat-gitaya - antik hind yoqa mətnlərinə əsasən, başqa bir insan həyatını mükəmməl şəkildə təqlid etməkdənsə, öz həyatını qüsursuz yaşamaq daha yaxşıdır. Mən də öz həyatımı
yaşamağa başladım. Qüsurlu və yöndəmsiz olsa da, mənə uyğundur.

Hər halda bütün bunları, sadəcə, bacım, onun ailəsi, uşaqları ilə müqayisədə son vaxtlarda olduqca qərarsız göründüyümü qəbul etmək üçün danışdım. Bir ünvanım belə yoxdur və otuz dörd yaşlı yetkin bir şəxs üçün bu, normal həyat tərzinə qarşı cinayətdir. Hələ də bütün

downloaded from KitabYurdu.org

əşyalarım Ketrinin evindədir və o, evinin yuxan mərtəbəsində mənə müvəqqəti bir otaq ayırıb (Bu otağı itirilmiş gəncliyim üçün yas saxlayanda, əynimdə köhnə gəlin paltanmla həyətə tamaşa edə biləcəyim balaca pəncərəsi olduğuna görə "Evdə qalmış xalanın kvartalı" adlandırıram). Ketrin bundan razıdır və mənim üçün də rahatdır, amma uzun müddət boş-boş dünyanı fırlansam ailənin başdanxarabı olmaqdan qorxuram. Bəlkə də bu, çoxdan olub. Keçən yay beşyaşlı bacım qızı evlərinə oynamaq üçün bir dostunu gətirmişdi. Balacadan ad gününün tarixini soruşdum. Yanvarın 25-i olduğunu dedi.

"Ah, sən dolça bürcüsən! - dedim. - Mənim o qədər dolçalarım olub ki, onlardan yalnız əzab və fəlakət gəldiyini
deyə bilərəm".

Cəmi beş yaşı olan uşaqların ikisi də təəccüb və qorxu ilə narahat halda mənə baxdılar. Diqqətli olmasam necə bir qadına çevrilə biləcəyimi gözümün qarşısına gətirdim: Çılğın Liz xala. Narıncı saçlı, süd məhsullarından imtina edən, amma mentollu siqaret çəkən, həmişə astroloji səyahətdən yenicə qayıtmış və ya aroma-terapevt sevgilisindən bu yaxınlarda ayrılmış vəziyyətdə olan, məktəblilərə Taro kartları açıb, - "Get, Liz xalana bir az soyuq şərab gətir, mən də əvəzində sənə sehrli kristal

downloaded from KitabYurdu.org

verim”, - deyən bir qadın.

Daha adekvat bir vətəndaş olacağımı bilirəm.

Amma hələ yox... Xahiş edirəm, hələ yox...

31

Növbəti altı həftə ərzində Boloniya, Florensiya, Venesiya, Siciliya, Sardiniya, yenidən Neapol və Kalabriyaya səyahət etdim. Bunlar, çoxluq etibarı ilə müəyyən fikir formalaşdırmağa, küçədə adamlardan yaxşı yeməyin harada olduğunu soruşmağa və sonra da gedib o yeməyi dadmağa bəs edən qısa səyahətlər idi. İtaliyanı gəzib insanlarla birbaşa ünsiyyətdə olmaq əvəzinə, məni sinfə həbs edib dili öyrənməyimi ləngitdiyinə görə italyan dili kursundan çıxdım.

Spontan səyahətlə keçirdiyim həyatımın bəlkə də ən sərbəst günləri - vağzaldan biletləri alıb “nəhayət istədiyim yerə gedə bilərəm” hissinə qovuşub, azadlığıma özünütəsdiq üçün fürsət verdiyim bu həftələr bir göz qırpımında başa çatdı. Bu müddət ərzində Romadakı dostlarında görüşə bilməmişdim. Covanni telefonda mənə “Sei una trottola” (Sən əsl fırfırasan) deyir. Aralıq dənizi sahilindəki oteldə gecələyərkən dərin yuxudan öz qəhqəhələrimin səsinə oyandım. Təəccübləndim. Mənim çarpayımda gülən kim idi? Gülən şəxsin özüm olduğumu başa düşəndən sonra yenidən qəhqəhələrə qərq oluram.

downloaded from KitabYurdu.org

Yuxuda nə gördüyüm indi yadımda deyil. Səhv etmirəmsə, nə isə qayıqlarla bağlı bir şey idi.

32

Florensiya gəzintim, həftəsonu üçün ilk dəfə İtaliyanı və əlbəttə ki, qardaşı qızını görmək üçün Konnektikutdan gələn Teri əmim və Deb xalamı qarşılamaq üçün cümə günü səhər tezdən çıxdığım qısa bir qatar səyahətindən ibarətdir. Axşama yaxın çatırlar və onlan kafedral kilsəyə aparıram. Əmimin reaksiyası görüntünün heyrətamiz olduğu bir daha təsdiqlənir:

"Oy vey!"i3 — deyir. Sonra dayanır və əlavə edir: "Bəlkə də bu ifadə katolik kilsəsini tərifləmək üçün düzgün deyil".

Sabinlərin heykəl bağının ortasında işgəncəyə məruz qaldığı və heç kimin mane olmadığı mənzərəni seyr edir, Mikelanceloya, elm muzeyinə, şəhər ətrafındakı eniş-yoxuşlara minnətdarlığımızı bildiririk. Sonra mənsiz rahat gəzə bilsinlər deyə əmimlə həyat yoldaşını tək qoyub zəngin Lukkaya, İtaliyada rast gəldiyim ən yaxşı ətin, - "Bunu yemək istədiyini bilirsən!" - şüarı ilə satıldığı, qəssabları ilə məşhur olan Toskanaya gedirəm. Ağla gəlməyən ölçülərdə, rəng və növlərdə

olan kolbasaları qadınlar ayaqlarını corabın içinə saldığı kimi doldurub ət mağazasının tavanından asıblar.

downloaded from KitabYurdu.org

Vitrinlərdən asılan qaxac edilmiş ətlər Amsterdamın məşhur vitrin gözəlcələri kimi gəlib keçənləri cəlb edirlər. Toyuqlar, hətta öləndən sonra belə o qədər xoşbəxt və əndamlı görünürlər ki, ən nəm və kök olmaq uğrunda keçirilən yanşda fəxrlə canlarından keçdiklərini düşünmək olar. Amma Lukkada mükəmməl olan təkcə ət deyil. Şabalıd, şaftalı, iştahaaçan əncirlər, aman Allah, o əncirlər...

Şəhər həmçinin Puççininin doğulduğu yer kimi də məşhurdur. Əslində, bununla maraqlanmağım daha məqsədəuyğun olsa da, baqqalın mənimlə bölüşdüyü sirr daha çox diqqətimi cəlb etdi. Şəhərdə ən dadlı göbələklər Puççininin doğulduğu evlə üzbəüz olan restoranda verilirmiş. Ona görə də Lukkada ətrafa nəzər yetirir, italyan dilində, - "Puççininin evinin harada yerləşdiyini deyə bilərsiniz?" - deyə soruşuram və nəhayət, nəzakətli bir vətəndaş mənə istiqaməti göstərir. Böyük ehtimalla "Grazie" deyəndən sonra dabanlarımın üstündə çevrilib muzeyin əksi istiqamətinə doğru irəliləyərək,
"risotto ai funghi" sifariş edib yağışın kəsilməyini gözləyəcəyim yerə, üzbəüzdə yerləşən restorana girdiyimi görəndə təəccüblənir.

Məni dayanmadan mahnı oxumağa təhrik edəcək qədər gözəl olan Boloniyaya isə Lukkadan əvvəl, yoxsa

downloaded from KitabYurdu.org

sonra getdiyim dəqiq yadımda deyil. “Boloniyanm digər adı Gö-zəl-dir”. Ənənəvi Boloniya gözəl kərpicdən tikilən evləri və məşhur sərvətinə görə “qırmızı, kök və gözəl” adlanır (Bu ad kitabım üçün ehtiyat saxladığım adlardan biri idi). Burada yemək Romadakmdan daha yaxşıdır, ya da burada, sadəcə olaraq, kərə yağından daha çox istifadə edirlər. Hətta burada dondurma belə daha dadlıdır (Bunu yazanda özümü satqın kimi hiss etsəm də, həqiqətdir). Burada göbələklər cazibədar, iri, qalın dilə oxşayır və prosciutto (bud) dilimləri sanki bir xanımın bəzəkli şlyapasından üzünə enən keyfiyyətli, krujeva örtük kimi pizzanın üstünə tökülür. Və əlbəttə ki, başqa bütün növ souslara kinayə ilə gülən Boloniya sousunu da unutmayaq.

Boloniyada mənə aydın oldu ki, italyan dilindəki “buon appetito” ifadəsinin ingilis dilində qarşılığı yoxdur. Bu, insanı
təəssüfləndirməklə yanaşı çox şeyi ifadə edir. İtaliyada dəmir yollarındakı dayanacaqlar belə sanki dünyanın ən məşhur yemək və şərablarının olduğu yerlərə ekskursiyadır. Növbəti dayanacaq Parma, sonrakı dayanacaq Boloniya, yaxınlaşdığımız dayanacaq Montepulçiano... Əlbəttə ki, qatarda da yemək var: balaca sendviçlər və dadlı, isti şokolad. Yağış yağanda qəlyanaltı

downloaded from KitabYurdu.org

eləmək daha maraqlıdır. Bu uzun səyahət zamanı kupe yoldaşım yaraşıqlı bir italyan gənci olur. Yolboyu saatlarla yatır. Venesiyaya çatmağa az qalmış oyanır, gözlərini ovuşdurur, məni başdan-ayağa süzür və astadan öz rəyini bildirir: “Carina” (Qəşəng).

“Grazie mille” (Minlərlə təşəkkür), - ifrat bir nəzakətlə bildirirəm.

Təəccüblənir. İtalyan dilində danışdığımı bilmirdi. Heç mən də bilmirdim. Amma iyirmi dəqiqəyə yaxın danışırıq və birdən həqiqətən də italyan dilində danışdığımı başa düşürəm! Böyük bir sərhədi aşdım və artıq italyan dilində danışıram. Hər sözü tərcümə etmirəm, məhz danışıram. Hər cümlədə, təbii ki, azı bir səhv olur və cəmi üç zaman növü bilirəm, amma bu oğlanla bir o qədər də ciddi səy göstərmədən ünsiyyət qururam. Necə deyərlər, “me la cavo”. Mənası belədir: Vəziyyətdən çıxıram. Yəni “Bu dildən çətin vəziyyətlərdən çıxa bilmək üçün istifadə edə bilirəm”.

Bu uşaq, deyəsən, mənə ilişir! Vəziyyətdən elə də narazı deyiləm. Onu cəlbedici adlandırmaq olar. Amma tamamilə təvazökar olduğunu da demək olmaz. Kompliment məqsədilə mənə italyan dilində belə deyir: “Amerikalı bir qadına görə o qədər də kök deyilsən”.

Ona ingilis dilində cavab verirəm: “Sən isə bir italyan

downloaded from KitabYurdu.org

kişisinə görə o qədər də nəzakətli deyilsən”.

“Come?”

Sözlərimi bir az dəyişdirib təkrarlayıram: “Sən də bütün italyan kişiləri kimi nəzakətlisən”.

Bu dildə danışa bilirəm! Oğlan elə bilir ki, ondan xoşum gəlir. Əslində isə mən sözlərlə flirt edirəm. Allahım, bacardım! Dilimin qıfılını açdım və indi oradan italyan dili tökülür! Oğlan Venesiyada mənimlə görüşmək istəyir, amma onunla maraqlanmıram. Mən, sadəcə, bu dilə vurğunam, ona görə də
onun əlimdən qaçıb getməyinə göz yumuram. Bundan əlavə, həm də Venesiyada görüşüm var. Rəfiqəm Linda ilə görüşəcəyəm.

“Çılğın Linda” adlandırmağı xoşladığım rəfiqəm (əslində, elə olmasa da) başqa, haradasa Nyu Yorka oxşayan bir rütubətli və boş şəhərdən - Sietldan Venesiyaya gəlirdi. İtaliyada məni görmək istədi, ona görə də səyahətimin bu dayanacağında onu dəvət etdim. Yer üzündəki ən romantik şəhərə tək getmək istəmirəm, etiraz edirəm! İndi yox, bu il yox. Qondolanm başında tək-tənha oturduğumu, mahnı zümzümə edən qondelyer tərəfindən zəif dumanın içərisinə tərəf aparıldığımı təsəvvür edirəm və həmin vaxt... jurnal oxuyuram? Bu mənzərə ikinəfərlik velosipedlə tək təpəyə çıxmaq qədər

downloaded from KitabYurdu.org

kədərlidir. Ona görə də Linda mənə yoldaş olacaq, yaxşı bir yoldaş...

Linda ilə (həmçinin onun pirsinqləri və dredləri ilə) təxminən iki il əvvəl yoqa üçün Baliyə gedəndə tanış olmuşam. Ondan sonra bir yerdə Kosta Rikaya da səyahət etmişik. Soyuqqanlı, əyləncəli, eyni zamanda dar, qırmızı, məxmər şalvarı ilə təəccüblü dərəcədə yaxşı təşkilatçı olduğuna görə

Linda gəzinti üçün ən ideal hesab etdiyim dostlarımdandır. Linda depressiyaya düşmək qabiliyyətindən məhrum və yüksəlməkdən başqa heç nə haqqında düşünməyən özünəinamlı, dünyanın ən təmiz ruhlarından birinin sahibidir. Bir dəfə güzgüdə özünə baxanda mənə dedi: "Hər paltarda mükəmməl görünmədiyimi boynuma alıram, amma bu belə özümü sevməyimə əngəl törətmir". Mən, - "Kainatın təbiəti necədir?" kimi yaradılışla bağlı suallarla özümü içəridən didib parçalayanda o məni öz istedadı ilə susdura bilirdi (Lindanm cavabı: "Mənim sualım isə belədir: Bunu bilmək sənin nəyinə lazımdır?"). Bəlkə də nə vaxtsa Linda kolluğa oxşayan o əcaib saçlarının arasında quş saxlamaq fikrindədir. Balidə insanlar onu çox sevdilər. Həmçinin Kosta Rika əhalisi də. Linda Sietlda kərtənkələ və savsarlar saxlayır, proqram təminatının inkişaf

downloaded from KitabYurdu.org

etdirilməsi üzrə komandaya rəhbərlik edir və bizim hər birimizdən yüz dəfə çox pul qazanır.

Venesiyada bir-birimizi tapırıq və Linda qaşlarını çatıb şəhərin xəritəsinə göz gəzdirir, ələk-vələk edir, otellərimizin yerini təyin edir, hədəfi müəyyənləşdirir və özünəməxsus
təvazökarlığı ilə, - "Bu şəhər artıq bizim ovçumuzun içindədir", - deyir.

Onun şən, nikbin əhval-ruhiyyəsi bu üfunətli, yavaş, sirli, sakit, batmağa üz tutan şəhərə heç cür uyğun gəlmirdi.

Venesiya yavaş-yavaş, ifrat alkoqol qəbul edib ölmək, sevdiyin şəxsi itirmək, ya da onu itirməyinə səbəb olan silahdan xilas olmaq üçün ən ideal məkan təsiri bağışlayır. Venesiyanı görəndən sonra Romada yaşamağa qərar verdiyimə görə özümü xoşbəxt sayıram. Burada qalsaydım, depressiya əleyhinə dərmanlardan elə də asanlıqla canımı qurtara bilməzdim. Berqman filmləri nə dərəcədə maraqlıdırsa, Venesiya da bir o qədər gözəldir. Ona heyran qala bilərsən, amma heç vaxt orada yaşamaq istəməzsən.

Baha başa gəldiyinə və ölən dəyərləri unudub qapını bağlamaq daha asan olduğuna görə bütün şəhər, malikanələrdə qapısı qıfıllı qalan lüks otaqlar kimi solur

downloaded from KitabYurdu.org

və tozlanır. Venesiya belə bir şəhərdir. Adriatik dənizinin geri çəkilən suyunun yağlı ləpələri on dördüncü əsrdən bu bədbəxt binalan dümsükləyir: Həmişə suyun içində olan bir şəhər yaratsaq necə olar?

Venesiya dumanlı noyabr səmasının altında olduqca vahiməli görünür. Şəhər balıqçılıq estakadası kimi silkələnir və yırğalanır. Linda, əvvəlcə, bu şəhərin ovçumuzun içində olduğunu desə də, hər gün, xüsusilə də gecələr qaranlıqda təhlükəli döngələrdə yolumuzu azırıq. Dumanlı bir gecədə, həqiqətən də əzabdan inildəyirmiş kimi təsir bağışlayan köhnə bir binanın yanından keçirik. "Narahat olma", - Linda pıçıldayır. "Bu, sadəcə, iblisin ac mədəsinin səsidir". Ona ən çox sevdiyim italyan dilindəki sözü öyrədirəm: Attraversiamo (Gəl, qarşı tərəfə keçək) və oradan gərgin halda geri qayıdırıq.

Qaldığımız yerin yaxınlığında bir restoranı olan venesiyalı gənc və gözəl bir qadın öz taleyindən narazıdır. Venesiyaya nifrət edir. Venesiyada yaşayan insanların buranı qəbiristanlıq hesab etdiyinə and içir. Bir vaxtlar ona işıq və günəş dolu bir həyat vəd edən, amma bunun əvəzinə üç uşaqla Venesiyaya qayıdıb bu restoranı idarə etməkdən başqa heç bir çıxış yolu qoymayan Sardiniyalı bir rəssama vurulub. Qadın təxminən mənimlə yaşıddır, amma məndən belə qoca görünür və belə

downloaded from KitabYurdu.org

cazibədar bir qadını bu əzaba düçar edənin necə bir kişi olduğunu təsəvvür edə bilmirəm (“O, güclü idi, - deyir. - Və mən onun kölgəsində sevgidən öldüm”). Venesiya mühafizəkar şəhərdir. Restoran sahibəsi evli kişilər də daxil olmaqla, bir neçə şəxslə münasibət qursa da, hamısı kədərli sonluqla bitib. Qonşuları onun arxasınca danışır. O, otağa girəndə hamı birdən səsini kəsir. Anası, sadəcə, gözdən pərdə asmaq üçün nişan üzüyü taxması üçün ona yalvarır: “Əziz qızım, bura istədiyin kimi azad yaşaya biləcəyin Roma deyil”. - Hər səhər Linda ilə səhər yeməyinə gəlib kədərli gənc/qoca restoran sahibəmizdən havanın necə olacağını soruşanda o, sağ əlinin barmaqlarını tapança kimi gicgahına qoyur və cavab verir: “Yenə yağış yağacaq”.

Hələ ki, burada bədbinliyə qapılmıram. Venesiyada melanxoliya yoluxucu deyil. Bir neçə günlüyə burdasansa, hətta gözəldir. Daxilimdə bir səs bu melanxoliyanın mənə dəxli olmadığını deyir. Bu, şəhərin özünəməxsus kədəridir, mən isə özümü Venesiyanın kədəri ilə öz kədərim arasındakı fərqi hiss edəcək qədər yaxşı hiss edirəm. Bunu sağalmağıma bir işarə, xarakterimin möhkəmlənməsi kimi qəbul edirəm. Bütün dünyanın dərdini özümünkü hesab etdiyim, sərhədsiz bir çarəsizliyin içində itib batmış bir neçə ili geridə

downloaded from KitabYurdu.org

qoymuşam. Hər şeyin mənə tərəf dərd kimi axdığı və geridə izlər qoyan rütubətli illər...

Mənə iri, xəzli, bənövşəyi şlyapa almağa çalışan və bir dəfə axşam yediyimiz uğursuz yemək barədə, - "Bunlara xanım Polun dana çubuqları deyilir?" - deyə soruşan Linda yanımda boşboğazlıq edəndə darıxmaq çətin məsələdir. Linda sanki atəşböcəyidir. Venesiyada orta əsrlərdə "codega" adlanan bir peşə var imiş. Bu peşə sahibləri gecə əlində fənərlə qarşınızda gedib yolu işıqlandırır, oğru və cinləri qorxudub qaçırır, bütün küçələr boyu sizi qoruyurlar və rahatlığınızı təmin edirlər. Linda da belədir - mənim üçün xüsusi sifarişlə müvəqqəti olaraq gələn Venesiyalı codegam...

33

Bir neçə gündən sonra qatardan enib isti, günəşli, sonsuz problemlərlə dolu, küçəyə girən kimi futbol meydançasını, yaxınlıqdakı "manifestazione"nin (təzahürün) səs-küyünü eşitdiyim, eyni zamanda fəhlə nümayişinin keçirildiyi Romaya yenidən ayaq basdım. Bu dəfəki taksi sürücüsü nümayişin səbəbi barədə mənə heç nə demir, çünki bu vecinə deyil. "Sti cazzi" - deyir (tərcüməsi: "Bu axmaqlar" və ya "Vecimə də deyil"). Geri qayıtmaq xoşdur. Ağır, ciddi Venesiyadan sonra küçədə qucaqlaşan sevgililərin yanından keçən, bəbir

downloaded from KitabYurdu.org

dərisindən pencək geyinmiş bir kişi görə bildiyim bu yerə qayıtmaq gözəldir. Bu şəhər yatmır, canlı, bəzəkli, enerjili və daim günəşlidir.

Rəfiqəm Marianm əri Culionun dediyi bir fikir yadıma düşdü. Bir dəfə kafedə oturub dilimizi təkmilləşdirirdik. O, Roma haqqında nə fikirləşdiyimi soruşdu. Bu şəhəri, doğrudan da sevdiyimi, amma yenə də buranın mənim şəhərim, bütün
həyatımı keçirmək istədiyim yer olmadığını dedim. Roma ilə bağlı mənə məxsus olmayan nə isə var idi və bunun nə olduğunu hələ tapa bilməmişdim. Biz danışanda yanımızdan bir qadın keçib getdi. Bu əsl Roma qadını idi. Gözəl bədən quruluşu, qol uzunluğunda kəsiyi olan dar ətəyi və yarış avtomobillərini xatırladan (yəqin ki, bir o qədər də bahalı) gün eynəkləri ilə, cavahirata bürünmüş, on santimetr hündürlüyündə dikdaban ayaqqabı geyinən təxminən qırxyaşlı bir qadın... Qiymətli daşlarla bəzənmiş xaltası olan balaca, bəzəkli itini gəzdirirdi və dar pencəyinin xəzli yaxası sanki əvvəlki itinin dərisindən hazırlanmış kimi görünürdü. O, inanılmaz dərəcədə, - “Siz mənə baxacaqsınız, mən isə sizə fikir verməyəcəyəm”, - ab-havası saçırdı. Onun həyatı boyu on dəqiqəlik belə tuşsuz olduğunu təsəvvür etmək mümkün deyildi. Bacımın “Stivi Niks yoqa kursuna pijamada

downloaded from KitabYurdu.org

gedir”, - dediyi üslubda geyinən bu qadın hər mənada mənə tamamilə əks idi.

O qadını Culioya göstərib dedim: “Görürsən, Culio. Bu qadın romalıdır. Roma həm onun, həm də mənim şəhərim ola
bilməz. İkimizdən biri bura məxsusdur. Məncə ikimiz də bunun kim olduğunu bilirik”.

Culio belə dedi: “Məncə sənin və Romanın sözləri fərqlidir”.

“Nə demək istəyirsən?”

“Bir şəhəri və onun insanlarını başa düşməyin sirrinin həmin şəhərin sözünü öyrənmək olduğunu bilmirsən?”

Sonra o, ingilis, italyan və bədən dilləri ilə hər bir şəhəri və orada yaşayan insanları ifadə edən bir söz olduğunu izah etməyə başladı. Əgər hər hansı bir yerdə yanından keçən insanların fikirlərini oxuya bilsən, bir çoxunun fikirlərinin eyni olduğunu görərsən. Çoxluğun ağlından keçən o söz nədirsə, həmin söz o şəhəri ifadə edir. Və əgər sənin şəxsi sözün o şəhərin sözü ilə üst-üstə düşmürsə, deməli doğrudan da o şəhərə məxsus deyilsən.

“Romanın sözü nədir?” - deyə soruşdum.

“Seks”, - deyə bildirdi.

“Axı bu təkcə Romaya məxsus stereotip deyil”.

“Xeyr”.

downloaded from KitabYurdu.org

“Romada yəqin ki, bundan başqa şeylər haqqında fikirləşən insanlar da var”.

Culio təkid edirdi: “Xeyr. Hər gün hamının ağlında olan yeganə şey seksdir”.

“Vatikandakılar da bura aiddir?”

“O, ayrıdır. Vatikan Romanın bir hissəsi deyil. Onlann başqa devizləri var: HAKİMİYYƏT”.

“Elə bildim ki, din...”

“Hakimiyyət”, - Culio təkrarladı. “Romada isə SEKSdir”.

Əgər Culioya inansaq, bu söz Romada ayağınızın altındakı küçələrə döşənib, fəvvarələrdən axır, havanı tıxacdakı səs-küy kimi bürüyür. Onun barəsində fikirləşmək, onun üçün geyinmək, onu axtarmaq, dəyərləndirmək, ondan imtina etmək, idman və ya oyuna çevirmək - hər kəs bununla məşğuldur. Bu vəziyyət bütün möhtəşəmliyinə rəğmən nəyə görə Romada özümü vətəndəki kimi hiss etmədiyimi (ən azı həyatımın indiki dövrü üçün) mənə izah etdi. Çünki seks hazırda mənim sözüm deyil. Bir vaxtlar o mənim sözüm idi, amma indi yox. Buna görə də küçədə gəzəndə Romanın sözü qəfildən qarşıma çıxır və
özünü göstərir, sonra da heç bir iz buraxmadan çıxıb gedir. Mən bu sözdə iştirak etmirəm, ona görə də tam

downloaded from KitabYurdu.org

olaraq burada yaşamıram. Bu, inanılmaz, sübutu mümkün olmayan bir nəzəriyyədir, amma mənim xoşuma gəlir.

Culio soruşdu: “Nyu Yorkun sözü nədir?”

Bir müddət fikrə getdim və qərar verdim. “Bu, əlbəttə ki, bir feldir. Məncə, NAİL OLMAQ”.

(Bu söz Los Ancelesin sözündən xeyli fərqlənir: “UĞUR QAZANMAQ”. Sonra bütün bu nəzəriyyəni İsveçli rəfiqəm Sofiyə danışdım və o da mənə Stokholmu ifadə edən sözün hər ikimizə yad olan “YEKNƏSƏQLİK” olduğunu dedi).

“Neapolun sözün nədir?” - deyə soruşdum. Culio İtaliyanın cənubunu yaxşı tanıyır.

“MÜBARİZƏ APARMAQ”, - deyə o cavab verdi. “Ailəni hansı sözlə ifadə edərdin?”

Bu çətin idi. QƏNAƏTCİL və QÜRURLU sözlərini birləşdirən bir söz tapmağa çalışdım. Culio isə artıq növbəti suala keçmişdi: “Səni ifadə edən söz hansıdır?”

Bu suala, şübhəsiz ki, cavab verə bilməyəcəkdim.

Doğrudur, bir neçə həftə fikirləşəndən sonra bəzi fikirlərimi bildirə bilərəm. Birincisi, mən hansı sözün yüz faiz mənə uyğun gəlmədiyini bilirəm: NİKAH deyil, bu, dəqiqdir. AİLƏ deyil (Bu söz ərimlə bir neçə il bir yerdə yaşadığımız ailənin sözü olsa da, mən bu sözə uyğunlaşa bilmirdim. Kədərimin ən böyük səbəblərindən biri də bu

downloaded from KitabYurdu.org

idi). Şükür ki, artıq DEPRESSİYA da deyil. Stokholmun YEKNƏSƏQLİK sözü də məni ifadə eləmir. Ömrümün böyük hissəsi ərzində dünyam olan Nyu Yorkun NAİL OLMAQ sözü də artıq tamamilə mənə uyğun gəlmir. Mənim sözüm AXTARMAQ ola bilər (düzünü desəm, GİZLƏNMƏK də ola bilər). İtaliyada keçirdiyim son bir neçə ay ərzindəki sözüm daha çox HƏZZ olub, amma bu söz məni bütövlükdə əhatə etmir. Əgər elə olsaydı, Hindistana getməyə can atmazdım. Bəlkə də mənim sözüm SƏDAQƏT ola bilər. Əslində, bu söz də məni olduğumdan daha yaxşı göstərir və nə qədər çox şərab içdiyimi nəzərə almır.

Cavabı bilmirəm və güman edirəm ki, birillik səyahətim də elə bununla bağlıdır. Öz sözümü tapmaqla... Bir şeyi əminliklə deyə bilərəm ki, mənim sözüm "SEKS" deyil.

Və ya belə olmadığını iddia edirəm. Siz deyin, elə isə nəyə görə bu gün ayaqlarım məni demək olar ki, iradəm xaricində Via Condottiyə, mağazada işləyən italyan qızın köməyi ilə sultanın kənizini ıooı gecə ərzində bəzəyəcək qədər alt paltarı almaqla, xəyal kimi bir neçə saat keçirdiyim o butikə apardı? Hər formada və bəzəkdə alt paltan aldım. Nazik, şəffaf, həmçinin göy qurşağındakı bütün rənglərdə.

downloaded from KitabYurdu.org

İndiyə qədər heç vaxt belə geyimlərim olmayıb. Nəyə görə indi aldım? Qəşəng kağızlara bükülmüş bəzək-düzəyimlə butikdən çıxanda, qəfildən, bir neçə gün əvvəl Latsio oyununda Latsionun məşhur oyunçusu Albertini kritik bir anda səbəbsiz yerə oyunu məhv edərək topu heç kimin olmadığı bir istiqamətə ötürəndə, azarkeşlərdən birinin qışqırdığı sözlər ağlımdan keçdi.

“Per chi???”, - deyə azarkeş az qala ağlını itirmiş halda qışqırırdı. “Per chi???”

Kimin üçün??? Bu pası kimə atırsan Albertini? Orada heç kim yoxdur!

Alt paltarları satılan dükanda saatlarla vaxt itirib küçəyə çıxandan sonra, bu sual yadıma düşdü və pıçıltı ilə təkrarladım: “Per chi?”

Kimin üçün, Liz? Bu yersiz cazibədarlıq kimə lazımdır? İtaliyada cəmi bir neçə həftəm qalıb və kiminlə isə münasibət qurmağa vaxtım yoxdur. Bəlkə var? Roma küçələrində hər addımda rastlaşdığım söz mənə də təsir edib? Bəlkə bu, italyan olmaq üçün göstərdiyim sonuncu cəhddir? Ya da ki, özüm üçün və ya hələ xəyal belə edə bilmədiyim sevgilim üçün hədiyədir? Yoxsa axırıncı münasibətimdəki özünəinam iflasından sonrakı sağalmaq cəhdidir?

Özümə sual verdim: “Doğrudanmı sən bütün bunları

downloaded from KitabYurdu.org

Hindistana aparacaqsan?”

34

Bu il Luka Spagettinin doğum günü Amerikanın Şükran gününə təsadüf edir və buna görə də ad günündə hindtoyuğu bişirmək qəranna gəlib. Bu vaxta qədər iri, kök, qızardılmış Şükran günü hindtoyuğu yeməyib, onlan ancaq şəkillərdə görüb. Belə bir ziyafəti təşkil etməyin asan olduğunu düşünür (Xüsusilə də mənim - əsl amerikalının köməyi ilə). Romadan kənardakı dağlarda böyük, gözəl evləri olan və Lukanın həmişə ad gününü birgə keçirdiyi dostları Mario və Simonanm mətbəxindən istifadə edə biləcəyimizi deyir.

Lukanın planı belə idi: İşdən çıxıb axşam saat yeddiyə yaxın məni götürəcək, sonra da Romanın şimalında, dostlarının evinə gedəcəyik (Orada da qonaqlığın digər iştirakçıları ilə görüşəcəyik), bir az şərab içib tanış olacaq və böyük ehtimalla axşam saat 21:00 ərəfəsində onkiloluq hindtoyuğumuzu qızartmağa başlayacağıq.

Onkiloluq hindtoyuğunu qızartmağın nə qədər vaxt aparacağını Lukaya izah etmək lazım oldu. Böyük ehtimalla növbəti gün şəfəq vaxtı bu hindtoyuğunun bişəcəyini ona bildirdim. Pərişan oldu. “Bəs balaca hindtoyuğu alsaq, onda necə? Yenicə doğulmuş körpə hindtoyuğu?”

downloaded from KitabYurdu.org

Mən, - “Luka, gəl işi asanlaşdıraq və bir çox amerikan ailəsinin etdiyi kimi pizza yeyək”, - dedim.

Lakin Luka onsuz da məyus idi. Əslində, Romada indi ümumi bir kədər aurası hakimdir. Havalar soyuyub. Sanitar və dəmiryolu işçilərinin hamısı eyni gündə nümayiş keçirtdilər. İtalyan uşaqlarının 36 faizinin makaron, pizza və çörəyin tərkibində olan qlütenə allergiyası olduğu yenicə sübuta yetirilib. Ən dəhşətlisi isə bu yaxınlarda rast gəldiyim, şok başlığı olan məqalədir: “Insoddisfatte 6 Donne su 10!” Hər on italyan qadınından altısının cinsi olaraq təmin olunmadığını bildirir. Həmçinin italyan kişilərinin 35 faizinin cinsi zəiflikdən əziyyət çəkdiyi deyilir. Bu xəbər məni Romanı ifadə edən sözün “seks” olmağa davam edib-etməyəcəyi barədə düşünməyə vadar edir.

Daha ciddi, bəd xəbərlərə görə isə, on doqquz italyan əsgəri Amerikanın İraqda apardığı müharibədə qətlə yetirilib (burada yazılana görə). Bu rəqəm İkinci Dünya müharibəsindən bəri İtaliyadakı ən böyük itkidir. Bu ölümlər Romanı şoka saldı və onların dəfn olunduğu gün şəhərdə hər yer bağlandı. İtalyanların əksəriyyəti Corc Buşun müharibəsi ilə bağlı heç nə etmək istəmir. Cəlbolunma qərarı (burada daha çox “l’idiota” adlandırılan) Silvio Berluskoniyə məxsusdur. Futbol

downloaded from KitabYurdu.org

klubunun sahibi olan, Avropa parlamentindəki nalayiq jestləri ilə müntəzəm olaraq öz vətəndaşlarını utandıran, “l’aria fritta” (boş-boş) danışmaq üzrə mütəxəssis, medianı ustalıqla təsir altına salan və özünü əsl dünya lideri kimi deyil, Uoterberi meri kimi aparan (Bu zarafatı yalnız Konnektikut sakinləri başa düşə bilər - bağışlayın), indi isə italyanları onlan heç maraqlandırmayan bir müharibəyə girməyə məcbur edən, korrupsiya və bayağılığı ilə məşhur o ağılsız şəxs.

“Onlar azadlıq uğranda öldülər”, - on doqquz italyan əsgərinin dəfn mərasimində Berluskoni belə dedi, amma Roma sakinlərinin çoxu tamam fərqli fikirdədir: Onlar Corc Buşun
intiqam marağının qurbanı oldular. Bu siyasi atmosferin İtaliyadakı bir amerikan üçün çətin ola biləcəyini düşünə bilərsiniz. Mən də İtaliyaya gələndə az da olsa qəzəblə qarşılaşacağımı gözləyirdim, amma əksər italyanlar mənə anlayışla yanaşdılar. Corc Buşun sözünün keçdiyi hər yerdə insanlar, sadəcə, - “Bunun necə bir hiss olduğunu bilirik. Bizim də Corc Buşumuz var”, - deyib Berluskoniyə işarə edirlər.

Biz də siz keçən yollardan keçmişik...

Bu şəraitdə, Lukanın ad gününü Şükran günü kimi keçirtmək istəyi qəribədir, amma bu ideya xoşuma gəlir.

downloaded from KitabYurdu.org

Şükran günü hər bir amerikalının qürur duyduğu və ciddi dəyişikliklərə uğramadan müasir dövrə qədər gəlib çıxan yeganə milli bayramımızdır. Mehribanlığın, minnətdarlığın, birliyin və bəli, həzzin günü! Bəlkə də indi ehtiyacımız olan elə budur.

Rəfiqəm Debora bayramı mənimlə birlikdə keçirmək məqsədilə Filadelfiyadan Romaya gəlib. Debora beynəlxalq nüfuzu olan psixoloq, yazıçı və feminizm nəzəriyyəçisidir, amma mən onu hələ də Filadelfiyada bir restoranda ofisiant işləyəndə nahar üçün gəlib buzsuz pəhriz kolası içən və
piştaxtanın üzərindən mənə ağıllı sözlər deyən günlərdən bəri, ən çox sevdiyim daimi müştərim kimi görürəm. O, həmin restorana xoş ab-hava qatırdı. Biz artıq on beş ildən çoxdur ki, dostluq edirik. Sofi də Lukanın qonaqlığına dəvət olunub. Sofi ilə isə təxminən on beş həftədir ki, rəfiqəyik. Ümumiyyətlə, şükran günündə qapılar hamının üzünə açıqdır. Xüsusilə də əgər bayram həm də Luka Spagettinin ad günüdürsə!

Axşam yorğunluq və stressdən əzab çəkmiş halda Romadan çıxıb dağlara üz tuturuq. Luka amerikan musiqisini sevir, ona görə də “Eagles” qrupuna qulaq asırıq və zeytun bağlan, qədim su kəmərləri boyu davam edən səyahətimizə qəribə də olsa, Kaliforniyasayağı bir

downloaded from KitabYurdu.org

fon musiqisi qatan mahnını zümzümə edərək irəliləyirik: “Take it to the limit, one more time” (Onu axıra apar yenidən). Lukanın köhnə dostlan, Culia və Sara adlı on iki yaşlı əkizləri olan Mario və Simonanın evlərinə gəlib çatırıq. Paolo - futbol oyununda tanış olduğum Lukanın dostu da sevgilisi ilə gəlib. Əlbəttə ki, Lukanın sevgilisi Culiana da oradadır. Əvvəlcədən gəlib. Ev, sadəcə, möhtəşəmdir, zeytun, klementin və limon ağaclarının arasında gizlənib. Buxarı yanır. Zeytun yağlan da evdə hazırlanıb.

Onkiloluq hindtoyuğunu qızartmağa vaxtımız yoxdur, amma Luka döş ətindən bir az qızardır. Mən də Şükran günü hindtoyuğunun içinə doldurulan, yüksək keyfiyyətli italyan çörək qırıntılanm və bəzi zəruri dəyişikliklərdən sonra (ərik yerinə xurma, kərəviz əvəzinə şüyüd) digər ərzaqları hazırlamağa çalışan qrupa bacardığım qədər başçılıq edirəm. Nəticəsi pis alınmır. Luka qonaqlarının yarısının ingilis dilində, yansının da italyan dilində danışa bilmədiyini (Və təkcə Sofi İsveç dilində danışa bilir) nəzərə alıb, bu axşam söhbətlərin hansı məcraya yönələcəyi ilə bağlı narahatlıq keçirirdi. Lakin o axşam hamının bir-birini mükəmməl başa düşdüyü, ya da qəribə bir sözlə qarşılaşanda yanındakı şəxsdən soruşduğu möcüzəli axşamlardan biri idi.

downloaded from KitabYurdu.org

Artıq nə qədər Sardiniya şərabı içdiyimizi unutmuşam. Əvvəlcə, Debora amerikan ənənəsinə uyğun olaraq bir-birimizin əllərindən yapışıb növbə ilə ən çox nəyə görə minnətdar olduğumuzu deməyi təklif edir. Biz də üç dildə bir- birimizin ardınca öz minnətdarlığımızı bildiririk.

İlk olaraq Debora sözə başlayır: Amerikanın tezliklə yeni prezident seçmək şansı qazanacağına görə minnətdarlığını dilə gətirir. Sofi İtaliyanın xeyirxah ürəklərinə və bu ölkədə belə bir xoşbəxtliyi yaşamaq imkanı qazandığına görə minnətdar olduğunu bildirir (Əvvəlcə, İsveç, sonra italyan, nəhayət, ingilis dilində). Mario - ev sahibimiz isə ailəsi və dostlarının yığışıb əyləndiyi bu gözəl evə sahib olmağına kömək edən Allaha minnətdarlıq edərək həmin duyğuların təsiri ilə ağlayır və beləcə, göz yaşlan başlayır. Paolonun da tezliklə Amerikanın yeni prezident seçmək imkanının olmağına görə minnətdarlığını dilə gətirməsi ilə gülüş səsləri ucalır. On iki yaşındakı əkizlərdən biri olan Sara bu axşam belə gözəl insanlarla bir yerdə olduğuna görə minnətdar olduğunu bildirir. O, cəsarətlə son günlərdə məktəbdə çətin günlər keçirdiyini, bəzi şagirdlərin onunla pis rəftar etdiklərini dilə gətirir: “Ona görə də bu axşam mənə qarşı bu qədər mehriban olduğunuza və onlar qədər kobud olmadığınıza görə təşəkkür

downloaded from KitabYurdu.org

edirəm”. Onun etirafı ilə ətraf səssizliyə qərq olur. Lukanın sevgilisi, illərdir Luka ona sadiq qaldığına və çətin vaxtlarında ailəsi ilə ürəkdən maraqlandığına görə minnətdarlığını bildirir. Simona - ev sahibəmiz Lukanm dostlarının onlar üçün özgə olmadıqlarını deyir və bu gözəl amerikalı əcnəbilərin evinə yeni bir bayram və şükran ənənəsi gətirdiyinə görə minnətdar olduğunu ifadə edir və ərindən daha çox ağlayır.

Növbə mənə çatanda “Sono grata”, - deyə sözə başlayıram, amma sonra özümü aydın ifadə edə bilməyəcəyimi başa düşürəm. Axı əslində, illərlə məni siçovul kimi gəmirən depressiyadan xilas olduğuma görə minnətdarlıq etmək istəyirəm. Qəlbim elə yara bağlamışdı ki, bu yaxınlara qədər belə əsrarəngiz gecədən həzz ala bilməzdim. Bunların heç biri haqqında danışmıram, çünki uşaqlan qorxutmaq istəmirəm. Bunun əvəzinə, başqa bir həqiqəti deyirəm - Köhnə və təzə dostlara görə, xüsusilə də bu axşam Lukaya görə minnətdar olduğumu bildirirəm. Ona otuz üç yaşını xoşbəxt keçirməyini, digər insanlar üçün əliaçıqlıq, sadiqlik və sevgi dolu əsl insan nümunəsi olacağı uzun bir ömür yaşamağını arzulayıram və
onsuz da hər kəs ağladığına görə problem olacağını düşünməsəm də, bütün fikirlərimi ağlaya-ağlaya

downloaded from KitabYurdu.org

bildirdiyimə görə heç kimi narahat etmədiyimə ümid etdiyimi dilə gətirirəm.

Luka o qədər kövrəlir ki, - “Göz yaşlarınız mənim dualarımdır”, - sözlərilə duyğularını ifadə edir.

Sardiniya şərabı çay kimi axır. Paolo qablan yuyur, Mario isə yorğun qızlarını yatmağa aparır. Luka gitara çalır və hər kəs sərxoş halda müxtəlif aksentlərlə Nil Yanqm mahnılarını oxuyur. Amerikalı feminist psixoloq Debora mənə sakitcə deyir: “Ətrafa, bu yaxşı italyan kişilərinə bir bax. Duyğularını nə qədər açıq ifadə etdiklərini və ailələrinə qarşı necə sevgi dolu olduqlarını görürsən? Həyatlarındakı qadınlara və uşaqlara qarşı nə qədər diqqətlidirlər. Qəzetlərdə oxuduqlarına inanma, Liz. Bu ölkədə hər şey qaydasındadır”.

Qonaqlığımız sübhə qədər davam edir. Əslində, onkiloluq hindtoyuğunu qızardıb səhər yeməyində yeyə bilərdik. Luka Spagetti məni, Deboranı və Sofini evə ötürür. Günəş doğanda ona Milad nəğmələri oxuyaraq oyaq qalmağına kömək edirik. Hamımız bir yerdə Romaya doğru gedərkən yolboyu bildiyimiz
hər dildə dəfələrlə təkrarlayırıq: Səssiz gecə, mərhəmətli gecə, müqəddəs gecə...

35

İtalyan mətbəxi ilə mübarizədə uduzuram. İtaliyada

downloaded from KitabYurdu.org

keçirdiyim dörd aydan sonra şalvarlarımın heç biri əynimə olmur. Hətta keçən ay aldığım paltarlar belə daralıb ("İtaliyada ikinci ayım" artıq çoxdan şalvarlarımın içinə girə bilmədiyim vaxt idi). Bir neçə həftədən bir paltarlarımı yeniləməyə gücüm çatmaz. Tezliklə Hindistanda artıq çəkilərimin əriyib yox olacağını bilirəm, amma yenə də bu şalvarlarla addım atmağım mümkün deyil. Bu isə dözülməzdir.

Bu yaxınlarda italyan otellərinin birində tərəziyə çıxdığımı və İtaliyada keçirdiyim dörd ay ərzində on kilo kökəldiyimi öyrəndiyimi nəzərə alsaq, bunlar normaldır. Doğrudan da təqdirəlayiq statistikadır. Beş kilo kökəlmək planımda var idi, çünki boşanma və depressiya illərində əməlli-başlı skeletə dönmüşdüm. Sonrakı üç kilonu elə-belə, əylənmək üçün qazandım. Bəs son iki kilo? Onlar deyəsən nəyisə sübut etmək üçündür.

Beləliklə, həmişə sevgi dolu bir xatirə kimi saxlayacağım paltarlar üçün bazarlıq edirəm: "İtalyan cinsində keçən sonuncu ayım". Mağazadakı gənc xanım ard-arda daha iri ölçüləri gətirərək hər dəfə də narahatlıqla bu dəfəkinin əynimə olub-olmadığını soruşandan sonra, şərh vermədən pərdənin arxasından bir-bir paltarları ötürəcək qədər mədənidir.

Dəfələrlə başımı pərdənin arasından çıxardıb, -

downloaded from KitabYurdu.org

“Bağışlayın, bunun daha böyük ölçüsü var?” - deyə soruşmalı oldum. Nəhayət, gözəl gənc xanım ilk baxışda mənə, həqiqətən də əzab verən bir ölçüdəki cins şalvarı gətirdi. Soyunma otağından çıxıb özümü satıcı qıza göstərirəm.

Gözünü qırpmır. Mənə bir qalereyanın çox qədim güldanın dəyərini təyin etməyə çalışan incəsənət kuratoru kimi baxır. Böyük bir güldanın.

“Carina” (qəşəngdir), - deyə qərar verir. İtalyan dilində ondan xahiş edirəm ki, bu şalvarın içində inəyə oxşayıb- oxşamadığımı səmimi desin.

“Xeyr, signoria, - deyə cavab verir, - inəyə oxşamırsınız”.

“Bəs donuza oxşayıram?”

“Xeyr”, - ciddi tərzdə məni inandırır. Donuzla da heç bir əlaqəm yox imiş.

“Bəlkə camışa oxşayıram?”

Bu dialoq getdikcə bildiyim sözləri təkrarlamağıma kömək etməyə başlayır. Həmçinin satıcıdan bir təbəssüm qopartmağa çalışıram, amma o, peşəkarlığını qorumaqda qərarlıdır.

Sonuncu dəfə cəhd edirəm: “Bəlkə də bir azca mozarella kürəciklərinə oxşayıram?”

“Yaxşı, bir az, - nəhayət, azca gülümsəyərək razılaşır.

downloaded from KitabYurdu.org

- Bir az mozarella kürəciklərinə oxşayırsınız”.

36

Burada cəmi bir həftəm qalıb. Hindistana getməzdən əvvəl Milad bayramını qeyd etmək üçün Amerikaya qayıtmağı planlaşdırıram. Səbəb təkcə Miladı ailəmdən ayn keçirməyə dözə bilməməyim deyil, həmçinin səyahətimin geridə qalan səkkiz ayı - Hindistan və İndoneziya üçün tamamilə yeni bir çamadan yığmaq zərurətidir. Çünki Romada ehtiyacım olan əşyalardan çox az bir qismi Hindistanda da lazım ola bilər.

Və sonuncu həftəmi Siciliyaya, İtaliyanın ən kasıb üçüncü dünya ölkələri səviyyəsində olan, buna görə də əgər özünü kasıblıqla sınağa çəkmək istəyirsənsə, getmək üçün heç də pis bir yer olmayan bölgəsinə səyahət edərək keçirməyə qərar verməyim, bəlkə də Hindistana hazırlıq mərhələsidir. Bəlkə də Siciliyaya, sadəcə, Götenin dediyi fikrin təsirilə getmək istəyirəm: “Siciliyanı görməyən şəxs İtaliyanın necə bir yer olduğunu tam anlaya bilməz”.

Amma Siciliyaya getmək elə də asan deyil. Bazar günü sahilə tərəf gedən qatar tapmaq, sonra isə məni Mesinaya (Siciliyanın vahiməli və şübhə yaradan, qapıların arxasından, -“Çirkin olmaq mənim günahım deyil! Mən zəlzələlərə, bombalara, mafiya hücumlarına məruz qalmışam!” - deyə ulayırmış təsiri bağışlayan bir

downloaded from KitabYurdu.org

liman şəhəri) aparacaq bərəni tapmaq üçün əlimdən gələni etməliyəm. Mesinaya çatandan sonra avtobus dayanacağı (siqaret çəkən bir adamın ciyərləri qədər çirkli) tapmalı və işi həyatı üçün yas tutub bilet kabinəsində oturmaqdan ibarət olan şəxsi taparaq Taorminaya getməyim üçün mənə bilet satmaq şərəfinə layiq görüb- görmədiyini müəyyənləşdirməliyəm. Sonra Siciliyanın nəhəng, sıldırım qayalan və sahilləri boyu gurultu ilə irəliləyirəm. Növbəti işim taksi, sonra da otel tapmaqdır. Əlbəttə ki, italyan dilindəki sevimli sualımı verəcəyim şəxsi də tapmalıyam: "Burada ən dadlı yeməklər harada olur?" Taorminada bu şəxs yuxulu bir polis məmuru oldu. O, bir insanın mənə verəcəyi ən gözəl şeylərdən birini, üstündə restoranın ünvanını izah edən əllə çəkilmiş xəritənin olduğu balaca kağız parçasını verir.

Ünsiyyətcil, yaşlı sahibənin ayağında corabları ilə stolun üstünə çıxıb Milad bəzəklərinə xələl yetirmədən pəncərələrini silərək, axşam gələcək müştərilər üçün hazırladığı bu yerin balaca bir "trattoria" olduğu sonradan məlum olur. Ona dərhal menyuya baxmağa ehtiyac olmadığını bəyan eləyirəm: Siciliyada birinci günüm olduğuna görə ən yaxşı yeməyi gətirməsini xahiş edirəm. Ləzzətlə əllərini bir-birinə sürtür və mətbəxdəki qoca

downloaded from KitabYurdu.org

anasına Siciliya dialekti ilə nə isə qışqırır və iyirmi dəqiqədən sonra mən, şübhəsiz ki, İtaliyada bu günə qədər yediyim ən möhtəşəm yeməyi mədəmə ötürürəm. Bu, makarondur, amma bu vaxta qədər görmədiyim bir formada makaron - ravioli kimi bükülüb (ölçü olaraq olmasa da) papanın şlyapasına bənzəyən, xərçəngkimilərin ətirli püresi, oktapod və kalmardan ibarət, təzə molyusklarla qarışdırılıb isti salat kimi təqdim edilən yağlı makaronlar. Ardınca kəklikotuda qızardılmış dovşan gəlir.

Lakin növbəti gün getdiyim Sirakuz daha yaxşı idi. Ləhləyən avtobus demək olar axşam qaranlığında məni bir küçənin küncündə, yağışın altına düşürdüb gedir. Buranı görən
kimi sevirəm. Sirakuzda ayaqlarımın altında üç min illik tarix yerləşir. Bura o qədər qədim sivilizasiyadır ki, onunla müqayisədə Roma Dallas kimi görünür. Rəvayətə görə, Dedal Kritdən bura uçub. Burada həm də Herakl gecələyibmiş. Fukididin sözlərinə görə, Sirakuzda yunan məhəllələri olub və bu şəhər Afinadan heç də geridə qalmır. Sirakuz antik Yunan- Roma mədəniyyətlərini bir-birinə bağlayan bir halqa olub. Antik dövrdə bir çox alim və yazıçılar burada yaşayıblar. Platon bu şəhərin “ilahi tale vasitəsilə”, hökmdarların filosof, filosofların da

downloaded from KitabYurdu.org

hökmdar ola biləcəyi ehtimalı ilə bağlı utopik təcrübə keçirmək üçün ideal yer olduğunu bildirirdi. Tarixçilər "ritorika" və "süjet xətti" anlayışlarının burada meydana gəldiyini deyirlər (bunlar kiçik məsələlərdir).

Bu qədim şəhərin bazarlarında dolaşıram və qara, yun papaq qoymuş qoca bir kişinin qadın müştərisi üçün balıq təmizləməyinə tamaşa edəndə ürəyim başa düşə bilmədiyim, izaholunmaz bir sevgi ilə döyünür (Dərzi tikiş tikəndə iynəni ağzında tutduğu kimi, o da siqareti bərk-bərk ağzında tutub. Bıçaq sahibinə tabe olub ətin üzərində mükəmməl cəldliklə
işləyir). Balıqçıdan utana-utana axşam harada yeməli olduğumu soruşuram və söhbəti həmişə olduğu kimi adsız, balaca bir restoranın xəritəsi çəkilmiş kağız parçasını almaqla yekunlaşdırıram. Bu kağız məni oturan kimi ofisiantın üstünə püstə səpilmiş yumşaq rikotta, ətirli yağda üzən çörək tikələri, dilim-dilim doğranan ət və zeytunlardan ibarət boşqablar, soğan və cəfəri ilə bəzədilən soyudulmuş portağal salatı təklif etdiyi bir restorana gətirib çıxardı. Və bütün bu yeməkləri mənə kalmardan hazırlanmış yemək barədə məlumat verməzdən əvvəl gətirirlər.

"Qaydaları necə olursa olsun, sakinləri qonaqlıq, yemək, içmək və yorğun düşənə qədər sevgi ilə məşğul

downloaded from KitabYurdu.org

olmaqdan başqa heç nə etməyən bir şəhər sülh içində yaşaya bilməz", - deyə Platon yazır.

Bəs sadəcə, qısa bir müddət üçün belə yaşamaq pisdir? Həyatının cəmi bir neçə ayı ərzində növbəti dadlı yeməyi tapmaqdan daha böyük arzun olmadan gəzmək bu qədər pisdir? Və ya heç bir ciddi səbəbin olmadan bir dili yalnız qulağına xoş gəldiyi üçün öyrənəsən? Bəs günorta sevimli
fəvvarənin yanında, bağda, günəşin altında mürgüləmək və ertəsi gün bunu yenidən təkrarlamaq necə?

Əlbəttə ki, sonsuza qədər belə yaşamaq olmaz. Real həyat, müharibələr, faciələr, ölüm gec-tez müdaxilə edəcək. Bu dəhşətli yoxsulluq sayəsində Siciliyada real həyat heç kimin yadından çıxmır. Əsrlərdir ki, Siciliyada müvəffəqiyyət qazanan yeganə sahə mafiya fəaliyyətidir (vətəndaşları özlərindən qorumaq biznesi) və hələ də mafiya hamıya və hər şeyə nəzarət eləyir. Palermo - Götenin təsviredilməz gözəlliyə malik olduğunu dediyi şəhər - Qərbi Avropada hələ də İkinci Dünya müharibəsindən qalan tör-töküntülərin ayaq altda dolaşdığı yeganə şəhərdir, bu da onun inkişafı haqda aydın təsəvvür yaradır. Şəhər sistemli şəkildə pulların yuyulması əməliyyatı adı ilə 1980-ci ildə mafiya tərəfindən səliqəsiz və təhlükəli mənzillərlə eybəcər hala

downloaded from KitabYurdu.org

salınıb. Sakinlərin birindən bu mənzillərin tikintisində ucuz betondan istifadə edilib- edilmədiyini soruşdum. “Eh, bu betonlar olduqca bahalıdır.
Hər binada mafiya tərəfindən öldürülən insanlann cəsədləri var
və bu da kifayət qədər baha başa gəlir. Tərkibində sümük və dişlər olanda beton daha da möhkəm olur”.

Belə bir mühitdə, sadəcə, növbəti dadlı yemək barəsində düşünmək dayaz fikirlilikdir? Ya da sərt reallığı görəndə edə biləcəyiniz ən yaxşı iş bu deyil? 1964-cü ildə ərsəyə gətirdiyi şah əsəri “İtalyanlar”da Luici Barzini (Əcnəbilərin İtaliyaya bəslədiyi sevgi ya da nifrətdən bəhs edən yazılarından bezəndə qələmə alıb) öz mədəniyyəti ilə bağlı yazılan səhvləri düzəltməyə cəhd edir. O, nəyə görə İtaliyanın əsrlər boyu ən böyük incəsənət, siyasət və elm adamlarını dünyaya bəxş etməyinə baxmayaraq, hələ də dünyəvi güc halına gələ bilmədiyini aydınlaşdırmağa çalışır. Planetin şifahi diplomatiyasının ustaları nəyə görə yerli idarəetmədə bu qədər bacarıqsızdırlar? Fərdi halda qoçaq, ordu kimi isə müvəffəqiyyətsiz olmaqlarının səbəbi nədir? Şəxsi məsələlərdə bu qədər ağıllı olan tacirlər niyə bu qədər fərasətsiz sahibkardırlar?

Onun bu suallara verdiyi cavablar burada şərh edə

downloaded from KitabYurdu.org

bilməyəcəyim qədər uzun və qarışıqdır. Amma yerli məmurların rüşvətxorluğunu və əcnəbilərin istismarı kimi hallan özündə ehtiva edən qəmli İtaliya tarixi, italyanlan bu dünyada heç kimin və heç nəyin inana bilməyəcəyi dəqiq nəticəyə gətirib çıxardı. Yer üzü o qədər korlanıb, dözülməz və ədalətsiz bir yerə çevrilib ki, insan, sadəcə, öz hissləri ilə sınaqdan keçirə biləcəyi şeylərə inanmalıdır. İtaliyada duyğuların Avropadakı hər hansı bir yerdən daha güclü və ön planda olmağının səbəbi də budur. "Ona görə də, - Barzini deyir, - italyanlar bacanqsız generallara, prezidentlərə, tiranlara, professorlara, bürokratlara, jurnalistlərə və sənayeçilərə dözəcək, lakin istedadsız opera müğənnilərinə, dirijorlara, balerinalara, əxlaqsızlara, aktyorlara, rejissorlara, aşpazlara, dərzilərə heç vaxt tolerant münasibət göstərməyəcək". Nizamsızlığın, fəlakət və fınldaqçılığın baş alıb getdiyi bir dünyada bəzən, sadəcə, gözəlliyə inanmaq olur. Təkcə bədii-estetik gözəlliyi satın almaq mümkün deyil. Həzzin dəyəri heç vaxt aşağı düşə bilməz. Bəzən isə yeganə əsl dəyər yeməkdir.

Özünü gözəllik və həzz yaratmağa həsr etmək ciddi məsələ ola bilər. Bu, heç də həmişə reallıqdan qaçmaq üsulu deyil.

Hətta bəzən hər şey ritorika və süjet xəttinin içinə axanda,

downloaded from KitabYurdu.org

reallığa toxunmağın yeganə yolu da ola bilər. Bir müddət əvvəl müvafiq hakimiyyət orqanları Siciliyada mafiya ilə sıx münasibətdə olan katolik rahiblər qardaşlığının üzvlərini həbs ediblər. Belə olan halda kimə etibar edə bilərsən? Kimə inanmaq olar? Dünya zalım və ədalətsizdir. Bu ədalətsizliyə qarşı sözünü de ki, axırda Siciliyadakı bir binanın bünövrəsi olmayasan! Belə bir mühitdə öz mənəviyyatını qorumaq üçün nə edə bilərsən? Bəlkə də heç nə. Bəlkə də balığını mükəmməl formada təmizlədiyin və ya şəhərdəki ən yüngül rikottanı hazırladığın üçün özünlə qürur duymaqdan başqa heç nə...

Siciliyanın başıbəlalı insanlan ilə özümü müqayisə edərək heç kimi alçaltmaq istəmirəm. Mənim həyatımdakı faciələr şəxsi və çox vaxt özüm yaratdığım problemlər olub. Yəni uğranda dastanlar yazılacaq fəlakətlər deyil. Əsrlərlə davam edən ölümcül tiranlığa məhkum olmamışam. Sadəcə, boşandım və depressiyaya düçar oldum. Şəxsiyyətimlə bağlı böhrana girdim, amma bunu həll edə biləcəyim mənbələr var idi (maddi, bədii və emosional). Yenə də nəsildən-nəslə ötürülərək siciliyalılara ləyaqətlərini qorumağa kömək edən və mənim də öz ruhumu sağaltmağımda rol oynayan eyni fikri deyəcəyəm, - həzzin qiymətləndirilməsi şəxsin

downloaded from KitabYurdu.org

insanlığını qoruyub saxlamağı üçün lövbər rolu oynaya bilər. İtaliyanı başa düşmək üçün mütləq Siciliyanı görməli olduğunuzu deyən Götenin də bunu nəzərdə tutduğuna inanıram. Və mən də instinktiv olaraq bura, İtaliyaya gəlməyə qərar verdim. Özümü dərk etmək üçün.

Ruhumu müalicə etməyə Nyu Yorkdakı vannamda italyan dilində sözləri ucadan oxumaqla başladım. Həyatım hissələrə bölünüb və o həddə qədər dəyişmişəm ki, böyük ehtimalla məni də polis şöbəsində şübhəli şəxslərlə bir cərgəyə düzsələr, özüm- özümü tanıya bilməzdim. Amma italyan dilini öyrənməyə başlayanda xoşbəxt həyatın işartısını sezməyə başladım. Belə qaranlıq günlərdən sonra xoşbəxtlik üçün ən kiçik bir ehtimal tapanda o xoşbəxtliyin əlindən tutmalı və səni üzü üstə palçığın içindən çıxardana qədər buraxmamalısan. Bu eqoistlik deyil, zərurətdir. Sənə həyat bəxş edilib. Sənə həyat bəxş eləyiblər və sənin vəzifən həyatda gözəllik tapmaqdır (Bu, bir insan kimi ən təbii haqqındır).

İtaliyaya gələndə arıq və dərdli idim. Nəyə layiq olduğumu bilmirdim. Bəlkə də hələ də dəqiq bilmirəm. Amma son vaxtlarda heç kimə zərəri olmayan həzzdən zövq alaraq, özümü qismən sağaltdığımı bilirəm. Bunu daha sadə formada belə ifadə etmək olar - kökəlmişəm.

downloaded from KitabYurdu.org

Artıq dörd ay əvvəlkinə nisbətən, daha çox “mövcudam”. Deməli, gəldiyimdən daha böyük olacaq getməyim. Və bir insanın genişlənməyinin - bir həyatın güclənməyinin bu dünyaya dəyər qatan bir fəaliyyət olduğuna ümid edərək gedəcəyəm. Hətta o həyat, sadəcə, bu dəfəlik məndən başqa heç kimə aid olmasa belə...

HİNDİSTAN

və ya

“Tanış olduğumuz üçün xoşbəxtəm” və ya

Sədaqət axtarışı barədə otuz altı hekayə



37

Mən uşaq olanda toyuq-cücə saxlayırdıq. Xeyli toyuq-cücəmiz var idi. Nə vaxt onlardan biri ölsə və ya qırğı, tülkü kimi təhlükələr ya da qeyri-müəyyən bir xəstəlik tərəfindən əlimizdən alınsa, atam dərhal həmin cücəni yenisi ilə əvəz edərdi. Yaxınlıqdakı quşçuluq fermasına gedər, kisədə yeni cücəylə qayıdardı. Yeni cücəni köhnələri ilə tanış edəndə çox ehtiyatlı olmaq lazım gəlirdi. Köhnə cücələrin içinə birdən-birə təzəni salmaq

downloaded from KitabYurdu.org

olmaz. Əks təqdirdə, onlar buna öz ərazilərinin işğalı kimi münasibət göstərəcəklər. Ona görə də gecə digərləri yuxuya gedəndən sonra təzə quşu ehtiyatla toyuq hininə salmaq lazımdır. Onu hinə qoyub sonra da barmaqlarının ucunda yavaşca aradan çıxırsan. Səhər cücələr yuxudan oyananda, - "Nə vaxt gəldiyini görməmişik. Deməli, həmişə burada imiş", - deyə düşünüb təzə gələnə fikir verməyəcəklər. Lakin ən gülməlisi isə budur ki, yeni cücə yeni yuvasında oyanandan
sonra onu bura gətirdiklərini başa düşməyəcək və düşünəcək: "Yəqin elə bura mənim öz hinimdir".

Mənim Hindistana gəlməyim da eynilə bunun kimi oldu.

Təyyarəm gecə 1:30-da Mumbaya enir. Dekabr ayının 30- dur. Çamadanımı tapıram, sonra məni şəhərdən bir neçə saatlıq məsafədəki kənddə yerləşən aşrama aparacaq taksiyə minirəm. Hindistanda gecə vaxtına təsadüf edən bu səyahətdə mən mürgüləyirəm, hərdənbir ayılır, pəncərədən başlarında odun dəstələri ilə yol kənarında gedən, sarilərə bürünmüş, qəribə, cılız qadın siluetlərinə baxıram. Bu vaxt? Qabaq faraları tutqun rəngdə olan avtobuslar bizi ötür, biz isə öküz arabalarını geridə qoyuruq. Banyan ağaclarının zərif kökləri xəndəklər boyu uzanıb gedir.

downloaded from KitabYurdu.org

Saat 03:30-da məbədin qarşısına, aşramm qabaq qapısına yaxınlaşırıq. Taksidən enəndə qərb stilində geyinmiş yun papaqlı cavan bir şəxs kölgələrin arasından çıxıb özünü təqdim edir - bu, Arturodur. Meksikalı, 24 yaşlı bir jurnalistdir. Qurumun tərəfdarlarmdandır və onu məni qarşılamağa göndəriblər. Pıçıltı ilə bir-birimizlə tanış olarkən içəridən gələn
sevimli sanskrit himnimin ilk taktlarım eşidirəm. Bu, səhər "arati"sidir. Yəni hər gün saat 03:30-da aşram oyananda oxunan ilk səhər duasıdır. Məbədi işarə edərək Arturodan "Olar ki, mən də..." - deyə soruşuram və o, - "Əlbəttə", - deyərək başı ilə təsdiq edir. Beləliklə, taksi sürücüsünə borcumu ödəyirəm, bel çantasını bir ağacın arxasında gizlədirəm, ayaqqabılarımı çıxardıb diz çökərək alnımla məbədin pilləkəninə toxunur, sonra isə çoxu hindli qadınlardan ibarət, bu gözəl himni oxuyan qrupa daxil olaraq rahatlığa qovuşuram.

"Allaha sədəqə" adlandırdığım bu himn ilahi həsrətlə doludur. Yoqanın müqəddəs təlimlərinə sadə girişdən, inamın ən yüksək həddinə qədər ("Kainatın var olma səbəbinə heyranam. Gözləri günəş, ay, alov olana heyranam. Sən mənim üçün hər şeysən. Ah, tanrıların tanrısı") sanskrit dilindəki tanış sözləri deməyə başladım (O mükəmməldir, bu mükəmməldir. Əgər mükəmməldən

downloaded from KitabYurdu.org

mükəmməli çıxsaq yenə də mükəmməl qalar).

Qadınlar himni oxuyub qurtarırlar. Səssizcə əyilirlər. Sonra qaranlıq bir həyətin qarşısındakı qapıdan çıxıb bircə neft
lampası ilə işıqlandırılmış, büxur ətri gələn daha kiçik bir məbədə daxil olurlar. Onlann ardınca gedirəm. Otaq sübhün soyuğundan qorunmaq üçün yun yaylıqlara bürünmüş hindli və qərbli dindarlarla doludur. Hamı meditasiya ilə məşğuldur, oturublar da demək olar. Mən də sürüyə təzə gələn cücə kimi nəzərə çarpmadan, səssiz-səmirsiz yanlarında yerimi rahatlayıram.

Dörd aydır ki, meditasiya ilə məşğul olmuram. Az imiş kimi, bu müddət ərzində meditasiya haqqında heç fikirləşməmişəm də. Orada otururam. Nəfəsimin səsi get-gedə azalır. Mantranı yavaş-yavaş, yadıma salaraq, heca-heca oxuyuram.

Om.

Na.

Mah.

Şi.

Va.

Ya.

Om Namah Şivaya.

Daxilimdəki ilahi gücə səcdə edirəm.

downloaded from KitabYurdu.org

Sonra bunu təkrarlayıram. Yenidən və yenidən. Buna heç meditasiya demək olmaz. Nənəmin çoxdandır ki, işlətmədiyi, qutuda tozlanıb qalmış çin qablarını açdığı kimi, mantranı diqqətlə açıram. Bilmirəm ki, yuxulayıram, yoxsa ovsunlanıram. Nə qədər vaxt keçdiyini başa düşmürəm. Amma günəş Hindistanda doğanda, hamı gözünü açaraq ətrafa baxır və artıq İtaliya mənə minlərlə mil uzaq kimi görünür. Sanki mən həmişə bu insanlann içində olmuşam.

“Nəyə görə yoqa ilə məşğul oluruq?”

Nyu Yorkda bir tələmçim çətin yoqa təlimi vaxtı bu sualı verdi. Hamımız yorucu yanakı üçbucaq vəziyyətini almışdıq və təlimçi hər birimizdən bu vəziyyəti bacardığımız qədər uzun müddət qorumağımızı tələb etdi.

“Nəyə görə yoqa ilə məşğul oluruq? - deyə bir daha soruşdu. - Qonşularımıza nisbətən daha elastik olmaq üçün, yoxsa daha ali bir məqsəd uğrunda?”

Yoqa sanskrit dilindən “birlik” kimi tərcümə edilə bilər. Bu sözün mənşəyi “birləşmək, qovuşmaq”, yəni müəyyən bir məsələyə öküz intizamı ilə yanaşmaq mənasını daşıyan “yuj” sözündəndir. Və yoqanın vəzifəsi birliyi tapmaqdır - ağıl və bədən arasında, fərd və tanrı arasında, fikirlərimiz və onların mənbəyi arasında, müəllim və tələbə arasında, hətta bəzən özümüzlə çətin

downloaded from KitabYurdu.org

dil tapdığımız qonşularımız arasında. Qərbdə yoqanı daha çox son vaxtlar məşhur olan, bədəni krendel
şəklinə salan məşqlərlə tanıyırlar, amma bu, sadəcə, yoqa fəlsəfəsinin qollarından biri olan "hatha-yoqa"dır. Qədim dövrdə insanlar bu fiziki hərəkətləri təkcə sağlamlığa görə deyil, həmçinin meditasiya prosesinə hazırlaşmaq üçün əzələləri və fikirlərini boşaltmaq məqsədi ilə kəşf ediblər. Fikrini "Budlarım çox ağrıyır" üzərində cəmləşdirməklə məşğul olduğuna görə onu daxili aləminə tərəf yönləndirə bilmirsənsə, hərəkətsiz qalmaq olduqca çətindir.

Bəlkə də yoqa həmçinin meditasiya, tədqiqat, səssizlik, itaət və ya mantra, müqəddəs sözlərin sanskrit dilində təkrarı vasitəsilə tanrıya çatmağa cəhd etmək deməkdir. Bu təcrübələrin çoxu mənşə baxımından hinduizmə yaxın kimi görünsə də, yoqa hinduizmlə sinonim deyil. Bütün hinduistlər yoq deyillər. Əsl yoqa başqa hər hansı bir dinlə nə rəqabət aparır, nə də ona mane olmağa çalışır. Yoqadan - müqəddəs birliyin intizamlı məşqlərindən - Krişna, İsa, Məhəmməd, Budda və ya Yaxveyə yaxınlaşmaq üçün istifadə edə bilərsən. Aşramda keçirdiyim müddət ərzində özlərini xristian, yəhudi, buddist, hinduist, hətta müsəlman adlandıran insanlarla tanış

downloaded from KitabYurdu.org

oldum. Həmçinin, ümumiyyətlə, dini mənsubiyyətləri barədə danışmaq istəməyən şəxslərə də rast gəldim. Bu mübahisəli dünyada onları başa düşmək olar.

Yoqanm vəzifəsi insanı varlığına mane olan daxili keyfiyyətlərdən azad etməkdir. Əsrlər boyu müxtəlif ideyaların təmsilçiləri insanın açıq-aşkar doğulandan bəri əsiri olduğu qüsurlu vəziyyətinə müxtəlif izahlar tapıblar. Daoistlər buna tənasübsüzlük, buddistlər isə cahillik adını verir. İslama görə bədbəxtliyin səbəbi insanın Allaha itaətsizliyidir. Yəhudi- xristian dininə görə isə bütün insan əzabları ənənəvi olaraq ilk günahla əlaqələndirilir. Freydistlər bədbəxtliyin bizim və sivilizasiyanın ehtiyaclan arasındakı toqquşmanın qaçılmaz nəticəsi olduğunu deyirlər (Psixoloq dostum Deboranm izah etdiyi kimi: "İnsana aid olan ən böyük çatışmazlıq cinsi istəklərdir"). Yoqlar isə deyirlər ki, bədbəxtliyin əsas səbəbi insanların özlərini düzgün dərk etməməsidir. Əzab çəkirik, çünki qorxuların, qüsurlann, incikliyin və ölümün təkcə bizə aid olduğunu düşünürük. Kiçik, məhdud eqolarımızm bütün varlığımızı təşkil etdiyini güman etməklə yanılırıq. Biz daha
dərinlikdəki ilahi təbiətimizi tanımaqla bağlı məğlubiyyətə uğramışıq. Hamımızın daxilində əbədi olaraq sülh içində yaşayan "ali mən"in doğrudan da

downloaded from KitabYurdu.org

mövcud olduğunun fərqində deyilik. Bu ali mən bizim universal və ilahi olan əsl şəxsiyyətimizdir. “Bu həqiqəti dərk edənə qədər, - yoqlar deyirlər, - daim ümidsizlik içində olacaqsan”. Bu ideyanı stoizm fəlsəfəsinin tərəfdarı olan Epiktet həqarətli şəkildə çox gözəl ifadə eləmişdir: “Zavallı insan, Tanrı sənin içindədir. Sən isə bunu bilmirsən”.

Yoqa insanın öz daxilində ilahi varlığı tapmaq, sonra da ona həmişəlik sahib olmaq cəhdidir. Yoqa özünü və ətrafdakıları balanslı halda qəbul edə biləcəyin sonsuz mövcudluq məkanı axtarmaq üçün, özünə hakim olmaq, diqqətini keçmişin qaranlıq fikirlərindən, gələcəyin fasiləsiz narahatlığından uzaqlaşdırmaq üçün bir məşğuliyyətdir. Dünyanın əsl təbiəti, sadəcə, bu nöqtədən baxanda sənə aydın olacaq. Əsl yoqlar balanslı halda bütün kainatı tannnın yaradıcı enerjisinin bərabər təzahürləri kimi görürlər. Kişilər, qadınlar, uşaqlar, turplar, taxta bitləri, mərcanlar - hamısında
tanrı gizlənib. Amma yoqlar insan həyatının fürsət olduğuna inanırlar, çünki təkcə insan cildində və insan beyni ilə ilahi varlığı dərk etmək mümkündür. Turplar, taxtabitiləri, mərcanlar - onlar heç vaxt əslində kim olduqlarını dərk etməyə fürsət qazana bilməzlər. Biz insanlara isə belə bir şans verilib.

downloaded from KitabYurdu.org

“Ona görə də həyatda yeganə vəzifəmiz, - deyə müqəddəs Avqustin bir qədər “yoq üslubunda” yazır, - qəlbimizin gözünü bərpa etməkdir, çünki onun sayəsində Tannm görə bilərik”.

Bütün böyük fəlsəfi ideyalar kimi bunu da başa düşmək asandır, lakin mənimsəmək demək olar ki, mümkün deyil. Yaxşı, deməli, hamımız birik və hər birimizin daxilində ilahi varlıq eyni dərəcədə mövcuddur. Problem yoxdur. Aydındır. İndi belə yaşamağa çalış. Günün iyirmi dörd saatı buna əməl etməyi öyrən. O qədər də asan deyil. Elə bu səbəbdən də Hindistanda yoqa öyrənmək üçün təlimçinin olmağı sorğu- sualsız yerinə yetirilən bir zərurətdir. Əgər həyata tamamilə formalaşmış halda gələn o parlaq müqəddəslərdən deyilsənsə, maariflənməyə aparan bu yolda mütləq bir rəhbərin olmalıdır. Bəxtin çəksə bir quru tapa bilərsən. Əsrlərdir ki, zəvvarlar onu
axtarmaq üçün Hindistana gəlirlər. Böyük İsgəndər eramızdan əvvəl dördüncü əsrdə Hindistana səfir göndərmişdi ki, yoq tapıb gətirsin (Səfir bir yoq tapdığını, amma həmin cənabı heç cür gəlməyə razı sala bilmədiyini demişdi). Eramızın birinci əsrində digər yunan səfiri Tyanalı Apolloniy Hindistandakı səyahəti haqqında yazır: “Hindli brahmanlann yer üzündə yaşadıqlarını, eyni

downloaded from KitabYurdu.org

zamanda yaşamadıqlarını, möhkəmləndirilmədən möhkəmləndiklərini, heç nəyə sahib olmadıqlan halda, bütün bəşəriyyətin sərvətinə malik olduqlarını gördüm". Qandi özü həmişə bir quru ilə təlim keçmək istəyib, amma təəssüf ki, qurunu tapmağa vaxtı və fürsəti olmayıb, buna görə də o çox heyfsilənib. "Quru olmadan əsl bilik əldə etməyin qeyri-mümkün olması fikrində, - deyə yazır, - böyük bir həqiqət var".

Dərk edilmiş xoşbəxtliyi daimi vəziyyətdə saxlaya bilən şəxs böyük yoq hesab oluna bilər. Bu vəziyyəti başqalanna da ötürə bilən şəxs isə əsl qurudur. Quru sözü sanskrit dilində iki hecadan ibarətdir. Birinci "zülmət", ikinci isə "işıq" mənasını daşıyır. Qaranlıqdan işığa doğru... Ustadan şagirdə keçən
vəziyyət bəzən "mantravirya" adlanır. Mənası "dərk olunan şüurun gücü" deməkdir. Qurunun yanına gələn insan adi məşğələlərdə olduğu kimi təkcə dərs öyrənməyə yox, həmçinin onun xoşbəxtlik dünyasını dərindən dərk etmək üçün gəlir.

Xoşbəxtliklə bu cür təmasda olmaq, hətta böyük insanlarla ötəri görüşlərdə də mümkündür. Bir dəfə Nyu Yorkda vyetnamlı rahib, şair və sülh elçisi olan Thiç Nhat Hanhın nitqinə qulaq asmışdım. Şəhərin adi, narahat həftə içi günlərindən biri idi və camaat auditoriyaya

downloaded from KitabYurdu.org

toplaşarkən havada kollektivin ümumi gərginliyi hakim idi. Və bu zaman rahib səhnəyə çıxdı. Danışmazdan əvvəl uzun müddət hərəkətsiz halda oturdu və tamaşaçılar, - bunu hiss edə bilirsən, - hər dəfə həssas Nyu Yorkluların bir cərgəsi onun təsiri altına düşdü. Tezliklə gərginlikdən əsər-əlamət qalmadı. Bu balaca vyetnamlı kişi təxminən on dəqiqə ərzində bizi öz səssizliyinə çəkib apardı. Bəlkə də bizi hər birimizin anadangəlmə malik olduğu, amma hələ kəşf etmədiyi və ya mənimsəmədiyi öz səssizliyimizə tərəf apardı demək daha dəqiq olar. Onun otaqda oturmaqla hamımızın daxilində eyni vəziyyəti yaratmaq qabiliyyəti ilahi
bir gücdür. Bir qurunun yanına getməyin səbəbi də elə budur: Ustadın gücü sayəsində daxilində gizlənmiş böyüklüyün, əzəmətin aşkar olacağına olan ümid.

Hind müdriklərinin klassik əsərlərinə görə, kainatda ruha ali və ən yüksək səadət verilməsini göstərən üç səbəb var:

1. Bir insan kimi şüurlu sorğu-sual edə bilmək bacanğı ilə doğulmaq.

2. Kainatın təbiətini dərk etmək arzusu ilə doğulmuş və ya inkişaf etmiş olmaq.

3. Hazırda yaşayan bir mənəvi təlimçi tapmaq.

Belə bir nəzəriyyə var ki, əgər quru tapmağı səmimi-

downloaded from KitabYurdu.org

qəlbdən arzulasan, buna mütləq nail olacaqsan. Kainat istiqamətini dəyişdirəcək, taleyin molekullan başqa cür toplanacaq və yolun tezliklə sənin üçün nəzərdə tutulan ustadın yoluyla kəsişəcək. Vanna otağımın döşəməsində ağlaya-ağlaya Tanrıdan cavab diləyərək keçirdiyim o ilk ümidsiz gecədən bircə ay sonra Devidin evinə gedib bu cazibədar hindli qadının şəklini gördüm və qurumu tapdım. Əlbəttə ki, quruya ehtiyacım olub-olmadığı barədə qərarsız idim. Bir qayda olaraq qərblilər
bu sözü o qədər də xoşlamırlar. Bununla bağlı yaxın keçmişdə xoşagəlməz bir xatirəmiz var. 1970-ci illərdə bir qrup varlı, həvəskar, həssas qərbli tədqiqatçı ilə, bir ovuc xarizmatik, amma şübhəli hindli arasında toqquşma baş verib. Həmin xaosun böyük bir qismi müasir dövrdə öz həllini tapıb, lakin əks-sədalan hələ də rezonans yaradır. Bu qədər vaxt keçməsinə baxmayaraq, mən də hərdən quru sözünü tərəddüdlə işlədirəm. Bu, Hindistandakı dostlanm üçün problem deyil. Onlar quru prinsipi ilə böyüyüblər və bu mövzuda rahatdırlar. Gənc bir hindli qızın mənə dediyi kimi, - “Hindistanda, demək olar ki, hərənin bir qurusu var!” Nəyi nəzərdə tutduğunu bilirəm (Hindistanda, demək olar ki, hərənin öz qurusu olduğunu). Mən isə daha çox onun qeyri-ixtiyari dediyi sözlərlə özüm arasında əlaqə qurdum, çünki bəzən mən

downloaded from KitabYurdu.org

də özümü qurusu olan bir şəxs kimi hiss edirəm. Bəzən də bunu qəbul edə bilmirəm, çünki bir yeni ingiltərəli kimi skeptisizm və praqmatizm mənim intellektual mirasımdır. Hər halda quru axtarışına şüurlu olaraq çıxmamışam. O, birdən-birə həyatıma daxil olub. Onu ilk dəfə görəndə elə bil ki, mərhəmətlə
parıldayan o tünd gözləri ilə şəkildən mənə baxdı və "Məni çağırdın, gəldim. Bunu etmək istəyirsən, ya yox?" - deyə soruşdu.

Bütün qıcıqlandıran zarafatlan və mədəni toqquşmalardan yaranan narahatlıqları kənara qoyaraq, o gecə aydın və səmimi cavab verdim: Bəli - və mən bu cavabı həmişə yadda saxlamalıyam.

39

Aşramdakı ilk otaq yoldaşlanmdan biri Cənubi Karolinadan ortayaşlı, dindar, afro-amerikalı bir baptist və meditasiya təlimçisi idi. Vaxt keçdikcə argentinalı bir rəqqasə, isveçli homeopat, meksikalı katibə, avstraliyalı, beş uşaq anası, kompüter proqramçısı olan banqladeşli gənc, Mendən olan pediatr və filippinli mühasib kimi digər otaq yoldaşlarım da olacaqdı. Onlar gəlib gedirdilər, rahibliyə hazırlaşanlar isə bir otaqdan digərinə köç eləyirdilər.

Bu aşram elə-belə gəlib ziyarət etmək üçün deyil. Hər

downloaded from KitabYurdu.org

şeydən əvvəl ona görə ki, bura gəlib çıxmaq o qədər də asan deyil. Mumbaydan uzaqda balaca, kasıb bir kəndin yanındakı vadidə, torpaq yolda yerləşir (Bir küçə, bir məbəd, bir neçə mağaza və sərbəst gəzən, hərdənbir hansısa dərzinin evinə girib yatan inəklərdən ibarət kənd). Bir dəfə axşam şəhərin ortasında ağacda məftildən çılpaq halda sallanan altmışvattlıq küçə lampası nəzərimə çarpdı. Bu, şəhərdəki yeganə lampa idi.

Aşram əhəmiyyətli dərəcədə yerli iqtisadiyyata təsir edir və şəhərin qüruru hesab olunur. Onun divarlarından kənarda toz və yoxsulluq hakimdir. Daxilində isə suvarılan bağlar, çiçək yataqları, gizli səhləblər, quşların zümzüməsi, manqo, çörək ağaclan, anakardiyalar, palmalar, maqnoliyalar, banyanlar var. Binalar ekstravaqant olmasa da, gözəldirlər. Kafeteriya stilində yemək otağı var. Müxtəlif dinlərin ənənələrindən bəhs edən yazıların yerləşdiyi geniş kitabxana və müxtəlif növ görüşlər üçün bir neçə məbəd var. Təkcə meditasiya məqsədilə istifadə edilən, bütün gün açıq olan iki meditasiya "mağarası" - rahat yastıqlann olduğu qaranlıq və səssiz zirzəmilər var. Xaricdə səhər yoqa təlimlərinin keçirildiyi üstü örtülü bir pavilyon və ətrafında tələbələrin asta-asta qaça bildikləri oval formada yolu olan park var. Mən yataqxanada qalıram, bu beton binadır.

downloaded from KitabYurdu.org

Mən aşrama gələndən burada eyni vaxtda bir neçə yüz adam qalırdı. Əgər quru bura gəlsəydi, sakinlərin sayı hiss olunacaq dərəcədə artardı. Amma mən orada olanda o Hindistanda deyildi. Əslində, buna təəccüblənmədim, çünki son dövrlərdə vaxtının çox hissəsini Amerikada keçirirdi. Lakin
onun harada qarşına çıxacağını bilmək olmaz, bəlkə elə sürpriz edib gələcəkdi? Məşqlərinə onunla davam etmək üçün mütləq real olaraq yanında olması vacib deyil. Əlbəttə ki, həyatda olan bir yoqa ustadının yanında olmağın təsiri heç nə ilə müqayisə edilə bilməz və mən bunu yoxlamışam. Ancaq bir çox tərəfdar bunun bəzən diqqəti yayındırdığını düşünürlər. Əgər diqqətli olmasanız, qurunun ətrafındakı həyəcan dalğasına qapılıb əsl niyyətinizdən uzaqlaşa bilərsiniz. Halbuki onun aşramlarından birinə gedib təlimin cədvəlinə intizamla əməl etsəniz görəcəksiniz ki, həyəcanlı tələbə izdihamının arasından çətinliklə irəliləyib üz-üzə danışmağa çalışmaqdansa, bəzən bu xüsusi meditasiyalar vaxtı ünsiyyət qurmaq daha asandır.

Aşramda uzunmüddətli, maaşla işləyən işçilər də var, amma işlərin böyük qismini elə tələbələrin özləri görürlər. Kəndlilərin də bəziləri əməkhaqqı ilə işləyirlər. Yerdə qalan sakinlər qurunun tərəfdarlarıdırlar və burada

downloaded from KitabYurdu.org

tələbə kimi işləyirlər. Aşramda gördüyüm hindli bir yeniyetmə oğlan diqqətimi cəlb etdi. Onun (sözə görə üzr istəyirəm, amma...) aurasında məni özünə çəkən nə isə var idi. İlk olaraq, ifrat
həddə anq idi (Əslinə qalsa, burada bu qeyri-adi hal sayılmır. Əgər dünyada bu hindli oğlandan daha arıq bir canlı varsa, onu görməkdən qorxuram). Oxuduğum məktəbdə bütün gün başını kompüterdən qaldırmayan oğlanlar hansısa qrupun konsertinə gedəndə necə geyinirdilərsə, elə geyinir. Tünd şalvarlı və əyninə böyük olan, ütülənmiş, tək düyməli, ağ köynəkli cavan oğlan. Nazik boynu köynəyin yaxasından böyük bir gül dibçəkdən uzanan kimi boylanırdı. Həmişə saçını su ilə isladıb səliqə ilə darayırdı. Təqribən qırx santimetr ölçüsündə görünən belinə bir qoca kişi kəmərini iki dəfə dolayırdı. Hər gün eyni paltarları geyinirdi. Bu onun yeganə geyimi idi. Yəqin ki, hər gecə o köynəyi əli ilə yuyub qurudur, səhər də ütüləyirdi (Geyimə xüsusi diqqət göstərmək burada adi haldır. Təmiz yuyulmuş paltarlı bu hindli gənclər məni qırışmış paltarlarımdan utandırdılar və daha səliqəli, sadə geyinməyə sövq etdilər). Elə isə bu uşaqda nə var idi? Onun Kəhkəşanda keçirdiyi tətildən yenicə qayıtmış kimi görünməyinə səbəb olan o parlaq, işıqlı simasını görəndə nəyə görə bu qədər

downloaded from KitabYurdu.org

həyəcanlanırdım?
Nəhayət, bir gün başqa bir hindli yeniyetmədən onun kim olduğunu soruşdum. Gənc qız məni səbirlə dinlədi və cavab verdi: “O, yerli mağaza sahiblərindən birinin oğludur. Ailəsi çox kasıbdır. Quru onu burada qalmağa dəvət edib. O təbil çalanda tanrının səsini eşidə bilərsiniz”.

Aşramda 1920-ci illərdə təlimə başlayan, Hindistanda müqəddəs şəxs hesab edilən Siddha Yogi (“kamilliyə çatmış ustad”) heykəlinə təzim etmək üçün insanların gün ərzində gəldiyi ictimaiyyətə açıq olan bircə məbəd var. Aşramm geridə qalan hissəsi isə tələbələr üçündür. Ora bir otel və ya turistlərin qalmağı üçün deyil. Daha çox universitetə bənzəyir. Bura gəlmək üçün əvvəlcədən müraciət etməli, buranın sakini ola bilmək üçün uzun müddətdir ki, yoqa ilə ciddi formada məşğul olduğunu göstərməlisən. Qalmaq üçün ən qısa müddət bir aydır (Mən burada altı həftə qalmağa, sonra isə digər məbədləri, aşramları və müqəddəs yerləri gəzərək Hindistanı kəşf etməyə qərar verdim).

Tələbələr hindli və qərblilər olmaqla iki bərabər qrupa bölünüblər (Qərblilər də öz aralannda amerikalı və avropalılar olaraq qruplara bölünüblər). Dərslər həm hind, həm də ingilis

downloaded from KitabYurdu.org

dillərində keçilir. Müraciət edəndə fiziki və əqli sağlamlıq, keçmişdə alkoqol və ya narkotik aludəçisi olub-olmadığın və maddi vəziyyətin barədə sualları cavablamalı, tövsiyə məktubu təqdim etməli və esse yazmalısan. Quru insanların həyatlarındakı qarışıqlıqdan xilas olmaq üçün aşrama sığınmaqlarını istəmir. Bunun heç kimə faydası olmaz. Həmçinin onun qaydalarına əsasən, əgər ailən və ya sevdiyin insanlar bir qurunun ardınca düşüb aşramda yaşamağına etiraz edirsə, deməli, bunu etməməlisən, çünki buna dəymir. Normal həyatına davam et və yaxşı insan ol. Vəziyyəti mürəkkəbləşdirməyə, dramatik hala salmağa ehtiyac yoxdur.

Bu qadının təcrübi həssaslığı məni həmişə valeh edir.

Ona görə də bura gəlmək üçün həssas və işgüzar bir şəxs olduğunu da isbat etməlisən. İşləyə biləcəyini göstərməlisən, çünki "seva" və ya "təmənnasız xidməfi'lə gündə təxminən beş saata yaxın ümumi işlərə töhfə vermək lazımdır. Bununla yanaşı, son altı ay ərzində ciddi, emosional travmaya məruz qalmısansa, (boşanma, ailədə itki və s.) aşram rəhbərliyi səyahəti təxirə salmağını xahiş edir. Çünki bu halda təlimlərdə
fikrini cəmləyə bilməmək ehtimalı böyükdür və əgər əsəblərin pozulubsa ətrafdakılarm da diqqətini yayındıra

downloaded from KitabYurdu.org

bilərsən. Mən boşanmadan sonrakı böhrandan yenicə yaxa qurtarmışam. O vaxtlar gəlsəydim ailəm dağılandan sonra çəkdiyim əziyyətləri yada salaraq, aşramdakı hər kəsə mənfi təsir edəcəyimə şübhə etmirəm. Əvvəlcə İtaliyada istirahət edib gücümü və sağlamlığımı bərpa edəndən sonra gəlməyim daha yaxşı oldu. Həmin güc burada mənə lazım olacaq.

Aşramda yaşamaq üçün güclü olmaq mütləqdir, çünki aşramm rejimi olduqca ciddidir. Gecə saat 03:oo-da başlayan və axşam 2i:oo-da sona çatan günlərdə təkcə fiziki deyil, psixoloji cəhətdən də dözümlülük vacibdir. Öz zehninin məhsulu olan balaca, diqqət yayındıran və ya rahatlıq gətirən şeylərlə hər gün səssiz meditasiya və fikirləşmə halında saatlarla vaxt keçirəcəksən. Hindistanın kəndlərində tanımadığın insanlarla yaşayacaqsan. Həşəratlar, ilanlar və gəmiricilər var. Hava şəraiti çətindir - bəzən dayanmadan həftələrlə şiddətli yağış yağır, bəzən səhər yeməyindən əvvəl
kölgədə 40 dərəcəyə yaxın isti olur. Burada şərait qısa vaxt ərzində dəyişə bilər.

Qurum həmişə deyir ki, aşrama gələndə baş verəcək yeganə hadisə kim olduğumuzu kəşf etmək olacaq. Ona görə də əgər dəliliyin bircə addımlığmdasansa, bura gəlməyə dəyməz. Düzünü desəm, heç kim dişlərinin

downloaded from KitabYurdu.org

arasına taxta qaşıq sıxılmış vəziyyətdə səni bayıra çıxartmaq istəmir.

40

Gəlişimin yeni il bayramı ilə üst-üstə düşməsi xoş bir təsadüf oldu. Aşrama uyğunlaşmaq üçün cəmi bir günüm var. Ondan sonra isə yeni ildir. Nahardan sonra balaca həyət insanlarla dolur. Hamı yerdə oturur, bəziləri soyuq mərmər döşəmədə və bəziləri quru otların əmələ gətirdiyi döşənəcəyin üzərində. Hindli qadınlar sanki toya gedirmiş kimi geyiniblər. Qara, parlaq saçlan hörükləri bellərindən sallanıb. Ən yaxşı ipək sarilərini geyinib qızıl bilərziklər taxıblar və hər bir qadının alnında göydəki ulduzlar kimi parıltılı "bindi" var. Gecəyarısına, yeni il köhnə ili əvəz edənə kimi mantralar oxumaq istəyirik.

Mənim "mantra oxumaq" ifadəsindən xoşum gəlmir, hərçənd ilahi mantralar oxumağı xoşlayıram. Fikrimcə, bu söz druidlərin qurban mərasimində çıxardığı vızıltını və qorxunc monotonluğu ifadə edir. Lakin biz burada, aşramda ilahi mantralar oxuyanda bu səs mələklərin zümzüməsini xatırladır.

Ümumiyyətlə, bu mərasim çağırış və cavab tərzində aparılır. Səsləri gözəl olan bir neçə cavan qadın və kişi ahəngdar avazla başlayır və yerdə qalanlar da təkrarlayırlar. Bu proses də meditasiyanı xatırladır -

downloaded from KitabYurdu.org

diqqətini musiqinin gedişatına kökləməli və axırda bir ağızdan deyə bilmək üçün səsini qonşunun səsinə uyğunlaşdırmalısan. Çox yorğunam, ona görə də gecəyarıya qədər oyaq qalıb, bu qədər uzun müddət mahnı oxumağa enerji tapa bilməməkdən qorxuram. Gecəmiz kölgələr içərisində bir skripkanın uzun, həsrətlə dolu musiqi ifa etməsi ilə başlayır. Ardınca dodaq qarmonu, təbillər gurultusu və nəhayət səslər başlayır...

Mən həyətin girişində, digər gənc analann yanında oturmuşam. Hind qadınları bardaş quraraq oturublar və bu onlarda zərrə qədər də narahatlıq yaratmır, uşaqları şala bürünmüş halda dizlərinin üzərində yatıblar. Bu axşamkı nəğmə rəhm və sədaqət gətirməli olan "raqa" ilə (melodiya) yazılıb və lay-lay, giley, minnətdarlıq çatdırma üsuludur. Həmişə olduğu kimi, yenə də sanskrit dilində (Hindistanda dualarda işlədilən və təlimçilər xaricində heç kimin istifadə
etmədiyi bir dil) oxuyuruq. Onların səslərindəki dəyişiklikləri işıq sürətilə tutub, aparıcı müğənnilərin səsləri üçün vokal güzgüsü olmağa çalışıram. Müqəddəs sözləri mənə ötürürlər, mən də onları bir müddət daşıyıb geri qaytarıram və beləcə yorulmadan saatlarla oxuyuruq. Hamımız gecənin axınına qoşulub qaranlıq dənizdəki yosunlar kimi yellənirik. Ətrafımdakı ipək geyimli

downloaded from KitabYurdu.org

uşaqlar balaca hədiyyə bağlamalarına oxşayırlar.
Çox yorğunam, amma bütün gücümlə davam edirəm.
Mənə elə gəlir ki, yuxumda tanrının adını çağıra, ya da kainatın dərinliklərinə sürüşə bilərəm. Saat 23:30-da orkestr tempi artırır və bununla da fərəh, sevinc çoxalır. Gözəl geyimli qadınlar cingildəyən bilərzikləri ilə əl çalır, rəqs edir və bütün bədənləri ilə tamburini müşayiət edirlər. Təbil səsi daha ritmik və həyəcanlı olmağa başlayır. Dəqiqələr ötdükcə, 2004-cü ili hamımızın birlikdə özümüzə tərəf çəkdiyimizi düşünməyə başlayıram. Musiqimizlə onu əldə edirik. Sonra da gecə göyün şahidliyi ilə bizi gözləyən, naməlum talelərimizi daşıyan bu toru çəkib çıxarırıq. Necə də ağır tordur. Doğumları, ölümləri,
faciələri, müharibələri, sevgi hekayələrini, kəşfləri, çevrilişləri və bu il bizi gözləyən bütün fəlakətləri özü ilə gətirir. Əl-ələ, ardıcıl gələn səslərlə getdikcə daha yaxın mahnı oxumağa və toru çəkməyə davam edirik. Saniyələr gecənin içinə axır və nəhayət, sonuncu cəhdlə yeni il torunu bütün səmaya və öz üstümüzə tərəf çəkməyə müvəffəq oluruq. Bu ilin nələr gətirəcəyini ancaq Tanrı bilir, amma o artıq buradadır və hamımız onun tabeliyindəyik.

Bu, əsla tanımadığım insanlarla bir yerdə qarşıladığım

downloaded from KitabYurdu.org

ilk yeni ildir. Ətrafımda hamı oxuyur və rəqs edir, lakin gecəyarısına kimi mənim, hətta qucaqlayacağım bir kimsə də yoxdur. Lakin bu gecənin hansısa bir saniyəsini belə tək qaldığımı deyə bilmərəm.

Bunu qətiyyən deyə bilmərəm.

41

Burada hərəyə bir iş verilir və mənim öhdəmə düşən vəzifə də məbədin döşəmələrini təmizləməkdir. Ona görə də mən gün ərzində bir neçə saat bununla məşğul oluram. Əlimdə şotka və vedrə ilə soyuq mərmərə dizlərimi qoyub, nağıllardakı şahzadə qız kimi işləyirəm (Yeri gəlmişkən, metaforadan xəbərdaram. Məbədi təmizləməklə ürəyimi təmizləyirəm, ruhumu yuyuram. Bu, mənəvi kamillik üçün yerinə yetirilməli olan gündəlik, adi işlərdən biridir və sairə və ilaxır).

Döşəməni, adətən bir qrup hindli gənc təmizləyir. Bu işi həmişə gənclərə həvalə edirlər, çünki çox eneıji, az məsuliyyət tələb edir. Əgər işi korlasan, heç kim xəsarət almayacaq. İş yoldaşlarımı sevirəm. Qızlar Amerikadakı on səkkiz yaşlı qızlardan daha cavan görünən balaca kəpənəklərə, oğlanlar isə on səkkiz yaşlı amerikalı oğlanlardan daha yaşlı görünən ciddi hökmdarlara bənzəyirlər. Məbədin içərisində heç kim danışmamalıdır. Lakin hamı cavan olduğuna görə iş müddəti

downloaded from KitabYurdu.org

ərzində daim pıçıldaşanlar olur. Söhbət heç də boş qeybətdən getmir. Cavanlardan biri bütün gününü yanımda keçirir və mənə işimi necə daha yaxşı edə biləcəyim barədə dərs verərək, döşəməni təmizləməyi öyrədir. "Ciddi yanaş. Dəqiq ol. Sakit və rahat... Yaddan çıxarma, gördüyün hər iş Tann yolundadır. Tanrı da sənin üçün çalışır".

Bu iş fiziki cəhətdən çox yorucudur, amma gündəlik iş saatlarım meditasiya vaxtı ilə müqayisədə daha asan keçir. Düzünü desəm, meditasiyada yaxşı olduğumu düşünmürəm. Təcrübəmin az olduğunu bilirəm, amma əslinə qalsa, heç vaxt məndə yaxşı alınmayıb. Zehnimi sabit saxlaya bilmirəm. Bir dəfə bu barədə hindli bir rahibə danışdım və o dedi: "Dünya tarixində bu problemlə ilk üzləşən şəxs olduğuna görə təəssüflənirəm". Sonra rahib ən qədim yoqa mətni olan Bhaqavat-gitadan sitat gətirdi: "Ah, Krişna, fikrim narahatdır, güclü və inadkardır. Onu tabe etmək küləyi əsir almaq qədər çətindir".

Meditasiya yoqanın həm lövbəri, həm də yelkənidir. Meditasiya bir yoldur. Hər ikisinin də məqsədi ilahi varlıqla

ünsiyyət qurmaq olsa da, meditasiya və dua arasında müəyyən fərqlər var. Meditasiyanm Tanrını dinləmək,

downloaded from KitabYurdu.org

duanın isə Onunla danışmaq olduğunu eşitmişəm. Hansının mənə daha asan gəldiyini təxmin edin. Bütün gün boyu hisslərim və çətinliklərim barədə Tanrıyla boşboğazlıq edə bilərəm, amma səssizliyə bürünüb qulaq asmaq vaxtı gələndə ... Bu, tamam fərqli hekayədir. Zehnimdən fəaliyyətsiz halda istirahət etməyini tələb edəndə, onun nə qədər tez (ı) bezdiyini, (2) hirsləndiyini, (3) darıxdığını, (4) narahat olduğunu və (5) hamısını eyni anda etdiyini görmək məni təəccübləndirir.

Əksər humanoidlər kimi mən də buddistlərin "meymun zehni" adlandırdığı məsələdən əziyyət çəkirəm. Yalnız qaşınan, tüpürən, qışqıran, budaqdan budağa tullanan fikirlər. Uzaq keçmişdən naməlum gələcəyə doğru beynim hər dəqiqə onlarla fikrə toxunaraq zaman dilimləri arasında çılğın, qaydasız və intizamsız halda yellənir. Bu vəziyyət özlüyündə o qədər də ciddi problem deyil. Çətinlik törədən, fikirlərlə birgə addımlayan emosional əlavələrdədir. Xoşbəxt fikirlər məni sevindirir, amma bu əhval-ruhiyyə çox çəkmir, yenidən həmin narahatlığa qayıdıram. Sonra məni əsəbiləşdirən bir anı xatırlayıram, təzədən hirslənirəm, zehnim onun üçün kədərlənməyin vaxtı olduğuna qərar verir və tənhalıq onu təqib edir. İnsan - öz düşündükləridir. Emosiyalarımız fikirlərimizin köləsidir, öz növbəsində biz də

downloaded from KitabYurdu.org

emosiyalarımızın köləsiyik.

Fikir budaqlarında yırğalanan digər bir problem isə insanın əslində heç vaxt lazım olan yerdə dayanmamasıdır. Davamlı olaraq keçmişi yada salır və gələcəyi qurdalayırsan. Nadir hallarda indiki zamanda ola bilirsən. Bu, nə vaxt gözəl bir yer görsə həyəcanla qışqıraraq, - "Bura çox gözəldir! Nə vaxtsa yenidən bura gəlmək istəyirəm!" - deyən rəfiqəm Suzanın vərdişinə oxşayır. Hər dəfə bütün gücümü toplayıb onu hazırda həmin yerdə olduğuna inandırmağa çalışıram. Əgər ilahi varlıqla birlikdə olmaq axtarışındasansa, bu cür irəli-geri fırlanmaq problem ola bilər. Tanrıya "varlıq" deyilməyinin də səbəbi var - Tanrı indiki zamanda, buradadır. Onu tapmaq üçün yeganə yer hazırkı andır.

Lakin indiki zamanda qala bilmək üçün fikrini bir nöqtəyə cəmləmək tələb olunur. Fərqli meditasiya texnikalan fikri bir
istiqamətə tuşlamaq məsələsini müxtəlif cür izah edirlər. Məsələn: Gözlərini bir işıq nöqtəsinə yönəltmək və ya nəfəs alıb- verməyinə nəzarət edərək məşq etmək və s. Qurum meditasiyanı fokuslanmış halda təkrar edilməli olan mantra, müqəddəs sözlər və hecalarla öyrədir. Mantranın iki funksiyası var. İlk olaraq, zehni məşğul edir. Sanki bir meymuna 10.000 düymədən ibarət bir

downloaded from KitabYurdu.org

qalaq verib, - “Bu düymələrin hər dəfə birini götürmək şərti ilə başqa bir topa yaratmalısan”, - deyirsən. Meymun üçün bu vəzifə bir küncdə səssiz dayanmaqdan dəfələrlə asandır. Duanın digər məqsədi isə bir qayıq kimi səni zehnin dəyişən dalğalan vasitəsilə başqa bir vəziyyətə gətirməkdir. Diqqətin əks istiqamətə tərəf getməyə çalışanda, sadəcə, mantraya qayıt, qayığa min və yola davam et. Böyük sanskrit mantralannm bütün yolboyu avar çəkərək sizi ilahi sahillərə gətirib çıxara biləcək gücə və qüdrətə malik olduğu deyilir.

Meditasiya ilə bağlı problemlərindən biri də mənə verilən mantranı - Om Namah Şivaya - tam özümünküləşdirə bilməməyimdir. Deyiliş tərzini, mənasını sevirəm, amma bu
sözlər meditasiyaya daxil olmağıma bəs etmir. Yoqa ilə məşğul olduğum iki il ərzində heç vaxt kifayət etməyib. Om Naham Şivaya sözlərini beynimdə təkrarlamağa çalışanda döş qəfəsim sıxılır və sözlər boğazımda düyünlənib qalır. Heç vaxt hecalarla nəfəsimi düzgün tənzimləyə bilmirəm.

Nəhayət, bir gecə otaq yoldaşım Korelladan bunun səbəbini soruşdum. Fikrimi mantraya cəmləməkdə nə qədər çətinlik çəkdiyimi ona etiraf etməyə utanırdım, amma o, bir meditasiya təlimçisidir. Bəlkə mənə yol

downloaded from KitabYurdu.org

göstərə bilərdi. Onda da bir vaxtlar belə problemlər olduğunu, amma artıq meditasiyanm həyatının ən mükəmməl, asan və dəyişən xoşbəxtliyi olduğunu deyir.

“Kənardan, sadəcə, oturub gözlərimi bağladığım görünür,
- deyir, - və etməli olduğum yeganə şey mantranı düşünməkdir. O andan etibarən artıq cənnətdəyəm”.

Bunu eşidəndən sonra ona o qədər həsəd aparıram ki, ürəyim bulanır. Əslinə qalsa, Korella mən hələ stolun altında ayaqyalın qaçandan yoqa ilə məşğuldur. Ondan “Om Namah Şivaya” sözlərindən meditasiya vaxtı necə istifadə edilməli
olduğunu mənə göstərməsini xahiş etdim. Hər heca üçün bir dəfə nəfəs alım? (Belə edəndə meditasiya mənə sonsuz və zəhlətökən gəlir). Və ya hər nəfəsdə bir söz deyim? (Axı sözlərin heca sayı eyni deyil! Elə isə onları necə bərabərləşdirmək olar?) Bəlkə bütün mantranı nəfəs alanda deyim və nəfəsimi verəndən sonra təkrarlayım? (Mən belə etməyə çalışanda hər şey sürətlənir və gərgin oluram).

“Bilmirəm”, - Korella cavab verir. “Mən, sadəcə, deyirəm, vəssəlam”.

“Ancaq sən onu mahnı kimi oxuyursan? - çarəsiz halda təkid edirəm. - Oxuyanda ritm əlavə edirsən?”

downloaded from KitabYurdu.org

“Mən, sadəcə, mantranı təkrar edirəm”.

“Meditasiya edəndə ürəyində təkrarladıqlarını mənim üçün ucadan deyə bilərsən?”

Otaq yoldaşım razılaşır və gözlərini yumaraq mantranı zehnindəki kimi ucadan oxumağa başlayır. Və doğrudan da... sadəcə, oxuyur! Sakit, normal halda, azca gülümsəyərək oxuyur. Mən onu narahat edənə qədər bir neçə dəfə təkrar edir.

“Doğrudanmı səni təngə gətirmir?” - deyə soruşuram.

“Ah, - Korella gülümsəyərək gözlərini açır və saatına baxır, cəmi on saniyə keçdi, Liz. Sənsə artıq təngə gəldin?”

42

Növbəti gün səhərə yaxın c>4:oo-da günə başlamadan əvvəl edilən meditasiyaya düz vaxtında gedirəm. Bir saat ərzində səssiz-səmirsiz oturmalıyıq, amma hər bir dəqiqə mənim gözümdə kilometrə bərabərdir. İrəliləməli olduğum altmış qəddar kilometr! On dördüncü kilometrdə əsəbiləşməyə başlayıram, dizlərim boşalır və hirsimə üstün gəlirəm. Meditasiya vaxtı zehnimlə aramızda belə bir dialoq olduğunu nəzərə alsaq məni başa düşmək olar:

Mən: Yaxşı, indi meditasiya ilə məşğul olacağıq. Gəl, diqqətimizi nəfəsimizə yönəldək və fikrimizi mantraya cəmləyək. Om Namah Şivaya. Om Namah Şivaya.

downloaded from KitabYurdu.org

Beynim: Mən sənə kömək edəcəyəm!
Mən: Lap yaxşı, onsuz da köməyinə ehtiyacım var. Gəl, başlayaq. Om Namah Şivaya. Om Namah Şivaya.
Beynim: Meditasiya ilə bağlı müxtəlif təsvirləri düşünməyinə kömək edə bilərəm. Məsələn - yaxşı bir fikrim var - özünün bir məbəd olduğunu xəyal et. Bir adada yerləşən məbəd! Ada dənizin içindədir!
Mən: Ah, bu doğurdan da gözəl təsvirdir.
Beynim: Təşəkkür edirəm. Bunu özüm fikirləşdim.
Mən: Bəs burada xəyal etdiyimiz dəniz hansıdır?
Beynim: Aralıq dənizi. Qədim bir məbədin yerləşdiyi yunan adalanndan biri olduğunu təsəvvür et. Yox, yaddan çıxart. Bu, turistləri xatırladır. Dənizi yaddan çıxart. Dənizlər çox təhlükəlidir. Daha yaxşı fikrim var: özünü gölün ortasında yerləşən bir ada kimi təsəvvür et.
Mən: İcazənlə, artıq meditasiyaya başlaya bilərik? Om Namah Şiv...
Beynim: Əlbəttə! Mütləq! Amma həmin gölün o şeylərlə dolu olduğunu təsəvvür etməməyə çalış. Onlara nə deyilirdi?
Mən: İdman qayıqları?
Beynim: Düzdür, idman qayıqları! Bu murdarlar ətrafda fırlanaraq çox yanacaq israf edirlər. Təbiət üçün təhlükəlidirlər. Başqa nəyin bu qədər çox yanacaq istifadə

downloaded from KitabYurdu.org

etdiyini bilirsən? Yarpaq üfürən alətlər. Amma heç ağlına da gəlməzdi, elə deyilmi?
Mən: Yaxşı, artıq meditasiyaya başlayaq, xahiş edirəm... Om Namah...
Beynim: Haqlısan! Meditasiya ilə məşğul olmağına doğrudan da kömək etmək istəyirəm! Elə buna görə də göl və ya dənizin
ortasındakı ada təsvirini yaddan çıxardaq. Bu, açıq-aydın kömək etmir. Gəl bir çayın ortasında ada olduğunu xəyal edək!
Mən: Hudzon çayındakı Bannerman adası kimi?
Beynim: Bəli! Doğrudur! Əla! Gəl elə bu təsvir üzərində meditasiya edək. Bir çayın ortasındakı ada olduğunu təsəvvür et. Sən meditasiya edərkən hərəkət edən bu fikirlər, sadəcə, çayın təbii axınlarıdır və sən bir ada olduğuna görə onlan görməzliyə vura bilərsən.
Mən: Bir dəqiqə dayan! Mən elə bilirdim məbəd olacağam.
Beynim: Doğrudur, bağışla. Sən adada yerləşən məbədsən. Əslində, həm məbəd, həm də adasan.
Mən: Həm də çayam?
Beynim: Xeyr, çay, sadəcə, fikirlərdir.
Mən: Dayan! Xahiş edirəm, dayan! Məni özümdən çıxardırsan!!!

downloaded from KitabYurdu.org

Beynim (incimiş halda): Bağışla, sadəcə, kömək etməyə çalışırdım.
Mən: Om Namah Şivaya... Om Namah Şivaya... Om Namah Şivaya...

Fikirlər içində keçən səkkiz saniyəlik bir fasilə. Sonra isə - Beynim: Mənə hirslənmisən?
Sanki nəfəs almaq üçün suyun üzünə çıxmış kimi havanı dərindən ciyərlərimə çəkirəm və beynimin qalib gəldiyini dərk edirəm. Gözlərim qəfildən açılır. Gözlərimdən yaş axır. Aşramda meditasiyanı dərinləşdirə bilərsən, amma bu, fəlakətdir. Bu təzyiq mənim üçün həddindən artıq çoxdur.
Bacarmıram. Nə etməliyəm? Hər gün on dörd dəqiqə tamam olan kimi ağlayaraq məbədi tərk etməliyəm?

Bu səhər isə onunla mübarizə aparmaq yerinə dayandım. Təslim oldum. Arxamdakı divara söykəndim. Belim ağrıyırdı, gücüm tükənmişdi və zehnim titrəyirdi. Dağılan körpü kimi hiss edirdim özümü. Mantranı başımın üstündən götürüb (görünməz bir zindan kimi üstümə çökdüyü yerdən) döşəməyə, yanıma qoydum. Və sonra tanrıya dedim ki, - “Bağışla. Bu gün sənə ancaq bu qədər yaxınlaşa bildim”.

Lakota hindulan deyirlər ki, yerində sakit otura bilməyən uşaq natamamdır. Qədim sanskrit mətnlərindən

downloaded from KitabYurdu.org

birində isə deyilir ki, - “Meditasiyanm düzgün yerinə yetirilib- yetirilmədiyini müəyyən əlamətlərə baxıb deyə bilərsən. Bu əlamətlərə misal olaraq, bir quşun səni cansız əşya hesab edib başına qonmağını göstərmək olar”. Məndə hələ ki, belə bir şey baş verməyib. Amma növbəti qırx dəqiqə ərzində ətrafımda bir növ cənnətə getdikləri vaxt hələ də sabit halda oturan, gözlərini yuman və sadə üzlərindən dinclik yağan insanlara baxaraq, o meditasiya zalında öz rüsvayçılığım və bacanqsızlığıma boyun əydim və mümkün qədər səssiz olmağa çalışdım. Güclü bir kədər hiss edirdim və göz yaşlanna qərq olub rahatlamaq istəyirdim. Amma qurunun bir vaxtlar dediyi bir fikri xatırlayıb fikrimdən daşındım: “Heç vaxt müvazinətini itirmə, çünki belə olduğu təqdirdə bu vəziyyət tendensiya halına gəlib müntəzəm olaraq baş verəcək. Ona görə də güclü ol”.

Amma özümü güclü hiss etmirdim. Bədənim lazımsızlıq duyğusunun təsiri ilə sızıldayırdı. Beynimlə danışanda kimin “mən”, kimin isə “beynim” olduğunu ayırd edə bilmirdim. Beynim olan o yorulmaq bilməyən, qəddar, ruhumu yeyən mexanizmi necə idarə edəcəyimi aydınlaşdırmağa çalışdım. Sonra “Çənələr” filmindəki bir sətri xatırlayıb ixtiyarsız halda gülümsədim: “Bizə daha böyük bir qayıq lazım olacaq”.

downloaded from KitabYurdu.org

43

Şam vaxtıdır. Tək oturub yavaş-yavaş yeməyə çalışıram. Qurum həmişə yemək barədə intizamlı davranmaq lazım olduğunu təlqin edir. O, həzm sistemimizə birdən-birə həddindən artıq yemək boşaldıb bədənimizin müqəddəs alovunu söndürməməyimiz üçün bizi müəyyən qaydaya uyğun olaraq yeməyə sövq edir (Qurumun Neapolda heç vaxt olmadığına əminəm). Tələbələr onun yanma gəlib meditasiya etməkdə çətinlik çəkdiklərini deyəndə, həmişə onlardan son vaxtlarda həzm sistemlərinin necə işlədiyini soruşur. Çünki bağırsaqlann kolbasa, yarım kilo toyuq qanadı və kokos kremi çəkilmiş piroqla mübarizə aparanda, trans halına keçmək elə də asan olmayacaq. Ona görə də bu cür yeməklər verilmir. Aşramda yüngül və sağlam vegeterian qidaları təklif edilir. Buna baxmayaraq, dadlıdırlar. Acından ölmək üzrə olan bir yetim kimi qabağıma çıxan hər yeməyi mədəmə göndərməkdən özümü güclə saxlayıram. Bununla yanaşı, yeməklər İsveç

masası üsulu ilə verilir. Hər tərəfə yeməyin möhtəşəm ətri yayılır, üstəlik bütün bunlar havayı verilirsə, qayıdıb ikinci, üçüncü dəfə yeməmək mənə heç də asan başa gəlmirdi.

Ona görə də yemək masasında tək oturdum.

downloaded from KitabYurdu.org

Əyləşməyə yer axtaran bir şəxs əlində yemək sinisi ilə mənə tərəf yaxınlaşanda, çəngəlimin işini məhdudlaşdırmağa çalışdım. Başımla işarə edərək onu stola dəvət eləyirəm. Bu kişini ilk dəfə görürdüm. Yəqin ki, təzə gələnlərdəndir. Onun sərbəst və tələsmədiyini nümayiş etdirən özünəməxsus gəzmək tərzi var və eynilə şerif və ya təcrübəli bir poker ustası ədası ilə hərəkət edir. Təxminən əlli yaş vermək olar, amma elə bil planetdə bir neçə əsrdir ki, yaşayır. Saç-saqqalı ağanb və flaneldən köynək geyinib. Enli çiyinləri və hər an xələl yetirməyə hazır kimi görünən iri əlləri, amma olduqca rahat bir siması var.

Mənimlə üzbəüz oturur və sözləri uzada-uzada deyir: “Dostum, buradakı ağcaqanadlar cücəni zorlamağa bəs edəcək qədər nəhəngdirlər”.

Xanımlar və cənablar, qarşılayın! Texaslı Riçard gəlib çıxdı!

44

Texaslı Riçard həyatı boyu bir çox müxtəlif peşələrlə məşğul olub. Neft mədəni işçisi, yedəkçi sürücüsü, hər iki Dakotadakı “Birkenstocks”-un ilk səlahiyyətli dileri, Orta Qərbə aid zibilxanada “kisəçi” (Təəssüf ki, “kisəçi”nin nə demək olduğunu izah etməyə vaxtım yoxdur), avtomagistralda fəhlə, köhnə maşın satıcısı, Vyetnamda

downloaded from KitabYurdu.org

əsgər, “mal dəllalı” (Bu mallara daha çox Meksikadan gələn narkotik aiddir), narkotik və içki aludəçisi (əgər bunları peşə hesab edirsinizsə), sonra isə islah olunmuş narkotik və içki aludəçisi (Bu daha nüfuzlu sənətdir), hippi kommunasmda fermer, radioda diktor və nəhayət, yüksək keyfiyyətli tibbi avadanlıq satıcısı (arvadını boşayıb hər şeyini ona verərək yenidən müflis hala düşənə qədər) kimi peşələr bura aiddir. Hazırda Ostində köhnə evləri təmir etməklə məşğuldur.

“Heç vaxt əməlli-başlı bir karyeram olmayıb, - deyir. - Ora-bura qaçmaqdan başqa bir şey edə bilməmişəm”.

Texaslı Riçard hər şeyə görə narahat olan adam deyil. Xeyr, onu əsəbi adlandıra bilmərəm. Amma mən bir az əsəbiyəm. Elə buna görə də ona heyranam. Riçardm aşramda olmağı mənə maraqlı və hədsiz bir təhlükəsizlik hissi gətirir. Onun həddi-hüdudu olmayan özünə inamı anadangəlmə mənə yoldaş olan gərginliyimi azaldır və hər şeyin yaxşı olacağını yadıma salır (yaxşı olmasa da, heç olmasa gülməli və əyləncəli olacağını). Cizgi film qəhrəmanı olan xoruz Foqorn Leqornu xatırlayırsınız? Riçard da bir qədər ona bənzəyir. Mən də onun balaca, çoxdanışan köməkçisi Çikenhouk rolundayam. Riçardm sözləri ilə desək, - “Mən və Dağsiçanı günün istənilən vaxtı gülməyə hazırıq”.

downloaded from KitabYurdu.org

Dağsiçanı - bu, Riçardm mənə qoyduğu ləqəbdir. Tanış olduğumuz həmin axşam nə qədər çox yediyimi görəndə bu ləqəbi mənə bəxş etdi. Özümü müdafiə etməyə çalışdım (“Mən qəsdən bu qədər intizam və diqqətlə yeyirəm!”), amma bu ad mənə yapışıb qaldı.

Məncə Texaslı Riçard tipik bir yoqa oxşamır. Əslinə qalsa, Hindistanda keçirdiyim vaxt mənə xəbərdarlıq etdi ki, tipik

yoqun necə olduğu barədə qərar verməyə tələsməyim (Ötən gün burada tanış olduğum irlandiyalı südçülük ferması işçisindən və ya Cənubi Afrikalı keçmiş rahibədən danışmamağım məsləhətdir). Riçard qurunun nitqlərinə qulaq asmaq üçün onu Texasdan Nyu Yorkdakı aşrama aparan keçmiş sevgilisinin vasitəsilə yoqa ilə maraqlanmağa başlayıb. Riçard deyir ki, - “Aşramm o vaxta qədər gördüyüm ən əcaib yer olduğunu fikirləşdim və onlara bütün pulu, evin, maşının sənədlərini verməli olduğumuz otağın harada yerləşdiyi ilə maraqlandım. Belə bir şey baş vermədi”.

Təqribən on il əvvəlki bu təcrübədən sonra Riçard davamlı olaraq dua edir. Duası həmişə eyni idi. O, dayanmadan tannya, - “Yalvarıram, yalvarıram, yalvarıram ürəyimi aç, - deyə dua edirdi. Yeganə istəyi açıq bir ürək idi. Və bu açıq qəlb üçün etdiyi duanı

downloaded from KitabYurdu.org

həmişə, - Və xahiş edirəm bu baş verəndə, mənə bir işarə göndər", - deyə duasını yekunlaşdırırdı. İndi həmin vaxtları xatırlayaraq, - "Nəyə görə dua etdiyinə diqqət yetir, Dağsiçanı. Çünki istədiyin şey, həqiqətən də reallaşa bilər", - deyir. Müntəzəm olaraq açıq ürək üçün dua edərək bir neçə ayı
geridə qoyandan sonra Riçard sizcə nə qazandı? Doğrudur - təcili açıq ürək əməliyyatı! Onun döş qəfəsini sözün əsl mənasında açdılar, qabırğalarını araladılar, içəri günəş işığı keçib, birbaşa ürəyini işıqlandırdı və sanki Tanrı gülümsəyərək, - "Bu işarə necədir sənin üçün?" - demək istədi. Bu hadisədən sonra Riçard həmişə dua edəndə diqqətli olur. "Artıq nə vaxt dua etsəm, fikrimi belə yekunlaşdırıram: Tanrım, xahiş edirəm mənə qarşı daha zərif ol. Olar?"

"Meditasiya məşqlərimi necə yerinə yetirim?" - bir gün döşəməni təmizləyərkən Riçard mənə baxanda ondan soruşuram (O bəxtəvərdir. Mətbəxdə işləyir və nahara bir saat qalana qədər ora getməyi vacib deyil. Döşəmələri təmizləyərkən mənə baxmağı da xoşlayır. Bunun gülməli olduğunu düşünür).

"Bu mövzuda nəyə görə mütləq nə isə etməlisən, Dağsiçanı?"

"Ona görə ki, məndə heç nə alınmır".

downloaded from KitabYurdu.org

“Kim deyir?”

“Mən beynimi sakitləşdirə bilmirəm”.

“Qurunun bizə öyrətdiklərini yada sal. Əgər meditasiyaya təmiz niyyətlə başlasan, sonradan baş verənlərə görə məsuliyyət daşımırsan. Elə isə nəyə görə özünü mühakimə edirsən?”

“Çünki mənim meditasiyam vaxtı baş verənlər yoqanm ideyasına ziddir”.

“Əzizim, Dağsiçanı, meditasiya vaxtı sənlə nə baş verdiyi barədə heç bir anlayışın yoxdur”.

“Heç vaxt təsvirlər görmürəm. Heç vaxt üstün təcrübələrə yiyələnə bilmirəm”.

“Müxtəlif rənglər görmək istəyirsən, yoxsa özün haqqındakı həqiqətləri bilmək arzusundasan? Niyyətin nədir?”

“Mənə elə gəlir ki, meditasiya vaxtı özümlə mübahisə etməkdən başqa heç nə bacarmıram”.

“O, hələ də hakim olduğunu sübut etməyə çalışan eqondur, Dağsiçanı. Eqon bunu edir. Hisslərini iki istiqamətə haçalamaq istəyir. Səni bütöv bir varlıq deyil, qüsurlu, korlanmış və tənha olduğuna inandırmağa çalışır”.

“Axı bunun mənə nə faydası ola bilər?”

“Bunun sənə heç bir faydası yoxdur. Eqonun vəzifəsi

downloaded from KitabYurdu.org

sənə faydalı olmaq deyil. Onun yeganə işi öz gücünü qorumaqdır. Və son vaxtlar eqonu dəhşətli bir ölüm qorxusu bürüyüb, çünki get-gedə kiçilir. Sən də öz ilahi yoluna davam et, əzizim.

Pislərin ömrü qısalıb. Tezliklə eqon işləməyəcək və bütün qərarları ürəyin verəcək. Eqon beyninlə oynayaraq öz hakimiyyətini göstərməyə çalışır. Səni kainatdakı hər şeydən uzaqlaşdınb bir küncə sıxaraq yaşamaq uğrunda çırpınır. Ona qulaq asma".

"Ona necə qulaq asmamaq olar?"

"Balaca uşağın əlindən oyuncağını almağa nə vaxtsa cəhd etmisən? Bu, heç xoşlarına gəlmir, elə deyilmi? Təpik vurmağa, qışqırıb ağlamağa başlayırlar. Balaca bir uşaqdan oyuncağını almağın ən yaxşı üsulu diqqətini başqa istiqamətə çəkmək, ona oynamağa başqa bir oyuncaq verməkdir. Diqqətini yayındırmaq. Beynindən fikirləri zorla çıxartmaqdansa, ona oynamağa daha maraqlı bir şey ver. Daha sağlam bir şey".

"Nə kimi bir şey?"

"Sevgi kimi, Dağsiçanı. Saf, ilahi sevgi kimi..."

45

Hər gün meditasiya mağarasında keçirdiyim vaxt ilahi ünsiyyət üçün nəzərdə tutulub. Mən isə son vaxtlar ora itimi baytarın yanma müayinəyə aparanda necə çəkinirsə,

downloaded from KitabYurdu.org

elə sıxıla-sıxıla gedirəm (hər kəsin nə qədər mehriban rəftar edəcəyinə əhəmiyyət verməyib, bütün baş verənlərin bir tibbi alətin iti zərbəsi ilə sona çatacağmı bilərək). Lakin Texaslı Riçardla etdiyimiz söhbətdən sonra yeni bir yanaşma tərzini sınayacağam. Meditasiyaya otururam və beynimə deyirəm: "Qulaq as, qorxduğunu bilirəm. Amma məqsədim səni məhv etmək deyil. Sadəcə, sənə istirahət etmək üçün bir yer tapmaq istəyirəm. Səni sevirəm".

Ötən gün bir rahib dedi ki, - "Zehnin istirahət etdiyi yer ürəkdir. Gün ərzində o, cingilti, səs-küy, mübahisədən başqa bir şey eşitmir. Halbuki yeganə arzusu sakitlikdir. Zehnin rahatlığa qovuşa biləcəyi yeganə məkan ürəyinin səssizliyidir. Getməli olduğun yer oradır".

Həmçinin bu gün mən başqa bir mantranı sınamaq istəyirəm. Bu dua əvvəllər mənə uğur gətirib. Asandır və cəmi iki hecadan ibarətdir:

Ham-sa

Sanskrit dilində "O mənəm", - mənasını daşıyır.

Yoqlar Ham-sanın hələ dünyaya gəlməzdən əvvəl tanrı tərəfindən bizə verilən yeganə mantra olduğunu deyirlər. O öz nəfəsimizin səsidir. Nəfəs alanda - ham, nəfəs verəndə - sa (Yeri gəlmişkən, "Ham" yumşaq, aydın şəkildə "hahhhm" kimi tələffüz edilir.

downloaded from KitabYurdu.org

Hamburgerdəki kimi deyilmir. “Sa” isə “Ahhh”la qafiyə yaradır.). Həyatımız boyu hər dəfə nəfəs alıb-verəndə bu mantranı təkrarlayırıq. O mənəm. Mən ilahiyəm. Mən Tanrıylayam. Tannnın bir ifadəsiyəm. Mən ayn deyiləm. Tənha deyiləm. Mən fərdin məhdud illüziyası deyiləm. Hamsa həmişə mənə asan və rahat gəlib. Bu, yoqanın necə deyərlər “rəsmi mantrası” sayılan Om Namah Şivaya ilə meditasiya etməkdən daha asandır. Həmin rahib də mənə tövsiyə etdi ki, əgər meditasiyada köməyi dəyirsə, Ham-sadan istifadə edim: “Meditasiyanı beynində çevriliş edən fikirlərin üzərində qur”.

Və budur, oturmuşam və bu mantram təkrar edirəm.

Ham-sa

O mənəm.

Müxtəlif fikirlər yaranır, amma onlara diqqət yetirmirəm. Demək olar ki, ana qayğısı ilə deyirəm: “Ah, sizi yaxşı tanıyıram, oyunbazlar. İndi çıxın çölə, oynayın. Ana tanrını dinləyir”.

Ham-sa

O mənəm.

Bir müddət yuxuya gedirəm (Bəlkə də yanılıram. Meditasiya vaxtı, həqiqətən də yuxuya gedib-getmədiyini aydınlaşdırmaq mümkün deyil. Bəzi hallarda yuxu adlandırdığın vəziyyət, sadəcə, şüurun növbəti

downloaded from KitabYurdu.org

mərhələsidir). Oyananda (ya da qayıdanda?) yumşaq, mavi elektrik enerjisinin dalğalar şəklində bədənimdə döyündüyünü hiss edirəm. Bu həm həyəcanlı, həm də maraqlıdır. Nə edəcəyimi bilmirəm. Ona görə də daxilimdə bu enerji ilə danışmağa cəhd edirəm. Ona, - "Sənə inanıram", - deyirəm. Cavabında isə o böyüyür, genişlənir. Duyğularım güclənir. Onurğa sütunum
başdan axıra kimi uğuldayır. Mənə elə gəlir ki, boynum çevrilmək, tərpənmək istəyir. Ona icazə verirəm. Nəticədə, qəribə bir vəziyyət alıram - yaxşı yoq kimi şaquli otururam, amma sol qulağım sol çiynimə təzyiq edir. Başım və boynumun bunu nəyə görə etmək istədiyini bilmirəm, amma onlarla mübahisə də etmirəm. Təkid edirlər. Hələ də döyünən mavi enerji bədənimdə gəzməyə davam edir və gurultuya bənzər bir səs eşidirəm. Səs getdikcə o qədər güclənir ki, onunla bacara bilmirəm. Məni o qədər qorxudur ki, - "Hələ hazır deyiləm!" - deyərək gözlərimi açıram. Hər şey yoxa çıxır. Yenidən otaqda, insanların əhatəsindəyəm. Saatıma baxıram. Bir saata yaxın vaxt ərzində orada və ya başqa bir yerdə olduğumu görürəm.
Nəfəsim kəsilir. Təngnəfəs oluram...
46
Bunun necə bir təcrübə olduğunu, orada nələrin baş

downloaded from KitabYurdu.org

verdiyini (Həm meditasiya mağarasında, həm də mənim daxilimdə baş verənləri nəzərdə tuturam) dərk etmək olduqca məxfi və sirli bir mövzuya da maraq yaradır: Kundalini şakti fənni.

Dünyadakı hər bir dinin ilahi varlıqla qarşılaşmaq üçün müqəddəs kitab və doqmatik mətnlərdən imtina edərək, tanrı ilə bilavasitə ünsiyyət qurmaq istəyən, üstün təcrübə axtarışında olan tərəfdarları həmişə olub. Maraqlısı odur ki, bu mistiklər öz təcrübələrindən danışanda həmişə eyni əhvalatı təsvir edirlər. Ümumiyyətlə, onların tanrı ilə vəhdəti meditasiya prosesində bütün bədəni eyforik elektrik işığı ilə dolduran eneıji mənbəyi vasitəsilə baş tutur. Yaponlar bu eneıjiyə "ki", çinli buddistlər "çi", balineziyalılar "taksu", xristianlar "müqəddəs ruh", Kalahari buşmenləri "n/um" deyirlər (Müqəddəs şəxslər onu onurğa sütunu ilə yuxan qalxaraq, insanın başında tannlann girə biləcəyi bir deşik açan
ilanabənzər qüvvə kimi təsvir edirlər). Sufi şairlər bu ilahi enerjiyə "sevgili" deyərək ona şeirlər həsr edirlər. Avstraliyalı aborigenlər səmadan seçilmiş şəxslərin üzərinə enib onlara böyük, o biri dünyaya xas olan güc verən bir ilanı təsvir edirlər. Yəhudilərin Kabbala ənənəsinə görə ilahi varlıqla yaranan bu vəhdət ilahi

downloaded from KitabYurdu.org

yüksəlişin mərhələləri vasitəsilə, onurğa sütunundan görünməz meridianlar boyu artan enerji ilə baş verir.

Ən mistik katolik xadimlərdən biri olan Avilyalı Müqəddəs Tereza Tanrı ilə olan birliyini yeddi daxili "malikanə" boyu işığın fiziki yüksəlməsi, ardınca da Yaradanın hüzuruna çıxmaq kimi təsvir edir. O, meditasiya vaxtı o qədər dərin trans halında olurdu ki, digər rahibələr onun ürək döyüntülərini eşidə bilmirdilər. Bu hadisə "olduqca qeyri-adi və geniş müzakirələrə səbəb olacağına görə" rahibə onlara yalvarırmış ki, gördüklərini heç kimə danışmasınlar (İnkvizitorla görüşmək ehtimalı barədə heç danışmıram). "Ən çətin mübarizə", - deyə o, xatirələrində qeyd edirdi, - "meditasiya vaxtı heç bir fikir, hətta ən qızğın dualar üçün belə ilahi alovu söndürə biləcək zehni
aktivləşdirməməkdir. Narahat zehin nitqlər və mübahisələr yaradanda gördüyü işin əhəmiyyətli olduğunu düşünür. Xüsusilə də əgər bu fikirlər ağıllıdırsa. Lakin bu fikirləri üstələyib tannya doğru yüksələ bilsən, bu möhtəşəm kəşf, müqəddəs dəlilik sənə əsl müdriklik qazandıracaq", - Müqəddəs Tereza deyir. O, - "bizi bu qədər sevən tanrı var. Elə isə nəyə görə hər birimiz sərxoş deyilik?" - deyə soruşan fars Sufi Hafizin şeirlərindən xəbərsiz halda öz tərcümeyi-halında, - "Sənə yalvarıram,

downloaded from KitabYurdu.org

Ata, icazə ver hamımız dəli olaq!” - deyə göz yaşlan içində yazırdı.

Kitabın növbəti cümlələrində də sanki nəfəsini tutaraq yazır. Bu gün Müqəddəs Terezanın yazdıqlarını oxuyanda onun demək olar ki, həmin çılğın təcrübəsindən çıxıb gəldiyini, Orta əsrlər İspaniyasının (Tereza isə tarixin ən ağır, dini tiraniyalarından birində yaşayırdı) siyasi ab-havasına nəzər salıb ağılla, sədaqətlə həyəcanına görə üzr istədiyini hiss edə bilərsiniz. O yazır: “Həddimi aşdımsa, bağışlayın”. Sonra isə bütün boşboğazlıqlarını görməzliyə vurmaq lazım olduğunu dilə gətirir və bu fikrini, sadəcə, qadın, soxulcan, mənfur parazit
və s. olması ilə əsaslandırır. Yazdıqlarını oxuyanda onun rahibə paltarını necə düzəltdiyini, saçlarını necə sığalladığını, daxilindəki ilahi sirrin necə parlaq, görünməz alovla yandığını gözünüzün qarşısına gətirə bilərsiniz.

Hind yoqa ənənəsinə görə, bu ilahi sirrə “kundalini şakti” deyilir və bu, ustadın toxunuşu, ya da möcüzə nəticəsində sərbəst qalana qədər onurğa sütununun ətrafında qıvrılıb yatır, sonra yeddi çakradan və çarxdan keçir (Buna “ruhun yeddi iqamətgahı” da demək olar) və nəhayət, baş vasitəsilə tann ilə ittifaqa girən ilanla təsvir edilir. Yoqlarm dediyinə görə, bu çakralar adi bədənlərdə

downloaded from KitabYurdu.org

olmur. Ona görə də belə vücudlarda onları axtarmayın. Onlar ancaq buddist təlimçilərin qılıncın qınından çıxarılmağı kimi, tələbələrini bir bədəndən yeni bir mənliyi ərsəyə gətirməyə təşviq edəndə haqqında danışdığı, kamil bədəndə mövcud olurlar. Həm yoqa tələbəsi, həm də nevroloq olan dostum Bob çakra mövzusunun onu həmişə təşvişə saldığını və onların mövcud olduğuna inanmaq üçün insan bədənini yanb içinə baxmaq lazım olduğunu deyir. Amma təcrübəsi artdıqca, fikri də dəyişməyə başladı. "Yazıda
hərfi və məcazi məna olduğu kimi, insanın daxilində də hərfi və məcazi anatomiya var. Birini görə bilirsən, digərini isə yox. Biri sümük, diş və ətdəndir, o biri enerji, yaddaş və inamdan. Amma hər ikisi eyni dərəcədə həqiqətdir".

Elm və dinin orta bir nöqtədə kəsişməsi xoşuma gəlir. Bu yaxınlarda "New York Times" qəzetində maraqlı bir məqaləyə rast gəldim. Tibetli rahibin könüllü olaraq, bir qrup nevroloqun onun əl-ayağını bağlayıb beynini nəzərdən keçirməsinə razılıq verdiyindən bəhs edirdi. Elmi dildə desək, ilahi məsələlərin geniş yer tutduğu bir beyində aydınlaşma vaxtı nə baş verdiyini bilmək istəyirdilər. Normal düşünən insan beynini gözdən keçirəndə, san və qırmızı parıltılar kimi görünən fikir və

downloaded from KitabYurdu.org

impuls burulğanı daim dövr edir. Şəxs hirsləndikcə, qızışdıqca qırmızı parıltılar tündləşir. Lakin müxtəlif mədəniyyətlərin və dövrlərin mistik şəxsləri meditasiya vaxtı beynin hərəkətsiz dayandığını və tann ilə sonuncu vəhdətin başlannm ortasından ətrafa yayılan mavi işıq olduğunu deyirlər. Yoqa ənənəsinə görə, bu işığa "mavi mirvari" deyilir və axtarışa çıxan hər kəsin hədəfi məhz onu tapmaqdır. Həmin tibetli rahib meditasiya vaxtı
zehnini o qədər dərin sükuta bürüyüb ki, ekranda nə qırmızı, nə də san işıqlan görmək mümkün olmayıb. Faktiki olaraq bu centlmenin bütün nevroloji enerjisinin beyninin mərkəzindəki balaca, mavi işıqdan olan mirvaridə toplandığı monitorda öz əksini tapıb. Eynilə yoqlarm təsvir etdiyi kimi...

Kundalini şaktinin hədəfi budur.

Mistik Hindistanda da bir çox şaman ənənəsində olduğu kimi, əgər düzgün yönləndirilməmisənsə, kundalini şakti təhlükəli qüvvə hesab edilir. Təcrübəsiz bir yoq bunun nəticəsində ağlını da itirə bilər. Bu yolda sənə rəhbərlik edəcək təlimçiyə - quruya və məşq etmək üçün etibarlı bir yerə - aşrama ehtiyacın var. Kundalini enerjisini onurğa sütununun başlanğıcından tanrıya doğru səyahətə çıxmağına qurunun toxunuşu ilə icazə verə biləcəyini deyirlər (şəxsən və ya xəyal kimi fövqəltəbii

downloaded from KitabYurdu.org

bir qarşılaşma ilə). Həmin icazə verilmə prosesi “ilahi başlanğıc” mənasını daşıyan “şaktipat” adlanır və bu, müdrik bir ustadın verə biləcəyi ən böyük hədiyyədir. O toxunuşdan sonra dərk etmək uğrunda yenə də illərlə çırpma bilər, amma ən azından artıq yola çıxır. Enerji azad buraxılır.

Mən şakripat başlanğıcını iki il əvvəl ilk dəfə qurumla Nyu Yorkda qarşılaşanda qəbul etmişəm. Bu, Ketskilz dağlarında yerləşən aşramda həftəsonu özümə qapanma nəticəsində baş verdi. Düzünü desəm, bundan sonra heç bir xüsusi hiss keçirmədim. Tanrı ilə qeyri-adi bir görüşə ümid edirdim. Bəlkə mavi işıq və ya ilahi mənzərə. Lakin həmişəki kimi aclıq xaricində bədənimdə heç bir xüsusi hiss yox idi. Azad olunmuş kundalini şakti kimi qeyri-adi bir hadisəni yaşaya bilmək üçün kifayət qədər inamlı olmadığıma görə təəssüfləndiyimi xatırlayıram. Həddindən artıq ağıllı olsam da, intuisiyamın zəif olduğunu və getmək istədiyim ilahi yolun ezoterik deyil, intellektual olacağını fikirləşirdim. Dua edirdim, kitab oxuyurdum, maraqlı fikirlərim var idi, amma böyük ehtimalla heç vaxt müqəddəs Terezanm təsvir etdiyi kimi ilahi meditasiya mənə qismət olmayacaqdı. Eybi yox. Yenə də meditasiyanı sevirdim. Sadəcə, kundalini şakti mənlik deyildi.

downloaded from KitabYurdu.org

Növbəti gün isə qəribə bir şey baş verdi. Biz qurunun yanma getdik. Meditasiya keçirirdi. Meditasiyanın ortasında yuxuya getdim və bir yuxu gördüm. Hansısa okeanın sahilində
idim. İri və vahiməli dalğalar getdikcə mənə doğru yaxınlaşırdı. Qəfildən yanımda bir kişi peyda oldu. Həmin şəxs "Svamici" adlandırdığım (Sanskrit dilində "sevilən rahib") qurumun ustadı olan böyük, xarizmatik yoq idi. Svamici 1982-ci ildə dünyasını dəyişib. Onu ancaq aşramdakı şəkillərindən tanıyıram. Etiraf etməliyəm ki, təkcə həmin fotoşəkillərə baxmaqla onun qorxulu, həddindən artıq güclü və alovlu olduğu qənaətinə gəlmişdim. Uzun müddət onun haqqındakı fikirlərdən və divardan zillənən baxışlarından qaçmağa çalışırdım. Çox dağıdıcı təsir bağışlayırdı. Quru kimi mənim zövqümdə deyildi. Həmişə gözəl, mərhəmətli, şəfqətli qadın ustadımı çoxdan rəhmətə getmiş (amma hələ də hiddətli) bu xarakterdən üstün tutardım.

Lakin indi Svamici yuxuma girib bütün qüdrəti ilə sahildə, mənimlə yanaşı durmuşdu. Dəhşət içində idim. Bu zaman Svamiçi mənə tərəf yaxınlaşan dalğaları göstərib ciddi tərzdə, - "Bunun qarşısını almaq üçün bir çıxış yolu tapmağını istəyirəm", - dedi. Mən vahimə içində bloknotumu çıxartdım və okean dalğalarının

downloaded from KitabYurdu.org

hücumunu dayandıra biləcək təsvirlər
çəkməyə başladım. Nəhəng bəndlər, kanallar və sədlər çəkdim. Amma bütün sxemlərim axmaq və yararsız idi. Bunun mənim gücüm xaricində olduğunu başa düşürdüm (Mən mühəndis deyiləm!). Lakin Svamicinin səbirsiz və mühakimə edən baxışlarının mənə tuşladığım görürdüm. Nəhayət, təslim oldum. Kəşflərimin heç biri bu dalğalann qarşısını kəsəcək qədər güclü və ağıllı deyildi.

Həmin vaxt Svamici gülməyə başladı. Narıncı geyimli bu balaca hindli kişiyə nəzər yetirdim və o, gözlərindən sevinc yaşlan axaraq ləzzətlə qəhqəhə çəkirdi.

"Əzizim, mənə de, - əli ilə nəhəng, güclü, sonsuz okeanı göstərdi. - Xahiş edirəm, lütfən de. Bu okeanı necə dayandırmaq istəyirdin?"

47

Ard-arda iki gecədir ki, yuxuda ilanlann otağıma hücum etdiyini görürəm. Bunun xeyirə əlamət olduğunu oxumuşdum (Və təkcə Şərq dinlərində deyil, Müqəddəs İqnatiy də bütün mistik təcrübələri boyu ilan təsvirləri görürdü), amma bu, ilanlar həqiqətdə olduqlan qədər qorxuludurlar. Yuxudan qan- tər içində oyanıram. Daha dəhşətlisi isə, bir dəfə oyananda beynim boşanma illərinin ən pis vaxtlarından bəri hiss etmədiyim bir gərginliyə məruz qalıb mənə xəyanət edir. Fikirlərim iflasa uğramış

downloaded from KitabYurdu.org

ailə həyatıma və həmin hadisəni müşayiət edən rüsvayçılığa, qəzəbə uçub gedir. Və ən dəhşətlisi isə, yenidən Devidi yada salıram. Beynimdə onunla mübahisə apanram. Qəzəbli və tənhayam. Mənə dediyi bütün kobud sözləri və məni incidən hərəkətlərini xatırlayıram. Bununla yanaşı, bir yerdə keçirdiyimiz xoşbəxt günləri, sevgidən sərxoş olduğumuz dövrü xatirimdə yenidən canlandırmağıma mane ola bilmirəm. Gecə vaxtı ona Hindistandan zəng etmək keçir
ağlımdan. Əslində, nə deyəcəyimi bilmirəm. Böyük ehtimalla dəstəyi asıb sözünü ağzında qoyacağam. Və ya məni yenidən sevməyi üçün yalvaracağam. Ya da bütün çatışmayan cəhətlərinə görə onu ittiham edəcəyəm.

Nəyə görə bunlar indi ağlıma gəlir?

Aşramdakı təcrübəli şəxslərin buna nə deyə biləcəyini təxmin edirəm. Bunun normal hal olduğunu, hər kəsin üzləşdiyini, güclü meditasiyanın hər şeyi üzə çıxaracağını və sadəcə, iblis qalıqlarını yığışdırmaqda olduğumu deyərdilər. Amma mən o qədər həssas vəziyyətdəyəm ki, buna dözə bilmirəm və bu hippilərin nəzəriyyələrinə qulaq asmaq fikrində deyiləm. Hər şeyin üzə çıxdığını başa düşürəm. Sifraq üzə çıxan kimi.

Birtəhər təzədən yuxuya gedirəm və başqa yuxu görürəm. Bu dəfə ilanları arxamca düşən qəddar, iblisə

downloaded from KitabYurdu.org

oxşayan bir it əvəz edir. O, - “Səni öldürəcəyəm. Öldürüb sonra yeyəcəyəm”, - deyə qışqırır.

Yuxudan ağlaya-ağlaya, titrəyərək oyanıram. Otaq yoldaşlarımı narahat etməmək üçün vanna otağında gizlənirəm. Vanna otağı, yenə də vanna otağı! Cənnət mənə kömək olsun. Yenə gecə vaxtı vanna otağında, tənha hönkürtü ilə ağlayıram. Eh, qəddar dünya - səndən və sənin dəhşətli vanna otaqlanndan bezmişəm!

Göz yaşlanma fasilə vermədən dəftər, qələm götürürəm (bir rəzilin axırıncı sığınacağı) və yenə də ayaqyolunun küncündə otururam. Ağ bir səhifə açıb tanış, ümidsizliklə dolu xahişimi qaralayıram:

“KÖMƏYİNƏ EHTİYACIM VAR”.

Bundan sonra sanki yüngülləşirəm və öz xəttim, əbədi, sadiq dostum (O kimdir?) məni xilas etməyə çalışır:

“Mən həmişə buradayam, narahat olma. Səni sevirəm. Səni heç vaxt tərk etməyəcəyəm”.

48

Növbəti gün meditasiya sözün əsl mənasında fəlakət kimi keçdi. Ümidsiz halda zehnimə yalvarıram ki, mənə güzəştə getsin və Tanrını tapmağıma icazə versin, amma dəmir iradəyə sahib olan zehnim çevrilib mənə deyir: “Məni ötüb keçməyinə heç vaxt icazə verməyəcəyəm”.

Gün ərzində nifrətim və gərginliyim o həddə idi ki,

downloaded from KitabYurdu.org

özümdən çox, yolu mənimlə kəsişənlər üçün narahat olurdum. Kitab mağazasının yerini izah etdiyim alman qadına məni başa düşmədiyi üçün kobudluq etdim. Halbuki o, sadəcə, ingilis dilini yaxşı bilmirdi. Bu qəzəbimə görə o qədər utandım ki, yenə vanna otağında gizlənib (növbəti dəfə!) ağladım. Sonra qurumun hər kiçik səbəbə görə özümüzü itirməməli olduğumuz, əks təqdirdə bunun vərdiş halına keçəcəyi ilə bağlı məsləhətlərini yadıma salıb ağladığıma görə özümü məzəmmətlədim. Ancaq o bu mövzu ilə bağlı nə bilir ki? O

aydmlanmışdır. O mənə kömək edə bilməz. O məni başa düşə bilməz.

Heç kimlə danışmaq istəmirəm. Bu dəqiqə heç kimin üzünü görməyə belə dözümüm yoxdur. Hətta bir müddətdir ki, Texaslı Riçarddan belə qaçıram, ancaq o, naharda məni tapır və bu cəsur şəxs yanımda əyləşməklə mənim ətrafımı bürüyən qara dumana qonaq olur.

“Səni bu hala salan nədir?” - O, həmişəki kimi ağır-ağır, ağzında dişçöpü ilə qurdalanaraq soruşur.

“Soruşma, - deyirəm, amma qəfildən ən xırda detallara qədər danışmağa başlayıram. - “Ən dəhşətlisi isə, Devidi ağlımdan çıxarda bilmirəm. Onu unutduğumu fikirləşirdim, ancaq deyəsən hər şey təzədən başlayır”.

downloaded from KitabYurdu.org

O deyir: “Altı ay da gözlə, özünü daha yaxşı hiss edəcəksən”.

“Riçard, onsuz da on iki aydır gözləyirəm”.

“Eybi yox, altı ay da özünə şans ver. Tamamilə uzaqlaşana qədər altı ay gözləməyə davam et. Belə şeylər çox vaxt aparır”.

Mən öküz kimi qəzəblə fınxırıram.

“Dağsiçanı, - Riçard deyir, - qulaq as mənə. Vaxt keçdikcə həmin günlər şirin xatirəyə çevriləcək. Qəlbinin qırıldığını, matəmdə olduğunu, buna baxmayaraq həyatının dəyişdiyini və dünyadakı ən gözəl yerdə - sevgi ilə əhatə olunan bu məbəddə olduğunu görəcəksən. Hər dəqiqənin dəyərini bil. Hindistanda olduğun müddət ərzində qoy hər şey özü-özünə yoluna qoyulsun”.

“Axı mən onu, həqiqətən də sevirdim...”

“Böyük iş görüb sevmisən! Nə olsun ki? Nə baş verdiyini görmürsən? O adam sənin ürəyində çata biləcəyini düşündüyündən də dərin yerə toxunub. Yəni qəlbini əsir alıb, balaca. Amma hiss etdiyin bu sevgi, sadəcə, başlanğıcdır. Sərhədləri olan, məhdud, qısa ömürlü sevgidir. Həqiqətən, nə qədər dərindən sevməyə qadir olduğunu dərk edənə qədər gözlə. Lənətə gələsən, Dağsiçanı. Bütün dünyanı sevə biləcək gücə maliksən. Bu sənin taleyindir. Gülmə”.

downloaded from KitabYurdu.org

“Gülmürəm, - əslində ağlayırdım. - Xahiş edirəm, sən də mənə gülmə. Deyəsən, Devidi yaddan çıxarda bilməməyimin səbəbi onun mənim ruh əkizim olduğuna inanmağımdır”.

“Böyük ehtimalla doğrudan da elə idi. Problem odur ki, sən bu sözün əsl mənasını dərk etməmisən. İnsanlar ruh əkizlərinin özlərinə ən uyğun şəxs olduğuna inanırlar və belə olmağını istəyirlər. Amma əsl ruh əkizi güzgüdür. Həyatını dəyişdirə bilməyin üçün qarşında dayanan əngəlləri olduğu kimi göstərən, diqqətini özünə cəmləməyə sövq edən şəxsdir. Əsl ruh əkizi qarşına çıxan ən əhəmiyyətli insandır, çünki ətrafındakı divarları dağıdır və səni silkələyib yuxudan oyadır. Lakin həmin ruh əkizi ilə sonsuza qədər yaşamaq olarmı? Yox, həddindən artıq əzab-əziyyətlidir. Ruh əkizi varlığının başqa bir qatmı sənə göstərmək üçün həyatına girir, sonra da çıxıb gedir. Nə yaxşı ki, belə də olur. Problem isə sənin onun getməyinə icazə verməməyindir. Qurtardı, Dağsiçanı. Devidin vəzifəsi səni silkələmək, o nikahdan xilas etmək, eqonu azca zədələmək, sənə qarşındakı maneələri və vərdişlərini göstərmək, içəri yeni işıq daxil olması üçün ürəyinin qapısını qırıb açmaq, ümidsiz və idarə edilməz hala gətirməklə həyatını alt-üst etmək, sonra mənəvi təlimçinlə səni tanış edib yoxa çıxmaq idi.

downloaded from KitabYurdu.org

O, vəzifəsinin öhdəsindən layiqincə gəldi və qurtardı. Bu münasibətin
ömrünün başa çatdığını qəbul etməlisən. Zibillikdə eşələnən it kimisən, əzizim, - doymadığın üçün içiboş qabı yalayırsan. Əgər diqqətli olmasan burnun həmişəlik o qaba ilişib qalar və həyatın məhv olar. Ona görə də özünə gəl".

"Axı onu sevirəm".

"Onda sev".

"Axı onun üçün darıxıram".

"Elə isə darıx. Hər dəfə yadına düşəndə ona sevgi və işıq göndər, sonra öz həyatına qayıt. Deviddən qalan son sevgi qırıntılarından əl çəkməkdən qorxursan, çünki belə olduğu təqdirdə doğrudan da tənha olacaqsan. Və Liz Gilbert tənhalığın nə gətirəcəyindən xəbərsiz olduğuna görə ondan dəli kimi qorxur. Amma başa düşməlisən, Dağsiçanı: Əgər beynində bu adamla bağlı fikirlər yaratdığın bölməni boşaltsan, boşluq əmələ gələcək. Açıq qapı... Səncə kainat o aralı qapı ilə nə edəcək? Tanrı oradan içəri girəcək və qəlbini xəyal belə edə bilməyəcəyin qədər böyük bir sevgi ilə dolduracaq. Ona görə də Devidin həmin qapının qarşısını kəsməyinə icazə vermə. Qoy çıxıb getsin".

"Kaş ki Devidlə mən..."

downloaded from KitabYurdu.org

Sözümü ağzımda qoyur: “Bax, problem də elə budur. Çox şey arzulayırsan, əzizim. Onurğa sütununun yerinə, bazu sümüyünü qoya bilməzsən”.

Bu cümlə gün ərzində məni ilk dəfə güldürür.

Sonra Riçarda sual verirəm: “Bəs bu məyusluq, kədər nə vaxt keçib gedəcək?”

“Dəqiq bir tarix istəyirsən?”

“Bəli”.

“Təqvimdə dairəyə ala biləcəyin bir tarix?”

“Bəli”.

“Bir söz deyim sənə, Dağsiçanı - problem odur ki, hər şeyin sənin nəzarətin altında olmağını istəyirsən”.

Bu ifadə məni hədsiz qəzəbləndirir. Hər şeyə nəzarət etmək istəyirəm? Mən? Bu təhqirə görə Riçarda şillə vurmağı belə ağlımdan keçirtdim. Sonra qəzəbin dərinliyindən həqiqət üzə çıxır. Açıq-aşkar görünən gülməli həqiqət...

O, tamamilə haqlıdır.

Alov kimi məni bürüyən qəzəb eyni sürətlə də sönüb gedir.

“Tamamilə haqlısan”, - deyirəm.

“Haqlı olduğumu bilirəm, əzizim. Qulaq as, sən güclü qadınsan və həyatdan həmişə istədiyini almağa vərdiş etmisən. Son münasibətlərində isə istədiklərini ala

downloaded from KitabYurdu.org

bilməməyin ümidlərini puça çıxarıb. Həyat yoldaşın sən istəyən kimi hərəkət etməyib, Devid də həmçinin. Həyat bu dəfə sənin istəklərinə tabe olmayıb. Və hər şeyə nəzarət etmək xəstəliyi olan bir şəxs üçün ən böyük faciə həyatın onun istəklərini nəzərə almamasıdır".

"Xahiş edirəm, mənə xəstə demə".

"Sənin nəzarətdə saxlamaqla bağlı problemlərin var, Dağsiçanı. Doğrudanmı bu günə qədər bunu sənə heç kim deməyib?"

(Deyib, amma insan boşananda özü haqqında deyilən bütün mənfi fikirləri dinləməkdən də imtina edir).

Beləliklə, razılaşıram: "Deyəsən, düz deyirsən. Bəlkə də hər şeyi idarə etmək istəyirəm. Sadəcə, buna diqqət yetirməyin qəribədir. Çünki bunun kənardan elə də qabarıq nəzərə
çarpdığını düşünmürəm. Mərcə girərəm ki, bir çox insan ilk baxışdan belə bir problemim olduğunu ağlına belə gətirməz".

Texaslı Riçard elə bərkdən gülür ki, az qalır diş təmizləyən çöp yerə düşsün.

"Kənardan nəzərə çarpmır? Əzizim, Rey Çarlz belə sənin bu problemini anlaya bilər".

"Yaxşı, deyəsən, söhbətimiz başa çatdı. Təşəkkür edirəm".

downloaded from KitabYurdu.org

“İmtina etməyi öyrənməlisən, Dağsiçanı. Əks təqdirdə xəstəyə çevriləcəksən. Gecələr yata bilməyəcəksən. Həyatında belə bir uğursuzluq olduğuna görə səhərə qədər narahat halda yerində sağa-sola fırlanacaqsan. Mənim dərdim nədir? Nəyə görə bütün münasibətlərimi zibilə çevirirəm? Niyə bu qədər uğursuzam? Qoy, tapım - böyük ehtimalla dünən bütün gecə bununla məşğul olmusan”.

“Yaxşı, Riçard, kifayətdir”, - deyirəm, - “Artıq başımın içində gəzməyini istəmirəm”.

“Onda qapını bağla!” - deyə dahi Texaslı yoq cavab verir.

49

Doqquz yaşım olanda mən əsl metafizik böhran keçirdim. Bu yaş olduqca erkən kimi görünə bilər, amma mən yaşıma görə tez inkişaf etmişdim. Hər şey dördüncü və beşinci sinif arasındakı yay tətilində baş verdi. İyul ayında on yaşım tamam olurdu və doqquz yaşımdan on yaşıma - tək rəqəmdən cüt rəqəmə keçəndə insanların, adətən əlli yaş ərəfəsində düçar olduğu yaradılışla bağlı qorxunu keçirməyə başladım. Ömrümün sürətlə keçib getdiyini düşünürdüm. Dünənə qədər uşaq bağçasına gedirdim, indi isə on yaşım olurdu. Tezliklə yeniyetmə, ortayaşlı, qoca, nəhayət, ölü olacaqdım. Digər insanlar da

downloaded from KitabYurdu.org

işıq sürətilə qocalırdılar. Tezliklə hamı öləcək. Valideynlərim öləcək. Dostlarım öləcək. Pişiyim də öləcək. Bacım isə artıq orta məktəbin yarıdan çoxunu geridə qoyub. Onun qısa corablarını geyinib birinci sinfə getməyi dünənki kimi yadımdadır. İndi isə tezliklə məktəbi qurtaracaq? Açıq- aşkar ölməyinə bir şey qalmayıb! Nəyə görə belə olurdu?

Qəribəsi o idi ki, belə bir böhrana düçar olmaq üçün həyatımda heç bir səbəb yox idi. Bir dostum və ya qohumum ölməmişdi. Deməli, ölümlə tanış deyildim. Bununla bağlı heç nə oxumamışdım və heç nəyə baxmamışdım. Heç "Şarlottanın toru" əsərini də oxumamışdım. On yaşımda məni bürüyən bu vahimə ölümün qarşısıalınmaz caynaqları arasında çapalayan anlarda hiss edə biləcəyimdən zəif deyildi. Mənəvi lüğətim isə o qədər zəngin deyildi ki, buna qalib gəlməyimə kömək edə bilsin. Ailəmiz protestant idi, amma dindar deyildik. Sadəcə, Milad bayramı və Şükran günü yeməyində minnətdarlıq duası edir, ayda-ildə bir dəfə kilsəyə gedirdik. Fermadakı işini öz ibadəti hesab edən atam bazar günləri, səhərlər evdə qalırdı. Mən mahnı oxumağı xoşladığıma görə xora qatılmışdım. Gözəl bacım isə Miladla bağlı tamaşada mələk rolunda çıxış edirdi. Anam kilsədən cəmiyyət üçün xeyriyyə işləri

downloaded from KitabYurdu.org

təşkil olunan qərargah kimi istifadə edirdi. Amma həmin kilsədə belə tanrı haqqında kifayət qədər danışıldığını xatırlamıram. Axı bura Yeni İngiltərə idi və tanrı sözü Yankilərii4 qıcıqlandıra bilərdi.

Özümü çarəsiz hiss edirdim. İstəyirdim ki, kainatın da Nyu Yorka getdiyimiz məktəb səyahətində metrolarda gördüklərimə oxşayan nəhəng, fövqəladə hallar üçün nəzərdə tutulan əyləci olsun və onu geriyə dartıb hər şeyi dayandıra bilim. Fasilə istəyirdim. Mən baş verənləri anlayana qədər insanların hərəkətsiz halda dayanmağını istəyirdim. Özümü tapana qədər bütün kainatı yerində hərəkətsiz dayanmağa məcbur etmək arzum bəlkə də dostum texaslı Riçardm dediyi həmin nəzarət problemimin başladığı nöqtədir. Əlbəttə ki, narahatlığım və cəhdlərim faydasız idi. Zamana nə qədər yaxından tamaşa etsəm, bir o qədər də sürətlə keçib gedirdi. Həmin yay elə sürətli keçdi ki, başım ağndı. Hər gün sona çatanda, - "bu gün də belə getdi", - deyərək göz yaşlarına qərq olurdum.

Hazırda əqli cəhətdən qüsurlu insanlarla işləyən bir orta məktəb dostum autizm xəstələrinin vaxtın sürətlə keçməyini daha dərindən hiss etdiklərini deyir. Sanki onlar digər insanların hərdənbir ölüm haqqında unudub yaşamaqlarına icazə verən zehni filtrdən məhrumdurlar.

downloaded from KitabYurdu.org

Robun xəstələrindən biri hər gün başlayanda ondan tarixi soruşur və sona çatanda, -
“Rob, bir də nə vaxt fevralın dördü olacaq?” - deyir. Rob cavab verənə qədər xəstə başını kədərlə yelləyir və əlavə edir: “Bilirəm, bilirəm... yalnız gələn il, elə deyilmi?”

Bu hissi çox yaxşı tanıyıram. Daha bir kədərli dörd fevralı yekunlaşdırmağa can atmağın necə bir duyğu olduğunu bilirəm. Bu qüssə insanın verdiyi ən böyük imtahanlardan biridir. Yer üzündə öləcəyini dərk etmək mükafatına və ya lənətinə layiq görülən yeganə canlıların insanlar olduğu məlumdur. Hər varlıq gec və ya tez ölümə məhkumdur. Biz hər gün bu fakt haqqında düşünmək şansı qazanan bəxtəvərlərik. Bu məlumatın öhdəsindən necə gəlmək olar? Doqquz yaşım olanda ağlamaqdan başqa heç nə edə bilmirdim. İllər ötdükcə, zamanın sürətlə keçib getdiyini dərk etməyim ona uyğun sürətlə yaşamağıma gətirib çıxardı. Dünyadakı səyahətim qısa çəkəcəyinə görə hər şeyi yoxlamalı idim. Arzuladığım hər yerə getməli, romantikanın, şöhrətin və bütün makaronlann dadma baxmalı idim.

Rəfiqələrindən biri bacım Ketrinin özündən balaca iki, ya da üç bacısı olduğunu fikirləşirmiş, çünki hər dəfə Afrikaya
gedən bacı, Vayominqdə fermada işləyən bacı, Nyu

downloaded from KitabYurdu.org

Yorkda barmenlik edən, kitab yazan, evlənməyə hazırlaşan bacı kimi müxtəlif şəxslər haqqında hekayələr dinləyirdi. Yəqin ki, bunların hamısı eyni adam ola bilməzdi, elə deyilmi? Əgər özümü bir neçə Liz Gilbertə bölmək qabiliyyətim olsaydı, həyatdakı hər şeydən zövq almaq üçün bundan istifadə edərdim. Mən nə danışıram? Özümü bir neçə Lizə bölsəydim otuz yaş dövründə hamısı birdən vanna otağının döşəməsində büzüşüb qalardılar.

Hamının bu cür metafizik böhran keçirmədiyinin fərqində olduğumu da vurğulamalıyam. Ölümün əvvəl-axır gələcəyi fikri bəzilərini narahat etsə də, digərləri bununla rahatlıqla razılaşırlar. Əlbəttə, bir çox etinasız insanlara rast gələ bilərik. Lakin kainatın qanunlarını cəsarətlə qəbul edən, paradoks və ədalətsizlikləri dərd etməyən çox az adam var. Bir dostumun nənəsi həmişə, - "Dünyada isti vanna, bir stəkan viski və ümumi dualar kitabı ilə öhdəsindən gələ bilməyəcəyimiz dərd yoxdur", - deyirdi. Bəzilərinə doğrudan da bunlar bəs edir. Digərləri isə daha ciddi tədbirlər görməlidirlər.

İndi isə sizə İrlandiyalı fermer dostumdan danışacağam. Hindistanda aşramda qabağınıza çıxa biləcək ən gözlənilməz obrazlardan biridir. Amma Şon da mənim kimi yaradılışmın səbəbini çılğın halda bilməyi

downloaded from KitabYurdu.org

arzulayan, narahat insanlardandır. Yaşadığı kiçik Kork qraflığı belə suallara cavab vermək iqtidarında deyildi. Ona görə də 1980-ci illərdə yoqa ilə məşğul olub mənəvi rahatlığa qovuşmaq üçün Hindistana üz tutur. Bir neçə ildən sonra İrlandiyadakı evinə, fermasına geri qayıdır. Bir dəfə həyatını fermaya həsr edən, azdanışan atası ilə daş evin köhnə mətbəxində otururlar. Şon ona ekzotik Şərqdə etdiyi mənəvi kəşflərindən danışır, atası isə qəlyan çəkə-çəkə buxarının alovuna tamaşa edərək, mülayim şəkildə ona qulaq asırdı. Şon, - "Ata, meditasiya dincliyə qovuşmaq üçün vacibdir. Həyatını xilas edə bilər. Zehnini necə hərəkətsiz saxlamağı öyrədir", - deyənə qədər atası bir kəlmə də dilə gətirmir.

Sonra oğluna tərəf çevrilir və mehribanlıqla, - "Mənim zehnim onsuz da dincdir", - deyir və yenidən alovun dilimlərinə baxmağa davam edir.

Mənim zehnim isə dinc deyil. Şonun da həmçinin. Bir çoxumuz bundan məhrumuq. Bir çoxumuz alova baxanda ancaq cəhənnəmi görürük. Şonun atasının bu anadangəlmə bacarığını mən də özümdə tərbiyə etməliyəm. Bir vaxtlar Uolt Uitmenin yazdığı kimi, "Ora-bura dartılmaqdan uzaqda yüksək əhval-ruhiyyədə, həyatından razı, şəfqətli, boş, vahid oyunun həm içində, həm də çölündə olmaq və hər şeyi maraqla seyr etmək"

downloaded from KitabYurdu.org

istəyirəm. Amma xoşbəxt olmaq əvəzinə narahatam. Tamaşa etməkdənsə tədqiq və müdaxilə etməyi seçirəm. Ötən gün dua edəndə tanrıya dedim ki, - “Bax, qəbul edirəm ki, əziyyətsiz bir həyatı yaşamağa dəymir. Bəs səncə, nə vaxtsa özümə əzab vermədən nahar edə biləcəyəm?”

Buddist mənbələrində Buddanın meditasiya etməsi haqqında bir hekayə var. Otuz doqquz gün davam edən meditasiyanm ardınca nəhayət illüziyanın örtüyü düşür və kainatın əsl üzü böyük ustada göstərilir. Gözlərini açan kimi, - “Bunu öyrətmək mümkün deyil”, - deyir. Sonra isə fikrini dəyişdirib bir ovuc tələbəyə meditasiya təcrübəsini öyrətməklə, özünü dünyaya tanıtmağa qərar verir. Bu biliklərə çox az
adamın maraq göstərib onlardan istifadə edəcəyini bilirdi. Onun dediyinə görə, insanlann çoxunun gözləri kələk tozu ilə elə örtülüb ki, onlara kim kömək edirsə etsin, heç vaxt həqiqəti görə bilməyəcəklər. Digər bir neçəsi isə (Bəlkə də Şonun atası kimi şəxslər) təbii olaraq elə kəskin və soyuqqanlıdırlar ki, heç bir rəhbərə və ya dəstəyə ehtiyacları yoxmuş kimi təəssürat yaradırlar. Həmçinin gözləri həmin tozun təsiri ilə azca örtülmüş insanlar da var. Bu insanlar doğru ustadın köməyi ilə daha aydın görə bilərlər. Beləliklə də Budda bu kateqoriyaya aid olanlann

downloaded from KitabYurdu.org

- “Gözləri az tozlananlann” müəllimi olmağa qərar verir.

Həmin gözləri az tozlananlardan biri olmağı səmimi-qəlbdən arzulayıram, amma bilmirəm. Təkcə onu bilirəm ki, daxili rahatlığımı əldə etmək üçün tapdığım üsul insanlann çoxuna qəribə görünür. (Məsələn: Nyu Yorkda olanda bir dostuma Hindistana gedib bir müddət aşramda qalacağımı və vaxtımı mənəvi axtarışa həsr edəcəyimi deyəndə, dərindən köks ötürdü və - “Bir tərəfdən bunu etməyi o qədər istəyərdim ki. Amma bu, o qədər də böyük arzu deyil”, - dedi.) Başqa
seçimimin olub-olmadığını da bilmirəm. İllərlə rahatlığa qovuşmaq üçün fədakarcasma bir çox üsullara əl atmışam. Lakin bu nailiyyətlər, uğurlar axırımıza çıxır. Əgər həyatı belə sürətlə təqib etməyə davam etsən, səni ölümə aparacaq. Zamanı quldur yerinə qoyub arxasınca düşsən, sənlə quldur kimi rəftar edəcək. Həmişə səndən cəmi bir şəhər və ya bir otaq aralıda olacaq. Səndən canını qurtarmaq üçün adını və saç rəngini dəyişdirəcək. Sən indicə aldığın order ilə dəhlizdə irəliləyəndə o sənlə məzələnmək üçün külqabıda yanan siqaret qoyacaq və otelin arxa qapısından səssiz-səmirsiz qaçıb gedəcək. Hansısa bir nöqtədə dayanmalı olacaqsan, amma o dayanmayacaq. Onu ələ keçirə bilməyəcəyini boynuna almalısan. Onu tutmaq sənin vəzifən deyil. Bir nöqtədən

downloaded from KitabYurdu.org

etibarən Riçardın mənə dediyi kimi, hər şeyi axarına buraxıb hərəkətsiz halda oturmalı və rahatlığın sənə tərəf gəlməsinə şərait yaratmalısan.

Əlbəttə ki, hər şeyi axarına buraxmaq mənim kimi dünyanın zirvəsində qulpun olduğuna və həmin qulp vasitəsilə məhz mənim dünyanı hərəkət etdirdiyimə, əgər bir gün o qulpu
buraxsam dünyanın məhv olacağına inananlar üçün olduqca qorxuludur. Amma buraxmağa çalış, Market. Mənim qəbul etdiyim mesaj budur. Hələ ki, dayanmaq bilməyən hərəkətinə fasilə ver və səssiz otur. Nələr olacağına tamaşa et. Narahat olma, quşlar uçuşlarının ortasında ölüb göydən yerə düşməyəcəklər. Ağaclar qurumayacaq, çaylar qırmızı qana boyanmayacaq. Həyat davam edəcək. Hətta İtaliyadakı poçt şöbəsi də öz işinə sən olmasan da davam edə bilər. Elə isə nəyə görə dünyadakı hər anı idarə etməyin bu qədər vacib olduğuna əminsən? Nəyə görə hər şeyi axarına buraxmırsan?

Mənə ünvanlanan bu mübahisə diqqətimi çəkir. Onu başa düşürəm. Ona inanıram. Doğrudan da inanıram. Sonra isə bütün narahatlıq gətirən istəklərim, artan şövq və ac təbiətimlə bilmək istəyirəm - Bunun əvəzinə enerjimlə nə etməliyəm?

Cavab gecikmir:

downloaded from KitabYurdu.org

“Tanrını axtar, - qurum xatırladır. - Başı yanan bir adam su axtaran kimi Tanrını axtar”.

50

Növbəti səhər meditasiyada köhnə, mənfur fikirlərim yenə hücum edirlər. Onlan ən yersiz vaxtlarda zəng edib məhsulunu reklam edən satıcılara bənzədirəm. Meditasiya vaxtı zehnimin o qədər də maraqlı bir yer olmadığını kəşf edirəm. Əslində, həqiqətən də cəmi bir neçə fikir beynimdə dayanmadan fırlanır. Bu, rəsmi olaraq “fikir etmək” adlanır. Boşanmağımı, ailə həyatımdakı çətinlikləri, həm mənim, həm də yoldaşımın etdiyi səhvləri və nəhayət, Devidi (Bu qaranlıq mövzudan qaçmaq mümkün deyil) düşünürəm.

Düzünü desəm, bu vəziyyət məni utandırır. Hindistanın mərkəzində, bu müqəddəs yerdə ağlıma keçmiş sevgilimdən başqa bir şey gəlmir? Elə isə səkkizinci sinif şagirdindən fərqim nədir?

Sonra psixoloq rəfiqəm Deboranın mənə çoxdan danışdığı bir hekayə yadıma düşür. 1980-ci illərdə Filadelfiyada ona Kambocadan qayıqla gələn qaçqınlara könüllü olaraq psixoloji

yardım etməyi təklif edirlər. Debora əla psixoloqdur, amma bu məsələ onda ruh düşkünlüyü yaradır. Bu kambocalılar insanlara ağla gələ biləcək ən böyük

downloaded from KitabYurdu.org

zülmləri veriblər - soyqırım, zorakılıq, işgəncə, aclıq, əzizlərinin gözləri qarşısında öldürülməsi, qaçqın düşərgələrində keçən uzun illər və yolboyu ölənlərin meyitlərinin köpək balıqlarına verildiyi, Qərbə edilən təhlükəli dəniz səyahətləri - Debora bu insanlara necə kömək təklif edə bilərdi ki? Onların əzabları ilə özləri arasında necə əlaqə qura bilərdi?

“Amma onlann psixoloqla söhbət eləmək imkanları olarsa, bu adamların nə danışmaq istədiklərini təxmin edə bilərsən?” - Debora dedi.

Onlann söhbətlərinin təxminən belə mövzuya gətirib çıxardığı məlum oldu: “Qaçqın düşərgəsində bir oğlanla tanış olduq və bir-birimizə vurulduq. Onun məni doğrudan da sevdiyinə inanırdım, amma sonra ayrı-ayrı qayıqlara yerləşdirildik və o, əmim qızı ilə maraqlanmağa başladı. Hazırda əmim qızı ilə ailə qurublar, amma mənə hələ də zəng edir və sevdiyini deyir. Bilirəm ki, ondan tələb etməliyəm ki,
məndən əl çəksin, ancaq mən hələ də onu sevirəm və həmişə onun haqqında düşünürəm. Nə edəcəyimi bilmirəm”.

Hamımız beləyik. Bu bizim hamımıza gerçəklikdə xas olan emosional xüsusiyyətdir. Bir dəfə yüzə yaxın yaşı olan bir qadınla tanış olmuşdum. O mənə, - “Bəşər övladı

downloaded from KitabYurdu.org

daim iki suala cavab axtarır: Məni nə qədər sevirsən? Və əsas kimdir?" - dedi. Qalan məsələləri birtəhər yoluna qoymaq olar. Amma sevgi və nəzarət etməklə bağlı iki sual bizi məhv edir. Müharibələrə, əzab-əziyyətlərə səbəb olur. Təəssüf ki, (və ya açıq-aşkar) aşramda bu sualların hər ikisi mənim qarşımda dayanır. Səssiz, sakit oturub zehnimə nəzər yetirəndə məni narahat edən sualların ancaq həsrət və idarəetmə ilə bağlı olduğu meydana çıxır və bu narahatlıq da irəli addım atmağıma mane olur.

Bir saata yaxın davam edən bədbin fikirlərin ardınca bu səhər meditasiya etməyə çalışanda, özümlə bağlı yeni bir qərara gəldim: Mərhəmət. Ürəyimdən xahiş etdim ki, ruhuma zehnimin işləmə mexanizmi barədə daha əliaçıq fikirlər göndərsin. Məğlub olduğumu düşünmək əvəzinə, sadəcə, adi,
normal bir insan olduğumu qəbul edə bilərəm? Həmişəki kimi fikirlər gecikmədi. Yaxşı, qoy elə olsun. Ardınca da duyğular peyda oldu. Məyus olmağa, əsəbiləşməyə və özümü tənha hiss etməyə başladım. Lakin bir azdan qəlbimin dərinliyindən hiddətli bir cavab eşidildi və öz-özümə dedim: "Bu fikirlərə görə səni mühakimə etməyəcəyəm".

Zehnim etiraz etmək istədi: "Bəli, amma sən tamamilə uğursuz adamsan, heç nəyə nail ola bilməmisən və ola

downloaded from KitabYurdu.org

bilməyəcəksən də!”

Qəfildən sanki döş qəfəsimdə şir nərə çəkdi və bütün bu boşboğazlıqların səsini batırdı. Daxilimdə indiyə kimi heç vaxt eşitmədiyim bir səs ucaldı. Susmaq bilməyən bu səs o qədər gur idi ki, əlimlə ağzımı örtdüm, çünki ağzımı açıb bu səsin ucalmağına icazə versəm, səs buradan düz Detroyta kimi bütün binalann fundamentini silkələyərdi.

Və həmin nərə bu sözləri deyirdi:

SƏN, HƏTTA TƏSƏVVÜR BELƏ EDƏ BİLMİRSƏN Kİ, MƏNİM SEVGİM NƏ QƏDƏR GÜCLÜDÜR!!!

Beynimdəki boşboğazlıqlar, mənfi fikirlər bu nəriltinin gətirdiyi küləklə quşlar, dovşanlar, antiloplar kimi dağılışdılar. Ardınca səssizlik gəldi. Gərgin, kəskin, qorxulu bir sükut... Ürəyimdəki şir geniş düzənliyində yenidən sükuta qərq olan krallığına məmnun halda göz gəzdirdi. Qabağındakı iri ətləri yaladı, gözlərini yumdu və yuxuya getdi.

Nəhayət, bu füsunkar səssizlikdə Tann haqqında (və Tann ilə) dərin meditasiyaya qərq oldum.

51

Texaslı Riçardın bəzi maraqlı vərdişləri var. Nə vaxt aşramda yanımdan keçəndə fikrimin milyon kilometrlərlə uzaqda olduğunu bildirən qarışıq üz ifadəmi görsə, - “Devid necədir?” - deyə soruşur.

downloaded from KitabYurdu.org

“İşinlə məşğul ol, - deyə cavab verirəm. - Mənim nə fikirləşdiyimi bilmirsən, cənab”.

Lakin o həmişə haqlı olur.

Onun başqa bir vərdişi də meditasiya salonundan çıxmağımı gözləməkdir. Çünki oranı tərk edəndə fikirli, pərişan görünürəm və dediyinə görə, bu halıma tamaşa etmək xoşuna gəlir. Elə bil ki, timsahlar və ya ruhlarla güləşdən qayıdıram. Özü ilə bu qədər mübarizə aparan bir şəxsə əvvəllər rast gəlmədiyini deyir. Bununla bağlı heç nə deyə bilməyəcəyəm, amma qaranlıq meditasiya salonunda olduqca gərgin vaxt keçirdiyimi boynuma alıram. Ən dəhşətli təcrübələrim isə daxilimdəki qorxunun qalıqlarından xilas olanda və enerjinin
onurğa sütunumla yuxarı qalxaraq azad olmağına icazə verməsi ilə baş verir. Kundalini şaktiyə mif kimi yanaşıb rədd etdiyim vaxtlara indi gülürəm. Bu enerji daxilimə hopanda aşağı sürətli dizel mühərriki kimi guruldayır və mənə sadə bir sual verir - Ciyərlərin, ürəyin və digər daxili orqanların çöldə və bütün kainat daxilində qalacaq formada özünü yavaşca tərs üzünə çevirə bilərsən? Duyğularına da bunu tətbiq edə bilərsən? Zaman bu gurultulu yerdə qəribələşir, mən isə key, lal, başım gicəllənmiş halda müxtəlif dünyalara bölünürəm və hissiyyatın ən kəskin halını yaşayıram: Alov, soyuq,

downloaded from KitabYurdu.org

nifrət, şəhvət, qorxu... Hamısı qurtarandan sonra ayaqlanma qədər titrəyirəm və bu vəziyyətdə çölə çıxıram - canavar kimi ac, ümidsiz halda susuz, üçgünlük məzuniyyətə çıxan dənizçidən daha azğın. Riçard, adətən gülməyə hazır halda məni gözləyir. Fikirli və yorğun üzümü görəndə hər dəfə eyni sözlərlə mənə sataşır: "Nə vaxtsa istədiyinə nail olacağına inanırsan, Dağsiçanı?"

Amma bu səhər meditasiyada şir, - "Sən, hətta təsəvvür belə edə bilmirsən ki, mənim sevgim nə qədər güclüdür!!!" - deyə nərə çəkəndən sonra meditasiya mağarasından döyüşçü
kraliça kimi çıxdım. Riçard həyatda nə vaxtsa istədiyimə nail olacağımı fikirləşib-fikirləşmədiyimi soruşmağa fürsət tapana qədər onun gözlərinin içinə baxıb dedim: "Artıq nail olmuşam, cənab".

"Gəl kəndə gedək, - Riçard dedi, - Bunu qeyd etməliyik. Gəl, Dağsiçanı. Sənə "thumbs-up" alacağam".

"Thumbs-up" yüngül hind içkisidir. Koka-kolaya oxşayır, amma ondan doqquz dəfə çox şirindir və tərkibində üç dəfə artıq kofein var. Deyəsən, metamfetamin də qatırlar. Onu içəndən sonra hər şeyi cüt görməyə başlayıram. Həftədə bir neçə dəfə Riçardla bir şüşə "thumbsup" alıb bölüşürük. Aşramdakı vegetarian yeməklərdən sonra radikal bir təcrübədir. Hər dəfə şüşəni

downloaded from KitabYurdu.org

dodaqlanmıza toxundurmamağa çalışırıq. Riçardın Hindistanda səyahətlə bağlı maraqlı qaydası var: “Özündən başqa heç nəyə toxunma” (Və bu da kitabın adı üçün ilkin versiyalardan biri idi).

Kənddə biz öz sevimli marşrutumuz üzrə gedirik: Mütləq məbədə yollanır və dərzi cənab Panikarla salamlaşırıq, o əlimizi sıxıb, - “Sizinlə tanış olduğuma görə şadam”, - deyir. İnəklərin
ətrafda fırlanaraq öz müqəddəsliklərindən zövq almaqlarına tamaşa edirik (Məncə, onlar yolun düz ortasında yatmaqla faktiki olaraq öz müqəddəsliklərindən sui-istifadə edirlər). Bir də bura necə gəlib çıxdıqlarını düşünürmüş kimi qulaqlarının dibini qaşıyan itlərə baxırıq. Boğanaq günəşin altında qollarını çirməyib ayaqyalın halda yolu açmaq üçün çəkiclə qayaları parçalayan qadınlar daha maraqlıdır. Qızılı rəngdə sariləri, boyunbağı və bilərzikləri ilə özünəməxsus gözəllikləri var. Bizə bəxş etdikləri gözqamaşdıran təbəssümün sirrini hələ başa düşməmişəm. Belə ağır şəraitdə bu işlə məşğul olarkən necə bu qədər xoşbəxt görünə bilirlər? Necə olur ki, ağır çəkiclərlə adamı bişirən bu istidə on beş dəqiqə işləyəndən sonra özlərindən gedib ölmürlər? Bu sualı dərzi cənab Panikara verdim və o, buradakı kəndlilərin belə olduqlarını, dünyanın bu

downloaded from KitabYurdu.org

hissəsindəki insanlann bu cür ağır iş üçün doğulduqlarını və buna vərdiş etdiklərini dedi.

“Həmçinin, - deyə soyuqqanlılıqla əlavə etdi, - biz o qədər də çox yaşamırıq”.

Doğrudur, bura kasıb kənddir, amma Hindistan standartlarına görə vəziyyət elə də ümidsiz deyil. Aşramm mövcudluğu və xeyirxahlığı, qərbli turistlərin pulları bir xeyli kömək edir. Doğrudur, burada almaq üçün o qədər də çox şey yoxdur. Buna baxmayaraq, Riçardla təsbeh və balaca heykəllər satılan mağazalan gəzməyi xoşlayırıq. Kəşmirdən olan hiyləgər satıcılar bütün enerjilərini bizə nə isə satmağa xərcləyirlər. Bir dəfə onlardan biri arxamca gəlib evimə gözəl bir Kəşmir xalçası almaq istəyib-istəmədiyimi soruşdu.

Riçardı gülmək tutdu. Onun sevimli hobbilərindən biri də mənim evimin olmaması ilə məzələnməkdir.

“Əziyyət çəkmə, qardaş, - Riçard dedi, - bu qızın xalçanı sərməyə döşəməsi yoxdur”.

Yorulmaq bilməyən kəşmirli satıcı təklif etdi: “Onda bəlkə xanım xalçanı divardan asmaq istəyir?”

“Qulaq as, - Riçard dedi, - əslində, onun heç divarı da yoxdur”.

“Amma mərd bir ürəyim var!” - özümü müdafiə etmək üçün araya girdim.

downloaded from KitabYurdu.org

“Və digər müsbət keyfiyyətlərin”, - deyə Riçard əlavə elədi.

52

Aşramdakı ən böyük problemim, əsimdə, meditasiya deyil. Əlbəttə ki, bu çətindir, amma ölümcül deyil. Daha böyük bir çətinliyim var. Ölümcül məsələ, hər səhər yeməkdən əvvəl və sonra oxunan (İlahi, burdakı səhərlər necə də uzun olur) “Qurugita” adlı ilahi mantradır. Riçard onu “git” adlandırır. Bu “git” məni çox qorxudur. Nyu Yorkdakı aşramda ilk dəfə tanış olandan bəri onu sevmirəm. Yoqa ənənəsinə xas olan digər mantra və himnlərin hamısını sevirəm, ama Qurugita mənə çox uzun, yorucu, ahəngdar və dözülməz gəlir. Əlbəttə, bu subyektiv fikrimdir. Başqalan onu sevdiklərini deyirlər. Bunun səbəbini başa düşə bilmirəm.

Qurugita 182 misradan ibarət, bəzən mənim də oxuduğum kimi ucadan qışqırılan, başa düşə bilmədiyim sanskrit dilində sözlər toplusudur. Giriş hissəsi və yekun nəqarəti ilə bir yerdə bu mərasim təxminən saat yanm davam edir. Xatırladım ki, bu proses səhər yeməyindən əvvəl və birsaatlıq meditasiya ilə

iyirmidəqiqəlik səhər himnindən sonra baş verir. Beləliklə, Qurugita səhər saat 03:oo-da oyanmağıma səbəb olur.

downloaded from KitabYurdu.org

Melodiyasını sevmirəm. Sözləri də xoşuma gəlmir. Aşramda bunu kimə desəm, - “Ah, amma o, çox müqəddəsdir!” - cavabını eşidirəm. Ona qalsa Eyyubun kitabı da müqəddəsdir, amma onu hər səhər yeməkdən əvvəl ucadan oxumaq istəmərəm.

Qurugitanın meydana gəlmə prosesi olduqca təsirlidir. Skanda Purana adlı çox hissəsi itən, geridə qalan az bir qismi isə sanskrit dilindən hind dilinə tərcümə edilməyən qədim, müqəddəs yoqa mətnindən götürülüb. Müqəddəs yoqa mətnlərinin bir çoxunda olduğu kimi qarşılıqlı söhbət şəklində, demək olar ki, Sokratın dialoqu üslubunda qələmə alınıb. Dialoq ilahə Parvati ilə güdrətli, güclü tanrı Şiva arasında baş tutur. Parvati və Şiva yaradıcılığı (qadını) və şüuru (kişini) təcəssüm etdirirlər. Parvati kainatın yaradıcı qüvvəsi, Şiva isə müdrikliyidir. Şiva nəyi təsəvvür etsə, Parvati ona həyat verir. Şiva xəyal edir, Parvati reallaşdırır. Onların rəqsi, birliyi (yoqa) kainatın və onun təzahürünün səbəbidir.

Qurugitada ilahə tanrıdan dünyəvi toxluğun sirrini soruşur və Şiva izah edir. Bu himn məni əsəbiləşdirir. Aşramda qaldığım müddət ərzində Qurugita barəsindəki fikrimin dəyişəcəyinə ümid edirdim. Hindistan mühitinin mənə onu sevməyi öyrədəcəyini düşünürdüm, amma əksinə oldu. Əvvəllər Qurugita, sadəcə, o qədər də

downloaded from KitabYurdu.org

xoşuma gəlmirdi, ancaq burda bir neçə həftə keçirəndən sonra ondan əməlli-başlı qorxmağa başladım. Ora getmək əvəzinə mənəvi inkişafım üçün daha faydalı olan digər məşğuliyyətlərə vaxt ayırmağa başladım: Gündəlik yazmaq, duş qəbul etmək və ya Pensilvaniyadakı bacıma zəng edib uşaqlarının necə olduğunu soruşmaq kimi işlər.

Mantraya getməyəndə Texaslı Riçard dərhal yoxluğumu hiss edir: "Bu səhər gözümə dəymədin", - deyir. Mən isə "Tanrı ilə fərqli yollarla ünsiyyət qururam", - deyə cavab verirəm. O, - "Yuxuda ünsiyyət qurursan?" - deyə soruşur.

Bu mərasimə qatılmaq isə məni təşvişə salmaqdan başqa heç nəyə yaramır. Fiziki cəhətdən yoruluram. Mən sanki oxumuram, hamının arxasınca sürünürəm. Məni tər-su basır.

Bu, qəribədir, çünki həmişə çox üşüyən olmuşam. Hindistanın bu yerində yanvar ayında günəş doğmadan əvvəl hava çox soyuq olur. Xorda məndən başqa hamı papaq geyinir, yun örtüklərə bürünüb oturur. Mən isə çox işlənmiş kənd atı kimi qızışıb mahnı boyu əynimdəkiləri çıxarıram. Qurugitadan sonra məbədi tərk edirəm və səhərin soyuğunda bədənimdən dəhşətli, yaşıl, üfunətli bir duman kimi tər ərşə qalxır. Onu oxumağa çalışanda məni silkələyən duyğuların isti dalğaları ilə müqayisədə

downloaded from KitabYurdu.org

bu fiziki reaksiya yüngüldür. O nəğməni oxuya bilmirəm. Ancaq əsəbi halda quruldayıram.

182 misradan ibarət olduğunu qeyd etmişəm?

Bir neçə gün əvvəl nəğməni bərbad halda "ifa edəndən" sonra buradakı ən sevimli müəllimimin yanma məsləhət almağa getdim. Bu rahibin sanskrit dilində uzun bir adı var. Tərcüməsi belədir: "Öz ürəyindəki tanrının ürəyində yaşayan şəxs". O, altmışdan çox yaşı olan, ağıllı, savadlı bir amerikalıdır. Nyu York Universitetində klassik teatr incəsənəti üzrə professor olub və hələ də öz ad-sanını qoruyur. 30 il əvvəl rahib andı içib. Onu sevirəm, çünki işgüzar və gülməlidir.

Devidlə bağlı fikirlər mənə əzab verən günlərin birində ona öz iztirabımdan danışdım. Mənə diqqətlə qulaq asdı, sonra deyə biləcəyi ən rəhmli məsləhəti verdi və ardınca əlavə etdi: "İndi isə rahib paltanmı öpürəm". Zəfəran rəngli paltarının bir küncünü qaldırıb bərkdən öpdü. Bunun gizli, müqəddəs bir dini ayin olduğunu güman edib ondan bu hərəkətinin səbəbini soruşdum. "Kimsə şəxsi həyatı ilə bağlı məsləhətləşməyə gələndə həmişə bunu təkrarlayıram. Rahib olduğuma və artıq belə problemlərdən uzaq olduğuma görə tanrıya şükür edirəm".

Deməli, Qurugita ilə bağlı problemimi səmimi olaraq

downloaded from KitabYurdu.org

danışmağıma icazə verməyi üçün ona etibar edə bilərdim. Bir axşam yeməkdən sonra bağda gəzməyə çıxdıq. Mən ona bu mantradan heç xoşum gəlmədiyini və məni üzrlü hesab edərək onu oxumaq məcburiyyətindən xilas etməsini xahiş etdim. Qəfildən gülməyə başladı. "Əgər istəmirsənsə oxumaq məcburiyyətində deyilsən. Burada heç kim səni istəmədiyin bir şeyə məcbur edə bilməz", - dedi.

"Axı insanlar bu mənəvi təcrübənin çox əhəmiyyətli olduğunu deyirlər".

"Doğrudur. Amma bunu etməsən cəhənnəmə gedəcəyini də deyə bilmərəm. Sadəcə, qurunun bunu açıq-aydın formada ifadə etdiyini deyə bilərəm - Qurugita meditasiya ilə yanaşı yerinə yetirə biləcəyin ən vacib məşğuliyyət olan yoqanm əsas mətnlərindən biridir. Bir halda ki, aşramda qalırsansa, quru hesab edir ki, hər səhər sübhdən durmalı və oxumalısan".

"Məni narahat edən tezdən durmaq deyil".

"Bəs nədir?"

Rahibə Qurugitanı nəyə görə sevmədiyimi, onun mənə necə xoşagəlməz hisslər bəxş etdiyini danışdım.

"Ah, bir özünə bax! Bu haqda danışanda belə rəngdən rəngə düşürsən".

Düz deyirdi. Qoltuğumun altında yığılıb qalan soyuq,

downloaded from KitabYurdu.org

yapışqan təri hiss edirdim. “Bunun əvəzinə başqa bir şeylə məşğul ola bilmərəm?” - deyə soruşdum. “Hərdən mənə elə gəlir ki, Qurugita vaxtı meditasiya mağarasına getsəm müsbət təsir edə bilər”.

“Eh, Svamici olsaydı, sənə hirslənərdi. Başqalarının enerjisindən istifadə etdiyinə görə sənə oğru deyərdi. Qulaq as,

Qurugitanı oxumağın məqsədi əylənmək deyil. Onun başqa bir funksiyası var. O, təsəvvür edə bilməyəcəyin qədər güclü bir mətndir. O, təmizləmək gücünə malikdir. Çiynindəki yükdən, mənfi duyğulardan səni azad edir. Və əgər onu oxuyanda bu qədər güclü hisslər və fiziki reaksiyalarla qarşılaşırsansa, deməli, sənə müsbət təsir edir. Əzab versə də olduqca faydalıdır”.

“Onu atmamağa özümü necə məcbur edim?”

“Başqa hansı seçimin var? Mübarizəyə başlayan kimi qaçmaq? Bütün həyatım boyu özümü bədbəxt və natamam hiss edərək boş-boş fırlanmaq?”

“Mən səhv eşitdim, ya siz elə beləcə də dediniz: Boşboş fırlanmaq?”

“Bəli, məhz elə dedim”.

“Bəs mən nə etməliyəm?”

“Özün qərar verməlisən. Amma soruşduğuna görə məsləhət verim: Burada qaldığın müddət boyu Qurugitanı

downloaded from KitabYurdu.org

oxumaqdan imtina etmə. Xüsusi ilə də bu qədər böyük reaksiya verdiyinə görə onu oxumalısan. Əgər bir şey çətinə salırsa,
deməli, sənə xeyri var. Qurugita da bunu edir. O, eqonu yandırır və səni saf külə çevirir. Bu proses elə də asan deyil, Liz. Onun gücünü məntiqi olaraq dərk etmək mümkün deyil. Aşramda cəmi bir həftə də qalacaqsan, elə deyilmi? Sonra doyunca gəzib əylənə bilərsən. Elə isə bu mahnını yeddi dəfə də oxu. Bir də heç vaxt onu oxumaq məcburiyyətində qalmayacaqsan. Qurumuzun dediyini yada sal: Öz mənəvi təcrübənin alimi ol. Sən bura turist və ya jurnalist kimi gəlməmisən. Axtarışda olan bir şəxs kimi gəlmisən. Ona görə də kəşf et!”

“Yəni bu qarmaqdan xilas olmağıma icazə vermirsiniz?”

“İstədiyin vaxt özünü bu qarmaqdan azad edə bilərsən, Liz. Bu sənin ilahi varlıqla müqaviləndir və o, azad iradə adlanır”.

53

Ertəsi gün qərarlı addımlarla məbədə üz tutdum, amma Qurugita məni sanki onmetrlik sement pilləkənlərdən aşağı itələdi, hər halda mənə belə gəldi. Növbəti gün bundan da pis keçdi. Yuxudan qorxu ilə oyandım və artıq məbədə çatana qədər bədənim tərdən islanmışdı,

downloaded from KitabYurdu.org

hirslənməyə və hiddətlənməyə başlamışdım. Özümə təsəlli verdim: “Bu proses cəmi saat yarım davam edəcək. Saat yanm ərzində hər şey etmək mümkündür. Xahiş edirəm, bir az dözümlü ol. Gündə on dörd saat işləyən dostlarını yada sal”. Lakin yenə də yerim o qədər narahat idi ki, sanki məni stula mıxlayıb yapışdırmışdılar. Üzümün menopauza ərəfəsində olan qadınlar kimi qızarıb tərlədiyini hiss edirdim və yüksək hərarətim var idi. Qəfildən özümdən gedib yıxılmaqdan, ya da qəzəbdən kimisə dişləməkdən qorxurdum.

Hiddətim çox böyük idi. Bu qəzəb yer üzündəki hər kəsə, xüsusilə də qurumuzun ustadı olan, Qurugita oxuma mərasimini ilk dəfə tətbiq edən Svamiciyə tuşlanmışdı. Bu toqquşma böyük və çoxdan ölən yoqla ilk mübarizəmiz deyildi. Yuxumda o, sahildə yanıma gəlib nəyə görə axının qarşısını kəsmək istədiyimi soruşmuşdu və həmişə onun məni idarə etməyə çalışdığını hiss etmişəm.

Svamici həyatı boyu dayanmadan mənəvi olaraq təhrik etməklə məşğul olub. Assiziyalı Müqəddəs Frensiz kimi Svamici də varlı ailədə doğulmuşdu və ailə biznesini davam etdirəcəyi gözlənilirdi. O isə gənc yaşlarda yaxınlıqdakı balaca bir kənddə yaşayan müqəddəs bir şəxslə tanış olur və onun təcrübələrindən xeyli təsirlənir.

downloaded from KitabYurdu.org

Yeniyetməlik dövründə Svamici belində sarğı ilə evi tərk edir və illərlə Hindistandakı bütün müqəddəs yerləri zəvvar kimi gəzib özünə əsl mənəvi ustad axtarır. Deyilənə görə, altmışdan çox müqəddəs şəxs və quru ilə tanış olmağına baxmayaraq axtardığı ustadını tapa bilmir. O ac qalır, piyada gəzir, qarlı-boranlı havada Himalayda çöldə yatır, malyariya və dizenteriyadan əziyyət çəkir. Buna rəğmən Tanrını ona göstərə biləcək şəxsi axtardığı illəri həyatının ən gözəl dövrü adlandırır. Svamici o dövrdə Hatha-yoq, dərman hazırlamaq üzrə ekspert
və yemək bişirmək üzrə mütəxəssis, memar, bağban, musiqiçi, qılınc oynadan (ən çox bu xoşuma gəlir) olub. Bu illər ərzində özünə quru tapa bilməyib. Ta ki günlərin bir günü ona evinə, uşaq vaxtı həmin müqəddəs insanla tanış olduğu kəndə qayıtmasını və o böyük şəxsiyyətlə birgə işləməsini tövsiyə edən çılpaq, dəli müdriklə rastlaşana qədər...

Svamici ona qulaq asdı, evə qayıtdı. O müqəddəs şəxsin ən sadiq tələbəsi olaraq onun rəhbərliyi altında özünüdərkin ən yüksək mərhələsinə çatdı. Nəhayət, Svamicinin özü də quru oldu. Qısa müddət ərzində Hindistanda kənddə yerləşən bu üçotaqlı aşramı bugünkü möhtəşəm halına gətirdi. Getdikcə daha da ilhamlanaraq səyahətə çıxıb bütün dünyanı meditasiya inqilabına təşviq

downloaded from KitabYurdu.org

etməyə qərar verdi. 1970-ci ildə Amerikaya gəldi və hamının ağlını başından aldı. Gündə yüzlərlə, minlərlə insana ilahi təsir - şaktipat bəxş edirdi. Onlar üzərindəki təsiri bilavasitə və dəyişkən idi. Müqəddəs ata Yucen Kellender (Hörmət edilən insan haqlan lideri, Martin Lüter Kinqin həmkarı və hələ də Harlemdə Baptist kilsələrindən birində pastordur) 1970-ci illərdə Svamici ilə tanış olur və heyrətlə bu
hindlinin qarşısında diz çöküb fikirləşir: "Artıq qaçmağa və ya fikirləşməyə vaxt yoxdur. Bu odur. Bu insan haqqımızda hər şeyi bilir".

Svamici ruh yüksəkliyini, öhdəliyi və səbri təbliğ edirdi. O, həmişə şagirdlərini laqeydliyə görə (hind dilində "cad") - tənbeh edirdi. Üsyankar qərbli ardıcıllarının həyatına nizam- intizam gətirir, onlara vaxt və enerjilərini hippi cəfəngiyatları ilə israf etməyi qadağan edirdi. O, əl ağacı ilə şagirdin üstünə hücum edib, bir dəqiqədən sonra da qucaqlaya bilərdi. Mürəkkəb, ixtilaflı, amma sözün əsl mənasında dünyanı dəyişdirməyə qadir olan insan idi. Bu gün Qərbdə qədim yoqa mətnlərinin bizim üçün əlçatan olmasını, Svamicinin Hindistanın çox yerində unudulan fəlsəfi mətnlərin tərcüməsinə və yenidən gündəmə gətirilmə prosesinə rəhbərlik etməsinə görə ona borcluyuq.

downloaded from KitabYurdu.org

Mənim qurum Svamicinin ən sadiq tələbəsi olub. Sözün əsl mənasında onun şagirdi olmaq üçün doğulub. Hindli valideynləri onun ilk tərəfdarlarından olublar. Lap kiçik yaşlarından ilahi bir həvəslə, gündə on səkkiz saat yorulmadan
mantra oxuyardı. Svamici tezliklə onun potensialının fərqinə vanr və yeniyetməlik vaxtlarından özünə tərcüməçi götürür. Dünyanın hər yerinə etdikləri səyahətlər vaxtı o, qurusunu o qədər diqqətlə müşahidə edir ki, sonradan dediyinə görə, qurusunun onunla, hətta dizləri ilə danışa bildiyini hiss edirdi. 1982-ci ildə iyirmi yaşını yenicə adlayan bir vaxtda onun davamçısı olmağa haqq qazanır.

Bütün əsl qurular xarici görünüşlərinə görə fərqlənsələr də, ortaq cəhətləri daim özünü təsdiqləmə vəziyyətində olmaqlarıdır. Mənim qurumla onun ustadı arasında da nəzərə çarpan fərqlər var. Qurum bir neçə dil bilən, ali təhsilli, professional və savadlı qadındır. Svamici isə hərdən şıltaq, hərdən də mehriban olan qədim Cənubi Hindistan aslanı idi. Mənim kimi yeni ingiltərəli qəşəng bir qız üçün həyatda olan, yaşayan bir qurunun ardınca getmək daha asandır. O, evə aparıb ata-ananızla tanış edə biləcəyiniz bir qurudur. Lakin Svamici... Onun nə edəcəyini əvvəlcədən təyin etmək qeyri- mümkün idi.

downloaded from KitabYurdu.org

Yoqaya ilk addımlarımı atanda onun şəkillərini görüb haqqında danışılan hekayələri dinləyəndən sonra, - “Bu qocadan uzaq olmalıyam, - deyə qərar vermişdim. - O, çox böyükdür. Məni gərginliyə salır”.

Hindistanda onun evi olan aşrama gələndən sonra isə axtardığımın Svamici olduğunu başa düşdüm. Təkcə onu hiss edirəm. Meditasiya və dua vaxtı ancaq Svamici ilə danışıram. Sanki sutka ərzində ancaq Svamici yayımlanan bir telekanala baxıram. Burada onun ocağındayam və mənim üzərimdə işlədiyini hiss edirəm. Ölümündə belə o qədər dünyəvi və canlıdır ki... Mübarizə aparanda ehtiyacım olan ustad odur. Çünki onu lənətləyib bütün səhvlərimi, qüsurlanmı göstərə bilirəm və gülməkdən başqa heç nə eləmir. Gülür və məni sevir. Onun gülməyi məni əsəbiləşdirir və bu qəzəb məqsədimə çatmaq üçün məni motivasiya edir. Qurugitanın qarışıq misralarının içində itib-batanda özümü ona daha yaxın hiss edirəm. Svamici ilə beynimin içində daim mübahisə gedir. “Mənim üçün nə isə etməlisən, çünki mən bunların hamısını sənə görə edirəm. Nəticə əldə etməliyəm! Bu, daxili təmizlənmə olsa daha yaxşı olar!” və s. bu kimi lovğa cümlələr deyirəm. Dünən ilahi mantralar kitabıma baxıb hələ iyirmi beşinci
misrada olduğumuzu görəndə, adamlar tərləyən kimi yox,

downloaded from KitabYurdu.org

soyuducudakı pendir kimi tərləməyə, başladım və elə hirsləndim ki, - “Ola bilməz!” - deyə ucadan qışqırdım. Bir neçə qadın qorxu ilə çevrilib mənə baxdı və şübhəsiz ki, boynumun üstündəki başımın içində şeytani fikirlərin fırlandığını düşündülər.

Bir müddət Romada yaşadığımı, səhərlər işim olmayanda peçenye yeyib kapuçino içərək qəzet oxuduğumu tez-tez yadıma salıram.

Bu hissləri yada salmaq çox xoşdur...

Amma o günlər mənə indi çox uzaq görünür.

54

Bu səhər yatıb qaldım. Səhər saat 4:i5-ə qədər tənbəllik edib yatdım. Qurugita başlamağına cəmi bir neçə dəqiqə qalmış oyandım, özümü yerimdən durmağa məcbur etdim, üzümə su vurdum, paltarımı geyindim. Qaranlıqda əsəbi, yuxulu və kefsiz halda çıxmağa hazırlaşanda otaq yoldaşımın məndən əvvəl çıxıb qapını qıfılladığım gördüm.

Nəyə görə belə etdiyini başa düşmədim. Otağımız elə də böyük deyil və onun hələ oyanmadığımı görməməyi mümkün deyil. Və o, avstraliyalı, beş uşaq anası olan məsuliyyətli qadındır. Bu hərəkət ona uyğun deyil, amma baş verib. Məni otaqda dustaq edib.

İlk ağlıma gələn fikir belə idi: Qurugitaya getmək

downloaded from KitabYurdu.org

istəmirəmsə, bundan yaxşı bəhanə ola bilməz. İkinci fikir nə idi? Əslində, bu, fikir yox, hərəkət idi.

Pəncərədən aşağı tullandım.

Daha doğrusu, məhəccərin üstündən sürünə-sürünə çıxdım, tərləmiş ovuclarında onlan bərk-bərk sıxdım və həmin hündürlükdə asılı qalanda özümə sual verdim: "Niyə pəncərədən tullanırsan?" Cavabım olduqca kəskin oldu: "Qurugitaya vaxtında çatmalıyam!" Sonra əllərimi buraxdım və qaranlıq boşluqdan beton səkiyə qədər beş-altı metrlik məsafəni dəf etdim. Sağ baldırım azca əzildi, amma vecimə deyildi. Ayağa qalxdım, üst-başımı təmizlədim və nəbzim qulaqlarımda ata-ata məbədə kimi ayaqyalın qaçdım. Qurugita tam başlamaq üzrə ikən çatdım. Özümə bir stul tapdım, mantra kitabımı açdım və ayağımdan qan axa-axa oxumağa başladım.

Bir neçə misradan sonra nəfəsimi tutdum və normal, instinktiv səhər fikirləri məni əhatə etdi: Burada olmaq istəmirəm! Bunu eşidən kimi Svamici beynimin içində bərkdən qəhqəhə çəkdi və dedi: "Bu gülməlidir. Burada olmaq istəmirsənsə, niyə belə edirsən?"

Mən isə ona, "Yaxşı, sən qalib gəldin", - deyə cavab verdim.

Yaram qanaya-qanaya orada oxuyanda mənəvi təcrübə ilə bağlı düşüncələrimin dəyişməli olduğunu ağlımdan

downloaded from KitabYurdu.org

keçirirdim. Qurugita saf sevgini tərənnüm edən bir mantradır, amma hansısa bir qüvvə məni ona səmimi sevgi ilə qarşılıq verməkdən çəkindirir. Ona görə də hər misranı oxuyanda öz daxilimdə saf sevginin olduğu bir yer tapa bilmək üçün bu mantranı həsr edəcək kiməsə və ya nəyəsə ehtiyacım olduğunu başa düşdüm. İyirminci misrada bu şəxsi tapdım: Nik.

Bacım oğlu Nikin səkkiz yaşı var. Dəhşətli dərəcədə hiyləgər, həssas, yaşma görə bir qədər zəif və qəribə uşaqdır. Hətta doğulandan bir neçə dəqiqə sonra onunla eyni vaxtda dünyaya gələn uşaqlardan təkcə o ağlamırdı. Ətrafa yetkin insan kimi dünyəvi və narahat baxışlarla elə diqqətlə nəzər yetirirdi ki, sanki əvvəllər də bunlan görüb və hər şeydən xəbərdardır. Onun üçün həyat heç də sadə deyil. Hər şeyi dərindən eşidir, görür və hiss edir. Bəzən o qədər həssas olur ki, qorxmağa başlayırıq. Onu dərindən sevir və həmişə qorumağa çalışıram. Hindistan ilə Pensilvaniya arasında saat fərqini hesabladım. Onun yatmaq vaxtına az qalırdı. Ona görə də
Qurugitanı bacım oğlu Nikin rahat yuxuya getməsi üçün oxuyuram. Bəzən zehnini susdura bilmədiyinə görə yuxulamaqda çətinlik çəkir. Ona görə də bu himnin hər bir müqəddəs sözünü ona həsr edirəm. Ona həyat haqqında öyrətmək istədiyim hər şeyi mahnıya

downloaded from KitabYurdu.org

dolduraraq oxuyuram. Həyatın bəzən çox çətin və qəddar olduğunu, amma bunun əhəmiyyəti olmadığını deyirəm. Hər misrada onu sevənlərin nə qədər çox olduğunu vurğulayıram. Ona kömək etmək üçün əlindən gələn hər şeyi etməyə hazır olan ruhlarla əhatə olunduğunu deyirəm. Bununla da kifayətlənmirəm. O, varlığına dərindən hopmuş, yeri gələndə üzə çıxan və onun bütün cəhdlərini qələbə ilə mükafatlandıracaq ağla və səbrə malikdir. O, tanrının bizə bir mükafatıdır. Ona bu həqiqəti qədim sanskrit mətni vasitəsilə deyirəm və gözlərimdən soyuq damcılar axdığını hiss edirəm. Amma göz yaşlarımı silməyə fürsət tapmamış Qurugita sona çatır. Saat yarım beləcə keçib gedir. Mənə isə elə gəlir ki, cəmi on dəqiqə keçib. Nə olduğunu başa düşdüm - buna nail olmağımın səbəbkarı Nikdir! Kömək etmək istədiyim balaca ruh özü mənə kömək etdi.

Məbədin qabağına doğru getdim və tanrıya, sevginin inqilabi gücünə, özümə, quruma və bacım oğluna - bu sözlərin, fikirlərin və ya şəxslərin heç biri arasında fərq olmadığını molekulyar səviyyədə qısaca izah edərək şükür etdim. Sonra meditasiya mağarasına üz tutdum və səhər yeməyindən də imtina edib orada iki saat keçirdim.

Bu hadisədən sonra Qurugitaya heç vaxt gecikmədiyimi deməyə ehtiyac yoxdur və bu mənim

downloaded from KitabYurdu.org

aşramdakı ən müqəddəs təcrübələrimdən biri oldu. Texaslı Riçard isə fürsəti qaçırmadı və yataqxana pəncərəsindən tullanmağında necə lazımdı məzələndi. Hər dəfə şam yeməyindən sonra mənə, - "Sabah "git" vaxtı görüşərik, Dağsiçanı. Bu dəfə fərqli olsun deyə pilləkənlərdən istifadə etməyə çalış", - deməyi yaddan çıxarmadı. Əlbəttə ki, növbəti həftə bacıma zəng etdim və heç kimin başa düşə bilmədiyi bir səbəbə görə Nikin artıq yuxuya getməkdə çətinlik çəkmədiyini öyrəndim. Bir neçə gündən sonra kitabxanada hind müqəddəslərindən olan Sri- Ramakrişna haqqında kitab oxuyanda böyük ustadın yanma gəlib ona kifayət qədər yaxşı tərəfdar olmadığından və Tanrını
kifayət qədər sevmədiyindən qorxan bir tədqiqatçı haqqında hekayəyə rast gəldim. Müqəddəs şəxs ona belə deyir: "Sevdiyin heç nə yoxdur?" Qadın balaca bacısı oğlunu dünyadakı hər şeydən çox sevdiyini boynuna alır. Müqəddəs isə cavab verir: "Elə isə o sənin Krişnandır. Bacın oğluna xidmət etməklə, Tanrıya xidmət edirsən".

Amma bunların hamısı ikinci dərəcəli məsələlərdir. Ən təəccüblü hadisə pəncərədən tullandığım gün başıma gəldi. Həmin gün günortadan sonra otaq yoldaşım Delia ilə rastlaşdım. Ona məni qapısı qıfıllı otaqda qoyub getdiyini dedim. Heyrətdən donub qaldı və dedi: "Bunu

downloaded from KitabYurdu.org

nəyə görə etdiyim barədə heç bir təsəvvürüm yoxdur! Hətta həmin səhər səni fikirləşirdim. Dünən gecə səninlə bağlı qəribə yuxu görmüşəm. Bütün gün həmin yuxu beynimdən çıxmayıb".

"Yuxunu danışa bilərsən?" - soruşdum.

"Yuxumda sən yanırdın, - Delia dedi. - Çarpayın da alov dilimlərinin arasında idi. Sənə kömək etmək üçün yerimdən durdum, amma mən çatana qədər ağappaq külə dönmüşdün".

55

Bu hadisədən sonra aşramda qalmağı qərara aldım. Bu, planlarıma daxil deyildi. Planıma əsasən, altı həftə burada qalıb xeyli mənəvi təcrübə toplayandan sonra bütün Hindistanı gəzməli, Tanrını axtarmalı idim. Xəritələrim, bələdçi kitablarım, piyada gəzmək üçün aldığım çəkmələr, bir sözlə, hər şey hazır idi! Getmək arzusunda olduğum məbədlər, məscidlər, tanış olmaq istədiyim müqəddəslər var idi. Mən Hindistandayam! Burada görməli və sınaqdan keçirilməli o qədər şey var ki. Qət etməli olduğum kilometrlər, kəşf etməli olduğum məbədlər, minməli olduğum fillər, dəvələr var. Qanq çayını, Racastan səhrasını, çılğın Mumbay kinoteatrlarını, Himalayı, köhnə çay plantasiyalarını, Ben-qurdakı maşın səhnəsindəki kimi bir-birləri ilə yarışan Kəlküttə

downloaded from KitabYurdu.org

rikşalanm görməsəm peşman olardım. Mart ayında Carmsalda Dalay Lama ilə tanış olmaq belə planlarıma daxil edilib. Onun Tanrım mənə öyrədəcəyinə ümid edirdim.

Bu balaca, ucqar kənddəki aşramda oturub qalmaq əsla planımda yox idi.

Digər tərəfdən, Zen ustadlan axan suda deyil, təkcə durğun suda əksimizi görə biləcəyimizi deyirlər. Beləliklə, hansısa bir qüvvə mənə günün hər dəqiqəsini özünü dərk etməyə və ibadətə həsr etmək üçün təşkil olunan bu balaca, qapalı yerdən indi çıxıb getməyin mənəvi inkişafım baxımından səhlənkarlıq olacağını pıçıldayırdı. Belimdə çanta ilə bir qatardan düşüb o birinə minməyə, bağırsaq parazitinə yoluxmağa bu qədərmi marağım var idi? Bunu sonra edə bilməzdim? Dalay Lama ilə başqa vaxt tanış ola bilməzdim? (Əgər Allah eləməsin, ölsə onun yerinə başqasını tapmayacaqlar ki?) Onsuz da pasportdakı şəklim döyməli sirk qadınının şəklinə oxşamırını? Daha çox gəzmək məni doğrudanmı ilahi varlığa yaxınlaşdıracaq?

Nə etməli olduğumu bilmirdim. Bir günümü qərar verməyə xərclədim. Həmişəki kimi yekun söz yenə də Texaslı Riçardın oldu.

“Burda qal, Dağsiçanı, - dedi. - Gəzməyi təxirə sal.

downloaded from KitabYurdu.org

Həyatının qalan hissəsində bununla məşğul ola bilərsən. Sən ilahi bir səyahətə çıxmısan, əzizim. Geri dönmə və işini yanmçıq qoyma. Burda tanndan xüsusi bir dəvətnamə qəbul etdin. Doğrudanmı bundan imtina edəcəksən?"

"Axı Hindistanda görməli o qədər yerlər var ki. Dünyanın o biri başından durub gələn bir şəxsin bütün vaxtını balaca bir aşramda keçirməyinə heyfsilənmirsən?" - deyə soruşdum.

"Dağsiçanı, əzizim, dostun Riçarda qulaq as. Qarşıdakı üç ay ərzində meditasiya mağarasına get, sənə söz verirəm, o qədər gözəl şeylər görəcəksən ki, Tac Mahalı daşqalaq etmək istəyəcəksən!"

56

Bu səhər meditasiyada bunları götür-qoy edirdim:

Birillik səyahətim başa çatandan sonra harada yaşayacağımı düşündüm. Nyu Yorka getmək ürəyimcə deyildi. Bəlkə onu başqa bir şəhərlə əvəz edim? Ostin pis yer deyil. Çikaqonun zəngin memarlığı var, amma burada qış dəhşətli keçir. Sidneylə bağlı maraqlı fikirlər eşitmişəm. Əgər Nyu Yorka nisbətən daha ucuz bir yerdə yaşasam, meditasiya otağı kimi istifadə edə biləcəyim əlavə yataq otağım da ola bilər! Bu əla olardı. Divarlarını qızılı və ya göy rəngə boyayardım. Yox, qızılı... Ya da

downloaded from KitabYurdu.org

göy...

Fikrimin gedişatma nəzər yetirəndə dəhşətə gəldim. Öz- özümə dedim: Burada, Hindistanda - dünyanın ən müqəddəs yerlərindən biri olan aşramdasan. İlahi varlıqla əlaqə qurmağa çalışmaq əvəzinə, gələn il hələ seçmədiyin bir şəhərdə, hələ mövcud olmayan evdə harada meditasiya ilə məşğul olacağını
planlaşdırırsan. Olduğun yerdə, indi burada meditasiya ilə məşğul olsan necə olar, ay axmaq?!

Fikrimi yenidən mantranın səssiz təkranna cəmlədim.

Bir neçə dəqiqədən sonra özümə ünvanladığım "axmaq" müraciətini geri almaq üçün dayandım. Bu söz o qədər də xoşagələn deyildi.

Gözlərimi açıb dərindən ah çəkdim. Doğrudan da bundan yaxşısını bacara bilməzdim?

Beləliklə, həmin axşam yeni bir şeyi sınaqdan keçirdim. Aşramda bir müddət əvvəl Vipassana meditasiyasmı öyrənən bir qadınla tanış olmuşdum. Vipassana ortodoksal, asketik və intensiv bir buddist meditasiya texnikasıdır. Əsasən, oturmaqdan ibarətdir. Vipassanaya giriş kursu on gün davam edir. Bu vaxt ərzində hər biri iki-üç saat çəkən səssizlik müddətlərinə bölünən on saat ərzində otursunuz. Buna meditasiyanm "ekstrimal idman növü" demək olar. Vipassanada ustadın

downloaded from KitabYurdu.org

sənə mantra vermir. Bu, bir növ aldatmaq sayılır. Vipassana meditasiyası zehninə şahid olan və fikrini düşüncə nümunələrinə cəmləməyini tələb edən, lakin eyni zamanda heç nəyin səni yerindən qaldırmağına icazə verməməli olduğun saf bir təlimdir.

Fiziki cəhətdən adamı xeyli yorur. Oturandan sonra özünü nə qədər narahat hiss etsən də, bədənini tərpətmək qadağandır. Sadəcə, hərəkətsiz oturmalısan. "Növbəti iki saat ərzində tərpənməzliyini qoruyub saxlayırsan". Əgər narahatsansa, fiziki ağrının sənə necə təsir etdiyini müşahidə edib həmin narahatlığı meditasiya obyektinə çevirməlisən. Real həyatda fiziki, emosional və psixoloji çətinliklərimizdə kədər və digər xoşagəlməz duyğulardan xilas olmaq üçün, narahatlıqdan kənara çıxa bilmək üçün daim kənara tullanırıq. Vipassana meditasiyasma əsasən, kədər və digər xoşagəlməz hisslər bu dünyada qaçılmazdır. Lakin əgər özünü lazım olan müddət ərzində hərəkətsiz saxlaya bilsən, vaxt keçdikcə hər şeyin (həm yaxşı, həm də pis hisslərin) keçib getdiyini görəcəksən.

"Dünya ölüm və dağıntılardan əziyyət çəkir. Ağıllı şəxslər onun bu xüsusiyyətlərini bildiklərinə görə əzab çəkmirlər", - qədim bir buddist təlimi deyir. Başqa sözlə desək, - "Buna vərdiş et".

Vipassananın mənə lazım olan yol olduğunu

downloaded from KitabYurdu.org

düşünmürəm. Mənim rəhm, sevgi, kəpənəklər, xoşbəxtlik və mehriban tanrı (dostum Dersi bunu, - “Mürgüləyənlər qonaqlığının teologiyası” adlandırır) haqqındakı ibadət fikirlərimə görə bu üsul həddindən artıq kəskindir. Bəzi buddistlər tərəfindən asılılığın sonuncu həddi, təhlükədən qorunmaq üçün yorğan, saflaşmağa aparan yolda tərk edilə biləcək axırıncı varlıq hesab olunduğuna görə Vipassanada tanrıdan bəhs edilmir. Digər insanlarla emosional bağlılıqdan imtina edərək, hələ də müqəddəs ayrılığın təqibi haqqında danışılanda özlərini silkələyib, - “Dostum, bu, görməli olduğun axınncı işdir!” - deyə qışqırmaq istədiyim mənəvi tədqiqatçılarla qarşılaşandan sonra mənim də ayrılma ilə bağlı özünəməxsus problemlərim var.

Buna baxmayaraq, ağıllı olaraq tətbiq edilən bölünmə sülhə və rahatlığa qovuşdura bilər. Və günlərin bir günü kitabxanada Vipassana meditasiyası ilə bağlı məlumatlara nəzər salandan sonra həm məni narahat edən qəm-qüssədən uzaqlaşmaq, həm də daha çox həzz üçün ac şəxs kimi

çırpınmaqla balıq kimi çapalayaraq ətrafa dəydiyimi və bununla xeyli vaxt itirdiyimi fikirləşməyə başladım. Və hərəkətsiz dayanmağı, çala-çuxurlu yollarda aşa-aşa getməyə başlamazdan əvvəl dözümlü olmağı öyrənməyin

downloaded from KitabYurdu.org

mənə (və məni sevməyi özünə peşə seçənlərə) kömək edib-etməyəcəyini bilmək istəyirdim.

Bütün bu suallar bu axşam aşramm bağında sakit bir skamya tapıb birsaatlıq Vipassana stilində meditasiya etməyə qərar verəndə məni dövrəyə aldı. Hərəkət, əzab, hətta mantra belə yoxdur. Sadəcə, saf münasibət göstərməlisən. Görək nə baş verəcək. Təəssüf ki, gecə vaxtı qaranlıq düşəndə ağcaqanadların peyda olduğunu unutmuşam. Alatoranlıqda o skamyaya oturan kimi ağcaqanadların qrup halında hücuma keçib üzümə, başıma, topuqlarıma, qollarıma sürtündüklərini hiss edirdim. Və sonra sərt şəkildə dişləyirlər. Bu vəziyyət heç xoşuma gəlmədi. “Vipassana meditasiyası üçün günün bu vaxtı münasib deyil”, - deyə fikirləşdim.

Elə isə hərəkətsiz qalmaq üçün günün hansı saatını seçməliydim? Ətrafda uğuldayan, diqqəti yayındıran, özündən

çıxaran səbəblər nə vaxt olmur ki? Ona görə də qərar verdim (yenə də qurumun hər birimizin öz mənəvi təcrübəmizin alimi olduğumuz fikrindən ilhamlanaraq). Özümü yeni bir sınaqla mükafatlandırdım - bir dəfə də belə otursam nə olar ki? Onlan tutmaq, ardınca qaçmaq əvəzinə həyatımın cəmi bir saatını narahat keçirsəm dünya dağılmaz ki.

downloaded from KitabYurdu.org

Beləliklə, bunu yerinə yetirdim. Hərəkətsiz halda dayanıb ağcaqanadlara yem olmağa göz yumdum. Doğrusu, həm özümdən belə cəsarətli bir eksperimentin nəyə lazım olduğunu soruşur, həm də bunun öz ustadım olmaq yolunda sınaqdan keçirdiyim ilk təcrübə olduğunu başa düşürdüm. Əgər sonda ölüm olmayan bir fiziki narahatlığa oturmaqla qalib gələ bilsəm, gələcəkdə başqa hansı çətinliklərdən oturaraq yaxa qurtara bilərəm? Bəs qalib gəlməkdə ən çox çətinlik çəkdiyim emosional əzablarımın axın necə olacaq? Qısqanclıq, qəzəb, qorxu, ümidsizlik, tənhalıq, xəcalət, həsrət necə olacaq?

Əvvəlcə qaşınma məni özümdən çıxanrdı, amma getdikcə bədənimin müxtəlif yerlərində yanma hissi baş qaldırdı və həmin istiliyi mülayim bir eyforiyaya çevirdim. Əzabın
müəyyən xüsusiyyətlərini itirərək saf bir hissə çevrilməyinə icazə verdim. Bu duyğu nə pis, nə də yaxşı idi. Sadəcə, kəskin idi və bu kəskinlik məni öz varlığımdan meditasiyaya ucaltdı. Orada iki saat oturdum. Başıma quş qonsa belə hiss etməzdim.

Bir mövzuda səmimi olmaq istəyirəm. Gördüyüm bu işin bəşər tarixinin ən böyük cəsarət nümunəsi olmadığını boynuma alıram və buna görə şərəf medalı tələb etmək fikrində deyiləm. Məni təəccübləndirən məsələ o idi ki,

downloaded from KitabYurdu.org

yer üzündə keçirdiyim bu otuz dörd il ərzində məni dişləyən ağcaqanadları heç vaxt cəzasız qoymamışam. Həyatım boyu bu duyğunun, o cümlədən, başqa irili-xırdalı milyonlarla ağrı və ya həzz siqnalı verən hisslərin oyuncağı olmuşam. Həmişə bir hadisə baş verən kimi reaksiya vermişəm. Lakin indi reflekslərimə məhəl qoymadan otururam. Heç vaxt sınaqdan keçirmədiyim bir şeyə cəhd edirəm. Əlbəttə, kiçik bir hadisədir, amma bunu nə vaxta qədər deyəcəyəm? Və bu gün mənə əlçatmaz görünən daha hansı işlər sabah reallığa çevriləcək?

Hər şey qurtarandan sonra ayağa qalxdım, otağıma üz tutdum və bədənimə dəyən ziyanı qiymətləndirdim. Təqribən
iyirini yerdən ağcaqanadlar dişləmişdilər. Amma yarım saat ərzində qismən yerləri sağalmağa başladı. Hamısı keçəcək. Gec- tez hər şey keçib gedəcək...

57

Tanrı axtarışı adi, normal dünyəvi qaydalardan imtina deməkdir. Tanrını axtaranda səni özünə cəlb edənə üz çevirib, daha çətinə doğru üzürsən. İmtina etdiklərinin müqabilində sənə daha yaxşılannm təklif ediləcəyinə ümid edib (sadəcə, bir ümid!) xoş və doğma vərdişlərinlə vidalaşırsan. Yer üzündəki bütün dinlərdə həmin dinin

downloaded from KitabYurdu.org

ardıcıllarına qoyulan tələblər eynidir: Tezdən oyan və tanrıya dua et, öz məziyyətlərinə bələd ol, yaxşı qonşu ol, özünə və başqalarına hörmət et, nəfsinə hakim olmağı bacar. Hamımız gec oyanmağın daha rahat olduğu barədə həmfikirik və çoxumuz belə də edirik. Amma minilliklər boyu səhər günəşdən əvvəl oyanıb əl-üzünü yuyandan sonra dua edən insanlar olub. Fəlakət baş verən vaxtlarda o insanlar etiqadlanna sığmırlar.

Özünü inanclarına həsr edənlər qarşılığında mükafat alacaqlarına heç bir zəmanət verilmədiyi halda, ibadətlərini vaxtlı-vaxtında edirlər. Əlbəttə ki, bütün bunların bir qarşılığı
olduğunu vəd edən kitablar, rahiblər var (həmçinin düzgün həyat yaşamadığın təqdirdə, səni gözləyən cəzalarla dolu cəhənnəm hədə-qorxusu da var), amma yenə də bunlara inanmaq belə iman tələb edir. Çünki aramızdan hələ heç kimə oyunun sonu göstərilməyib. Sədaqət heç bir zəmanət verilmədiyi halda səy göstərməkdir. İmanın dediyi budur: “Bəli, mən kainatın qaydalarını qəbul etmişəm və hazırda başa düşməyə qadir olmadığımı əvvəlcədən qəbul edirəm”. “Etiqadın sıçrayışı”nm da bir səbəbi var. Çünki hər hansı bir ilahi fikirlə razılaşmaq qərarı rasionallıqdan naməluma doğru güclü bir sıçrayışdır və ilahiyyatçıların hərəsinin bir qalaq

downloaded from KitabYurdu.org

kitabla, mətnlər vasitəsilə sizə inamın məntiqli olduğunu sübut etməyə çalışmaqları məni maraqlandırmır. Bu, rasionallıqdan uzaqdır. Əgər elə olsaydı, imanın tərifi iman olmazdı. İman görmədiyimiz, toxuna və dərk edə bilmədiyimiz şeylərə duyduğumuz etiqaddır. Üzünü qaranlığa tərəf çevirib bütün gücünlə irəliləməkdir. Əgər biz əvvəlcədən bütün cavabları, Tanrının təbiətini və taleyimizi bilsəydik, imanımız bir etiqad sıçrayışı və ya cəsur bir hərəkət olmazdı.

Həyatımı sığortalamaq istəmirəm. Skeptik olmaqdan bezmişəm. Dinə praqmatik yanaşmağım məni əsəbiləşdirir və özümü narahatlıqla, empirik debatlarla qovrulmuş kimi hiss edirəm. Bunu daha eşitmək istəmirəm. Sübutlar, dəlillər və zəmanətlərə ayıracaq vaxtım yoxdur. Mən, sadəcə, Tanrını istəyirəm. Daxilimdəki Tanrını istəyirəm. Günəşin işığı suda əks olunduğu kimi, Tanrım da dövr edən qanımda hiss etmək istəyirəm.

Getdikcə dualanm daha aydın və konkret olmağa başlayır. Kainata tənbəlcəsinə dualar etməyin bir o qədər də faydalı olmadığını başa düşdüm. Hər səhər meditasiyadan əvvəl məbəddə diz çöküb Tanrı ilə bir neçə dəqiqə danışıram. Burda, aşramda təzə-təzə qalmağa başlayanda çox vaxt ilahi söhbətlər vaxtı fikrim yaymırdı. Yorğun,

downloaded from KitabYurdu.org

fikirlərim qanşıq və əzgin idim. Bütün dualanm bir-birinə oxşayırdı. Bir səhər diz çöküb alnımı yerə qoyduğumu və yaradana müraciət etdiyimi xatırlayıram: “Tannm, nəyə ehtiyacım olduğunu bilmirəm. Amma Sən yəqin ki, ən yaxşısını bilirsən. Mənim üçün nə isə edə bilərsənmi???”

Çox vaxt Tanrı ilə saç ustamla danışdığım tərzdə danışmışam.

Təəssüf ki, bu dualar heç nəyə yaramırdı. Belə duanı eşidəndən sonra Tanrı nə edə bilərdi? Qaşlanm çatıb belə bir cavab göndərdiyini təsəvvür edin: “Bu mövzuda daha ciddi olmağa qərar verəndə mənə yenidən müraciət edərsən”.

Əlbəttə ki, Tanrı mənə nəyin lazım olduğunu yaxşı bilir. Bəs mən özüm bilirəmmi? Çarəsiz və ümidsiz halda Tanrının qarşısında yerə diz çökmək yaxşıdır. Tanrı şahiddir ki, bunu dəfələrlə etmişəm, amma əgər sən də öhdənə düşəni yerinə yetirsən, böyük ehtimalla, bu təcrübədən daha çox fayda qazanarsan. Hər gün kilsəyə gedib müqəddəslərdən birinin heykəli qarşısında dua edən kasıb kişi haqqında maraqlı bir italyan lətifəsi var. Kişi həmin müqəddəsə yalvarır: “Yalvarıram, yalvarıram, yalvarıram, nə olar, lotoreyada qalib gəlməyimə kömək et”. Bu dua aylarla davam edir. Nəhayət, daş heykəl təngə gəlir, canlanır və yalvaran adama yuxandan aşağı baxıb

downloaded from KitabYurdu.org

nifrətlə deyir: “Oğlum, yalvanram, yalvarıram, yalvanram, nə olar, bir lotereya bileti al”, - deyir.

Dua ikitərəfli münasibətdir. İşin yansını mən yerinə yetirməliyəm. Əgər böyük bir dəyişiklik arzuladığıma baxmayaraq, məxsusən nəyi dəyişmək istədiyimi dəqiq və dürüst bildirməyə belə tənbəllik edirəmsə, dəyişiklik necə baş verə bilər? Duanın faydasının yansı tələbə, açıq-aydın ortaya qoyulan və hərtərəfli düşünülmüş bir təqdimata bağlıdır.

Duaların bundan məhrumdursa, bütün xahiş və istəklərin təsirsiz və dözümsüzdür. Onlar soyuq bir duman kimi ayaqlarının dibində fırlanır və heç vaxt yuxan qalxa bilmirlər. Ona görə də artıq hər səhər doğrudan da nə istədiyimi aydınlaşdırmaq üçün özümü tədqiq etməyə vaxt ayırıram. Məbəddə diz çöküb üzümü soyuq mərmərə qoyur, qısa və aydın formada dua etmək üçün lazım olan müddət ərzində elə dayanıram. Əgər səmimi olmadığımı hiss etsəm, səmimi olana qədər başımı qaldırmıram. Dünən faydalı olan üsul bu gün heç bir təsir göstərmir. Diqqətinin yayınmağına icazə versən, dualar köhnəlib monotonlaşır, maraqsız və ənənəvi hala gəlir.

Həyəcanı qoruyub saxlamağa çalışanda, ruhuma xidmət etmək üçün bütün məsuliyyəti öhdəmə götürürəm.

Taleyin də ikitərəfli münasibət olduğunu hiss edirəm...

downloaded from KitabYurdu.org

Bu, ilahi lətafətlə özbaşına səylərimiz arasındakı bir oyundur. Yarısını idarə etmək hüququn yoxdur. Digər yarısı isə tamamilə sənin əlindədir və etdiklərin gözlə görünən nəticələrə gətirib çıxaracaq. İnsan nə tamamilə Tanrının oyuncağı, nə də bütövlükdə öz taleyinin kapitanıdır. Hər ikisindən də bir az var.

Həyatımız boyu, yanbayan hərəkət edən iki atın üstündə tarazlığını qoruyub saxlayan sirk ustaları kimi dörd ayaq üstündə irəliləyirik. Bir ayağımız "tale", digəri isə "azad iradə" adlanan atm üstündədir. Hər gün özümüzə, - "Hansı at hansını təmsil edir?" - sualını verməliyik. Hansı at mənim tərəfimdən idarə olunmadığına görə narahat olmamalıyam və hansı atı bütün gücümü toplayıb idarə etməyə çalışmalıyam?

Taleyimlə bağlı bir çox məsələləri idarə edə bilmirəm. Bunların xaricində, digərləri mənim tabeliyimdədir. Ala biləcəyim müəyyən lotereya biletləri var, beləliklə, məmnun olmaq şansımı artırıram. Vaxtımı necə keçirəcəyimə, kiminlə ünsiyyət quracağıma, bədənimi, enerjimi və pulumu kimlərlə bölüşdürəcəyimə özüm qərar verə bilirəm. Nə yeyəcəyimi, nə oxuyacağımı və hansı sahə üzrə işləyəcəyimi özüm seçirəm. Həyatımdakı uğursuzluqları necə qiymətləndirəcəyimi, onları lənət, yoxsa imkan, fürsət kimi görəcəyimi təyin edirəm (Və

downloaded from KitabYurdu.org

özümə görə həddindən artıq təəssüfləndiyim üçün ən nikbin nöqteyi-nəzərimə qalxa bilməyəndə, nəzər nöqtəmi dəyişməyə çalışmağı xoşlayıram). Başqaları ilə hansı tonda danışacağıma
və hansı sözləri deyəcəyimə özüm hökm verirəm. Və ən əsası, nəyi fikirləşəcəyimə özüm qərar verirəm.

Bu sonuncu konsepsiya mənim üçün yeni bir ideyadır. Bu yaxınlarda fikir etməyi dayandırmaq barəsində bacarıqsız olduğumdan şikayət edəndə, Texaslı Riçard diqqətimi bu mövzuya yönəltdi. O dedi: “Dağsiçanı, hər gün geyinəcəyin paltarları seçdiyin kimi, fikirlərini də götür-qoy etməlisən. Özündə bu bacanğı inkişaf etdir. Həyatındakı prosesləri idarə etməyi bu qədər sevirsənsə, zehnin üzərində də işlə. Əslində, idarə etməli olduğun yalnız odur. Qalan hər şeyi yaddan çıxart. Əgər fikirlərini idarə etməyi öyrənə bilməsən, həmişə əzab çəkəcəksən”.

İlk baxışdan bu adama az qala qeyri-mümkün bir iş kimi görünür. Fikirləri idarə etmək? Bunun əksi olmalı deyil? Bəs əgər bunu edə bilsəm, nə baş verər? Bu, təzyiq və ya təkzib deyil. Təzyiq və inkar mənfi fikir və duyğuların olmadığını iddia edən oyunlar quraşdırırlar. Riçard mənfi fikir və hisslərin mövcudluğu ilə razılaşıb, onların haradan və nəyə görə gəldiklərini aydmlaşdırandan sonra bağışlayıb, özümdən

downloaded from KitabYurdu.org

uzaqlaşdırmağı təklif edir. Bu, terapiya ərzində gördüyün hər hansı bir psixoloji fəaliyyətlə uyğun gələn təcrübədir. Lap əvvəldən nəyə görə belə dağıdıcı fikirlərin olduğunu öyrənmək üçün psixoloqun kabinetinə üz tuta bilərsən. Bunlara qalib gəlməyinə kömək edəcək mənəvi təmrinlərdən faydalanmaq imkanın var. Əlbəttə ki, bütün bunlardan imtina etmək onlan qurban verməyə bərabərdir. Köhnə vərdişlərin, sənə rahatlıq gətirən narazılıqların və tanış xatirələrin itkisi deməkdir.
Bunun üçün də təcrübə və səy lazımdır. Bir dəfəyə mütəxəssisə çevrilməyə ümid etmək olmaz. Daim ayıq-sayıq olmağı tələb edir və mən bunu etmək istəyirəm. Öz gücümü dərk etmək üçün bunu bacarmalıyam. İtalyan dilində deyildiyi kimi, - "Devo farmi le ossa". Mənası belədir: "Öz sümüyümü özüm yaratmalıyam".

Beləliklə, gün ərzində ayıq-sayıq olaraq fikirlərimə diqqət yetirməyə, onlan izləməyə başladım. Gündə 700 dəfə bu andı təkrarlayıram: "Artıq daxilimdə xəstə təfəkkürün məhsulu olan heç bir fikir sığma bilməyəcək!" Nə vaxt beynimdən zərərli fikirlər keçsə, bu andı təkrarlayıram. "Artıq daxilimdə xəstə
təfəkkürün məhsulu olan heç bir fikir sığına bilməyəcək!" İlk dəfə bunu dilə gətirəndə, nədənsə "sığma bilməyəcək" feli diqqətimi cəlb etdi. "Sığma bilməyəcək", yəni

downloaded from KitabYurdu.org

“onlara yer olmayacaq”. Həmin sığınacağın rəsmini gözümün qarşısına gətirdim - azca zədələnmiş, tufanda xəsarət almış, lakin yaxşı yeri olan bir liman... Fikrimin limanı açıq körfəzdir və mənim şüurumun adasına daxil olmaq üçün yeganə giriş buradandır (gənc, vulkanik, amma münbit və gələcəyi parlaq olan bir ada). Doğrudur, bu ada neçə-neçə müharibələrə şahidlik edib, ancaq daim sülh tərəfdarı olub. İndi isə yeni bir liderin (mənim) hakimiyyəti altında təzə taktikaların köməyilə öz yerini qorumağı planlaşdırır. Və istəyirəm ki, indi deyəcəyim fikir yeddi dənizə qədər gedib çıxsın - bu limana daxil olmaq istəyən şəxslər üçün çox sərt qaydalar qoyulub!

Bura sərt və təhqiramiz fikirlərlə daxil ola bilməzsiniz. Xəstə, qul təfəkkürünün məhsulu olan və dava-dalaş arzulayan fikirlərin olduğu gəmilərlə gəlməyin. Əks təqdirdə, geri qayıtmalı olacaqsınız. Həmçinin əsəbi və ya acından ölən sürgünlərlə bağlı fikirlərlə, narazılıq və üsyanla, qatil və
qiyamçılarla, əxlaqsızlarla və təhlükəli olan biletsiz sərnişinlərlə bağlı düşüncələr - sizə də bura girmək qəti qadağandır! Məlum səbəblərə görə Hannibal xarakterli fikirlər girə bilməyəcəklər. Missionerlər belə səmimi olub-olmadıqları aydın olana qədər nəzarət altında olacaqlar. Bura sülh limanı, yenicə rahatlığa qovuşmağa

downloaded from KitabYurdu.org

başlayan gözəl və əzəmətli bir adaya giriş üçün yeganə yoldur. Əziz fikirlərim, əgər bu qaydalarla razısımzsa zehnimə xoş gəlmisiniz! Əks təqdirdə sizi də gəldiyiniz dənizlərə geri qaytararam.

Bu mənim əbədi missiyamdır və mən onu ömrümün sonuna kimi yerinə yetirəcəyəm.

59

On yeddi yaşlı hindli qız Tulsi ilə dostlaşmışıq. Hər gün mənimlə bir yerdə məbədin pilləkənlərini təmizləyir. Axşamlar aşramm həyətində gəzməyə çıxıb Tulsinin ən çox sevdiyi iki mövzu: Tanrı və hip-hop musiqisi haqqında danışırıq. Tulsi bu günə qədər gördüyüm ən şirin balaca kitab qurdudur. Ötən həftə eynəyinin şüşəsi çatlayıb cizgi filmlərdəki hörümçək adamın toruna oxşayandan bəri daha da şirindir. Tulsi eyni zamanda həm maraqlı, həm də yad olan anlayışları təmsil edir. Yeniyetmə, çılğın, hindli qız, ailənin üsyankarı... Bütün varlığı ilə tannya o qədər heyrandır ki, ona vurulduğunu zənn edə bilərsiniz. Həmçinin, sadəcə, Hindistanda rastlaşa biləcəyiniz "möhtəşəm", "cəfəngiyat" kimi müstəmləkələrə xas olan sözləri özündə ehtiva edən gözəl, səlis ingilis dilində danışır. Bəzən də belə fəsahətli cümlələr istehsal edir: "Səhər tezdən şeh düşəndə həyətdə gəzmək bədən hərarətini təbii və xoş bir üsulla aşağı

downloaded from KitabYurdu.org

saldığına görə faydalıdır”. Bir dəfə ona birgünlük Mumbaya
gedəcəyimi deyəndə belə cavab verdi: “Xahiş edirəm, ehtiyatlı ol. Orda hər yerdə sürətlə hərəkət edən avtobuslar var. Özün görəcəksən”.

O, faktiki olaraq həm yaşda, həm də ölçüdə mənim yarım qədərdir.

Son vaxtlarda gəzintilərimiz ərzində Tulsi ilə ailə həyatı barəsində xeyli danışmışıq. Tezliklə on səkkiz yaşı tamam olacaq və ailə qurmaq yaşma qədəm qoyacaq. On səkkiz yaşı tamam olandan sonra onun artıq həddi-büluğa çatdığını göstərən bir sari geyinib qohum-əqrəbanın toyunda iştirak edəcək. Bəzi “amma”lar (xalalar) gəlib yanında əyləşib onu tanımaq üçün suallar verəcəklər: “Neçə yaşın var? Ailən kimdir, nəçidir? Atan nə işlə məşğuldur? Hansı universitetlərə sənəd vermisən? Maraq dairələrin nələrdir? Ad günün nə vaxtdır?” Növbəti mərhələdə Tulsinin atasına Dehlidə informatika üzrə təhsil alan oğlanın şəkli, universitetdə əldə etdiyi uğurlar, astroloji fal və məlum qaçılmaz sualın qeyd olunduğu bir zərf göndəriləcək: “Qızınız onunla ailə həyatı qurmaq istəyirmi?”

Tulsi bunu “faciə” adlandırır.

Lakin övladlarının uğurlu nikaha qədəm qoyduğunu

downloaded from KitabYurdu.org

görmək ailə üçün olduqca əhəmiyyətlidir. Tulsinin xalası bir müddət əvvəl böyük qızını burada çox gec hesab edilən iyirmi səkkiz yaşında, nəhayət ki, ərə verə bildiyinə görə tannya minnətdarlığını göstərmək üçün jest kimi saçlarını kökündən qırxıb. Həmin qız çətin xarakterli və qarşısında bir çox maneələr olan bir şəxs imiş. Tulsidən Hindistanda qızın ailə qurmağına nəyin əngəl törətdiyini soruşanda bunun bir neçə səbəbi olduğunu dedi.

"Əgər ulduz falı mənfidirsə, yaşı çoxdursa, dərisinin rəngi həddən artıq tünddürsə problem ola bilər. Həmçinin çox savadlı olmaq da özündən daha yüksək mövqedə olan bir kişi tapmağını müşkülə çevirir. Son vaxtlarda bu problem geniş yayılıb. Burada qadının təhsili həyat yoldaşından daha yüksək ola bilməz. Və ya başqa bir kişi ilə münasibəti olubsa və bundan bütün qonşular xəbər tutubsa, bundan sonra ərə getməyi çətin məsələdir".

Hind cəmiyyətinə görə ailə qurmaq üçün nə dərəcədə uyğun olub-olmadığımı başa düşmək məqsədilə siyahıya sürətlə
nəzər yetirdim. Ulduz falımın mənfi, yoxsa müsbət olduğunu bilmirəm, amma şübhəsiz ki, yaşım çoxdur və təhsilim də yüksəkdir. Həmçinin əxlaqi baxımdan ləkələnməyim də hamıya məlumdur. O qədər də

downloaded from KitabYurdu.org

perspektivli namizəd deyiləm. Heç olmasa dərim açıq rənglidir. Təkcə bu qayda mənə uyğun gəlir.

Tulsi keçən həftə başqa bir əmisi qızının toyuna getməli oldu və toylara nifrət etdiyini dedi (Bu xüsusiyyət hindlilərə xas deyil). Hamı rəqs və qeybətlə məşğuldur. Hamı bəzənib- düzənib özünü göstərir. O bunun əvəzinə aşramda qalıb yerləri təmizləməyi və meditasiya ilə məşğul olmağı üstün tutardı. Ailəsində isə heç kim onu başa düşmürdü. Tulsinin Tanrıya bu dərəcədə bağlılığı onlar üçün ifrat həddidi. O, bir dəfə, - "Ailə üzvlərim həddindən artıq fərqli olduğumu düşündüklərinə görə məndən çoxdan əllərini üzüblər. Nə deyilsə onun əksini edən bir şəxs kimi tanmıram. Həmçinin əsəbiyəm. Bu günə qədər dərslərə o qədər də baş qoşmamışam, amma indi ciddi yanaşıram, çünki artıq kollecə gedirəm və nə ilə maraqlanacağıma özüm qərar verə bilərəm. Qurumuz kimi mən də psixologiya üzrə təhsil almaq istəyirəm. Məni çətin qız hesab
edirlər. Nəyisə yerinə yetirməzdən əvvəl bunu etməyim üçün ciddi bir səbəb olduğuna inanmalıyam. Anam bu xüsusiyyətimə yaxşı bələddir. Ona görə də həmişə mənə yaxşı səbəblər tapmağa çalışır. Atam isə elə deyil. O da səbəblər göstərir, lakin onlar o qədər də inandırıcı olmur. Bəzən təəccüblənirəm, mən bu ailəyə necə düşmüşəm,

downloaded from KitabYurdu.org

axı onlara heç oxşamıram”.

Tulsinin ötən həftə ailə quran əmisi qızının cəmi iyirmi bir yaşı var. İndi növbə iyirmi yaşlı bacısına gəlib çatıb və o da ailə qurandan sonra bütün təzyiqlər Tulsiyə istiqamətlənəcək. Ondan bunu istəyib-istəmədiyini soruşanda belə cavab verdi:

“Yooooooxüü!”

Və bu sözün əks-sədası bağda gəzə-gəzə tamaşa etdiyimiz qürubdan daha uzun müddət davam etdi.

“Mən də yer üzünü gəzib dolaşmaq istəyirəm, - o dedi, - sənin kimi!”

“Tulsi, bilirsən ki, mən də həmişə gəzib dolaşmamışam. Bir vaxtlar mən də ailəli idim”.

Qırıq eynəyinin arxasından qaşlarını çatıb mühakimə edən baxışlarla məni nəzərdən keçirirdi. Sanki ona nə vaxtsa
qarabuğdayı olduğumu demişəm və o da bunu təsəvvür etməyə çalışır. Nəhayət, belə dedi:

“Sən nə vaxtsa ailəli olmusan? Bunu təsəvvür edə bilmirəm”.

“Amma doğrudur, ailə qurmuşdum”.

“Özün ondan ayrıldın?”

“Bəli”.

“Ayrılmağının təqdirəlayiq olduğunu düşünürəm.

downloaded from KitabYurdu.org

Hazırda hədsiz xoşbəxt görünürsən. Mənə gəldikdə isə - bura necə gəlib çıxmışam? Nəyə görə hindli bir qız kimi doğulmuşam? Bu dəhşətlidir! Niyə bu ailədə dünyaya gəlmişəm? Nəyə görə daim toylara getmək məcburiyyətindəyəm?" - dedi.

Sonra isə qaça-qaça aşram normalarına görə uca hesab edilən bir səs tonu ilə qışqırdı:

"Mən Havay adalarında yaşamaq istəyirəm!!!"

60

Texaslı Riçard da bir vaxtlar ailəli olub. Artıq böyüyüb yetkin insanlara çevrilən, atalan ilə yaxın dost olan iki oğlu var. Hərdən hansısa məzəli əhvalat danışanda və ya söhbət əsnasında arvadını xatırlayır. Onun barəsində həmişə sevgi ilə danışır. Açığı, arabir buna paxıllığım tutur. Aynlandan sonra da keçmiş arvadı ilə dost qala bilən Riçardın nə qədər bəxtəvər olduğunu düşünürəm. Bu, dəhşətli boşanmamın qəribə bir əks təsiridir. Nə vaxt ayrılıb dost qalan cütlüklər haqqında eşitsəm, qısqanıram. Ən dəhşətlisi isə, mədəni halda sona çatan nikahların romantik olduğunu düşünməyə başlayıram. Məsələn: "Ah, necə də gözəldir. Yəqin ki, bir-birlərini həqiqətən seviblər", - deyirəm.

Ona görə də günlərin bir günü Riçarddan soruşdum: "Mənə elə gəlir ki, keçmiş arvadına hələ də gözəl hisslər

downloaded from KitabYurdu.org

bəsləyirsən. Bir-birinizlə hələ də yaxınsınız?”

“Xeyr, - laqeydliklə dedi. - O artıq mənim adımı “gicbəsər”-lə əvəz edib”.

Riçardm bu soyuqqanlılığı məni təsirləndirdi. Keçmiş ərim də mənim fərqli bir insana çevrildiyimi fikirləşir və bu xətrimə dəyir. Boşanmağımızın ən böyük çətinliyi, ərimin ondan dəfələrlə üzr istəməyimə, saatlarla vəziyyətin izahına çalışmağıma, bütün günahları öz boynuma götürməyimə, ayrılmaq müqabilində ona məmnuniyyətlə təhvil verəcəyim var- dövlətimizə və peşman olduğumu əks etdirən digər təkliflərimə əhəmiyyət verməməsi, məni bağışlaya bilməməsidir. Əlbəttə ki,

- “Alicənablığın və vicdanlı davranmağın məni kövrəltdi. Ona görə də səndən boşanmaq mənim üçün böyük bir zövq olacaq”,

- deməyini gözləmirdim. Xeyr. Bu bağışlanmaz idi. Və həmin bağışlanmaz qara dəlik hələ də daxilimdə idi. Xoşbəxt və həyəcanlı olduğum vaxtlarda belə (xüsusilə xoşbəxt və həyəcanlı anlanmda) onu uzun müddət unuda bilmədim. Mənə hələ də nifrət edir. Bəlkə də heç vaxt bağışlamayacaq. Bağışlanmayacağam.

Bir dəfə bu haqda aşramdakı dostlarıma danışırdım. Yeni Zelandiyalı su kəmərində işləyən təzə üzv də

downloaded from KitabYurdu.org

aramıza qatılmışdı. Mənim yazıçı olduğumu eşidib və özünün də bu sahədə fəaliyyət göstərdiyini demək üçün məni axtarıb tapıb. Bir müddət əvvəl Yeni Zelandiyada öz mənəvi axtarışlarından bəhs edən, "Su kəməri işçisinin tərəqqisi" adlı möhtəşəm avtobioqrafiyasmı dərc etdirən şairdir. Yeni Zelandiyalı şair, texaslı Riçard, irlandiyalı fermer, hindli yeniyetmə Tulsi və nazik ağ saçı, hiyləgər gözləri olan yaşlı qadın - Vivian (Cənubi Afrikada rahibə olub) - buradakı dost əhatəmə bu şəxslər daxildir. Hind aşrammda rastlaşmağı gözləmədiyim, həddindən artıq müsbət xarakterlərin parlaq izdihamı...

Məhz nahar vaxtı ailə qurmaqdan söhbət gedəndə, Yeni Zelandiyalı şair, - "Məncə, nikahı iki şəxsi bir-birinə tikən əməliyyat, boşanmağı da sağalmağı vaxt aparan qol və ya ayaq amputasiyasma bənzətmək olar. Nə qədər uzun müddət ailəli olsan və ya bədən üzvün nə qədər pis vəziyyətdədirsə, sağalmaq da bir o qədər çətindir", - dedi.

İndi boşanmadan və amputasiyadan sonra illərlə məni təqib edən bu duyğuların haradan qaynaqlandığı aydın olurdu. Hələ də olmayan ayağımın üzərində səntirləyərək gəzir, elə hey rəflərdəki əşyaları vurub salıram.

Texaslı Riçard həyatımın geri qalan hissəsi ərzində keçmiş ərimin əhvalımın necə olacağına diktə etməsinə icazə vermək niyyətində olub-olmadığında maraqlandı.

downloaded from KitabYurdu.org

Mən isə faktiki olaraq buna əmin olmadığımı dedim. O ana qədər sanki keçmiş həyat yoldaşım hələ də mənə təsir etmək qabiliyyətinə malik idi və düzünü desəm, hələ də yolun ortasında dayanıb onun məni bağışlamasını, sərbəst buraxmasını və yoluma davam etməyə icazə verməsini gözləyirdim.

İrlandiyalı fermer, - "O günü gözləməklə vaxtını səmərəli keçirmirsən", - deyə bildirdi.

"Nə deyə bilərəm, uşaqlar? Günah hissi mənə əzab verir.

Ağ rəngli geyimlər bəzi qadınları əziyyətə salan kimi".

Sabiq katolik rahibə bu haqda eşitmək belə istəmirdi (Yəqin ki, günah hissinə yaxşı bələddir). "Günahkarlıq hissi,

sadəcə, eqonun səni mənəvi irəliləyişə nail olduğuna inandıraraq aldatma üsuludur. Buna aldanma, əzizim".

"Boşanmağım barədə məni ən çox narahat edən məsələ, - dedim, - bu işin öz həllini tapmamasıdır. Bu, heç cür sağalmayan üstü açıq yaradır".

"Sən belə düşünürsən, - Riçard dedi. - Əgər belə düşünməyə davam etmək niyyətindəsənsə, sənə mane olmayacağam".

"Günlərin bir günü ifadəsi ilə xatırlanan günlər sona çatmalıdır. Kaş ki, bunu necə edəcəyimi bilsəydim", -

downloaded from KitabYurdu.org

dedim.

Nahardan sonra Yeni Zelandiyalı su işçisi, şair mənə bir məktub verdi. Şam yeməyindən sonra mənimlə görüşmək istəyirdi. Mənə nə isə göstərmək fikri var imiş. Beləliklə, axşam yeməkdən sonra onunla meditasiya mağaralarının yaxınlığında görüşdük, onu izləməyimi tapşırdı və mənim üçün hədiyyəsi olduğunu dedi. Aşram boyu gəzdik, sonra isə əvvəllər heç vaxt daxil olmadığım bir binaya çatdıq. Qapının qıfılını açdı və məni arxa tərəfdəki pilləkənlərlə yuxarı apardı. Bu yeri yaxşı tanıdığını başa düşdüm, çünki bütün havalandırma sisteminə o
nəzarət edirdi və onlardan bəziləri də bu yerdə idi. Pilləkənlərin ən yuxarısında şifrə ilə açılmalı olan bir qapı var idi. Bunu olduqca cəld açdı. Şifrin yaddaşına yaxşı həkk olunduğu bəlli idi. Nəhayət, alaqaranlıqda hovuzun dibi bərq vuran, kirəmitlə örtülmüş möhtəşəm bir dama gəlib çıxdıq. O, damdan məni balaca bir qülləyə, əsl minarəyə apardı və mənə qüllənin başına çıxan dar pilləkənləri göstərdi. Qülləni göstərib, - "İndi səni tək qoyacağam. Ora çıxacaqsan. Və qurtarana qədər orda qal", - dedi.

"Nə qurtarana qədər?" - deyə soruşdum.

Su kəməri işçisi, sadəcə, gülümsədi, mənə balaca bir

downloaded from KitabYurdu.org

fənər verdi: “İşin qurtarandan sonra yerə sağ-salamat enə bilməyin üçündür”, - dedi və qatlanmış bir kağız parçası verdi. Sonra isə getdi.

Qüllənin başına çıxdım. Mən indi Hindistandakı çay və vadiləri açıq-aydın əks etdirən mənzərələrə tamaşa edən aşramın ən uca zirvəsində dayanmışdım. Dağlar və əkin sahələri göz işlədikcə uzanıb gedirdi. Bu yerə tələbələrin çıxmasına icazə verilmədiyini hiss edirdim, amma o qədər gözəl
idi ki... Bəlkə də qurum günəşin batmasına məhz burada tamaşa edirdi. Elə indi də günəş batmaq üzrə idi. İsti külək əsirdi. Şairin verdiyi kağızı açıb oxumağa başladım.

O yazırdı:

AZADLIQ ÜÇÜN TƏLİMATLAR

1. Həyatda hər şeydə dərin bir məna var, bununla da Tanrı bizə yol göstərir.

2. Elə indicə yuxarı, dama çıxdın. Sənin lə sonsuz luq arasında heç bir sərhəd yoxdur. Azadlığını hiss et.

3. Gün başa çatır. Çox gözəl “dünən” çox gözəl “bu gün”ə çevrilir. Buna görə də hər şeyi öz axarına burax.

4. Çıxış yolu arzulamağın özü də bir dua idi. Bu rada olmağın isə Tanrının sənə cavabıdır. Öz axarına burax və həm səmada, həm də daxilində yavaş-yavaş peyda olan

downloaded from KitabYurdu.org

ulduzlara tamaşa et.

j. Bütün qəlbinlə mərhəmət istə, sonra isə öz axa rına burax.

6. Büt ün qəlbinlə öz keçmiş həyat yoldaşını bağış la, özünü bağışla və onun getməsinə icazə ver.

7. İcazə ver, niyyətin faydasız əzabdan azad olsun. Sonra isə öz axarına burax.

8. Gündüzün istiliyinin gecənin soyuğu ilə əvəz olunmasına tamaşa et, öz azadlığını hiss et.

9. Bir münasibətin karması başa çatanda yerdə qa lan təkcə sevgidir. Bu təhlükəsizdir. Öz azadlığını hiss et.

10.Nəhayət, keçmişin getmək istəyəndə, onu bu rax. Sonra aşağı düş və həyatının geri qalan hissəsinə sevinclə başla.

İlk bir neçə dəqiqə gülməyimi saxlaya bilmirdim. Aşağıdakı vadi, manqo ağaclarının çətiri aydın görünürdü və külək saçlarımı bayraq kimi dalğalandırırdı. Günəşin batmağını seyr etdim, sonra arxası üstə uzanıb ulduzları qarşıladım. Sanskrit
dilində qısa bir dua oxudum və sanki ulduzları çağırırmış kimi səmada hər ulduz meydana çıxanda duanı təkrarladım. Amma getdikcə ulduzlar daha sürətlə peyda olmağa başladılar və onlardan geri qaldım. Çox keçmədi ki, göy üzü parlaq ulduzların sayrışdığı tabloya çevrildi.

downloaded from KitabYurdu.org

Tanrı ilə aramda heç nə qalmadı.

Gözlərimi yumdum və “Tanrım, xahiş edirəm mənə bağışlamaq və azad olmaq barədə başa düşməli olduğum hər şeyi öyrət”, - dedim.

Uzun müddət idi ki, keçmiş ərimlə yenidən danışmağı arzulayırdım, amma bunun reallaşmayacağı bəlli idi. Sadəcə, ortaq məxrəcə gəlmək istəyirdim. Ailə həyatımızda nə baş verdiyi ilə bağlı ortaq qərar və bu eybəcər ayrılığa görə bir- birimizi bağışlaya biləcəyimiz sülh zirvəsi arzulayırdım. Ancaq aylarla davam edən məsləhətləşmələr və vasitəçilər bizi daha da uzaqlaşdırdı və bir-birinə güzəştə getməyən iki ayrı insana çevirməklə, vəziyyətimizi daha da çətinləşdirdi. Lakin şübhə etmirdim ki, ikimizin də məhz buna ehtiyacı var idi. Və əmin idim ki, üstünlük fəlsəfəsinin qanunlarına görə səni şirnikdirən

axınncı günah sapına belə bağlısansa, ilahi varlığa aparan yolda bir qarış belə irəliləyə bilməzsən. Siqaret ağciyərlər üçün nədirsə, hiddət də ruh üçün odur. Bircə dəfə nəfəs almaq belə zərərlidir. Bu necə bir duadır? “Bu gün bizə günlük qərəzimizi ver” duası? Həyatındakı məhdudiyyətlərə görə başqasını günahlandırmağa davam edirsənsə, tanrıya “əlvida!” deyə bilərsən. Keçmiş həyat yoldaşımla, böyük ehtimalla, bir də heç vaxt danışa

downloaded from KitabYurdu.org

bilməyəcəyimə görə o gecə aşramın damında tanrıya verdiyim sual belə idi: “Ünsiyyət qura biləcəyimiz bir üsul varan? Bir-birimizi bağışlaya bilməyimiz üçün başqa bir üsul varan?”

Orda, dünyadakı hər şeydən yuxarıda tək-tənha uzanmışdım. Meditasiyaya başladım və nə etməli olduğum barədə göstəriş verilməsini gözlədim. Bunu öyrənənə qədər neçə dəqiqə və ya saat keçdiyini bilmirəm. Bir də ayıldım ki, bu fikirləri beynimdə götür-qoy edirəm: Keçmiş ərimlə danışmaq istəyirəm? Elə isə onunla danış. Elə indicə danış. Bağışlanmağı gözləyirəm? Onda bunu özün təklif et. Elə indicə. Bu günə qədər neçə insanın bağışlanmadan və bağışlamadan ölüb getdiyini ağlımdan keçirdim. Çox qiymətli olan mərhəmət və bağışlanma sözlərini eşitmədən bacı-qardaşları, qohumlan, uşaqları ya da sevgililəri həyatlanndan uçub getmiş nə qədər insan olduğunu fikirləşdim. Başa çatmış münasibətlərdən qalan zərərçəkənlər bu yanmçıq işin əzabına necə dözürlər?

Meditasiya ilə məşğul olduğum bu yerdə axtardığım cavabı tapdım: Bu işi özün yekunlaşdıra bilərsən. Bu mümkündür. Həmçinin vacibdir.

Sonra isə hələ də meditasiyada ola-ola özümü də təəccübləndirən qəribə bir şey etdim. Keçmiş ərimi

downloaded from KitabYurdu.org

Hindistandakı bu damda mənə qoşulmağa dəvət etdim. Bu vida mərasimi üçün məni görüşmək şərəfinə layiq görüb- görmədiyini soruşdum. Sonra onun gəlməyini gözlədim. Gəldi. Onun gəlişi qəfildən baş verdi və tam, real idi. Sanki bir anlıq onun doğma ətrini hiss etdim.

“Salam, əzizim”, - dedim.

Özümü güclə saxlayırdım ki, ağlamayım. Buna ehtiyac yox idi. Göz yaşlarım bədənimdəki həyatın bir təcəssümü idi və bu gecə Hindistanda görüşən bu iki ruhun olduğu yerin bədənlə
heç bir əlaqəsi yox idi. Damda bir-biri ilə danışmaq istəyən bu iki şəxs artıq insan belə deyildi. Heç danışmırdılar da. Keçmiş ər-arvad da deyildilər. Nə Orta Qərbə məxsus olan həssas amerikanlar, nə qırxdan yuxarı yaşı olan kişi ilə otuz yaşını adlayan qadın, nə də ki, illərlə intim münasibət yaşayan, pul və mebel üstündə dalaşan iki əsəbi insan idilər. Bunların heç birinin mövzuya dəxli yox idi. Onlar bura yalnız görüşmək üçün gəlmiş və hər şeyi dərk etmiş iki mavi ruh idilər. Bədənlərinin və keçmiş münasibətlərinin qarışıq tarixi ilə əlaqəni kəsəndən sonra, bu damın üstündə (hətta məndən də yuxanda) sonsuz bir müdrikliklə görüşürdülər. Hələ də meditasiyaya davam edirdim. Bu iki mavi ruhun bir-birini dövrəyə alıb birləşməyinə, yenidən aynlmağına və bir-

downloaded from KitabYurdu.org

birinin mükəmməlliyinə, oxşarlığına hörmət etməklərinə baxırdım. Hər şeyi dərk edirdilər. Lap əvvəldən bilirdilər və həmişə də biləcəklər. Bir- birlərini bağışlamağa ehtiyac yox idi. Onlar dünyaya gələndə bir-birlərini bağışlamışdılar.

Rəqs edərkən mənə öyrətdiyi dərs bu idi: "Müdaxilə etmə, Liz. Bu münasibətdəki rolun başa çatdı. İcazə ver, vəziyyəti biz

düzəldək. Sən həyatına davam et".

Bir qədər sonra gözlərimi açdım. Başa çatdığını bilirdim. Təkcə nikahım və boşanmam yox, onların gətirdiyi sonsuz, kəskin kədər də sona çatmışdı. Azad olduğumu hiss edirdim. Lakin bir də heç vaxt keçmiş həyat yoldaşımın yadıma düşməyəcəyini və onun xatirəsi ilə bağlı heç nə hiss etməyəcəyimi demirəm. Sadəcə, damdakı bu ayin nəhayət ki, mənə duyğularımı və fikirlərimi yerləşdirə biləcəyim məkanı bəxş etdi. Artıq onları burada, damda məskunlaşdıra bilərdim. Nə vaxt meydana çıxsalar, onlan bura, yaddaşımdakı bu dama qaytarıb hər şeyi çoxdan dərk edən və daim anlamağı bacaran bu iki mavi ruhun öhdəsinə buraxa bilərdim.

Ayinlərin məqsədi də elə budur. Biz insanlar ən mürəkkəb sevinc və zədə hisslərimizi daşımağı üçün etibarlı bir məkan yaratmaq məqsədilə ilahi mərasimlər

downloaded from KitabYurdu.org

təşkil edirik. Beləliklə, bizi aşağı dartan bu hissləri həmişə özümüzlə gəzdirmək məcburiyyətindən xilas oluruq. Hər birimizin belə təhlükəsiz yerlərə ehtiyacı var. Və inanıram ki, sənə lazım olan ayin mədəniyyətinə, ya da adət-ənənəyə xas deyilsə, həmin mərasimi
təşkil etməyə, zədələnmiş hisslərini əliaçıq bir şairin "özün et" adlandırdığı ixtirası sayəsində təmir etməyə icazə verilir. Bu mərasimə səmimiyyət qata bilsən, Tanrı da sənə qarşı lütfkarlıq edəcək. Elə ona görə də Tanrıya ehtiyacımız var.

Ayağa qalxdım və azadlığa qovuşmağımı qeyd etmək üçün qurumun damında əllərimin üstündə dayandım. Əllərimin altındakı tozlu kirəmitləri hiss edirdim. Öz gücümü və tarazlığımı duyurdum. Çılpaq ayaqlarıma toxunan zərif gecə küləyini hiss edirdim. Bu cür hərəkəti - əllər üzərində spontan duruşu bədəndən ayrı olan mavi ruh edə bilməzdi, amma insan bacarardı. Bizim əllərimiz var. İstəsək üstündə dayana bilərik. Bu üstünlüyümüzdür. Ölməyə məhkum bədənin əyləncəsidir. Və buna görə də Tanrının bizə ehtiyacı var. Çünki Tann cismləri bizim əllərimiz vasitəsilə hiss etməyi sevir.

61

Texaslı Riçard bu gün Ostinə qayıtdı. Hava limanına bir yerdə getdik. Hər ikimiz kədərli idik. O, içəri keçənə

downloaded from KitabYurdu.org

qədər biz uzun müddət səkidə dayandıq.

“Həmişə axtarışda olan Liz Gilbert yanımda olmadan neyləyəcəyəm? - deyib ah çəkdi. Sonra, - Aşramda yaxşı təcrübə qazandın, elə deyilmi? Bir neçə ay əvvəlki ilə müqayisədə tamamilə fərqli görünürsən. Özünlə gəzdirdiyin qəm-qüssənin bir qismindən xilas olmusan”, - deyə davam etdi.

“Bu günlərdə doğrudan da xoşbəxtəm, Riçard”.

“Lap yaxşı, amma bunu unutma ki, bütün qəm-qüssən qapıda səni gözləyir. Gedəndə onlan götürüb-götürməmək artıq sənin öz işindir”.

“Onları götürməyəcəyəm”.

“Ağıllı qızsan!”

“Mənə çox köməyin dəydi, - dedim. - Mənim gözümdə sən tüklü əlləri və əyri-üyrü ayaq dırnaqları olan bir mələksən”.

“Mənim zavallı dırnaqlarım Vyetnamdan sonra hələ özlərinə gələ bilməyiblər”.

“Daha pisi də ola bilərdi”.

“Bir çox insanlar üçün elə ən pisi budur. Yaxşı ki, ayaqlarımı qoruya bilmişəm. Yox, balaca, həyatdakı cisimlənmə prosesim olduqca rahat keçib. Elə sənin də. Bunu yaddan çıxartma. Növbəti həyatında yol kənarında daş qıran o yazıq hindli qadınlardan biri kimi dünyaya

downloaded from KitabYurdu.org

gəlib, həyatın o qədər də əyləncəli olmadığını kəşf edə bilərsən. Ona görə də əlində olanlara şükür et, oldu? Minnətdar olmağa davam et. Onda daha uzunömürlü olacaqsan. Bilirsən nə var, Dağsiçanı? Buyurun, əsl həyatınızı yaşayın".

"Mən artıq öz həyatımı yaşayıram".

"Təzədən sevə biləcəyin bir şəxs tap. Sağalmaq üçün sənə vaxt lazımdır, amma sonda ürəyinə başqa bir şəxsi qonaq etməyi unutma. Həyatını Devidə, ya da keçmiş ərinə həsr etmə".

"Elə etməyəcəyəm", - dedim və hiss etdim ki, bu sözlər ürəkdən gəlir. Belə etmək fikrində deyildim. Keçmişdəki səhvlərimin, itirdiyim sevginin o köhnə əzabının gözlərimin qarşısında azaldığını, zamanın məşhur olan sağaltma qabiliyyəti sayəsində səbirlə və tanrının mərhəməti ilə getdikcə kiçilib yoxa çıxdığını hiss edirdim.

Riçard yenidən danışdı və fikirlərimi dünyanın daha primitiv reallıqlarına qaytardı: "Bəzən bir insana üstün gəlmək üçün ən yaxşı yol başqa birinə tabe olmaqdır".

Güldüm. "Yaxşı, Riçard. Dediyinə əməl edəcəyəm. Artıq Texasa qayıda bilərsən".

"Yaxşı olar", - gözlərini ucsuz-bucaqsız Hindistan hava limanının avtomobil dayanacağına zilləyib dedi.

downloaded from KitabYurdu.org

“Burada boş yerə dayanmağın nə faydası var”.

62

Riçardı yola salıb aşrama qayıdanda nə qədər çoxdanışan olduğumu ağlımdan keçirtdim. Düzünü desəm, həmişə belə olmuşam, amma aşrama gələndən sonra daha çox danışmağa başlamışam. Qarşıdan gələn iki ayı da burada keçirəcəyəm və həyatımın ən böyük mənəvi fürsətini ünsiyyətcil, hətta boşboğaz biri kimi geridə qoymaq istəmirəm. Burda, dünyanın bu qurtaracağında, bu müqəddəs mühitdə belə ətrafımda kokteyl qonaqlığına oxşayan bir qrup yaratdığımı kəşf etmək olduqca gözəl hiss idi. Ünsiyyətdə olduğum təkcə Riçard deyildi. Doğrudur, ən çox onunla boşboğazlıq edirdim. Amma həmişə kiminləsə danışırdım. Yaxından tanımadığım adamlarla görüş təyin edirdim. Özü də aşramda! Hətta bir nəfərə belə dediyimi xatırlayıram: “Təəssüf ki, bu gün sənlə nahar edə bilmərəm, çünki Sakşiyə söz vermişəm. Gələn həftənin çərşənbə axşamı görüşə bilərik”.

Bu həyat tərzimdir. Bu mənəm. Son vaxtlar bunun bəlkə də mənəvi öhdəlik olduğunu düşünürəm. Səssizlik və tənhalıq universal olaraq mənəvi təcrübə hesab olunur və bunun üçün kifayət qədər səbəb də var. Nizam-intizamlı danışmağı öyrənmək, eneıjinin ağzından tökülüb səni bezdirməsinin, kainatı səssizlik, rahatlıq və

downloaded from KitabYurdu.org

xoşbəxtlik əvəzinə sözlər, sözlər və sözlərlə doldurmasının qarşısını almaq üsuludur. Qurumun ustadı Svamici də buna böyük əhəmiyyət verir və tələbələrini də səssizliyə riayət etməyə çağırırdı. Səssizliyi yeganə gerçək din adlandırırdı. Dünyada səssizliyin hakim olduğu yeganə yer olan aşramda bu qədər çox danışmağım gülməlidir.

Ona görə də artıq aşramın "ulduzu" olmaqdan imtina etməyi qərara aldım. Bundan sonra vurnuxmaq, qeybət etmək, zarafatlaşmaq yoxdur. Diqqət mərkəzində olmaq, söhbəti idarə etmək də olmaz. Bir neçə qəpiklik təsdiqə görə şifahi step rəqsi etməyə də əlvida. Dəyişmək vaxtıdır. Riçard da getdi. Burada keçirəcəyim vaxtın hər dəqiqəsini səssiz təcrübəyə çevirəcəyəm. Bu çətindir, amma qeyri-mümkün deyil. Çünki səssizlik aşramda təqdirəlayiq bir hal sayılır. Hər kəs qərarımı
"intizamla özünü ilahi varlığa həsr etmək" kimi qəbul edib hörmət bəsləyəcək. Hətta kitab mağazalannda üstündə, - "Mən susmaq əhdimə əməl edirəm", - yazılan nişanlar belə satılır.

O nişanlardan dörd dənə alacağam.

Aşrama geri qayıdanda bundan sonra necə sakit olacağımla bağlı xəyallar qururdum. O qədər sakit olacağam ki, məşhurlaşacağam. "Azdanışan qız" kimi

downloaded from KitabYurdu.org

tanınmağa başlayacağımı təsəvvürümə gətirdim. Ancaq aşramın tərtib etdiyi qrafikə riayət edəcəyəm, tək yemək yeyəcəyəm, hər gün saatlarla meditasiya ilə məşğul olacağam və səsimi də çıxartmayıb məbədin döşəmələrini siləcəyəm. Başqalan ilə quracağım yeganə ünsiyyət fikirlərimi özümə saxladığım, səssizlik və ibadətdən ibarət olan dünyamdan onlara gözəl bir təbəssüm bəxş etmək olacaq. İnsanlar mənim haqqımda danışacaqlar. "Həmişə dizlərinin üstünə çöküb döşəmələri təmizləyən məbədin arxasındakı sakit qız kimdir? Heç vaxt danışmır. Çox fərqli, mistik görünür. Səsinin necə olduğu barədə heç bir təsəvvürüm yoxdur. Bağda gəzəndə belə arxanca gəlirsə ayaq səslərini eşidə bilməzsən. Külək kimi səssiz hərəkət
edir. Yəqin ki, Tanrı ilə daimi ünsiyyət vəziyyətindədir. Bu vaxta qədər gördüyüm ən sakit qızdır", - deyəcəklər.
63
Ertəsi səhər dizlərimin üstə çöküb mərmər döşəməni siləndə "Sakit qız" haqqındakı xəyallarıma, ətrafa "müqəddəs sükut şəfəqi" yaydığımı təsəvvür etməyə davam edirdim. Elə bu vaxt hindli bir yeniyetmə oğlan gəlib məni təcili olaraq Seva bürosunda gözlədiklərini deyir. "Seva" sanskrit dilində "Fədakar xidmətin mənəvi qarşılığı" deməkdir (Məsələn: məbədin döşəməsini

downloaded from KitabYurdu.org

təmizləmək). Seva bürosu aşramdakı iş bölgüsünü təyin edir. Mən ora yollanıram. Maraqlıdır, görəsən, məni niyə çağırıblar? Orada gözəl bir xanım mənə, - "Elizabet Gilbert sizsiniz?" deyə sual verir.

İlıq bir təbəssümlə gülümsəyib başımla sakitcə təsdiqləyirəm.

O isə məni başqa işə dəyişdirdikləri haqda məlumat verir. İdarənin xüsusi xahişinə əsasən mən artıq döşəmə təmizləyən komandaya daxil deyildim. Aşramda məni başqa vəzifəyə təyin edirlər.

Yeni vəzifəm yəqin ki, xoşunuza gələcək: "Qonaqları qarşılayıb qəbul edən növbətçi".

64

Bu, açıq-aydın Svamicinin zarafatlarından biri idi.

Məbədin arxa tərəfindəki sakit qız olmaq istəyirdin? Bu da sənə...

Aşramda bu, həmişə baş verir. Nə etməyə və ya nə olmağa ehtiyacın olduğuna qərar verirsən və sonra şərait özünü nə qədər az tanıdığını sübut edir. Həyatı boyu Svamicinin bunu neçə dəfə təkrarladığını bilmirəm. Onun ölümündən bəri qurumun bunu neçə dəfə təkrarladığı barədə də fikrim yoxdur. Lakin görünür ki, onların təkidlə üstündə dayandığı fikrin mahiyyətini hələ dərk etməmişəm:

downloaded from KitabYurdu.org

“Tanrı sənin içindədir, sənin kimidir”.

SƏNİN KİMİ...

Bu fikir yoqanın müqəddəs həqiqətini izah edir. Tann daxilindəki “sən”dir. Sən necəsənsə, O da elədir. Tanrı ilahi şəxsin necə görünməli və davranmalı olduğu haqqındakı bəzi çılğın fikirlərə boyun əymək uğranda necə bir şəxsiyyəti

canlandırdığına tamaşa etmək marağında deyil. Müqəddəs olmaq üçün hamımız xarakterimizdə böyük, dramatik dəyişikliklər etməyə və individuallığımızdan imtina etməyə meyilliyik. Bu, Şərqdə “səhv düşüncə” dedikləri vəziyyətə klassik bir nümunədir. Svamicinin fikrincə, fədakar insanlar hər gün imtina etməyə nə isə tapırlar, amma bu vəziyyət rahatlığa deyil, depressiyaya gətirib çıxarır. O, daimi olaraq dünyəvi həzlərdən məhrum halda yaşamağı və fədakarlığa ehtiyac olmadığını öyrədirdi. Tanrını tanımaq üçün bircə şeydən - Tanrıdan uzaq olduğun fikrindən imtina etməlisən. Bunun xaricində olduğun kimi, təbii xarakterində qal.

Bəs mənim öz xarakterim necədir? Aşramda təlimə qatılmaq ürəyimcədir, amma zərif, ilahi bir təbəssümlə buradan yavaşca ilahi varlığa tərəf irəliləmək arzum - bu kimdir? Yəqin ki, onu hansısa televiziya proqramında görmüşəm. Reallıq odur ki, heç vaxt bu şəxs ola

downloaded from KitabYurdu.org

bilməyəcəyimi dərk etmək mənim üçün ağırdır. Xəyala bənzəyən həssas ruhlar məni həmişə valeh edir. Həmişə sakit qız olmaq istəmişəm. Yəqin ki, heç vaxt sakit olmadığıma görə. Elə həmin səbəbdən tünd, qalın saçların gözəl
olduğunu düşünürəm. Çünki məndə yoxdur və ola da bilməz. Amma bir nöqtədən etibarən vəziyyətinlə barışmalısan. Əgər tanrı tündsaçlı, utancaq bir qız olmağımı istəsəydi, elə də yaradardı. Ancaq belə etmədi. Ona görə də özümü olduğum kimi qəbul etməli idim.

Qədim pifaqorçu filosof Sekstin dediyi kimi: “Müdrik insan həmişə özünə oxşayar”.

Bu o demək deyil ki, özümü tanrıya həsr edə bilmərəm. Bu o demək deyil ki, tann sevgisi ilə yoğrulub eqoma qalib gəlməyəcəyəm. Bəşəriyyətə faydalı olmayacağımı da göstərmir. İnsan kimi öz məziyyətlərimə bələd olub hər gün çatışmazlıqlarımı aradan qaldırmağa çalışmağıma mane deyil. Məsələn, mən heç vaxt rəqsə dəvət edilməyib kənarda qalan qadın olmayacağam, amma bu, danışma vərdişimi yenidən gözdən keçirib bəzi xüsusiyyətlərimi dəyişməyəcəyimi göstərmir. Doğrudur, danışmağı sevirəm, lakin bu qədər lənətləməməliyəm, ucadan gülməməliyəm və davamlı olaraq özümdən danışmamaq da pis fikir deyil. Və ya

downloaded from KitabYurdu.org

daha radikal qərar - başqalarının sözünü ağzında qoymamalıyam. Çünki bu
vərdişimə hər nə qədər “yaradıcı” don geyindirməyə çalışsam da, bu hərəkətimlə çatdırdığım fikir budur: “Mənim fikrimin sənինkindən vacib olduğunu düşünürəm”. Bununla mübarizə aparmaq lazımdır.

Bütün bu dəyişikliklər faydalı olacaq. Lakin danışıq vərdişlərimlə bağlı edəcəyim modifikasiyalara rəğmən yenə də “sakit qız” kimi tanınmayacağam. Nə qədər gözəl bir mənzərə olsa da, bütün cəhdlərim faydasızdır. Gəlin dürüst olaq. Aşramın Seva bürosundakı qadın mənə qonaqları qarşılamaq vəzifəsini verəndə dedi ki, “Bu vəzifə üçün maraqlı bir ləqəbimiz var. Ona, - “Balaca, nəğməkar qız”, - deyirik”. Çünki bu işlə məşğul olan şəxs ünsiyyətcil, həmişə gülümsəyən olmalıdır.

Nə deyə bilərdim?

Sadəcə, əlimi uzadıb görüşdüm, bütün keçmiş aldanmalanma əlvida dedim və elan etdim:

“Xanım, axtardığınız şəxs mənəm”.

Bu yaz aşramda tərtib ediləcək bir sıra aydınlaşma prosesinin iştirakçılarını qəbul edəcəyəm. Hər aydınlaşma prosesi ərzində dünyanın hər yerindən yüzə yaxın insan meditasiya prosesini dərinləşdirmək üçün bir həftə, ongünlük bura gələcəklər. Mənim vəzifəm burada

downloaded from KitabYurdu.org

olduqları vaxt ərzində onlara kömək etməkdir. İştirakçılar çox vaxt səssiz olacaqlar. Bəziləri həyatında ilk dəfə ilahi təcrübə kimi səssizliyi sınaqdan keçirəcək. Bu onları gərginliyə sala bilər. Amma problem baş verdiyi təqdirdə, aşramda ancaq mənimlə danışmaqlarına icazə veriləcək.

Belə çıxır, çərənləmək istəyənləri dinləmək üçün məni rəsmi nümayəndə təyin ediblər.

İştirakçıların problemlərinə qulaq asıb həll yolu tapmağa çalışacağam. Bəlkə otaq yoldaşlan xoruldadığına görə otağı dəyişdirmək istəyəcəklər və ya Hindistanla bağlı həzm sistemində yaranan problemə görə həkim məsləhətinə
ehtiyacları olacaq. Bunları həll etməyə çalışacağam. Hamının adını və haradan gəldiyini bilməliyəm. Əlimdə pano ilə qeyd edə-edə arxalannca gəzəcəyəm. Mən Culi Makkoyam, yoqa təlimi üzrə bələdçiniz.

Və budur, yeni vəzifədə mənə, hətta peycer də verirlər.

Təlimlər başlayan kimi aydın oldu ki, bu iş üçün yaradılmışam. “Salam. Adım... ” döş nişanımla stolun arxasında əyləşirəm, insanlar isə müxtəlif ölkələrdən gəlirlər. Aralarında Hindistanda əvvəllər olanlar da vardı, ilk dəfə gələnlər də. Saat ıo-da temperatur artıq 40 dərəcədən çox idi və gələnlərin əksəriyyəti bütün gecəni

downloaded from KitabYurdu.org

avtobusda keçirmişdilər. Bəziləri elə indicə maşının baqajında yuxudan oyanmış kimi burada nə işləri olduğundan xəbərsiz halda aşrama doğru gəlirdilər. İlk olaraq onlan mənəvi inkişafa səsləyən üstünlük arzusunu çoxdan unutmuşdular. Yəqin ki, həmin arzu çamadanlarını itirdikləri Kuala Lumpur ətrafında yoxa çıxmışdı. Susayıblar, amma su içə bilib-bilməyəcəklərindən xəbərsizdirlər. Acdırlar, amma nahar vaxtını və kafeteriyanın yerini bilmirlər. Demək olar ki, hamısı tropik iqlimə uyğun
olmayan geyimlərdədirlər: sintetik paltar və ağır çəkmələr. Burada rus dilində danışan bir şəxs olub-olmadığını bilmirlər.

Mən az da olsa rus dilini bilirəm.

Onlara kömək edə bilərəm. Mən, sadəcə olaraq, bundan ötrü yaranmışam. Mənimlə birgə böyüyən, insanlann hisslərini oxumağa kömək edən antenalarım, həddən artıq həssas uşaq ikən inkişaf etdirdiyim intuisiyam, mehriban barmen və hər şeyi bilməyə can atan jurnalist olaraq öyrəndiyim dinləmə bacarığı, illərlə kiminsə arvadı və sevgilisi olmağımın sayəsində ustalaşdığım qayğıkeşlik - bütün bu xüsusiyyətləri cəmlədiyimə görə bu yaxşı insanlara kömək edə bilərəm. Meksikadan, Filippindən, Afrikadan, Danimarkadan,

downloaded from KitabYurdu.org

Detroytdan gələn insanları görürəm. Bu mənzərə "Üçüncü növ qarşılaşmalar" filmində Riçard Dreyfus və digər tədqiqatçıların başa düşmədikləri səbəblər ucbatından, Vayominqin ortasına aparılıb kosmik gəminin gəlişi ilə xilas olduqları səhnəni xatırladır. Cəsarətləri məni heyrətə gətirir. Bu insanlar ailələrini və həyatlarını geridə qoyaraq tanımadıqları adamlardan ibarət

izdihama qarışıb səssizliyə qərq olmaq məqsədi ilə bir neçə həftəliyə Hindistana gəliblər. Bunu hər kəs bacarmır.

Bütün bu insanları qeyd-şərtsiz sevirəm. Başıma bəla olanlan belə sevirəm. Əsəblərinin korlandığını duyur, yeddigünlük səssizliyə, meditasiyaya daxil olduqda nə ilə qarşılaşacaqlarından qorxduqlarını hiss edirəm. Otağında bir ayağı itmiş hind tannsı Qaneşin dörd qarış hündürlükdə heykəli olduğunu bəyan etmək üçün qəzəblə yanıma gələn hindli kişini sevirəm. O hiddətlənib. Fikirləşir ki, bu, pis əlamətdir və adət-ənənəyə uyğun olaraq, bu heykəlin məhz səssizlik təlimi vaxtı bir brahman tərəfindən məhv edilməsini istəyir. Ona qulaq asıb sakitləşdirirəm. Sonra o nahara gedəndə rəfiqəm Tulsini heykəli məhv etmək üçün onun otağına göndərirəm. Növbəti gün "Ümid edirəm ki, qırılan

downloaded from KitabYurdu.org

heykəlin yox olmağı ürəyinizcədir. Hər hansı bir istəyiniz olsa buradayam”,
- deyə bir qeyd göndərirəm. Rahat, gözəl bir təbəssümlə məni qarşılayır. Sadəcə, qorxubmuş. Buğdaya allergiyası olan fransız qadın da qorxur. Topuğu ağrımasın deyə meditasiya vaxtı necə oturmalı olduğunu öyrətmələri üçün Hatha-yoqa şöbəsinin
bütün üzvləri ilə xüsusi görüş tələb edən argentinalı şəxs də qorxur. Hamı qorxur. Səssizliyə, öz zehinlərinin və ruhlarının dərinliyinə enəcəklər. Meditasiyaya vərdiş edən şəxs üçün belə bundan daha naməlum bir yer yoxdur. Orada hər şey ola bilər. Bu aydınlaşma ərzində gözəl bir qadın və hər bir sözü, jesti mərhəmətli, əllidən çox yaşı olan bir rahib tərəfindən istiqamətləndiriləcəklər, amma buna baxmayaraq narahatdırlar. Çünki rahib nə qədər mehriban olsa da, gedəcəkləri yerdə onları müşayiət edə bilməzdi. Heç kim bunu bacarmaz.

Aydınlaşma prosesi başlayanda Amerikadan “National Geographic” üçün fotoqraf işləyən bir dostumun göndərdiyi elektron məktubu gördüm. O, mənə elə indicə Nyu Yorkun “Uoldorf-Astoria” otelində Səyyahlar Klubunun şərəfinə verilən ziyafətdə iştirak etdiyini yazmışdı. Dünyanın ən uzaq, təhlükəli dağlarını, kanyonlarım, çaylarını, okeanın dərinliklərini, buzlu

downloaded from KitabYurdu.org

sahələr və vulkanlarını kəşf etmək üçün dəfələrlə həyatını riskə atan belə inanılmaz dərəcədə cəsur adamlann əhatəsində olmağın təəccüblü olduğunu deyir. Bir çoxlarının bəzi bədən
üzvlərini itirdiyini yazırdı. İllər ərzində donma və köpək balıqlarının hücumu nəticəsində ayaq barmaqları, burun, əl barmaqlarını itirənlər var idi.

O yazırdı: "Yəqin ki, bu qədər cəsur insanı eyni vaxtda eyni yerdə heç vaxt görməmisən".

Fikrə getdim və öz-özümə, - "Sən özün hələ heç nə görməmisən, Mayk", - dedim.

66

Aydınlaşma prosesinin mövzusu və vəzifəsi insan şüurunun dördüncü mərhələsi olan "turiya" vəziyyətinə çatmaqdır. Yoqlar deyirlər ki, adi insan təcrübəsi müddətində çoxlarının şüuru üç mərhələ: oyanıq hal, yuxu və dərin yuxuya getmək arasında hərəkət edir. Amma dördüncü mərhələ də var. Bu mərhələ digər üç səviyyənin şahididir. Onları əlaqələndirir. Səhər oyananda gördüyün yuxunu yadına salan ağıllı məlumatlanma, təmiz şüurdur. Gedib yatırsan, amma sən yatanda başqası sənin yuxularına tamaşa edir. Bu şahid kimdir? Daim zehni fəaliyyətdən kənarda dayanıb onu müşahidə edən kimdir? Yoqların fikrincə bu, Tanrıdır.

downloaded from KitabYurdu.org

Əgər şahid-şüur səviyyəsinə çatsan, Tanrı ilə həmişə bir yerdə ola bilərsən. Bu, daimi məlumatlanmaq və Tanrının varlığını daxilində hiss etmək təcrübəsi, sadəcə, insan şüurunun turiya adlanan dördüncü mərhələsində baş verir.

Əgər daimi xoşbəxtlik vəziyyətindəsənsə, deməli, turiya mərhələsinə çatmısan. Turiyada yaşayan şəxs zehnin şıltaqlıqlarından təsirlənmir, zamandan qorxmur və ya itkilərdən heç bir zərər görmür. Qədim yoqa mətnlərindən olan Upanişadlarda turiya halına çatan şəxsin saf, təmiz, boş, sakit, hərəkətsiz, fədakar, sonsuz, sarsılmaz, sabit, əbədi, doğulmamış, müstəqil şəkildə öz müdrikliyində yaşadığı deyilir. Böyük müqəddəslər, qurular, bəşər tarixindəki peyğəmbərlər hər biri daimi turiya vəziyyətində yaşayıblar. Yerdə qalanlardan çoxu isə qısa müddətlik də olsa orada olub. Bir çoxumuz həyatımızda iki dəqiqəlik də olsa tam xoşbəxtlik bəxş edən, xarici aləmlə heç bir əlaqəsi olmayan bu izahedilməz və qeyri- adi hissi sınaqdan keçirmişik. Dünənə qədər, sadəcə, gündəlik həyatının axınına qapılıb gedən Co idin və birdən, - bu nədir?

- heç nə dəyişmədi. Hələ də zərif bir gözəlliyi duyursan, heyrətlənir, xoşbəxtlikdən uçursan. Heç bir səbəb olmadığı halda hər şey qüsursuzdur!

Əlbəttə, bir çoxumuzda bu vəziyyət gəldiyi sürətlə də

downloaded from KitabYurdu.org

keçib gedir. Sanki kimsə daxili mükəmməlliyini sənə göstərib
qaçmaqla sataşır və dərhal həqiqətə geri qayıtmalı olursan. Yenidən əvvəlki narahatlıqlara, arzulara doğru diyirlənirsən. Əsrlərdir ki, insanlar bu xoşbəxtlik vəziyyətini hər cür vasitəyə - narkotik vasitələrə, intim münasibətə, hakimiyyətə, adrenalin və digər gözəl üsullara əl atmaqla qoruyub saxlamağa çalışırlar, amma bu mümkün deyil. Biz hər yerdə xoşbəxtlik axtarırıq. Lakin Tolstoyun bütün həyatını qızılla dolu qabın üstündə oturub yoldan ötüb-keçənlərdən dilənərək yaşayan, taleyinin üstündə oturduğunu bilməyən əfsanəvi dilənçisinə bənzəyirik. Xəzinən, yəni qüsursuzluğun daxilindədir. Onu tələb etmək üçün isə zehni məşğul edən həyəcandan qaçmalı, eqonun arzularını tərk etməli və qəlbin sükutuna təslim olmalısan. Kundalini Şakti - ali ilahi enerji səni ora aparacaq.

Ona görə də hər kəs bura gəlir.

Bu cümləni yazanda əvvəlcə demək istəyirdim ki, - "Ona görə də dünyanın hər tərəfindən gələn yüz iştirakçı aydınlaşma üçün Hindistandakı bu aşramdadır". Lakin əslində, yoq müqəddəslər və filosoflar fikrimi bu cür ifadə etməyimi bəyənərlər: "Hər kəs bura məhz buna görə gəlir". Mistika ilə

downloaded from KitabYurdu.org

maraqlananlann fikrincə ilahi xoşbəxtlik axtanşı insan həyatının məqsədidir. Hamımız buna görə doğulmağı seçirik. Yer üzündəki əzab-əziyyətə də buna görə dözürük. Sadəcə, bu sonsuz sevgini dadmaq ehtimalı olduğu üçün... Bəs bu ilahi xoşbəxtliyi qazanandan sonra onu həmişəlik saxlamaq mümkündürmü? Əgər bunu edə bilsən, xoşbəxt olarsan.

Aydınlaşma prosesi ərzində məbədin arxasında yarıqaranlıq və tam sakit şəraitdə meditasiya ilə məşğul olan iştirakçıları seyr etdim. Vəzifəm onların rahatlığını təmin etmək, hər hansı problemləri və ya ehtiyacları olsa, kömək etməkdən ibarət idi. Hər biri bu proses üçün sükut andı içmişdilər və bütün aşram onların hərəkətsizliyindən doyana qədər hər gün sükutun daha da dərinliklərinə endiklərini hiss edirdim. İştirakçılara hörmət əlaməti olaraq, hamımız neçə gündür ki, barmaqlarımızın ucunda gəzirdik. Yemək yeyəndə belə səsimizi çıxarmırdıq. Boşboğazlardan əsər-əlamət qalmayıb. Mən belə sakitəm. Artıq burada gecə səssizliyi hökm sürür. Gecə saat 3-dəki kimi sükut günəş doğana qədər davam edir və bütün aşram tərəfindən bu vəziyyət təqdir edilir.

Bu yüz ruhun meditasiya vaxtı nə hiss etdiyi və fikirləşdiyini bilməsəm də, onlann nəyi sınaqdan keçirmək istədiklərini bilirəm. Və daim onlar üçün

downloaded from KitabYurdu.org

tanrıya dua edərək, - “Yalvarıram, mənim üçün saxladığın xoşbəxtliyi bu insanlara bəxş et”, - kimi qəribə sövdələşmələr edirəm. Aydınlaşma prosesinə qatılanlarla eyni anda meditasiya ilə məşğul olmaq niyyətində deyiləm. Öz mənəvi səyahətimə görə narahat olmamalıyam. İndi vəzifəm onlara nəzarət etməkdir. Buna baxmayaraq bəzi quşların onları öz qanadlarının gücü ilə uça biləcəklərindən daha hündürə qaldıran yüksək hərarət dalğalan ilə uçmağı kimi, mən də kollektivin ortaq ibadət niyyətinin dalğalan ilə qalxıram. Bunun baş verməsi təəccüblü deyil. Bir cümə axşamı günortadan sonra vəsiqəmi taxıb paltarlanmı geyinərək vəzifəmi icra etdiyim müddət ərzində qəfildən kainatın qapısından keçirildim və Tanrının ovcunun içinə qoyuldum.

67

Oxumağı və araşdırmağı sevən bir şəxs kimi, başqasının mənəvi xatirələrinin ruhun özünü zaman və məkan anlayışlarından ayrı tutduğu və sonsuzluğa qovuşduğu bu anında məyus oldum. Buddadan Müqəddəs Terezaya, sufi alimlərindən quruma qədər bir çox böyük ruh əsrlərdir ki, ilahi varlığa qovuşmağın necə bir hiss olduğunu ifadə etmək üçün əllərindən gələni əsirgəmirlər, amma bu təsvirlər məni qane etmir. Adətən, bu hadisəni təsvir

downloaded from KitabYurdu.org

etmək üçün “ağlasığmaz” sözündən istifadə olunur. Lakin mənəvi axtarışda olanda bütün səy və bacarığı ilə tannnın qolundan bərk yapışdığını yazan Rumi və özü ilə yaradanı balaca bir qayıqdakı iki kök kişiyə bənzədərək, - “Tez-tez bir- birimizə toqquşub gülürük”, - yazan Hafiz kimi bəlağətli nitqə sahib şairlər belə mənə bəs deyil. Bunlan oxumaq istəmirəm. Mənə yaddır. Hindlilərin sevimli qurusu Sri Ramana Maharşi tələbələrinə bu təcrübə ilə bağlı uzun nitqlər söyləyir və sözlərini həmişə eyni fikirlə tamamlayırdı: “İndi isə gedin və axtarın”.

Və mən tapdım. Cümə axşamı Hindistanda yaşadığım hisslər hər nə qədər ağlasığmaz olsa da, bu sözü işlətməyəcəyəm. Bacardığım qədər izah etməyə çalışacağam. Sadə halda desək, mütləq dünyanın qurd boydakı deşiyindən içəri daxil oldum və bir anın içində kainatın fəaliyyət mexanizmini dərk etdim. Bədənimdən, otaqdan, planetdən uzaqlaşdım. Zamanın içindən keçib boşluğa girdim. Boşluğun içində idim, amma özüm də boşluq idim və boşluğa baxırdım. Bunların hamısı eyni vaxtda baş verirdi. Bu boşluq sərhədsiz sülh və müdriklik məkanı idi. O, şüurlu, ağıllı idi. Boşluq Tanrı idi. Deməli, mən də Tanrının içində idim. Amma fiziki olaraq yox. Tannnın bud əzələsinə ilişib qalmamışdım. Sadəcə, onun bir parçasına çevrilmişdim. Əlbəttə, özümün də Tanrı

downloaded from KitabYurdu.org

olmağımı əlavə edək. Həm kainatın kiçik bir hissəsi idim, həm də kainatla eyni ölçüdə idim (“Damcının okeana qarışdığını hamı bilir, amma okeanın damcıya qarışdığını bilənlərin sayı azdır”, - Kabir yazıb. Artıq bu fikrin doğru olduğunu təsdiqləyə bilərəm).

Hiss etdiyim təxəyyülümün qurduğu ssenari deyildi. Hadisələrin ən təməli, başlanğıcı idi. Bəli, cənnət idi. Bu günə
qədər təsəvvür edə biləcəyim hər şeydən üstün, duyduğum ən dərin sevgi idi, amma həyəcanlandırmırdı. Eyforik deyildi. Daxilimdə həyəcan yaratmağa bəs edəcək qədər eqo və ehtiras yox idi. Hər şey aydın idi. Sanki uzun müddət bir illüziyaya tamaşa edirdim. Hiyləni başa düşmək üçün kəskin baxışlarını tuşlayırsan və qəfildən idrakın yerini dəyişdirir. Artıq onu açıq- aydın görə bilirsən! İki güldan kimi gördüyüm əslində iki insan siması imiş. Əgər illüziyanın sirrini açа bilsən, sonra da asanlıqla görə bilərsən.

“Deməli, Tanrı, sən beləymişsən, - deyə düşündüm. - Tanış olduğumuza şadam”.

Olduğum məkan dünyəvi yer deyildi. Nə qaranlıq idi, nə də işıqlı. Nə balaca idi, nə də böyük. Nə ora bir məkan idi, nə mən real olaraq orada idim, nə də ki, ümumiyyətlə mövcud idim. Hələ də fikirlərim var idi, amma sadəcə,

downloaded from KitabYurdu.org

təvazökar, sakit və müşahidəçi düşüncələr. Təkcə tərəddüdsüz rəhmi və hər şeylə, hər kəslə bir olduğumu hiss etməklə kifayətlənmir, həmçinin başqalarının bunu necə hiss etdiyinə təəccüblənirdim. Bu, olduqca qeyri-adi və qəribə idi. Kim olduğum və necə
göründüyümlə bağlı keçmiş fikirlərimin sehrinə aludə olmuşdum. Mən qadınam, Amerikadan gəlmişəm, çoxdanışanam, yazıçıyam... Bütün bu fikirlər xoş, amma köhnəlmiş təsiri bağışlayırdı. Sonsuzluğu sınaqdan keçirəndə, özünü lazımsız bir şəxsiyyət qutusuna həbs etdiyi təssəwürünə gətir.

"Bütün bu vaxt ərzində zövq burda ola-ola, nəyə görə xoşbəxtlik axtarışında idim?" - beynimdən keçirdim.

Bu sual ağlıma gələnə qədər möhtəşəm efir ittifaqında nə qədər qaldığımı bilmirəm. "Bu hissin sonsuza qədər davam etməsini istəyirəm!" Oradan diyirlənib aşağı düşməyim də bundan sonra başladı. Sadəcə, bircə söz - "istəyirəm!" və yenidən dünyaya tərəf sürüşməyə başladım. Ağlım isə buna etiraz edirdi: "Yox! Burdan getmək istəmirəm!" Bir az da aşağı sürüşdüm.

İstəyirəm!

İstəmirəm!

İstəyirəm!

İstəmirəm!

downloaded from KitabYurdu.org

Bu ümidsiz sözləri hər dəfə dilə gətirəndə, binanın başından yıxılan vaxt qabağına çıxan bir düjün lövhəni parçalayıb keçən komediya qəhrəmanı kimi, bir illüziya qatından digərinə yıxıldığımı hiss edirdim. Bu qayıdış məni kiçik sərhədlərimə, ölümcül məhdudiyyətlərimə, dar zövq anlayışıma aparırdı. Polaroid fotoşəklin təkamül prosesini seyr edirmiş kimi, eqomun qayıdışına göz yumurdum. Getdikcə dəqiqləşirdi - sima, ağzın ətrafındakı xətlər, qaşlar... Başa çatdı. Bu mənim əvvəlki halımın rəsmidir. Vahimə ilə titrəyirdim. Bu ilahi təcrübəni itirdiyimə görə heyfsilənirdim. Bu vahimə ilə paralel olaraq, başını yelləyib gülümsəyən şahid, daha ağıllı və yetkin bir mən olduğumu hiss edirdim. O şahid bunu bilirdi: Əgər bu xoşbəxtliyin əlimdən alına biləcəyinə inanıramsa, deməli, hələ onu dərk etməmişəm. Ona görə də hələ ki, orada yaşamağa hazır deyiləm. Daha çox məşq etməliyəm. Bunu başa düşən anda Tann sonuncu mərhəmətli, səssiz mesajı ilə barmaqlarının arasından sürüşüb düşməyimə, getməyimə icazə verdi: "Həmişə burada olduğunu tamamilə dərk edəndən sonra bura geri qayıda bilərsən".

68

Aydınlaşma təlimləri iki gündən sonra başa çatdı və hamı sükut andını pozdu. İnsanlar məni qucaqlayıb onlara

downloaded from KitabYurdu.org

kömək etdiyimə görə mənə təşəkkür etdilər.

Mən isə hər birinə, - “Ah, yox, mən sizə minnətdaram”, - deyə cavab verirdim. Ağlıma belə gəlməyən o yüksək zirvəyə çıxardıqlarına görə onlara olan minnətdarlığımı sözlə ifadə etməyin qeyri-mümkün olduğuna inanaraq bunları deyirdim.

Bir həftədən sonra növbəti təlim üçün yüz nəfər gəldi. Təlimlər və özünə qayıdış üçün səylər, hər yeri bürüyən sükut yenidən təkrar olunurdu, ancaq bu dəfə artıq yeni adamlarla. Onlara da nəzarət edirdim. Mümkün qədər kömək etməyə çalışırdım və bir neçə dəfə onlarla da “turiya” mərhələsinə qalxdım. Meditasiyadan çıxanların çoxu səssizlik müddətində sakit, ruhu göylərdə uçan, dünyəvi olmayan bir varlıq təsiri bağışladığımı deyəndə xeyli gülürdüm. Bəlkə bu, aşramm mənə sonuncu zarafatı idi? Səs-küylü, ünsiyyətcil, çoxdanışan
təbiətimi qəbul edib yeni vəzifəmi qucaqlamağı öyrənəndən sonra, nəhayət, “məbədin arxa tərəfindəki sakit qız” olacaqdım?

Son həftələrimdə aşramda yay düşərgəsinin axırıncı günləri olduğuna görə melanxolik bir ovqat hökm sürürdü. Sanki hər gün avtobuslara daha çox insan minir, daha çox çamadan yüklənir və çıxıb gedirdilər. Gəlib gedən azalmışdı. Hindistandakı ən isti fəslin başlanğıcı

downloaded from KitabYurdu.org

olan may ayı gəlib çıxırdı və bir müddət aşramı yenidən səssizlik ağuşuna alacaqdı. Aydınlaşma təlimləri də artıq keçirilmir. Ona görə də vəzifəm dəyişdirildi. Bu dəfə də bütün dostlarımın aşramdan çıxıb getməklərini rəsmi olaraq qeyd etmək kimi kədərli bir iş üçün qeydiyyat ofisinə keçirildim.

Mənimlə birlikdə Medison küçəsində saç ustası olmuş bir qadın da işləyir. Səhər bir yerdə dua edir, Tanrıya himnimizi, sadəcə, ikimiz oxuyuruq.

Bir səhər saç ustası, - "Səncə, bu gün himnin ritmini sürətləndirə bilərik?" - deyə soruşdu. "Bəlkə səsimizi daha yüksək oktavaya qaldıraq? Onda səsim Kaunt Beyzinin ilahi versiyası kimi çıxmaz".

İndi mənim təklikdə keçirməyə daha çox vaxtım qalır. Hər gün 4-5 saatı meditasiyaya həsr edirəm. Yer üzündəki mövcudluğuma görə narahat olmadan saatlarla tək otura bilirəm. Bəzən onurğanı əyib bükmək kimi şaktinin qanı donduran qeyri-real və fiziki təmrinlərini sınaqdan keçirirəm. Mümkün qədər az müqavimət göstərib təslim olmağa çalışıram. Hərdən də şirin, sakit məmnunluq hissi məni bürüyür. Yenə də beynimdə cümlələr qurulur və fikirlər rəqs edirlər, amma indi onları o qədər yaxşı tanıyıram ki, daha məni narahat edə bilmirlər. Fikirlərim keçmiş qonşularım kimi

downloaded from KitabYurdu.org

zəhlətökəndirlər. Cənab və Xanım Çənə və onların Söz, Söz, Söz adlı üç lal uşaqları - buna baxmayaraq, onları sevirəm. Uşaqlar evimi dağıtmırlar. Burada hamımıza ayrıca otaq var.

Son bir neçə ayda daxilimdə baş verən dəyişikliklərə gəldikdə isə, bəlkə də mən onlan hələlik hiss edə bilmirəm.

Uzun müddət yoqa ilə məşğul olan dostlanm ancaq aşramdan normal həyata qayıdandan sonra yoqanm necə təsir etdiyini başa düşməyin mümkün olduğunu deyirlər. Cənubi Afrikalı rahibə, - "Ancaq ondan sonra daxilindəki dolabların yenidən

qaydaya düşdüyünü görəcəksən", - deyirdi. Əlbəttə ki, onda normal həyatımın nə olduğunu bilmirdim. Bəlkə də İndoneziyadakı ara həkiminin yanma köçəcəyəm? Normal həyat tərzim budur? Ola bilər, niyə də yox? Hər halda dostlarımın fikrincə dəyişikliklər sonradan meydana çıxacaq. Ömür boyu başına bəla olan vəsvəsələr və köhnə, yararsız qəliblər yox olur. Bir vaxtlar gözündə böyütdüyün dərd artıq problem olmaqdan çıxır. Həmçinin dözməyə vərdiş etdiyin əzablara beş dəqiqə belə göz yuma bilmirsən. Zəhərli münasibətlər sona çatır və ya yerbəyer edilir. Sənin dünyana gülərüz, faydalı insanlar daxil olmağa başlayırlar.

downloaded from KitabYurdu.org

Ötən gecə yata bilmədim. Səbəb narahatlıq yox, həyəcanlandıran gözləmə idi. Geyinib həyətə çıxdım. Ay bütöv və şirin idi. Yuxarıda dayanıb ətrafa işıq yayırdı. Havadan yasəmən və buralarda bitən, təkcə gecə çiçək açan füsunkar gül kolunun ətri gəlirdi. Gün rütubətli və isti keçmişdi. İndi az da olsa rütubət və istiliyi duyurdum. İsti hava məni əhatə edəndə başa düşdüm ki, Hindistandayam!

Ayağımda çarıqlarım var və Hindistandayam!

Qaçmağa başladım. Yoldan uzaqlaşıb çəmənliyə getdim, ayın yaşıl otların üzərindəki əksini yanb keçdim. Yoqa, vegeterian qidalar tez yatmaqla keçən o aylardan sonra bədənim olduqca gümrah və sağlamdır. Çarıqlarım yumşaq, nəm otun üstündə şappıldayırdı. Vadidəki yeganə səs elə bu idi. Xoşbəxt halda parkın ortasındakı evkalipt ağaclarına tərəf qaçdım (Deyilənə görə, orada keçmişdə maneələri aradan qaldıran tanrı Qaneşin şərəfinə tikilən məbəd yerləşirmiş). Qollarımı ağaclardan birinə doladım və günəşin təsiri ilə hələ də isti olan ağacı ehtirasla öpdüm. Övladı özünü tapmaq məqsədilə Hindistana qaçan hər bir amerikan ailəsi üçün ən dəhşətli kabusun qızlarının axırda ay işığında ağacla sevişmək olduğunu nəzərə almadım və bütün qəlbimlə ağacı öpdüm.

downloaded from KitabYurdu.org

Amma bu, saf, ilahi öpüş idi. Qaranlıq vadiyə nəzər yetirdim və tann olmayan heç nə görmədim. Dərin, dəhşətli bir xoşbəxtlik hiss edirdim. Öz-özümə "Məhz bu duyğu üçün dua edirdim. Və buna görə dua edirdim", - deyə fikirləşdim.

69

Yeri gəlmişkən, məni ifadə edən sözü tapdım. Əlbəttə, mənim kimi bir kitab qurdu onu ancaq kitabxanada tapa bilərdi. İtalyan dostum Culio həmin günorta Romanı ifadə edən sözün seks olduğunu demişdi. Həmçinin məni ifadə edən sözün hansı olduğunu da soruşmuşdu. Onda cavabı bilmirdim, amma əmin idim ki, həmin sözə rast gələn kimi tanıyacağam.

Aşramdakı sonuncu həftəmdə onu gördüm. Yoqa haqqında qədim bir mətn oxuyanda, qədim ilahi tədqiqatçıların xarakteristikasına rast gəldim. Paraqrafda sanskrit dilində bir söz işlənmişdi: ANTEVASİN. Mənası belədir: "Sərhəddə yaşayan şəxs". Qədim zamanlarda bu söz elə hərfi mənada işlənirdi. Dünyəvi həyatın mərkəzindəki səs-küyü tərk edib ilahi ustadlarının yaşadığı yerlərdə məskunlaşmaq üçün meşə qırağına gedən insanlara deyilirdi. Antevasin artıq kəndlilərdən biri və ya ənənəvi həyat tərzi keçirən ev sahibi deyildi. Amma hələ ki, üstünlük həddinə də çatmamışdı. İnsan

downloaded from KitabYurdu.org

ayağı dəyməyən
meşələrdə yaşayan tam müdrikliyə çatmış şəxslərdən deyildi. Antevasin ikisinin arasında bir yerdə yaşayırdı. Sərhəddə idi. İki dünyanın da gözü qabağında yaşayaraq, naməlum olana baxırdı. O, elm adamı idi.

Antevasinin bu təsvirini oxuyanda o qədər həyəcanlandım ki, astadan qışqırdım. Mənim sözüm budur! Əlbəttə ki, müasir dövr üçün insan ayağı dəyməyən meşə ifadəsi məcazi məna daşıyır, sərhəd də həmçinin. Amma orada yaşaya bilərsən. Köhnə və yeni düşüncə tərzi arasındakı o nazik xətdə yaşayıb daimi öyrənmə vəziyyətində qala bilərsən. Obrazlı dildə desək, bu sərhəd həmişə hərəkət edir. Tədqiqat və tətbiqdə inkişaf etdikcə, bu sirli meşə daim bir neçə addım uzaqda olur. Ona görə də ardınca heç bir çanta və yük olmadan səyahət edirsən. Səyyar, aktiv, elastik, hətta sürüşkən olmalısan. Gülməlisi odur ki, bir gün əvvəl Yeni Zelandiyalı şair dostum aşramı tərk etdi və qapıdan çıxanda mənə mənəvi səyahətimlə bağlı yazdığı balaca vida şeirini verdi. Bir bəndi xatırladım:

Elizabet qalıb ikisinin arasında,
İtaliya haqda çərənləyir, Balini arzulayır.
Elizabet qalıb ikisinin arasında,
Xatırladır sürüşkən balığı.

downloaded from KitabYurdu.org

Son illərdə kim olduğumu fikirləşməyə çox vaxt sərf edirəm. Həyat yoldaşı? Ana? Sevgili? Boşanmış qadın? Çoxyeyən? Səyahətçi? Sənətkar? Yoq? Amma tam olaraq bunların heç biri deyiləm. Çılğın Liz xala da deyiləm. Mən, sadəcə, sürüşkən bir antevasinəm. Vahiməli meşənin yaxınlığındakı daim dəyişən, sərhəddə dayanan tələbəyəm.

70

Hər bir dinin daşınması mümkün olan metafora tapmaq arzusunda olduğuna inanıram. Tanrı ilə ünsiyyətə can atırsansa, deməli, dünyəvidən əbədiyə keçmək istəyirsən (Antevasinə görə kənddən meşəyə keçmək) və səni ora ötürməyə qadir möhtəşəm ideyaya ehtiyacın var. Bu metafora əzəmətli, sehrli, güclü olmalıdır, çünki səni mümkün qədər uzağa aparmağı öhdəsinə götürür. O, təsəvvür edə bildiyin ən nəhəng qayıq olmalıdır.

Adətən dini ayinlər mistik eksperimentlərin nəticəsində meydana gəlir. Bəzi cəsur kəşfiyyatçılar ilahi varlığa aparan yeni yol axtaranda, böyük bir sınaqdan keçib peyğəmbər kimi qayıdırlar. Cəmiyyətə cənnətlə və ora aparan üsullarla bağlı hekayələr qazandırırlar. Sonra da başqaları bu peyğəmbərlərin sözlərini, hərəkətlərini, dualarını, gördüyü əməlləri sərhədi adlaya bilmək üçün təkrarlayır. Bəzən doğrudan da alınır. Nəsildən-nəslə

downloaded from KitabYurdu.org

ötürülən hecaların tanış kombinasiyası və ibadət
çoxlarını o biri tərəfə apanr. Bəzən isə bu üsul işləmir. Hətta orijinal ideyaların əksəriyyəti belə getdikcə sərt ehkamlara çevrilir və hər kəs üçün faydalı olmaq gücünü itirir.

Burdakı hindlilər həmişə aşramda loyal tərəfdarları ilə əhatə olunan bir müqəddəs haqqında ibrətli hekayə danışırlar. O, tərəfdarları ilə gün ərzində Tanrım düşünərək meditasiya ilə məşğul olurmuş. Yeganə problem həmin müdrikin meditasiya vaxtı məbəddə miyoldayıb, mırıldayaraq hamını narahat edən balaca, zəhlətökən pişiyi idi. Ona görə də müdrik heç kimi narahat etməmək üçün pişiyin gündə bir neçə saatlıq dirəyə bağlanmasını əmr edir. Bundan sonra pişiyi dirəyə bağlayıb meditasiya etmək vərdiş halına gəlir, amma illər ötdükcə daha da kəskinləşib dini ayinə çevrilir. Artıq heç kim pişiyi dirəyə bağlamadan meditasiyaya başlamırdı. Günlərin bir günü pişik ölür. Müqəddəs şəxsin tərəfdarları vahiməyə düşürlər. Bu, böyük bir dini böhran idi. Dirəyə bağlamağa pişik olmasa, meditasiya necə baş tuta bilərdi? Tannya çata bilərdilərmi? Pişik onların gözündə bir vasitə idi.

Bu hekayə bizə xəbərdarlıq edir ki, dini ayinləri təkrarlayanda ifrata varmayaq. Xüsusilə də hazırkı

downloaded from KitabYurdu.org

bölünmüş dünyada, Taliban və Xristian koalisiyasının Tanrı sözünün müəllif hüquqları və həmin Tannya çatdıra bilən ayinlərin kimə məxsus olduğu ilə bağlı beynəlxalq imic uğranda müharibə etdiyi bir dövrdə yadda saxlamaq lazımdır ki, bir insanı ilahi varlığa aparan yol pişiyi dirəyə bağlamaqdan keçmir. Sadəcə, mənəvi axtarışda olan şəxsin əbədi mərhəməti sınaqdan keçirmək arzusu buna kömək ola bilər. İlahilik üçün intizam qədər fikirlərin çevik olması da əhəmiyyətlidir.

Əgər razılaşsan, səni ilahi varlığa daha çox yaxınlaşdıracaq metaforalar, ayinlər və müəllimlər axtarmaq sənin vəzifəndir. Müqəddəs yoqa mətnlərinə görə, seçdikləri məzhəbdən asılı olmayaraq Tann insanların səmimi dualarını və cəhdlərini qarşılıqsız qoymur. Upanişadda deyilir ki, - "İnsanlar temperamentlərindən asılı olaraq özləri üçün ən pisi və yaxşını təyin etməklə yanaşı, ona uyğun olaraq düz və ya dolaşıq yollara üz tuturlar. Nəticədə isə çaylar axıb okeana tökülən kimi, hamısı Sənə qovuşur".

Dinin digər məqsədi, əlbəttə ki, xaotik dünyamıza məna verməyə çalışmaq və hər gün yer üzündə şahid olduğumuz qəribəlikləri izah etməkdir. Məsumlar əzab çəkir, günahkarlar isə mükafatlandırılırlar. Bunu necə başa düşməliyik? Qərb ənənəsinə görə, - "Hamı öləndən

downloaded from KitabYurdu.org

sonra bölünüb cənnət və cəhənnəmə göndəriləcək" (Ədalət Ceyms Coysların "Cəllad Allah" adlandırdığı, mütləq hakim kreslosunda əyləşən, pisi cəzalandınb yaxşmı mükafatlandıran "ata" xislətli yaradan tərəfindən bəxş ediləcək). Şərqdə isə upanişadlar dünyadakı xaosa məna verməyə cəhd belə etmirlər. Onun mövcudluğuna heç əmin də deyillər. Məhdud görmə qabiliyyətimizə görə bizə belə gəldiyini iddia edirlər. Bu mətnlər hər hərəkətin bir nəticəsi olacağını deyir, amma heç kimə qisas və ya ədalət vəd etmir. Ona görə də hərəkətlərini buna uyğun təyin etməlisən. Ola bilər ki, nəticəni yaxın vaxt ərzində görməyəsən. Yoqa, adətən uzaq gələcəyə istiqamətlənir. Bundan əlavə, bunu hazırda başa düşməsən də, upanişadlar xaosun ilahi funksiyası ola biləcəyini deyirlər. "Tanrı gizli olanı sevir, aşkar olanı yox". Elə isə anlaşılmaz və təhlükəli dünyamıza cavab olaraq, xaricdə baş

verən dəliliklərə baş qoşmayıb daxili tarazlığı qoruyub saxlamaq lazımdır.

İrlandiyalı fermer, həmçinin yoq Şon bunu mənə belə izah etdi: "Təsəvvür et ki, kainat fırlanan nəhəng bir mühərrikdir. Sən bu sürətli fırlanmanın baş verdiyi, səni dəliyə çevirən yerə yox, onun nüvəsinə - təkərin mərkəzinə yaxınlaşmaq istəyirsən. Sakitliyin mərkəzi

downloaded from KitabYurdu.org

ürəyindir. Ora Tannnın sənin daxilində özünə məskən seçdiyi yerdir. Ona görə də cavabları dünyada axtarma. Sadəcə, bu mərkəzə doğru addımla və inan ki, rahatlığa qovuşacaqsan".

Mənəvi cəhətdən bu ideya məni qane edir. Mənə uyğun gəlir. Və sizi inandırım ki, bundan daha məntiqli fikrə rast gəlsəm, ondan istifadə edəcəyəm.

Nyu Yorkdakı dostlarımın çoxu dindar deyil. Onlar ya gənc vaxtlarından mənəvi təlimlərdən ayrı düşüblər, ya da əvvəldən Tanrı inancı ilə tərbiyə olunmayıblar. Təbii olaraq onların bəziləri müqəddəs varlığa çatmaq üçün kəşf etdiyim bu cəhdlərə görə narahat olurdular. Zarafat edirdilər. Bir dəfə dostum Bobi kompüterimi təmir etməyə çalışanda zarafatla, - "Auran
pozulmasın, amma hələ də internetdən proqram yükləməyi öyrənə bilməyibsən", - demişdi. Zarafatlarla aram yaxşıdır. Gülüb keçirəm.

Bəzi dostlanm isə yaş artdıqca inam obyektinə ehtiyac duyurlar. Amma bu ehtiyac ağıl və intellekt kimi maneələrə ilişib qalır. Nə qədər ağıllı olsalar da, onlar vəhşi, dağıdıcı və mənasız təkanlara məruz qalıb əyilmiş bir dünyada yaşayırlar. Əzab və sevinc kimi dəhşətli sınaqlar onların da həyatından yan keçmir və bu böyük təcrübələr bizdə gileyi, minnətdarlığı bildirmək və ya

downloaded from KitabYurdu.org

dərk etmək axtarışı ilə mənəvi kontekstə meyil yaradır. Nəyə inanaq? Kimə dua edək?

Bir dostum çox sevdiyi anasını itirən kimi ardınca dünyaya övlad gətirib. Bu itki və möcüzə eyni anda baş verəndən sonra dostum öz hisslərini aydınlaşdırmaq üçün müqəddəs bir yer və ya yerinə yetirə biləcəyi bir ayin axtarışına çıxıb. Dostum katolik kimi böyüdülmüşdü, amma yetkin bir şəxs kimi kilsəyə qayıtmağı həzm edə bilmirdi ("Nə bildiyimdən xəbərdar ola-ola daha çoxuna göz yuma bilmərəm", - deyirdi). Əlbəttə ki, hinduist, ya da buddist kimi mənasız bir şey olmağa da
utanırdı. Bəs nə edə bilərdi? Mənə belə deyirdi: "Bazardan meyvə alan kimi din seçmək olmaz".

Onun fikrinə hörmət etsəm də, heç cür razılaşmıram. Fikrimcə, əgər söhbət ruhumuzu hərəkətə gətirmək, Tanrıda rahatlığa qovuşmaqdan gedirsə, bazardan meyvə alırmış kimi din seçmək haqqımız var. O biri dünyaya nəql olunmaq və ya narahatlıqdan xilas olmaq istəyəndə isə bunu yerinə yetirmək iqtidarında olan hər hansı bir metaforanı axtarmaqda azad olduğumuzu düşünürəm. Burada utanmalı heç nə yoxdur. Bu, bəşəriyyətin müqəddəslik axtarışının tarixidir. Əgər insanlıq ilahiyyatın tədqiqatında inkişaf etməsəydi, hələ də Misirin qızıldan hazırlanmış pişik heykəllərinə sitayiş

downloaded from KitabYurdu.org

edərdik. Və dini dünya görüşündəki bu təkamülün bazardan meyvə seçməklə də bir az əlaqəsi var. Sənə lazım olanı harada tapa bilsən, götürüb yoluna davam edirsən.

Hopi hinduları hesab edirdilər ki, dünyadakı dinlərin hər birinin mənəvi sapı var. Bu saplar həmişə bir-birini axtarır, düyünlənmək, qovuşmaq istəyirlər. Bütün saplar birləşəndə bizi tarixin bu qaranlıq dövrəsindən çıxarıb növbəti səltənətə
aparmalı olan kəndir meydana gələcək. Dalay Lama da eyni ideyanı daha müasir tərzdə təkrarlayıb. O, qərbli tələbələrinə onun təlimində iştirak etmək üçün Tibet buddisti olmaq məcburiyyətində olmadıqlarını deyir. Onlann Tibet buddizmindən özlərinə yaxın olan fikirləri götürüb dini təcrübələrinə calamasım normal qarşılayır. Hətta ən xoşagəlməz və mühafizəkar yerlərdə belə, tanrının bizə öyrədilən məhdud dini doktrinalardan daha böyük olduğu kimi parlaq fikrə rast gəlmək olar. 1954-cü ildə Roma papası XI Piy bəzi Vatikan nümayəndələrini belə bir yazılı təlimatla Liviyaya səfərə göndərir: “Kafirlərin arasına getdiyinizi fikirləşməyin. Müsəlmanlara da nicat yolu var. Tanrıya gedən yollar sonsuzdur”.

Doğrudan da məntiqlidir, elə deyilmi? Sonsuzluq,

downloaded from KitabYurdu.org

həqiqətən də sonsuzdur. Aramızdakı ən müqəddəslər də müəyyən vaxtlarda şəklin dağılmış hissələrini görürlər, elə deyilmi? Və bəlkə də bu hissələri toplayıb müqayisə etsək, hamıya bənzəyən və hər kəsi ehtiva edən bir Tannnın mövcudluğunu bildirən hekayə meydana çıxacaq? Yaradana
hiss etdiyimiz həsrət özü də, mənəvi axtarışın bir hissəsi deyilmi? Heyrətimizin mənbəyinə mümkün qədər yaxınlaşanadək axtarmaq hüququna malik deyilikmi? Hətta bu Hindistana gəlib ay işığında ağaclan öpməyi tələb etsə belə...

Başqa sözlə, mərkəzdəki mənəm. İşıqlar mənə tuşlanıb. Dinimi seçirəm.

71

Hindistandakı təyyarə reyslərinin vaxtına uyğun olaraq, səhər saat 4-də uçacağam. Bütün gecə yatmayıb gecəni meditasiya mağaralarının birində keçirməyi qərara aldım. Təbiətcə gec yatan deyiləm, amma daxilimdəki bir səs aşramdakı son saatlarımı oyaq keçirməyimi tələb edir. Dəfələrlə həyatımda bütün gecə oyaq qalmağıma səbəblər olub - sevişmək, kiminləsə mübahisə etmək, uzaq bir yerə maşınla getmək, rəqs etmək, ağlamaq, narahat olmaq (Bəzən bunların hamısı bircə gecədə baş verir)... Lakin heç vaxt xüsusi bir himn xatirinə yuxumu qurban

downloaded from KitabYurdu.org

verməmişəm. Nəyə görə indi bunu etməyim?

Çantamı hazırladım və sübhdən əvvəl taksi gələndə dərhal götürüb gedə bilmək üçün məbəd qapısının yanma qoydum. Sonra isə təpəyə çıxdım, meditasiya mağarasına girib oturdum. Tək idim. Qurumun ustadı, aşramm təsisçisi çoxdan getdiyinə baxmayaraq, hələ də burada olan şirin - Svamicinin rəsmini görə biləcəyim bir yerdə əyləşdim. Gözlərimi yumub mantranın
gəlməyini gözlədim. Pilləkənlərlə hərəkətsizliyin mərkəzinə endim. Doqquz yaşım olanda zamanın qəddarlığı ucbatından qorxuya düşüb dünyanın dayanmağını arzulayardım. Ora çatanda hiss etdim ki, arzuma çatmışam - dünya dayanıb. Ürəyimdə saat dayandı və təqvimin səhifələri daha divardan qopub düşmədi. Mümkün qədər sakit bir heyrətlə otururdum. Dua etmirdim. Özüm duaya çevrilmişdim.

Bütün gecə burada otura bilərəm.

Belə də edirəm.

Taksiyə minmək vaxtı gəlib çatanda necə oyandığımı bilmirəm. Bir neçə saat davam edən hərəkətsizlikdən sonra nə isə bir qüvvə sanki məni dümsükləyir və saata baxanda doğrudan da getmək vaxtının gəlib çatdığını görürəm. Artıq İndoneziyaya uçmalıyam. Necə də məzəli və qəribədir. Beləliklə, ayağa qalxıb hökm edən,

downloaded from KitabYurdu.org

mükəmməl, alovlu Svamicinin şəkli qarşısında baş əyirəm. Sonra isə düz onun təsvirinin aşağısına, xalçanın altına kağız qoyuram. Həmin kağızda Hindistanda keçirdiyim dörd ay ərzində yazdığım iki şeir var. Bu vaxta qədər yazdığım ilk şeirlərdir. Yeni Zelandiyalı şair dostum şeir
yazmaq üçün məni həvəsləndirmişdi. Və beləcə alındı. Şeirlərdən birini bura gələndən bir ay sonra yazdım. O birini isə bu səhər qələmə almışam.

İki şeirin arasındakı məsafədə mən tam bir sakitlik sığınacağı tapdım.

72

Hindistandakı aşramdan iki şeir.

Birinci şeir

Nektar və xoşbəxtlik haqqındakı söhbətlər məni bezdirməyə başlayır,
Səni bilmirəm, dostum,
Amma mənim üçün Tanrıya gedən yol şirin büxur deyil.
O göyərçin qəfəsində olan pişiyə bənzəyir.
Və mən həmin pişiyəm...
Mən həmçinin bədəninə caynaqlar sancılanda dəli kimi qışqıran göyərçinəm.
Məni Tanrıya aparan yol bir işçinin üsyanıdır, Həmkarlar işə qarışmayana qədər o sakitləşməyəcək. Onların

downloaded from KitabYurdu.org

ümidsiz piketləri
Hətta Milli qvardiyanı qorxudur.
Yolum hələ mənə qədər keçilib və kəsilib,
Və bunu
İndiyə kimi tanımadığım, balaca, qarabuğdayı bir adam edib,
O ayağında çarıq bütün Hindistanda palçığa bataraq Tanrını axtarıb, Ayaqyalın, ac, malyariya xəstəliyinə tutulmuş və qan itirmiş halda,
Körpülərin altında, qapıların ağzında yatıb - avaradır.
Evini axtarmaq üçün səyahət edib.
Və indi də məni təqib edərək soruşur:
“Sən hələ də başa düşmədin, Liz? SƏYAHƏT nə deməkdir?
Və sən hansı evi axtarırsan?”
İkinci şeir
Əgər
Buranın təzə biçilmiş otundan düzələn Şalvar geyinməyimə icazə versələr, Bunu edəcəyəm.
Qaneş meşəsindəki hər bir evkalipt ağacı ilə Sevişməyinlə icazə versələr,
And içirəm ki, sevişəcəyəm.
Bu günlərdə məndən tər əvəzinə şeh axır, Yorulmadan çalışdım,

downloaded from KitabYurdu.org

Çənəmi ağacın qabığına sürtdüm,
Öz ustadımın ayağı zənn edərək.
Bütün bunlar mənim üçün çox azdır.
Kifayət qədər uzaqlaşa bilmirəm,
Quş yuvalarının yatağında təklif edilən Torpağını yeməyimə icazə versəydilər bu yerin, Boşqabdakının, sadəcə, yarısını qurtarardım. Sonra da bütün gecə yerdə qalanın üstündə yatardım.
İNDONEZİYA
və ya
“Alt paltarlarımın içində belə özümü fərqli hiss edirəm”
və ya
Tarazlıq axtarışı barədə otuz altı hekayə



73
Bali səyahətim həyatımın ən plansız səfəri hesab oluna bilər. Ehtiyatsız səyahətlər tariximdə heç bir yerə bu qədər səhlənkar ayaq basmamışam. Harada qalacağımı, nə edəcəyimi, məzənnəni, hava limanında necə taksi tapacağımı, hətta taksiyə məni hara aparmağını

downloaded from KitabYurdu.org

deyəcəyimi bilmirəm. Heç kim gəlişimi gözləmir. İndoneziyada dostum yoxdur. Dostlarımın dostları belə yoxdur. Və köhnəlmiş bələdçi kitabla səyahət edib onu oxumamağm yarada biləcəyi çətinlik budur: İstəsəm belə İndoneziyada 4 ay qalmağıma icazə verilmədiyini indi bilirəm. Bunu ölkəyə daxil olandan sonra öyrəndim. Məlum oldu ki, ancaq biraylıq turist vizası ala bilərəm. İndoneziya hökumətinin məni məmnunluqla, ürəyim istəyən qədər ölkələrinə qonaq edəcəyini zənn edirdim.

Miqrasiya xidmətinin nümayəndəsi pasportuma Balidə, sadəcə, 30 gün qala biləcəyimi bildirən möhürü vuranda, mehriban tərzdə ondan daha uzun müddət qalmağımın mümkün olub-olmadığmı soruşuram.

O da eyni mehribanlıqla, - "xeyr", - deyir. Balineziyalılar öz mehribanlıqları ilə tanmırlar.

"Başa düşürsünüzmü, burada 3-4 ay qalmağı nəzərdə tutmuşam", - mən razılaşa bilmirəm.

Lakin təbii ki, bu zərurətin iki il əvvəl burada 3-4 ay qalacağımı qoca, böyük ehtimalla, dəli bir ara həkiminin on dəqiqə ərzində oxuduğu əl falından yarandığını demədim. Bunu necə izah edəcəyimi bilmirdim.

İndi fikirləşirəm ki, görəsən, o qoca mənə əslində nə demişdi? Doğrudan da Baliyə gəlib burada 3-4 ay yaşayacağımı demişdimi? Həqiqətən də "burada

downloaded from KitabYurdu.org

yaşayacağımı” bildirmişdimi? Ya o yaxınlıqda olanda bir dəfə onun yanma baş çəkib falıma baxdırmağımı, sonra da on dollar verməyimi istəyirdi? Geri qayıdacağımı, yoxsa qayıtmalı olduğumu demişdi? Ayrılanda, - “hələlik”, - dedi, yoxsa “görüşərik?”

O axşamdan sonra ara həkimi ilə heç bir ünsiyyətim olmayıb. Onunla necə əlaqə quracağımı bilmirdim. Ona hansı ünvana məktub yaza bilərdim? “Ara həkimi, öz eyvanında, Bali, İndoneziya”, - belə? Sağ olub-olmadığını belə bilmirdim. İki il əvvəl görüşəndə həddindən artıq qoca olduğu yadımdadır. O vaxtdan bəri hər şey ola bilər. Onunla bağlı əmin olduğum yeganə məlumat adıdır - Ketut Liyer və yaddaşım onun Ubud şəhərinin yaxınlığındakı bir kənddə yaşadığını deyir. Kəndin adını isə unutmuşam.

Bəlkə də bütün bunlar barədə hər halda əvvəlcədən fikirləşməli idim.

74

Bali gəzmək üçün olduqca rahat yerdir. Təyyarədən yerə enəndən sonra nə edəcəyimi bilmədiyim Sudana oxşamır. Təxminən Delaverin ölçüsündə bir ada və məşhur turizm obyektidir. Adama elə gəlir ki, bütün şəhər kredit kartları olan qərblilərin sərbəst gəzməyinə kömək edəcək şəkildə təşkil olunub. İngilis dili burada geniş yayılıb və sevilir

downloaded from KitabYurdu.org

(Ona görə də günahkarlıq duyğusu ilə qarışıq bir yüngüllük hiss etdim. Beyin hüceyrələrim son bir neçə ayda müasir italyan və qədim sanskrit dilini öyrənməklə o qədər yüklənib ki, İndoneziya dilini, daha da çətini, böyük ehtimalla marslılarm dilindən də qarışıq olan Bali dilini öyrənməyə gücüm qalmayıb). Burada yaşamaq çətin deyil. Hava limanında pulunu xırdalayıb sənə yaxşı bir mehmanxana məsləhət görəcək mehriban sürücüsü olan bir taksi tapa bilərsən. Bunlann heç biri çətin məsələ deyil. İki il bundan əvvəl (mən Balini tərk edəndən bir neçə həftə sonra) terroristlər burada partlayış törədib və ondan sonra
turizm sənayesi xeyli çöküb. Artıq burada gəzmək daha da asandır. Hamı var gücü ilə sizə kömək etmək, pul qazanmaq üçün çalışır.

Beləliklə, taksiyə əyləşib gəzintimə başlamaq üçün heç də pis təəssürat bağışlamayan Ubud şəhərinə üz tuturam. Əfsanəvi “meymun meşəsi yolu”nun üstündə yerləşən balaca, qəşəng bir mehmanxanaya yerləşirəm. Mehmanxananın balaca üzgüçülük hovuzu və çiçəyi voleybol topundan böyük olan tropik güllərlə (Onlara müntəzəm olaraq işləyən milçəkquşu və kəpənək komandaları qulluq edirlər) əhatə olunmuş bağı var. İşçi heyəti balineziyalıdır. İçəri daxil olan kimi heyranlıqlarını

downloaded from KitabYurdu.org

və gözəlliyimlə bağlı komplimentləri dilə gətirirlər. Otağın pəncərəsindən tropik ağaclann təpələri görünür və hər səhər yeməyində təzə tropik meyvələr verilir. Uzun sözün qısası, bura bu günə qədər qaldığım ən gözəl yerlərdən biridir və günə on dollardan daha az xərcim çıxır. Yenidən burada olmaq gözəldir.

Ubud Balinin mərkəzində, dağların arasında yerləşir. Çəltik tarlalan və sonsuz sayda hind məbədləri, cəngəlliyin dərin dərələrini sürətlə yanb keçən sular və üfüqdə görünən

vulkanlarla əhatə olunub. Ubud uzun müddət Balidəki ənənəvi şəkil, rəqs, ağac üzərində oyma və dini mərasimləri ilə adanın mədəni mərkəzi hesab edilib. Yaxınlıqda çimərlik yoxdur. Ona görə də bura gələnlər adətən "beş ulduzlu turistlər" deyil, müstəqil səyyahlardır. Onlar serfmqlə məşğul olub pina colada kokteyli içmək əvəzinə, qədim məbəddəki mərasimə baxmağa üstünlük verirlər. Qocanın dediklərinin doğru çıxıb- çıxmamağmdan asılı olmayaraq, burada bir müddət qalmaq pis olmaz. Bu şəhər sanki Santa Fenin Sakit okeandakı kiçik modelidir. Ətrafda gəzişən meymunları və milli geyimdəki Bali ailələrini çıxmaq şərtilə, heç bir fərq yoxdur. Yaxşı restoranlar və balaca kitab mağazaları var. Bütün vaxtımı Ubudda boşanmış xanımlar ABŞ-m

downloaded from KitabYurdu.org

gənc xristian qadınlarının ittifaqı təşkil ediləndən bəri necə keçirirsə elə, yəni bir kursdan o birinə yazılaraq keçirə bilərəm: Batik, təbil çalmaq, aksesuar düzəltmək, dulusçuluq, İndoneziyanın milli rəqsləri və yeməkləri... Qaldığım mehmanxananın yaxınlığında "Meditasiya mağazası" adlı bir yer var. Bu balaca dükanın qarşısındakı lövhədə hər axşam o6:oo-dan 07:oo-ə qədər hamıya açıq olan meditasiya seanslarının keçirildiyi elan edilir. Lövhədə "Dünyanı sülh xilas edəcək" yazılıb. Bu fikirlə razıyam.

Günorta çamadanlarımı boşaltdım. Sonra isə iki ildir görmədiyim bu şəhərlə yenidən tanış olmaq üçün gəzintiyə çıxmağa qərar verdim. Növbəti hədəf qocanı necə tapacağımı təyin etməkdir. Mənə elə gəlir ki, bu elə də asan olmayacaq. Hətta həftələrlə çəkə bilər. Axtarışa haradan başlayacağımı bilmirəm. Ona görə də çıxmazdan əvvəl Mario ilə məsləhətləşirəm.

Mario mehmanxanada işləyən gənclərdən biridir. Burada qalmaq üçün qeydiyyatdan keçəndə onunla dostlaşdıq. Bunda onun adının da rolu var. Kişilərinin çoxunun Mario adlandığı bir ölkəyə səyahət etməyimin üstündən elə də çox vaxt keçməyib. Amma onların heç biri qulağının arxasında çiçək və saronqıs olan bəstəboy, əzələli, eneıjili Bali sakini deyildi. Ona görə də, - "Mario

downloaded from KitabYurdu.org

əsl adındır? İndoneziya adma oxşamır”, - deyə soruşmağa məcbur oldum.

“Xeyr, əsl adım deyil, - dedi. - Əsl adım Nyomandır”.

Bunu bilməli idim. Marionun əsl adını tapmaq şansımın 25 faiz olduğunu bilməli idim! Nəzərinizə çatdırım ki, Balidə həm qız, həm də oğlan uşaqlarına əsasən dörd addan birini verir. Bu adlar Vayen, Mahdey, Nyoman və Ketutdur. Bu adların tərcüməsi müvafiq olaraq Birinci, İkinci, Üçüncü və Dördüncü deməkdir və anadan olma sırasını göstərir. Əgər beşinci övladın dünyaya gəlsə, yenidən sıranın əvvəlinə qayıdırsan. Beşinci uşaq “İkinci Vayen” kimi tanmır və beləcə davam edir. Əkizlər isə doğulma sıralarına uyğun olaraq adlandırılırlar. Balidə əsasən dörd ad olduğuna görə (Elit təbəqənin başqa seçimləri də var) iki Vayenin bir-birilə evlənməyi adi haldır (əslində, geniş yayılıb). Və əlbəttə ki, dünyaya gələn ilk körpələrinin adı da Vayen olacaq.

Bu kiçik nümunə ailənin və ailədaxili nizam-intizamın Balidə nə dərəcədə vacib olduğunu göstərir. Bu sistemin qarışıq olduğunu düşünə bilərsiniz, amma balineziyalılar bununla bacarırlar. Həmçinin ləqəb vermək burda geniş yayılıb. Məsələn, Ubuddakı ən məşhur biznesmen qadınlardan birinin “Kafe Vayen” adlı sevilən restoranı var və adı da Vayendir. Ona

downloaded from KitabYurdu.org

görə də o, “kafe Vayenin sahibəsi Vayen” mənasını ifadə edən “Vayen kafe” kimi tanmır. Başqa birinə isə “gonbul Mahdey” deyirlər. “Nyoman avtomobil icarəsi” və ya “dayısının evini yandıran axmaq Ketut” kimi tanınanlar da var. Balidən olan dostum özünü, sadəcə, Mario adlandırmaqla vəziyyətdən çıxa bilib.

“Nəyə görə Mario?”

“Çünki İtaliya ilə bağlı hər şeyi sevirəm”, - deyir.

Bir müddət öncə İtaliyada dörd ay qaldığımı öyrənəndə, bunu həddindən artıq möhtəşəm bir hadisə hesab etdi və masanın arxasından ayağa qalxıb, - “Gəl, otur, danışaq”, - deyir. Getdim, oturdum, danışdıq. Və beləcə dostlaşdıq.

Beləliklə, günorta axtarışıma təzə dostum Mariodan Ketut Liyer adlı bir şəxsi tanıyıb-tanımadığını soruşmaqla start verdim.

Mario qaşlarını çatır və fikrə gedir.

Mən onun, - “Hm, hə, Ketut Liyer! Keçən həftə ölən qoca həkim. Belə möhtərəm bir insanın vəfat etməsi necə də kədərlidir”, - kimi bir şey deməyini gözləyirəm.

Mario adı təkrarlamağımı istəyir. Səhv tələffüz etmək ehtimalım olduğuna görə bu dəfə adı yazıram. Marionun üzündə adm tanış gəldiyini göstərən sevinc ifadəsi meydana gəlir: “Ketut Liyer!”

downloaded from KitabYurdu.org

Bu dəfə isə, - “Ah, bəli, Ketut Liyer! Başdanxarab qoca! Keçən həftə ağlını itirdiyinə görə həbs edilib”, - deməyini gözləyirəm.

Bunun əvəzinə isə o, “Ketut Liyer məşhur şəfa verəndir”, - deyir.

“Bəli! Bu, odur!”

“Onu tanıyıram. Hərdən evinə gedirəm. Keçən həftə əmim qızını onun yanma apardım. Körpəsi bütün gecə ağlayırdı. Müalicə lazım idi. Ketut Liyer dərdə əlac edir. Bir dəfə sənin kimi bir amerikan qızı onun yanma aparmışdım. Qız kişilərə daha gözəl görünmək üçün sehr istəyirdi. Ketut daha gözəl görünmək üçün ona sehrli bir şəkil çəkdi. Bundan sonra ona sataşmağa başladım. “Şəkil kömək edir! Gör necə gözəlləşmisən! Sehrli şəkil kömək edir!” - deyirdim”.

Ketut Liyerin bir neçə il əvvəl mənim üçün çəkdiyi rəsmi yada salıb Marioya qocanın bir vaxtlar mənə də sehrli şəkil verdiyini deyirəm.

Mario gülərək, - “Sənin də şəklin kömək edir!” - deyir.

“Mənim şəklim Tanrını tapmağa kömək üçün idi”, - deyə izah edirəm.

“Bəs kişilərin gözündə daha gözəl görünmək istəmirsən?” - deyə təəccüblə soruşur.

downloaded from KitabYurdu.org

“Mario, işin çox deyilsə bu gün məni onun yanma apara bilərsən?” - soruşuram.

“İndi yox”, - cavab verir.

Məyus olmağa başlayıram. O isə əlavə edir: “Beş dəqiqədən sonra olar?”

75

Baliyə gəlib çatandan cəmi bir neçə saat sonra bir motosikletin arxasında əyləşib çəltik tarlalarının arası ilə sürətlə Ketut Liyerin evinə doğru irəliləyən yeni italyan-indoneziyalı dostum Mariodan bərk-bərk yapışmışdım. İki il ərzində qoca ilə yenidən görüşməyimiz haqqında təsəvvür etdiyim fikirlərə rəğmən, ona nə deyəcəyimi bilmirdim. Əlbəttə ki, əvvəlcədən təyin olunmuş bir görüşümüz də yox idi. Xəbərsiz halda özümüzü göstəririk. Qapının ağzında o vaxtkı kimi “Ketut Liyer - Rəssam” yazılmış lövhəni görürəm. Bura Baliyə xas olan tipik bir evdir. Mülk hündür daş divarla əhatə olunub. Ortada həyət, arxada isə məbəd var. Bir neçə nəsil bu divarlardan içəridə, bir- biri ilə əlaqələndirilən bu balaca evlərdə ömür sürür. Qapını döymədən içəri girdik (Çünki qapı yox idi) və bizi ilk olaraq Balinin anq, hirsli gözətçi itləri qarşıladı. Həyətdə saronq və qısaqol köynəkdəki qoca Ketut Liyer iki il əvvəl, ilk tanışlığımızda onu necə qoyub getmişdimsə, elə də görünürdü.

downloaded from KitabYurdu.org

Mario Ketuta nə isə deyir. Balineziyalıların dilini başa düşmürəm, amma ümumi giriş söhbətinə oxşayır. “Bu, amerikalı qızdır”, - kimi bir şey başa düşürəm. Ketut mərhəmətli yanğınsöndürən şlanq sürətilə, demək olar ki, dişsiz təbəssümünü mənə tuşlayır və bu mənə təskinlik verir: Haqlı imişəm. O, fövqəladə adamdır. Siması əhatəli mehribanlıq ensiklopediyası kimidir. Əlimi həyəcanla sıxır.

“Sənlə tanış olduğuma şadam”, - deyir.

Kim olduğum barədə heç anlayışı belə yoxdur.

“Gəl, gəl”, deyir və balaca evində mebel kimi istifadə olunan bambuk həsirlərin yerləşdiyi eyvana tərəf gedirik. Hər şey eynilə iki il əvvəlki kimidir. İkimiz də otururuq. Bir çox qərbli kimi mənim də əl falıma baxdırmaq üçün gəldiyimi zənn edir və tərəddüd etmədən əlimi ovcuna alır. Cəld falıma baxır və keçən dəfə dediklərini ixtisarla təkrarlayandan sonra rahatlayıram (Üzümü xatırlamasa da, onun gözündəki taleyim dəyişməz olaraq qalıb). İngilis dilində keçən dəfəkinə nisbətən daha yaxşı danışır. Mariodan da yaxşı danışır. Ketutun danışıq tərzi klassik kunq fu filmlərindəki çinli qoca müdriklər kimidir.

Onun danışığını “cırcıramasayağı ingilis dili” adlandırmaq olar, çünki hər hansı bir cümləyə “cırcırama” sözünü əlavə edəndə çox müdrik səslənir.

downloaded from KitabYurdu.org

“Çox xoşbəxt bir taleyin var, Cırcırama...” Ketutun öncəgörmələrinə fasilə verməyini gözləyirəm. Sonra isə dözə bilməyib iki il əvvəl onu görmək üçün bura gəldiyimi yadına salmaq üçün sözünü kəsirəm.
Bu sözlər ağlını qanşdınr. “Baliyə ilk dəfə gəlmirsən?” “Xeyr, cənab”.

Diqqətlə götür-qoy edir. “Sən həmin kaliforniyalı qızsan?” Ovqatım təlx halda cavab verirəm: “Xeyr. Mən Nyu Yorkdan gələn qızam”.

Ketut mənə deyir ki, “Artıq o qədər də yaraşıqlı deyiləm. Dişlərimin çoxu tökülüb. Bəlkə nə vaxtsa diş həkiminə gedib yeni dişlər düzəltdirərəm, amma diş həkimindən çox qorxuram”. Bunların mövzuya nə dəxli olduğunu başa düşə bilmirəm.

O, içiboş ağzını açıb illərin ona verdiyi zərəri göstərir. Doğrudan da ağzının sol tərəfində demək olar ki, diş qalmayıb. Sağ tərəfdə isə ağn verirmiş kimi görünən, qınq-sökük sarı diş
kötükləri qalıb. Mənə yıxıldığını deyir. Dişləri də buna görə tökülüb.

Bunu eşitdiyimə görə çox məyus olduğumu bildirəndən sonra yenidən söhbətə qayıtmağa cəhd edirəm. “Deyəsən, məni tanımadın, Ketut. İki il əvvəl uzun illər Balidə yaşamış bir yoqa müəllimi ilə yanma

downloaded from KitabYurdu.org

gəlmişdik”.

Sevinclə gülümsəyir: “Bildim! Enn Barros?”

“Doğrudur. Enn Barros həmin yoqa müəlliminin adıdır. Mən isə Lizəm. Bura gəlib Tanrıya yaxın olmaq üçün kömək istəmişdim. Mənə sehrli bir şəkil çəkmişdin”.

O, sadəlövhlüklə çiyinlərini çəkib, - “Yadımda deyil”, - deyə cavab verir.

Bu xəbər həm çox pis, həm də gülməlidir. İndi mən Balidə neyləyəcəyəm? Əslində Ketutla görüşümüzün necə olacağı barədə dəqiq təsəvvürüm yox idi. Amma doğrusu, göz yaşları ilə bəzənmiş fövqəladə bir görüş gözləyirdim. Ölməyindən qorxurdum, amma sağ olduğu təqdirdə məni xatırlamayacağı ağlımın ucuna da gəlməzdi. İndi ilk görüşümüzün onun üçün də mənim qədər dəyərli olduğuna inanmağım axmaqlığın kulminasiya nöqtəsi kimi görünür. Doğrudan da, gərək hər şeyi daha dəqiq planlaşdıraydım.

Beləliklə, iki il əvvəl mənim üçün çəkdiyi dördayaqlı (ayaqları yerə bəndlənmiş), başsız (dünyaya ağlının gözü ilə baxmayan) və ürəyində sima olan (dünyaya ürəyinin gözü ilə baxan) varlığı təsvir edirəm. Ketut isə ona heç bir dəxli olmayan söhbətə qulaq asırmış kimi nəzakətlə, təvazökarlıqla məni dinləyir.

downloaded from KitabYurdu.org

Onu heç nəyə məcbur etmək fikrində deyiləm, amma nə isə deməlidir. “Mənə Baliyə geri qayıtmalı olduğumu demişdin. Burada 3-4 ay qalmalı olduğumu bildirdin. Sənə ingilis dilini təkmilləşdirməkdə kömək edəcəyimi, əvəzində mənə bildiyin hər şeyi öyrədəcəyini demişdin”. Səs tonum heç xoşagələn deyil. Qulağa çarəsiz, yazıq kimi gəlir. Mənə ailəsi və onunla eyni evdə qalmağı təklif etməyini yada salmıram. Bunun yeri deyil.

Nəzakətlə qulaq asır, gülümsəyir və “İnsanlar hərdən necə gülməli danışırlar, elə deyilmi?” - deyirmiş kimi başını yelləyir.

Demək olar ki, ümidsizliyə qapılıram, amma o qədər məsafəni qət edib gələndən sonra imtina etmək istəmirəm. Son
bir cəhd edirəm: “Mən yazıçıyam, Ketut. Nyu Yorkdan gələn yazıçı”.

Bilmirəm necə olur, amma bu kömək edir. Qəfildən üzü sevincdən işıldayır, saf, şəffaf olur. Beynində xatırlamağın ilk qığılcımları közərir. “SƏN!” - deyir. “SƏN! SƏNİ xatırladım!” Qabağa əyilib çiyinlərimi tutur və xoşbəxt halda məni silkələyir. Hədiyyə qutusunun içində nə olduğunu aydınlaşdırmaq üçün silkələyən balaca səbirsiz uşağa bənzəyir. “Sən qayıtdın! Qayıtdın!”

“Mən qayıtdım! Qayıtdım!” - deyirəm.

downloaded from KitabYurdu.org

“Sən, sən, sən!”

“Mən, mən, mən!”

Gözlərimdən yaş axır, amma bunu gizlətməyə çalışıram. Birdən-birə nə qədər yüngüllük, rahatlıq hiss etdiyimi izah etməyə söz tapa bilmirəm. Bu, özümü də təəccübləndirir. Bu duyğu təqribən belədir - sanki bir avtomobil qəzası keçirmişəm və maşın körpüdən uçub çayın dibinə qərq olub. Mən isə açıq pəncərədən birtəhər çıxıb soyuq, yaşıl suyun içində qurbağa kimi üzürəm, amma artıq nəfəsim çatmır. Arteriyalarım az qalır
ki, boynumdan çölə çıxsın. Yanaqlarım sonuncu gücümlə aldığım nəfəsi tutub saxlayaraq şişib və bundan sonra təngnəfəslik! Suyun səthinə çıxıb ciyərlərimə acgözlüklə oksigen ötürürəm və xilas oluram. Həmin təngnəfəslik özü ilə yeni nəfəs - xilas gətirir. İndoneziyalı qoca “Qayıtdın!” deyəndə keçirdiyim hisslər bu vəziyyəti xatırladır. Mənə gətirdiyi rahatlıq bu qədər böyükdür.

Kömək etdiyinə inana bilmirəm.

“Bəli, qayıtdım, - deyirəm. - Əlbəttə ki, qayıtdım!”

“Çox sevindim”, - deyir. Bir-birimizin əlini tuturuq. O olduqca həyəcanlıdır. “Əvvəlcə səni tanımadım. Görüşümüzün üstündən xeyli ötüb. Dəyişmisən. İki il əvvəlkinə nisbətən xeyli dəyişmisən! Keçən dəfə çox kədərli görünürdün. İndi isə xoşbəxt görünürsən! Tamam

downloaded from KitabYurdu.org

başqa adam kimi!”

Bir insanın iki il ərzində bu qədər dəyişməsi onu həyəcanlandırır, titrədir.

Göz yaşlarımı gizlətməyə ehtiyac duymayıb onları rahat buraxıram. “Bəli, Ketut. Onda çox kədərli idim. İndi isə həyatım daha yaxşıdır”.

“Onda yenicə boşanmışdın. Yaxşı deyildin”.

“Yaxşı deyildim”, - deyə təsdiqləyirəm.

“Həddindən artıq narahat, kefsiz idin. Kədərli, yaşlı qadın kimi görünürdün. İndi gənc qıza bəzəyirsən. Keçən dəfə çirkin idin! İndi isə gözəlsən!”

Mario təəccüblənir və qələbə qazanmış kimi, - “Gördün? Şəkil kömək edir!” - deyir.

“Hələ də sənə ingilis dilini təkmilləşdirməyə kömək etməyimi istəyirsən, Ketut?” - soruşuram.

Elə indicə başlaya biləcəyimizi deyir. Cücə kimi cəld yerindən tullanır. Balaca evinə girir və çox keçmədən bir neçə il ərzində xarici ölkələrdən gələn bir qalaq məktubla qayıdır (Deməli, onun da ünvanı var!). Məktubları ucadan oxumağımı xahiş edir. İngilis dilində başa düşsə də, yaxşı oxuya bilmir. Artıq onun katibəsiyəm. Bir ara həkiminin katibəsi! Bu, ağlasığmazdır. Məktublar onun məşhur sehrli şəkillərini görən dünyanın müxtəlif yerlərindəki kolleksiyaçılardan gəlir. Avstraliyadakı bir

downloaded from KitabYurdu.org

kolleksiyaçıdan gələn məktubda yazılıb: “Bu qədər təfsilatlı şəkilləri necə çəkirsiniz?” Ketut diktə edirmiş kimi mənə cavab verir: “Çünki uzun illər bunun üçün çalışmışam”.

Məktublar qurtarandan sonra son bir neçə il ərzində həyatında baş verənlər barədə məni məlumatlandırır. Bəzi dəyişikliklər var. Məsələn, indi arvadı var. O, əli ilə mətbəx qapısının kölgəsində dayanıb mənə atəş açmaq, yoxsa zəhərləyəndən sonra atəş açıb öldürmək barədə dilemma yaşayan şəxs təsiri bağışlayan iri qadına işarə edir. Ötən gəlişimdə Ketut mənə kədərli halda ölən arvadının şəkillərini göstərmişdi. Xeyli yaşı olmağına baxmayaraq parlaq və səmimi görünən balineziyalı qadındır. Həyətin o biri başındakı arvadına əl yellədim. Dərhal mətbəxə girdi.

Ketut mətbəxin kölgəsinə tərəf baxıb, - “Yaxşı qadındır, - deyir. - Çox yaxşı qadındır”.

Sonra isə balineziyalı xəstələri ilə məşğul olduğunu, yeni doğulan körpələr, yas mərasimləri, xəstə sağaltmaq və toylar üçün xeyli sehr lazım olduğunu danışmaqla söhbətə davam edir. Toylardan danışanda, - “Gələn dəfə bir yerdə gedərik! Səni də apararam!” - deyir. Yeganə problem artıq qərblilərin
onun yanına əvvəlki qədər teztez baş çəkməməsidir.

downloaded from KitabYurdu.org

Terroristlərin hücumundan sonra Baliyə gələnlərin sayı azalıb. Bu, - “Onun ağlını qarışdırır”. Həmçinin “Onun kassasında boşluq yaradır”. “Artıq hər gün mənə ingilis dili öyrətmək üçün evimə gələcəksən?” - soruşur. Sevinclə başımı yelləyirəm. “Mən də sənə Bali meditasiyasım öyrədəcəyəm, oldu?” - soruşur.

“Yaxşı” - razılaşıram.

“Məncə Bali meditasiyasım öyrənmək üçün sənə üç ay bəs edər. Bu yolla Tanrını tapa bilərsən”, - deyir. - Bali xoşuna gəldi?”

“Balini sevirəm”.

“Burada ailə qurmusan?”

“Hələ ki, yox”.

“Məncə, tezliklə olacaq. Sabah gələcəksən?”

Söz verirəm ki, gələcəyəm. Onunla və ailəsi ilə bir yerdə qalmağım haqqında heç nə demir. Mən də mətbəxdəki qorxmuş qadının sonuncu baxışını da tutandan sonra bu söhbəti açmıram. Yəqin ki, burada olduğum müddət ərzində sevimli
mehmanxanamda qalaram. Bura nisbətən daha rahatdır. Lakin hər gün bura gəlmək üçün mənə velosiped lazım olacaq.

Artıq getmək vaxtıdır.

Sağollaşanda, - “Tanış olduğumuza şadam”, - deyir.

downloaded from KitabYurdu.org

İlk ingilis dili dərsimə “tanış olmaq” və “görüşmək” sözlərinin fərqini izah etməklə başlayıram. İzah edirəm ki, bir şəxslə ancaq ilk dəfə görüşəndə “Tanış olduğumuza şadam” deyirik. Növbəti görüşlərdə isə “Görüşdüyümüzə şadam” deyilməlidir. Çünki bir şəxslə ancaq bir dəfə tanış olmaq olar. Bundan sonra isə hər gün bir-birimizi görəcəyik.

Bu xoşuna gəlir. Dərhal öyrənir: “Görüşdüyümüzə şadam! Görüşdüyümüz üçün sevinirəm! Səni görə bilirəm! Kor deyiləm!”

Bundan sonra Mario da daxil olmaqla hamımız gülürük. Sabah günortadan sonra görüşməyə qərar verib sağollaşırıq. Ardımca, - “Görüşərik, hələlik”, - deyir.

“Görüşərik, hələlik”, - deyə qarşılıq verirəm.

“İcazə ver, vicdanın bələdçin olsun. Baliyə gələn qərbli dostun olsa əl falı üçün yanıma göndər. Terroristlərin
hücumundan sonra kassam boşalıb. Bunu özüm öyrənmişəm. Səni gördüyümə görə çox şadam, Liz!”
“Mən də görüşdüyümüzə görə şadam, Ketut”.
76
Bali dünyada müsəlmanların ən sıx olduğu iki min mil uzunluğundakı İndoneziya arxipelaqının ortasında yerləşən balaca bir hind adasıdır. Qəribə və maraqlı

downloaded from KitabYurdu.org

yerdir. Bəlkə də mövcud olmamalıdır, amma mövcuddur. Hinduizm Hindistandan adaya gətirilib və Yavada kök salıb. Hindistanlı tacirlər eramızın dördüncü əsrindən başlayaraq dinlərini Şərqə gətirməyə başlayıblar. Yava hökmdarları qüdrətli bir Hind krallığının əsasını qoyublar. Bu krallıqdan təkcə Borobudurdakı təsirli məbəd xarabalıqları qalıb. On altıncı əsrdə müsəlmanların güclü üsyanından sonra region yerlə yeksan olur. Şivaya sitayiş edən hind krallığının üzvləri Yavadan qaçıb "Macapahit köçünə" qatılaraq Baliyə gəlirlər. Yüksək sinifdən, kastadan olan Yavalılar Baliyə gələndə özləri ilə yalnız zadəgan ailələrini, sənətkar və rahibləri gətirirlər. Balidəki sakinlərin hər birinin zadəgan, sənətkar və ya rahib
nəslindən gəldiyini demək mübaliğə olmaz. Ona görə də balineziyalılar bu dərəcədə özlərinə inamlı və qürurludurlar.

Yava kolonistləri Baliyə gələndə hind kasta sistemini də özlərilə gətirdilər. Lakin burada heç vaxt Hindistandakı qədər qəddar kasta bölgüsü tətbiq olunmayıb. Buna baxmayaraq Bali sakinləri arasında mürəkkəb sosial iyerarxiya mövcuddur (Təkcə Brahmanlar 5 pilləyə bölünürlər) və mənə elə gəlir ki, buradakı dolaşıq qəbilə sistemini başa düşmək əvəzinə,

downloaded from KitabYurdu.org

insan genomunun şifrini tapmağa cəhd etsəm, daha çox uğur qazanaram (Yazıçı Fred. B. Ayzemanm Bali mədəniyyəti ilə bağlı yazdığı bir çox essedə bu incəliklərin təfsilatlarına ciddi yer verilir və təkcə burada yox, bütövlükdə kitabda istifadə etdiyim informasiyaların çoxu onun tədqiqatlarının məhsuludur). Beləliklə, Balidə hər kəsin bir qəbiləsi var. Hamı hansı qəbiləyə mənsub olduğunu bilir. Eləcə də başqalarının hansı qəbilələrə aid olduqlarından da xəbərdardır. Əgər ciddi bir itaətsizlik ucbatından qəbilədən xaric edilsən, yaxşı olar ki, öz istəyinlə gedib bir vulkanın içinə tullanasan. Onsuz da artıq ölmüş hesab olunursan.

Bali mədəniyyəti möhtəşəm vəzifələr, funksiyalar və mərasimlər pətəyindən təşkil olunub. Bali sakinləri adət-ənənələrdən hörülmüş mürəkkəb bir şəbəkədə ilişib qalıblar. Bu şəbəkə bir neçə faktorun kombinasiyasının nəticəsi kimi yaranıb. Amma Balini ənənəvi hinduizmin səxavətli ayinlərinin, zərurət yarandığına görə mürəkkəb kommunal əməkdaşlıqla işləyən, geniş bir çəltik yetişdirən kənd təsərrüfatı cəmiyyətinə uyğunlaşdırılmış halı adlandırmaq olar. Pilləkənvan formada uzanıb gedən çəltik tarlalarının məhsuldar olması üçün ağlasığmaz dərəcədə çox işləmək, xidmət və dəqiq iş bölgüsü tələb olunur. Ona görə də Bali kəndlərində idarə heyətindəki

downloaded from KitabYurdu.org

vətəndaşların siyasət, iqtisadiyyat, din və kənd təsərrüfatı ilə bağlı qərarlan səsvermə yolu ilə qəbul etdikləri təşkilat var. Həmin təşkilat "banjar" adlanır. Balidə kollektiv rəy şəxsi rəylərdən daha əhəmiyyətlidir. Əks təqdirdə hamı ac qalar.

Burada dini mərasimlər hədsiz dərəcədə böyük əhəmiyyətə malikdir (Unutmayın ki, burada nə edəcəyini əvvəlcədən təxmin edə bilməyəcəyiniz 7 vulkan var.

Balineziyalılann yerində kim olsa dua edər). Tipik Bali qadınının oyaq olduğu vaxtın üçdə bir hissəsini ya bir mərasimə hazırlaşaraq, ya mərasimdə iştirak edərək, ya da mərasimdən sonrakı təmizlik işləri ilə məşğul olaraq keçirdiyi hesablanıb. Burada həyat sabit təklif və ayinlərin əhatəsində keçir. Onların hamısı düzgün qaydada və doğru niyyətlə yerinə yetirilməlidir, əks təqdirdə bütün kainatın balansı pozular. Marqaret Mid Bali adasında yaşayanlann "inanılmaz məşğulluğu" barədə yazıb. Bu, doğrudur. Buradakı sakinləri nadir hallarda boş-bekar görmək olar. Gündə beş dəfə icra edilməli mərasimlər var. Digər mərasimlər də gündə, həftədə, ayda, ildə, on ildə, yüz ildə, min ildə bir dəfə yerinə yetirilməlidir. Bütün bu günlər və ayinlərə üç müxtəlif təqvimə istinad edən rahiblər və digər müqəddəs şəxslər tərəfindən nəzarət edilir.

downloaded from KitabYurdu.org

Balidə hər bir insan üçün həyatı boyu on üç əsas mərasim təşkil olunur. İnsanın ömür boyu ruhunu 108 qüsurdan qoruması üçün (108 - Yenə də bu rəqəm!) mənəvi sakitləşdirmə mərasimi keçirilir. Bu qüsurlara zorakılıq,
oğurluq, tənbəllik və yalançılıq daxildir. Hər bir balineziyalı uşaq üçün yetkinlik dövründə çox önəmli bir mərasim keçirilir və həmin mərasimdə onların köpək dişləri estetik bir görünüş üçün itilənir. Balidə sahib ola biləcəyin ən pis şey kobud və heyvani görünməkdir. Köpək dişləri insanın vəhşi təbiətinin simvolu hesab edilir və ona görə də səliqəyə salınmalıdır. Belə yekdil mədəniyyətdə qəddar olmaq təhlükəlidir. Bütün kəndin əməkdaşlıq şəbəkəsi bir nəfərin öldürücü niyyəti ilə dağıla bilər. Ona görə də Balidə ən yaxşı qarşılanan xüsusiyyət “alus”, yəni nəfis və gözəl olmaqdır. Balidə gözəllik həm qadınlara, həm də kişilərə aiddir. Gözəlliyə hörmət edirlər. Gözəllik təhlükəsizlikdir. Uşaqlara öyrədilir ki, çətinlikləri və problemləri meydan oxuyan bir sima ilə, nəhəng təbəssümlə qarşılasınlar.

Bali ruhlar, bələdçilər, yollar və adət-ənənələrdən ibarət olan nəhəng bir matrisaya bənzəyir. Hər bir Bali vətəndaşı hara mənsub olduğunu, bu qeyri-maddi xəritədəki yerini dəqiq bilir. Təkcə hər bir Bali sakininin

downloaded from KitabYurdu.org

daşıdığı bu adlara nəzər yetirmək kifayətdir - Birinci, İkinci, Üçüncü, Dördüncü. Adları belə
ailədə neçənci uşaq olduqlarını və hara mənsub olduqlarını xatırladır. Uşaqlara Şimal, Cənub, Şərq, Qərb adlarını versəydilər, bundan daha aydın kartoqrafiya sisteminə malik ola bilməzdilər. Təzə italyan-indoneziyalı dostum Mario yalnız şaquli və üfüqi xəttin arasındakı kəsişmədə əqli və mənəvi cəhətdən tarazlığı saxlaya biləndə xoşbəxt olduğunu deyir. Bunun üçün isə həm ilahi varlıq, həm də ailəsi ilə münasibətində harada olduğunu bilməlidir. Balans pozulduqca güc də itir.

İncəsənət, elm və dini mükəmməl tarazlığın nəticəsi kimi görən balineziyalıların müvazinəti saxlamaqda usta olduqlarını demək gülünc bir fərziyyə deyil. Şəxsi balans axtarışındakı bir şəxs kimi, Bali sakinlərindən bu xaotik dünyada mətanətlə dayanmaq barəsində çox şey öyrənməyə ümid edirdim. Lakin bu mədəniyyət haqqında oxuyub gördükcə başa düşürəm ki, Bali sakinlərinin gözündə mən tarazlıq şəbəkəsindən nə qədər uzağam. Həyat tərzimə zidd olan dünyanı gəzmək vərdişim, nikahdan - ailə şəbəkəsindən kənara addım atmağım onların gözündə məni kabusa çevirir. Bu cür həyat məni qane edir,
ancaq ləyaqətli bir Bali vətəndaşı üçün belə həyat

downloaded from KitabYurdu.org

qarabasmadan fərqlənmir. Harada olduğunu, kimin qəbiləsinə mənsub olduğunu bilməsən, tarazlığı necə əldə edə bilərsən?

Bütün bunlan nəzərə alanda Bali dünyagörüşünün öz dünyagörüşümə nə qədərini əlavə edə biləcəyimdən əmin deyiləm. “Tarazlıq” sözünün daha müasir və qərbsayağı izahını mənimsəyirəm (Hazırda bu sözü işlərin necə getməyindən asılı olaraq “bərabər azadlıq”, “hər hansı bir istiqamətə getmək üçün bərabər imkan” kimi tərcümə edirəm). Bali sakinləri işlərin necə gedəcəyini gözləmirlər. Onlar üçün bu, qorxuludur. Hər hansı bir problem çıxmasın deyə işləri əvvəlcədən planlaşdırırlar.

Balidə küçədə tanımadığınız birisinin yanından keçəndə, ilk olaraq, - “Hara gedirsən?” - sualını verir. Növbəti sual isə,

- “Hardan gəlirsən?” - olacaq. Qərbdən gələn bir şəxs üçün yad adam tərəfindən belə suallara məruz qalmaq təcavüzkar sorğu kimi görünə bilər, amma onlar, sadəcə, təhlükəsizlik və rahatlığı təmin etmək məqsədi ilə səni şəbəkəyə daxil etmək üçün sual verirlər. Əgər hara getdiyini bilmədiyini və ya elə-belə gəzməyə

çıxdığını desən, Balidən olan təzə dostunun qəlbinə kədər toxumlan səpmiş olacaqsan. Yaxşı olar ki, hər kəs müəyyən bir istiqamət seçsin. Beləliklə, hamı özünü

downloaded from KitabYurdu.org

yaxşı hiss edər.

Bali sakinlərinin, böyük ehtimalla, verəcəyi üçüncü sual isə “Ailəlisən?” sualıdır. Bu sual da mövqe və istiqaməti təyin etmək üçündür. Həyatının qaydasında olduğuna əmin olmaq üçün bunu bilmələri mütləqdir. “Bəli” cavabını eşitmək istəyirlər. Bu cavab onlara rahatlıq verir. Subaysansa yaxşı olar ki, bunu birbaşa deməyəsən. Və əgər boşanmısansa, bunu, ümumiyyətlə, dilə gətirməməyi məsləhət görürəm. Boşanma halları Bali sakinlərini çox narahat edir. Tənha olmağın səni onların gözündə sağlam şəbəkə üçün təhlükə mənbəyinə çevirir. Balidə tək gəzən bir qadına, - “Ailəlisən?” - sualı ünvanlananda verə biləcəyi ən ideal cavab, - “Hələ ki yox”, - deməkdir. Bu cavab həm tezliklə sənə qayğı göstərəcək şəxsi tapmaq niyyətində olduğunu göstərməyin, həm də “yox” deməyin ən mədəni formasıdır.

Səksən yaşlı qoca, lezbian, qatı feminist, rahibə və ya səksən yaşında heç vaxt ərə getməmiş qatı feminist lezbian bir
rahibə olmağından asılı olmayaraq, ən nəzakətli cavab budur “Hələ ki yox”.

Günortadan sonra bir neçə xəstə də baş çəkir. Buna baxmayaraq Ketutun eyvanında tək vaxt keçirməyə də

downloaded from KitabYurdu.org

fürsət tapırıq. Bu qocanın yanında özümü babamla olduğum qədər rahat hiss edirəm. Mənə ilk meditasiya dərsimi keçir. Tannm tapmağın çoxlu yolu olduğunu, amma onlann əksəriyyətinin qərblilərə çətin göründüyünü deyir. Ona görə də mənə asan bir meditasiya öyrədəcək. Tələbi bundan ibarətdir: Otur və gülümsə. Mükəmməl.

“Hindistanda yoqa öyrəndin, Liz?” - soruşur.

“Bəli, Ketut”.

“Yoqanı öyrənmisən, - deyir. - Amma yoqa çox çətindir”. Bunu deyəndən sonra o, şanagüllə vəziyyəti alır və üzünü büzüşdürüb gülməli hala salır. Sonra çöhrəsinə rahat bir təbəssüm qondurur və soruşur: “Nəyə görə yoqada həmişə ciddi görünürlər? Belə ciddi sifətlə müsbət enerjini qorxudub qaçırdarsan. Meditasiya zamanı, sadəcə, gülümsəməlisən. Qaraciyərin belə gülümsəsin. Bu gecə mehmanxanada məşq et. Tələsmə, özünü məcbur etmə. Çox ciddi olsan xəstələnərsən. Müsbət enerjini gülümsəməklə dəvət edə bilərsən. Bugünlük bu
qədər. Görüşərik, hələlik. Sabah yenə gəl. Səni gördüyümə çox sevindim, Liz. Vicdanın bələdçin olsun. Baliyə gələn qərbli dostların olsa, əl falı üçün yanıma göndər. Bombadan sonra kassam boşalıb”.
təsvirlər həmişə eyni olur - Balinin cənnət olduğu vaxtlar.

downloaded from KitabYurdu.org

Bəlkə də min il əvvələ aiddir. Mən meşələri, heyvanları, qadınları... onun adı nədir, onu çəkirəm. Sinələr. Qadın sinələri. Ara həkimi olduğuma görə rəsm çəkməyə vaxt tapmaq çətin məsələdir. Amma şəfa verməliyəm. Bu mənim işimdir. Bu mənim hobbimdir. İnsanlara kömək etməliyəm, yoxsa Tanrı mənə qəzəblənər. Bəzən uşağın doğuşunu gerçəkləşdirməli, diş, yas və ya toy üçün mərasim təşkil etməli oluram. Bəzən gecə saat üçdə oyanıb elektrik lampasının işığında şəkil çəkirəm. Rəsm çəkmək üçün ancaq onda vaxtım olur, amma gecə çəkməyi xoşlayıram. Şəkil çəkmək üçün yaxşı vaxtdır.

Mən əsl sehr edirəm, zarafat deyil. Həmişə düzünü deyirəm. Pis xəbər olsa belə. Həyatda həmişə müsbət personaj olmalıyam, yoxsa cəhənnəmə gedərəm. Bali dilində, İndoneziya dilində, azca yapon, ingilis, bir az da holland dilində danışa bilirəm. Müharibə vaxtı burada xeyli yapon var idi. Bu mənim üçün əlverişli idi. Onların əl falına baxıb dostlaşırdım. Müharibədən öncə hollandiyalılar da çox idi. İndi isə qərblilər çoxdur. Hamısı ingilis dilində danışır. Mənim holland dilim - dünən öyrətdiyin söz necə idi? Paslı? Bəli paslıdır. Mənim holland dilim paslanıb. Ha!

Balidə mən dördüncü kastaya mənsubam. Bu, çox aşağı olan kəndli sinfidir. Amma bir çox insanlar

downloaded from KitabYurdu.org

tanıyıram ki, birinci kastaya mənsub olsa da, mənim qədər bilikli deyil. Mənim adım Ketut Liyerdir. Liyer adını balaca olanda babam qoyub. Mənası “parlaq işıq” deməkdir. Bu mənəm!”

79

Balidə o qədər boş vaxtım var ki, buna özümün də inanmağım gəlmir. Gün ərzində görməli olduğum yeganə iş günorta bir neçə saatlıq Ketut Liyerə baş çəkməkdir. Bunu da iş hesab etmək olmaz. Günün qalan hissəsini vecsiz halda veyllənirəm. Hər səhər bir saat qurumun öyrətdiyi qaydada, axşamlar da bir saat Ketutun öyrətdiyi kimi (“Hərəkətsiz otur və gülümsə”) yoqa ilə məşğul oluram. Arada qalan vaxtı gəzərək, velosiped sürərək, insanlarla ünsiyyət quraraq, ya da yeyərək keçirdirəm. Burada balaca, sakit bir kitabxana tapdım. Abunə oldum və indi həyatımın ən faydalı dövrünü bağda kitab oxuyaraq keçirirəm. Aşramdakı intensiv həyat tərzindən, İtaliyada hər yeri gəzib qabağıma çıxanı yeyəndən sonra bu, həyatımın yeni və ən rahat epizodudur. O qədər çox boş vaxtım var ki, onu tonla ölçmək olar.

Hər dəfə mehmanxanadan çıxanda Mario və digər işçilər hara getdiyimi, qayıdanda isə haradan gəldiyimi soruşurlar.

Hərdən mənə elə gəlir ki, pətəkdəki bütün anlara nəzarət

downloaded from KitabYurdu.org

etmək üçün siyirtmələrində sevdikləri şəxslərin yerini göstərən balaca xəritələri var.

Axşamlar velosipedimlə təpəyə çıxıb Ubudun şimalındakı çəltik tarlalarının arasından keçirəm. Bura elə gözəl və yaşıldır ki... Çəltik tarlalarındakı suda əksi görünən çəhrayı buludlara baxanda adama elə gəlir ki, iki səma mövcuddur. Biri cənnətdə, tanrılar üçün, digəri isə çirkli sularda, biz ölümlü insanlar üçündür. Bir dəfə velosipedlə qapısına "Xoş gəlmisiniz" yazılmış lövhə vurulan vağ yuvasına getdim (Bəli, burada vağlan görə bilərsiniz). Amma burada vağ gözə dəymirdi. Təkcə ördəklər var idi. Bir az ördəklərə tamaşa edəndən sonra növbəti kəndə üz tutdum. Yolboyu onlarla kişi, qadın və uşaqları, toyuqları, itləri ötüb keçdim. Hamısı məşğul idilər, amma məni salamlamağa fürsət də tapırdılar.

Bir neçə gün əvvəl, axşam meşəyə çıxan bir yoxuşda belə bir lövhə gördüm: "Sənətkarın evi kirayə verilir. Mətbəxi var". Kainatın əliaçıqlığı sayəsində üç gündən sonra həmin evdə
idim. Mario köçməyimə kömək etdi və mehmanxanadakı dostlarımın hamısı məni yola salanda göz yaşlan içində idilər.

Təzə evim hər tərəfi çəltik tarlalan ilə əhatə olunan sakit bir yolun üstündə yerləşir. Bu kottec tipli,

downloaded from KitabYurdu.org

sarmaşıqlarla örtülmüş balaca bir evdir. Ev ingilis qadına məxsusdur. Yayı keçirmək üçün Londona gedib. Beləliklə, evinə köçüb bu möcüzəvi boşluqda onu əvəz edirəm. Burada işıqlı, qırmızı bir mətbəx, qızıl balıqla dolu gölməçə, mərmər terras, bayırda parlaq mozaikalarla örtülmüş duş var. Saçımı yuyanda palma ağaclannda yuva quran vağlara tamaşa edə bilirəm. Balaca, gizli yollar həqiqətən möhtəşəm bir bağa aparıb çıxanr. Burada bağban da var. Ona görə də öhdəmə düşən vəzifə, sadəcə, güllərə tamaşa etməkdir. Bağdakı qeyri-adi ekvatorial çiçəklərin heç birinin adını bilmədiyimə görə onlara adlar uydururam. Niyə də yox? Bura mənim cənnətim deyil? Qısa müddət ərzində buradakı bütün çiçəklərə ləqəblər tapdım - nərgiz ağacı, kələm palması, məzuniyyət qonaqlığı geyimi otu, spiralvan ədabazlıq, barmaq ucu çiçəyi, həzin üzüm tənəyi və "körpənin ilk əl sıxmağı" adlandırdığım füsunkar bir səhləb.

Burada saf gözəlliyin lazımsız və ifrat həcmi ağlasığmazdır. Yataq otağımın pəncərəsindən əlimi çıxarıb papaya və banan qopara bilirəm. Burada bir pişik var ki, hər gün yedizdirəndə yarım saat ərzində mənimlə mehriban rəftar edir. Qalan vaxtını isə Vyetnam müharibəsindəki xatirələri yadına düşmüş kimi dayanmadan inildəyir. Qəribə olsa da, bunu vecimə

downloaded from KitabYurdu.org

almıram. Bu günlərdə heç nəyə əhəmiyyət vermirəm. Narazı olmaq ağlımdan belə keçmir.

Buradakı səs aləmi də möhtəşəmdir. Axşamlar cırcıramaların orkestrini qurbağalar müşayiət edirlər. İtlər də gecənin zülmətində hürüb heç kimin onları başa düşmədiyindən şikayətlənirlər. Sübhçağı xoruzlar xoruz olmağın nə qədər çətin olduğunu kilometrlərlə uzağa elan edirlər ("Biz xoruzuq! - deyə qışqırırlar. - Dünyada xoruz olmaq şərəfinə ancaq biz layiq görülmüşük!"). Hər səhər günəş doğana qədər tropik quşlar ən yaxşı mahnı yarışı keçirirlər və hər dəfə qələbə uğrunda qızğın mübarizə gedir. Günəşin doğması ilə ətraf səssizliyə qərq olur və kəpənəklərin iş vaxtı başlayır. Evin hər tərəfi üzüm tənəkləri ilə örtülüb. Hərdən
mənə elə gəlir ki, bir gün ev yarpaqların arasında yoxa çıxacaq. Mən də onunla birlikdə yox olub cəngəllik çiçəyinə çevriləcəyəm. Bütün bunlann müqabilində ödədiyim kirayə haqqı Nyu Yorkda bir ay ərzində taksiyə xərclədiyim məbləğdən də azdır. Fars dilindən götürülən "cənnət" (paradise) sözünün mənası "divarla əhatə olunmuş bağ" deməkdir.

8o

Etiraf etməliyəm ki, kitabxanada üç gün keçirəndən sonra Bali cənnəti ilə bağlı orijinal fikirlərimin bir çoxu iflasa

downloaded from KitabYurdu.org

uğradı. İki il əvvəl Baliyə ilk dəfə gələndən sonra insanları sülh və əmin- amanlığm hökm sürdüyü bu adanın, dünyadakı yeganə utopiya olduğuna inandırmağa çalışırdım. Keçmişində heç bir qəddarlıq və qan izi olmayan ideal bir cənnət... Bu fikrə haradan gəldiyimi bilmirəm, amma buna həddindən artıq əmin idim.

“Hətta polis də saçma gül taxır”, - bunu sübut etmək niyyəti ilə deyərdim.

Əslində isə Balinin də tarixində insan ayağı dəyən hər yerdə olduğu kimi qan, qəddarlıq, repressiya var imiş. Yava kralları on altıncı əsrdə bura köç edəndə möhkəm bir feodal koloniyası qurublar. Təkcə özünü fikirləşən kasta quruluşunun ənənəsinə uyğun olaraq, yuxarıdakılar aşağıdakıların dərdini çəkib özlərini yormaq istəmirdilər. Erkən Bali iqtisadiyyatı qul
ticarətindən gələn gəlir hesabına çiçəklənirdi (Burada qul ticarəti Avropadan əsrlərlə əvvəl yaranıb və Avropada başa çatandan sonra da burada bir müddət qalıb). Adada ara müharibələri, hücumlar olduğuna görə daim müharibə vəziyyətində idi. On doqquzuncu əsrin sonlarına qədər tacir və dənizçilər Bali sakinlərini qəddar və davakar hesab edirdilər (“Amok” sözü Bali mənşəlidir və “kəskin psixoz” deməkdir. Bu söz bir döyüşçünün sanki həyatı bahasına düşmənə hücum etmək texnikasını bildirir.

downloaded from KitabYurdu.org

Avropalılar bu texnikadan dəhşətə gəlmişdilər). 30.000 əsgərdən ibarət olan intizamlı ordu ilə balineziyalılar holland işğalçılarını 1848, sonra 1849 və həmçinin 1850Cİ ildə məğlub edirlər. Yalnız rəqib kralların öz şəxsi mənafeləri uğranda digər rəqib krallarla birləşməsi, bir- birlərinə xəyanət etməsi nəticəsində, Bali Hollandiyanın tabeliyinə keçir. Ona görə də bu adanın tarixini cənnət pərdəsi altında ört-basdır etmək həqiqətə qarşı hörmətsizlik olar. Buradakı insanlar son min ili oturub gülümsəyərək və mahnı oxuyaraq keçirməyiblər.

Lakin 1920-30-cu illərdə qərbli səyahətçilərin elit təbəqəsi Balini kəşf edəndə "hamının sənətkar olduğu" və "insanların əl dəyməmiş xoşbəxtlik şəraitində yaşadığı" bu adanın "tanrıların adası" olduğu qənaətinə gəlir və keçmişdə axıdılan qanları görməməzliyə vurur. Bu düşüncə hələ də mövcuddur. Baliyə gələnlərin çoxu üçün hələ də qüvvədədir (İlk dəfə gələndə mən də belə düşünənlərin cərgəsinə daxil idim). 1930-cu illərdə Baliyə gələn alman fotoqraf Corc Krauser, - "Balineziyalı kimi doğulmadığıma görə Tanrıya qəzəbləndim", - deyib. O biri dünyanı xatırladan gözəllik və rahatlığın hakim olduğu bu yerlə bağlı eşitdiklərinin təsiri altına düşən bəzi A sinfindən olan turistlər də adaya üz tutublar. Valter Şpis kimi sənətçiləri, Noel Cauard kimi yazıçılan, Kler

downloaded from KitabYurdu.org

Holt kimi rəqqasələri, Çarli Çaplin kimi aktyorlan, Marqaret Mid kimi alimləri bura aid etmək olar (Çılpaq sinəli qadmlann bolluğuna rəğmən Marqaret Mid Bali mədəniyyətini necə varsa elə də görməyə nail ola bilmişdi. Həmçinin onun İngiltərənin viktorian dövrünün mühafizəkar cəmiyyətinə oxşadığını qeyd etmişdi. "Bu mədəniyyətdə heç bir damcı da azad libido yoxdur"). 40-cı illərdə Dünya
müharibəsinin başlaması ilə xoşbəxt günlər başa çatdı. Yaponlar İndoneziyanı işğal etdi və Bali bağlarında uşaqları ilə xoşbəxt ömür sürən tərki-vətən insanlar ölkələrinə qayıtmağa məcbur oldular. Müharibənin ardınca İndoneziyanın davam edən müstəqillik uğrundakı mübarizəsində Bali arxipelaqın digər hissələri kimi bölündü və burada qəddarlıq hökm sürməyə başladı ("Bali: Cənnət kəşf edildi" başlıqlı bir tədqiqata əsasən). 1950-ci illərdə bir qərbli Baliyə getməyə cürət etsə idi, yastığının altına silah qoyub yatmalı olurdu. 1960-cı illərdəki hakimiyyət uğrunda mübarizə İndoneziyanı millətçi və kommunistlərin döyüş meydanına çevirdi. 1965-ci ildə Cakartada baş verən çevriliş cəhdindən sonra millətçi əsgərlər əllərində şübhəli kommunistlərin adlan yazılmış siyahı ilə adaya göndərildilər. Təxminən bir həftə ərzində hər addımda yerli polis və kənd hakimiyyət

downloaded from KitabYurdu.org

orqanlan tərəfindən dəstəklənən millətçi qüvvələr bütün kənd və şəhərlərdə qarşılarına çıxan insanları qətlə yetirdilər. Bu qırğınların sonunda Balinin gözəl çaylan onlara 100.000-dən çox meyit atıldığına görə az qala daşıb sahillərini basacaqdı.

Əfsanəvi cənnət 60-cı illərdə yenidən dirçəldi. İndoneziya hökuməti geniş miqyaslı müvəffəqiyyətli marketinq kampaniyasını başlayıb "Tanrıların adası" kimi Balini beynəlxalq turist bazarı üçün yenidən gündəmə gətirməyi qərara aldı. Balinin sehrinə qapılıb axm edən turistlər olduqca alicənab şəxslərdən təşkil olunmuşdular (Nəzərə alaq ki, bura Fort-Loderdeyl deyildi) və onlan maraqlandıran əsas məsələ Bali mədəniyyətinə xas olan bədii və dini gözəllik idi.

Kitabxanada keçirdiyim vaxt ərzində oxuduğum bütün bu məlumatlar beynimi qarışdırdı. Bir dəqiqə - mən niyə yenidən Baliyə gəldim? Dünyəvi həzz və mənəvi intizam arasındakı balansı tapmaq üçün, elə deyilmi? Bura həmin balansı axtarmaq üçün doğrumu yer idi? Bali sakinləri doğrudan da həmin dincliyə, balansa dünyada hamıdan daha çoxmu sahibdirlər? Demək istəyirəm ki, rəqsləri, duaları, orucları, gözəllikləri və təbəssümləri ilə olduqca balanslı təsir bağışlayırlar, amma bunların altında, əslində nə olduğunu bilmirəm. Polislər doğrudan da qulaqlarının

downloaded from KitabYurdu.org

arxasına çiçək taxırlar, lakin Balinin hər yerində bütün İndoneziyada olduğu
kimi korrupsiya var (Ötən gün vizamın vaxtını qeyri-qanuni yolla üç ay da uzatmaq üçün məmurlardan birinə masanın altından bir neçə yüz dollar verməklə bunu özüm yoxladım). Bali sakinlərinin əksəriyyəti dünyanın ən dinc, dindar və incəsənət vurğunu insanları imicinin hesabına dolanırlar. Amma bu, nə qədər real, dəqiqdir? Və mənim kimi bir yad adam böyük ehtimalla həmin "işıq saçan sifətlərin" ardında gizlədilən çətinlikləri necə öyrənə bilər? Şəklə diqqətlə baxanda kəskin xətlərin yox olub qaydasız fırça zərbələrinə və qarışıq görüntülərə çevrildiyini görmək olur. Burada da bu, hər yerdə olduğu kimidir.

Lakin bir şeyi əminliklə deyə bilərəm ki, icarəyə götürdüyüm evi sevirəm və Balidəki insanların hamısı bu günə qədər mənə qarşı çox mehriban olublar. Onlann incəsənətini və mərasimlərini gözəl, yaradıcı gücə malik sayıram. Böyük ehtimalla, düşündüyümdən də qarışıq olan bu məkan barədə empirik müşahidələrim bu qədərdir. Bali sakinlərinin öz balanslarını qoruyub saxlamaq və qazanc əldə etmək üçün nə
edəcəkləri öz işləridir. Bura öz balansım üzərində işləmək üçün gəlmişəm və hazırda bunun üçün ən münasib mühit

downloaded from KitabYurdu.org

buradır.

8ı

Ketutun neçə yaşı olduğunu bilmirəm. Özündən soruşdum, amma o da dəqiq bilmir. İki il əvvəl bura gələndə tərcüməçinin dediyinə görə, səksən yaşı var idi. Amma ötən gün Mario qocadan yaşını soruşanda Ketut, - "Deyəsən, altmış beş. Dəqiq bilmirəm", - deyə cavab verdi. Hansı ildə anadan olduğunu öyrənmək istəyəndə, yeni doğulduğu dövrü xatırlamadığını dedi. İkinci Dünya müharibəsində yaponlar Balini işğal edəndə artıq yetkin şəxs olduğunu bilirəm. Bu isə yaşının səksənə yaxın olduğunu göstərir. Cavanlıqda qolunu yandırdığı dövrün hansı ilə təsadüf etdiyini öyrənmək istəyəndə, - "Bilmirəm. Deyəsən, 1920", - deyə cavab verdi. Əgər 1920-ci ildə təxminən 20 yaşı var idisə, onda indi neçə yaşı var? Bəlkə yüz beş? Beləliklə, onun yaşının altmışla yüz beş arasında olduğu qənaətinə gələ bilərik.

Həmçinin onun yaşı ilə bağlı təxmini dediyi rəqəmlərin hisslərinə, əhvali-ruhiyyəsinə uyğun olaraq dəyişdiyinə fikir

vermişəm. Yorğun olanda dərindən ah çəkib deyir: "Bəlkə də bu gün səksən beş yaşım oldu". Amma ovqatı şəndirsə, -"Məncə altmış yaşım var", - deyir. Yaşını hesablamaq üçün yeni üsul özünü neçə yaşında hiss

downloaded from KitabYurdu.org

etdiyini soruşmaqdır. Bu nəyə lazımdır ki? Amma hələ də hesablamağa çalışıram. “Ketut, ad günün nə vaxtdır?” - soruşdum.

“Cümə axşamı”, - cavab verdi.

“Bu cümə axşamı?”

“Yox, bu həftə deyil. Hansısa bir həftənin cümə axşamı”.

Pis başlanğıc deyil. Bəs doğrudanmı bundan başqa heç bir informasiya yoxdur? Hansı aydakı cümə axşamı? Hansı ildə? Cavab yoxdur. Balidə həftənin hansı günündə doğulmaq hansı ildə anadan olmaqdan daha əhəmiyyətlidir. Ona görə də Ketut da hansı ildə dünyaya gəldiyini bilmir. Cümə axşamı doğulan uşaqların tanrısının dağıdıcı Şiva, qoruyucu heyvanlarının isə şir və pələng olduqlarını deyir. Cümə axşamı doğulan uşaqlann talisman ağacı banyandır. Talisman quşları tovuz quşudur. Həftənin cümə axşamı doğulan şəxs həmişə ilk sözü deyir, başqalarının sözünü ağzında qoyur, azca əsəbidir, yaraşıqlı
olmağa meyillidir (Ketutun sözü ilə desək, şorgözdür), amma buna baxmayaraq tərbiyəlidir, yaddaşı güclüdür və digər insanlara kömək etməyi sevir.

Bali sakinləri Ketutun yanma sağlamlıq problemi, münasibət və ya maliyyə vəziyyətlərindəki çətinliklərlə

downloaded from KitabYurdu.org

bağlı üz tutanda, onlardan doğru duaları oxumaq və lazım olan dərmanlan hazırlaya bilmək üçün mütləq həftənin hansı günü doğulduqlarını soruşur. Ketutun dediyinə görə, bəzən insanlar anadan xəstə doğulurlar və onları sağaltmaq üçün astroloji nizama ehtiyac var. Ötən gün yerli ailələrdən biri balaca oğlunu Ketutun yanma gətirdi. Uşağın təqribən dörd yaşı olardı. Qocadan problemin nə olduğunu soruşanda, Ketut uşağın həddindən artıq təcavüzkar olmağının valideynlərini narahat etdiyini dedi. Oğlan sözə baxmır, özünü pis aparır. Evdə hamını boğaza yığıb. Uşaq həmçinin səfehdir.

Ketut valideynlərindən uşağı bir dəqiqəlik tutmağı xahiş etdi. Oğlanı Ketutun dizlərinin üstünə oturtdular və uşaq rahat, qorxusuz şəkildə yaşlı kişinin sinəsinə söykəndi. Ketut onu nəvazişlə tutub bir ovcunu alnına qoydu və gözlərini bağladı.

Sonra ovcunu uşağın qarnına qoydu və yenə gözlərini örtdü. Eyni anda həm gülümsəyir, həm də uşaqla söhbət edirdi. Müayinə qısa müddətə başa çatdı. Ketut oğlanı valideynlərinin öhdəsinə verdi və bir azdan onlar da əllərində bir qədər müqəddəs su və reseptlə getdilər. Ketut mənə dedi ki, valideynlərindən uşağın hansı şəraitdə dünyaya gəldiyini öyrənib və məlum olub ki, oğlan şənbə günü pis bir ulduzun altında doğulub. Şənbə

downloaded from KitabYurdu.org

günü qarğa, bayquş, xoruz kimi mənfi ruhları (uşağın davakar olmağının səbəbi budur) və kukla ruhunu (səfeh olmağına da bu səbəb olur) özündə ehtiva edir. Amma vəziyyət o qədər də pis deyil. Şənbə günü anadan olduğuna görə uşağın bədənində həmçinin göy qurşağı və kəpənək ruhu da var. Bunlar da onu gücləndirir. Sədəqə verməklə, uşağı yenidən tarazlığa qovuşdura bilərlər.

“Nəyə görə əlini uşağın alnına və qarnına qoydun? - maraqlandım. - Onun hərarətini ölçürdün?”

“Beynini yoxlayırdım, - Ketut cavab verdi. - Zehnində pis ruhların olub-olmadığını yoxlayırdım”.

“Nə cür pis ruhlar?”

“Liz, mən Balidənəm, - dedi. - Qara magiyaya inanıram. Pis ruhların çaylardan çıxıb insanlara əzab verdiyinə inanıram”.

“Bəs uşaqda pis ruh var idi?”

“Xeyr, sadəcə, bu uşaq doğum günündən xəstələnmişdi. Ailəsi qurban kəsəcək, uşaq da sağalacaq. Bəs sən, Liz? Hər gecə Bali meditasiyası ilə məşğul olursan? Zehnini və qəlbini təmiz saxlayırsan?”

“Hər gecə”, - dedim.

“Qaraciyərinlə belə gülümsəyə bilirsən?”

“Qaraciyərimlə belə gülümsəyirəm, Ketut. Qara ciyərim ürəkdən gülür”.

downloaded from KitabYurdu.org

“Lap yaxşı, bu təbəssüm səni gözəlləşdirəcək. Bu sənə gözəl olmaq gücünü bəxş edəcək. Bu gücdən həyatın boyu istədiyini qazanmaq üçün istifadə edə bilərsən - gözəlliyin gücü!”

“Gözəlliyin gücü!” - xoşuma gəldiyinə görə təkrarladım. Meditasiya ilə məşğul olan Barbi kuklası kimi gözəlliyin gücünü qazanmaq istəyirəm!

“Bəs hind meditasiya ilə məşğul olursan?”

“Hər səhər”.

“Lap yaxşı, yoqanı yaddan çıxartma. Sənə faydalıdır. Hər iki meditasiya ilə məşğul olmağın çox yaxşıdır. Bali və hind meditasiyalan fərqlidirlər, amma ikisi də eyni dərəcədə yaxşıdır. Eyni... Din haqqında da belə düşünürəm. Çoxu eynidir”.

“Heç də hamı belə düşünmür, Ketut. Bəzi insanlar Tanrı haqqında mübahisə etməyi xoşlayırlar”.

“Ehtiyac yoxdur, - dedi. - Maraqlı bir fikrim var. Başqa dinə inanan biri ilə tanış olanda sənlə mübahisə eləmək istəsə, bu ideya köməyinə çatacaq. Fikrim belədir: Həmin adamın Tann haqqında danışdığı hər şeyə qulaq as. Onunla Tanrı barədə mübahisə eləmə. Verə biləcəyin ən yaxşı cavab budur: Sənlə razıyam. Sonra isə evinə gedib istədiyin kimi dua et. Din mövzusunda insanlar arasında problem olmamağı, sülhün hökm sürməyi üçün

downloaded from KitabYurdu.org

mənim təklifim budur”.

Ketut həmişə çənəsini dik tutur. Fikir vermişəm ki, başını azca geriyə əyir. Bu ona hər şeylə maraqlanan, eyni zamanda da alicənab adam görkəmi verir. Bununla da o bir qədər burnunu
dik tutaraq hər şeylə maraqlanan qoca krala oxşayır. Tünd qəhvəyi, parlaq dərisi var. Demək olar ki, tamamilə keçəldir, amma elə uçmağa hazır olan quşun qanadları kimi hədsiz uzun və qalın qaşları bunu kompensasiya edir. Tökülmüş dişlərini və qolundakı yanıq izini nəzərə almasaq, olduqca sağlam görünür. Cavanlıqda məbəd mərasimlərində rəqqaslıq etdiyini, o vaxtlar gözəl olduğunu deyir. İnanıram. Gündə cəmi bir dəfə yemək yeyir - düyü ilə ördək, ya da balıqdan ibarət olan tipik Bali yeməyi. Hər gün şəkər və qəhvə içə biləcəyini özünə sübut etmək üçün şəkər və qəhvə içməyi xoşlayır. Belə bir pəhriz sayəsində siz də yüz beş il yaşaya bilərsiniz. Hər gecə yatmazdan əvvəl meditasiya etməklə və kainatın müsbət enerjisini özünə tərəf çəkməklə gücləndiyini deyir. Onun sözlərinə görə insan bədəni su (apa), od (tejo), külək (bayu), səma (akasa) və torpaq (pritivi) daxil olmaqla, beş ünsürdən təşkil olunub. Meditasiya vaxtı bütün diqqəti bu həqiqətin üstündə cəmləməlisən və beləliklə də bütün qaynaqlardan eneıji alıb

downloaded from KitabYurdu.org

güclənəcəksən. İngilis deyimləri barədə məlumatlı olduğunu nümayiş
etdirərək, - “Mikrokosmos makrokosmosa çevrilir, - deyir. - Sən - mikrokosmos kainatla - makrokosmosla eyniləşirsən”.

Bu gün xeyli məşğul idi. Həyət qucağında körpələri və ya səbətləri ilə gözləyən balineziyalı xəstələrlə yükdaşıyan təyyarə kimi ağzınacan dolmuşdu. Fermerlər, biznesmenlər, atalar, nənələr var idi. Yediyini qaytaran körpələrini gətirən valideynlər, qara magiyaya tuş gəlmiş qocalar gözləyirdilər. Qəzəb və şəhvətlə yorğulan cavan oğlanları, ruh əkizini axtaran cavan qızları və səpkilərindən şikayətlənən uşaqları görmək olardı. Hamısı tarazlığını itirmişdi. Hər birinin balansı yenidən nizamlanmalı idi.

İstənilən vəziyyətdə Ketutun həyətində səbirli bir ab-hava olur. Bəzən növbəsi çatana qədər insanlar 3-5 saat gözləməli olurdular, amma heç vaxt ayaqlarını yerə döyüb qəzəbli baxışlarını nümayiş etdirmirlər. Maraqlı məqamlardan biri də odur ki, uşaqlar vaxt öldürmək üçün gözəl analarına söykənib öz barmaqları ilə oynayırlar. Bu uşaqların həddindən artıq dəcəl olduqlarına görə Ketutun yanma gətirildiyini öyrənəndə hər dəfə təəccüblənirəm. Bu balaca qız? Dörd saat ərzində

downloaded from KitabYurdu.org

qəlyanaltı, ya da oyuncaq istəməyib şikayət etmədən günün altında oturan o üç yaşlı balaca qız? O dəcəldir? Az qalıram ucadan deyim ki, - "Əgər dəcəl uşaq görmək istəyirsinizsə, Amerikaya gəlin. Mən sizə uşaqlar göstərim ki, onları ancaq rit alinlə sakitləşdirmək mümkündür". Lakin burada uşaqların davranış qaydalanna qoyulan tələblər bizdəkindən fərqlidir.

Ketut vaxta fikir vermədən, növbəsindən asılı olmayaraq heç kimdən gözlədiyi diqqət və qayğını əsirgəmədi. O qədər məşğul idi ki, nahar da yadına düşmədi. Tannya və əcdadlarına qarşı bəslədiyi hörmət qapısında gözləyən insanlara kömək etməsinə səbəb olurdu. Axşam gözləri Vətəndaş müharibəsi vaxtı yaralılara kömək edən bir cərrah gözləri qədər yorğun idi. Axınncı xəstə həftələrdir ki, yuxusuzluqdan əziyyət çəkən bir Bali sakini idi. O, tez-tez yuxusunda görürdü ki, eyni anda iki çayda birdən boğulur və hər dəfə qorxu ilə oyanırdı.

Bu axşama qədər Ketut Liyerin həyatında nə kimi rol oynadığımı bilmirdim. Hər gün ətrafında olmağımdan məmnun olub-olmadığımı soruşurdum. O isə gəlib onunla vaxt keçirməyim üçün israr edirdi. Gününün böyük bir hissəsini
zəbt etdiyim üçün vicdan əzabı çəkirdim, amma axşamlar

downloaded from KitabYurdu.org

ayrılanda o, hər dəfə məyus görünürdü. Ona elə də ciddi formada ingilis dili öyrətmirəm. Uzun illər əvvəl ingilis dilində öyrəndikləri beyninə o qədər möhkəm həkk olunub ki, onları düzəltmək, ya da yeni sözlər öyrətmək elə də asan deyil. Hələ ki, - "Tanış olduğuma şadam" və "Görüşdüyümə şadam" ifadələrinin fərqindən başqa bir şey öyrətməmişəm.

Axşam axırıncı xəstə də gedəndən sonra Ketut etdiyi xidmətin müqabilində o qədər tükənmiş və qoca görünürdü ki, onun rahat istirahət etməyi üçün çıxıb getmək istədiyimi dedim. "Sənin üçün həmişə vaxtım var", - deyə cavab verdi. Sonra isə ona Hindistan, İtaliya, Amerika və ailəm haqqında hekayələr danışmağımı xahiş etdi. Onda başa düşdüm ki, mən nə Ketut Liyerin ingilis dili müəlliməsi, nə də dini biliklərini bölüşdüyü tələbəsiyəm. Bu qoca ara həkimi üçün ən sadə bir həzzi ifadə edirəm - onun dostuyam. Mənimlə rahat söhbət edə bilər. Dünya haqqında yeni hekayələr eşitməyi xoşlayır. Özünün isə gəzməyə o qədər də çox fürsəti olmayıb.

Eyvanda birgə keçirdiyimiz vaxtlarda Ketut Meksikada avtomobillərin qiymətindən tutmuş, QİÇS-in yaranma səbəbinə qədər məni sorğu-suala tutdu (Hər iki mövzu ilə bağlı bildiklərimi onunla bölüşdüm, amma əminəm ki, ekspertlər daha dəqiq cavablandıra bilərlər).

downloaded from KitabYurdu.org

Ketut həyatı boyu Balidən kənara çıxmayıb. Əslinə qalsa, eyvanından kənarda çox az vaxt keçirib. Bir dəfə Balidə ən böyük və mənəvi cəhətdən ən önəmli vulkan olan Aqunqu ziyarət edib, amma dediyinə görə, oradakı enerji o qədər güclü idi ki, müqəddəs alovun onu udacağından qorxaraq rahat meditasiya ilə məşğul ola bilməyib. Böyük, əhəmiyyətli mərasim olduqda məbədlərə gedir və toy, ya da yetkinlik dövrü mərasimlərini yerinə yetirmək üçün qonşularının evlərinə dəvət edilir. Lakin vaxtının çoxunu burada, bambuk həsirinin üstündə ayağını ayağı üstünə aşınb ətrafına ulu babasının palma yarpaqlarından hazırlanmış tibbi ensiklopediyalarını yığaraq, insanlann qayğısına qalmaqla, pis ruhları qovmaqla və hərdənbir özünə şəkərli qəhvə qonaqlığı verməklə keçirir.

“Gecə səni yuxumda görmüşəm”, - bu gün mənə dedi. “Yuxumda velosipedinlə hər hansı bir yerə gedirdin”.

Sonra isə pauza verdi və mən onun cümləsindəki qrammatik səhvi düzəltməyə cəhd etdim: “Demək istəyirsən ki, yuxunda velosipedimlə hər yerə getdiyimi görmüsən?”

“Bəli! Dünən gecə yuxumda velosipedinlə hər hansı bir yerə və hər yerə gedirdin. Yuxumda çox xoşbəxt idin! Bütün dünyanı velosipedinlə gəzirdin! Mən də səni izləyirdim!”

downloaded from KitabYurdu.org

Bəlkə də mənimlə gəzə bilməyi arzulayır...

“Bəlkə də nə vaxtsa Amerikaya gəlib məni ziyarət edərsən, Ketut”, - dedim.

“Mümkün deyil, Liz, - taleyinə boyun əyərək başını yellərdi. - Təyyarədə səyahət etməyə bəs edəcək qədər dişim yoxdur”.

82

Ketutun həyat yoldaşı ilə qaynayıb-qarışmağımız isə bir qədər vaxt apardı. Ketutun Nyomo deyə çağırdığı qadın yekəpər və zəhmlidir, bir ayağı axsayır. Dişləri betel fındığı tütününü çeynəməkdən qızarıb. Ayaq barmaqlan artrit ağrısından əyilib. İti baxışları var. İlk dəfə görəndə mənə qorxulu gəlmişdi. Dul italyan qadınlarında və kilsəyə gedən imanlı qaradərili qadınlarda gördüyümə oxşayan sərt mimikası var. Adama elə gəlir ki, kiçik bir qəbahətə görə səni döyməyə hazırdır. Aydın məsələdir ki, əvvəl mənə şübhə ilə yanaşırdı - hər gün evimdə gəzişən bu yelbeyin qadın kimdir belə? Mətbəxdəki gizli, hisli yerdən məni sanki hipnozlayır, varlığımı belə şübhə altına alırdı. Ona gülümsəyirdim. O isə baxmağa davam edir, sanki düşünürdü ki, məni süpürgə ilə qovsun, ya rahat buraxsın.

Sonradan isə vəziyyət dəyişməyə başladı. Hər şey dəftərlərin surətini çıxarandan sonra baş verdi.

downloaded from KitabYurdu.org

Ketut Liyerin müalicə üsulları ilə bağlı qədim Bali və sanskrit sirlərinin qeyd edildiyi köhnə, balaca və iri dəftərləri var idi. Bütün tibbi informasiyanı qoruyub saxlamaq üçün 1940 və ya 1950-ci illərdə babası öləndən bir qədər sonra qeydləri dəftərlərə köçürüb. Bunların dəyəri heç nə ilə ölçülə bilməz. Nadir ağaclar, yarpaqlar, bitkilər və onların bütün tibbi xüsusiyyətləri ilə bağlı neçə cildlik məlumat var. Əl falı haqqında altmış səhifəlik sxem, astroloji məlumatlar, dualar, sehr və müalicə ilə bağlı çoxlu sayda dəftər var. Amma bu dəftərlər on illərlə kiflənməyə və siçanların hücumuna məruz qalandan sonra tikə-tikə olublar. Saralmış, parçalanmış və kiflənmiş vəziyyətləri ilə tökülən payız yarpaqlarını xatırladırlar. Nə vaxt hansısa səhifəni çevirməyə cəhd etsə, səhifə cırılır.

Keçən həftə parçalanmış dəftərlərdən birini əlimə alıb, - “Ketut, sənin kimi həkim deyiləm, amma mənə elə gəlir ki, bu kitab ölür”, - dedim.

Güldü. “Səncə ömrünün başa çatmasına nə qədər qalıb?”

“Cənab, - ciddi bir səs tonu ilə dedim, - fikrimcə, tezliklə kömək edilməsə, bu kitab uzağı altı ay ərzində öləcək”.

Sonra isə şəhərə gedəndə dəftəri götürüb məhv

downloaded from KitabYurdu.org

olmamış surətini çıxartmaq üçün icazə istədim. Əvvəlcə bunun nə olduğunu izah etməli oldum və kitabı, sadəcə, iyirmi dörd saatlıq götürdüyümə, ona heç bir zərər yetirməyəcəyimə söz verdim. Axırda "babasının müdrikliyi"nə yaxşı baxacağıma əmin olandan sonra götürməyimə icazə verdi. Şəhərdə dəftərin surətini çıxarda biləcəyim bir yerə getdim və hər səhifənin surətini diqqətlə çıxarıb plastik qovluğa qoydum. Növbəti gün kitabın yeni və köhnə versiyalarını günortadan sonra qoca üçün apardım. Ketut heyrət və sevinc içində idi. Çox xoşbəxt idi. Dediyinə görə, o dəftəri əlli il idi ki, saxlayırdı. Amma dəqiq bilmirəm ki, "əlli il" deməklə doğrudan da bu zaman kəsiyini nəzərdə tutub, yoxsa "çox uzun illər" demək istəyib.

Məlumatları qoruyub saxlaya bilmək üçün digər dəftərlərin də surətini çıxartmağı təklif etdim. Bali sanskrit dili və mürəkkəb eskizlərlə dolu axsayan, sınıq, kəsik, sökük, ölüm ayağında olan bir dəftəri mənə verdi.

"Bu da başqa bir xəstə", - dedi.

"İcazə ver sağaldım", - cavab verdim.

Və mənim işim böyük uğurla nəticələndi. Həftəsonuna qədər köhnə əlyazmaların bir neçəsinin surətini çıxartdırdım. Ketut hər gün arvadını çağırıb sevincək halda surətləri ona göstərirdi. Həddən artıq xoşbəxt idi.

downloaded from KitabYurdu.org

Qadının üz ifadəsi dəyişməsə də, dəftərləri diqqətlə nəzərdən keçirirdi.

Növbəti bazar ertəsi günü gələndə Nyoma mənə mürəbbə bankasında isti qəhvə gətirdi. Onun mətbəxdən Ketutun eyvanına qədər axsaya-axsaya etdiyi uzun səfərə, həyətdən keçib çin nəlbəkisində içkini gətirməsinə tamaşa etdim. Əvvəlcə güman edirdim ki, qəhvəni Ketuta gətirir. Amma yox, o artıq öz qəhvəsini içmişdi. Bu mənim üçün idi. Mənə hazırlamışdı. Təşəkkür etməyə cəhd etdim, amma o, əsəbi görkəm aldı və nahar hazırlayanda mətbəxin həyətindəki stolun üstünə çıxan xoruzu vurduğu kimi, mənim də ağzımdan vurdu. Növbəti gün isə mənə bir fincan qəhvə və yanında da bir kasada şəkər gətirdi. Ondan sonrakı gün də bir fincan qəhvə, bir kasa şəkər və qaynadılmış soyuq kartof gətirdi. O həftə hər gün yeni bir sürpriz əlavə etdi. Get-gedə bu vəziyyət mənə uşaq vaxtı maşınla səyahət edəndə oynadığım əlifba əzbərləmək oyununu xatırladırdı: “Bu gün nənəmgilə gedirəm və bir alma gətirəcəyəm. Nənəmgilə gedirəm və bir alma ilə banan gətirəcəyəm. Nənəmgilə gedirəm. Bir alma, bir banan, mürəbbə bankasında qəhvə, bir kasa şəkər və soyuq kartof gətirəcəyəm...” Dünən isə mən həyətdə Ketutla sağollaşanda Nyoma əlində süpürgə ilə yerləri təmizləyərək və öz imperiyasında baş verənlərə nəzər

downloaded from KitabYurdu.org

yetirmirmiş kimi görkəm alaraq ayaqlarını çəkə-çəkə mənə tərəf yaxınlaşdı. Mən əllərimi arxamda birləşdirib ayaq üstə dayanmışdım və o, arxama keçib bir əlimi tutdu. Sanki bir qıfılın şifrini axtarırmış kimi bir müddət diqqət yetirdi və nəhayət, şəhadət barmağımı tapdı. Sonra iri, möhkəm yumruğu ilə barmağımın ətrafında dövrə edərək ürəkdən əlimi bərk-bərk sıxdı. Sevgisini möhkəm tutduğu barmağımda, qolumda və mədəmdə hiss edirdim. Sonra isə əlimi buraxdı, axsaya-axsaya bircə söz də demədən uzaqlaşdı və heç nə olmayıbmış kimi süpürməyə davam etdi. Mən isə səssiz-
səmirsiz halda, eyni zamanda iki xoşbəxtlik çayında birdən boğulurdum.

Təzə bir dostum var. Adı Yudeydir. Yudey indoneziyalıdır. Əsli isə Yavadandır. Onunla tanış oldum, çünki evi mənə icarəyə götürən odur. Həmin evin sahibəsi olan ingilis qadın üçün işləyir. O, yay boyu Londonda olanda onun evinə nəzarət edir. Yudey iyirmi yeddi yaşlı, iribədənlidir və Cənubi Kaliforniyalı serfmqistlər kimi danışır. Mənə "dostum" ya da "qardaş" deyə müraciət edir. Cinayətin qarşısını ala biləcək qədər güclü bir təbəssümü və bu qədər gənc bir şəxs üçün olduqca uzun və qarışıq bir həyat hekayəsi var.

Cakartada doğulub. Anası evdar xanım, atası isə

downloaded from KitabYurdu.org

kondisioner və soyuducu biznesi olan indoneziyalı bir Elvis pərəstişkarı olub. Ailəsi xristiandır. Dünyanın bu hissəsində olduqca nadir bir vəziyyətdir. Yudey uşaq olanda məhəllədəki müsəlman uşaqların, - "Sən donuz yeyirsən!" "Sən İsanı sevirsən!" - deyərək onu necə doladıqları barədə maraqlı hekayələr danışır. Onların sataşmaqları Yudeyə təsir etmirdi.

Təbiəti etibarilə inciyən deyil. Lakin anası onun müsəlman uşaqlarla oynamağını istəmirdi. Bunun əsas səbəbi isə Yudeyin də müsəlman uşaqlar kimi ayaqyalın gəzmək istəyi idi. Anası bunun gigiyenik cəhətdən düzgün olmadığı qənaətinə gəlir və Yudeyin qarşısına iki seçim qoyur: Ya ayaqqabı geyinib çölə çıxa bilər, ya da ayaqyalın halda evdə oturmalıdır. Yudey ayaqqabı geyinməyi xoşlamadığına görə uşaqlıq və yetkinlik dövrünün böyük bir hissəsini yataq otağında, gitara çalmağı öyrənərək keçirib. Ayaqyalın halda.

Bu oğlanda bəlkə də indiyə qədər tanış olduğum heç kimdə görmədiyim qədər güclü bir musiqi duyumu var. Heç vaxt peşəkar dərs almayıb, amma melodiya və ahəngi elə yaxşı başa düşür ki, sanki uzun illər bir yerdə böyüdüyü bacılarıdır. Klassik İndoneziya laylalan ilə reqqi və Stiv Uanderin erkən fank stilini birləşdirərək, Şərqlə Qərbin maraqlı sintezini yaradır. İzah etmək

downloaded from KitabYurdu.org

çətindir, amma məncə məşhur olmalı imiş. Elə bir şəxsə rast gəlməmişəm ki, Yudeyin musiqi duyumuna bələd olduğu halda, məşhur olmağa layiq olduğunu deməsin.

Həyatda ən böyük arzusu Amerikada yaşamaq və şou biznes nümayəndəsi olmaqdır. Bütün dünyanın bölüşdüyü arzu... Ona görə də Yudey hələ yavalı bir yeniyetmə olanda "Karnival" şirkətinin kruiz laynerində işə düzələ bilir (O vaxtlar ingilis dilində çətinliklə danışırmış). Beləliklə, Yavadakı bu məhdud şəraitdən xilas olub böyük, mavi dünyaya addımlamağa başlayır. Yudeyin səyahət etdiyi gəmidə əməksevər mühacirlərin gördüyü işlərdən biri gəminin göyərtəsində qalıb ayda cəmi birgünlük icazə hüququ ilə, gündə iyirmi dörd saat təmizliklə məşğul olmaq idi. İş yoldaşları filippinlilər və indoneziyalılar idi. İndoneziyalı və filippinlilər heç vaxt qaynayıb-qarışmır, gəminin ayrı-ayn yelkənlərində yeyib yatırdılar (müsəlmanlar və xristianlar kimi). Amma Yudey həmişə olduğu kimi hamı ilə dostlaşır və iki asiyalı fəhlə qrupu arasında bir növ emissar rolunu oynayır. Ailələrinə yüz dollar göndərə bilmək üçün saatlarla işləyən xidmətçilər, mühafizəçilər, qabyuyanlar arasındakı oxşarlıqların fərqdən çox olduğunu müşahidə edir.

Gəmi ilk dəfə Nyu York limanına üz tutanda Yudey

downloaded from KitabYurdu.org

bütün gecəni oyaq vəziyyətdə ən hündür göyərtədə oturur və həyəcanla şəhərin üfüqdə görünməsini gözləyir. Bir neçə saatdan sonra Nyu Yorkda gəmidən enərək taksiyə əyləşir. Eynilə kinolarda olduğu kimi. Afrikalı sürücü hara getmək istədiyini soruşanda, - "Fərqi yoxdur, dostum. Sadəcə, ətrafı gəzdir. Hər şeyi görmək istəyirəm", - deyir. Bir neçə aydan sonra gəmi Nyu Yorka qayıdanda, Yudey onunla birdəfəlik vidalaşır. Şirkətlə bağladığı müqavilənin vaxtı onsuz da sona çatmışdı və artıq Amerikada yaşamaq istəyirdi.

O, çox götür-qoy edəndən sonra Nyu Cersidə qərar qılır.

Bir müddət gəmidə tanış olduğu indoneziyalı dostu ilə bir yerdə qalır. Ticarət mərkəzlərinin birində buterbrod mağazasında işə düzəlir. Yenə də gündə 10-12 saatlıq mühacir stilində iş idi, amma bu dəfə filippinliləri meksikalılar əvəz edirdi. İlk bir neçə ay ərzində ingilis dilindən çox ispan dilini öyrənir. Çox nadir olan boş vaxtlarında avtobusla Manhettana gedib, sadəcə, küçələri fırlanır. Şəhər onun ağlını başından elə alır ki, bu gün belə Nyu Yorku belə təsvir edir: "Dünyadakı ən sevgi dolu yer".

Sonra isə necəsə Nyu Yorka təzə gələn musiqiçilərlə tanış olur və gitarası ilə bir yerdə onlara qoşulur (yenə də o

downloaded from KitabYurdu.org

təbəssüm). Gecələr səhərə kimi Yamayka, Afrika, Fransa və Yaponiyadan gələn istedadlı uşaqlarla məşq edirlər. Bu konsertlərdən birində basda çalan, Konnektikut ştatından olan qəşəng, sarışın Anna ilə tanış olurlar. Bir-birlərinə vurulub evlənirlər. Bruklində mənzil tapırlar və tez-tez bir yerdə Florida-Kisə səyahət etdikləri dostlarının əhatəsində olurlar. Çox xoşbəxt idilər. Tez bir zamanda ingilis dili də qüsursuzlaşır. İnstituta qəbul olmaq haqqında fikirləşməyə başlayır.

ıı sentyabrda Yudey Bruklində qaldığı damdan qüllələrin çökməsinə tamaşa edir. Hamı kimi bu mənzərə onda da dəhşətli izlər qoyur. Dünyadakı ən sevgi dolu şəhərə belə bir vəhşiliyi kim və necə rəva bildi? Hadisədən dərhal sonra ABŞ Konqresinin terrorizm təhlükəsinə cavab olaraq qəbul etdiyi Vətənpərvər Aktına Yudeyin nə dərəcədə diqqət yetirdiyini bilmirəm. Bu qanun özündə İndoneziya kimi İslam dininə etiqad edənlərin çoxluq təşkil etdiyi ölkələrdən gələnlərə qarşı qəddar immiqrasiya qanunlarını ehtiva edirdi. Qanun şərtlərindən biri Amerikada yaşayan bütün İndoneziya Vətəndaşlarının Daxili Təhlükəsizlik Departamentində qeydiyyatdan keçməsini tələb edirdi. Yudey və digər indoneziyalı immiqrant dostlan vəziyyətdən çıxış yolu axtaranda zənglər gəlməyə başlayır. Çoxu icazə müddəti

downloaded from KitabYurdu.org

başa çatdığına görə deportasiya edilməkdən qorxurdu. O biri tərəfdən də qeydiyyatdan keçmədikləri təqdirdə cinayətkar statusu qazanmaq ehtimalı da var idi. Görünür, Amerikada rahat veyllənən fundamentalist islamçı terroristlər qeydiyyat qanununa məhəl qoymadılar, amma Yudey qeydiyyatdan keçməyə qərar verdi. Həyat yoldaşı amerikalı olduğuna görə immiqrant statusunu hüquqi vətəndaşlıqla əvəz etmək istəyir. O gizlənərək yaşamaq istəmirdi.

Yudey və Anna müxtəlif vəkillərlə məsləhətləşirlər, amma heç kim onlara bir çıxış yolu göstərə bilmir. 9/ıdən əvvəl bu, problem deyildi. Yudey artıq evli olduğuna görə rahat halda immiqrasiya xidmətinə yaxınlaşıb vizasının müddətini uzada, sonra da vətəndaşlığa qəbul proseslərinə başlaya bilərdi. Bəs indi? Kim bilir? "Qanunlar hələ sınaqdan keçirilməyib", -
immiqrasiya vəkilləri dedi. "İlk olaraq sizinlə sınaqdan keçiriləcək". Sonra Yudey və həyat yoldaşı mehriban bir immiqrasiya rəsmisi ilə görüşüb dərdlərini danışırlar. Yudeyə həmin günorta "ikinci müsahibə" üçün gəlməyi tapşırırlar. Ehtiyatlı olmaq zəruri idi. Yudeyə həyat yoldaşı, vəkili olmadan və cibləri boş halda gəlmək təlimatı verilir. İşlərin qaydaya düşəcəyinə ümid edib ikinci görüşə tək və cibləri boş gedən Yudey həmin gün

downloaded from KitabYurdu.org

həbs olunur.

Nyu Cersiyə aparılır. Daxili Təhlükəsizlik Aktına uyğun olaraq tutulur və bir çoxu illərdir ki, Amerikada yaşamayan və ingilis dilində səlis danışa bilməyən mühacirlərlə həftələrlə bir yerdə qalır. Bəziləri heç həbs olunduqları barədə ailələrini xəbərdar edə bilmirlər. Saxlama mərkəzində gözəgörünməz idilər. Onların mövcudluğundan heç kim xəbərdar deyildi. İsterik vəziyyətdə olan Anna günlərlə ərini axtarır. Həmin saxlama mərkəzi ilə bağlı Yudeyin ən unudulmaz xatirəsi bir yük gəmisində konteynerin içində tapılan kömür kimi qara, arıq və qorxmuş nigeriyalılar idi. Onlar Amerikaya, ya da getmək istədikləri yerə çatmamış bir ay gəminin altındakı
həmin konteynerdə gizləniblər. Tapılanda harada olduqları barədə heç bir fikirləri yox imiş. Gözləri o qədər bərəlibmiş ki, Yudey onların hələ də projektorlar üzlərinə tuşlanmış kimi baxdıqlarını deyir.

Həbs dövründən sonra Amerika hökuməti islamçı terrorist kimi şübhəli hesab olunan xristian dostum Yudeyi İndoneziyaya geri qaytarır. Bu, ötən il baş verib. Nə vaxtsa onun yenidən Amerikaya gəlməsinə icazə verilib- verilməyəcəyini bilmirəm. Həyat yoldaşı ilə hələ də həyatlarını necə qaydaya salacaqlarını düşünürlər.

downloaded from KitabYurdu.org

İndoneziyada yaşamaq onların planlarına daxil deyildi.

İnkişaf etmiş bir ölkədə yaşayandan sonra Cakartaya uyğunlaşa bilməyən Yudey dolanışığını təmin edə bilmək üçün Baliyə üz tutur. Balidən deyil, Cakartadan olduğuna görə buradakı cəmiyyət onu o qədər də isti qarşılamır, çünki Bali adasının sakinləri yavalıları oğru və dilənçi kimi qəbul edirlər. Ona görə də Yudey burda, doğma vətəni İndoneziyada Nyu Yorkdakından daha artıq qınaq obyektinə çevrilir. Bundan sonra nə edəcəyini bilmir. Bəlkə də həyat yoldaşı Anna gəlib
burada onunla yaşayar, bəlkə də yox. Burda onu maraqlandıran nədir? Onların yalnız internet vasitəsilə davam edən evlilikləri dağılmaq ərəfəsindədir. O, burada cəmiyyətdən təcrid olunmuş və çaşqın vəziyyətdədir. Özünü hər şeydən əvvəl amerikalı kimi hiss edir. Yudeylə eyni jarqondan istifadə edir, eyni kinoları xoşlayırıq. Tez-tez Nyu Yorkdakı sevimli restoranlarımızdan danışırıq. Axşamlar evimə gəlir və gitarası ilə mənə möhtəşəm musiqilər çalır. Onun məşhur olmağını istəyərdim. Bu dünyada bircə damcı belə ədalət olsaydı o, indiyə qədər çoxdan ulduz olmalı idi.

“Dostum, bu həyat başdan-başa dəlixanadır, elə deyilmi? - soruşur.

84

downloaded from KitabYurdu.org

“Ketut, həyat niyə başdan-başa dəlixanadır?” - növbəti gün ara həkimimə sual verdim.

“Bhuta ia, dewa ia”, - deyə cavab verdi.

“Mənası nədir?”

“İnsan şeytandır, insan tanndır. Hər ikisi doğrudur”.

Bu fikir mənə tanışdır. Hindlilərə, yoqlara xasdır. Qurumun dəfələrlə təkrarladığı kimi bu fikir insanın iki ekvivalent potensial - daralma və genişlənmə bacarığı ilə doğulduğunu bildirir. Həm işığın, həm də qaranlığın komponentləri insanlar arasında eyni miqdarda bölüşdürülüb. Ləyaqətin, yoxsa qərəzin ön plana çıxmasını seçmək isə şəxsdən asılıdır (və ya ailədən, ya da cəmiyyətdən). Planetdəki dəliliyin əsas səbəbi insanın özü ilə düzgün tarazlıq yaratmaqda çətinlik çəkməsidir. Nəticəsi isə şəxsi və ya kollektiv surətdə dəlilikdir... “Bəs dünyanın bu dəliliyinə qarşı nə etməliyik?”

“Heç nə, - Ketut mehriban təbəssümlə cavab verdi. - Dünyanın təbiəti belədir. Bu taledir. Yalnız özün öz ağlını itirməməyin haqda öz qəlbində rahatlıq əldə etməyə çalış”.

“Öz rahatlığımı necə əldə edə bilərəm?” - Ketutdan soruşdum.

“Meditasiya, - dedi. - Meditasiyanın yeganə məqsədi xoşbəxtlik və rahatlıqdır. Çox sadədir. Bu gün sənə yeni

downloaded from KitabYurdu.org

bir meditasiya öyrədəcəyəm. O səni daha yaxşı insana çevirəcək. Dörd qardaş meditasiyası adlanır".

Ketut izah etdi ki, Bali inancına əsasən, dünyaya gələndə dörd görünməz mələk bizi müşayiət edir. Onlar bizimlə bir yerdə doğulur və həyatımız boyu bizi qoruyurlar. Uşaq anasının bətnində olanda belə həmin dörd qardaş yanında olur. Onlar cift, maye, göbəkbağı və doğulmamış körpənin dərisini mühafizə edən sarı, mumlu maddə ilə təmsil olunurlar. Uşaq doğulanda valideynləri bu materialları mümkün qədər toplayır və bir kokosa doldurараq evin qapısının ağzında basdırır. Balineziyalılann fikrincə, basdırılan kokos doğulmamış dörd qardaşın məzandır və bu yer müqəddəs hesab olunur.

Ətraf aləmi dərk etməyə başladığı kiçik yaşlardan etibarən uşağa bu dörd qardaşın hər yerə onunla bir gedəcəyi və daim qoruyacağı təlqin edilir. Bu dörd qardaş insanın özünü təhlükəsiz və xoşbəxt hiss etməsi üçün ehtiyacı olan dörd kəraməti təmsil edir: Ağıl, dostluq, güc və (Bu, çox xoşuma gəlir) yaradıcı ruh. Kritik vəziyyətlərdə qardaşları köməyə çağırmaq olar. Öləndə isə bu dörd qardaş ruhu cənnətə apanrlar.

Ketut deyir ki, bu günə qədər dörd qardaş meditasiyasım heç bir qərbliyə öyrətməyib, amma mənim

downloaded from KitabYurdu.org

buna hazır olduğumu fikirləşir. Əvvəlcə, mənə görünməz qardaşların adlarını öyrətdi: Anqo Patih, Maragio Patih, Banus Patih və Banus Patih Ragio. Mənə bu adları yadda saxlamağı və həyatım boyu nə vaxt ehtiyac duysam onlardan kömək istəməyi tapşırdı. Onlarla danışanda Tanrıya dua edirmiş kimi rəsmi olmağa ehtiyac yoxdur. Qardaşlanmla səmimi danışa bilərəm, çünki onlar mənim ailəmdir. Hər səhər duş qəbul etməzdən əvvəl onların adlarını sadalamalı olduğumu dedi. Bununla onlar da mənə qoşulacaqlar. Yeməyə başlamazdan əvvəl yenə adlarını

çəkəcəyəm ki, qardaşlarım da yeməkdən zövq alsınlar. Yatmazdan əvvəl "mən yatıram, ona görə də siz oyaq qalıb məni qorumalısınız", - deyəcəyəm. Beləliklə, qardaşlanm bütün gecə məni pis ruhlardan, qarabasmalardan qoruyacaqlar.

"Bu yaxşıdır, - dedim. - Çünki hərdən qarabasmalar məni narahat edir".

"Necə qarabasmalar?"

Qocaya izah etdim ki, uşaqlıqdan bəri eyni kabusu görürəm - çarpayımın yanında dayanan bıçaqlı kişi. Bu kabus o qədər canlı, real görünür ki, bəzən yuxudan qışqıraraq oyanıram. Ürək döyüntülərim sürətlənir (Çarpayımı bölüşdüyüm şəxs üçün də bu vəziyyət

downloaded from KitabYurdu.org

xoşagələn deyil). Özümü dərk edəndən bəri bir neçə həftədən bir bu yuxunu görürəm.

Bunu Ketuta danışdım və o, illərdir ki, yuxunu səhv yozduğumu bildirdi. Çarpayının yanında dayanan bıçaqlı kişi mənim düşmənim deyil, sadəcə dörd qardaşdan biridir. O, gücü təmsil edən qardaşdır. Mənə hücum etmək üçün yox, yuxuda olanda qorumaq məqsədilə orada dayanır. Yuxudan oyanıram, çünki böyük ehtimalla qardaşımın mənə zərər vermək istəyən
pis ruhla döyüşdüyünü hiss edirəm. Qardaşımın əlindəki bıçaq deyil, kris, yəni balaca, iti xəncərdir. Qorxmaq lazım deyil. Rahat halda yenidən yuxuma davam edə bilərəm, çünki qorunuram.

“Bəxtin gətirib, - Ketut dedi, - onu görə bildiyinə görə bəxtəvərsən. Bəzən meditasiya vaxtı qardaşlarımı görürəm, amma adi insanlar onları nadir hallarda görə bilər. Məncə, sənin böyük mənəvi gücün var. Ümid edirəm ki, nə vaxtsa sən də başqalarına şəfa verən bir şəxs olarsan”.

“Yaxşı, - gülə-gülə cavab verdim, - amma bir şərtlə ki, məndən bəhs edən serial çəksinlər”.

Əlbəttə ki, zarafatı başa düşmədi, amma insanların zarafat etməyindən zövq aldığına görə mənimlə bir yerdə güldü. Sonra isə dedi ki, dörd qardaşla nə vaxt danışsam,

downloaded from KitabYurdu.org

onlara kim olduğumu izah etməliyəm. Mənə qoyduqları gizli ləqəbdən istifadə etməliyəm. “Mən Laqoh Pranoyam”, - deməliyəm.

Laqoh Prano “xoşbəxt bədən” deməkdir.

Mən evə yola düşdüm. Günəş qürub edəndə velosiped mənim xoşbəxt bədənimi təpələrin üzəriylə evimə aparırdı.

Meşədə, yolumun üstündə iri bir erkək meymun ağacdan düz qabağıma tullandı və köpək dişlərini göstərdi. Nəinki qorxdum, heç səksənmədim də. “Geri çəkil, Cek. Məni qoruyan dörd qardaşım var”, - dedim və yanından keçib getdim.

Buna baxmayaraq ertəsi gün (dörd qardaş məni qorusa da) avtobus məni vurdu. Balaca bir avtobus idi, amma buna baxmayaraq, mən velosipedin üzərindən uçub, beton suvarma xəndəyinə düşdüm. Qəzaya şahid olan otuza yaxın Bali sakini mənə kömək etmək üçün dayandılar (Avtobus isə getmişdi). Hər biri mənə evində çay içməyi, ya da xəstəxanaya getməyi təklif etdi. Hamısı pis olmuşdu. Daha betərinin ola biləcəyini nəzərə alanda, xəsarət elə də ciddi deyildi. Velosipedim yaxşı vəziyyətdə idi. Təkcə səbəti əyilmişdi və dəbilqəm çatlamışdı (Başımdansa dəbilqənin çatlamağı yaxşıdır). Ən ciddi zərər dizimdəki çınqıl və palçıqla dolu dərin yara idi.

downloaded from KitabYurdu.org

Nəm tropik hava ucbatından sonrakı bir neçə gün ərzində yarama infeksiya yoluxdu.

Ketutu qorxutmaq istəmirdim, amma bir neçə gündən sonra onun eyvanında, nəhayət, şalvanmı çirmələdim, saralmış

sarğını çıxartdım və yaramı qocaya göstərdim. Diqqətlə yarama baxdı.

“İnfeksiya keçib, - diaqnoz qoydu. - Ağrıdır?”

“Bəli”, - dedim.

“Həkimə getməlisən”.

Təəccübləndim. O özü həkim deyildi ki? Amma hansısa səbəbdən mənə kömək etmək istəmədi. Heç mən də təkid etmədim. Ola bilsin ki, qərbliləri müalicə etmir. Bəlkə də Ketutun gizli, böyük bir planı var idi, çünki Vayenlə tanış olmağıma dizimdəki yara səbəb oldu. Və həmin görüşün sayəsində də nə baş verməliydisə, o da baş verdi...

86

Vayen Nuriyasi də Ketut Liyer kimi balineziyalı ara həkimidir. Buna baxmayaraq, aralannda müəyyən fərqlər var. Ketut kişidir və qocadır. Vayen isə qırxa yaxın yaşı olan bir qadındır. Ketut bir növ din adamıdır və mistik təsir bağışlayır. Vayen isə peşəkar həkim kimi dükanındakı otları, dərmanları bir-birinə qarışdırır və

downloaded from KitabYurdu.org

xəstələri dərhal müalicə edir.

Vayenin Ubudun mərkəzində "Ənənəvi Bali şəfa mərkəzi" adında balaca bir məkanı var. Ketutun yanma gedəndə dəfələrlə onun qabağından velosipedimlə keçmişdim. Qarşısına qoyulmuş dibçəkdəki güllərə və "xüsusi multivitaminli qəlyanaltı" yazılan lövhəsinə görə diqqətimi cəlb etmişdi.

Amma dizim yaralanana qədər içəri girməmişdim. Ketut həkimə getməli olduğumu deyəndə dərhal bura ağlıma gəldi və kiminsə iltihablanmış yaramı müalicə edəcəyinə ümid bəsləyərək içəri daxil oldum.

Vayenin müəssisəsi balaca tibbi klinikadır, eyni zamanda da həm ev, həm də restorandır. Aşağı mərtəbədə kiçik mətbəx və iki-üç masa olan restoran yerləşir. Yuxarı mərtəbədə Vayenin masaj və müalicə ilə məşğul olduğu və müştəriləri qəbul etmək üçün xüsusi kabineti var. Arxa tərəfdə isə qaranlıq yataq otağı yerləşir.

Yaralı dizimlə axsaya-axsaya dükana girdim və parlaq təbəssümlü, belinə qədər uzanan işıltılı, qara saçları ilə həddindən artıq cazibədar olan balineziyalı Vayenə özümü təqdim etdim. Onun arxasında, iki utancaq qız gizlənmişdi. Onlara əl yellədim, gülümsədilər və geriyə, mətbəxə qaçdılar. Yaramı Vayenə göstərdim və kömək edib-etməyəcəyini soruşdum. Çox keçmədən Vayen

downloaded from KitabYurdu.org

sobanın üstündə otları dəmləməyə başladı. İndoneziyaya xas olan ənənəvi dərman - jamu hazırlayırdı. İsti yaşıl yarpaqları dizimə qoydu və dərhal özümü yaxşı hiss etdim.

Söhbət etməyə başladıq. İngilis dilini əla bilirdi. Balili olduğuna görə mənə üç standart giriş sualını verdi: Bu gün hara gedirsən? Haradan gəlirsən? Ailəlisən?

Subay olduğumu deyəndə ("hələ ki") təəccübləndi.

"Heç vaxt ərdə olmamısan?" - deyə soruşdu.

"Xeyr", - deyə yalan dedim. Yalan danışmağı xoşlamıram, amma balineziyalılar xoş qarşılamadığına görə boşanmağım haqqında danışmaq istəmirəm.

"Heç vaxt ailə qurmamısan?" - sualı təkrarladı.

"Doğrudan heç vaxt ailəli olmamısan?" - deyə yenidən soruşdu. Mənə təəccüb və maraqla baxırdı.

"Doğrudan, - dedim, - heç vaxt ailəli olmamışam".

"Əminsən?" Qəribə vəziyyət yaranırdı.

"Əminəm!"

"Heç bircə dəfə də?" - soruşdu.

Yaxşı, deməli, beynimi oxuya bilir.

"Yaxşı, - etiraf etdim, - bir dəfə olmuşam".

Qəfildən çöhrəsi, - "Belə də bilirdim!" - demək istəyirmiş kimi işıqlandı. "Boşanmısan?" - soruşdu.

"Bəli, - xəcalət çəkə-çəkə dedim, - boşanmışam".

downloaded from KitabYurdu.org

“Boşandığını başa düşmüşdüm”.

“Burada bu o qədər də adi qəbul olunmur, elə deyilmi?”

Vayen məni həddindən artıq təəccübləndirdi: “Amma mən də boşanmışam”, - dedi.

“Sən?”

“Əlimdən gələni etdim, - cavab verdi. - Boşanmazdan əvvəl hər şeyi yoxladım, dua etdim. Lakin ondan xilas olmalı idim”.

Gözləri yaşla doldu və tanıdığım ilk balineziyalı boşanmış qadının - Vayenin əlindən tutub, - “Əminəm ki, əlindən gələni əsirgəməmisən, əzizim. Əminəm ki, hər üsula əl atmısan”, - dedim.

“Boşanmaq çox kədərlidir”, - dedi.

Razılaşdım.

Burada düz beş saat yeni rəfiqəmlə dərdləşdim. Mən onun hekayəsinə qulaq asır, o isə dizimdəki yaranı təmizləyirdi. Dediyinə görə, Vayenin Balidən olan həyat yoldaşı “həmişə içən, qumar oynayıb bütün pulunu itirən, sonra da daha çox içki və qumar üçün pul verməyəndə onu döyən” bir adam idi.

“Dəfələrlə məni döyərək xəstəxanalıq edib”, - dedi. Saçlarını aralayıb başındakı çapıqları göstərdi. “Bu, motosiklet dəbilqəsi

downloaded from KitabYurdu.org

ilə məni vuranda olub. Nə vaxt içki içsə, məndə də pul olmasa motosikletin dəbilqəsi ilə məni döyürdü. O qədər çox zərbə endirirdi ki, özümdən gedir, şüurumu itirirdim. Başımgicəllənirdi. Ətrafı görə bilmirdim. Bəxtim gətirib ki, ara həkimiyəm. Ailəm şəfa verən olduğuna görə şanslıyam, çünki özümü necə müalicə edəcəyimi bilirəm. Bunu bacarmasaydım, kar ola bilərdim. Ya da gözlərimin kor olmağı qaçılmaz idi". İkinci övladma hamilə olanda uşağı itirməsinə gətirib çıxaracaq qədər döyüləndən sonra ərindən ayrıldığını danışdı. Bu hadisədən sonra ilk uşaqları olan Tutti ləqəbli balaca, ağıllı qız, - "Ana, məncə, ayrılmalısan. Hər dəfə xəstəxanaya gedəndə evdə Tutti çox iş görməli olur", - deyib.

Tutti bunları deyəndə cəmi dörd yaşı var idi.

Balidə boşanmaq insanın qərblilərin təsəvvür edə bilməyəcəyi dərəcədə tənha və müdafiəsiz olmağı deməkdir. Balidə divarlarla əhatə olunmuş ailə vahidi, demək olar ki, hər şeydir. Ailə məbədinin ətrafında bulqalolarda yaşayan dörd nəsil qardaşlar, əmi uşaqları, valideynlər və uşaqlar doğulandan ölənə qədər bir-birlərinin qayğısına qalırlar. Ailə gücün, maddi təminatın, sağlamlığın, təhsilin və Bali sakinləri üçün hamısından əhəmiyyətli olan mənəvi birliyin qaynağıdır.

Ailə anlayışı balineziyalılar üçün o dərəcədə həyati

downloaded from KitabYurdu.org

önəm kəsb edir ki, ona bütöv bir şəxs, canlı orqanizm kimi baxırlar. Bir Bali kənd əhalisinin miqdarı fərdlərin deyil, ailələrin sayma əsasən müəyyən edilir. Ailə özlüyündə bir kainatdır. Onu tərk edə bilməzsən (Əlbəttə ki, əgər qadmsansa, bir dəfə ayrılıb ata evindən ər evinə keçirsən). Bu sistem fəaliyyətə başlayanda - sağlam cəmiyyətdə, adətən fəaliyyət göstərir - dünyada ən ağıllı, müdafiə olunan, sakit, xoşbəxt və balanslı insanlar meydana gəlir. Bəs sistem işləməsə? Yeni rəfiqəm Vayeninki kimi vəziyyət yaransa? Belə olduğu təqdirdə təcrid edilənlər boğanaq orbitdə itib batırlar. Onun iki seçimi var idi: Ya "ailənin təhlükəsizliyi"nə sığınıb onu tez-tez xəstəxanalıq edən əri ilə qalmalı, ya da xilas olmaq üçün ondan ayrılmalı idi. Və etdiyi seçim onu hər şeydən məhrum etdi.

Yaxşı, tamamilə hər şeydən məhrum olmayıb. Ensiklopediyalarını, müsbət keyfiyyətlərini və uğranda xeyli mübarizə apardığı qızı Tuttini saxlamağa nail olub. Bali
əvvəldən axıra kimi patriarxatdır. Boşanma hallan nadir hallarda baş verir və uşaq avtomatik olaraq ataya verilir. Vayen Tuttini geri qaytarmaq üçün yaxşı bir vəkil tutub sonuncu qəpiyinə qədər ödəmək məcburiyyətində qalıb. Hər şeyini verib. Vəkilə ödəniş edə bilmək üçün təkcə

downloaded from KitabYurdu.org

mebel və zinət əşyalarını deyil, çəngəl, qaşıq, corab, ayaqqabılarını, köhnə paltarlarını, hətta yansı ərimiş şamlarını belə satıb. Nəhayət ki, ikiillik mübarizədən sonra qızını qaytarmağa nail olub. Vayenin bəxti gətirib ki, Tutti qızdır. Əgər oğlan olsa idi, onu bir də heç vaxt görə bilməzdi. Oğlan uşaqlan daha qiymətlidir.

Vayen və Tutti son bir neçə ildir ki, tək yaşayırlar. Bali kimi bir pətəkdə tək! Və maddi vəziyyətlərinə uyğun olaraq, bir neçə aydan bir evlərini dəyişir, gecələr daim növbəti dayanacağın hara ola biləcəyini narahat halda götür-qoy edə-edə yuxusuz qalırlar. Bu isə Vayen üçün çətinlik törədir, çünki hər dəfə köçəndən sonra xəstələrin onun yerini tapması problemə çevrilir (Son vaxtlarda çoxu çətin günlər keçirən balineziyalılar). Həmçinin hər dəfə köçəndə balaca Tutti də məktəbini dəyişməli olur. Əvvəllər Tutti sinfin ən yaxşı oxuyan
şagirdi idi, amma axırıncı dəfə məktəb dəyişəndən sonra əllinəfərlik sinifdə iyirminci yerə qədər zəifləyib.

Vayen bu hekayəni nəql edəndə, Tutti məktəbdən gəldi və sükanı ələ aldı. Cəmi səkkiz yaşı olsa da, olduqca böyük xarizması və ümidverici parıltısı var. Bu balaca bomba (hörüklü, arıq və həyəcanlı) məndən ingilis dilində kifayət qədər səlis formada nahar istəyib-istəmədiyimi soruşdu. Vayen, - “Yadımdan çıxıb. Nahar etməlisən!” -

downloaded from KitabYurdu.org

deyib ayağa qalxdı və ana-qız mətbəxə qaçdılar. Arxada gizlənən iki utancaq qızın köməyi ilə Balidə bu vaxta qədər yediyim ən dadlı yeməyi hazırladılar.

Balaca Tutti hər bir boşqabı nəhəng bir təbəssümlə, xüsusi təqdimatla gətirirdi. O qədər əyləncəli, aktiv idi ki, stend-ap şou hazırlaya bilərdi.

“Böyrəkləri təmizləmək üçün kurkuma şirəsi!” - deyə elan
etdi.

“Kalsium üçün dəniz yosunu!”

“D vitamini üçün pomidor salatı!”

“Malyariyadan qorunmaq üçün qanşıq otlar!”

Nəhayət, soruşdum: “Tutti, ingilis dilini harada bu qədər yaxşı öyrənmisən?”

“Kitabdan!” - elan etdi.

“Məncə, sən çox ağıllı qızsan”, - bildirdim.

“Təşəkkür edirəm, - dedi və spontan bir xoşbəxtlik rəqsindən sonra davam etdi. - Sən də çox ağıllı qızsan!”

Yeri gəlmişkən, Balidə yaşayan uşaqlar, adətən belə olmurlar. Çox vaxt sakit, mədənidirlər. Analarının ətəyinin arxasında gizlənirlər. Tutti isə yox. O, başdan-ayağa şou idi. Maraqlı bir tamaşa idi.

“Sənə kitablarımı göstərəcəyəm!” - oxuya-oxuya dedi və onları gətirmək üçün pilləkənlərlə yuxan qalxdı.

downloaded from KitabYurdu.org

“Heyvan həkimi olmaq istəyir, - Vayen dedi. - O söz necə
idi?”

“Baytar?”

“Bəli, baytar. Heyvanlar haqqında o qədər sual verir ki, heç bilmirəm onlan necə cavablandınm. Soruşur ki, - “Ana, əgər yanıma xəstə ağ pələng gətirsələr, əvvəlcə onun dişlərini sarımalıyam ki, məni dişləməsin? İlan xəstələnsə və dərman
verməli olsam, harasından verəcəyəm?” Bu fikirlər haradan ağlına gəlir, bilmirəm. Ümid edirəm ki, universitetə gedə bilər”.

Tutti əlindəki kitablarla birtəhər pilləkənləri endi və özünü anasının qucağına atdı. Vayen gülümsəyib qızını öpdü. Boşanma haqqında danışanda üzündə yaranan o kədərli ifadə yoxa çıxdı. Onlara baxa-baxa fikirləşdim ki, anasını həyata bağlayan balaca qızlar böyüyüb güclü qadınlara çevrilirlər. Bircə günorta bu balaca uşağa vurulmağıma bəs etmişdi. Elə ordaca tannya dua etdim: Tutti Nuriyasi gələcəkdə min dənə ağ pələngin dişlərini sarısın!

Tuttinin anası ilə də qaynayıb qarışdıq. Neçə saat idi ki, burada idim. Artıq getmək vaxtı olduğunu hiss edirdim. Nahar etmək istəyən başqa turistlər də var idi.

downloaded from KitabYurdu.org

Onlardan biri, yaşlı, kobud bir avstraliyalı qadın uca səslə Vayendən, “lənətə gəlmiş qəbizliyini” müalicə etməsini xahiş edirdi. Mən isə fikirləşirdim: Əzizim, bu mahnını bir az ucadan oxu ki, hamımız rəqs edə bilək...

“Sabah yenə gələcəyəm, - deyə Vayenə söz verdim. - Yenə multivitaminli nahar edəcəyəm”.

“Dizin artıq yaxşıdır, - Vayen dedi. - Sürətlə sağalır. İnfeksiya yoxdur”.

Axınncı yaşıl yarpağı da dizimin üstündən götürdü. Ardınca diz qapağımı yellədi. Sonra gözlərini yumub o biri dizimi də yoxladı. Gözlərini açdı və qımışaraq dedi: “Dizlərinə əsasən deyə bilərəm ki, son vaxtlarda intim münasibətdə olmamısan”.

“Niyə? Bir-birlərinə yaxın olduqlarına görə?” - soruşdum.

Güldü. “Xeyr, bu qığırdaqdır. Çox qurudur. İntim münasibət nəticəsində yaranan hormonlar oynaqları yumşaldır. Nə qədər vaxtdır ki, intim münasibətdə olmursan?”

“Təxminən il yarımdır”.

“Sənə yaxşı bir kişi lazımdır. Sənin üçün tapacağam. Məbədə gedib sənin üçün dua edəcəyəm, çünki artıq mənim bacımsan. Bir də ki, əgər sabah gəlsən, böyrəklərini təmizləyəcəyəm”.

downloaded from KitabYurdu.org

“Yaxşı kişi, üstəgəl böyrək təmizliyi? Qulağa çox xoş gəlir”.

“İndiyə qədər boşanmağımla bağlı heç kimlə dərdləşməmişdim, - dedi. - Amma həyatım çox ağır, kədərli,
çətindir. Həyatın niyə bu qədər çətin olduğunu başa düşə bilmirəm”.

Bundan sonra qəribə bir hərəkət etdim: Qadının əllərini ovcuma alıb güclü bir inamla, - “Həyatının ən çətin dövrləri artıq keçmişdə qalıb, Vayen”, - dedim.
Sonra isə izah edə bilmədiyim güclü bir intuisiya və ya reaksiya ilə ağlım qarışıq halda titrəyərək oranı tərk etdim.
8?
Artıq günüm təbii olaraq üç hissəyə bölünüb. Səhərləri Vayenin dükanında gülərək, yemək yeyərək keçirirəm. Günortadan sonra Ketutla söhbət etmək və qəhvə içməklə məşğulam. Axşamları isə gözəl bağımda tək kitab oxumağa və ya hərdənbir gitara çalmağa gələn Yudeylə söhbətə həsr edirəm. Hər səhər günəş çəltik tarlalarının üstündən doğanda meditasiya ilə məşğul olur, yatmazdan əvvəl isə dörd ruh qardaşımla danışıb yuxuda olanda məni qorumaqlarını xahiş edirəm.

Cəmi bir neçə həftədir ki, buradayam, amma indidən

downloaded from KitabYurdu.org

özümü hansısa vacib bir missiyanı yerinə yetirmiş kimi hiss edirəm. İndoneziyada qarşıma qoyduğum məqsəd balans axtarmaq idi. Amma artıq nə isə axtardığımı düşünmürəm, çünki həmin tarazlıq necəsə öz-özünə bərpa olundu. Bali sakininə çevrilmirəm (Necə ki, əvvəllər də italyana, ya da hindliyə çevrilmədim). Sadəcə daxili rahatlıq hiss edirəm və günlərimi sakit meditasiya, gözəl mənzərənin yaratdığı həzz,
əziz dostlarım və dadlı yeməklərin əhatəsində keçirməkdən zövq alıram. Son vaxtlarda olduqca tez-tez dua edirəm. Çox vaxt axşama doğru hava qaralanda meymun meşəsi və çəltik tarlalarının arasından keçib Ketutun yanından evimə tərəf velosipedlə gedəndə dua etmək istəyirəm. Əlbəttə ki, növbəti avtobusun qurbanına çevrilməmək, meymun və ya it hücumuna məruz qalmamaq üçün də dua edirəm, amma təkcə bunlar üçün yox. Dualarımın çoxu daxili rahatlığa qovuşmağım münasibətilə hiss etdiyim sonsuz minnətdarlığı ifadə edir. Özümü heç vaxt bu qədər rahat hiss etməmişəm.

Qurumun xoşbəxtlik barədə dediyi fikirlərdən biri heç vaxt yadımdan çıxmır. O deyirdi ki, insanlar xoşbəxtliyin bir şans olduğuna, tale şəxsin üzünə gülməyə qərar verdiyi təqdirdə günəş kimi işıq saçacağına inanmağa meyillidirlər. Amma xoşbəxtlik belə meydana gəlmir.

downloaded from KitabYurdu.org

Xoşbəxtlik şəxsi səyin nəticəsidir. Onun uğrunda mübarizə aparırsan, döyüşürsən, təkid edirsən və bəzən onu axtara-axtara bütün dünyanı gəzirsən. Təqdim olunan xoşbəxtliyin təzahüründə qəti surətdə iştirak etməlisən. Və xoşbəxtliyə nail olandan sonra onu
qoruyub saxlamağa səhlənkar yanaşmamalısan. Əksinə, sonsuza qədər həmin xoşbəxtliyin içində daha da dərinə doğru üzməyə səy göstərməlisən. Əgər bunu etməsən, anadangəlmə sahib olduğun məmnunluq hissi yavaş-yavaş tükənəcək. Narahat olanda dua etmək asandır, amma böhran başa çatandan sonra da duaya davam etmək möhürləməyə bənzəyir. Ruhunun yaxşı vərdişlərə yiyələnməsinə kömək edir.

Günəş qürub edən vaxtı azad halda velosipedimi Baliyə tərəf sürəndə bu fikirləri xatırlayır, əslində, hərəsi ayrıca bir and olan dualarıma davam edirəm. Tannya öz ahəngimi göstərib, - “Sahib olmaq istədiyim budur. Xahiş edirəm bu məmnunluq hissini xatırlamağıma və onu daim dəstəkləməyimə kömək et”,
- deyirəm. Bu xoşbəxtliyi həyatın növbəti sınaqlarına qarşı sığorta kimi, sadəcə, mühafizə edən qurum tərəfindən yox, həmçinin dörd qardaşım tərəfindən də qorunan bir banka təhvil verirəm. Bu təcrübəni “zəhmətkeş sevinc” adlandırıram. Fikrimi zəhmətkeş

downloaded from KitabYurdu.org

sevincə cəmləyəndə, bir vaxtlar dostum Dersinin danışdığı sadə bir ideya yadıma düşür. O deyirdi ki, dünyadakı bütün qəm və əzabın səbəbkan bədbəxt insanlardır.

Yalnız Hitler və Stalin kimi şəxsləri günahlandırmaq olmaz.

Hər bir fərd rol oynayır. Hətta öz həyatımda da bədbəxtliyimin ətrafımdakılara necə əzab, fəlakət, ya da ən azı narahatlıq gətirdiyini dəqiq görə bilirəm. Deməli, məmnunluq axtarışı təkcə fərdin özünü qoruyan, xeyir verən bir akt deyil, eyni zamanda dünyaya veriləcək qiymətli bir hədiyyədir. Əzablardan xilas olmaq səni yolun kənarına çəkir. Həm özünə, həm də başqalarına mane olmağı dayandırasan. Ancaq bundan sonra başqalarına xidmət etmək və zövq almaqda azad ola bilərsən.

Hazırda ən çox zövq aldığım şəxs Ketutdur. Həqiqətən də bu günə qədər qarşılaşdığım ən xoşbəxt insanlardan biri olan qoca, tann və ilahiyyatla bağlı beynimə ilişən bütün sualları verməyimə şərait yaradır. Onun mənə öyrətdiyi gülünc dərəcədə sadə olan "qaraciyərdə gülümsəmək" meditasiyasım və dörd ruh qardaşımın mövcudluğu fikrini sevirəm. Ötən gün qoca mənə on altı müxtəlif meditasiya növü və fərqli məqsədlərə

downloaded from KitabYurdu.org

istiqamətlənən çoxlu sayda dua bildiyini dedi. Onlardan bəziləri dinclik və xoşbəxtlik, bəziləri sağlamlıq üçündür. Bəziləri isə daha da mistikdir - insanı şüurun digər səviyyələrinə
çıxartmaq üçündür. Dediyinə görə, qoca onu "yuxarı" çıxaran bir meditasiya bilir.

"Yuxan? - soruşdum. - Yuxan nə deməkdir?"

"Yeddi səviyyə yuxarı, - dedi. - Cənnətə".

Mənə olduqca tanış olan "yeddi səviyyə" fikrini eşidəndə, ondan bədəninin yoqada haqqında danışılan yeddi müqəddəs çakraya çıxıb-çıxmadığını xəbər aldım.

"Çakralar yox, - dedi. - Məkanlar. Bu meditasiya məni kainatda yeddi yerə aparır. Yuxarı və yuxan. Getdiyim sonuncu yer cənnətdir".

"Sən cənnətdə olmusan, Ketut?" - soruşdum.

Gülümsədi. "Əlbəttə ki, olmuşam, - dedi. - Cənnətə getmək asandır".

"Necə bir yerdir?"

"Gözəldir. Orada hər şey gözəldir. Bütün gözəl insanlar oradadır. Bütün dadlı yeməklər oradadır. Orada hər şey sevgidir. Cənnət sevgidir".

Sonra Ketut dedi ki, başqa bir maraqlı meditasiya da bacarır: Aşağı. Bu meditasiya onu yerin yeddi qat dərinliyinə

downloaded from KitabYurdu.org

aparır. Bu meditasiya daha təhlükəlidir. Təzə başlayanlar üçün deyil. Ancaq peşəkarlar yoxlaya bilərlər.

“Əgər birinci meditasiya yuxan - cənnətə aparırsa, onda ikinci də aşağı...?” - soruşdum.

“Cəhənnəmə apanr”, - fikrimi tamamladı.

Maraqlı idi. Hinduizmdə cənnət və cəhənnəm anlayışlarının müzakirəsinə bir o qədər də rast gəlməmişəm. Hinduistlər kainatı karma ilə izah edirlər. Karma daim dövr edən bir prosesdir. Həyatın sonunda nə cənnətə, nə də cəhənnəmə gedirsən. Sadəcə, axırıncı dəfə yarımçıq qoyduğun münasibətləri və ya səhvləri qaydasına salmaq üçün başqa bir formada yer üzünə qayıdırsan. Mükəmməliyi əldə edəndən sonra isə bu prosesdən məzun olub vakuumda əriyirsən. Karma anlayışı cənnət və cəhənnəmin ancaq burada - taleyimizdən və xarakterimizdən asılı olaraq yaxşılıq, ya da pislik yaratmaq bacarığına malik olduğumuz dünyada mövcud olduğunu bildirir.

Karma anlayışı həmişə xoşuma gəlib. Hərfi mənada yox. Yəni keçmiş həyatımda Kleopatranın barmeni olduğuma
inandığım üçün yox. Daha çox məcazi mənada xoşuma gəlir. Karma fəlsəfəsi metaforik səviyyədə mənə uyğun gəlir, çünki bir həyat ərzində belə eyni səhvi nə qədər tez-

downloaded from KitabYurdu.org

tez təkrarlamalı olduğumuz aydındır. Nəhayət, dayanıb səhvimizi düzəldənə qədər bədbəxtliyə və fəlakətə gətirib çıxaran nəticələri meydana gətirən köhnə meyillərə və məcburiyyətlərə dəfələrlə ilişib qalırıq. Karmanın (həmçinin də Qərb psixologiyasının) ən ali dərsi budur: problemləri indi həll etməyə çalış, yoxsa növbəti dəfə çətinliyə düçar olanda yenə əzab çəkəcəksən. Və əzabın bu cür təkrarlanmağı cəhənnəmdir. Sonsuz təkrarlardan çıxıb yeni bir dərketmə mərhələsinə çatmısansa, cənnəti tapacağın yerdəsən.

Ketut isə cənnət və cəhənnəmdən tamamilə başqa cür bəhs edirdi. Kainatda doğrudan da mövcud olan yerləri ziyarət etdiyini deyirdi. Ən azı mən belə başa düşürdüm.

Dəqiqləşdirmək üçün soruşdum: “Sən cəhənnəmdə də olmusan, Ketut?”

Gülümsədi. Əlbəttə ki, ora da getmişdi.

“Cəhənnəm necə bir yerdir?”

“Eynilə cənnət kimidir”, - dedi.

Təəccübləndiyimi görüb izah etməyə başladı: “Kainat bir dairədir, Liss”.

Hələ də başa düşə bilmirdim.

O dedi: “Yuxan, aşağı. Nəticədə hamısı eynidir”.

Qədim bir xristian fikri yadıma düşdü: “Yuxarı necədirsə, aşağı da o cürdür”. “Elə isə cənnət və

downloaded from KitabYurdu.org

cəhənnəm arasındakı fərqi necə ayırd etmək olar?" - soruşdum.

"Necə getdiyinə əsasən müəyyən edirsən. Cənnətə gedəndə yeddi xoşbəxt yerdən keçirsən. Cəhənnəmə düşəndə isə yeddi kədərli məkanı geridə qoyursan. Ona görə də daha yaxşı olar ki, yuxarı çıxasan, Liss", - güldü.

"Demək istəyirsən ki, cənnət və cəhənnəm - sonuncu dayanacaq arasında fərq olmadığına görə həyatımı xoşbəxt məkanlan adlayaraq da keçirə bilərəm?" - soruşdum.

"Eynidir, - dedi. - Nəticə eynidir. Ona görə də səyahətini xoşbəxt başa vursan daha yaxşı olar".

"Əgər cənnət sevgidirsə, onda cəhənnəm..."

"O da sevgidir", - dedi.

Bir müddət oturub bu məsələni dərk etməyə çalışdım. Ketut yenidən güldü və əlini mehribanlıqla dizimə şappıldatdı.

"Cavanlar üçün bunu dərk etmək həmişə çətin olur".

88

Bu səhər yenə də Vayenin məkanında idim. O, saçımın daha sürətlə uzanmağı və qalınlaşmağı üçün bir vasitə axtarırdı. Onun qalın, gur, parlaq saçları belinə çatır. Ona görə də mənim süpürgəyə oxşayan sarı, nazik saçıma görə təəssüflənir. Əlbəttə ki, bir ara həkimi kimi saçımı

downloaded from KitabYurdu.org

qalınlaşdıracaq vasitəni bilir, amma bu, o qədər də asan deyil. Əvvəlcə, bir banan ağacı tapıb şəxsən özüm kəsməliyəm. Ağacın başını kəsib atmalı və gövdə ilə kökləri (hələ də torpağın altında olan) oyaraq "üzgüçülük hovuzu kimi" böyük, dərin bir kasa halına gətirməliyəm. Sonra yağış və şeh daxil olmaması üçün bu boşluğun üstünü taxta, odun ilə örtməliyəm. Bir neçə gündən sonra qayıdanda hovuzun qidalandırıcı maddələrlə zəngin olan banan kökü mayesi ilə dolduğunu görəcəyəm və onu şüşələrə doldurub Vayenə gətirəcəyəm. Banan kökünün suyuna məbəddə mənim üçün xeyir-dua verəcək və hər gün bu şirəni başıma sürtəcək.

Bir neçə aya Vayendəki kimi qalın, parlaq, belimə qədər uzanan saçlarım olacaq.

"Keçəl də olsan, - Vayen dedi, - bu, saç gətirəcək".

Biz söhbət edəndə məktəbdən gələn Tutti döşəmədə oturub ev rəsmi çəkirdi. Son vaxtlar ən çox çəkdiyi şəkil bu idi. Özünə məxsus bir evi olmağını arzulayır. Şəkillərin arxa fonunda həmişə göyqurşağı və gülümsəyən bir ailə - ata və digər üzvlər olur.

Vayenin yanma gedəndə bütün gün bunlarla məşğul oluruq. Oturub söhbət edirik, Tutti şəkillər çəkir, Vayenlə mən isə qeybət edib bir-birimizə sataşırıq. Vayen ədəbsiz yumor hissinə malikdir. Həmişə intim münasibət barədə

downloaded from KitabYurdu.org

danışır, tək olmağıma sataşır və dükanının yanından keçən bütün kişilər barədə açıq-saçıq zarafatlar edir. Dediyinə görə, hələ də hər axşam məbədə gedib yaxşı bir kişi ilə rastlaşmağım, sevgilim olması üçün dua edir.

Bu səhər ona yenə dedim ki, - "Xeyr, Vayen, lazım deyil. Ürəyim dəfələrlə qırılıb".

"Qırılmış qəlbə məlhəm bilirəm", - dedi. Ciddi bir həkim ədası ilə Vayen sınmış qəlbi bərpa etmək üçü lazım olan altı ünsürü barmaqları ilə sadaladı: "E vitamini qəbul et, doyunca yat, çoxlu su iç, sevdiyin şəxsdən uzaq bir yerə get, meditasiya ilə məşğul ol və ürəyinə bunun alın yazm olduğunu təlqin et".

"E vitaminini çıxmaq şərtilə hamısını yerinə yetirmişəm".

"Onda artıq sağalmısan. İndi sənə yeni bir kişi lazımdır. Sənin üçün onu tapacağam, dualanmia".

"Vayen, əslinə qalsa, mən təzə bir kişi üçün dua etmirəm. Bu günlərdə ancaq rahatlıq əldə etmək üçün dua edirəm".

Vayen sanki, - "Özün bilərsən, böyük, ağ, əcaib varlıq!" - demək istəyirmiş kimi gözlərini süzdürdü və dedi: "Bunun səbəbi odur ki, yaddaşın zəifdir. İntim münasibətin nə qədər gözəl olduğunu unutmusan. Evli olanda mənim də yaddaşım yaxşı deyildi. Yolda yaraşıqlı

downloaded from KitabYurdu.org

bir kişi yanımdan keçəndə evdə ərim olduğunu yaddan çıxarırdım", - dedi.

Ürəkdən gülməyə başladı. Sonra isə sakitləşib sözünə davam etdi: "Hamının intim münasibətə ehtiyacı var, Liz".

Elə bu vaxt mayak işığı kimi gülümsəyən, əla görünüşlü bir qadın içəri girdi. Tutti ayağa qalxıb "Armenia! Armenia! Armenia!" - deyə qışqıraraq qadının qucağına qaçdı. Sonradan başa düşdüm ki, bu, müharibədə ölkəsinin adını hayqıran bir millətçinin qışqırığı deyildi,16 qadının adı belə idi. Armeniaya özümü təqdim etdim. Braziliyadan olduğunu bildirdi. Bu qadın o qədər dinamik, o qədər "braziliyalı" idi ki! O, çox gözəl, zövqlü geyinmiş, xarizmatik və zərif idi. Yaşını təxmin etmək olmurdu. İfrat dərəcədə cazibədar idi.

Armenia da Vayenin rəfiqəsi idi. Tez-tez nahar və ya müxtəlif tibbi ya da gözəllik məsləhətləri üçün bura gəlirdi. Bir saata yaxın bizimlə oturdu və qeybətcil qızlar qrupumuza daxil oldu. İşləri ilə bağlı Afrikaya və ya Tailanda qayıtmalı idi və Balidə qalmaq üçün cəmi bir həftəsi var idi. Sonradan öyrəndim ki, Armenia adlı bu qadının olduqca maraqlı bir həyatı olub. O, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığında işləyib. 1980-ci illərdə müharibənin ən qızğın vaxtında sülh elçisi kimi

downloaded from KitabYurdu.org

Salvador və Nikaraqua cəngəlliklərinə göndərilib. Vəzifəsi gözəlliyi, cazibədarlığı və ağlından istifadə etməklə, generalları və
qiyamçıları sakitləşdirib məntiqli hərəkətə sövq etmək idi (Salam, gözəl güc!). Hazırda internet vasitəsilə məhsulları sataraq dünyanın hər yerindəki yerli sənətkarları dəstəkləyən "Novika" adlı transmilli marketinq biznesini idarə edir. Yeddi və ya səkkiz dildə danışır. Romadan bəri onunkular qədər möhtəşəm ayaqqabılar görməmişdim.

Vayen hər ikimizə nəzər yetirəndən sonra, - "Liz, nəyə görə Armenia kimi cazibədar görünməyə cəhd etmirsən? Qəşəng qızsan. Üzün, bədənin, təbəssümün gözəldir. Amma həmişə əynində bu boş köynək və cins şalvar olur. Onun kimi cazibədar olmaq istəmirsən?" - soruşdu.

"Vayen, Armenia braziliyalıdır. Bu, tamamilə fərqli situasiyadır", - dedim.

"Nə mənada fərqlidir?"

"Armenia, - təzə rəfiqəmə müraciət etdim, - zəhmət olmasa, Vayenə braziliyalı qadın olmağın mənasını izah edə bilərsən?"

Armenia əvvəlcə güldü, sonra isə simasını ciddi bir mimikaya bürüyüb cavab verdi: "Mən həmişə gözəl və cazibədar

downloaded from KitabYurdu.org

görünməyə çalışmışam. Hətta hərbi zonalarda və Mərkəzi Amerikanın qaçqın düşərgələrində belə. Ən ağır faciə və böhranlarda belə bədbəxt görünüb insanlann əzabına əzab qatmağın heç bir mənası yoxdur. Bu mənim həyat fəlsəfəmdir. Ona görə də cəngəllikdə belə kosmetika və zinət əşyalarından istifadə edirəm. Həddindən artıq ekstravaqant görünmürəm. Qəşəng qızıl bilərzik, sırğalar, azca dodaq boyası və yaxşı ətir. Sadəcə, hələ də özümə dəyər verdiyimi göstərəcək qədər".

Armenia mənə Afrikada ingilis qonaq otağına uyğun gəlməyən paltarlar geyinmək üçün heç bir bəhanə lazım olmadığını bildirən Viktorian dövrünün britaniyalı səyahətçi xanımlarını xatırladır. Armenia kəpənəyə oxşayır. Vayenin mağazasında uzun müddət qala bilmir, çünki görməli olduğu işləri var. Lakin bu məni bu axşam bir qonaqlığa dəvət etməsinə mane olmur. O, Ubudda başqa bir braziliyalı mühacir tanıdığını və həmin şəxsin bu axşam gözəl bir restoranda xüsusi qonaqlıq verəcəyini deyir. Həmin şəxs donuz ətinin müxtəlif hissələri və qara paxlalardan ibarət olan "feijoada" adlı milli Braziliya yeməyini bişirəcək. Braziliya kokteylləri də olacaq.

Dünyanın hər yerindən Baliyə gələn bir çox maraqlı insanlar da olacaq. Gəlmək istəyirəmmi? Qonaqlıqdan sonra bir yerdə rəqs etməyə də gedə bilərlər. Qonaqlıqları

downloaded from KitabYurdu.org

xoşlayıb-xoşlamadığımı bilmir, amma...
Kokteyllər? Rəqs? Donuz əti?
Əlbəttə ki, gedəcəyəm!
8g
Axınncı dəfə nə vaxt bəzəndiyimi xatırlamıram, amma bu axşam gətirdiyim yeganə nazik qayışlı ziyafət geyimini çamadanımın lap altından çıxarıb geyindim. Dodaq boyası belə çəkdim. Sonuncu dəfə dodaq boyasından nə vaxt istifadə etdiyim yadımda deyil, lakin Hindistanda olmadığını dəqiq bilirəm. Qonaqlığa getmədən əvvəl Armeniaya baş çəkdim. O məni öz zinət əşyalarına bürüdü, heyranedici ətrindən vurdu və qonaqlığa yetkin qadın kimi onun lüks avtomobilində getməzdən əvvəl velosipedimi həyətində saxlamağıma icazə verdi.

Mühacirlərlə nahar olduqca maraqlı idi və sanki şəxsiyyətimin uzun müddət fəaliyyətsiz qalan aspektlərini yenidən kəşf edirdim. Hətta bir az sərxoş oldum. Aşramda dua edərək və Balidəki sevimli bağımda çayımı qurtumlayıb içərək keçirdiyim son bir neçə aylıq mənəvi təmizlikdən sonra bu diqqətəlayiq idi. Və eşqbazlıq edirdim! Əsrlərdir ki, bunu
unutmuşam. Son vaxtlarda ancaq rahib və ara həkimləri ilə vaxt keçirirdim, amma qəfildən tozlanmış ehtirasım hərəkətə keçdi. Lakin eşqbazlıq etdiyim şəxsin kim

downloaded from KitabYurdu.org

olduğunu deyə bilmərəm. Sanki eyni anda hamıya sirayət edirdim. Yanımda oturan hazırcavab köhnə avstraliyalı jurnalist məni cəlb etmişdi? (“Hamımız sərxoşuq, - o, iradını bildirdi. - Digər sərxoşlar üçün arayış yazırıq”). Bəlkə masanın aşağı tərəfində əyləşən sakit, intellektual alman? (Mənə şəxsi kitabxanasından romanlarını borc verəcəyinə söz verdi). Və ya hamımıza görkəmli ziyafət yeməyi hazırlayan yaraşıqlı braziliyalı? (Qəhvəyi, səmimi gözləri və danışıq tərzi xoşuma gəldi. Həmçinin aşpazlığı da yaxşı idi. Onunla zarafatlaşırdım. O isə özünü belə təqdim edirdi: “Mən braziliyalı kişilər üçün utanc mənbəyiyəm - rəqs etməyi, futbol oynamağı və heç bir musiqi alətində ifa etməyi bacarmıram”. Mən isə, səbəbini özüm də bilmədən belə cavab verdim: “Bəlkə də elədir, amma mənə elə gəlir ki, çox yaxşı Kazanova roluna girə bilirsiniz”. Bu sözlərdən sonra bir-birimizə bunun müzakirə edilməyə dəyər bir mövzu olduğunu bildirmək istəyirmiş kimi baxıb uzun müddət susduq.
Cəsarətli sözlərim havada ətir kimi yayıldı. O etiraz etmədi. Üzümün qızardığını hiss edib gözlərimi qaçırdım).

Feijoadaya gəldikdə isə, möhtəşəm idi. Ətirli və ədviyyatlı yemək olduqca ləzzətli idi. Bunların hamısını adi bir Bali yeməyində tapmaq elə də asan deyil. Bir neçə

downloaded from KitabYurdu.org

boşqab donuz əti yedim və qəti qərar verdim: Nə qədər ki, dünyada belə yeməklər var, heç vaxt vegetarian olmaram. Sonra isə bir gecə klubuna gedib rəqs etdik. Əlbəttə, əgər o yeri gecə klubu adlandırmaq olarsa. Daha çox çimərlik ətrafındakı kiçik komaları xatırladırdı, amma çimərlik yox idi. Balineziyalı gənclərdən ibarət reqqi musiqisi ifa edən qrup var idi və klubda hər yaşdan, millətdən olan mühacirlər, turistlər, yerli əhali, gözəl Bali qızları və yaraşıqlı oğlanları doyunca əylənirdilər. Armenia növbəti gün işləməli olduğunu bildirib gəlməkdən imtina etdi, amma yaraşıqlı, ortayaşlı braziliyalı mənə qoşuldu. O, dediyi qədər də pis rəqs etmirdi. Böyük ehtimalla, futbol da oynaya bilir. Yanımda olması, mənim üçün qapılan açması, komplimentləri və "əzizim" deyə müraciət etməsi xoşuma gəlirdi. Sonra isə fikir verdim ki, hamıya, hətta tüklü barmen kişiyə belə, - "Əzizim", - deyir. Amma yenə də diqqəti xoş idi...

Uzun müddət idi ki, bara getmirdim. İtaliyada belə getməmişdim. Devidlə bir yerdə olduğum illərdə də bir o qədər bayıra çıxmırdım. Deyəsən, axırıncı dəfə rəqs etməyə evli olanda getmişdim. İndi düşünəndə görürəm ki, evli və xoşbəxt günlərim olub. Aman Allah, üstündən sanki əsrlər ötüb. Rəqs edəndə Ubudda meditasiya

downloaded from KitabYurdu.org

sinfində tanış olduğum gənc, qəşəng italyan qız Stefani ilə rastlaşdıq. San və tünd saçlarımız havada şən dövrə vurur, biz isə rəqs edirdik. Gecəyarısını xeyli keçəndə qrup ifanı dayandırdı və insanlar bir-birinə qaynayıb qarışa bildi.

Bundan sonra İan adlı şəxslə tanış oldum. O, doğrudan da xoşuma gəldi. İlk baxışdan bəyəndim. Yaraşıqlı idi. Stinqlə Ralf Fayensin qardaşının qanşığı idi sanki. Uelsdən idi, səsi də gözəl idi. Səmimi, ağıllı suallar verirdi. Rəfiqəm Stefani ilə mənim primitiv italyan dilimə oxşar italyan dilində danışırdı. Bayaq ifa edən qrupda təbil çalırdı, bonqolarla ifa edirdi. Bunu biləndən sonra ona zarafatla Venesiyadakı bonqallerlər kimi olduğunu, amma qayıq əvəzinə zərbədən istifadə etdiyini dedim. Bundan sonra gülüşməyə və söhbətə başladıq.

Elə bu vaxt Felipe gəldi. Felipe braziliyalmın adıdır. O, hamımızı avropalı mühacirlərin səmimi, daim açıq olan, pivə və digər lazımsız içkilərin günün hər saatında verildiyi restoranına dəvət etdi. İana tərəf çevrildim. O getmək istəyirdimi? İan razılaşan kimi, mən də, - “Bəli”, - dedim. Beləliklə, bir yerdə restorana getdik, İanm yanında oturdum və bütün gecə deyib- güldük. Doğrudan da xoşuma gəlirdi. Uzun bir fasilədən sonra həqiqətən də hansısa bir kişi xoşuma gəlirdi. Məndən bir neçə yaş

downloaded from KitabYurdu.org

böyük idi. Müsbət fəaliyyətlərdən ibarət olan maraqlı ömür sürmüşdü ("The Simpsons"u xoşlayır, bütün dünyanı gəzib, vaxtilə aşramda yaşayıb, Tolstoyu tanıyır, deyəsən, hətta işləyir və s). Karyerasına Şimali İrlandiyada ingilis ordusunda mina üzrə ekspert kimi başlayıb. Minalı sahələrin detonasiyası ilə məşğul olub. Bosniyada qaçqın düşərgələri tikib və hazırda Balidə musiqi ilə məşğul olaraq istirahət edir. Bütün bunlar qulağa çox xoş gəlir...

Səhər saat 3:30-8 qədər oyaq qaldığıma və meditasiya ilə məşğul olmadığıma inana bilmirəm! Gecəyarısına qədər əynimdə ziyafət paltarı, yaraşıqlı bir kişi ilə söhbət edirdim. Həddən artıq radikal dəyişiklikdir. Gecənin yekununda tanış olmağımıza görə bir-birimizə məmnunluğumuzu etiraf etdik. Telefon nömrəm olub-olmadığını soruşdu. Dedim ki, yoxdur, amma elektron poçt ünvanım var. O dedi: "Hə, amma elektron poçt mənə bir az..." Gecənin sonunda bir-birimizi bərk-bərk qucaqlamaqdan başqa heç nə etmədik. Səmadakı tanrılara işarə edib, - "Onlar lazım biləndə yenidən görüşəcəyik", - dedi.

Şəfəqdən əvvəl yaraşıqlı braziliyalı Felipe məni evə ötürməyi təklif etdi. Arxa küçələrlə irəliləyirdik. Mənə, - "Əzizim, bütün gecəni Ubudun ən başdanxarab adamı ilə

downloaded from KitabYurdu.org

danışmağa həsr etdin”, - dedi.

Ümidlərim puç oldu.

“İan doğurdan da başdanxarabdır? - soruşdum. - İndi mənə həqiqəti danış ki, sonra əzab çəkməyim”.

“İan? - gülə-gülə soruşdu. - Yox, əzizim. İan ciddi adamdır. Yaxşı adamdır. Mən özümü nəzərdə tuturdum. Ubudun ən başdanxarabı mənəm”.

Bir müddət səssiz halda yola davam etdik.

“Elə-belə zarafat edirəm, fikir vermə”, - dedi.

Növbəti uzun sükutdan sonra soruşdu: “İan xoşuna gəldi, elə deyilmi?”

“Bilmirəm, - dedim. Əmin deyildim. Həddindən artıq çox Braziliya kokteyli içmişdim. - Çox cəlbedici, ağıllıdır. Uzun müddətdir ki, kimisə bəyənmək barədə fikirləşmirəm”.

“Balidəki bir neçə aym möhtəşəm keçəcək. Gözlə, özün görəcəksən”.

“Amma tez-tez adam arasına çıxa biləcəyimi düşünmürəm, Felipe. Cəmi bir paltarım var. Camaat həmişə eyni paltarı geyindiyimi başa düşəcək”.

“Sən gənc və gözəlsən, əzizim. Bircə paltar sənə bəs edir”.

90

Gənc və gözələm?

downloaded from KitabYurdu.org

Elə bilirdim ki, yaşlı və boşanmış qadınam.

Bu gecə birtəhər yatıram. Bu cür vaxt keçirməyə vərdiş etməmişəm. Musiqinin səsi hələ də qulaqlarımdadır. Saçlarımdan siqaret iyi gəlir, mədəm isə alkoqola görə etiraz edir. Azca mürgülədim, amma adət etdiyim kimi günəş doğana yaxın oyandım. Doyunca istirahət etməmişəm, ona görə də rahat deyiləm. Meditasiya etməyə taqətim yoxdur. Nəyə görə bu qədər təşviş içindəyəm? Gözəl bir gecə keçirmədim? Maraqlı insanlarla tanış oldum, gözəl geyindim və rəqs etdim. Bir neçə kişi ilə eşqbazlığa da fürsət tapdım.

KİŞİLƏR.

Bu söz təşvişimi artırır və vahiməyə gətirib çıxarır. Bunu necə edəcəyimi bilmirəm. Yeniyetməlik və gənclik dövrümdə hamıdan cəsur, həyasız işvəkar idim. Kişilərlə tanış olmağın, onları özümə cəlb etməyin, gizli dəvət və təhrik etməyin, heç bir
xəbərdarlıq etmədən nəticəni onların ixtiyarına verməyin nə qədər əyləncəli olduğu yadıma düşdü.

İndi isə, sadəcə, təşviş və qeyri-müəyyənlik hiss edirəm. Mənə elektron poçt ünvanını belə verməyən həmin uelsli şəxslə özümü təsəvvür etməklə gecəni davam etdirirəm. İndidən gələcəyimizi görürəm. Onun siqaret çəkmə vərdişi ucbatından edəcəyimiz

downloaded from KitabYurdu.org

mübahisələri də. Yenidən özümü bir şəxsə həsr etməyin səyahətimə, yazıçılığıma, həyatıma xələl gətirib-gətirməyəcəyini düşünürəm. Həmçinin bir az romantika pis olmazdı. Çox uzun və quru bir dövr keçib (Texaslı Riçardın mənə şəxsi həyatım barədə verdiyi məsləhət yadımdadır: "Sənin quraqlığına son verəcək şəxsə ehtiyacın var əzizim. Özünə yağış yağdıran tapmalısan"). Sonra yaraşıqlı İanın motosikleti ilə bağıma, sevgi ilə məşğul olmaq üçün yanıma gəldiyini təsəvvür edirəm. Lakin bu zərərsiz xəyal yenidən əzab çəkmək istəmədiyimi yadıma salıb dayanmağıma səbəb olur. Sonra Devid üçün darıxmağa başlayıram. Bəlkə ona zəng edim? Sonuncu dəfə yoxlamaq istəyib-istəmədiyindən əmin olum? - deyə beynimdən keçir (Sonra isə keçmiş dostum Riçardın səsi
qulağımda cingildəyir: "Çox ağıllı fikirdir, Dağsiçanı. Gecə sərxoşluqla yanaşı, avaralanmısan da?"). Devidi fikirləşəndə boşanma ərəfəsindəki çətinliklərimə keçid etməyim çox çəkmir və tezliklə (keçmişdəki kimi) keçmiş ərimi, boşanmağımızı xatırlayıb kədərlənirəm.
Bu dəftəri bağladığımızı düşünürdüm, Dağsiçanı!
Ardınca, nədənsə braziliyalı Felipeni fikirləşməyə başlayıram. Yaraşıqlıdır. Mənim gənc və gözəl olduğumu,

downloaded from KitabYurdu.org

Balidə maraqlı vaxt keçirəcəyimi deyir. O haqlıdır, elə deyilmi? Rahatlanmalı, əylənməliyəm, doğrudur? Amma bu səhər heç də xoş açılmadı.

Hər şey ona görədir ki, mən kişilərlə necə rəftar eləyəcəyimi unutmuşam...

91

“Həyat nəyə görə belədir? Sən başa düşürsən? Mən anlamıram”.

Bunları Vayen deyir.

Axşamdan qalan yorğunluğumu və narahatlığımı azaltmaq üçün onun restoranına üz tutub dadlı və faydalı multivitaminli qəlyanaltısından yedim. Braziliyalı Armenia da orda idi. Həmişəki kimi həftəsonunu spa mərkəzində keçirib evə qayıdanda yolüstü gözəllik salonuna baş çəkibmiş kimi təsir bağışlayırdı. Balaca Tutti isə adəti üzrə döşəmədə oturub ev şəkilləri çəkirdi.

Vayen yenicə öyrənmişdi ki, üç aydan sonra bu yerin icarə müqaviləsinin vaxtıdır və kirayə qalxacaq. Böyük ehtimalla, icarə haqqını ödəyə bilmədiyinə görə köçməli olacaq. Bankda cəmi əlli dollar pulu var idi və hara gedəcəyi barədə heç bir fikri yox idi. Köçdükləri təqdirdə Tuttinin məktəbi də dəyişəcək. Onlara ev lazım idi, əsl ev. Bir Bali vətəndaşı bu cür yaşaya bilməz.

“Nəyə görə adamlar həmişə əzab çəkirlər?” - Vayen

downloaded from KitabYurdu.org

soruşdu. Ağlamırdı. Sadəcə bəsit, cavabsız, ağır bir sual verirdi. “Nəyə görə eyni hadisələr dayanmadan təkrarlanır, başa çatmır, fasiləsiz davam edir?” “Bütün gün işləyirsən, amma növbəti gün də işləməyə məcbursan. Yeyirsən, səhəri gün yenidən acırsan. Aşiq olursan, sonra sevgi ölüb gedir. İnsan doğulanda əynində nə köynək, nə də saat olur. Çalışıb vuruşursan və öləndə yenə də nə köynəyin olur, nə də saatın. Əvvəlcə böyüyüb cavanlaşırsan, ardınca qocalırsan. Nə qədər çalışsan da, qocalmağın qarşısını ala bilmirsən”.

“Armenianı çıxmaq şərtilə, - deyə zarafat etdim. - Açıq- aydın görünür ki, o qocalmır”.

Vayen zarafatıma qarşılıq verib, - “Çünki Armenia braziliyalıdır”, - dedi. Hamımız gülməyə başladıq, amma bu təbəssümlərin altında kədər gizlənmişdi. Çox yaxşı bilirdik ki, əslində, Vayenin vəziyyəti heç də gülməli deyil. Faktlar göz qabağında idi: Tənha ana, çoxbilmiş uşaq, birtəhər dolanmaq, getdikcə yaxınlaşan səfalət, tezliklə evsiz qalmaq təhlükəsi.

Hara gedə bilərdi? Aydın məsələdir ki, keçmiş ərinin ailəsi ilə

yaşaya bilməz. Vayenin ailəsi isə kənddə yaşayan kasıb fermerdir. Onların yanma köçsə, şəfa verməkdən imtina etməlidir, çünki xəstələri onu tapa bilməyəcəklər.

downloaded from KitabYurdu.org

Həmçinin gələcəkdə Tuttinin “baytarlıq kolleci”nə getməyi müşkülə çevriləcək.

Vaxt keçdikcə mən daha nələrisə öyrəndim. İlk dəfə bura gələndəmətbəxdə gördüyüm iki utancaq qızı xatırlayırsınızım? Sonradan öyrəndim ki, onlar Vayenin övladlığa götürdüyü bir cüt yetim uşaq imiş. Hər ikisinin də adı Ketutdur (Kitabı mürəkkəbləşdirməmək üçün). Onlara “Böyük Ketut” və “Balaca Ketut” deyə müraciət edirik. Vayen bir neçə ay əvvəl Ketutları ac halda bazarda dilənçilik edəndə görüb. Uşaqlar Dikkensin yaratdığı obrazlara bənzəyən bir qadın tərəfindən tərk ediliblər. Böyük ehtimalla, qohumları olan bu qadın uşaqları diləndirərək bir növ biznes qurub. Valideynləri olmayan uşaqları bazarda diləndirəndən sonra hər axşam onlardan qazandıqları mənfəəti alır və əvəzində, onlara sığınmağa daxma verirdi. Vayen böyük və balaca Ketutu tapanda, neçə gün idi ki, uşaqların dilinə çörək dəymirdi. Bit, birə basmış halda
işləyirdilər. Vayen balacanın on, böyüyün isə təxminən on üç yaşı olduğunu düşünür. Amma özləri nə yaşlarını, nə də soyadlarını bilirlər (Balaca Ketut kəndlərindəki “böyük donuz”la eyni gündə doğulduğunu bilir, amma bu məlumatla onun yaşını hesablaya bilmədik). Vayen onlan evinə gətirib saxlayır. Qızı Tuttiyə göstərdiyi sevgini,

downloaded from KitabYurdu.org

qayğını bu uşaqlardan da əsirgəmir. O, üç uşaqla restoranın arxasındakı yataq otağında, eyni döşəkdə yatır.

Evindən çıxarılmaq üzrə olan tənha bir balineziyalı qadının əlavə olaraq iki yetim uşağa sahib çıxması, bu günə qədər mərhəmətin sərhədləri barədə malik olduğum təsəvvürləri darmadağın etdi.

Onlara kömək etmək istəyirəm.

Vayenlə tanış olanda keçirdiyim həyəcan və təəccüb hisslərinin səbəbi bu idi. Qızı və yetimləri uğrunda mübarizə aparan bu anaya kömək etmək istəyirdim. Onlan daha yaxşı həyata istiqamətləndirmək istəyirdim. Lakin bunu necə edəcəyim barədə fikrim yox idi. Bu gün isə Vayen və Armenia ilə empatiya, həmçinin digər buna oxşar mövzulardan

danışanda, balaca Tuttiyə nəzər yetirdim. Qəribə bir işlə məşğul idi. Balaca, kobalt kimi mavi bir kirəmiti ovcuna alıb əlini göyə qaldıraraq dükanda fırlanır, bir növ ilahi nəğmə oxuyurdu. Bir müddət onu müşahidə edib nəticəni gözlədim. Həmin kirəmitlə bir xeyli oynadı. Onu havaya tulladı, pıçıldadı, mahnı oxudu, ardınca kibrit qutusundan düzəldilən oyuncaq maşın kimi yerdə sürüdü. Sonra sakitcə bir küncə çəkilib oturdu, gözlərini bağladı və özünə məxsus olan mistik, görünməz bir aləmə üz tutdu.

Vayendən bunların mənasını soruşdum. O dedi ki,

downloaded from KitabYurdu.org

Tutti həmin kirəmiti yolun aşağısında tikilməkdə olan otelin tikinti meydançasından götürüb. Kirəmiti tapandan bəri anasına, - "Əgər bir gün evimiz olsa, döşəməmiz belə mavi rəngdə olar", - deyir. Vayen deyir ki, Tutti saatlarla bu mavi kirəmitin üstündə oturub gözlərini yumaraq özünü mavi döşəməli evlərində xəyal edir...

Nə deyə bilərəm? Bu hekayəni eşidəndə və balaca, mavi döşəmənin üstündə oturub dərin meditasiyaya qərq olan uşağa nəzər yetirəndə, - "Bax, budur!" - deyə düşündüm.

Sonra isə icazə istəyib bu ədalətsizliyə birdəfəlik son qoymaq üçün küçəyə çıxdım.

92

Bir dəfə Vayen mənə demişdi ki, xəstələrini müalicə edəndə Tanrının sevgisinin axıb töküldüyü bir krana çevrilir və hər şeyi yaddan çıxarır. Ağıl dayanır, intuisiya yüksəlir və ilahi hisslərin daxilinə axmasına icazə verir. "Sanki bir külək əllərimdən tutur".

Bəlkə də o gün məni Vayenin məkanından çıxmağa, yenidən eşqbazlıq edib-etməməklə bağlı keçirdiyim narahatlığı təxirə salmağa vadar edən, Ubudun yerli internet kafesinə aparan, dünyanın hər yerindəki dost, tanışıma, ailəmə bu kasıb insanlar üçün maddi yardım toplamaq məqsədilə elektron məktub yazdıran qüvvə

downloaded from KitabYurdu.org

həmin külək idi.

İyul ayındakı ad günümün yaxınlaşdığını və tezliklə otuz beş yaşa qədəm qoyacağımı yazdım. Həyatda istədiyim ya da ehtiyacım olan heç bir şey olmadığını, həyatımın ən xoşbəxt günlərini yaşadığımı qeyd etdim. Onlara bildirdim ki, əgər Nyu Yorkdakı evimdə olsaydım, yəqin ki, böyük, axmaq bir qonaqlıq verərdim. Onlar da bu ziyafətə gəlmək, həmçinin mənə bahalı hədiyyələr, şərab almaq məcburiyyətində qalacaqdılar və hamı üçün bu doğum günü baha başa gələcəkdi. Ona görə də ad günümü daha ucuz və faydalı formada qeyd etmək üçün ən yaxşı yol Vayen Nuriyasi adlı bir qadına İndoneziyada uşaqlan ilə birgə qalacağı ev almağına kömək etməkdir.

Sonra isə Vayen, Tutti və yetimlərin həyatını danışdım. Yığılan pula özümdən də əlavə edəcəyimə söz verdim. Onlara izah etdim ki, dünyanın əzab və müharibələrlə dolu olduğundan, hər kəsin köməyə ehtiyac duyduğundan xəbərdaram. Amma nə edə bilərik? Balidəki bu insanlar mənim ailəmə çevriliblər və nəyin bahasına olursa olsun ailəmizin qayğısına qalmalıyıq. Elektron məktubu göndərməzdən əvvəl mən səyahətə çıxandan doqquz ay qabaq rəfiqəm Suzanın dediyi bir fikri xatırladım. Bir daha evimə qayıtmayacağımdan

downloaded from KitabYurdu.org

qorxurdu. “Səni yaxşı tanıyıram, Liz. Balidə kiməsə vurulacaqsan və bu hekayə orada ev almağınla yekunlaşacaq”, - deyirdi.

Suzan Nostradamusluq etməyi xoşlayır.

Ertəsi səhər elektron poçtumu yoxlayanda gördüm ki, indidən 700 dollar məbləğ bağışlanıb. Növbəti gün ianələr gözlədiyimdən də artıq oldu.

Həftənin bütün faciələrini danışmayacağam ya da hər gün elektron poçtumu yoxlayanda dünyanın hər yerindən gələn, - “Mən də varam!” - deyən məktubları görüb hansı hissləri keçirdiyimi uzun uzadı təsvir etməyəcəyəm. Hamı kömək etdi. Müflis vəziyyətdə və ya borcu olan şəxslər də tərəddüdsüz dəstək oldular. İlk cavablardan biri saç ustamın sevgilisinin rəfiqəsindən idi. Məktubumu öz tanışlarına da göndərdi, üstəlik 15 dollar ianə verdi. Çoxbilmiş dostum Con, əlbəttə ki, istehza etdi. Məktubun uzun, yorucu və emosional olması ilə məzələndi (Qulaq as, növbəti dəfə dağılmış südə görə ağlayanda südün qablaşdırılmış olduğundan əmin ol, yaxşı?). Amma buna baxmayaraq, o da köməyini əsirgəmədi. Rəfiqəm Enninin yeni sevgilisi (Şəxsən tanımadığım bir Uol Strit bankiridir) yığılan pulu iki qata çıxartmağı təklif etdi. Sonra bu məktub dünyanı gəzdi və tanımadığım adamlardan da ianələr gəlməyə başladı. Hadisə qlobal

downloaded from KitabYurdu.org

alicənablığa çevrildi. Dostlarım, ailəm və tanımadığım insanlara ünvanladığım bu xahişdən cəmi bir həftə sonra Vayen Nuriyasinin ev almağına kömək etmək üçün 18.000 dollar ianə toplandığını deyərək bu fəsli bağlayıram.

Mavi kirəmitin eynilə "Cekin sehrli paxlaları" kimi böyüyərək anası və yetimlərlə bir yerdə sonsuza qədər yaşayacaqları bir evə çevrilməsi üçün etdiyi dualaların sayəsində Tutti bu möcüzəyə nail oldu.

Son bir qeyd. Utanaraq boynuma alıram ki, "Tutti" sözünün italyan dilindən tərcümədə "hər kəs" olduğuna diqqət yetirən mən yox, dostum Bob oldu. Buna indiyədək necə fikir verməmişəm? Üstəlik Romada o qədər müddət qalandan sonra! Sadəcə, əlaqəni görə bilməmişdim. Yutadakı Bob fikrimi bu istiqamətə yönəltdi. Keçən həftə göndərdiyi elektron məktubda ev üçün kömək etmək istədiyini deyir, həmçinin əlavə edirdi: "Bu, sonuncu dərsdir, elə deyilmi? Özünə kömək üçün dünyaya addım atanda, labüd bir halda Tuttiyə kömək edirsən".

93

Lazım olan pulu yığıb qurtarana qədər Vayenə bu haqda danışmaq fikrim yoxdur. Belə böyük bir sirri saxlamaq çətindir, xüsusilə də o, gələcək barədə bu qədər təşvişdə

downloaded from KitabYurdu.org

ikən. Lakin iş rəsmiləşənə qədər onu ümidləndirmək istəmirəm. Ona görə də bütün həftə planlarım haqqında bir kəlmə də demədim. Demək olar ki, hər axşam cəmi bircə dənə gözəl geyimim olmağına əhəmiyyət verməyən braziliyalı Felipe ilə şam yeməyinə getməklə başımı qatıram.

Deyəsən, ona vuruluram. Bir neçə dəfə görüşəndən sonra buna əmin oldum. O, göründüyündən də artıqdır. Özünü "başdanxarab" adlandıran bu şəxs Ubudda hamını tanıyır və daim diqqət mərkəzindədir. Armeniadan onun barəsində soruşdum. Yenicə dost olmuşdular. "Felipe başqalarından daha dərin adamdır, elə deyilmi? Onda maraqlı, qeyri-adi bir şey var", - dedim. "Bəli, o, mehriban, yaxşı adamdır. Amma çox
çətin bir boşanmanı təzəcə geridə qoyub. Məncə, Baliyə də bir müddət dincəlib özünə gəlmək üçün üz tutub".

Bax, bu barədə heç nə bilmirdim!

Lakin Felipenin əlli iki yaşı var. Bu, maraqlıdır. Doğrudan da əlli iki yaşlı bir adama vurulacaq yaşa çatmışam? Buna baxmayaraq o xoşuma gəlir. Saçları azca ağarıb və Pikassosayağı keçəlləşməyə doğru gedir. Gözləri isti və qəhvəyidir. Zərif siması və füsunkar ətri var. O, əsl yetkin kişidir. Öz növünün yetkin erkəyi - mənim təcrübəmə görə bir yenilikdir.

downloaded from KitabYurdu.org

Beş ilə yaxındır ki, Balidə yaşayır. Braziliyadan gətirilən qiymətli daşlann Amerikaya ixrac edilmədən əvvəl cavahirata çevirən balineziyalı gümüş ustaları ilə işləyir. Bir çox obyektiv və subyektiv səbəblərə görə nikahı başa çatana qədər həyat yoldaşına sadiq olduğunu eşitmək xoşuma gəldi. Uşaqlarını böyüdüb boya-başa çatdırmağı, onlara yaxşı tərbiyə verməyi və övladları tərəfindən sevilməyi məni sevindirir. Avstraliyalı həyat yoldaşı karyera ardınca qaçanda evdə oturub uşaqların qayğısına qaldığını öyrənmək məndə xoş hisslər yaradır (Yaxşı
bir feminist ər kimi, - "onun doğru tərəfində olmaq istədim", - deyir). Braziliyalı təbiətinə uyğun olaraq sevgisini bütü gücü ilə göstərmək cəhdlərini bəyənirəm (Avstraliyalı oğlu on dörd yaşma qədəm qoyanda, - "Ata, artıq on dörd yaşım var. Məncə, daha məni məktəbə aparanda dodaqlarımdan öpməsən daha yaxşı olar", - deməyə məcbur olub). Felipenin dörd, ya da beş dildə səlis danışmağı mənə zövq verir (İndoneziya dilində danışa bilmədiyini iddia edir, amma bütün gün danışdığını görürəm). İndiyə qədər əllidən artıq ölkəni gəzib və dünyanın balaca, asan idarə edilə bilən bir yer olduğunu düşünməsini bəyənirəm. Mənə qulaq asmağı xoşuma gəlir. Qabağa əyilir, sadəcə, onu bezdirib-

downloaded from KitabYurdu.org

bezdirmədiyimi soruşmaq üçün fasilə verəndə, - “Sənin üçün bütün ömrümü verərəm, balacam, əzizim”, - deyir və bunu eşitməkdən həzz alıram. Mənə “balacam, əzizim” deyilməyini sevirəm (Baxmayaraq ki, ofisiant qıza da belə edir).

Bir axşam mənə sual verdi ki, - “Nəyə görə Balidə özünə bir sevgili tapmırsan, Liz?”

Dediyinə görə, özünü nəzərdə tutmurdu, amma mənə elə gəlir ki, həvəslə bu işin öhdəsindən gələrdi. Uelsdən olan yaraşıqlı İanla uyğun olduğumuza məni inandırmağa çalışırdı, amma o, yeganə namizəd deyildi. Həmçinin Nyu Yorkdan gələn “iri və əzələli bədəni olan, özünəinamlı bir aşpaz”dan da bəhs edirdi. Ubudda hər tip adama rast gəlmək olduğunu deyirdi. Planetin “evsiz, eşiksizləri”ni birləşdirən bu cəmiyyətdə hər yerdən gəlib sığman mühacirlər var idi. Çoxlarının mənimlə maraqlanacağına əmin idi: “Əzizim, burada möhtəşəm bir yay keçirə bilərsən”.

“Buna hazır olduğumdan əmin deyiləm, - dedim. - Bilirsən, bütün gücümü yenidən romantikaya sərf etmək istəmirəm. Hər gün ayaqlarımı təmizləmək, ya da bədənimi yeni bir sevgiliyə göstərmək istəmirəm. Təzədən kiməsə həyatımı danışmaq və ya hamiləlikdən qorunmaq istəmirəm. Əslinə qalsa, bunu necə edəcəyimi

downloaded from KitabYurdu.org

də artıq unutmuşam. On altı yaşım olanda intim münasibət və romantika barədə indikindən daha çox özünəinamlı idim”.

“Əlbəttə ki, elə idin, - Felipe dedi. - Onda cavan və axmaq idin. Sadəcə, gənc və başdanxarab insanlar intim münasibət və romantika mövzusunda özlərinə əmin olurlar. Elə bilirsən ki, hamı nə etdiyini bilir? İnsanların bir-birini asanlıqla sevə bildiyini zənn edirsən? Balidə bunun necə baş verdiyini görməlisən. Həyatları məhv olan qərblilər bütün bunların günahkan kimi qərbli qadınları görürlər, sonra da bura gəlib balaca, itaətkar bir yeniyetmə bir balineziyalı qızla evlənirlər. Nə fikirləşdiklərini bilirəm. Bu balaca, şirin qızın onları xoşbəxt edəcəyini, həyatlarını asanlaşdıracağını düşünürlər. Hər dəfə bunu görəndə onlara eyni şeyi demək istəyirəm: Uğurlar! Çünki qarşındakı yenə də bir qadındır, dostum. Sən də hələ kişisən. Yenə də iki insan ortaq məxrəcə gəlməyə çalışacaq və vəziyyət mürəkkəbləşəcək. Sevgi həmişə qəliz olur. Lakin buna baxmayaraq insanlar bir-birini sevəməyə çalışmalıdır, əzizim. Hərdən qəlbimiz də qırılmalıdır. Bu, yaxşı əlamətdir. Ən azından nəyəsə cəhd etdiyimizi sübut edir”.

“Axırıncı dəfə ürəyim elə pis qırıldı ki, hələ də ağırıyır. Bu normaldır? Sevgi hekayəsinin başa

downloaded from KitabYurdu.org

çatmasının üstündən iki il
keçməsinə baxmayaraq hələ də sınıq bir ürəklə yaşamaq”, - deyə sual verdim.

“Həyatım, mən cənubi braziliyalıyam. Hətta heç vaxt öpmədiyim qadına görə on il əzab da çəkə bilərəm”.

Evlənməyimiz, boşanmağımız barədə danışırıq. Söhbəti bayağılaşdırmadan bir-birimizin dərdinə şərik oluruq. Boşanmanın ardınca gələn depressiyanın dibi görünməyən dərinliyi barədə təəssüratlarımızı bölüşürük. Bir yerdə dadlı yeməklər yeyir, şərab içirik və itkilərimiz barədəki söhbəti yüngülləşdirmək üçün keçmiş həyat yoldaşlanmızla bağlı ən xoş xatirələrimizdən bəhs edirik.

“Bu həftəsonunu mənimlə keçirmək istəyirsən?” - soruşur. “Bəli, pis olmaz” - deyirəm, çünki doğrudan da maraqlı olacaq.

İkinci dəfə Felipe məni evimin qabağında düşürüb sağollaşanda, maşından düşüb mənə şirin yuxular öpüşü vermək üçün yaxınlaşdı və mən ikinci dəfə eyni şeyi etdim. Mənə yaxınlaşmasına icazə verdim, sonra isə başımı aşağı əyib sinəsinə qoydum. Bir müddət beləcə dayandıq. Dost kimi qucaqlaşmadığımızı sübut edəcək qədər uzun müddət. Üzüm
onun sinəsinə toxunanda, onun da yanağının hərarətini saçlarımda hiss edirdim. Yumşaq kətan köynəyinin ətrini

downloaded from KitabYurdu.org

duyurdum. Onun ətrini çox sevirəm. Əzələli qollan və geniş sinəsi var. Keçmişdə Braziliyada gimnastika üzrə çempion olub. Bu, 1969-cu ildə, yəni mən anadan olanda baş verib, lakin bədəni hələ də güclü görünür.

Hər dəfə mənə yaxınlaşanda bu cür başımı əyməyim bir növ gizlənməkdir. Adi bir öpüşdən qaçıram. Həmçinin də gizlənməməkdir. Gecənin sonunda dəqiqələrlə mənə toxunmağına icazə verərək, ona təslim oluram.

Çoxdandır ki, bu hisslər mənə yadlaşmışdı...

94

Qoca Ketutdan soruşdum: "Romantika barədə nə düşünürsən?" "Romantika nə deməkdir?"

"Yaxşı, unut getsin".

"Yox, başa sal, bu nə sözdür? Nə deməkdir?"

"Romantika, - deyə izah etməyə başladım: "qadın və kişinin bir-birinə olan sevgisidir. Bəzən qadınlar qadınlara, ya da kişilər öz həmcinslərinə vururlar. Onlar öpüşürlər, intim münasibətdə olurlar, evlənirlər və sair".

"Həyatımda elə də çox qadınla intim münasibətdə olmamışam, Liss. Ancaq arvadımla".

"Haqlısan, bu, elə də çox deyil. Bəs hansı arvadını nəzərdə tutursan? Birincini, yoxsa ikincini?"

"Mənim, sadəcə, bir arvadım var, Liss. O artıq ölüb".

"Bəs Nyomo?"

downloaded from KitabYurdu.org

“Nyomo mənim əsl arvadım deyil, Liss. Qardaşımın arvadıdır”.

Üzümdəki təəccüblü ifadəni görərək izah etməyə başladı: “Balidə belədir”. Ketutun fermer qardaşı ilə arvadı Nyomo qonşuluqda yaşayırdılar. Üç uşaqları var idi. Ketutla həyat yoldaşının isə uşaqları olmurdu. Ona görə də varisləri olsun deyə, qardaşı uşaqlarından birini övladlığa götürürlər. Ketutun arvadı öləndən sonra Nyomo hər iki evdə yaşamağa başlayıb. Hər iki evi idarə edir, qaydaya salır, həm əri, həm də onun qardaşının qayğısına qalır. Uşaqlarının hər iki ailəsinə də baxır. Bali adət-ənənəsinə əsasən, Ketutun arvadıdır (Yemək bişirir, evi təmizləyir, dini mərasimlərdə əlindən gələni edirdi), amma intim münasibətdə olmurlar.

“Nəyə görə?” - soruşdum.

“Mən çox qocayam!” - dedi. Sonra sualı cavablandırmağı üçün Nyomonu çağırdı və ona amerikalı xanımın nəyə görə intim münasibətdə olmadıqlan ilə maraqlandığını bildirdi. Nyomo bunu eşidəndə, az qaldı ki, gülməkdən ürəyi getsin. Qolumu bərkdən sıxdı.

“Mənim bir arvadım olub, - deyə Ketut davam etdi. - O da artıq ölüb”.

“Onun üçün darıxırsan?”

Kədərli bir təbəssüm. “Onun ölmək vaxtı idi. Onu

downloaded from KitabYurdu.org

necə tapdığımı danışım. İyirmi yeddi yaşım olanda bir qızla tanış oldum və vuruldum”.

“Bu, neçənci ildə olub?” - hələ də ümidsiz halda yaşını hesablamağa çalışırdım.

“Bilmirəm. Bəlkə də 1920”, - dedi.

(Bu rəqəm hazırda yüz iyirmi yaşı olduğunu göstərir. Deyəsən, yavaş-yavaş bu məsələnin həllinə yaxınlaşırıq).

“Ona vuruldum, Liss. Çox gözəl idi. Amma o qızın xarakteri yaxşı deyildi. Ancaq pul haqqında düşünürdü. Başqa oğlandan xoşu gəlirdi. Yalan danışırdı. Mənə elə gəlir ki, zehninin içində heç kimin xəbərdar olmadığı gizli bir beyni də var idi. Məni qoyub o biri oğlanın yanma getdi. Qəlbim qırıldı, kədərləndim. Dayanmadan dörd qardaşıma dua etməyə başladım. Nəyə görə onun artıq məni sevmədiyini bilmək istəyirdim. Sonra ruh qardaşlarımdan biri həqiqəti mənə dedi: “Bu sənin ruh əkizin deyil. Səbirli ol”. Mən də səbirlə gözlədim və arvadımı tapdım. Gözəl, yaxşı qadın idi. Mənimlə mehriban
rəftar edirdi. Heç vaxt mübahisə etmir, evdə səliqə-sahman yaradır, daim gülümsəyirdi. Heç pulumuz olmayanda da, gülümsəyir və mənimlə xoşbəxt olduğunu deyirdi. O öləndə çox kədərləndim”.

“Ağladın?”

downloaded from KitabYurdu.org

“Gözlərimlə çox az. Meditasiya ilə məşğul oldum və bədənimi əzabdan azad etdim. Kədərli olsam da xoşbəxt idim. Hər dəfə meditasiyada onunla görüşdüm, hətta öpdüm də. O, intim münasibətdə olduğum yeganə qadındır. Ona görə də bayaq dediyin o sözün mənasını bilmirəm. Necə idi o söz?”

“Romantika?”

“Bəli, romantika. Mən bilmirəm romantika nədir, Liss”.

“Deməli, bu sahədə təcrübən yoxdur?”

“Təcrübə nədir ki? Bəs o söz nə deməkdir?”

95

Nəhayət, Vayenlə oturub ev üçün yığılan pul barədə danışdım. Ona ad günü arzumu izah etdim, dostlarımın siyahısını göstərdim və yığılan ianənin miqdarını dedim: on səkkiz min ABŞ dolları. Əvvəlcə o qədər təəccübləndi ki, üzü dərd maskasına çevrildi. Qəribə də olsa həqiqətdir ki, bəzən kəskin emosiyalar eşitdiyimiz gözlənilməz xəbərlərə qarşı məntiqin əksinə reaksiya verməyimizi diktə edirlər. İnsan duyğularının mütləq dəyəri budur - yaxşı xəbərlər Rixter şkalasma əsasən, travma kimi qeydə alına bilər. Hərdən dəhşətli dərdlər bizi güldürə bilər. Vayen üçün verdiyim xəbəri mənimsəmək asan deyildi. Demək olar ki, bunu pis bir hadisə kimi qəbul edirdi. Ona

downloaded from KitabYurdu.org

görə də bir neçə saat yanında oturub tamamilə aydın başa düşənə qədər hekayəni bir neçə dəfə danışdım, rəqəmləri təkrar-təkrar göstərdim.

Başa düşəndən sonra verdiyi reaksiya isə belə idi: (Özünə məxsus bir bağı olacağını dərk edəndə göz yaşlanna
boğulmasını çıxmaq şərtilə) “Liz, xahiş edirəm pul göndərən hamıya de ki, bu təkcə Vayenin yox, ona kömək edən hər kəsin evidir. Onlardan Baliyə gələn olsa qətiyyən oteldə qalmasınlar, oldu? Onlara de ki, mənim evimə gəlib qalsınlar. Söz verirsən ki, belə deyəcəksən? Bu evi qrup ev, ya da hamının evi hesab edək”.

Sonra bağ haqqında düşünüb ağlamağa başladı.

Yavaş-yavaş xoş xəbəri dərk edirdi. Sanki kimsə onu silkələyirdi və duyğuları ətrafa saçılırdı. Əgər evi olsa, bütün tibbi kitablarını yığacağı kitabxanası da olar! Və dərmanları üçün aptek! Və normal masaları olan restoran! (Boşanma ilə bağlı tutduğu vəkilin pulunu ödəyə bilmək üçün təzə stol- stulunu satmışdı). Əgər evi olsa, onun gördüyü xidmətləri qeyd etmək istəyən, amma daimi ünvanı olmadığına görə çap edə bilməyən bir “Lovely planef’də yer ala bilərdi. Tuttiyə də ad günündə qonaqlıq vermək olardı!

Qəfildən xəyallardan ayıldı və ciddi tərzdə: “Sənə

downloaded from KitabYurdu.org

necə təşəkkür edə bilərəm, Liz? Nə istəsən verərəm. Sevdiyim bir
ərim olsa idi və sən də bir kişi istəsəydin, onu belə sənə verərdim", - deyir.

"Ərin özünə qalsın, Vayen. Sadəcə, Tuttinin universitetdə təhsil almağı üçün əlindən gələni əsirgəmə".

"Sən bura heç vaxt gəlməsəydin, mən nə edərdim?"

Lakin mən bura həmişə gəlirdim. Sevdiyim sufi şeirlərindən birini xatırladım: İndicə dayandığın yerdə, qumun üzərində tanrının dairə çəkdiyini deyirdi. Bura heç vaxt gəlməmək ehtimalım yox idi. Bu, heç vaxt ola bilməzdi.

"Təzə evi harada tikəcəksən, Vayen?"

Gözünü vitrindəki əlcəklərə dikmiş balaca bir beyzbol həvəskarı, ya da on üç yaşından bəri gəlin paltarını beynində dizayn edən romantik bir qız kimi, Vayen də almaq istədiyi torpaq sahəsinin yerini çoxdan bilirdi. Yaxınlıqdakı bir kəndin mərkəzində idi. Bələdiyyənin su və elektrik şəbəkəsinə qoşulmuşdu. Həmin ərazidə Tuttinin gedə biləcəyi bir məktəb də var idi. Xəstələrinin və müştərilərinin asanlıqla piyada gələ biləcəyi, mərkəzi ərazidə idi. Ev tikməyə qardaşlarının kömək
edə biləcəklərini dedi. Yataq otağı üçün divar rəngi artıq seçmişdi.

downloaded from KitabYurdu.org

Bir yerdə maliyyə və daşınmaz əmlak üzrə məsləhətçi olan fransız bir mühacirin yanma üz tutduq. Bizə pulu köçürməyi təklif edəcək qədər mehriban idi. Pulu öz bank hesabımdan Vayeninkinə köçürməyin ən asan yol olduğunu bildirdi. İndoneziyada mülkiyyət əldə etmək üçün tər tökməkdənsə, Vayenin özünün torpağı almasını daha məqsədəuyğun hesab edirdi. Bir dəfəyə on min dollardan böyük məbləğ köçürmədiyim təqdirdə, Vergilər Nazirliyi və Mərkəzi Kəşfiyyat İdarəsi narkotik maddə satışı ilə məşğul olmağımdan şübhələnməzdi. Sonra Vayenin balaca bankına getdik, menecerlə pulu banka necə köçürməli olduğumuzu müzakirə etdik. O, yekunda, - "Bəli, Vayen, köçürmə prosesi başa çatandan sonra bank hesabında yüz səksən milyon rupi olacaq", - dedi.

Vayenlə mən bir-birimizə baxdıq və yersiz bir qəhqəhə başladı. Necə böyük məbləğdir! Bank ofisində olduğumuzu xatırlayıb özümüzü ələ almağa çalışdıq, amma gülməyimizi
saxlaya bilmirdik. Oradan çıxanda yıxılmamaq üçün sərxoş kimi bir-birimizdən yapışdıq və gülməyə davam etdik.

"Heç vaxt bu qədər sürətlə baş verən bir möcüzə görməmişdim. Tannya yalvanrdım ki, Vayenə kömək etsin. Tanrı da Vayenə kömək üçün Lizə yalvarırmış", -

downloaded from KitabYurdu.org

dedi.

“Liz də dostlarına yalvardı ki, Vayenə kömək etsinlər”, - deyə əlavə etdim.

Biz dükana qayıdanda Tutti məktəbdən təzəcə gəlmişdi. Vayen dizlərinin üstünə çöküb balaca qızın çiynindən tutdu və silkələyə-silkələyə, - “Ev! Ev! Evimiz var!” - dedi. Tutti aktyorluq qabiliyyətini işə saldı və cizgi filmlərdəki kimi yerə uzandı.

Hamımız gülməyə başladıq. Elə bu vaxt bu səhnəyə mətbəxin arxasından tamaşa edən yetimlər gözümə sataşdılar. Üzlərində qorxuya bənzər bir ifadə var idi. Vayen və Tutti sevinclə deyib-gülürdülər. Məni isə balacalann nə fikirləşdiyi maraqlandırırdı. Nəyə görə bu qədər qorxublar? Bəlkə atılmaqdan qorxurlar? Bəlkə də birdən-birə çoxlu pul ilə qapını döydüyümə görə onların gözündə qorxulu adama çevrildim?

(Belə ağlasığmaz bir məbləği ancaq qara magiya ilə əldə etmək olardı?) Bəlkə də bu uşaqlar kimi kövrək həyatı olan insan üçün ən xırda dəyişiklik belə vahimə yaradır...

Bayrama fasilə veriləndə dəqiqləşdirmək üçün Vayendən soruşdum: “Bu xəbər balaca və böyük Ketut üçün də sevindiricidir?”

Vayen mətbəxdəki qızlara nəzər saldı və yəqin ki, onların narahat olduqlarını başa düşdü. Onlara doğru

downloaded from KitabYurdu.org

qaçıb yetimləri qucaqladı və qulaqlanna inam verən sözlər pıçıldadı. Bundan sonra rahatlığa qovuşdular. Elə bu vaxt telefon zəng çaldı və Vayen cavab vermək üçün uşaqları özündən aralamağa cəhd etdi, amma Ketutlarm anq qolları qeyri-rəsmi analarından bərk-bərk yapışmışdı. Başlarını onun qarnına, qoltuqaltına sıxıb, onlardan gözləmədiyim hərarətlə uzun müddət Vayenə getməyə icazə vermədilər.

Ona görə də onun yerinə telefona mən cavab verdim.

“Ənənəvi Bali ara həkimi, - dedim. - Köçmək münasibəti ilə etdiyimiz böyük endirimi qaçırmayın!”

96

Həftəsonu braziliyalı Felipe ilə iki dəfə görüşdüm. Şənbə günü onu Vayen və uşaqlarla tanış etdim. Tutti onun üçün ev şəkilləri çəkəndə Vayen mənə eyhamla göz vurdu və “Təzə sevgilindir?”

- deyə pıçıldayaraq xəbər aldı. “Yox, yox, yox”, - deyərək başımı yellədim (Yeri gəlmişkən, deyim ki, o yaraşıqlı uelsli şəxsi artıq fikirləşmirəm). Felipeni qoca Ketutla da tanış etdim. Ketut Felipenin əl falına baxdı və nə az, nə çox, düz yeddi dəfə gözlərini mənə dikib “Yaxşıdır, yaxşıdır, çox yaxşı adamdır. Pis adam deyil, Liss. Yaxşı adamdır”, - dedi.

Bazar günü isə Felipe çimərliyə getməyi təklif etdi. İki

downloaded from KitabYurdu.org

aydır ki, Balidə olmağıma baxmayaraq hələ də çimərliyi görmədiyimi xatırladım və bu fakt mənə gülməli göründü deyə ona razılıq verdim. Cipi ilə məni evdən götürdü və turistlərin demək olar ki, ayaq basmadığı Padanqbaydakı çimərliyə yollandıq. Mavi su, ağappaq qum və palma ağaclarının kölgələri ilə bəzənmiş bu yer bu günə qədər cənnətin gördüyüm ən uğurlu imitasiyası idi.

Bütün gün söhbət etdik və sadəcə, üzmək, mürgüləmək və kitab oxumaq üçün fasilə verdik. Hərdən də ucadan bir-birimiz üçün oxuduq. Çimərliyin yaxınlığındakı daxmada balineziyalı qadınlar bizə təzəcə tutulmuş balıqlardan bişirdilər. Biz də öz növbəmizdə, soyuq pivə və meyvələrə onlan qonaq etdik. Şərab şüşələrini bir-bir boşaldaraq, son bir neçə həftədə bir-birimizlə bölüşdüyümüz həyatımızla bağlı hekayələrin təfsilatlarını dalğalara tamaşa edə-edə danışdıq.

Çimərlikdə görəndən sonra bədənimi bəyəndiyini dedi. Braziliyalılarda mənim bədən tipim üçün xüsusi bir termin var imiş: Maqra-falsa. Mənası “saxta arıq” deməkdir. Uzaqdan baxanda incə, qamətli görünürlər, amma yaxından nəzər yetirdikdə məlum olur ki, kifayət qədər kök, yumru bədən xətlərinə sahibdirlər. Braziliyalılar bunu müsbət hesab edirlər. Tanrı onları qorusun! Dəsmallarımızın üstündə uzanıb söhbətə davam

downloaded from KitabYurdu.org

edəndə, arabir yaxınlaşıb burnuma yapışan qum dənələrini təmizləyir, üzümə sığal çəkən üsyankar saçlanmı kənara itələyirdi. Hava qaralanda yığışıb bu qədim Bali balıqçı kəndinin o qədər də yaxşı işıqlandırılmayan əsas yoluna çıxdıq.

Ulduzlann altında qol-qola girib addımladıq. Braziliyalı Felipe çox təbii və rahat şəkildə soruşdu ("Bəlkə nə isə yeyək?" - tərzində): "Səncə münasibət qurmalıyıq, Liz? Necə düşünürsən?"

Hadisələrin axan xoşuma gəldi. Heç bir akt yox idi - nə öpüş, nə də ki, buna oxşar bir hərəkətə cəhd etmirdi. Sadəcə, sual verdi. Və sual da doğru idi. Bu səyahətdən bir il əvvəl psixoloqumun dediyi bir fikri xatırladım. Ona bütün səyahətim boyu tək qalmaq istədiyimi dedim, amma narahatlıqla, - "Bəs birdən doğrudan xoşuma gələn bir adamla tanış olsam, onda necə? Onunla münasibət qurmalıyam, ya yox? Azadlığımı qorumalıyam, ya özümü romantikanın axanna buraxmalıyam?" - deyə soruşdum. Psixoloqum mehriban bir təbəssümlə, - "Bilirsən Liz, bunu ancaq belə bir vəziyyət yaranarsa, həmin şəxslə danışmalısan", - dedi.

Hər şey hazır idi - vaxt, yer, mövzu və şəxs. Okeanın kənarında qol-qola gəzəndə bu ideyanı dostca müzakirə etdik. "Böyük ehtimalla, normal şəraitdə sənlə

downloaded from KitabYurdu.org

münasibət qurardım, Felipe. Normal şərait hər nədirsə...”

İkimiz də güldük. Sonra ona tərəddüd etdiyimi bildirdim. Səbəb isə o idi ki, bədənimin və qəlbimin bu əcnəbi sevgili tərəfindən sığallanması nə qədər mənə zövq versə də, daxilimdəki bir qüvvə kəskin şəkildə bir ildir davam etdiyim bu səyahəti, sadəcə, özümə həsr etməyimi tələb edirdi. Həyatımda ciddi bir dəyişiklik baş verir və prosesin dinc başa çatmağı üçün həmin dəyişikliyin zaman və məkana ehtiyacı var. Obrazlı şəkildə desək, sobadan yenicə çıxarılan torta bənzəyirəm və üstümə krem əlavə edilmədən əvvəl soyumalıyam. Qiymətli vaxtımı özümü aldadaraq israf etmək istəmirəm. Həyatım üzərində nəzarəti yenidən itirmək istəmirəm.

Əlbəttə ki, Felipe məni başa düşdü və mənim üçün ən xeyirlisinin olmasını istədiyini bildirdi. Belə bir sual verdiyinə görə onu bağışlayacağıma ümid bəslədiyini qeyd etdi (“Əvvəl- axır bu sual verilməli idi, əzizim”). Verəcəyim qərardan asılı olmayaraq dostluğumuzun davam edəcəyinə zəmanət verdi. Çünki bir yerdə vaxt keçirmək hər ikimizə xoş idi.

“Buna baxmayaraq, - əlavə etdi, - icazə ver öz fikrimi deyim”.

“Əlbəttə, buyur”, - dedim.

“İlk olaraq, doğru başa düşdümsə, bu bir ili ilahi

downloaded from KitabYurdu.org

sədaqət və həzz arasındakı balansı axtarmağa həsr etmisən. Tannya sədaqətlə bağlı bir çox təcrübələr qazandığını görürəm, amma zövq, həzz uğranda cəhd etdiyinə əmin deyiləm".

"İtaliyada kifayət qədər makaron yemişəm, Felipe".

"Makaron, Liz? Makaron?"

"Bəli".

"İkincisi isə, zənnimcə, səni narahat edən məsələnin nə olduğunu bilirəm. Qorxursan ki, yenə də bir şəxs həyatına daxil olacaq, sonra da özü ilə hər şeyi aparıb gedəcək. Sənə belə etmərəm, əzizim. Mən də sənin kimi uzun müddətdir ki, tənhayam və sevgidə böyük itkilər vermişəm. Bir-birimizdən nə isə almağımızı istəmirəm. Sadəcə, bu günə qədər heç kimlə sənlə olduğu qədər maraqlı vaxt keçirməmişəm. Sənlə bir yerdə olmaq istəyirəm. Narahat olma, sentyabrda buranı tərk edəndə arxanca Nyu Yorka gəlməyəcəyəm. Bir neçə həftə əvvəl dediyin səbəblərə gəldikdə isə, belə düşün: Hər gün ayaqlarını təmizləyib-təmizləməməyin vecimə deyil. Onsuz da bədənin
xoşuma gəlir. Mənə bütün həyatını artıq danışmısan. Hamilə qalmaqdan qorxmağa isə ehtiyac yoxdur. Mən vazektomiya əməliyyatı olunmuşam".

"Felipe, - dedim, - bu mənə indiyə qədər edilən ən

downloaded from KitabYurdu.org

cazibədar və romantik təklifdir”.

Doğrudan da elə idi. Buna baxmayaraq, “yox” dedim.

Məni evə apardı. Maşını evimin qabağında saxladı və bir neçə şirin, duzlu, qumlu, okeanın dadı duyulan öpüş bəxş etdi. Çox gözəl idi. Əlbəttə ki, möhtəşəm idi. Amma yenə də və yenə də razılıq vermədim.

“Eybi yox, həyatım, - dedi, - amma sabah evimə, şam yeməyinə gəl. Sənə bifşteks bişirəcəyəm”.

Sonra çıxıb getdi və mən tək yatdım.

Keçmişdə kişilərlə bağlı çox cəld qərar qəbul edirdim. Həmişə çox tez və riskləri nəzərə almadan vurulurdum. Mən, sadəcə, hamıda ən yaxşını görmək qabiliyyətinə malik deyiləm. Eyni zamanda hər kəsin emosional cəhətdən ən yüksəyə çata bilmək potensialı olduğuna inanıram. Dəfələrlə bir kişiyə özünə görə deyil, güman etdiyim yüksək potensialına arxalanaraq aşiq
olmuşam və uzun müddət (Bəzən həddindən artıq uzun müddət tələb olunurdu) həmin şəxsin özünün ən yüksək pilləsinə qalxmasını gözləmişəm. Romantik münasibətlərimdə çox vaxt xoşniyyətliliyimin qurbanı olmuşam.

Olduqca gənc yaşımda və erkən ailə qurdum. Sevgi və ümid var idi, amma ailə həyatının reallıqlarını nəzərə almamışdım.

downloaded from KitabYurdu.org

Bu barədə mənə heç kim məsləhət verməmişdi. Ailəm məni müstəqil, özünü təmin edən, qərar qəbul edə bilən bir şəxs kimi böyüdüb. İyirmi dörd yaşıma qədəm qoyanda, hamı bir qayda olaraq qəbul etdi ki, özüm öz seçimlərini etmək iqtidarındayam. Əlbəttə ki, dünya həmişə belə olmayıb. Əgər Qərb partiarxatının başqa bir əsrində doğulsaydım, atam məni ərimin mülkiyyətinə təhvil verənədək onun mülkü hesab olunardım. Ancaq həyati əhəmiyyətli məsələlərdə az da olsa öz fikrimi bildirmək hüququna malik olardım. Tarixin keçmiş səhifələrində dünyaya göz açsaydım, atam böyük ehtimalla mənimlə evlənmək istəyən namizədin mənə layiq olub- olmadığını təyin etmək üçün suallardan ibarət uzun bir siyahı tərtib edərdi. Suallar yəqin ki, belə olardı: "Qızımı nə ilə təmin
edəcəksən? Cəmiyyətdəki reputasiyan nə yerdədir? Sağlamsan? Onunla harada yaşamağı düşünürsən? Borcun, ya da var- dövlətin var? Müsbət xüsusiyyətlərin nələrdir?" Həmin adamı sevdiyim faktı atamın məni onunla evləndirməsi üçün kifayət etməzdi. Müasir dövrdə isə ailə qurmağa qərar verəndə çağdaş fikirli atam heç nəyə müdaxilə etmədi. Saç düzümümü dəyişmək qərarına gələndə verdiyi məsləhətlərdən daha çox qarışmadı.

Patriarxat dövrü barədə xəyallar qurduğumu

downloaded from KitabYurdu.org

fikirləşməyin, xahiş edirəm. Amma patriarxat sistemi iflasa uğrayandan sonra yerinə heç bir müdafiə üsulu gəlməyib. Başqa dövrdə yaşasaydım, atamı maraqlandıracaq sualları heç bir namizədə verməyi düşünmədiyimi demək istəyirəm. Çox vaxt sevgim uğranda özümü bir kişiyə bəxş etmişəm. Sadəcə, sevgimin xətrinə. Və bu vaxt ərzində onun üçün əlimdən gələni əsirgəməmişəm. Doğradan da azad qadın olmaq istəyirəmsə, özüm özümü himayə etməyi bacarmalıyam. Ən yaxşısı Qloria Staynemin qadınlara məsləhət gördüyü kimi, həmişə evlənmək istədiyin kişi kimi olmağa çalışmaqdır. Bu yaxınlarda başa
düşdüm ki, nəinki özüm öz həyat yoldaşım, həmçinin atam olmalıyam. Elə buna görə də o gecə yerimə tək girməyə üstünlük verdim. Bir centlmeni sevgilim kimi qəbul etmək üçün çox tez olduğunu fikirləşdim.

Yeri gəlmişkən, saat 2:oo-da təngnəfəs halda, necə yaxa qurtaracağımı bilmədiyim bir fiziki ağrı ilə oyandım. Evimdəki çılğın pişik nədənsə kədərli halda miyoldayırdı. Ona, - “Nə hiss etdiyini çox yaxşı başa düşürəm”, - dedim. Bu aclıqdan xilas olmaq üçün bir çarə tapmalıyam. Yerimdən qalxıb gecə köynəyimlə mətbəxə getdim, bir neçə kartof soydum, duzladım və hər bir dilimi iştahayla yedim. Bədənimdən sevgi sığallarının

downloaded from KitabYurdu.org

deyil, qızarmış kartofun gətirdiyi məmnunluq hissi ilə kifayətlənməsini xahiş etdim.

Bədənim ancaq bütün dilimləri yeyib qurtarandan sonra cavab verdi: “Heç bir şərt qəbul olunmur”.

Beləcə, yenidən çarpayıma uzandım, dərindən ah çəkdim
və...

Yaxşı. İcazənizlə, “özünü təmin etmək”lə bağlı bir neçə söz demək istəyirəm. Hərdən (üzrlü hesab edin) kömək edir, amma
bəzən də o qədər şiddətli aclıq yaradır ki, özünü daha da pis hiss edirsən. İl yarım tənha qalandan və bu vaxt ərzində birnəfərlik çarpayımda ancaq öz adımı pıçıldayandan sonra bu əyləncədən yorulmuşdum. Amma bu gecə, belə narahat halda başqa nə edə bilərdim? Kartofların da köməyi dəymədi. Yenə də özümlə kifayətlənməli oldum. Həmişəki kimi zehnim ehtiraslı xatirələri nəzərdən keçirib bu işi tez başa çatdırmaq üçün bir xəyal, ya da xatirə axtarırdı. Lakin bu gecə heç nəyin köməyi olmurdu. Nə yanğınsöndürənlər, nə dəniz quldurları, nə hər dəfə istifadə etdiyim Bil Klinton səhnəsi, nə də ki, qonaq otağında cazibədar xidmətçiləri ilə birgə məni dövrəyə alan Viktorian dövrünün cənabları. Sonda özümə etiraf etdim ki, məni qane edəcək yeganə

downloaded from KitabYurdu.org

fantaziya braziliyalı dostumun çarpayıma qonaq olmasıdır...

Sonra yuxuya getdim. Səssiz, mavi səmaya, ondan da səssiz bir yataq otağında oyandım. Hələ də həssas və narahat idim. Hindistandakı aşramm əsas himni olan Qurugitanın sanskrit dilindəki 182 beytinin hamısını oxumaqla səhəri açdım. Ardınca, bir saat sümüklərimi sızıldadacaq qədər
hərəkətsiz halda onu - xoşbəxtliyimin spesifik, daimi, aydın, heç nəyə bağlı olmayan, adsız və dəyişməz mükəmməlliyini duyana qədər meditasiya ilə məşğul oldum. Bu xoşbəxtlik, həqiqətən də bu günə qədər təcrübədən keçirdiyim hər şeydən üstün idi. Bura duzlu, yağlı öpüşlər, həmçinin duzlu, yağlı kartoflar da daxil idi. Tək qalmağa qərar verdiyimə görə çox xoşbəxtəm.
97
Növbəti gecə isə Felipe evində mənə yemək bişirəndən sonra bir neçə saat onun divanında sərilib müxtəlif mövzulardan söhbət açdıq. Ardınca gözlənilmədən yaxınlaşıb məni iyləyəndən və ətrimi çox sevdiyimi deyəndən sonra yanağımı tumarlayaraq, - “Bu qədər bəsdir, əzizim. Gəl, yataq otağıma gedək”, - deyə təklif edəndə xeyli təəccübləndim.

Bəli, onun yataq otağına getdim. Otağın açıq və böyük

downloaded from KitabYurdu.org

pəncərələri gecənin qaranlığında Balinin sakit çəltik tarlalarına baxırdı. Ağcaqanadlardan qorunmaq üçün çarpayısının ətrafım əhatə etdiyi ağ tülü aralayıb məni yatağa qoydu. İllərlə uşaqlarını çimizdirdiyi bəlli olan bir şəxs kimi ustalıqla paltarlarımı əynimdən çıxarmağa kömək etdi və mənə öz qaydalarını bildirdi: Arzuladığım qədər mənə pərəstiş etməyinə icazə verməyimdən başqa bir tələbi yox idi. Bəs bu qaydalara razı idim? Divandan çarpayıya qədər olan yolda səsimi itirmişdim. Sadəcə, başımı tərpədə bildim. Deməyə söz
qalmamışdı. Uzun və ciddi rejimdə keçən bir tənhalıq mövsümünü geridə qoymuşdum. Özüm üçün nə lazımdırsa, etmişdim. Amma Felipe haqlı idi. Bu qədər bəsdir.

“Yaxşı, - deyə gülümsəyərək bildirdi, - gəl burada özümüzü nizamlayaq”. Sonra isə əngəl törədən yastıqları kənara tullayıb məni ağuşuna aldı.

Bu sözlər mənə gülməli gəldi, çünki həmin an özümü nizamlamaq üçün etdiyim bütün səylərin puç olmağa doğru gedirdi.

O gecədən sonra Felipe həmin vaxt məni necə gördüyünü danışdı. Gecənin zülmətindəki Liz işıqlı dünyada tanıdığı özünəinamlı qadına heç bənzəmirdi. Həddindən artıq gənc, eyni zamanda açıq, həyəcanlı, kəşf

downloaded from KitabYurdu.org

edildiyinə görə rahatlığa qovuşmuş və cəsur görünməkdən bezmiş bir görkəmim var idi. O dedi ki, çoxdandır mənə əl dəymədiyi açıq hiss olunurdu. Bütün bunlara ehtiyacım olduğunu gizlədə bilmirdim. Bu ehtiyacımı ifadə etməyim üçün şans verildiyinə görə duyduğum minnətdarlıq hissi ona da sirayət edirdi. Bunların hamısı
yadımda deyil, amma onun hər sözünə inanıram, çünki mənə qarşı olduqca diqqətli idi.

O gecədən danışanda ilk ağlıma gələn bizi əhatəyə almış mildən olan ağ ağcaqanad toru idi. Gözümə paraşüt kimi görünürdü. Və sanki həyatımın ən çətin dövründə uçduğum sərt, intizamlı təyyarənin çıxış qapısından həmin paraşütlə tullanaraq xilas oldum. Artıq göy üzündəki o möhkəm mexanizm köhnəlmişdi və həmin tək mühərrikli təyyarədən qurtulan paraşütün məni keçmişimlə gələcəyim arasındakı o qəribə atmosferə doğru aparmasına və sadəcə, gəmisi batan bu yaraşıqlı braziliyalı dənizçinin məskunlaşdığı balaca, yataq şəklindəki adaya enməsinə icazə verdim (O da uzun müddətdir ki, tək idi). Məni görəndə o qədər sevindi və təəccübləndi ki, ingilis dilində bildiyi bütün sözləri unutdu və hər dəfə üzümə baxanda yalnız eyni sözü təkrarlamaqla kifayətləndi: Gözəl, gözəl, gözəl, gözəl,

downloaded from KitabYurdu.org

gözəl...
98
Əlbəttə ki, heç yatmadıq. Sonra isə gülməli də olsa, getməli idim. Səhər tezdən yersiz də olsa, evimə qayıtmalı idim, çünki dostum Yudeylə görüşəcəkdim. Çoxdan planlaşdırmışdıq. Bir yerdə Bali adasında uzun bir gəzintiyə çıxmaq istəyirdik. Bir dəfə axşam mənim evimdə bu fikir oturanda ağlımıza gəlmişdi. Yudey Amerika ilə bağlı həyat yoldaşı və Manhettanı çıxmaq şərtilə, ən çox maşın sürmək üçün darıxdığını dedi. Sadəcə, bir avtomobilə əyləşib dostlarla uzun məsafələri qət etməyin, tanımadığı magistral yollarda macəra yaşamağın həsrətini çəkirdi. Bunu eşidəndə, - "Yaxşı, elə isə biz də Balidə amerikan üslubunda bir gəzintiyə çıxarıq", - dedim.

Bunun nə qədər gülünc səsləndiyini sonradan başa düşdük. Balidə amerikansayağı maşın gəzintisi qeyri-mümkündür. İlk olaraq, bura Delaverlə bir ölçüdə olan ada olduğuna görə uzun məsafə yoxdur. "Şose"lər dəhşətli vəziyyətdədirlər. Amerikadakı "ailə mikroavtobusu"nun Bali
versiyasının olduqca geniş yayılması da təhlükə yaradır. Bu, beş nəfərin birtəhər yerləşdiyi, atanın bir əli ilə sükandan yapışıb o biri ilə körpəni saxladığı

downloaded from KitabYurdu.org

motosikletdir. Burada dar saronq geyinən ana atanın arxasında əyləşir, başının üstündə də səbət daşıyır, eyni zamanda, uşaqları bərk-bərk tutur ki, böyük ehtimalla, yolun səhv tərəfində gedən və faraları olmayan bu motosikletdən yıxılmasınlar. Nadir hallarda dəbilqədən istifadə edirlər, amma nədənsə həmişə yanlannda gəzdirirlər. Təsəvvür edin ki, maksimum yüklənən bu motosiklet sürət həddini aşaraq irəliləyəndə, səyahətçilər şən halda bir-birləri ilə zarafatlaşırlar. Başa düşə bilmirəm ki, bu günə qədər Bali sakinlərini yol qəzasından necə yaxa qurtarıblar.

Yudeylə qərar verdik ki, heç nəyə baxmayaraq birhəftəlik maşın icarəyə götürək və özümüzü Amerikada azad bir gəzintiyə çıxmış kimi aparıb adanın hər künc-bucağını görək. Ötən ay bu qərara gələndə çox həyəcanlanmışdım, amma indi Felipe yataqda qollarımı, barmaqlarımın ucunu, çiyinlərimi öpüb yubanmağımı xahiş edəndə, getmək ən axırıncı istəyim idi. Amma getməliydim. Bir tərəfdən də getmək istəyirdim.

Təkcə Yudeylə bir həftə gəzmək üçün yox, həmçinin Felipe ilə keçirdiyimiz unudulmaz gecədən sonra bu yeni reallığı, romanlarda deyildiyi kimi, “yeni bir sevgilim olduğu” həqiqətini qəbul edə bilmək üçün buna ehtiyac var idi.

downloaded from KitabYurdu.org

Beləliklə, Felipe sonuncu dəfə ehtirasla qucaqlayandan sonra məni evimə apardı. Yudey kirayə götürdüyü maşınla gələnə qədər ancaq duş qəbul edib özümə gəlməyə vaxt tapa bildim. Mənə ötəri nəzər yetirəndən sonra, - "Dostum, dünən gecə evə nə vaxt qayıtdın?" - deyə soruşur.

"Dostum, gecə evə qayıtmadım", - deyirəm.

"Dostuuum!" - deyib, gülməyə başlayır. Yəqin ki, iki həftə əvvəlki söhbətimiz vaxtı ciddi tərzdə, - "Həyatım boyu bəlkə də heç vaxt intim münasibətdə olmayacağam", - deməyim yadına düşdü. "Deməli, təslim oldun, doğrudur?"

"Yudey, - deyirəm, - bu hekayəyə qulaq as. Keçən yay Amerikanı tərk etməzdən əvvəl Nyu Yorkdakı nənə-babamı ziyarət etdim. Babamın ikinci həyat yoldaşı Geyi adlı çox səmimi bir xanımdır. Səksənə yaxın yaşı var. Bir fotoalbom gətirib mənə 1930-cu illərdə, on səkkiz yaşındakı vaxtının
şəkillərini göstərdi. Bir il ərzində iki ən yaxın dostu və qəyyumu ilə Avropanı gəziblər. Albomu vərəqləyərək mənə möhtəşəm İtaliyada çəkilən şəkilləri göstərəndə növbə Venesiyadakı çox yaraşıqlı bir kişinin rəsminə gəlib çatdı. "Geyi, bu yaraşıqlı kimdir?" - deyə soruşdum. "Venesiyada qaldığımız otelin sahibinin oğludur.

downloaded from KitabYurdu.org

Sevgilim idi”. Onun sözlərini təkrarladım: “Sevgilin idi?” Və babamın həyat yoldaşının baxışlan birdən- birə hiyləgər bir görkəm aldı və Bett Devis kimi cazibədar baxışlarla, - “Kilsələrə baxmaqdan bezmişdim, Liz”, - dedi”.

Yudey mənimlə əlini toqquşdurdu və, - “Bax, belə, dostum!” - dedi.

Sürgündə olan bu dahi indoneziyalı musiqiçi ilə mən Balidəki “saxta Amerika səyahəti”nə start verdik. Arxa oturacaqda gitaralar, pivələr, yerli qidalar var idi. Felipe barədəki fikirlərin və dünyanın hansı ölkəsində səyahət etməyimdən asılı olmayaraq, gəzintinin gətirdiyi dumanlı hisslərin təsiri ilə başa çatan səfərin təfsilatlan indi ətraflı yadımda deyil. Təkcə Yudeylə çoxdandır ki, istifadə etmədiyim doğma dilimdə - amerikan dilində danışmağımızı xatırlayıram.

Əlbəttə, bu bir il ərzində kifayət qədər ingilis dilində danışmışdım, amma amerikan dili fərqlidir. Təbii ki, söhbət Yudeyin xoşladığı hiphop stilində amerikan dilindən getmir. Özümüzü MTVyə baxan yeniyetmələr kimi aparırdıq və Hobokendəki gənclər kimi bir-birimizi ələ salıb “dostum”, “qardaş”, hərdən də incəliklə “homo” deyə müraciət edirdik. Dialoqlarımızın əksəriyyətini bir-birimizin anasına ünvanlanan mehriban təhqirlər təşkil

downloaded from KitabYurdu.org

edirdi.

“Dostum, xəritəmi hara qoymusan?”

“Xəritəni hara qoyduğumu niyə gedib anandan soruşmursan?”

“Soruşardım, qardaşım, amma o çox gonbuldur”.

Və sairə.

Balinin daxilinə nüfuz etmədən maşını sahilin ətrafı ilə sürürük. Bir həftə ərzində ancaq çimərliklər, çimərliklər və çimərliklər görürük. Hərdən balaca bir qayıq icarəyə götürüb onunla da gəzirdik. Balidə müxtəlif çimərliklər var. Bir günü Kutanın Cənubi Kaliforniyanı xatırladan ağ qumlu çimərliyinə, başqa bir gün isə qərb sahilinin qara qayaların gözəlliyinə
tamaşa etməyə həsr edirdik. Sonra turistlərin heç vaxt kəşf etmədiyi o görünməz sərhədi keçib, sadəcə, serfmqistlərin ayaq basmağa cürət etdikləri (bunun üçün dəli olanlar), insan ayağı dəyməmiş şimal sahillərinə getdik. Qumların üstündə oturub təhlükəli dalğalara, okeanın mavi ziyafət paltarına, həmin paltarı yarıb keçən indoneziyalı və qərbli serfinqistlərə baxdıq. Mərcan və qayaları sığallayandan sonra növbəti dalğanı qucaqlamaq üçün qayıdan serfinqistlərə baxıb, - “Dostum, bu dəlilikdir”, - deyə qərar verdik.

Nəzərdə tutduğumuz kimi icarəyə götürdüyümüz

downloaded from KitabYurdu.org

maşında yeyib-içdik və amerikan mahnıları oxuyub tapa bildiyimiz hər yerdə pizza yeyərək, İndoneziyada olduğumuzu unutduq (Bu, Yudeyin xeyrinə idi). Hər dəfə bizi əhatə edən "Bali" üstün gələndə, buna fikir verməyib yenidən özümüzü Amerikadaymış kimi aparmağa başlayırdıq. "Bu vulkanın yanından keçmək üçün ən yaxşı yol hansıdır?" - deyə soruşdum. Yudey, - "Məncə, İ-95-dən gedək", - dedi. "Axı ordan getsək, işdən qayıdanda Bostonda tıxaca düşərik", - deyə cavab verdim. Bunlar, sadəcə, oyun idi, amma deyəsən maraqlı almırdı.

Bəzən mavi okeanın sakit hisslərini aşkar edir, bir-birimizə səhər saat ıo-dan pivə içməyə başlamağa icazə verərək, bütün günü suda keçirirdik ("Dostum, bu, dərman kimidir"). Rastlaşdığımız hamı ilə dostlaşırdıq. Yudey çimərlikdə gəzəndə qayıq düzəldən bir adam görəndə dayanıb, - "Aaa, qayıq düzəldirsən?" - deyə soruşacaq tipdə bir adamdır. Hər şeyi bilmək istəyi sayəsində, qısa bir vaxt ərzində birillik qayıq düzəldən şəxsin ailəsi ilə birgə yaşamaq dəvəti qazansaydı, təəccüblənməzdim.

Axşamlar fövqəltəbii hadisələr baş verir. Tanımadığımız bir yerdə məbəd ayinlərinə rast gəlirik və səslərin, təbillərin, qamelanmi7 sehrinə təslim oluruq.

downloaded from KitabYurdu.org

Bütün yerli əhalinin bir ad günü qonaqlığı üçün qaranlıq küçəyə yığışdığı, sahildəki balaca bir şəhərciyə gedib çıxırıq. Yudeylə mən izdihamın arasından çıxarılıb kəndin ən qəşəng qızı ilə rəqsə dəvət edilirik (Ləl-cəvahirata, büxura qərq edilmişdi və qrimi onu misirliyə bənzədirdi. Çox güman ki, 13 yaşı olardı, amma budlarını elə yumşaq, cazibədar hərəkət etdirirdi ki, yəqin ki, istədiyi hər tanrını yoldan çıxartmağa qadir idi). Ertəsi gün eyni məhəllədə
maraqlı bir ailəvi restorana rast gəlirik. Restoranın balineziyalı sahibi çox yaxşı tay aşpazı olduğunu iddia edir, lakin qətiyyən deyil. Buna baxmayaraq bütün axşamı buzlu kola içib yağlı Tayland yeməyi yeyərək, restoran sahibinin qadın kimi incə olan oğlu ilə stolüstü oyunlar oynamaqla keçiririk (Sonradan isə ağlımıza gəlir ki, bu oğlan dünənki gözəl rəqqasə ola bilər. Bali sakinləri ayinlərində transvestitlərdən məharətlə istifadə edirlər).

Əlimə telefon keçən kimi Felipeyə zəng edirəm. “Yanıma qayıtmağına nə qədər qalıb?” - deyə soruşur. “Sənə aşiq olmaqdan zövq alıram, əzizim. Bu hiss o qədər təbiidir ki, elə bil iki həftədən bir onu duyuram. Əslində isə otuz ilə yaxındır ki, bu duyğunu unutmuşdum”, - deyir.

downloaded from KitabYurdu.org

Hələ ki, orada deyiləm. Hələ ki, asanlıqla sevgiyə təslim olacaq həddə çatmamışam. Felipe vecinə almır. “Bəlkə də bu, axmaq bir Cənubi Amerika romantikasıdır, amma əzizim, istəyirəm başa düşəsən ki, sənin üçün əzab çəkməyə də hazıram. Gələcəkdə hansı əziyyətlərə düçar olmağımızdan asılı olmayaraq, sənlə bir yerdə olmağın həzzi uğrunda bunlan
qəbul edirəm. Gəl, həyatdan zövq alaq. Bu möhtəşəmdir”, - deyir.

Mən isə, - “Bilirsən, gülməli də olsa, sənlə tanış olana qədər həmişəlik tənha qalacağımı düşünürdüm. Həyatımı mənəvi axtarışıma həsr edə bilərdim”, - deyirəm.

O, - “Yaxşı fikirləş”, - deyir və növbəti dəfə yataqda bədənimlə oynamağı planlaşdırdığı birinci, ikinci, üçüncü, dördüncü və beşinci oyunları təfsilatı ilə danışmağa başlayır. Telefonu yerə qoyanda bu yeni ehtirasın təsiri ilə dizlərimin titrədiyinin, xoş təəccüb hiss keçirdiyimin fərqinə vanram.

Səfərimizin son günündə Yudeylə saatlarla bir çimərlikdə uzanırıq və həmişəki kimi Nyu Yorkdan, onun möhtəşəmliyindən, şəhərə olan vurğunluğumuzdan danışırıq. Yudey çoxdandır görmədiyi bir şəxs, qohum kimi, demək olar ki, həyat yoldaşı üçün darıxdığı qədər

downloaded from KitabYurdu.org

dərindən Nyu Yorkun həsrətini çəkir. Söhbət edə-edə Yudey dəsmallarımızın arasındakı ağ qumu silkələyir və üstündə Manhettanın xəritəsini çəkir. “Gəl şəhərlə bağlı yadımızda qalan hər yeri xəritədə göstərək”, - deyir. Barmaqlarımızla meydanları,
yolları, küçələrin kəsişməsini, şosedən adaya qədər olan nizamsızlığı, çayları, kəndi, mərkəzi parkı göstəririk. “Empayr Steyt bildinq”i göstərmək üçün nazik, qəşəng bir balıqqulağı seçirik. Başqa bir qabığı da Kraysler binası üçün istifadə edirik. Hörmət əlaməti olaraq, iki çubuq götürüb əkiz qüllələri mənsub olduqları yerə qaytarırıq.

Qum xəritəmizin üzərində bir-birimizə Nyu Yorkdakı sevimli məkanlarımızı göstəririk. Bu yer Yudeyin hazırda taxdığı eynəyi aldığı yerdir. Buradan isə ayağımdakı səndəlləri almışam. Keçmiş həyat yoldaşımla ilk dəfə burada nahar etmişik. Bu yerdə isə Yudey həyat yoldaşı ilə tanış olub. Şəhərdə ən dadlı Vyetnam yeməklərini və bublikləri burada verirlər. Ən yaxşı əriştə bu mağazada satılır (Xeyr, homo, ən dadlı əriştə burada satılır!). Əvvəllər getdiyim “cəhənnəm mətbəxi”nin sxemini çəkirəm və Yudey, - “Orada daha yaxşı bir restoran tanıyıram”, - deyir.

“Tik-tok”, “Şayen” yoxsa “Ulduz işığı”, - sual

downloaded from KitabYurdu.org

verirəm.

“Tik-tok, dostum”.

“Tik-tokda yumurta qaymağının dadma baxmı- san heç?”

O inildəyir: “Aman Allah, bilirəm...”

Bir anlıq onun Nyu York həsrətini o qədər dərindən hiss edirəm ki, özümünkü ilə səhv salıram. Onun vətən həsrəti mənə o qədər sirayət edir ki, ondan fərqli olaraq nə vaxt istəsəm Manhettana qayıtmaqda azad olduğumu unuduram. Bir müddət əkiz qüllələri göstərən çubuqlarla oynayıb onlan quma daha yaxşı bərkidir və sakit, mavi okeana baxaraq, - “Doğrudur, buralar gözəldir. Bəs səncə, Amerikanı nə vaxtsa yenidən görə biləcəyəm?” - deyir.

Nə deyə bilərəm ki?

Hər ikimiz sükuta qərq oluruq. Sonra bir saatdır sorduğu dadsız İndoneziya konfetini tüpürür və - “Dostum, bu konfet iyrəncdir. Hardan almısan?” - deyə soruşur.

“Anandan almışam, dostum, - deyə cavab verirəm, - anandan”.

99

Ubuda qayıdan kimi birbaşa Felipenin yanma gedirəm və təxminən bir ay onun yataq otağından çıxmıram. Bu mübaliğə deyil. Bu günə qədər heç vaxt kimsə məni bu

downloaded from KitabYurdu.org

qədər sevməyib, heyran olmayıb. Bu qədər böyük həzz və məqsədə doğru yönəlmiş konsentrasiyaya vərdiş etməmişəm. Bu dərəcədə soyulmaq, aşkara çıxarılmaq, oynadılmaq, əzizlənmək mənə yaddır.

İki insan arasındakı intim münasibətin müəyyən təbii qanunlan var. Yerin ağırlıq qüvvəsi kimi bu qanunları da dəyişmək mümkün deyil. Başqa bir bədənlə özünü rahat hiss edib-etməməyə sən qərar vermirsən. İnsanlann necə fikirləşməyinin, hərəkətlərinin, hətta görünüşlərinin buna dəxli yoxdur. O sirli maqnit ya döş qəfəsinin altında dəfn edilib, ya da ümumiyyətlə yoxdur. Əgər orada deyilsə (keçmişdə ürəyimi sındıran bir təcrübə sayəsində öyrəndiyim kimi), eynilə bir cərrah səhv donorun böyrəyini xəstənin bədəninə yerləşdirməyə
cəhd etməməli olduğu kimi, sən də onu mövcud olmağa məcbur edə bilməzsən. Rəfiqəm Enni bunların bircə sadə sualla nəticələndiyini deyir: “Sonsuza qədər qarnının o adamın göbəyinə toxunmağını istəyirsən, ya yox?”

Felipe ilə mənim qarın-qarına uğur hekayəmizdə genetik baxımdan tamamilə uyğun gəldiyimizi sevinclə kəşf etdik. Heç bir yerimiz bir-birimizin bədəninə allergik təsir göstərmir. Heç nə təhlükəli, çətin, imtinaya sövq edən deyil. Ehtiraslı dünyamızda hər şey bir-birini tamamlayırdı. Həmçinin tərifəlayiq idi.

downloaded from KitabYurdu.org

“Özünə bir bax, - yenidən sevgi ilə məşğul olandan sonra Felipe məni güzgünün qabağına gətirdi və NASA kosmik gəmisindən indicə çıxmış kimi görünən saçlarımı, çılpaq bədənimi göstərdi. - Necə gözəl olduğuna bax. Hər xətt bir qıvrımdır. Qum təpələrinə bənzəyirsən...”

(Doğrudan da bədənimin nə vaxtsa bu qədər rahat göründüyü, ya da özümü belə hiss etməyim yadıma gəlmir. Altıaylıq olanda mətbəxdəki əlüzyuyanda məni çimizdirəndən
sonra, anamın məni dəsmalın üstünə uzandırıb çəkdiyi şəkli çıxmaq şərtilə).

Sonra məni yenidən çarpayıya apanr və portuqal dilində, - “Vem, gostosa”, - deyir.

“Bura gəl, şirinim”.

Felipe nəvaziş göstərməyi yaxşı bacanr. Məni portuqal dilində komplimentlərin müşayiəti ilə yataq otağına aparır. Onun “balacası, şirin sevgili”si olmaqdan məzun oldum. Artıq “queridinha”sıyam (balaca, şirin sevgilim). Burada İndoneziya və ya bali dillərini öyrənməyə tənbəllik etdim, amma portuqal dili asan gəlir. Əlbəttə ki, ancaq yataq söhbətlərini öyrənirəm, amma bunun heç bir zərəri yoxdur. “Həyatım, bundan əvvəl- axır yorulacaqsan. Bu qədər çox toxunmağım, nə qədər gözəl olduğunu deməyim səni bezdirəcək”.

downloaded from KitabYurdu.org

“İstəyirsiniz, yoxlayın, cənab”.

Beləcə, günlərim onun əllərinin, yorğanının altında keçir. Ayın tarixini yaddan çıxartmaq hissini sevirəm. Tərtib etdiyim gündəlik qrafikim küləklə sovrulub getdi. Uzun müddət itkin
düşəndən sonra, nəhayət, ara həkimini ziyarət edirəm. Mən bircə kəlmə belə deməmiş Ketut həqiqəti üzümdən oxuyur.

“Balidə özünə sevgili tapmısan”, - deyir.

“Bəli, Ketut”.

“Lap yaxşı. Ehtiyatlı ol, hamilə qalma”.

“Yaxşı”.

“Yaxşı adamdır?”

“Bunu sən özün demişdin, Ketut. Onun əl falına baxdın, yaxşı adam olduğunu dedin. Özü də düz yeddi dəfə!”

“Doğrudan? Nə vaxt?”

“İyun ayında. Onu bura gətirmişdim. Məndən yaşca böyük olan bir braziliyalıdır. Onu bəyəndiyini demişdin”.

“Heç nə deməmişəm”, - deyə Ketut təkid etdi. Onu inandırmaq üçün əlimdən heç nə gəlmirdi. Hərdən Ketutun yaddaşından bəzi xatirələr silinir. Bu, altmış beşlə yüz iyirmi yaş arasında olan hər kəsin başına gələ bilər. Əslində, iti yaddaşı var, amma hərdən elə hiss

downloaded from KitabYurdu.org

edirəm ki, başqa bir kainatdan, şüurun fərqli bir mərhələsindən gəlib onu narahat edirəm (Bir neçə həftə əvvəl səbəbsiz yerə mənə dedi ki, - “Sən
yaxşı dostsan, Liz. Sadiq, sevgi dolu dostsan”. Sonra dərindən ah çəkdi, gözlərini uzağa zilləyib kədərli halda əlavə etdi: “Şerona bənzəmirsən”. Bu Şeron kimdir? Ona nə edib ki? Bu haqda soruşdum, amma cavab vermədi. Özünü elə göstərdi ki, guya kimin haqqında soruşduğumu başa düşmür. Elə bil ki, bu ədəbsiz Şeron söhbətini açan mənəm).

“Nəyə görə sevgilini mənimlə tanış etmirsən?” - deyə soruşdu.

“Tanış etmişəm, Ketut. Həqiqətən. Onu bəyəndiyini demişdin”.

“Yadımda deyil. Sevgilin imkanlıdır?”

“Xeyr, Ketut, imkanlı deyil, amma kifayət qədər pulu var”.

“Yəni imkanı orta səviyyədədir?” - Ketut təfsilatları bilmək istəyirdi.

“Kifayət qədər pulu var”.

Deyəsən, cavabım qocanı qıcıqlandırdı. “Ondan pul istəyəndə sənə verir ya yox?”

“Ketut, mən ondan pul istəmirəm. Bu günədək heç bir kişidən pul götürməmişəm”.

downloaded from KitabYurdu.org

“Hər gecə onun yanında olursan?”

“Bəli”.

“Sənin nazınla oynayır?”

“Kifayət qədər”.

“Lap yaxşı. Hələ də meditasiya ilə məşğul olursan?”

“Bəli, hər gün Felipenin çarpayısından durub divana keçirəm və orada meditasiya ilə məşğul oluram. Səssiz halda oturub bunlara görə minnətdarlığımı bildirirəm. Həmin vaxt çəltik tarlalarına gedən ördəklərin səsini eşidirəm (Felipe Balidəki ördək sürülərinin ona Rioda kütləvi halda çimərliyə gedən braziliyalı qadınları xatırlatdığını deyir. Onlar da səs- küylə, dayanmadan bir-birlərinin sözünü kəsərək boşboğazlıq edir, ayaqlarını eyni qürurla yelləyirmişlər). O qədər rahatam ki, meditasiyaya sevgilimin hazırladığı bir vanna kimi daxil oluram. Səhər günəş doğanda büründüyüm, çiyinlərimi örtən yüngül örtük mənə təqdim edilən lütfkarlıqların içində itib- batır. Bir çay qaşığının üstündə tarazlığını qorumağa çalışan balaca bir balıqqulağı kimi havadan asılıb qalıram”.

Nəyə görə həyat əvvəllər çətin görünürdü?

Günlərin bir günü Nyu Yorkdakı rəfiqəm Suzana zəng etdim. O mənə həyatında baş verən sonuncu kədərli hadisə barədə danışarkən, arxa plandakı polis

downloaded from KitabYurdu.org

sirenalannm səsini eşidirdim. Ona hadisələri öz axarına buraxmasını, həyatda hər şeyin təbii halı ilə mükəmməl olduğunu, kainatın sülh və ahənglə əhatələndiyini deyib "əzizim" - deyə müraciət edəndə səsim gecəyarı veriliş təqdim edən caz radio di-ceyi kimi yumşaq və mələhətli çıxırdı.

Onun gözlərini süzdürməsini sanki gözümlə görürdüm. Sirenalann arasından səsi eşidildi: "Bu gün dörd dəfə intim münasibətdə olmuş bir qadın kimi danışırsan".

100

Bir neçə həftədən sonra isə bütün bu əyləncə və oyunlar öz təsirini göstərdi. Yuxusuz gecələrdən və sevgiyə həsr etdiyimiz günlərdən sonra bədənim üsyan etdi və sidik kisəmdə iyrənc bir infeksiya yarandı. İntensiv intim münasibətlə məşğul olanlar üçün bu, olduqca tipik vəziyyətdir. Xüsusilə də əgər uzun müddət bununla məşğul olmayıb vərdişi yadırğamısansa, orqanizm dözə bilmir. Bütün faciələr kimi bu vəziyyət də qəfildən başıma gəldi. Bir dəfə səhər tezdən xırda təsərrüfat işlərinə görə şəhərə getdim. Gəzdiyim yerdə birdən-birə ağrı və hərarətin hücumuna məruz qaldım. Dəlisov gənclik dövründə də düçar olduğuma görə bu ağrılara yaxşı bələd idim. Bir anlıq təşvişə düşdüm. Bu, təhlükəli

downloaded from KitabYurdu.org

ola bilərdi. Sonra isə xatırladım: “Şükür ki, Balidəki ən yaxın rəfiqəm ara həkimidir” və dərhal Vayenin yanma üz tutdum.

“Xəstəyəm!” - dedim.

Mənə ötəri nəzər yetirib dedi: “Sən həddindən artıq intim münasibətdə olduğuna görə xəstələnmisən, Liz”, - dedi.

Pərt oldum və utanmış halda əllərimlə üzümü örtdüm.

O, istehza ilə güldü: “Vayendən sirr saxlaya bilməzsən”.

Dəhşətli ağn hiss edirdim. Ancaq nə vaxtsa bu infeksiyaya yoluxanlar onun ağrısının mahiyyətini tam dərk edə bilərlər. Bu ağrını sınaqdan keçirməyənlər isə, cümlənin içində “yanğın” sözünü işlətməklə öz metaforalarını yarada bilərlər.

Vayen qocaman bir yanğınsöndürən və ya təcili tibbi yardım həkimi kimi heç vaxt sürətli hərəkət etmir. Növbə ilə müəyyən bitkiləri doğrayır, köklərini qaynadır, mətbəxlə mənim aramda yol ölçməyə başlayır, isti, qəhvəyi, zəhər dadı verən içkiləri ard-arda gətirir və “İç, əzizim”, - deyir.

Hər dəfə növbəti dəstəni qaynadanda mənimlə üzbəüz oturur, hiyləgər bir baxış atır və boşboğazlıq üçün yaranan bu fürsətdən istifadə edir.

downloaded from KitabYurdu.org

“Hamilə qalmamağa diqqət edirsən, Liz?”

“Yox, Vayen, bu, mümkün deyil. Felipe vazektomiya əməliyyatı keçirib”.

“Felipenin Toskanada villası var?” - deyə soruşurmuş kimi üz ifadəsi ilə sual verdi: “Felipe vazektomiya əməliyyatı keçirib?” (Yeri gəlmişkən, bu mövzuda mən də onun kimi düşünürəm). “Balidə bir kişinin bunu etməyi çox çətin məsələdir. Qadınlar həmişə hamiləlikdən qorunmalıdırlar”.

(Son vaxtlarda İndoneziyada doğumun məhdudlaşdırılması üçün tətbiq edilən proqram sayəsində doğum əmsalları aşağı düşsə də, hökumət vazektomiya əməliyyatı keçirmək üçün könüllü müraciət edən kişilərə yeni bir motosiklet vəd edir. Buna baxmayaraq, buna razılıq verən şəxslərin əməliyyatdan dərhal sonra həmin motosikletə minib evlərinə qayıtdıqlarını təsəvvür etmək o qədər də xoşlanna gəlmir).

“İntim münasibət məzəlidir”, - Vayen bir qədər fikrə gedəndən sonra dedi. Eyni zamanda onun hazırladığı dərmanın hər qurtumunu içəndən sonra üz-gözümü necə turşutmağıma tamaşa edirdi.

“Bəli, Vayen, təşəkkürlər. Bu, çox əyləncəlidir”.

“Xeyr, intim münasibət məzəlidir, o davam etdi. - İnsanı gülməli hərəkətlərə sövq edir. Sevginin

downloaded from KitabYurdu.org

başlanğıcında hamıda belə olur. Özünü xəstələndirənə qədər daha çox xoşbəxtlik, həzz istəyirsən. Hətta Vayen üçün də sevginin başlanğıcında bu, qaçılmazdır. Müvazinətini itirir".

"Utanıram", - dedim.

"Utanma", - dedi və mükəmməl bir ingilis dili ilə əlavə etdi (kəmçinin mükəmməl balineziyalı məntiqi ilə): "Bəzən sevgi uğranda müvazinətini itirmək balanslı həyat yaşamağın bir hissəsidir".

Felipeyə zəng etməyi qərara aldım. Evdə fövqəladə vəziyyətlər üçün saxladığım antibiotiklər var idi. Əvvəllər də bu infeksiyaya yoluxduğuma görə vəziyyətimin nə dərəcədə ağırlaşa biləcəyini başa düşürdüm. Hətta böyrəklərimə də zərər verə bilərdi. Bu vəziyyətə düşmək istəmirdim, xüsusilə də İndoneziyada. Ona görə də zəng edib vəziyyəti danışdım (utandı) və mənə dərmanlarımı gətirməyini xahiş etdim. Vayenin müalicə qabiliyyətinə arxayın idim, amma bu ağrı həqiqətən də çox şiddətli idi.

"Qərb həblərinə ehtiyacın yoxdur", - Vayen dedi.

"Bəlkə kömək edər, sadəcə, təhlükəsizlik üçün..."

"İki saat gözlə, - dedi. - Əgər səni sağaltmasam, həbləri qəbul edərsən".

Könülsüz halda razılaşdım. Təcrübəmə əsasən bilirəm ki, antibiotiklərlə bu ağnnın keçməyi günlərlə davam edə

downloaded from KitabYurdu.org

bilər, amma onun inciməyini istəmirdim.

Tutti mağazada oynayırdı və mənim ovqatımı yaxşılaşdırmaq üçün ev şəkilləri çəkir, səkkizyaşlı bir uşaq incəliyi ilə əlimi sığallayırdı. “Ana, Elizabet xəstələnib?” Nə yaxşı ki, nəyin nəticəsində xəstələndiyimi bilmirdi.

“Hələ ev almamısan, Vayen?” - soruşdum.

“Hələ ki, yox. Tələsmək lazım deyil”.

“Bəyəndiyin həmin yer necə oldu? Oranı alacağını düşünürdüm”.

“Satışa çıxarılmayıbmış. Həddindən artıq bahadır”.

“Fikirləşdiyin başqa yerlər var?”

“İndi bunu fikirləşmə, Liz. Hələlik icazə ver, səni sağaldım”.

Felipe əlində dərmanlarım, üzündə isə vicdan əzabı ifadəsi ilə gəldi. Həm məndən, həm də Vayendən bu ağrılara düçar olmağımın səbəbkan kimi üzr istədi. Ən azı, o, vəziyyəti belə dəyərləndirirdi.

“Ciddi bir şey yoxdur, - Vayen dedi. - Narahat olma. Tezliklə onu sağaldacağam. Yaxşılaşacaq”.

Sonra mətbəxə getdi və yarpaqlar, köklər, giləmeyvələrlə dolu olan kasa hazırladı. İçində kurkuma, küpəgirən qarının saçlarına oxşayan bir çəngə tük və triton olduğunu güman etdiyim bir şeyi seçə bilirdim.

downloaded from KitabYurdu.org

Hamısı qəhvəyi rəngli bir suyun içində üzürdü. Kasa ağzınacan dolu idi. Meyit iyi verirdi.

“İç, əzizim, - dedi. - Hamısını iç”.

Əzabla içdim. Və iki saatdan da tez bir zamanda... Məncə hamımız hekayənin necə başa çatdığını bilirik. İki saatdan da qısa bir vaxt ərzində yaxşılaşdım, tamamilə sağaldım. Qərb həblərinin müalicəsi ilə ən tezi iki günə aradan qalxa biləcək bu infeksiya tamamilə yoxa çıxdı. Məni müalicə etdiyinə görə ona pul təklif etdim, amma o güldü: “Bacımın pul ödəməyinə
ehtiyac yoxdur”. Sonra zəhmli baxışlarla Felipeyə tərəf çevrildi: “Ona qarşı diqqətli ol. Bu gecə toxunmaq olmaz”.

“İnsanların intim münasibətlərdən yaranan xəstəliklərini müalicə edəndə utanmırsan?” - deyə soruşdum.

“Liz, mən şəfa verirəm. Qadınların uşaqlıq yolunda, həmçinin kişilərdə olan problemləri həll edirəm. Hərdən qadınlar üçün saxta fallos hazırlayıram. Özlərini təmin edə bilsinlər deyə”.

“Saxta fallos?” - deyə soruşdum. Şoka düşmüşdüm.

“Hamının braziliyalı sevgilisi yoxdur”, - mehribanlıqla bildirdi. Sonra Felipeyə baxıb şən halda əlavə etdi: “Əgər nə vaxtsa köməyə ehtiyacın olsa, sənə də dərman verə

downloaded from KitabYurdu.org

bilərəm”.

Mən Vayeni Felipenin belə bir köməyə qətiyyən ehtiyacı olmadığına inandırmağa çalışanda Felipe sözümü yanmçıq qoydu. Bu onun həmişəki xüsusiyyətidir. Vayendən hazırladığı dərmanlan şüşələrə doldurub satmağın mümkün olub- olmadığını xəbər aldı. “Bununla var-dövlət əldə edə bilərik”, - dedi. Amma Vayen izah etdi ki, mümkün deyil. Çünki düzəltdiyi dərmanlar hazırlanandan dərhal sonra istifadə
edilmədikdə öz funksiyasını itirir. Həmçinin dərmanları dualar müşayiət etməli idi. Vayen kişilərdə cinsi zəifliyi masajla müalicə etdiyini dedi. Sonra da bizim təəccüblü baxışlarımıza fikir verməyib aciz əl atdığı masaj üsullarını təsvir etdi. Onu necə tutduğunu, qan dövranını yaxşılaşdırmaq üçün bir saata yaxın silkələdiyini, həmin vaxt ərzində xüsusi dualar oxuduğunu danışdı.

“Bəs Vayen, birdən xəstə hər gün gəlib, - “Sağalmadım, yenə masaj et”, desə necə olacaq?” - deyə soruşdum. Bu ədəbsiz suala güldü, sonra isə bu müalicə üsulunda diqqətli olmağın zəruriliyini boynuna aldı. Çünki bu vəziyyət onun daxilində bəzi güclü hisslər yaradırdı və bu duyğunun onun müalicəvi enerjisinə müsbət təsir etdiyindən əmin deyildi. Və doğrudan da bəzən kişilər idarəni itirirdilər (İllərdir impotent olsan və

downloaded from KitabYurdu.org

birdən-birə qırmızı dərili, qara, uzunsaçlı bir qadın motoru yenidən işə salsa, sən də belə edərsən!). Bizə müalicə vaxtı onu arxasınca qaça-qaça "Vayeni istəyirəm! Vayeni istəyirəm!" - deyə qışqıran kişidən danışdı.

Vayenin bacanqları bununla məhdudlaşmır. Bəzən impotentlik və soyuqluq ucbatından ana-ata ola bilməyən cütlüklərə intim münasibət barədə dərs keçmək üçün çağırıldığını da dedi. Onlann yataq dəstlərinə sehrli şəkillər çəkir, bir ay ərzində intim münasibət vaxtı hansı vəziyyətlərin onlara uyğun olduğunu izah edir. Dediyinə görə, əgər cütlük oğlan uşağı istəyirsə, mümkün qədər sərt və cəld olmalıdırlar. Hətta bəzən Vayen cütlüklə bir otaqda qalıb onlara daha dəqiq izah edir.

"Doktor Vayenin müşahidəsi altında cütlük bunun öhdəsindən gələ bilir?" - deyə soruşuram.

Felipe cütlüyü müşahidə edən Vayeni yamsılayır: "Daha sürətli! Daha möhkəm! Bu körpəni istəyirsiniz, ya yox?"

Vayen deyir ki, bunun dəlilik olduğunu bilir, amma bu da şəfa verən şəxsin işinin tərkib hissəsidir. Buna baxmayaraq bu prosesdən əvvəl də, sonra da təmizlənmək üçün müəyyən mərasimləri yerinə yetirir, çünki müqəddəs ruhunun zədələnməsini istəmir. Düşdüyü

downloaded from KitabYurdu.org

situasiya gülünc gəldiyinə görə
bu işi tez-tez görməyi xoşlamır. Lakin yeni bir körpənin dünyaya gəlməsi üçün buna razılıq verir.

“Bəs bu cütlüklərin hamısının artıq övladı var?” - deyə soruşuram.

“Əlbəttə ki, var”, - o, qürurla cavab verir.

Sonra isə Vayen olduqca maraqlı bir etiraf edir. Əgər bir cütlüyün övlad sahibi olmaqda bəxti gətirmirsə, problemin kimdə olduğunu aydınlaşdırmaq üçün həm kişini, həm də qadını müayinə edir. Əgər qadmdadırsa, bu, asan məsələdir. Vayen qədim müalicə üsulları ilə bunun öhdəsindən gəlir. Lakin kişidədirsə, Bali patriarxatmda bu vəziyyət bir qədər fərqlidir. Burada Vayenin tibbi seçimləri məhduddur, çünki balineziyalı bir kişiyə sonsuz olduğunu demək təhlükəlidir. Böyük ehtimalla bu, doğru ola bilməz. Axı onlar kişidirlər! Hamiləlik baş vermirsə, bu, qadının günahıdır. Və əgər qadın tezliklə ərini uşaqla təmin etməsə, böyük çətinliklərlə üzləşir: Döyülür, təhqir olunur və ya əri onu boşayır.

“Bəs belə vəziyyətdə nə edirsən?” - Vayenin sonsuzluğa diaqnoz qoya bilməsindən təsirlənərək soruşuram.

Vayen izah etməyə başlayır. Kişi sonsuz olduğu

downloaded from KitabYurdu.org

təqdirdə ona problemin həyat yoldaşında olduğunu və müalicə üçün hər gün qadınla xüsusi olaraq görüşməyin zəruriliyini bildirir. Qadın tək gələndə Vayen kənddən cavan bir oğlan çağırır və qadın körpə ümidi ilə onunla intim münasibətdə olur.

Felipe dəhşətə gəldi: “Vayen, yox!”

Amma Vayen təmkinlə başını yırğaladı. Bəli. “Yeganə çıxış yolu budur. Əgər həyat yoldaşı sağlamdırsa, qadın uşaq dünyaya gətirəcək və hamı xoşbəxt olacaq”.

Şəhər sakinlərinə az-çox bələd olduğuna görə Felipe dərhal maraqlandı: “Bu işi kimə həvalə edirsən?”

“Sürücülərə”, - Vayen dedi.

Bu cavabdan sonra hamımız güldük, çünki Ubud sürücülərlə doludur. Hər küncdə oturub ötüb keçən turistləri “nəqliyyat, nəqliyyat”, - deyə narahat edirlər. Onları vulkanlara, çimərliklərə, məbədlərə aparmağı təklif edirlər. Qogeni xatırladan tünd dəri rəngləri, sıx, uzun saçları olan bu cavanlar kifayət qədər yaraşıqlıdırlar. Amerikada qadınlar üçün belə nəsilartırma klinikası açılsa və həmin cavanlar cəlb edilsə
yaxşı gəlir əldə etmək olar. Vayen sonsuzluq müalicəsi vaxtı ən yaxşı məsələnin həmin sürücülərin çox vaxt pul tələb etməməsi olduğunu deyir. Xüsusilə də, əgər qadın gözəldirsə. Felipe ilə mən gənclərin bu fəaliyyətinin

downloaded from KitabYurdu.org

cəmiyyət üçün olduqca faydalı olduğu ilə razılaşırıq. Doqquz aydan sonra gözəl bir körpə doğulur və hamı sevinir. Ən yaxşısı isə odur ki, boşanmağa ehtiyac qalmır. Hər birimiz boşanmağın nə qədər dəhşətli olduğunu yaxşı bilirik. Xüsusilə də Balidə.

Felipe dedi: “Aman Allah, biz kişilər necə də axmağıq”.

Lakin Vayen peşman deyil. Çünki Balidən olan bir kişiyə sonsuz olduğunu bildirmək, evinə gedib həyat yoldaşına zərər vermək riskini qəbul etmək deməkdir. Balidəki kişilər belə olmasaydılar, sonsuzluğu başqa üsullarla müalicə edərdi. Bali mədəniyyətinin reallığı belədir. Bu üsula əl atdığına görə zərrə qədər də vicdan əzabı çəkmir, çünki bunu bir növ yaradıcı yanaşma tərzi hesab edir. “Hər halda, bəzən bu cavanlarla intim münasibətdə olmaq qadınlara müsbət təsir edir. Çünki Balidəki kişilərin çoxu qadınlarla düzgün rəftar etməyi bacarmırlar”, - deyə əlavə edir.

“Kişilərin əksəriyyəti xoruz ya da keçi kimidir”.

“Bəlkə Balidə intim tərbiyə dərsi keçəsən, Vayen, - deyə təklif edirəm. - Kişilərə qadınlara necə toxunmağı öyrətməlisən. Beləliklə, qadınlar onlara daha çox bağlanarlar. Çünki əgər kişi yumşaq, zərifliklə toxunsa, sığallasa, bədənin hər yerini öpsə intim münasibət daha

downloaded from KitabYurdu.org

zövqlü olar”, - deyə məsləhət verirəm.

Qəfildən o qızardı. Vayen Nuriyasi - bayaqdan öz masaj üsullarından danışan, sidik kisəsinə keçən infeksiyanı müalicə edən qadın birdən-birə qızardı.

“Sən belə danışanda özümü qəribə hiss edirəm, - əli ilə özünü yelləyərək dedi. - Bu söhbət məndə fərqli hisslər yaradır. Hətta paltarımın altında fərqli hiss edirəm. İndi isə, evə gedin. Bu mövzuda danışmaq kifayətdir. Evə gedin, yerinizə girin, yatın, yaxşı? Ancaq yatın!”

101

Evə qayındanda Felipe soruşdu: “O, yeni ev aldı?”

“Hələ ki, yox, amma axtardığını deyir”.

“Ona pulu verməyinin üstündən bir ay keçib, elə deyilmi?”

“Bəli, amma onun almaq istədiyi yer satılmır. Təzə öyrənib”.

“Ehtiyatlı ol, əzizim, - Felipe dedi. - Bu vəziyyətin çox uzanmasına imkan vermə. Bütün Balinin diqqətini özünə cəlb etmə”.

“Bu, nə deməkdir?”

“İşinə müdaxilə etmək fikrim yoxdur, amma beş ildir ki, bu ölkədə yaşayıram və vəziyyətə yaxşı bələdəm. Burada vəziyyət mürəkkəbdir. Bəzən, həqiqətən, nə baş verdiyini başa düşmək olmur”.

downloaded from KitabYurdu.org

“Nə demək istəyirsən, Felipe?” - deyə soruşdum və dərhal cavab vermədiyini görüb ona öz sözlərindən sitat gətirdim: “Yavaş-yavaş danışsan, tez başa düşərəm”.

“Liz, demək istədiyim odur ki, dostların bu qadın üçün xeyli pul toplayıblar və hazırda bu pul Vayenin bank hesabındadır. Onu ev almağa tələsdir”.

102

İyul ayı sona yaxınlaşdı və özü ilə otuz beş yaşımı da gətirdi. Vayen mağazada mənim üçün bu vaxta qədər görmədiyim bir qonaqlıq təşkil etdi. O mənə ənənəvi Bali ad günü geyimi olan parlaq, bənövşəyi saronq, çiyinsiz paltar, demək olar ki, nəfəs almağa imkan verməyən və öz ad günü tortumun dadma baxmağıma mane olacaq qədər möhkəm sannan qızıl parça geyindirdi. Balaca, qaranlıq yataq otağında (onunla bir yerdə yaşayan üç uşağın əşyaları ilə dolu olan), əynimdə bu zərif geyimlə məni mumiyalayanda, parçanı qabırğalarımın ətrafına bərkitməyə çalışaraq, üzümə baxmadan soruşdu: “Felipe ilə evlənməyi fikirləşirsən?”

“Xeyr, - dedim. - Evlənməyi fikirləşmirik. Artıq ər istəmirəm, Vayen. Felipenin də istədiyini düşünmürəm, amma onunla bir yerdə olmaq xoşuma gəlir”.

“Xarici gözəl olanı tapmaq asan, amma həm xaricdən, həm də daxildən gözəl şəxsi tapmaq çətin məsələdir.

downloaded from KitabYurdu.org

Felipe belə bir
adamdır”.

Razılaşdım.

Gülümsədi. “Bu yaxşı adamı sənə kim gətirdi, Liz? Kim bu şəxsə görə hər gün dua etdi?”

Onu öpdüm. “Təşəkkür edirəm, Vayen. Çox yaxşı iş görmüsən”.

Qonaqlığa başladıq. Vayen və uşaqları hər yeri şarlarla, palma budaqlan ilə və üstündə əl yazısı ilə, - “Ad günün mübarək, yaxşı, şirin, əziz bacımız, sevimli xanımımız Elizabet! Ad günün mübarək! Daim sülh və xoşbəxtlik səninlə olsun!” - sözləri həkk olunmuş plakatlarla bəzədilər. Vayenin qardaşlarından birinin uşaqları məbəd mərasimlərində rəqs edirdilər. Ona görə də onlar restorana gəlib mənim üçün rəqs etdilər və adətən rahiblərə təqdim olunan möhtəşəm bir şou göstərdilər. Bütün uşaqlann ayaqlan yerə möhürlənmiş, əlləri isə zərif idi. Qızıldan olan iri baş geyimləri ilə bəzədilmişdilər və qadın kosmetikasından istifadə etmişdilər.

Balidəki qonaqlıqlann əsas prinsipi insanlann ən dəbdəbəli geyimləri ilə bir yerdə oturmasını və bir-birlərinə
tamaşa etməsini əhatə edir. Əslinə qalsa, Nyu Yorkdakı

downloaded from KitabYurdu.org

jurnal ziyafətlərini xatırladır (Vayenin mənim üçün Balisayağı ad günü təşkil etdiyini Felipeyə deyəndə o, - “Aman Allah, əzizim”, - deyə inildədi. “Bu, çox maraqsız olacaq”). Lakin maraqsız deyildi, sadəcə, səssiz idi. Və fərqli idi. Birinci hissə qəşəng geyinməyi, ikinci rəqsi, üçüncü isə oturub bir-birimizə gözümüzü zilləməyi əhatə edirdi, amma bu elə də pis deyildi. Hamı qəşəng görünürdü. Vayenin bütün ailəsi gəlmişdi. Dörd metr məsafədən gülümsəyərək mənə əl yelləyirdilər. Mən də gülümsəyib onlara eynisini edirdim. Ad günü tortumun şamlarını balaca Ketutla bir yerdə üfürdüm. Bir neçə həftə əvvəl onun ad gününün də 18 iyulda olmağına qərar vermişdim, çünki əvvəllər heç vaxt doğum günü, ya da ad günü qonaqlığı olmayıb. Şamlan üfürəndən sonra Felipe balaca Ketuta barbi gəlinciyi hədiyyə etdi. Balaca maraqla qutunu açdı və Yupiterə aparan raketə bilet təqdim olunmuş kimi heyrətləndi. Sanki gördüyü gəlinciyə sahib olacağını yeddi milyard işıq ili boyunca fikirləşsə belə ağlına gətirə bilməzdi.

Qonaqlıq, əslində, bir qədər məzəli idi. Bir ovuc beynəlmiləl dostumun, Vayenin ailəsinin, əvvəllər heç vaxt tanış olmadığım qərbli müştərilərinin və xəstələrinin gəldiyi bir yığıncaq idi. Dostum Yudey ad günümü qeyd etmək üçün altı pivə paketi gətirdi. Eyni zamanda Los

downloaded from KitabYurdu.org

Ancelesdən olan ssenarist Adam da gəldi. Onunla ötən axşam Felipe ilə birgə getdiyimiz bir barda tanış olub dəvət etmişdik. Adam və Yudey vaxtlarını qonaqlıqdakı Con adlı bir uşaqla söhbətə həsr etdilər. Conun anası Vayenin xəstəsi idi və Balidə yaşayan bir amerikalı ilə ailə quran alman modelyeri idi. Yeddiyaşlı Con heç vaxt Amerikaya getməmişdi, amma atasına görə müəyyən qədər özünü amerikalı hesab edirdi. Anası ilə alman dilində, Vayenin uşaqlari ilə İndoneziya dilində danışırdı. Adamın Kaliforniyadan gəldiyini və serfmqlə məşğul olduğunu eşidəndən sonra ona maraqlı gəlirdi.

“Ən çox sevdiyiniz heyvan hansıdır, cənab?” - deyə soruşdu. Adam isə “pelikan”, - deyə cavab verdi.

“Pelikan nədir?” - deyə uşaq soruşdu və Yudey dərhal söhbətə müdaxilə edib, - “Dostum, pelikanm nə olduğunu bilmirsən? Evə gedib atandan bu haqda soruşmalısan. Pelikanlar möhtəşəmdirlər, dostum”.

Sonra müəyyən qədər amerikalı olan uşaq Con balaca Tuttiyə üz tutdu və İndoneziya dilində nə isə dedi (Böyük ehtimalla pelikanın nə olduğunu soruşdu). Tutti Vayenin yanma böyrək müalicəsi üçün gələn, Parisdən olan təqaüdçü centlmenlə təmiz diksiya ilə fransız dilində danışan Felipenin dizlərinin üstündə oturub, mənim ad günü açıqcalarımı oxuyurdu. Elə bu vaxt Vayen radionu

downloaded from KitabYurdu.org

qoşdu. Kenni Rocers “cowards of the country” mahnısını oxuyan vaxt masaj üçün gələn üç yapon qız ortalıqda gəzişməyə başladılar. Mən onları ad günü tortuma qonaq etmək istəyəndə, balaca və böyük Ketutun bütün pullarını yığıb mənim üçün aldıqları hədiyyəni - iri, bəzəkli sancaqları saçıma taxmağa çalışırdılar. Vayenin qardaşı uşaqlarının, məbəd rəqqaslarının, çəltik fermerlərinin övladlarının hər biri miniatür tanrı kimi qızıl rəngli paltarları ilə səssiz-səmirsiz oturub döşəməyə baxırdılar. Otaqda qəribə bir ab-hava yaranmışdı. Hələ səhər açılmasa da, xoruzlar banlamağa başlayırdılar. Ənənəvi Bali geyimim məni qızğın
ağuşuna alır, sıxırdı və bunun həyatım boyu qeyd etdiyim ən qəribə, buna baxmayaraq, bəlkə də ən xoşbəxt ad günüm olduğunu hiss edirdim.
103
Vayenin hələ də evə ehtiyacı var və almamağı məni narahat edir. Belə çətin bir vəziyyətdə olmağına baxmayaraq, nəyə görə heç bir addım atmadığını başa düşə bilmirəm. Felipe ilə mən işə qarışdıq. Bir dəllal ilə görüşüb münasib yerləri göstərməyini xahiş etdik, amma Vayen heç bir yeri bəyənmədi. Mən isə onu tələsdirirəm: “Vayen, bir yeri bəyənməyin vacibdir. Sentyabrda çıxıb gedəcəyəm və dostlanma verdikləri pulla ev aldığını

downloaded from KitabYurdu.org

deməliyəm. Həm də evdən çıxarılana qədər başının üstünü örtən bir dam tapmalısan”.

“Balidə torpaq almaq asan deyil, - deyir. - Bara girib pivə almaq kimi deyil. Çox vaxt apara bilər”.

“Çox vaxtımız yoxdur, Vayen”.

Çiyinlərini çəkir və elə bu vaxt balineziyalılarm “rezin vaxt” adlandırdıqları anlayış yadıma düşür. Zamanın nisbi, dəyişkən olduğunu ifadə edir. “Dörd həftə” Vayen və mənim üçün eyni deyil. Vayen üçün bir gün mütləq iyirmi dörd saatdan ibarət
olmaq məcburiyyətində deyil. Mənəvi və emosional vəziyyətinə uyğun olaraq, bəzən uzun, bəzən də qısa çəkə bilər. Eynilə dostum qoca Ketutun yaşı kimi. Bəzi vaxtlarda günləri sayırıq, bəzən də tərəzi ilə çəkirik.

Eyni zamanda, Balidə mülkiyyət almağın nə qədər baha başa gəldiyini lazımi qədər qiymətləndirmədiyim məlum oldu. Burada hər şey sərfəli olduğuna görə torpağın da dəyərindən ucuz olduğunu fikirləşirdim, amma elə deyilmiş. Balidə, ümumiyyətlə, Ubudda torpaq almaq Uestçester-Kaunti, Tokio və ya Rodeo Drayvda mülk almaqla eyni qiymətə başa gəlir. Bu da tamamilə məntiqsizdir, çünki torpaq alanda xərclədiyin məbləği burada meydana gətirəcəyin heç bir fəaliyyət növü ilə bərpa edə bilməzsən. Burada bir aro yerə (Aro ərazi ölçü

downloaded from KitabYurdu.org

vahididir və “bir maşın saxlaya biləcəyin yerdən azca böyük” kimi tərcümə etmək olar) ortalama 25.000 dollar ödəmək lazım gəlir. Sonra orada balaca bir mağaza tikib ömrünün axırına kimi gündə bir turistə batik saronq satıb yetmiş beş sent gəlir əldə edə bilərsən. Bu mənasızdır.

Lakin Bali sakinləri torpaqlarına iqtisadi cəhətdən anlaşılmaz olan bir ehtirasla dəyər verirlər. Balineziyalılar üçün zəngin olmağın yeganə göstəricisi torpaq sahibi olmaqdır. Ona görə də mülkiyyət masai tayfalarının buynuzlu mal-qaraya, bacım qızının dodaq boyasına verdiyi dəyər qədər qiymətlidir. Heç vaxt kifayətlənməməli, əldə etdiyinin əlinizdən alınmasına imkan verməməlisən. Tamamilə sənə məxsus olmalıdır.

Bundan əlavə, avqust ayı ərzində İndoneziya əmlak aləminin intriqaları arasında etdiyim səyahətdən sonra burada ərazinin nə vaxt satışa çıxarıldığını başa düşməyin qeyri- mümkün olduğunu aşkar etdim. Bali sakinləri ərazilərini satanda bunu başqalarının bilməsini istəmirlər. Yəqin indi fikirləşirsiniz ki, elan vermək sərfəli ola bilər, amma balineziyalılar sizinlə həmfikir deyillər. Balineziyalı bir fermersənsə və torpağını satırsansa, deməli, pula ehtiyacın var və bu alçaldıcıdır. Həmçinin qonşulann, qohumların torpaq satdığınızı öyrənsə, əlinə pul keçdiyini düşünüb borc istəməyə gələcəklər. Ona görə

downloaded from KitabYurdu.org

də burada torpaq yalnız “şayiə” yolu ilə satışa çıxarılır. Bütün bu proses gizli və fırıldaqlarla aparılır.

Buradakı qərbli immiqrantlar Vayen üçün torpaq axtardığımı eşidəndə ətrafıma toplaşıb diqqətli olmağımı məsləhət görürlər və özlərinin dəhşətli, ibrətamiz təcrübələrindən danışırlar. Söhbət daşınmaz əmlakdan gedirsə, xüsusilə diqqətli olmağı xəbərdarlıq edirlər. Aldığın torpaq, əslində, satan şəxsə məxsus olmaya bilər. Torpağı göstərən şəxs sahibkar deyil, keçmiş ailə münaqişəsinə görə dayısından qisas almaq istəyən bacı oğlu da ola bilər. Gözləməyin ki, mülkiyyətin sərhədləri nə vaxtsa aydın olacaq. Xəyallarındakı evi inşa etmək üçün aldığın torpaq sahəsində sonradan “məbədə çox yaxın olduğuna görə” tikinti lisenziyası verilməyə bilər (20.000-ə yaxın məbədi olan bu ölkədə ona yaxın olmayan torpaq sahəsi tapmaq çətin məsələdir).

Eyni zamanda böyük ehtimalla bir vulkanın yamacında və ya təhlükəli ərazidə yaşaya biləcəyini də nəzərə almalısan. Və bu, sadəcə, geoloji bir bölünmə zonası olmaya bilər. Bali nə qədər dinc bir ada təsiri bağışlasa da, ağıllı adam buranın İndoneziya olduğunu unutmamalıdır. Burada yaşayanlar ən yüksək nazirlərdən tutmuş, avtomobilinə benzin dolduran (ya
da doldururmuş kimi göstərən) şəxsə kimi qeyri-sabit, yer

downloaded from KitabYurdu.org

üzündə ən böyük müsəlman millətidir. Hər an inqilab baş verə bilər və bütün var-dövlətinin qaliblər tərəfindən talan edilməyi mümkündür. Böyük ehtimalla, başlarına silah dirəyərək.

Bu cür kələkbazlıqlarla necə başa çıxacağımı bilmirəm. Doğrudur, Nyu Yorkda boşanma mərhələsindən keçmişəm, amma bu, Kafka romanının başqa bir səhifəsidir. Eyni zamanda, mən, ailəm və dostlarım tərəfindən yığılan 18.000 dollarlıq ianə hələ də İndoneziya rupisinə çevrilmiş halda, Vayenin bank hesabında qalmaqdadır. Bu valyutanın birdən- birə dəyərini itirib buxara çevrilməsi də tarixdə baş vermiş hadisədir. Və sentyabrda Vayen qaldığı yerdən çıxanla bilər. Bu mənim ölkəni tərk etməyimdən təxminən üç həftə sonraya təsadüf edir.

Amma Vayenin ev üçün müvafiq torpaq tapmağı da qeyri- mümkün kimi görünür. Bütün bu çətinliklərdən əlavə, o, torpağın “taksu”sunu, yəni ruhunu tədqiq etməlidir. Bir ara həkimi kimi Vayenin taksu barədəki tələbləri Bali standartlanna görə belə ifrat dərəcədə kəskindir. Mükəmməl bir
yer tapdım, amma Vayen oranın qəzəbli ruhlarla dolu olduğunu bildirdi. Növbəti təklifim çaya çox yaxın olduğuna görə rədd edildi, çünki belə yerlərdə hamının

downloaded from KitabYurdu.org

bildiyi kimi, ruhlar yaşayır (Həmin ərazini görəndən sonra gecə Vayen yuxuda cır-cmdırda, ağlayan gözəl bir qadını gördüyünü dedi və bu da ərazini almamağımıza bəs etdi). Sonra şəhərə yaxın yerdə həyəti, hər şeyi olan şirin bir mağaza tapdıq, amma küncdə idi və ancaq müflis olmaq ya da gənc yaşda ölmək istəyən bir şəxs küncdə yaşayardı. Hamının bildiyi kimi...

“Onu fikrindən daşmdırmağa çalışma, - deyə Felipe məsləhət verdi. - İnan mənə, əzizim. Balineziyalılarla taksularınm arasına girmə”.

Keçən həftə Felipe bütün tələblərə cavab verən bir yer tapdı. Ubudun mərkəzinə yaxın, sakit bir yolun üstündə yerləşən, çəltik tarlasının yaxınlığında, bağ üçün kifayət qədər yeri olan, büdcəmizə uyğun, balaca, qəşəng bir yer idi. Vayenə, - “Buranı ala bilərik?” - deyə sual verəndə, “Hələ bilmirəm, Liz. Belə qərar üçün tələsməmək lazımdır. Əvvəlcə, bir rahiblə məsləhətləşməliyəm”, - dedi.

Torpağı almağa qərar verdiyi təqdirdə bunun üçün ən uğurlu günü təyin etmək məqsədilə rahiblə məsləhətləşəcəkdi. Lakin həqiqətən də orada yaşamaq istəyib-istəmədiyinə qərar verməmiş rahiblə görüşə bilməz. Bunu edə bilmək üçün əvvəlcə uğurlu bir yuxu görməlidir. Burada qalacağım günlərin get- gedə sona

downloaded from KitabYurdu.org

yaxınlaşdığını yaxşı bilən Vayenə əsl Nyu Yorklu kimi sual verdim: “Bu yuxunu nə qədər tez təşkil edə bilərsən?”

Vayen də əsl Bali sakini kimi cavab verdi: “Tələsmək olmaz”. Buna baxmayaraq, əsas məbədlərdən birinə üz tutub tanrılara uğurlu yuxu görmək üçün dua etməyi ağlına gətirə bildi.

“Yaxşı, - razılaşdım. - Sabah Felipe səni maşınla əsas məbədə aparar. Sən də tannlara dua edib uğurlu yuxu istəyərsən”.

“Vayen bunu çox istəyərdi”, - dedi. Əla ideyadır, amma bircə problem var. Bu həftə ərzində məbədlərə daxil olmağı qadağandır. Çünki onda menstruasiya dövrüdür...

104

Bəlkə də bütün bu hadisələrin nə qədər əyləncəli olduğunu kifayət qədər çatdıra bilmirəm. Həqiqətən də baş verənlərdən baş açmağa çalışmaq qəribə və əyləncəlidir. Ya da ola bilsin ki, aşiq olduğuma görə həyatımın bu sürreal dövründən ləzzət alıram. Çünki belə olanda reallıq nə olursa olsun, dünya gözəl görünür.

Felipe həmişə xoşuma gəlib. Lakin avqust ayı ərzində onunla “Vayenin evi dastanı”nı həll etməyi öhdəmizə götürməyimiz bizi əsl cütlüyə çevirdi. Əlbəttə ki, bu

downloaded from KitabYurdu.org

qəribə balineziyalı qadının başına nə gəldiyi onu maraqlandırmırdı. O biznesmendir. Beş il ərzində Bali sakinlərinin şəxsi həyatlarına və mürəkkəb ayinlərinə müdaxilə etmədən yaşaya bilib. Amma indi mənimlə bir yerdə palçıqlı çəltik tarlalarında irəliləyir və Vayenə uğurlu tarixi deyəcək rahibi axtarır...

“Sən gələnə qədər Balidəki darıxdırıcı həyatımdan məmnun idim”, - tez-tez deyir.

Əvvəllər Balidə darıxırdı. Süst idi və vaxtını öldürürdü. Qraham Qrinin roman qəhrəmanları kimi. Biz tanış olan gün həmin tənbəllik aradan qalxdı. Artıq bir yerdə olduğumuza görə tanışlığımız barədə Felipenin də versiyasını dinləyə bilirəm. Bu ləzzətli hekayəyə qulaq asmaqdan yorulmuram. O gecə qonaqlıqda məni görməyi, arxamı ona tərəf çevirmiş vəziyyətdə dayanmağım, üzümü görməyə belə ehtiyac duymadan qəlbinin dərinliklərində, - “Bu mənim qadınımdır. Onu qazanmaq üçün əlimdən gələni edəcəyəm”, - deyən duyğu...

“Səni əldə etmək asan oldu, - deyir. - Sadəcə həftələrlə yalvarmaq lazım gəldi”.

“Yalvarmadın”.

“Yalvarmağıma fikir verməmişdin?”

Tanış olduğumuz gecə rəqsə getməyimizdən, Uelsdən olan şəxsə olan heyranlığımı müşahidə etməyindən və bu

downloaded from KitabYurdu.org

səhnəni görəndə qəlbinin necə qırıldığından danışır. “Bu qadını yoldan çıxartmaq üçün hər şeyi edirəm və o yaraşıqlı, cavan oğlan onu əlimdən alıb həyatını mürəkkəbləşdirəcək. Kaş ki, ona nə qədər sevgi verə biləcəyimi biləydi”, - deyə ağlından keçirdiyini deyir.

Artıq bunu edə bilər. O, təbiətcə qəyyumdur. Cəngavərim rolunu öhdəsinə götürərək, məni kompasın mərkəzinə qoyub ətrafımda bir növ orbit yaratdığını hiss edirəm. Felipe həyatında qadına böyük ehtiyac duyan tipdə kişilərdəndir, amma qadının ona qayğı göstərməsi üçün deyil. Sadəcə, qayğı göstərə biləcəyi bir şəxsə sahib olmaq, özünü ona həsr etmək üçün. Boşanandan bəri belə bir münasibəti olmadığına görə həyatın axınına qapılıb gedirdi. Amma artıq bütün planlarında mənə yer verir. Mənə belə davranmağı xoşuma gəlir, eyni zamanda həm də qorxudur. Hərdən yuxanda uzanıb kitab oxuyanda o, aşağıda, mətbəxdə mənə yemək bişirir. Fitlə şən bir Braziliya sambasmı ifa edərək, - “Əzizim, şərabdan bir stəkan da istəyirsən?” - deyə soruşur və mən kiminsə günəşi, hər şeyi olmaq bacanğma malik olub-olmadığımı bilmək istəyirəm. Başqa bir şəxsin həyatının mərkəzi olmağa özümü hazırlamışam? Nəhayət ki, bir axşam bu mövzunu açdım və “Səndən belə bir şey xahiş etmişəm? Həyatımın mərkəzi olmağını istəmişəm?” - deyə soruşdu.

downloaded from KitabYurdu.org

Özündənrazılığıma görə dərhal utandım. Onun sonsuza qədər yanımda qalıb ömrümün axırmadək şıltaqlıqlarıma dözmək istədiyini zənn etmişdim.

“Üzr istəyirəm, - dedim, - bu, bir az təkəbbürlü səsləndi, elə deyilmi?”

“Bir az, - dedi və qulağımı öpdü. - Amma əslində, elə də yox. Əzizim, əlbəttə ki, bu mövzunu müzakirə etməliyik, çünki həqiqət budur ki, səni dəli kimi sevirəm”. Bundan sonra rəngimin ağardığını görüb məni inandırmaq üçün zarafat etdi: “Əlbəttə ki, bu fərziyyədir”. Sonra isə tamamilə ciddi tərzdə davam etdi: “Qulaq as, mənim əlli iki yaşım var. İnan ki, dünyada işlərin necə cərəyan etdiyini yaxşı bilirəm. Hələ ki, səni sevdiyim kimi məni sevmədiyini bilirəm, amma bu, vecimə də deyil. Hansısa bir səbəbdən, uşaqlanm balaca olanda onlara qarşı keçirdiyim hissi sənə qarşı da duyuram - məni sevmək onların vəzifəsi deyil. Mənim vəzifəm onları sevməkdir. Necə istəyirsənsə, elə də hiss edə bilərsən, amma mən səni sevirəm və həmişə də sevəcəyəm. Bir-birimizi gələcəkdə görməsək belə, sən məni həyata qaytardın və bu, çox önəmlidir. Və əlbəttə ki, həyatımı sənlə bölüşmək istəyirəm. Yeganə problem odur ki, sənə Balidə necə bir həyat vəd edəcəyimi bilmirəm”.

downloaded from KitabYurdu.org

Bu məsələ məni də narahat edirdi. Bu müddət ərzində Ubudda immiqrantlann həyatını müşahidə etdim və bu həyatın mənə uyğun olmadığı qənaətinə gəldim. Bu şəhərdəki insanların hamısı eyni xarakterdədirlər - həyatın pis üzünü görüb sınmış və mübarizədən çəkilən qərblilər, Balidə qeyri- müəyyən müddətlik məskunlaşan şəxslər. Burada ayda 200 dollara əla evdə qalmaq, Balidə yaşayan gənc qadın və ya kişini yanlarına dəvət etmək, heç nəyə əhəmiyyət verməyib günortadan əvvəl içməyə başlamaq, bir az mebel ixrac edib pul qazanmaq adi haldır. Amma ümumiyyətlə, əsas məqsədləri bir də onlara ciddi bir sualın verilməməsinə şərait yaratmaqdır. Yox, onlar avara deyillər. Müxtəlif millətlərdən olan bu insanlar yüksək səviyyəli, istedadlı və ağıllıdırlar. Ancaq mənə elə gəlir ki, burada tanış olduğum hər kəsin bir vaxtlar müəyyən bir statusu olub ("Ailəli" və ya "işçi"). İndi isə hamısını həmişəlik eyni xüsusiyyətdən özlərini məhrum etmək birləşdirir: Ambisiya. Çox içdiklərini deməyə ehtiyac yoxdur.

Əlbəttə ki, Ubudun Bali şəhəri hər şeyi bir kənara qoyub günləri keçirmək üçün pis bir yer deyil. Bu baxımdan şəhər Ki- Uest, Florida, Oaxaka, Meksikaya oxşayır. Ubuddakı mühacirlərin çoxundan nə vaxtdan bəri burada olduqlarını soruşanda, dəqiq bilmədiklərini

downloaded from KitabYurdu.org

deyirlər. Birinci səbəb doğrudan da nə vaxt köçdüklərini bilməməkləridir. Başqa bir səbəb isə burada yaşayıb-yaşamadıqlarından əmin olmamaqlandır. Heç bir yerə məxsus deyillər, lövbər salmayıblar. Bəziləri, sadəcə, qısa bir müddətlik burada qaldığını, işıqforda qırmızı işıq yananda dayanıb gözlədiyini düşünməkdən zövq alırlar. Ancaq on yeddi il belə keçibsə, düşünməyə başlayırsan. Görəsən, buradan heç gedən olub?

Qəlyanaltı vaxtı şampan içib boşboğazlıq edərək keçirdiyimiz uzun bazar günlərindən sonra bu insanlarla tənbəllik etmək çox maraqlıdır. Yenə də bu səhnənin ətrafında olanda özümü Ozun xaşxaş sahələrindəki Doroti kimi hiss edirəm. Diqqətli ol! Bu narkotik çəmənliyində yuxuya getmə, yoxsa ömrünün axırma qədər oyana bilməzsən!

Bəs Felipe ilə mənim münasibətimiz necə olacaq? Artıq belə görünür ki, “mən və Felipe” adlı bir məfhum var. O bu yaxınlarda mənə dedi: “Bəzən istəyirəm ki, sən itkin düşmüş balaca bir qız olasan və səni qucağıma alıb deyim ki, - “Gəl mənimlə yaşa. İcazə ver sonsuza qədər sənin nazınla oynayım”. Amma sən itkin düşən balaca qız deyilsən. Karyerası, ambisiyaları olan bir qadınsan. Mükəmməl bir ilbizsən. Evini belində gəzdirirsən. Bu azadlığını mümkün qədər qorumalısan. Sənə yalnız bunu

downloaded from KitabYurdu.org

deyə bilərəm ki, əgər bu braziliyalı şəxsi istəyirsənsə, özününküləşdirə bilərsən. Mən onsuz da sənindəm".

Nə istədiyimdən əmin deyiləm. Bilirəm ki, bir tərəfim həmişə, - "İcazə ver sonsuza qədər sənin nazınla oynayım", - deyən kişini arzulayıb və əvvəllər bunu heç vaxt eşitməmişdim. Axır bir neçə ildə o şəxsi axtarmaqdan imtina edib bu cümləni özüm özümə hədiyə etməyə başlamışdım, xüsusilə də qorxanda. Amma indi bunu başqasından eşitmək, səmimi deyən bir insandan eşitmək...

Dünən gecə Felipe yuxuya gedəndə bunlan fikirləşirdim. Onun yanında qıvrılıb uzanaraq münasibətimizin aqibətini
götür-qoy edirdim. Gələcəkdə nə ola bilərdi? Aramızdakı coğrafi problem necə olacaq? Harada yaşayacağıq? Yaş fərqini də nəzərə almaq lazımdır. Ötən gün çox yaxşı bir şəxslə tanış olduğumu xəbər vermək üçün anama zəng etdim və hazır olun, - "Onun əlli iki yaşı var!" - deyə tərəddüd etmədən bildirdim. Anam, - "Mənim də sənə bir xəbərim var, Liz. Sənin də otuz beş yaşın var!" - deyə cavab verdi (Yaxşı bir nöqtəyə toxundun, ana. Belə qarıyıb qaldığım bir yaşda kimisə tapa bildiyim üçün belə şükür etməliyəm). Doğrusu, yaş fərqinə önəm vermirəm. Əslində, Felipenin məndən xeyli böyük olmağı xoşuma

downloaded from KitabYurdu.org

gəlir. Məncə bu, münasibətimizə daha da ehtiras qatır. Özümü bir az fransız kimi hiss edirəm.

Münasibətimizin aqibəti necə olacaq?

Yeri gəlmişkən, bu məni niyə narahat edir?

Narahat olmağın heç bir faydası olmadığı barədə nəyi hələ də öyrənməmişəm?

Beləliklə, bir müddətdən sonra bu fikirləri bir kənara qoydum və onu qucaqlayıb yatdım. Ona vuruluram. Sonra yuxulayıram və iki unudulmaz yuxu görürəm.

Hər ikisi də qurumla bağlıdır. Birinci yuxuda qurum aşramı bağlayacaqlarını, artıq danışmayacağım, öyrətməyəcəyini, kitablar nəşr etməyəcəyini bildirir. Tələbələrinin qarşısında sonuncu dəfə çıxış edərək deyir: "Lazım olandan artığını öyrənmisiniz. Azad olmaq üçün bilməli olduğunuz hər şeyi başa düşmüsünüz. Artıq dünyaya qoşulub xoşbəxt bir həyat keçirməyin vaxtıdır".

İkinci yuxum daha da təsdiqedici idi. Nyu Yorkda heyranedici bir restoranda Felipe ilə yemək yeyirdik. Quzu əti və ənginardan ibarət olan möhtəşəm yemək yeyir, şərab içir, sevincli halda deyib-gülürdük. Sonra otağa nəzər yetirirəm və qurumun 1982-ci ildə ölən ustadı Svamicini görürəm. Lakin o gecə sağ idi və həmin füsunkar Nyu York restoranında dostlan ilə nahar edirdi. Deyəsən, kefləri yerində idi. Svamici ilə baxışlarımız

downloaded from KitabYurdu.org

toqquşur, gülümsəyir və əlindəki qədəhi mənim şərəfimə qaldırır.

Sonra isə həyatı boyu çox az ingilis dilində danışmış bu balaca hindli Quru o məsafədən mənə səlis şəkildə bircə cümlə deyir: “Zövq al!”

105

Çoxdandır ki, Ketut Liyeri görmürəm. Felipe ilə münasibətim və Vayenə ev tapmaq cəhdlərimin fonunda, qoca ilə eyvanında günortalar mənəviyyatla bağlı apardığımız uzun, məqsədsiz müzakirələr çoxdan başa çatıb. Bir neçə dəfə hal-əhval tutmaq və həyat yoldaşına hədiyyə kimi meyvə aparmaq üçün evinə baş çəkmişəm. Lakin iyundan bəri, demək olar ki, bir yerdə vaxt keçirməmişik. Nə vaxt gəlmədiyimə görə Ketutdan üzr istəməyə cəhd etsəm, imtahandan əvvəl kainatdakı bütün sualların cavablarını görmüş bir şəxs kimi gülərək, - “Hər şey qaydasındadır, Liss”, - deyir.

Buna baxmayaraq onun üçün darıxıram. Ona görə də səhər bir az söhbətləşmək üçün ona baş çəkdim. Həmişəki kimi mənə baxıb, - “Sənlə tanış olduğuma şadam!” - dedi (Onu heç cür bu vərdişdən uzaqlaşdıra bilmədim).

“Mən də səni gördüyümə şadam, Ketut”.

“Tezliklə gedirsən, Liss?”

downloaded from KitabYurdu.org

“Bəli, Ketut. İki həftədən az qalıb. Ona görə də bu gün baş çəkmək istədim. Mənə verdiyin hər şeyə görə təşəkkür etmək istəyirəm. Sən olmasa idin, heç vaxt Baliyə geri qayıtmazdım”.

“Baliyə həmişə geri qayıda bilərdin, - şübhəsiz və tərəddüdsüz halda dedi. - Hələ də sənə öyrətdiyim dörd qardaşla meditasiya edirsən?”

“Bəli”.

“Hindistanda sənə qurunun öyrətdiyi kimi meditasiya ilə də məşğul olursan?”

“Bəli”.

“Hələ də kabuslar görürsən?”

“Xeyr”.

“Tanrı ilə bir yerdə xoşbəxtsən?”

“Çox”.

“Təzə sevgilini sevirsən?”

“Deyəsən, hə”.

“Onda onun qayğısına qalmalısan. Həmçinin o da sənin”.

“Yaxşı”, - deyə söz verdim.

“Sən yaxşı dostsan. Dostsan da artıqsan. Qızım kimisən”, - dedi (Şeron kimi deyiləm). “Mən öləndə Baliyə geri qayıdacaqsan, mənim kremasiya mərasimimə. Ölüyandırma mərasimləri maraqlı olur, xoşuna gələcək”.

downloaded from KitabYurdu.org

“Yaxşı”, - deyə qəhərdən boğularaq söz verdim.

“Vicdanın bələdçin olsun. Baliyə gələn qərbli dostlann olsa, onları əl falı üçün yanıma göndər. Bombadan bəri kassam boşdur. Bu gün mənimlə körpə mərasiminə gəlmək istəyirsən?” Beləcə, altıaylıq dünyaya ilk dəfə toxunmağa hazırlaşan bir körpənin xeyir-dua mərasimində iştirak etdim. Bali sakinləri uşaqlarının ilk altı ayı ərzində torpağa toxunmağına icazə vermirlər. Çünki yeni doğulan körpələr cənnətdən göndərilən tanrılar kimi qəbul olunur və bir tanrının dırnaq hissələri, siqaret kötükləri ilə dolu olan döşəmədə gəzməsinə icazə vermək olmaz. Ona görə də balineziyalı körpələr ilk altı ay ərzində qucaqda gəzdirilir və balaca tanrılar hesab edilirlər. Bir körpə altı aydan tez ölsə, xüsusi bir kremasiya mərasimi təşkil olunur. Körpənin ayaqları yerə toxundurulur və o, insan sinfinə daxil olur.

Bugünkü mərasim Ketutun qonşularından birinin evində baş tutdu. Sözügedən körpə Putu ləqəbli bir qız idi. Ata-anası bərabər dərəcədə gənc və gözəl idilər. Uşaq Ketutun əmisi oğlunun ya da belə bir qohumunun nəvəsi idi. Ketut mərasim üçün ən xüsusi paltarlarını geyinmişdi: Ağ, atlas saronq (Qızıl rəngli naxışlarla bəzədilmişdi) və ağ, uzunqol, qızılı rəngdə düymələri olan, onu daha çox dəmiryolundakı yükdaşıyanlara, ya da yüksək səviyyəli

downloaded from KitabYurdu.org

bir restoranın ofisiant köməkçisinə bənzədən yaxalıqlı bir jaket. Başını ağ rəngli çalma ilə sarımışdı. Mənə qürurla göstərdiyi nəhəng əlləri iri, qızıl üzüklərə və sehrli daşlara bürünmüşdü. Ümumilikdə yeddiyə yaxın üzük taxmışdı. Hamısının müqəddəs gücləri var idi. Ruhları çağıra bilmək üçün babasının misdən olan parlaq kəmərini taxmışdı və məndən onun çoxlu şəkillərini çəkməyimi xahiş etdi.

Qonşusunun evinə bir yerdə getdik. Bir xeyli məsafə var idi və bir müddət əsas yolda irəliləməli olduq. Artıq dörd aya yaxın idi ki, Balidə idim, amma bu vaxt ərzində Ketutun evdən çıxdığını görməmişdim. Sürətli avtomobillərin, çılğın
motosikletlərin hərəkət etdiyi şosedə onu müşahidə etmək mənə qəribə gəlirdi. Çox balaca və zəif görünürdü. Müasir nəqliyyatın, siqnalların fonunda yeri səhv düşmüş kimi təsir bağışlayırdı. Bu duyğu məndə ağlamaq istəyi yaratdı. Onsuz da bu gün çox emosional idim.

Biz çatanda qonşunun evində təxminən qırx qonaq var idi. Ailə səcdəgahında düyü ilə dolu palma səbətləri, çiçəklər, buxur, qızardılmış donuz əti, ölü ördəklər, toyuqlar, kokos və küləyin ətrafa dağıtdığı pullar cəmlənmişdi. Hamı ən zərif ipək və krujeva geyimlərlə bəzənmişdi. Təkcə mən xüsusi geyimdə deyildim.

downloaded from KitabYurdu.org

Velosiped sürməkdən tərləmişdim. Köynəyimin cınq olduğunu da bilirdim. Amma uyğun geyimdə olmadan və dəvətsiz gələn bir ağ qız olsaydınız necə qarşılanmaq istəyərdinizsə, mənə də münasibət elə oldu. Hamı mənə isti bir təbəssüm bəxş etdi. Sonra məni yaddan çıxarıb bir-birlərinin geyimlərinə heyranlıqla baxdıqlan hissəyə keçdilər.

Ketutun idarə etdiyi mərasim saatlarla davam etdi. Orada baş verənləri ancaq bir qrup tərcüməçi ilə antropoloq izah edə bilər, amma Ketutun izahı və oxuduğum kitablar sayəsində bəzi
ayinləri başa düşə bilirdim. Xeyir-duanın birinci raundunda atası körpəni, anası isə uşağı təmsil edən bələkdəki kokosu saxladı. Körpə ilə yanaşı həmin kokosa da xeyir-dua verildi və müqəddəs suya batırıldı. Sonra isə uşağın ayaqlan ilk dəfə yerə dəymədən əvvəl, kokos döşəməyə qoyuldu. Bunun sayəsində pis ruhlar aldanaraq saxta körpəyə hücum edəcək, əsl körpədən əl çəkəcəkdilər.

Körpənin ayağı yerə toxundurulana qədər saatlarla nəğmələr oxundu. Ketut əlindəki zəngi çalaraq sonsuz dualarını oxudu. Gənc ata-anam daxilindəki məmnunluq və qürur hissləri ətrafa yayılırdı. Ortalıqda veyllənən, qeybət edən, bir müddət mərasimə baxıb öz hədiyyələrini

downloaded from KitabYurdu.org

təqdim edən, sonra da başqa bir görüş üçün icazə istəyən bir çox qonaq gəlib-gedirdi. Qədim ayinlərə məxsus olan rəsmiyyət xaricində hər şey adi idi. Kilsə mərasimləri ilə həyətdəki piknikin ortasında bir vəziyyət idi. Ketutun körpəyə oxuduğu dualar qulağa çox xoş gəlirdi. Müqəddəslik və nəvazişin kombinasiyası kimi idi. Anası uşağı saxlayanda Ketut onun qabağından yemək, meyvə, çiçək, su, zəng, qızarmış toyuq qanadı, bir dilim donuz əti, sındırılmış
kokos keçirtdi. Hər dəfə yeni bir qida göstərəndə dua oxuyurdu. Körpə gülüb əllərini bir-birinə çırpır, Ketut da eyni təbəssümlə qarşılıq verib duasına davam edirdi.

Təsəvvürümdə Ketutun dediklərini tərcümə edirdim:

“Ah, balaca körpə, bu qızarmış toyuq sənin yeməyin üçündür! Vaxt gələcək qızarmış toyuğu çox xoşlayacaqsan və ümid edirəm çoxlu yeyəcəksən! Ah, balaca, bu bir kasa düyüdür. Həyatın boyu istədiyin qədər düyün olsun, sonsuza qədər düyü yağışına qərq ol! Ah, körpə, bu kokosdur. Çox gülməli görünüşü var, elə deyilmi? Bir gün doyunca kokos yeyəcəksən! Ah, balaca körpə, bu sənin ailəndir. Onlar səni çox sevirlər, görürsən? Ah, balaca, sən bütün kainat üçün mükafatsan! Sən əlaçı tələbəsən! Balaca dovşan balamızsan! Bizim sevincimizsən! Ah, balaca, sən yelləncəklərin sultanısan!

downloaded from KitabYurdu.org

Bizim hər şeyimizsən!”

Müqəddəs suya batırılmış çiçək ləçəkləri ilə hər kəsə dəfələrlə xeyir-dua verildi. Ketut qədim dualarını oxuyanda, uşaq ailə üzvləri arasında qucaqdan qucağa ötürüldü. Cins şalvarıma rəğmən bir müddət mənim də uşağı saxlamağıma
icazə verdilər və hamı oxuyanda mən də onun qulağına öz xeyir-duamı pıçıldadım. “Uğurlar. Cəsarətli ol!” - dedim. Kölgəlikdə belə hava qızmar isti idi. Cazibədar geyimli gənc ana tərləyirdi. Məğrur təbəssümündən başqa bir üz ifadəsini görə bilmədiyim gənc atanı da isti narahat edirdi. Bəzi nənələr özlərini yelləyir, yorulur, oturur, durur, qızarmış donuzları əlləşdirir, itləri qovurdular. Növbə ilə hamı bir-bir maraqlanır, etinasızlıq edir, yorğun, gülərüz, ciddi görkəm alır. Ketutla körpə isə bütün diqqətlərini bir-birlərinə yönəltmişdilər. Balaca gün boyu gözlərini qocadan çəkmədi. Kim düz dörd saat ərzində qızmar günəşin altında ağlamadan, dəcəllik etmədən, oyaq qalıb, sadəcə, bir nəfəri maraqla müşahidə edən altıaylıq körpə görüb?

Ketut da, körpə də öz işinin öhdəsindən lazımınca gəldi. Tanrı statusundan insan statusuna keçid mərasimi bütün qayda-qanuna uyğun olaraq yerinə yetirildi. Mərasimlərə hazır, inamlarına arxayın olan,

downloaded from KitabYurdu.org

mədəniyyətinin tələblərinə itaətlə əməl edən yaxşı bir Bali qızı kimi bütün körpə öz məsuliyyətlərini indidən öhdəsinə götürdü.

Dualar qurtarandan sonra onu həqiqi debütanta oxşadan, uzun və kübar göstərən ağ, təmiz mələfəyə bükdülər. Ketut bir kasanın dibinə kainatın dörd istiqamətini göstərən bir şəkil çəkdi, kasanı müqəddəs su ilə doldurdu və yerə qoydu. Əllə çəkilən bu kompas körpənin ayağının yerə ilk dəfə dəyəcəyi nöqtəni göstərirdi.

Bütün ailə körpənin ətrafında yığışdı. Uzaqdan elə görünürdü ki, hamı onu birdən tutub və hop! Alındı! Körpənin ayaqlarını müqəddəs su olan kasaya, bütün kainatı əhatə edən müqəddəs şəklin üstünə yavaşca batırdılar, sonra isə ilk dəfə dabanları torpağa toxundu. Yenidən yuxan qaldıranda körpənin ayağını qoyduğu yerdə balaca, yaş izlər qalmışdı. Bu izlər olduğu yeri və kimliyini təyin edərək körpəni Bali cəmiyyətinə mənsub edirdi. Hamı sevinclə əl çaldı. Balaca qız artıq bizdən idi. İnsanı çaşdıran risk və qorxuları ilə bir yerdə o da artıq bir insan idi.

Körpə əvvəlcə yuxan, sonra ətrafa baxdı və gülümsədi. Artıq tann deyildi. Deyəsən, bu, heç vecinə də deyildi.

downloaded from KitabYurdu.org

Qorxmamışdı. Qəbul etdiyi bütün qərarlara görə məmnun kimi görünürdü.

106

Vayenlə razılığa gələ bilmədik. Felipenin birtəhər tapdığı o torpağı da almadı. Vayendən problemin nə olduğunu soruşanda qarışıq bir cavab verdi. İtkin bir sənədlə bağlı nə isə danışdı. Artıq nə vaxtsa həqiqəti danışdığına inanmıram.

Nəticə odur ki, iş baş tutmadı. Vayenin ev məsələsi məni təşvişə salır. "Vayen, Balini tərk edib Amerikaya qayıtmağıma iki həftədən də az vaxt qalıb. Bu ianəni toplayan dostlanma hələ də ev almadığını deyə bilmərəm", - deyərək məsələnin təcili olduğunu xatırladıram.

"Amma Liz, əgər bir yerin taksusu yaxşı deyilsə..."

Həyatda hər kəsin cəldlik anlayışı fərqlidir. Lakin bir neçə gündən sonra Vayen yelbeyin halda Felipenin evinə zəng edir. Başqa bir torpaq sahəsi tapıb və doğrudan bəyənib. Şəhərə yaxın, sakit bir yolun üstündəki çəltik tarlasının zümrüd rəngli geniş ərazisi. Dediyinə görə, hər yerində yaxşı taksu var idi. Ərazinin təcili pula ehtiyacı olan atasının yaxın dostuna

məxsus olduğunu bildirir. Ərazinin yeddi arosunu satışa çıxarıb, amma nağd pul lazım olduğuna görə Vayenə

downloaded from KitabYurdu.org

pulunu ödəməyə imkanı çatan iki aronu satmağa razı idi. Bu yer çox xoşuna gəlib. Mən də bəyəndim. Felipenin də zövqündə idi. Qollarım geniş açıb ətrafda balineziyalı bir Culia Endrüs kimi dairələr çəkərək fırlanan Tutti də bu yeri xoşladı.

“Al”, - Vayenə deyirəm.

Lakin bir neçə gün keçir və heç bir irəliləyiş olmur. “Orada yaşamaq istəyirsən, ya yox?” - deyə soruşuram.

Bir qədər tərəddüddən sonra hekayəni dəyişir. Dediyinə görə, bu səhər fermer ona zəng edib deyib ki, cəmi iki aronu satıb-satmamaq barədə qərarsızdır. Yeddi aronun hamısını eyni şəxsə satmaq istəyirmiş. Problem həyat yoldaşı idi. Əvvəlcə onunla danışıb ərazini bölmək üçün razılıq əldə etməli idi.

Vayen, - “Bəlkə daha çox pulum olsaydı...”

Aman Allah! Məndən bütün ərazini almağa bəs edəcək qədər pul tapmağımı istəyir. Beynimdə əlavə olaraq 22.000 dolları necə toplaya biləcəyimi götür-qoy etsəm də, ona, -

“Vayen, bunu edə bilmərəm. Pulum yoxdur. Fermer ilə razılığa gələ bilməzsən?” - deyə soruşuram.

Bundan sonra gözlərini məndən qaçıran Vayen daha da mürəkkəb bir hekayə danışır. Deyir ki, ötən gün bir rahibi ziyarət edib və həmin şəxs transa girəndən sonra

downloaded from KitabYurdu.org

Vayenə bildirib ki, yaxşı bir müalicə mərkəzi tikə bilmək üçün bütövlükdə bu yeddi aronu almalıdır. Bu onun taleyidir. Həmçinin əlavə edib ki, əgər Vayen bu ərazini ala bilsə, gələcəkdə burada böyük bir otel də inşa edə bilər.

Böyük bir otel?!

Aaa...

Birdən-birə kar oldum. Quşlar oxumağı dayandırdılar. Vayenin dodaqlarının tərpəndiyini görürdüm, lakin artıq ona qulaq asmırdım, çünki zehnimdə tələsik halda cızma-qara edilmiş bir fikir peyda oldu: O, səni aldadır, Market!

Ayağa durdum, Vayenlə sağollaşdım və yavaş-yavaş evə tərəf irəlilədim. Felipedən qətiyyətlə bu mövzuda nə fikirləşdiyini soruşdum: "Məni aldadır?"

Vayenlə münasibətim barədə bu günə qədər bircə dəfə də şərh verməmişdi.

"Əzizim, - nəvazişlə dedi. - Əlbəttə ki, səni aldadır".

Ürəyim şappıltı ilə qopub bağırsaqlanma girir.

"Amma qəsdən yox, - deyə dərhal əlavə edir. - Balidəki düşüncə tərzini başa düşməlisən. Buradakı insanlar üçün turistlərdən bacardıqlan qədər çox pul qopartmaq bir həyat tərzidir. Bununla həyatda qalırlar. İndi də fermer haqqında hekayələr uydurur. Əzizim, nə vaxtdan bəri Balidə kişilər öz işləri barədə həyat

downloaded from KitabYurdu.org

yoldaşlan ilə məsləhətləşirlər? Qulaq as, kişi ona kiçik bir sahəni satmağa razı olacaq qədər çətin vəziyyətdədir. Onsuz da satacağım deyib. Ancaq Vayen artıq hamısını istəyir. Səndən də həmin torpağı onun üçü almağını gözləyir".

Bu məsələ məni iki səbəbə görə narahat edir. Birincisi, bu həyat tərzinin Vayenə də xas olduğunu fikirləşmək istəmirəm. İkincisi, onun sözlərinin altında gizlənən müstəmləkədə yaşayan ağ adamlar barədə, - "Bütün insanlar belədirlər", - kimi mədəni eyhamlarına nifrət edirəm.

Amma Felipe müstəmləkəçi deyil, braziliyalıdır. "Qulaq as, mən kasıb Cənubi Amerikada böyümüşəm. Bu cür yoxsulluqda hökm sürən adətləri başa düşmədiyimi zənn edirsən? Vayenə həyatı boyu görmədiyi qədər çox pul verdin və indi o, çılğın planlar qurur. Sən onun üçün möcüzəvi xeyriyyəçisən və bu onun xilas olmaq üçün axırıncı şansı ola bilər. Ona görə də sən getməzdən əvvəl nə qədər bacanrsa xeyir qazanmaq istəyir. Allah xatirinə, dörd ay əvvəl yazıq qadının uşağına yemək almağa pulu yox idi, indi isə otel tikmək istəyir?" - deyə izah edir.

"Nə etməliyəm?"

"Nə olursa olsun, ona hirslənmə. Çünki qəzəblənsən onu itirəcəksən və heyif olacaq. O yaxşı insandır və səni

downloaded from KitabYurdu.org

sevir. Sadəcə, qəbul et ki, bu onun həyatda qalmaq üçün istifadə etdiyi taktikadır. Vayenin pis insan olduğunu, ya da onun və uşaqlarının, həqiqətən də köməyə ehtiyacı olmadığını düşünmə. Lakin səndən istifadə etməyinə də icazə vermə. Əzizim, belə hadisələri dəfələrlə görmüşəm. Adətən burada uzun müddət yaşan qərblilər bir neçə dəfə tələyə düşürlər və bu onların iki
qrupa bölünməsi ilə başa çatır. Onların yansı özünü turist kimi göstərməyə davam edirlər: “Ah, balineziyalılar necə şirin, yaxşıdırlar”, - deyirlər və əllərindəki hər şeyi itirirlər. Digər yansı isə kələk və fınldaqlara görə o qədər qəzəblənirlər ki, balineziyalılara nifrət etməyə başlayırlar. Lakin bu düzgün deyil. Belə olduğu təqdirdə gözəl dostlarını da itirərsən”.

“Bəs mən nə etməliyəm?”

“Vəziyyəti yenidən ələ almalısan. O sənlə oynadığı kimi, sən də ona bir oyun hazırla. Onu hərəkətə keçirəcək bir şeylə hədələ. Bu onun xeyrinədir, çünki evə ehtiyacı var”.

“Mən onunla oyun oynamaq istəmirəm, Felipe”.

Alnımdan öpür. “Elə isə, Balidə yaşaya bilməzsən, əzizim”.

Ertəsi səhər planımı hazırlayıram. Buna inana bilmirəm. Bir il ərzində ləyaqətli olmağı öyrənəndən və

downloaded from KitabYurdu.org

vicdanlı bir həyat uğranda mübarizə aparandan sonra böyük bir yalan uyduraram. Balidə ən çox sevdiyim insana, bacım hesab etdiyim şəxsə, böyrəklərimi təmizləyən qadına yalan danışacağam. Aman Allah! Tuttinin anasını aldadacağam!

Şəhərə, Vayenin yanına gedirəm. Vayen məni qucaqlamaq istəyir. Özümü dilxor göstərib kənara çəkilirəm.

“Vayen, danışmalıyıq, - deyirəm. - Ciddi bir problemim var”.

“Felipe ilə?”

“Xeyr, sənlə”.

Az qalır ki, ürəyi gedib yıxılsın.

“Vayen, Amerikadakı dostlarım sənə çox hirslənib lər”, - deyirəm.

“Mənə? Nəyə görə, əzizim?”

“Çünki dörd ay əvvəl ev almağın üçün sənə çoxlu pul verdilər, amma hələ də ev almamısan. Hər gün mənə elektron məktub göndərib “Vayenin evi haradadır? Pulum hara getdi?” - deyə soruşurlar. Onlar fikirləşirlər ki, pulu oğurlayıb başqa bir məsələ üçün istifadə etmisən”.

“Oğurlamamışam! ”

“Vayen, - davam edirəm. - Amerikadakı dostlanm səni fırıldaqçı hesab edirlər”.

downloaded from KitabYurdu.org

Nəfəs yoluna yumruq dəymiş kimi boğulmağa başlayır. O qədər yaralanmış görünür ki, bir anlıq ürəyimdən onu qucaqlayıb, - "Yox, yox, bu, doğru deyil! Hamısını uydurmuşam!" - demək keçir. Lakin yox, bunu yekunlaşdırmalıyam. Necə də pərişan vəziyyətdədir!

"Fırıldaqçı" sözü burada ingilis dilindəki bir çox sözə nisbətən daha emosional qarşılanır. Balidə bir insana deyə biləcəyin ən ağır söz budur. Səhər yeməyindən əvvəl insanlann bir-birinə on dəfə kələk gəldiyi, fırıldaqçılığın bir idman, incəsənət növü, vərdiş, çarəsiz halda sağ qalmaq taktikası olduğu bu cəmiyyətdə "fırıldaqçı" sözü ən ağır böhtandır. Keçmiş Avropada yəqin ki, təkbətək döyüşlə nəticələnərdi.

"Əzizim, - gözləri yaşarmış halda dedi. - Mən fırıldaqçı deyiləm!"

"Bilirəm, Vayen. Elə buna görə məyus olmuşam. Amerikadakı dostlarıma nə qədər fırıldaqçı olmadığını izah etməyə çalışsam da, mənə inanmırlar".

Əlini əlimin üstünə qoyur. "Səni pis vəziyyətə saldığıma görə üzr istəyirəm".

"Vayen, doğrudan da çətin vəziyyətdir. Dostlanm qəzəblidirlər. Mən Amerikaya qayıdana qədər torpaq almağını istəyirlər. Əgər gələn həftəyə qədər almasan, pullarını geri qaytarmağını tələb edəcəklər".

downloaded from KitabYurdu.org

Artıq ürəyi getməyə yox, ölməyə hazırlaşırmış kimi görünür. Bu yazıq qadına belə bir oyun qurduğuma görə özümü tarixdəki ən qəddar cəllad kimi hiss edirəm. Bank hesabındakı pulu götürməyimin onu İndoneziya vətəndaşlığından çıxarmaq qədər qeyri-mümkün olduğundan xəbərsizdir. Hardan biləcəkdi ki? Pulun sehrlə onun bank hesabına yerləşdirdim, elə deyilmi? Elə isə asanlıqla da geri ala bilməzdimmi?

“Əzizim, inan mənə, tezliklə torpaq tapacağam. Qısa bir vaxt ərzində tapacağam. Xahiş edirəm, narahat olma. Üç gün ərzində bu məsələ həll olunacaq, söz verirəm sənə”.

“Həll etməlisən”, - səmimi və ciddi tərzdə deyirəm. Fakt odur ki, doğrudan da məcburdur. Uşaqlarına ev lazımdır.

Evdən çıxarılmağına az qalıb. Fırıldaqçılıq üçün vaxt yoxdur.

“İndi Felipenin evinə gedirəm. Bir yer alanda mənə zəng edə”, - deyirəm.

Rəfiqəmin arxamca baxdığını bilsəm də, geri çevrilmədən oranı tərk edirəm. Evə gedəndə yolboyu tanrıya əcaib bir dua edirəm: “Yalvarıram, həqiqətən də mənə kələk gəlmək istədiyi doğru olsun”. Əgər belə deyilsə, 18.000 dollarlıq məbləğə rəğmən özünə hələ də

downloaded from KitabYurdu.org

torpaq tapa bilməyibsə, deməli, ciddi bir problemimiz var və bu qadının səfalətdən necə yaxa qurtara biləcəyi barədə təsəvvürüm yoxdur. Lakin əgər yalan deyibsə, deməli, bir ümid işığı var. Bu onun hiyləgər olduğunu və qanun-qaydasız dünyada hər bir vəziyyətdən çıxa biləcəyini göstərir.

Özümü pərişan hiss edərək, Felipenin yanma gedirəm. "Əgər Vayen arxasınca necə xain planlar qurduğumu bilsəydi..."

"Onun xoşbəxtliyi və yaxşılığı üçün çalışdığını bilsəydi", - deyə düzəliş edir.

Cəmi dörd saatdan sonra Felipenin ev telefonuna zəng gəlir. Zəng edən Vayendir. Təngnəfəsdir. Məsələnin həll olunduğunu bildirmək istəyir. Fermerdən ərazinin iki arosunu alıb (Birdən-birə fermerin "həyat yoldaşı" ərazini bölməyə
razılıq verib). Deməli, uğurlu yuxulara, rahiblərin müdaxiləsinə, taksulara ehtiyac yox imiş. Vayen artıq sənədi notariusda təsdiq etdirib. Həmçinin inşaat materiallarını artıq sifariş verdiyini, işçilərin gələn həftənin əvvəli, mən getmədən əvvəl tikintiyə başlayacaqlarını bildirir. Beləliklə, hər şeyin qaydasında olduğunu görə biləcəyəm. Ona qarşı hirsimin soyuduğuna ümid etdiyini deyir. Mənə qarşı sevgisinin öz bədəninə,

downloaded from KitabYurdu.org

həyatına, bütün dünyaya bəslədiyi sevgidən üstün olduğunu bildirir.

Mən də onu sevdiyimi deyirəm. Və bir gün onun gözəl evinə qonaq olmağı arzuladığımı əlavə edirəm. Torpağı aldığını bildirən sənədin bir surətini istədiyimi deyirəm.

Onunla sağollaşandan sonra Felipe, - “Yaxşı qız”, - deyir.

Məni, yoxsa Vayeni nəzərdə tutduğunu başa düşmürəm. Lakin bir şüşə şərab açıb əziz dostumuz, Balidə torpağı olan Vayenin şərəfinə qədəhləri qaldırırıq.

Sonra isə Felipe, - “Artıq bir yerdə tətilə çıxa bilərik? Xahiş edirəm”, - deyə soruşur.

107

İstirahət üçün getdiyimiz yer İndoneziya arxipelaqına daxil olan, Balinin Şərqindəki növbəti dayanacaq, Lombok sahilində Cili Meno adlı balaca bir ada idi. Cili Menoda əvvəllər olmuşdum və oranı heç vaxt görməyən Felipeyə göstərmək istəyirdim.

Cili Meno adası mənim üçün dünyadakı ən əhəmiyyətli yerlərdən biridir. İlk dəfə Baliyə gələndə bura təkcə səyahət etmişdim. Yoqa tətilləri haqqında yazdığım jurnalda işləyirdim və ikihəftəlik çox təsirli, möhkəmləndirici yoqa dərslərini yenicə başa çatdırmışdım. Təyinatımı alandan sonra Asiyada

downloaded from KitabYurdu.org

olduğuma görə İndoneziyada qalmaq müddətini artırmağa qərar verdim. Əslində isə məqsədim, sadəcə, uzaq bir yerdə tənhalıq və sükut içərisində on gün tərki-dünya yaşamaq idi.

Ailəmin dağılmağa başlaması ilə nəhayət boşanıb azad olduğum müddət arasındakı dörd ilə nəzər salanda, çəkdiyim ağrının ətraflı xronikasım görürəm. Və bu balaca adaya ilk dəfə
gələndə o qaranlıq səyahətin ən ağır dövründə idim. Əzabın zirvəsində və dibində idim. Bədbəxt zehnim şeytanların münaqişə etdiyi döyüş meydanına çevrilmişdi. Hər şeydən uzaq olan bu yerdə on gün səssiz, tək qalmağa qərar verəndə daxilimdə vuruşan və məyus hissələrə eyni şeyi dedim: "Hamımız indi burada bir yerdəyik, dostlar, tək-tənha. Və əvvəl-axır ya bir-birimizlə yola getməyi öyrənəcəyik, ya da hamımız birdən öləcəyik".

Möhkəm və sərbəst təsir bağışlaya bilər, amma bunu da etiraf etməliyəm: Həyatımda heç vaxt o sakit adaya təkcə üz tutanda qorxduğum kimi vahiməyə düşməmişdim. Fikrimi yayındırmaq üçün kitab belə götürməmişdim. Sadəcə, mən və zehnim boş bir yerdə üz-üzə gələcəkdik. Qıçlarımın açıq-aşkar titrədiyini xatırlayıram. Sonra qurumun ən çox sevdiyim

downloaded from KitabYurdu.org

fikirlərindən birini öz-özümə təkrarladım: “Qorxu? Kimə lazımdır?” və təkcə yuxarı çıxdım.

Günü cəmi bir neçə dollara başa gələn sahildəki komalardan birini kirayə götürdüm. Ağzımı yumdum və daxilimdə nə isə dəyişənə qədər açmamağa qərar verdim.
Cili

Meno adası ən önəmli həqiqətimlə barışdığım yer idi. Bunun üçün doğru yeri seçmişdim, bu aydın idi. Ada balaca, qədim, qumlu idi. Mavi dəniz və palmalarla əhatə olunmuşdu. Ətrafında dövrə vurmaq üçün cəmi bir yol var və hər yeri bir saata gəzmək olur. Demək olar ki, ekvatorda yerləşir və ona görə də gecə-gündüz dövrələrində dəyişiklik olmur. İlin hər günü səhər saat 6:30-da günəş adanın bir tərəfində doğulur, hər axşam ıı8:30-da isə adanın digər tərəfində batırdı. Adanın yerli sakinləri bir ovuc müsəlman balıqçı ailəsindən ibarətdir. Adada elə bir yer yoxdur ki, okeanın səsi eşidilməsin. Mühərriklə işləyən heç bir nəqliyyat vasitəsi yoxdur. Elektrik axşamlar cəmi bir neçə saat generatorla verilir. Bu günə qədər gördüyüm ən sakit yer idi.

Hər səhər günəş doğanda və batanda adanın ətrafında gəzirdim. Qalan vaxtı da oturub tamaşa etməklə keçirirdim. Fikirlərimə, duyğulanma, balıqçılara göz gəzdirirdim. Yoqa müdrikləri deyirlər ki, insan

downloaded from KitabYurdu.org

həyatındakı ağrılara və sevinclərə sözlər səbəb olur. Təcrübələrimizi ifadə etmək üçün sözlər yaradmq və o kəlmələr xaltaya bağlı it kimi bizi dartan, özlərinə bağlayan hisslər gətirirlər. Dualarımız ilə özümüzü yoldan çıxarır (Mən uğursuzam. Mən təkəm. Mən uğursuzam. Mən təkəm), və onlann abidələrinə çevrilirik. Bir müddət susmaq sözlərin gücündən uzaqlaşmağa, özümüzü onlarla boğmağı dayandırmağa, boğucu dualarımızdan azad olmağa cəhd etməkdir.

Əsl sükuta qərq olmağım bir az vaxt apardı. Danışmağı özümə qadağan etməyimə rəğmən hələ də mızıldayırdım. Danışıq üzvlərim və əzələlərim: beynim, boğazım, çənəm, boynumun arxası səs çıxartmağı dayandırandan sonra vibrasiya etməyə başladılar. Eynilə üzgüçülük hovuzuna məktəblilər gəlib gedəndən sonra da davam edən hay-küy kimi, beynimdə sözlərin əks-sədaları ucalırdı. Beynimin içində dayanmadan dövr edən səslərin, döyüntülərin kəsilməsi təəccüblü dərəcədə uzun çəkdi. Təxminən üç günə başa gəldi.

Sonra hər şey getdikcə aydınlaşmağa başladı. Səssizliyə qərq olanda nifrət, qorxu ilə dolu olan hər şeyin boş zehnimə ilişməsi üçün yer var idi. Özümü zəhər qəbul edəndən sonra əzab içində qıvrılan xəstəxanadakı bir narkoman kimi hiss

downloaded from KitabYurdu.org

edirdim. Çox ağladım. Dua etdim. Bu çətin idi və qorxurdum, amma bircə şeyi bilirdim: orada olduğuma peşman deyildim və kiminsə yanımda olmağını qətiyyən arzulamırdım. Bunu tək etməli olduğumu bilirdim.

Adadakı digər turistlərin hamısı romantik bir istirahətə çıxan bir ovuc cütlük idi (Cili Meno bir şəxsin tək ziyarət etməsi üçün həddindən artıq qəşəng və uzaqdır). O cütlükləri müşahidə edirdim və hərdən onların romantikasına paxıllığım tuturdu, amma bilirdim ki, "Bu münasibət üçün uyğun vaxt deyil, Liz. Burada görməli olduğun başqa bir işin var".

Hamıdan uzaq gəzirdim. Adadakılar da məni narahat etmirdilər. Deyəsən, ətrafa insanlan vahiməyə salan bir enerji yayırdım. Bütün il boyu özümü yaxşı hiss etməmişdim. Bu qədər çox yuxusuz qalandan, ağlayandan, anqlayandan sonra yəqin ki, dəliyə oxşayırdım. Ona görə də heç kim mənimlə ünsiyyət qurmurdu.

Əslində, bu tam doğru deyil. Bir nəfərlə hər gün danışırdıq. Söhbət sahil boyu ora-bura qaçıb turistlərə təzə meyvə satmağa çalışan uşaqlann birindən gedir. Təxminən doqquz yaşı olan bu

uşaq dəstəbaşına oxşayırdı. Sərt və kobud idi. Əgər adada küçə olsaydı, onu küçə uşağı adlandırardım. Yəqin ki, o,

downloaded from KitabYurdu.org

çimərlik avarası idi. Hansısa yolla ingilis dilini çox yaxşı öyrənmişdi. Ehtimal ki, günəş vannası qəbul edən qərbliləri narahat edə-edə buna nail olmuşdu. Və indi bu uşağın hədəfində mən idim. Ondan başqa heç kim məndən kim olduğumu soruşmur, narahat etmirdi. Ancaq bu uşaq yorulmaq bilmədən hər gün çimərlikdə gəlib yanımda oturur və - "Niyə heç danışmırsan? Niyə bu qədər qəribəsən? Özünü tülkülüyə qoyma, bilirəm ki, eşidirsən. Nəyə görə həmişə təksən? Niyə heç suya girmirsən? Sevgilin haradadır? Problemin nədir?" - kimi suallar verirdi.

Mən isə sanki, - "Geri çəkil, ay uşaq! Kimsən sən? Ən pis fikirlərimin toplusu?" - deyirdim.

Hər gün ona mehribanlıqla gülümsəməyə çalışır, nəzakətli bir əl jesti ilə uzaqlaşmasını işarə edirdim. Lakin o məndən cavab almamış getmirdi. Və həmişə də cavab qopartmağa nail olurdu. Bir dəfə ona, - "Danışmıram, çünki lənətə gəlmiş mənəvi axtarışdayam! Balaca, murdar axmaq, indi rədd ol!" — deyə qışqırmağım yadımdadır.

Gülə-gülə qaçıb getdi. Hər gün cavabını alandan sonra gülə-gülə qaçıb gedirdi. O, çıxıb gedəndən sonra nəhayət mən də gülürdüm. Məni qıcıqlandıran bu uşaqdan həm qorxurdum, həm də onu səbirsizliklə gözləyirdim. Bu

downloaded from KitabYurdu.org

çətin səyahətimdə o, gülmək üçün verdiyim yeganə fasilə idi. Müqəddəs Antoni yazır ki, bir dəfə özünə qapanmaq üçün səhraya üz tutur və həm mələklərin, həm də şeytanların hücumuna məruz qalır. Bu tənhalıq dövründə bəzən şeytana oxşayan mələklər, bəzən də mələyə bənzəyən şeytanlarla da qarşılaşdığını deyir. Onları bir-birindən necə fərqləndirdiyini soruşanda isə, müqəddəs cavab verir ki, bunu ancaq həmin məxluq səni tək qoyub gedəndən sonra keçirdiyin hisslərə əsasən müəyyənləşdirə bilərsən. Əgər qorxursansa, deməli, gələn şeytan imiş. Lakin əgər yüngüllük, rahatlıq hiss edirsənsə, deməli, mələk səni ziyarət edib.

Zənnimcə, hər dəfə məni güldürən o uşağın nə olduğunu bilirəm.

Səssizliyimin doqquzuncu günündə axşam günəş batanda çimərlikdə meditasiya ilə məşğul olmağa başladım və gecəyə qədər davam etdim. Öz-özümə, - “Budur, Liz”, - dediyimi
xatırlayıram. “Bu sənin üçün fürsətdir. Sənə əzab verən hər şeyi göstər. Hamısını görməyimə icazə ver. Heç nəyi gizlətmə”. Bütün kədərli xatirələr, fikirlər bir-bir əllərini qaldırdılar və özlərini tanıtmaq üçün ayağa qalxdılar. Hər bir fikrə, əzaba nəzər yetirdim, mövcud olduğumu etiraf etdim və dəhşətli ağrılarım baş qaldırdı (Özümü onlardan

downloaded from KitabYurdu.org

qorumağa çalışmırdım). Sonra isə həmin ağrılara dedim ki, - “Yaxşı, sizi sevirəm. Sizi qəbul edirəm. Gəlin, girin ürəyimə. Qurtardı”. Həqiqətən də ağnnın bir canlı kimi ürəyimə daxil olduğunu hiss etdim. Sanki orada bir otaq var idi. Sonra, - “Növbəti kimdir?” - deyə soruşdum və başqa bir qəm üzə çıxdı. Ona baxdım, sınaqdan keçirdim, xeyir-dua verdim və ürəyimə dəvət etdim. Xatirələrlə dolu olan keçmişimdən rastıma çıxan bütün əzablan ürəyimə göndərdim. Ta ki hamısını qurtarana qədər...

Sonra zehnimə dedim: “İndi isə mənə qəzəbini göstər!” Həyatımın bütün qəzəbli hadisələri bir-bir özlərini göstərdilər. Hər bir ədalətsizlik, xəyanət, itki, hiddət. Hamısını gördüm və onların da mövcudluğu ilə razılaşdım. Hər bir qəzəb zərrəsini ilk dəfə olduğu kimi dərindən hiss etdim, sonra isə dedim: “İndi
ürəyimə gir. Orada dincələ bilərsən. Təhlükəsizdir. Qurtardı. Səni sevirəm”. Bu proses saatlarla davam etdi və mən bu əks qütblər arasında vurnuxdum. Bir anlıq qəzəbi tamamilə hiss edir, o, ürəyimə daxil olanda isə xoş bir sərinlik duyurdum. Sanki qəzəb bir qapıdan içəri girib yerə yıxılır, qardaşlarına qarşı çıxır və mübarizədən geri çəkilir.

Növbə ən çətin mərhələyə gəlib çatdı. “Mənə öz xəcalətini göstər!” - deyə zehnimə əmr etdim. Aman

downloaded from KitabYurdu.org

Allah, bundan sonra necə dəhşətlər gördüm. Bütün müvəffəqiyyətsizliklərimin, yalanlarımın, eqoistliyimin, qısqandığımın, təkəbbürümün aciz paradı baş verdi. Buna baxmayaraq hər birinə gözümü qırpmadan baxdım. "Ən pisini göstər!" - dedim. Onları ürəyimə göndərməyə çalışanda hər biri qapıda tərəddüd edirdi: "Yox, orada olmağımı istəməzsən. Nəyə gətirib çıxardığımı görmürsən?" Mən isə cavab verdim: "Sənin belə orada olmağını istəyirəm. Sən mənim bir hissəmsən. Orada dincələ bilərsən.
Hər şey qurtardı".

Bütün bunlar başa çatandan sonra bomboş idim. Artıq zehnimdə heç nə vuruşmurdu. Ürəyimə baxdım. Ən dəyərli
hissəmdə nə qədər boş yer qaldığına nəzər saldım. Gördüm ki, bütün qəm, qəzəb, rüsvayçılığı daxilində yerləşdirib onlan himayə edəndən sonra belə ürəyimin böyük bir hissəsi boşdur. Onun sevgisi sonsuzdur.

Onda başa düşdüm ki, tanrı hər birimizi nə qədər sevir, qəbul edir və kainatda bizim qorxu dolu zehnimizdən başqa heç bir cəhənnəm yoxdur. Əgər bircə sınmış və məhdud insan belə özünü tamamilə bağışlamağı, olduğu kimi qəbul etməyi bacarırsa, onda təsəvvür edin ki, əbədi rəhməti olan tanrı nələri bağışlaya

downloaded from KitabYurdu.org

bilər!

Eyni zamanda daxilimdəki bu sülhün müvəqqəti ola biləcəyini də nəzərə alırdım. Hələ tamamilə başa çatdırmamışdım. Qəzəb, kədər və xəcalət yavaş-yavaş sürünərək ürəyimdən çıxıb yenidən zehnimə qayıda bilərdi. Bütün həyatımı asta-asta və qətiyyətlə tamamilə dəyişib qurtarana qədər dəfələrlə onlarla mübarizə aparacağıma əmin idim. Bu çətin və yorucu olacaq. Lakin qaranlığa və sükuta qərq olan çimərlikdə ürəyim zehnimə belə dedi: "Səni sevirəm. Səni heç vaxt tərk etməyəcəyəm. Daim sənə qayğı göstərəcəyəm".

Ürəyimdən ucalan bu vədi ağzımla tutdum. Çimərlikdən qaldığım balaca daxmaya doğru gedəndə, onun dadma baxdım. Boş bir dəftər tapdım. Birinci səhifəni açdım və yalnız bundan sonra ağzımı açıb sözlərə azadlıq verdim. O sözlərin səssizliyi yarıb keçməsinə icazə verdim və qələmimə bu böyük bəyanatı ağ səhifəyə həkk etməyi tapşırdım:

"Səni sevirəm. Səni heç vaxt tərk etməyəcəyəm. Daim sənə qayğı göstərəcəyəm".

Gündəliyimə yazdığım ilk cümlələr bunlar idi və sonrakı iki il ərzində özümlə gəzdirib dönə-dönə baxdım. Həmişə kömək istədim. Nə qədər aciz olsam və qorxsam da mənə kömək etdi. Sevgi vədinə qucaq açan o dəftər

downloaded from KitabYurdu.org

həyatıma davam edə bilməyimin yeganə səbəbi oldu.

108

İndi isə tamamilə fərqli bir vəziyyətdə yenidən Cili Meno adasına gedirəm. Oradan qayıdandan sonra dünyanı gəzdim, boşandım, Deviddən ayrıldım, əhval-ruhiyyəmi dəyişdirən bütün dərmanlardan azad oldum, yeni bir dil öyrəndim, Hindistanda bir neçə unudulmaz dəqiqə ərzində tannnın ovcunun içində oturdum, indoneziyalı bir ara həkiminin yanında təlim keçdim və çətin vəziyyətdə olan bir ailəni evlə təmin etdim. Xoşbəxt, sağlam və balanslı vəziyyətdəyəm. Və əlbəttə ki, bu balaca, şirin tropik adaya braziliyalı sevgilimlə gəldiyimi xüsusi qeyd etməliyəm. Etiraf edirəm ki, bu hekayənin sonu evdar bir xanımın xəyallarındakı gülməli nağılın axınnı xatırladır (Bəlkə də mənim illər əvvəlki xəyallarımdan bir səhifədir). Yenə də, bu həqiqət məni nağılımın içində qeyb olmaqdan çəkindirir. Həyatımın son bir neçə ilində doğrudan da məni möhkəmləndirən bir həqiqət. Bir şahzadə tərəfindən xilas edilməmişəm. Özüm öz xilasımı hazırlamışam.

Fikirlərim bir vaxtlar oxuduğum bir məlumata, Zen buddistlərinin inandığı bir məsələyə yönəldi. Bir palıd ağacının eyni anda iki qüvvə tərəfindən yaradıldığını deyirlər. Əlbəttə ki, bunların başlanğıcı palıd qozası,

downloaded from KitabYurdu.org

vədləri və potensialı özündə ehtiva edən toxumdur. Hamı bunu görə bilər. Burada hökm edən başqa bir güc də var ki, onu hər kəs görə bilməz. Söhbət palıd qozası olmağı, toxumları boşluqdan cücərtməyi, kainatı, yoxluqdan təkamülə doğru bələdçilik edərək, mövcud olmağı dəlicə arzulayan ağacın özündən gedir. Ona görə də Zen buddistləri deyirlər ki, palıd qozasını yaradan palıd ağacıdır.

Son vaxtlarda çevrildiyim qadın, yaşadığım həyat, belə bir şəxsə çevrilib bu həyatı yaşamağı, olmadığım kimi görünməyə çalışıb özümü gülünc vəziyyətə salmaqdan qurtulmağı nə qədər çox istədiyim barədə fikirləşirəm. Bu nöqtəyə gəlib çatana qədər dözdüklərimi düşünürəm və həmin şəxsin mən olduğuma inana bilmirəm. Gənc, çılğın dövründə daim mübarizəyə can atan, əzab çəkən insan hazırda balaca İndoneziya balıqçı qayığında
xoşbəxt və rahat halda mürgüləyən şəxsdir? Cavan olanda mən yüksək potensialı olan palıd qozası idim və həmişə, - “Böyü! Dəyiş! İnkişaf et! Gəl və mənimlə burada, bütünlük və kamillikdə görüş! Mənim daxilimdə böyü!” - deyən, onsuz da mövcud olan palıd mən idim. Və bəlkə də dörd il əvvəl vanna otağında hönkürtü ilə ağlayan o cavan, ailəli qadının daxilində hərəkət edən də indiki,

downloaded from KitabYurdu.org

tamamilə hazır olan Liz idi. Bəlkə də ümidsiz qızın qulağına, - “Yerinə qayıt, yat, Liz!” - deyə nəvazişlə pıçıldayan da elə özüm idim. Hər şeyin yaxşı olacağını, nəticədə bizi birləşdirəcəyini əvvəlcədən bilən mən idim. Məhz burada, bu anda. Daim rahat və məmnun şəkildə gözlədiyim, o qızın gəlib mənə qoşulmağım istədiyim yerdə.

Sonra Felipe oyanır. Bütün günortanı bu indoneziyalı balıqçının qayığının göyərtəsində bir-birimizi qucaqlayıb mürgüləyərək keçirdik. Okean beşik kimi bizi yelləyir, günəş şəfəq saçırdı. Başımı onun sinəsinə qoyub uzanırdım. Felipe yuxuda ağlına bir fikir gəldiyini dedi: “Bilirsən, biznesimi burada davam etdirməliyəm və bu yer uşaqlarımın yaşadığı Avstraliyaya yaxın olduğuna görə həmişə Balidə yaşamalıyam.

Tez-tez Braziliyaya getməliyəm, çünki qiymətli daşlar orada çıxarılır və ailəm də oradadır. Sən isə əlbəttə ki, Amerikada olmalısan. İşin, dostların, ailən oradadır. Və fikirləşirdim ki, bir yerdə Amerika, Avstraliya, Braziliya və Bali arasında bölünmüş bir həyat qura bilərik”.

Gülməkdən başqa heç nə edə bilmədim. Niyə də yox?

Çılğın olsa da, mümkün idi. Belə bir həyat tərzi dəlilik kimi göründüyü üçün çoxlarını qorxudub sarsaqlıq təsiri bağışlaya bilər, amma mənə kifayət qədər uyğun

downloaded from KitabYurdu.org

görünürdü. Əlbəttə ki, ancaq bu yolla münasibətimizə davam edə bilərdik. Artıq doğmalaşmağa başlayırdı. Bu poetik ideya çox xoşuma gəlmişdi. Hərfi mənada nəzərdə tuturam. Bir il ərzində fərdi və cəsur "mən"i tədqiq edəndən sonra, Felipe mənə tamamilə yeni bir səyahət nəzəriyyəsi təklif edirdi:

Avstraliya, Amerika, Bali, Braziliya = A, A, B, B.

Klassik poema, bir cüt qafiyələnmiş beyt kimi.

Balaca balıqçı qayığı Cili Menonun sahilinə lövbər saldı.

Bu adada dok yoxdur. Şalvarımızın ətəyini qatlayıb qayıqdan tullanmalı və bütün gücümüzlə suda irəliləməliyik. İslanmadan

və ya mərcanlara çırpılmadan bunu etmək mümkün deyil, amma bu əziyyətə dəyər. Çünki buranın çimərliyi çox gözəl və xüsusidir. Beləliklə, mən və sevgilim ayaqqabılarımızı çıxartdıq, əşyalanmız olan balaca çantaları başımızın üstünə qaldırdıq və qayıqdan suya tullanmağa hazırlaşdıq.

Bu, çox məzəli idi. Felipenin bilmədiyi yeganə romantik dil italyan dilidir. Amma suya tullanmağa hazırlaşanda mən birinci addım atdım və ona dedim:

"Attraversiamo!"

"Gəl qarşı tərəfə keçək!"

Sonda

downloaded from KitabYurdu.org

Amerikaya qayıdandan bir neçə ay sonra sevdiklərimə baş çəkmək, Milad bayramı və yeni ili qeyd etmək üçün yenidən İndoneziyaya üz tutdum. Cənub-şərqi Asiya sunami fəlakətinə məruz qalandan iki saat sonra təyyarəm yerə endi. Dünyanın hər tərəfindən indoneziyalı dostlarımın taleyi üçün narahat olan tanışlarım mənimlə əlaqə yaratdılar. İnsanları ən çox narahat edən məsələ bu idi: "Vayen və Tutti yaxşıdırlar?" Xoşbəxtlikdən sunami Balinin heç bir yerinə təsir etməmişdi (Təbii ki, emosional təsiri nəzərə almasaq). Hamı sağ-salamat idi. Felipe hava limanında məni gözləyirdi (Həyatımız boyu dəfələrlə müxtəlif hava limanlannda baş verəcək görüşlərimizin birincisi idi). Ketut Liyer həmişəki kimi eyvanda oturub dərman hazırlayır, meditasiya ilə məşğul olurdu. Yudey bu yaxınlarda yaxşı bir oteldə gitara çalmağa başlamışdı və işləri pis getmirdi. Və Vayenin ailəsi təhlükəli sahil xəttindən uzaq
olan yeni, gözəl evlərində, yüksək çəltik tarlasında xoşbəxt yaşayırdı.

Bu evi ərsəyə gətirməkdə payı olan hər kəsə özüm və Vayenin adından minnətdarlığı və təşəkkürümü bildirmək istəyirəm:

Sakşi Andreozzi, Savitri Akselrod, Linda və Rene Barrera, Liza Bun, Suzan Bouen, Hari Brenner, Monika

downloaded from KitabYurdu.org

Berk və Karen Kudec, Sendi Karpenter, Devid Keşi, Enni Konnel (Yana Ayzenberq ilə bir yerdə son dəqiqə xilasında ustadırlar), Mayk və Mimi de Qray, Armenia de Oliveyra, Rayya Elias və Cici Madl, Suzan Freddi, Devin Fridman, Duayt Qarner və Kri Lefeyvor, Con və Kerol Gilbert, Meymi Hili, Enni Habbard və ağlasığmaz Harvi Şvardz, Bob Hughes, Suzan Kittenplan,
Maykl and Cil Nayt, Brayen və Linda Nopp, Debora Lopez, Deborah Lüpniç, Creyq Marks və Rene Ştaynke, Adam Makkey və Şira Piven, Coni və Cet Maylz, Şeril Moller, Con Mors və Ros Petersen, Ceyms və Ketrin Merdok (Nik və Miminin xeyir-duası ilə), Xose Nunes, Enn Palyarulo, Çarli Patton, Laura Platter, Peter Riçmond, Tobi və Beverli Robinson, Nina Bernstaynn Simmons, Stefani Somare, Natali Stendiford, Steysi Stirs, Darsi Ştaynke, Toreson bacıları (Nensi, Laura və Rebecca), Dafna Yuviller, Riçard Voqt, Piter və Cin Uorinqton, Kristen Vayner, Scot Vesterfeld və Castin Larbaleste, Bil Yi və Karen Zimet.

Sonda qeyd etmək istəyirəm ki, əziz Teri dayım və Debora xalama səyahətim ərzində mənə etdikləri bütün köməyin nə vaxtsa əvəzini verə biləcəyimə ümid edirəm. Bunu, sadəcə, “texniki dəstək” adlandırmaq onlann zəhmətinin dəyərini azaltmaq olardı. Üstündə gəzdiyim

downloaded from KitabYurdu.org

ipin altında bir şəbəkə hördülər. Onlar olmasaydı, bu kitabı yaza bilməzdim. Bunun qarşılığını necə qaytaracağımı bilmirəm.

Bəlkə də bu dünyada bizə kömək edən insanlara borcumuzu qaytarmağa çalışmaqdan imtina etməliyik. Nəticədə, insan alicənablığının möcüzəvi gücü qarşısında təslim olmaq və sonsuzadək, səmimiliklə səsimiz gəldiyi qədər təşəkkür etmək daha müdrikdir.

Müəllif barədə qeyd

Elizabet Gilbert "Səyyahlar" (PEN/Heminquey mükafatı finalçılarmdan biri) adlı qısa hekayələr toplusunun, "Sərt kişilər" romanının, qeyri-bədii janrdakı "Sonuncu amerikalı kişi" kitabının (Milli Kitab Mükafatı finalçısıdır və "New York Times" tərəfindən 2002Cİ ilin ən diqqətəlayiq kitabı təyin edilib) müəllifidir. O, iki dəfə xüsusi dəsti-xəttinə görə Milli Jurnal Mükafatı üçün namizəd seçildiyi "American GQ" jurnalında uzun müddət fəaliyyət göstərib. Hazırda Elizabet Gilbert Nyu Cersidə yaşayır.

"Ye, dua et, sev"-dən sonra nələr baş verdiyini öyrənmək istəyirsənsə, Elizabet Gilbertin yeni kitabını oxu...

QANUNİ NİKAH

BİRİNCİ FƏSİL Nikah və sürprizlər

Nikah dövlət tərəfindən təsdiq edilən dostluqdur.

downloaded from KitabYurdu.org

— Robert Luiz Stivenson

2006-cı ilin yayında, bir dəfə axşam Şimali Vyetnamın balaca bir kəndində hisə bürünmüş mətbəx masasının ətrafında, dillərini bilmədiyim bir neçə yerli qadınla əyləşib, onlara nikah barədə suallar verməyə çalışırdım.

Bura gəlməzdən əvvəl tezliklə ərim olacaq şəxslə bir neçə ay Cənub-Şərqi Asiya boyu gəzmişdik. Qəbul olunmuş ümumi qaydalara əsasən, ona adaxlı deməli olsaq da, heç birimiz bu sözü deməyi xoşlamırdıq. Ona görə də işlətmirdik.

Ümumiyyətlə desək, evlənmək ideyası ikimizi də narahat eləyirdi. Biz heç vaxt evlənməyi planlaşdırmamışdıq və bunu istəmirdik də. Lakin planlarımıza ilahi bir qüvvə müdaxilə elədi

və məhz buna görə də biz indi Vyetnam, Tayland, Laos, Kamboca və İndoneziyada sürətli və məqsədsiz halda gəzərkən, təcili, hətta çarəsiz halda Amerikaya qayıdıb evlənməyə səy göstərirdik.

İki ildən çoxdur ki, sevdiyim, dəyər verdiyim bu insanı kitab boyu Felipe adlandıracağam. Felipe bir neçə il öncə sınmış qəlbimi sağaltmaq üçün çıxdığım səyahət vaxtı tanış olduğum mehriban, nəvazişli, məndən on yeddi yaş böyük olan braziliyalı centlmendir. İllərdir öz yaralı ürəyini sağaltmaq üçün Balidə sakit və tək yaşayan

downloaded from KitabYurdu.org

Felipe ilə səyahətimin axırlarında tanış olmuşdum. Bunun ardınca bir-birimizi cəlb edən cazibə, sakit pərəstiş eləmələr və hər ikimizin təəccübünə rəğmən sevgi gəldi.

Nikaha qarşı müqavimət göstərməyimizin sevgimizə heç bir dəxli yoxdur. Əksinə, Felipe ilə mən bir-birimizi dəlicəsinə sevirdik. Sonsuzadək bir yerdə olacağımıza dair bir-birimizə hər cür vədlər verirdik. Hətta ömür boyu bir-birimizə sadiq qalacağımıza and içmişdik, lakin bu andiçmə yalnız bizim ikimizə məlumdu. Problem o idi ki, hər ikimiz pis nəticələnən
evliliyin qurbanı olmuşduq və mənfi təcrübələrimiz həyatımızı məhv edəndən sonra, bir-birimiz üçün yaradıldığımızı düşünsək də, yenidən ailə qurmaq fikri bizi dəhşətə salırdı.

Bir qayda olaraq, boşanmaların çoxu mənfi izlər qoyur (Rebeka Uest öz müşahidələrinə əsasən deyir ki, - “Boşanma vaxtı hiss edilən təəssüf dəyərli bir çini qab sınanda keçirdiyimiz hisslərə bənzəyir”) və bizim boşanmalarımız da istisna deyildi. Boşanma ilə bağlı keçirdiyim hissləri onballıq şkala ilə ölçsək (bir bal dostcasına ayrılmaqdır. On bal isə, nə az, nə çox özünəqəsd eləməkdir) böyük ehtimalla 7.5 bal toplayardım. İntihara və ya ərimi öldürməyə təşəbbüs göstərmədim, lakin bir vaxtlar bir-birini sevən, ortaq

downloaded from KitabYurdu.org

cəhətləri olan iki yaxşı tərbiyə görmüş şəxslərin iki ildən çox bir-biriylə mübarizə aparması heç də xoşagələn deyildi.

Felipenin avstraliyalı bir xanımla olan ilk nikahı biz Balidə tanış olmazdan on il əvvəl başa çatmışdı. Əvvəlcə boşanması bir o qədər təsir etməsə də, vaxt keçdikcə həyat yoldaşını, evini, uşaqlarını və iyirmiillik ortaq keçmişlərini itirmək Felipeyə
peşmanlıq, tənhalıq və maddi çətinliklərlə yanaşı uzunmüddətli kədər də bəxş etmişdi.

Təcrübələrimiz hər ikimizə borc, narahatlıq və qanuni nikaha qarşı şübhədən başqa heç nə qazandırmamışdı. Ayrılıq vadisində gəzmiş şəxslər olaraq Felipe ilə mən əzablı bir həqiqəti dərk etmişdik: Hər bir münasibətin dərinliklərində ilkin sevgi qığılcımları qalır və sonradan həyatı fəlakətə çevirir. Həmçinin evlənməyin boşanmaqdan daha asan olduğunu da öyrənmişdik. Hüquqi baxımdan bağlı olmadan davam edən münasibəti istənilən vaxt bitirmək olar. Ancaq məhkum olduğu rəsmi nikahdan xilas olmaq istəyən insanlar tezliklə kəşf edirlər ki, nikah müqaviləsinin əhəmiyyətli hissəsi dövlətə məxsusdur və dövlətin ayrılmağınıza icazə verməsi xeyli vaxt apara bilər. Beləliklə, aylar, hətta illər boyu özünü yanan binada tələyə düşüb qalmış kimi hiss edirsən.

downloaded from KitabYurdu.org

Əllərin hardasa yanan binanın zirzəmisində qandalla radiatora bağlanıb, xilas ola bilmirsən, getdikcə artan duman ciyərlərini zəbt edir və çarəsiz halda ölümü gözləyirsən...

Dediklərim xoşunuza gəlmədisə, bağışlayın.

Bu xoşagəlməz fikirləri sevgi hekayəmizin lap əvvəlində Felipe ilə aramızda bağladığımız qəribə müqavilənin səbəbini izah etmək üçün bölüşdüm. Hər ikimiz heç vaxt, heç bir halda evlənməməyə and içdik. Biz, hətta bir-birimizin bank hesabına müdaxilə etməməyə, işlərimizə qarışmamağa, hərənin öz borcuna cavabdeh olmasına və şəxsi əşyalarımıza toxunmamağa söz verdik. Bu vədlər sayəsində xoş, rahat bir münasibət qurmağa nail olduq. Bir çox cütlük üçün qorunmaq hissini nişanlanmaq bəxş etdiyi halda, evlənməyəcəyimizə dair verdiyimiz söz bizə yenidən sevmək üçün ehtiyacımız olan mənəvi gücü bəxş etdi. Və bu öhdəliyimiz - şüurlu halda rəsmi öhdəliklərdən məhrum edilmiş münasibətimiz - sayəsində möcüzəvi bir azadlığa qovuşduq. Sanki mükəmməl münasibətə aparan yolu tapmışdıq. Qarsia Markesin yazdığı kimi, - “Sevgini xatırladır, amma onun gətirdiyi xoşagəlməzliklərdən məhrumdur”.

Öz işimizlə məşğul olub bölüşdüyümüz həyatdan

downloaded from KitabYurdu.org

sonsuz zövq alaraq 2006-cı ilin yazma qədər gəlib çıxmışdıq.

Amerika Birləşmiş Ştatlarının Daxili Təhlükəsizlik Nazirliyi müdaxilə etməsəydi, sonsuza qədər xoşbəxt yaşayardıq.

* * *

Problem o idi ki, Felipe ilə bir çox oxşarlıqlarımız və ortaq cəhətlərimiz olsa da, milliyyətimiz eyni deyildi. Felipe Braziliyada doğulub, Avstraliya vətəndaşıdır və uzun müddət İndoneziyada yaşayıb. Mən isə səyahətlərdən qalan vaxtını çox vaxt Birləşmiş Ştatların Şərq sahilində keçirən bir amerikalıyam. Sevgimizin heç bir ölkəyə məxsus olmamasının problem yaradacağını hiss etsək də, bu bizi narahat etmirdi. Köhnə bir hekayədəki kimi: Balıqla quş bir-birlərinə vururlar, amma harada yaşayacaqlarına qərar verə bilmirlər. Bu dilemmanın həlli olaraq hər ikimiz çevik səyyah olduğumuza inanırdıq (Mən üzə bilən quşa, Felipe isə uçmağı bacaran balığa çevrilmişdi). Ona görə də münasibətimizin birinci ilini okeanlarda üzərək, qitələrin üzərindən uçaraq keçirdik.

Xoşbəxtlikdən heç bir yerdə daimi qalmadan da işimizi idarə edə bilirdik. Bir yazıçı kimi hara getsəm peşəmi də özümlə apara bilirdim. Zərgər və qiymətli daş

downloaded from KitabYurdu.org

idxalçısı olan və onlan Birləşmiş Ştatlarda satan Felipe isə həmişə səyahət etməli olurdu. Bizə qalan, sadəcə, koordinatlarımızı təyin etmək idi. Beləliklə, bəzən mən Baliyə gedirdim, hərdən də o, Amerikaya gəlirdi. Bir yerdə Braziliyaya gedir və ya Sidneydə görüşürdük. Mən Tennessi Universitetində müvəqqəti işləyəndə Noksvildə köhnə bir otel otağında bir neçə maraqlı ay da keçirmişdik (Yeri gəlmişkən, yeni başlayanlara bir-birlərinə nə dərəcədə uyğun olduqlarını yoxlamaq üçün bu cür yaşamaq variantını məsləhət görürəm).

Münasibətimiz kəsik-kəsik ritmdə, amma əsasən, bir yerdə davam edirdi. Şəxsi səviyyədə sabit və sakit axarda irəliləyirdi. Beynəlxalq reyslər isə çox bahalı idi. Bu ayrılıqlar psixoloji baxımdan da bizi narahat edirdi. Hər dəfə görüşəndə bir- birimizi yenidən tanımalı olurduq. Hər dəfə hava limanında onu gözləyəndə özümə, - "Görəsən, onu tanıyacağam? Bəs o məni tanıyacaqmı?" kimi suallar vermək məni təşvişə salırdı.

Bir il tamam olandan sonra daha sabit həyat tərzi həsrətində idik və Felipe böyük bir dəyişiklik etdi. Balidəki sakit, rahat evini tərk edərək mənimlə bir yerdə Filadelfiya yaxınlığında təzəlikcə kirayə qaldığım balaca evə köçdü.

Balini Filadelfiyanın ucqarına dəyişmək kiməsə qəribə

downloaded from KitabYurdu.org

seçim təsiri bağışlaya bilər, lakin Felipe tropiklərdə yaşamağın onu çoxdan bezdirdiyini deyirdi. Balidə yaşamaq çox sadə idi, o şikayətlənirdi: hər yeni gün əvvəlki günün xoşagəlməz və darıxdırıcı təkranydı. Hələ mənimlə tanış olmazdan əvvəl ordan getmək istəyirmiş. Heç vaxt cənnətdə yaşamayan bir şəxs üçün oradan bezməyin necə bir hiss olduğunu başa düşmək, yəqin ki, mümkün deyil (Bu fikir mənə çılğınlıq kimi gəlirdi). Uzun illər yaşadığı Balinin cənnət gözəlliyi Felipeyə hədsiz darıxdırıcı görünürdü. Onun Balidəki evinin qabağında, ilıq noyabr axşamında şərab içərək çəltik tarlalarının yuxansındakı ulduz dənizinə tamaşa etməyimizi heç vaxt unutmayacağam. Ətirli küləyin təsirilə palma ağacları yellənir, uzaqda, məbəddəki mərasimdən gələn səs eşidilirdi. Felipe mənə tərəf çevrildi, ah

çəkdi və qətiyyətlə dedi: “Buradan elə bezmişəm ki! Filadelfiyaya getməyi səbirsizliklə gözləyirəm”.

Beləliklə, çala-çuxur yolları ilə məşhur olan Filadelfiyaya üz tutduq!

Ümumiyyətlə, orda yaşamaq hər ikimizin xoşuna gəldi. Uzun illər öz yaxınlığı ilə xoşbəxtliyimdə böyük rolu olan bacımgilin yaxınlığında bir ev kirayə tutduq. İllər keçdikcə mən başa düşürdüm ki, xoşbəxt olmağım

downloaded from KitabYurdu.org

üçün onunla yanaşı yaşamalıyam və bu da həyata keçmişdi. Bir yerdə etdiyimiz səyahətlərdən sonra bütün çatışmazlıqlarına rəğmən sürətli, çoxmədəniyyətli, daim inkişaf edən, həddindən artıq ziddiyyətli, yaradıcı və canlı bir ölkədə - Amerikada yaşamaq özümüzü daha yaxşı hiss etməyimizə, hətta canlanmağımıza səbəb oldu.

Felipe ilə Filadelfiyada qərar tutduq və birgə təsərrüfatda ruhlandırıcı uğurla ilk, əsl addımlarımızı atmağa başladıq. O, zinət əşyalarını satır, mən isə elmi tədqiqat aparmağı tələb edən layihələrimi yazırdım. O yemək bişirir, mən həyətdəki otlan biçirdim. Hər dəfə birimiz tozsoranı işə salıb evi təmizləyirdik.

Ev işlərini böyük zövqlə bölüşür, qətiyyən şikayət etmirdik. Özümüzü iddialı, səmərəli və nikbin hiss edirdik. Həyat gözəl idi.

Lakin bu kimi sabit vəziyyət heç vaxt uzun sürmür. Felipe viza məhdudiyyətlərinə görə Amerikada üç aydan artıq qala bilmirdi. Ona görə də xaricə gedib qayıtmalı idi. Beləliklə o, hər dəfə başqa bir ölkəyə gedir, mən də kitablarım və qonşularında birlikdə qalır, səbirsizliklə onun qayıtmasını gözləməli olurdum. Bir neçə həftədən sonra doxsangünlük təzə viza ilə qayıdırdı və birgə həyatımıza qaldığımız yerdən davam edirdik. İkimiz də uzunmüddətli münasibətə ehtiyatla yanaşdığımıza görə

downloaded from KitabYurdu.org

doxsan gün bir yerdə olmaq bizim üçün ən ideal variant idi. Doxsan gün bu iki ürkək boşanma qurbanının hədə-qorxu hiss etmədən idarə edə biləcəyi həssas bir gələcək planlaşdırma dövrü idi. Bəzən cədvəlimə uyğun gələndə, mən də onun viza vaxtını uzatmaq üçün çıxdığı səfərə qoşulurdum.

Bir dəfə yenə belə səyahətlərin birindən Amerikaya qayıdırdıq. Biletimiz ucuz olduğuna görə Dallas/Fort Worth Beynəlxalq hava limanında reysi dəyişməli olduğumuz üçün
təyyarədən endik. Mən ölkəsinə qayıdan Amerika vətəndaşlarının olduğu cərgənin arasında irəliləyib asanlıqla yoxlamadan keçdim. Bir kənarda dayanıb xarici vətəndaşların olduğu uzun sıranın ortasında dayanan Felipeni gözləməyə başladım. O, immiqrasiya rəsmisinə yaxınlaşan kimi məmur onun qalın Avstraliya pasportundakı hər bir səhifəni, işarəni, holoqramı diqqətlə nəzərdən keçirdi. Proses, adətən bu qədər uzanmadığına görə getdikcə narahat olmağa başlayırdım. Onlara baxır, qulaq asır və giriş möhürünün vurulmasını gözləyirdim. Amma bu baş vermədi.

Bunun əvəzinə immiqrasiya rəsmisi telefonu götürüb harasa qısaca danışdı. Çox keçmədən Birləşmiş Ştatlar Daxili Təhlükəsizlik Nazirliyinin formasındakı bir məmur

downloaded from KitabYurdu.org

gəldi və sevgilimi apardı.

* * *

Dallas hava limanında rəsmi geyimli şəxslər Felipeni altı saat sorğu-suala tutdular. Altı saat onu görmək, sual vermək mənə
qadağan edildi. Orada dünyanın müxtəlif yerlərindən gələn, hamısı bizim kimi qorxu ilə gözləyən insanlarla dolu, fluoressensiya ilə işıqlandırılan gözləmə otağında oturdum. Felipeyə nə sual verdiklərindən və ya nə etdiklərindən xəbərim yox idi. Onun heç bir qayda pozuntusuna yol vermədiyini bilirdim, amma bu mənə rahatlıq gətirmirdi. Kiçik Corc Buşun Prezident Administrasiyasının son illəri idi: Xaricdə doğulan sevgilinizin dövlət rəsmiləri tərəfindən aparılması üçün heç də xoşagələn illər deyildi. On dördüncü əsr mistiklərindən Culiana Norviçin duası ilə özümü sakitləşdirməyə çalışır, amma bu duanın bircə kəlməsinə belə inanmırdım ("Hər şey yaxşı olacaq. Hər şey yaxşı olacaq. Hər şey qaydasına düşəcək"). Heç nə qaydasında deyildi.

Hərdənbir oturduğum plastik oturacaqdan qalxıb güllə keçirməyən şüşənin arxasında əyləşən immiqrasiya məmurundan məlumat almağa cəhd edirdim. Ancaq hər dəfə eyni cavabla məni yola verirdi: "Xanım, sevgiliniz

downloaded from KitabYurdu.org

barədə deyilməli sözümüz olsa, sizə məlumat verəcəyik".

Belə bir vəziyyət üçün ingilis dilində "sevgili" sözündən daha cılız səslənən bir ifadə, yəqin ki, yoxdur. Bu ifadəni işlədəndə məmurun üzündə yaranan alçaldıcı ifadə onun münasibətimizə əhəmiyyət vermədiyini nümayiş etdirirdi. Nəyə görə yer üzündə hansısa bir dövlət qulluqçusu münasibətimiz barədə heç nə bilmədiyi halda "sevgili" sözü ilə mənə ikrah edir? Ona vəziyyəti izah etmək istəyirəm: "Qulaq asm! Qapılar arxasında saxladığınız o adamın mənim üçün nə qədər önəmli olduğunu təsəvvür belə edə bilməzsiniz!" Lakin narahat vəziyyətimlə yanaşı, bu izahımın da bir xeyri olmadı. Söhbəti uzatmağın Felipe üçün xoşagəlməz nəticələrə gətirib çıxara biləcəyindən qorxub, çarəsiz halda geri addım atdım. Yalnız sonra ağlıma gəldi ki, vəkilə zəng eləmək lazımdır. Amma telefonum yanımda deyildi və gözləmə otağındakı yerimi itirmək istəmirdim. Üstəlik Dallasda tanıdığım vəkil yox idi, bazar günü idi, axşam yaxınlaşırdı. Kimi tapa bilərdim ki?

Nəhayət, altı saatdan sonra bir məmur gəldi və məni apardı. Uzun dəhlizlərdən keçdikdən sonra Daxili Təhlükəsizlik rəsmilərinin Felipeni sorğu-suala tutduğu, balaca, zəif

işıqlandırılmış otağa çatdıq. Hər iki kişi yorğun

downloaded from KitabYurdu.org

görünürdü, amma onlardan yalnız biri mənə məxsus idi. Mənim əzizim, dünyada mənim üçün ən doğma sima! Onu bu vəziyyətdə görməyə dözə bilmirdim. Ona toxunmaq istədim, amma buna icazə verilmədiyini hiss etdiyimə görə elə yerimdəcə dayandım.

Felipe yorğun bir təbəssümlə mənə, - "Əzizim, bundan sonra həyatımız daha maraqlı olacaq", - dedi.

Mən cavab verməyə fürsət tapana qədər Felipeni dindirən məmur vəziyyəti izah etməyə başladı: "Xanım, - dedi, - sevgilinizin bir də Amerikaya buraxılmayacağım bildirmək üçün sizi bura çağırdıq. Avstraliyaya ilk uçuşa qədər onu burada saxlayacaq, sonra da geri qaytaracağıq. Gedəndən sonra bir də Amerikaya gələ bilməyəcək".

İlk reaksiyam fiziki oldu. Bədənimdəki bütün qan qəfildən buxarlandı və gözlərim bir anlıq qaraldı. Sonra fikrimi cəmlədim. Bu qəfil, ağır böhrandan çıxış yolu axtarmağa başladım. Felipe ilə tanış olmazdan çox əvvəl də o, dəfələrlə Amerikaya gəlib getmiş, qiymətli daş ticarəti ilə məşğul olmuşdu. Amerika həmişə belə beynəlxalq biznesmenlərə xoş
münasibət göstərirdi. Onlar ölkəyə mal, pul və ticarət gətirirlər. Qarşılığında da Felipe Amerikada möhkəmlənmişdi. Artıq yetkin şəxslər olan uşaqlarını Amerikadakı ticarətdən qazandığı gəlirlə Avstraliyadakı

downloaded from KitabYurdu.org

ən yaxşı özəl məktəblərdə oxutmuşdu.
Son vaxtlan çıxmaq şərtilə heç vaxt Amerikada məskən salmasa da, bura onun peşəkar həyatının mərkəzi idi. Avadanlıqları, bütün müqavilələri burada idi. Əgər bir də Amerikaya gələ bilməsə, həyatı tamamilə məhv olardı. Həmçinin burada yaşadığımı və Felipenin də yanımda olmaq istədiyini, mənim də ailəmi və işimi qoyub heç yerə gedə bilməyəcəyimi qeyd etməyə, yəqin ki, ehtiyac yoxdur. Felipe də ailəmin bir hissəsinə çevrilmişdi. Valideynlərim, bacım, dostlarım və mənim dünyama daxil olan hər kəs onu məmnuniyyətlə qəbul etmişdi. Əgər həmişəlik gediş-gəlişi qadağan edilsə, münasibətimizə necə davam edəcəyik? Nə edəcəyik? (Hindi qəbiləsi vintilərin kədərli sevgi nəğməsində deyildiyi kimi, - "Harda yatacağıq? Səmanın qucağında? Harda yatacağıq?")
"Onu hansı səbəblərə görə sürgün edirsiniz?" - Milli Təhlükəsizlik rəsmisinə amiranə səs tonu ilə sual verdim.

"Xanım, bu, sürgün deyil". Məndən fərqli olaraq məmur səsinin zabitəli çıxması üçün xüsusi səy göstərmirdi. Təbii səsi ilə cavab verdi: "Ötən il Amerikaya çox teztez gəldiyinə görə bundan sonrakı girişini qadağan edirik. Viza qaydalarını pozmayıb, amma onun gediş-gəliş vaxtlarma nəzər salanda görünür ki,

downloaded from KitabYurdu.org

Filadelfiyada üçaylıq dövrlər ərzində sizinlə yaşayır, sonra ölkədən çıxır və çox keçmədən geri qayıdırmış".

Dedikləri tamamilə doğru olduğuna görə mübahisə etmək mümkün deyildi.

"Bu cinayətdir?" - soruşuram.

"Tamamilə cinayət hesab etmək olmaz".

"Cinayətdir, ya yox?"

"Xeyr, xanım, bu cinayət deyil. Ona görə də onu həbs etmirik. Lakin Birləşmiş Ştatlar hökumətinin dost ölkələrə təklif etdiyi üçaylıq viza ard-arda istənilən qədər ölkəyə ziyarət edilə biləcəyini göstərmir".

"Amma biz bunu bilmirdik", - dedim.

Felipe müdaxilə edir: "Həqiqətən, cənab. Nyu Yorkda bir immiqrasiya əməkdaşı doxsangünlük viza limitimi doldurmamaq şərti ilə istədiyim qədər Amerikaya gəlib-gedə biləcəyimi demişdi".

"Bunu sizə kimin dediyini bilmirəm, amma doğru deyil".

Əməkdaşın sözləri mənə bir dəfə Felipenin beynəlxalq sərhəd keçid məntəqələri ilə bağlı dediklərini xatırlatdı: "Əzizim, heç nəyi önəmsiz hesab etmə. Yadında saxla ki, günlərin bir günü hər hansı bir səbəb ucbatından dünyadakı hansısa bir sərhəd nəzarətçisi səni içəri buraxmamağa qərar verə bilər".

downloaded from KitabYurdu.org

“Bizim vəziyyətimizdə olsaydınız, siz nə edərdiniz?” - deyə soruşdum.

Soyuq müştəri xidmətləri təmsilçisi və ya quru bir bürokratla çıxılmaz vəziyyətə düşəndə həmişə bu taktikadan istifadə edirdim. Cümləni bu qaydada dilə gətirmək bütün gücə sahib olan şəxsin bir anlıq dayanmasına və özünü zəifin yerinə qoymasına gətirib çıxarır. Bu, empatiyaya incə bir çağırışdır. Hərdən kömək edir. Lakin düzünü desəm, çox vaxt qətiyyən köməyi dəymir. Yenə də bəxtimi sınamalı idim.

“Əgər sevgiliniz yenidən Birləşmiş Ştatlara qayıtmaq istəyirsə, özünü daha yaxşı, daimi viza ilə təmin etməlidir. Yerinizdə olsaydım, onu bununla təmin edərdim”.

“Yaxşı. Onu daha yaxşı, daimi viza ilə təmin etməyin ən sürətli yolu nədir?” - soruşdum.

Daxili Təhlükəsizlik Nazirliyinin rəsmisi əvvəlcə Felipeyə, ardınca mənə nəzər saldı. Sonra yenidən Felipeyə tərəf çevrildi: “Sözün düzü, - dedi, - bunun üçün evlənməlisiniz”.

* * *

Ürəyim sanki parçalandı. Hətta səsi də eşidildi. Balaca otaqda Felipenin də mənimlə eyni vəziyyətdə olduğunu hiss etdim.

downloaded from KitabYurdu.org

Kənardan baxanda Təhlükəsizlik Nazirliyinin əməkdaşının təklifinin məni qəfildən yaxalaması qəribə görünə bilər. Biz hamımız yaşıl kart almaq üçün bağlanan nikahları əvvəllər də eşitmişdik. Problemin evlənməklə həll oluna biləcəyini öyrənmək mənə rahatlıq vermək əvəzinə, daha da gərginləşdirdi. Ən azından bizə seçim haqqı verildi, elə deyilmi?

Yenə də bu məsələ məni həm təəccübləndirdi, həm də qorxutdu. Evlənmək məsələsini beynimdən tamamilə silmişdim və indi onun ucadan dilə gətirilməsi belə məni şoka salırdı. Özümü kədərli, əzilmiş, ağır, varlığımın təməl nöqtələrindən məhrum edilmiş və hamısından da çox tələyə düşmüş kimi hiss edirdim. İkimiz də tələyə düşmüşdük. Uçan balıqla üzən quş tora düşmüşdülər. “Həyatımızı istədiyimiz kimi yaşaya bilərik”, - fikrinin axmaqlıqdan başqa bir şey olmadığı həqiqəti bir şillə kimi üzümüzə dəydi.

Sorğu-sual edən məmur bu ölüm sükunətini pozana qədər heç kəs danışmadı: “Bağışlayın, amma bu fikir sizi niyə belə narahat edir?”

Felipe eynəyini çıxartdı və gözlərini ovuşdurdu. Uzunmüddətli təcrübəmə əsasən, onun yorğunluqdan tükəndiyini hiss edirdim. Ah çəkdi və - “Eh, Tom, Tom, əgər sən bilsəydin...” - dedi.

downloaded from KitabYurdu.org

Bu ana qədər bir-birlərinə adlan ilə müraciət etdiklərinə fikir verməmişdim. Yəqin ki, altısaatlıq sorğu-sual aralarında
səmimiyyət yaratmışdı. Xüsusilə də söhbət Felipedən gedirsə, bu təəccüblü deyil.

“Doğrudan, problem nədir ki?” - Tom soruşdu. “Siz onsuz da bir yerdə yaşayırsınız. Bir-birinizi sevdiyiniz də göz qabağındadır, başqa heç kəslə də nikahda deyilsiniz...”

Felipe qabağa əyilib nəzakətli bir səs tonu ilə, - “Tom, sən başa düş, Liz və mən çox çətin boşanma mərhələlərindən keçmişik. Bu sadəcə... sadəcə, dəhşətli idi!” deyərək vəziyyətimizi izah etdi.

Tom, sadəcə, qısa, mülayim, səmimi bir “oh” deyə bildi. Sonra eynəyini çıxardıb gözlərini ovuşdurdu. Elə bu vaxt qeyri- iradi onun sol əlinin üçüncü barmağına nəzər saldım. Üzük yox idi. Əlinin boş olmasına və refleks kimi göstərdiyi mərhəmətli reaksiyasına əsasən diaqnoz qoydum: Boşanıb.

Burada söhbətimiz qəribə bir vəziyyət aldı.

“Evlənmədən əvvəl müqavilə bağlaya bilərsiniz”, - Tom təklif etdi. “Əgər sizi narahat edən yenidən boşanma baş verərsə maliyyə məsələlərinin necə olacağıdırsa, bu yaxşı çıxış yoludur.

downloaded from KitabYurdu.org

Ya da münasibətinizdə problemlər varsa, bir mütəxəssislə məsləhətləşə bilərsiniz”.

Mən qulaq asır və heyrətlənirdim. Birləşmiş Ştatlar Daxili Təhlükəsizlik Nazirliyinin təmsilçisi bizə evliliklə bağlı məsləhətlər verirdi! İstintaq otağında! Dallas beynəlxalq hava limanında!

Fikrimi cəmləyib maraqlı bir çıxış yolu təklif etdim: “Məmur Tom, Felipe ilə evlənmək əvəzinə onu işçi kimi gətirə bilərəm? Həyat yoldaşım deyil, işçim kimi Amerikaya gələ bilər?

Felipe dərhal qarşılıq verdi: “Əzizim, necə də dəhşətli ideyadır!”

Məmur Tom hər ikimizə nəzər saldı. “Bu qadının həyat yoldaşın yox, müdirin olmağına razı olarsan?” - deyə Felipedən soruşdu.

“Aman Tannm, bəli!”

Tomun, - “Siz nə cür insanlarsınız?” - deyə soruşmaqdan özünü güclə saxladığını duyurdum. Bunu büruzə verməyəcək
qədər peşəkar idi. Boğazını arıtlayıb dedi: “Təəssüf ki, təklif etdiyiniz şey bu ölkədə qanuni deyil”.

Felipe ilə mən yenidən məzlum görkəm aldıq, əzablı, bədbin səssizliyə qərq olduq.

Bir müddət səssiz qalandan sonra, - “Yaxşı”, - məğlub

downloaded from KitabYurdu.org

halda dedim. “Bunları bir kənara qoyaq. Əgər Felipe ilə burada, sizin ofisinizdə indicə evlənsək onu bu gün ölkəyə buraxacaqsınız? Hava limanında bunu yerinə yetirə biləcək bir rahib var?

Həyatda elə anlar olur ki, adi bir insanın siması ilahi bir görkəm alır. Həmin vaxt baş verən də bu idi. Yorğun Tom kədərli halda gülümsədi, udqundu. Onun şəfqətli, mərhəmətli, kədərli təbbəssümü otağın ab-havasma uyğun gəlmirdi.

Qəfildən onun özü rahibə çevrilmişdi.

“Ah, yox”, - nəzakətlə dedi. “Təəssüf ki, işlər bu cür həll olunmur”.

İndi başa düşürəm ki, Tom bunu deyəndə Felipe ilə məni gözləyən çətinlikləri təsəvvür edirmiş. O, yaxşı bilirdi ki, belə bir “sərhəd qəzası”ndan sonra Birləşmiş Ştatların rəsmi nikah

vizasını almaq asan məsələ olmayacaq. Tom üzləşəcəyimiz problemləri əvvəlcədən bilirdi: Lazımi sənədləri təmin etmək üçün üç müxtəlif qitədən olan vəkillərə ehtiyac olacaqdı, Felipenin yaşadığı hər bir ölkədə federal polis onun barəsində hesabat verməliydi. Felipenin şəxsi məktubları, şəkilləri, barmaq izi, otuz beş il əvvəl qulluq etdiyi hərbi xidmət barədə arayış, peyvəndlər, vərəm yoxlanışı, bank hesablan barədə

downloaded from KitabYurdu.org

məlumatlar Amerika səfirliyinə təqdim edilməliydi. Ən dəhşətlisi isə odur ki, bütün bunlann kifayət edib-etməyəcəyini bilmirdik. Qızını hər şeydən qısqanan sərt, köhnə fikirli ata kimi hərəkət edən Amerika Birləşmiş Ştatlarının Felipeni həyat yoldaşım olmağa layiq görüb-görməyəcəyini bilmirdik.

Tom bunları çox yaxşı bilirdi və bu çətin vəziyyətdən çıxmağın asan olmadığından, xeyli vaxt aparacağından xəbərdar olduğuna görə yəqin ki, bizə yazığı gəlirdi. Həmin vaxta qədər heç vaxt özümü Daxili Təhlükəsizlik Nazirliyinin əməkdaşı kimi hiss etməmişdim və onun mehriban münasibəti vəziyyətimizin nə qədər qəribə olduğunu bir daha sübut edirdi. Qeyd etməliyəm ki, Tom bizə daha bir lütfkarlıq göstərdi
(Felipenin əllərini qandallayıb cinayətkarlarla dolu həbsxanaya aparmazdan əvvəl). Bizə bir jest etdi: Felipe ilə məni ikidəqiqəlik istintaq otağında tək qoydu və bir-birimizlə vidalaşmağımız üçün şərait yaratdı.

Dünyada ən çox sevdiyin insanla vidalaşmaq üçün cəmi iki dəqiqən varsa və bir də onu nə vaxt görəcəyini bilmirsənsə, hər şeyi bir dəfəyə demək, bu qısa vaxta sığışdırmaq istəyirsən. Otaqdakı iki dəqiqəmizi tələsik, cəld bir plan qurmağa sərf etdik. Mən Filadelfiyaya qayıdıram, kirayə qaldığımız evdəki əşyalarımızı evin

downloaded from KitabYurdu.org

zirzəmisinə qoyandan sonra oradan çıxıram, immiqrasiya üzrə vəkil tuturam və onu azad eləmək üçün hüquqi prosesə start verirəm. Əlbəttə, Felipe həbsə gedəcək, sonra da Avstraliyaya sürgün ediləcəkdi ("Sürgün" sözündən istifadə etdiyim üçün bağışlayın, amma bir insanın hansısa ölkədən istəmədən xaric edilməsinə başqa ad verə bilmirəm.). Felipe uzun müddətdi Avstraliyada yaşamırdı. Orada evi və ya maddi gəliri olmadığına görə yəqin ki, daha ucuz bir yerə getməli olacaqdı. Böyük ehtimalla, Cənub-Şərqi Asiyaya. Mən də buradakı işlərimi qaydaya salandan sonra onun yanma
gedəcəkdim və bu sonsuz prosesin başa çatmasını bir yerdə gözləyəcəkdik.

Felipe vəkilinin, artıq yetkin şəxslər olan uşaqlarının, iş ortaqlarının telefon nömrələrini yazdı. Beləliklə, hamını onun vəziyyətindən xəbərdar edə bilərdim. Mən isə əl çantamı boşaldıb həbsdə onun vəziyyətini rahatlaşdıra biləcək şeylər axtarırdım: saqqız, bütün pulum, bir şüşə su, bir yerdə şəklimiz, təyyarədə oxuduğum "İnsanların sevgi oyunu" adlı kitab.

Felipe gözləri yaşla dolmuş halda dedi: "Çox sağ ol ki, həyatıma gəldin. Nə olursa olsun, nə qərar verirsənsə ver, sadəcə, bunu bil ki, həyatımın ən gözəl iki ilini sənlə keçirtdim və heç vaxt səni unutmayacağam".

downloaded from KitabYurdu.org

Onun nə demək istədiyini qəfildən başa düşdüm: Aman Tanrım! Mənim onu tərk edə biləcəyimi düşünür! Felipenin reaksiyası məni həm təəccübləndirdi, həm də pis təsir etdi. Lakin hamısından çox utandırdı. Tom seçimləri deyəndən sonra Felipe ilə evlənməyib onu sürgündən xilas etməmək bir anlıq da olsa ağlımdan keçmədiyi halda, Felipe onu tərk
edəcəyimi fikirləşirdi. Həqiqətən qorxurdu ki, onu belə çarəsiz, tək, sınmış, kədərli halda qoyub gedəcəyəm. Doğrudanmı özüm haqqında belə fikir formalaşdırmışdım? İlk fırtınada özünü gəmidən atacaq sərnişinə bənzəyirdim? Felipenin qorxulan tamamilə əsassız idimi? Onun yerində olsaydım, sevgilimin sədaqətinə, mənim üçün hər şeyi qurban verməyə hazır olmasına bircə an belə şübhə etməzdim. O mənə eyni dərəcədə inanmırdı?

Etiraf edirəm ki, belə bir vəziyyətə on-on beş il əvvəl düşsəydim, çətin vəziyyətdəki sevgilimə zamin durub onu xilas eləmək əvəzinə, onu tərk edərdim. Utanaraq boynuma alıram ki, cavanlıqda qürurlu, vəfasız, düşüncəsiz hərəkət edirdim. Ancaq yaş artdıqca xarakterim də inkişaf edir. Bir yerdə keçirəcəyimiz cəmi bir dəqiqə qalanda heyran olduğum bu adam üçün doğru olan yeganə hərəkəti etdim. Qulağına əyilib onu heç vaxt

downloaded from KitabYurdu.org

tərk etməyəcəyimə, Amerikada vəziyyəti qaydaya sala bilməsək belə onunla dünyanın istənilən yerində yaşamağa hazır olduğuma and içdim.

Tom qayıdıb gəldi.

Son anda Felipe pıçıldadı: “Səni çox sevirəm. Hətta sənlə evlənməyə də hazıram!”

“Mən də səni çox sevirəm və hətta sənlə evlənməyə hazıram!” - deyə cavab verdim.

Sonra mehriban Daxili Təhlükəsizlik Nazirliyinin əməkdaşları bizi ayırdılar, Felipenin əllərini qandalladılar və apardılar - əvvəlcə həbsə, sonra isə “sürgün’ə.

* * *

Həmin axşam təyyarə ilə Filadelfiyadakı artıq balaca cənnət olmayan evimizə tək qayıdanda verdiyim söz barədə daha dərindən düşünürdüm. Öz təəccübümə rəğmən nə ağlamaq, nə də hay-küy salmaq istəmirdim. Vəziyyət ciddi olmağı tələb etdiyinə görə fikrimi cəmləməyə çalışırdım. Bir neçə saat ərzində Felipe ilə həyatımız sanki iri bir meteorit tərəfindən alt- üst edilmişdi. Və sanki onunla nişanlanmışdıq. Gözlənilməz və qəribə bir nişan mərasimi idi. Özümü Ostinin deyil, Kafkanın

qəhrəmanlanndan biri kimi hiss edirdim. Yenə də nişanımız kifayət qədər rəsmi idi.

downloaded from KitabYurdu.org

Çox gözəl. Belə də olmalıdır. Yəqin ki ailəmin tarixində ciddi bir vəziyyətlə üzləşdiyinə görə evlənmək məcburiyyətində qalan yeganə qadın mən deyiləm. Lakin mənim nikahımın səbəbi təsadüfi hamiləlik deyil. Hələ də resept eynidir: evlənmək və bunu cəld eləmək! Etməli olduğumuz bu idi. Ancaq gecə təyyarə ilə Filadelfiyaya tək qayıdanda əsl problemi müəyyən etdim: mənim nikahın nə olduğu barədə heç bir anlayışım yox idi.

Artıq bu səhvi həyatımda bir dəfə etmişəm - nikah barədə heç bir məlumatım olmadan evlənmişəm. Faktiki olaraq, Labrador hovuza tullanan kimi iyirmi beş yaşım tamam olmamış ilk nikahıma "tullandım". Halbuki bunun üçün daha çox hazırlaşmaq və tədbirli olmaq lazım idi. Lakin iyirmi beş yaşım olanda nəinki gələcəyimə, hətta diş məcunumu belə seçməyə məsuliyyətsiz yanaşırdım. Bu cür qayğısız yaşamağım mənə baha başa gəldi. Altı il bunun fəsadlarını ödəyəndən sonra kədərli bir boşanma ilə yekunlaşdı.

Keçmişə, ilk toy günümə nəzər salanda Riçard Aldinqtonun "Qəhrəmanın ölümü" romanını xatırlayıram. O, əsərdəki gənc sevgililərin nikahının uğursuz olduğunu deyirdi: "Corc Oqastes və İzabelin ölüm onları ayıranadək bir yerdə olacaqlanna and içmələri necə böyük cəhalətdir". Mən də bir vaxtlar Aldinqtonun

downloaded from KitabYurdu.org

sadəlövh gəlini İzabel kimi idim. Müəllif yazırdı: “O, demək olar ki, insan üçün vacib olan biliklər silsiləsinə aid heç nəyi bilmirdi. Onun nəyi bildiyini tapmaq çətin məsələ idi”.

Artıq otuz yeddi yaşım var idi və o dövrə nisbətən daha az sadəlövh idim, amma evlilik barədə o vaxtkından artıq bildiyimə əmin deyildim. Nikahım iflasa uğradığına görə yenidən ailə qurmaqdan qorxurdum, ancaq bu təcrübə məni evlənmək üzrə mütəxəssisə çevirməmişdi. Bu təcrübə məni ancaq uğursuzluq, dəhşət üzrə mütəxəssisə çevirmişdi və bu sahələr üzrə də kifayət qədər mütəxəssislər var idi. Tale həyatıma müdaxilə edərək məndən nikah tələb etmişdi. Və öz həyat təcrübələrimdən nəticə çıxardım ki, taleyin müdaxiləsi bəzən ünvana çatmağa və hətta qorxularımıza qalib gəlməyə
çağırış kimi qəbul oluna bilər. Əgər şərait səni həmişə zəhlən gedən və qorxduğun bir şeyi etməyə sövq edirsə, bu, inkişaf üçün maraqlı bir fürsətdir. Bunu başa düşmək üçün dahi olmaq lazım deyil.

Dallasdan yola düşən təyyarədə mənə yavaş-yavaş aydın olurdu ki, həyatım alt-üst olub. Sevgilim sürgün olunub, hər ikimiz evlənməyə məhkum edilmişik. Ona görə də bu vaxtı növbəti dəfə nikaha atılmazdan əvvəl

downloaded from KitabYurdu.org

onunla sülh bağlamağa sərf etməliydim. Bəlkə də Tannnın və bəşər tarixinin bu təəccüblü, mənfur, ziddiyyətli və hələ də inadla tab gətirən nikah anlayışına nəyə görə dözdüyü sirrini açmaq üçün səy göstərmək daha ağıllı olardı.

* * *

Belə də etdim. Növbəti on ay ərzində Felipe ilə sürgün həyatı yaşayanda və onu Amerikaya qaytarıb evlənə bilmək üçün it kimi ora-bura vurnuxanda bununla məşğul oldum (Tom bizə xəbərdarlıq etdi ki, Avstraliyada və ya dünyanın hər hansı
başqa bir yerində evlənsək, sadəcə, Daxili Təhlükəsizlik Nazirliyi qıcıqlanıb prosesi ləngidəcək). Düşündüyüm, oxuduğum, başqalan ilə müzakirə etdiyim yeganə mövzu evlənmək idi.

Filadelfiyada yaşayan bacımdan (yeri gəlmişkən əsl tarixçi olduğu məlum oldu) mənə nikah haqda bir neçə qutu kitab göndərməsini xahiş elədim. Felipe ilə harada qalsaq, oteldə otağıma çəkilib saatlarla Stefani Kuntz və Nensi kimi əvvəllər adlarını belə eşitmədiyim, lakin indi qəhrəmanlarıma, müəllimlərimə çevrilən görkəmli alimlərin nikah barədə fikirlərini oxuyurdum. Sözün düzü, bütün gün oxumağım məni pis turistə çevirmişdi. Bu aylar ərzində Felipe ilə bir çox gözəl və maraqlı

downloaded from KitabYurdu.org

yerlərdə olmuşduq, ancaq təəssüf ki, heç də həmişə ətrafa diqqətlə nəzər yetirmirdim. Həmin səyahət müddətində bir an da özümü qayğısız, rahat hiss etmirdim. Bu daha çox qovulmağa, didərgin düşməyə bənzəyirdi. Səyahət edirsən, çünki evə qayıda bilməzsən. Qanun sevgilini evinə buraxmırsa, bu gəzintidən necə zövq almaq olar?

Üstəlik, maddi vəziyyətimiz də yaxşı deyildi. "Ye, dua et, sev" bir ildən də qısa müddət ərzində bestseller olacaqdı. Ancaq bu xoş hadisə hələ baş verməmişdi. Felipenin artıq öz qazanc mənbəyindən tamamilə əli üzülmüşdü. Ona görə də axırıncı kitab müqaviləmin gəliri ilə yaşayırdıq və bununla daha nə qədər davam gətirəcəyimizi bilmirdim. Bir müddət davam edə bilərdi, amma həmişəlik yox. Son vaxtlarda yeni bir roman üzərində işləməyə başlamışdım, amma Felipenin deportasiyası tədqiqatımı və yazımı yarımçıq qoymuşdu. Beləliklə, iki kasıb adamın günə təxminən otuz dollar xərcləyərək dolana biləcəyi Cənub-Şərqi Asiyaya yollanmağa qərar verdik. Sürgün dövründə əzab çəkdiyimizi deməyəcəyəm (Aman Tanrım, biz əsl aclıq çəkən siyasi qaçqınlar idik!). Nəticənin qeyri-müəyyənliyi bu qəribə və gərgin vəziyyəti daha da çətinləşdirirdi.

Bir ilə yaxın Felipenin Avstraliyada, Sidneydəki ABŞ

downloaded from KitabYurdu.org

Konsulluğuna müsahibəyə çağırılmasını gözləyərək sürgün həyatı yaşadıq. Eyni zamanda tez-tez bir ölkədən digərinə üz tutmağımız bizi narahat çarpayıda rahat yatmaq üçün münasib vəziyyət axtaran yuxusuz cütlüyə bənzədirdi. Həqiqətən də bir
çox gecələrimiz qəribə və narahat çarpayılarda keçirdi. Qaranlıqla uzanıb nikahın münaqişə və zərərləri barədə fikirləşir, bu barədə oxuduğum məlumatlan öz süzgəcimdən keçirir, təsəlli verəcək nəticələr tapmaq ümidilə tarixi ələkvələk edirdim.

Burada qeyd etməliyəm ki, tədqiqatlarımı, əsasən, qərb tarixindəki nikah nümunələri ilə məhdudlaşdırmışam və ona görə də kitab bu mədəni məhdudiyyətləri əks etdirəcək.

İstənilən nikah tarixçisi və ya antropoloq kitabımda boşluqlar tapa bilər. Çünki bütün qitələri, bəşər tarixini tədqiq etməmişəm. Bəzi maraqlı, mühüm zifaf ənənələrinin üstündən keçdiyimi xatırlatmağa ehtiyac yoxdur (Məsələn: çoxarvadlılıq). Əlbəttə, yer üzündəki hər bir nikah adət-ənənəsini dərindən araşdırmaq mənim üçün daha xoş və maarifləndirici olardı, amma o qədər vaxtım yoxdur. Məsələn, təkcə islam aləmindəki nikah adət-ənənələrini tədqiq etmək mənə bir neçə ilə başa gələrdi və bu qədər geniş analiz etməyə çox vaxt tələb

downloaded from KitabYurdu.org

olunurdu. Həyat saatımın əqrəbləri çox sürətli hərəkət edirdi. Xoşuma gəlsə də, gəlməsə də, hazır olsam da, olmasam da, bir il ərzində
evlənməli idim. Bu halda diqqətimi ikinəfərlik qərb nikahına cəmləmək mənə miras qalan fərziyyələri, ailəmi, aid olduğum mədəni qrupu daha yaxşı anlamağa kömək edə bilərdi.

Tədqiqatlarımın daxilimdəki nikaha qarşı olan dərin ikrah hissini azaldacağına ümid edirdim. Bunun necə olacağı barədə fikrim yox idi, amma təcrübələrimə əsasən, bilirdim ki, nə qədər çox öyrənsəm, o qədər az qorxaram (Bəzi qorxulara, sadəcə, onların gizli adlarını üzə çıxarmaqla qalib gəlmək olar). Böyük gün gəlib taleyimi ağır və dəhşətli bir həb kimi udanda, Felipe ilə nikahımızı sevgi ilə bağnma basa bilmək üçün bir yol tapmağı hər şeydən çox istəyirdim. Məni köhnə fikirli adlandıra bilərsiniz, ancaq toy günümdə xoşbəxt olmaq istəyirdim. Şüurlu olaraq xoşbəxt...

Bu kitabda bunu necə bacardığımı danışacağam.

Və başlayır - bütün hekayələr haradasa başlamalıdır - Şimali Vyetnam dağlarında.

downloaded from KitabYurdu.org